# CƏNUBİ AZƏRBAYCAN TARİXİNİN OÇERKİ

(1828-1917)

I cild

Bakı – 2021

*Kitab Azərbaycan Milli Elmlər Akademiyası akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Elmi Şurasının 28.09.2021-ci il tarixli 06 saylı qərarı ilə çap olunmuşdur.*

**Redaksiya heyəti:** **S.Bayramzadə** *(məsul redaktor)*,
**Ş.Tağıyeva**,
**Ə.Rəhimli**,
**V.Mustafayev**.

**Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917), I cild**
Bakı: "Elm", 2021, – 416 s.

**ISBN 978-9952-495-95-8**

*Əsər Cənubi Azərbaycanın XIX-XX əsrin əvvəllərindəki sosial-iqtisadi, siyasi tarixini və mədəni inkişafını göstərir. Kitabda həm Cənubi Azərbaycanın ümumi vəziyyəti, həm də onun İranın sosial-iqtisadi və siyasi, eləcə də mədəni inkişafında mövqeyi əks olunur. Tədqiqat göstərmişdir ki, İranın iqtisadi cəhətdən ən inkişaf etmiş əyalətlərindən biri olan Cənubi Azərbaycan 1828-1917-ci illəri əhatə edən həmin dövrdə ölkənin iqtisadi, siyasi və mədəni həyatında çox mühüm rol oynamışdır. Təxminən XIX əsrin ikinci rübündən etibarən Avropa ölkələri və qismən də Rusiya ilə ticarət əlaqələrinin inkişafı ilə bağlı olaraq Cənubi Azərbaycanın mərkəzi Təbriz şəhəri İranın ticarət mərkəzinə çevrilir.*

*Kitabda bəhs olunan dövrdə Cənubi Azərbaycanın mədəni inkişafında Şimali Azərbaycanın oynadığı müstəsna rol qeyd edilir.*

*© AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun, 2021*

# MƏSUL REDAKTORDAN

Elmi işçilər, ali məktəblərin müəllim, tələbə heyəti və ümumiyyətlə, geniş oxucu kütləsi nəzərə alınaraq yazılmış bu əsər Cənubi Azərbaycanın tarixi inkişafının Türkmənçay sülh müqaviləsindən – Azərbaycanın iki yerə bölünməsindən başlayaraq qonşu dövlət olan Rusiyada bütün region, eləcə də bir sıra dünya dövlətlərinin və xalqlarının ictimai, iqtisadi və siyasi həyatının inkişafına əsaslı təsir göstərmiş Oktyabr sosialist inqilabının qələbəsinə qədərki bir dövrü əhatə edir. Kitabda bir çox sosial-mədəni proseslərin inkişafı baxımından geridə qalmış Cənubi Azərbaycanın sosial-iqtisadi, siyasi-mədəni vəziyyəti öz əksini tapmışdır. Bununla yanaşı, kitab öz oxucularını Cənubi Azərbaycanın qonşu ölkələrlə, xüsusilə o dövr üçün Şərqdə mütərəqqi rol oynayan Rusiya və onun tərkibində olmaqla daha əlverişli şəraitdə inkişaf edən Şimali Azərbaycanla iqtisadi-mədəni, inqilabi-siyasi əlaqələrinin gedişi ilə tanış edir.

Əsərin ayrı-ayrı fəsilləri aşağıdakı müəlliflər tərəfindən yazılmışdır: müqəddimə, I və II fəsillər – tarix elmləri doktoru Ş.Ə.Tağıyeva (I fəsildə “Sənətkarlıq”, II fəsildə “Sənayenin vəziyyəti”, “Şəhərlərdə ictimai vəziyyət” bölmələrinin yazılmasında tarix elmləri doktoru, prof. Z.Z.Abdullayevin, II fəsildə “İmperializmə qarşı ilk çıxış” bölməsinin hazırlanmasında tarix elmləri doktoru T. Ə.İbrahimovun (Şahinin) təqdim etdiyi mətnlərdən istifadə edilmişdir); III fəsil - tarix elmləri doktoru T.Ə.İbrahimov (Şahin) (“İran inqilabının ictimai-iqtisadi və siyasi zəmini” adlı hissənin yazılmasında tarix elmləri doktoru R.Ə.Seyidovun təqdim etdiyi mətndən istifadə edilmişdir); IV fəsil – Ş.Ə.Tağıyeva və tarix elmləri namizədi Ə.M.Həbibov (şəhər həyatına aid hissənin yazılmasında prof. Z.Z.Abdullayevin təqdim etdiyi mətndən də istifadə edilmişdir); V fəsil – giriş hissə, “Ədəbiyyat”ın giriş hissəsi və “Nəsr” – tarix elmləri namizədi O.S.Məlikov, “Şeir” – filologiya elmləri doktorları N.R.Məmmədzadə və Q.Kəndli, “Maarif” – tarix elmləri namizədi M.İ.Şəmsi, “Çap işi və mətbuat” – A.Z.Zunuzi, “İctimai-siyasi fikrin inkişafı” –

O.S.Məlikov (fəlsəfə elmləri doktorları Ə.M.Agahi və Ə. Əmin-zadənin təqdim etdikləri mətndən də istifadə edilmişdir). Redaktor adından verilən qeydlər mərhum professor Ş.Ə.Tağıyevaya aiddir.

Kitabın latın qrafikası ilə təkrar çapa hazırlanması ilə əlaqədar işləri S.Bayramzadə, Ə.Rəhimli (Bije), S.Talıblı, Y.Hacıyeva, H.Səfəri və Ş.Rüstəmova icra etmişlər.

Redaksiya heyəti əsərin təkrar nəşrində nəzərə alına biləcək tənqid və qeydlər üçün oxuculara əvvəlcədən minnətdarlığını bildirir.

## Cənubi Azərbaycana aid tədqiqatlar barədə bir neçə söz...

*(Ön söz əvəzi)*

Azərbaycan tarixinin tədqiqi, öyrənilməsi və tədrisində müəyyən problemlər hələ də mövcuddur. Bunların çoxlu sayda həm obyektiv və həm subyektiv səbəbləri vardır.

Bizim uzun illər göstəriş və qanunlarına əməl edərək yaşadığımız kommunist rejimi dövründə ictimai elmlər, xüsusilə də tarix elmi "yuxari"dan idarə edilir, həqiqəti yazmaq və əks etdirmək üçün göstərilən cəhdlər isə müəyyən təzyiqlərlə üzləşməli olurdu.

Xalqın taleyi və həqiqi tarixi yuxarıların hərəkət və fəaliyyəti ilə pərdələnir, ictimai araşdırma və tədqiqatlar, elm və fənlər şəxsiyyətlərin tərifinə həsr edilirdi. Bir qayda olaraq, dissertasiyalarda rəhbərlərin əsərlərinə istinadlar edilmədiyi təqdirdə, tədqiqitlar elmi şuralar tərəfindən müdafiəyə buraxılmırdı.

Azərbaycan tarixinin öyrənilməsini çətinləşdirən əsas amillərdən biri də Stalin və digər "xadimlər"in göstərişi ilə uzun illər və əsrlər boyu Azərbaycanda mövcud olmuş ərəb qrafikasının ləğvi idi. Ərəb qrafikasından latın əlifbasına keçid şərti olaraq mütərəqqi bir akt sayılsa belə, 10 ildən sonra yenidən latın əlifbası rus-kirill yazısı ilə əvəz edildi. Beləliklə, 10 il ərzində əlifbanın iki dəfə dəyişdirilməsi nəticəsində Azərbaycan xalqı süni və inzibati bir şəkildə öz tarixi, mədəniyyəti və ədəbiyyatını oxumaq, öyrənmək və tədqiq etmək imkanlarından məhrum edildi.

Bu cür faktların sırasını artırmaq olar, lakin yuxarıda qeyd edilənlərlə kifayətlənməklə demək lazımdır ki, bütün bunlar Azərbaycan tarixində həlli bu gün də aktual olan bir sıra problemli məsələlər yaratmışdır.

Bununla belə qeyd edilməlidir ki, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkəmizdə elmə, elmi-tədqiqat işlərinin məzmun və istiqamətinə xüsusi diqqət yetirilməyə, onun milli zəmin üzərində yenidən qurulması, inkişafı üçün ciddi və əsaslı zəmin yaradılmağa başladı. Bu proses bu gün də əzmlə davam etdirilir.

Ulu öndərimiz, ümummilli liderimiz H.Əliyevin 1994-cü ilin fevralın 22-dən 25-dək Böyük Britaniyaya ilk rəsmi səfəri zamanı yeni istiqlaliyyət qazanmış müstəqil Azərbaycanımıza milli qurur, güvənc və umid yeri kimi baxan Londondakı soydaşlarımız tərərfindən ikiyə bölünmüş ölkəmizin, millətimizin gələcək taleyi barədə sual verilərkən bildirmişdir ki, zaman gələcək, bölünmüş Vahid yenidən bütövləşəcəkdir!

2012-ci ilin əvvəllərində (25.01.2012) Goranboyda "N" saylı hərbi hissədə hərbçilərlə görüşündə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü barədə danışan ölkə prezidenti cənab İ.Əliyev də Azərbaycanı, onun xalqını ikiyə bölmüş "Gülüstan" (1813) və "Türkmənçay" (1828) müqavilələri barədə tarixi faktlara söykənərək qeyd etdi ki, Azərbaycanın ikiyə bölünməsini təsbit edən bu müqavilələrin imzalanmasından sonra ermənilərin Qafqaza, o sıradan İrəvana, Azərbaycana, Qarabağa köçürülməsi və yerləşdirilməsi bugünkü Dağlıq Qarabağın işğalını şərtləndirdi. Bununla belə prezident bildirdi ki, ədalət bərpa ediləcək və ərazi bütövlüyümüzü təmin etmək üçün də bütün imkanlarımız vardır! Bu çıxış ulu öndərin Böyük Britaniya səfəri zamanı millətimizə ərazi bütövlüyümüz, milli birliyimiz barədə verdiyi umidləri tamamladı. Belə ki, Ali Baş Komandanın beynəlxalq hüquqa, tarixi-siyasi amillərə və ölkəmizin iqtisadi-hərbi gücünə, xalqa söykənən siyasi iradəsi, əzmi və inamı Qarabağ probleminin ədalətli həllinə, 44 günlük Vətən müharibəsində Azərbaycanın şanlı qələbəsinə gətirib çıxardı və ərazi bütövlüyümüz bərpa edildi.

Bununla belə ideoloji sahədə düşmənlərlə mübarizəmiz davam etməkdədir. Bu şərtlər daxilində müasir tariximizə, xüsusilə Azərbaycanı və onun xalqını ikiyə bölən Türkmənçay müqaviləsinə, ondan sonrakı tarixə, onu doğuran və formalaşdıran sosial-iqtisadi və siyasi mühitə bir daha müraciət edilməsi, araşdırılması, tarixi hadisələrin, şəraitin yenidən təhlil edilib nəzərdən keçirilməsi alimlərimiz qarşısında bir vəzifə olaraq dayanır.

Xüsusilə son 10 il ərzində Azərbaycan, xüsusilə də dövlətçilik tariximizlə bağlı dərin və əsaslı tədqiqat işlərinin aparılması,

onların nəticələrinin bütün vasitələrlə işıqlandırılması və təbliği istiqamətində genişmiqyaslı işlər görülmüşdür. Tariximizin Səfəvilər, Əfşarlar hakimiyyəti dövrünə aid onlarla yeni yanaşma və məzmunda tədqiqat əsərləri işıq üzü görmüş, Türkmənçay və Gülüstan müqavilələri, onları doğuran tarixi şərait mötəbər mənbə və sənədlər əsasında bir daha nəzərdən keçirilərək xalqın müzakirəsinə verilmişdir. Azərbaycan xanlıqları, Azərbaycan Xalq Cümhuriyyəti, azərbaycanlılara qarşı həyata keçirilən soyqırım aktları barədə bir sıra elmi-tədqiqat əsərləri və sənədlər toplusu müxtəlif dillərdə çap edilərək dünya ictimaiyyətinin diqqətinə təqdim olunmuşdur.

Bu sırada AMEA tarix, şərqşünaslıq, fəlsəfə institutlarının və eləcə də AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Bakı Dövlət Universitetinin tarix və jurnalistika kimi fakültəri və digər ali təhsil ocaqlarında çalışan tədqiqatçı alimlərimizin xidmətləri diqqətəlayiqdir.

Fikrimizcə, Azərbaycan tarixi ilə məşğul olan tədqiqatçı və alimlər bu məsələyə ərazi baxımından yanaşılmamalı, Azərbaycanın həm şimalında və həm cənubunda məskunlaşmış xalqın tarixini hərtərəfli və əsaslı şəkildə öyrənilməlidir.

Bu gün İran İslam Respublikasında 32-35 mln. nəfər arasında Azərbaycan türkü (azərbaycanlı) yaşamaqdadırlar. Onlar ölkənin müvafiq sahələr üzrə idarəçiliyində, onun ərazi bütövlüyü və sərhədlərinin qorunmasında fəal iştirak etməklə yanaşı, ölkənin daxili və xarici siyasətinə, o cümlədən Azərbaycan Respublikası ilə iqtisadi-ticari və ədəbi-mədəni əlaqələrin inkişafına ciddi təsir göstərmək gücünə də malikdirlər. Sözügedən əlaqələrin öyrənilməsi və eyni zamanda möhkəmləndirilməsi işində ilk ciddi addımlar ulu öndər Heydər Əliyev tərəfindən atılmışdır. Onun israrlı təşəbbüsləri nəticəsində hələ sovet dönəmində Cənubi Azərbaycan tarixi, ədəbiyyatı və mədəniyyətinin öyrənilməsi və tədqiqi üçün böyük imkanlar açılmış oldu.

Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun mövcud olduğu uzun illər ərzində

Cənubi Azərbaycan problemləri, əsasən, İran tarixi və iqtisadiyyatı şöbəsi daxilində öyrənilmişdir. Cənubi Azərbaycanla bağlı tədqiqatlarda 1941-1946-cı illər milli-azadlıq hərəkatı, xüsusən də Azərbaycan Milli Hökumətinin yaranması, onun müxtəlif sahələr və istiqamətlər üzrə fəaliyyəti, həmçinin həmin dövrdə meydana gəlmiş müxtəlif ictimai-siyasi təşkilatların işi, Azərbaycanda mövcud olan mədəni və mənəvi həyat geniş şəkildə araşdırılmış, hərəkatın meydana gəlmə səbəbləri, hərəkatverici qüvvələri, məğlubiyyət səbəbləri əsaslı şəkildə öyrənilmişdir.

1976-cı ildən sonra isə Cənubi Azərbaycanın tarixi, o cümlədən Azərbaycan məsələsi Azərbaycan Milli Elmlər Akademiyasının akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun elmi strukturunda yaradılan Cənubi Azərbaycan tarixi şöbəsi tərəfindən daha ardıcıl və sistemli bir şəkildə öyrənilir. Cənubi Azərbaycan şöbəsinin yaranmasından keçən tarixi dövr ərzində onlarla tədqiqat işləri icra edilmiş, onların nəticəsi olaraq müvafiq toplu və monoqrafiyalar çap edilmişdir.

Həmin sırada Ş.Ə.Tağıyevanın məsul redaktorluğu ilə Bakıda “Elm” nəşriyyatında 1985-ci ildə kiril əlifbası ilə çap olunmuş “Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917)” kitabı oxucu və müvafiq sahələrin tədqiqatçıları üçün günümüzdə də qiymətli və dəyərli mənbə rolunu oynamaqdadır. Kitabda göstərilən dövr üzrə Cənubi Azərbaycanın sosial-iqtisadi, siyasi-mədəni vəziyyəti, onun Şimalı Azərbaycan ilə iqtisadi-mədəni və inqilabi-siyasi əlaqələrinin gedişi öz əksini tapmışdır. Kitabın ayrı-ayrı fəsilləri Ş.Ə.Tağıyeva, T.Ə.İbrahimov, Ə.M.Həbibov O.S.Məlikov, N.R.Məmmədzadə, Q.Kəndli, M.İ.Şəmsi və A.Z.Zunuzi kimi tanınmış alimlərimiz tərəfindən yazılmış və bu zaman tədqiqatın daha dərindən və hərtərəfli araşdırılması, dəqiq elmi nəticələrin əldə edilməsi məqsədilə Azərbaycanın görkəmli tarixçi-şərqşünas alimləri Z.Z.Abdullayev, R.Ə.Seyidov, Ə.M.Agahi və Ə.Əminzadənin təqdim etdikləri müvafiq materiallardan istifadə edilmişdir.

Kitabda qeyd edilir ki, İranda ənənəvi olaraq feodal millətçiliyi olmamış, həm İran, həm də Azərbaycanda ictimai-siyasi fikrin inkişafında milli məsələyə zəif diqqət yetirilmiş, həm farslar,

həm də azərbaycanlılar vahid millət ideyasından çıxış etmişlər.[1] Oçerkin əhatə etdiyi tarixi dövr (1828-1917) ərzində İranda hakimiyyət türk (Azərbaycan) əsilli Qacar tayfasınının əlində və ordunun əsas hissəsi azərbaycanlılardan təşkil olunmuş olsa da, inzibati-ərazi bölgüsünə görə ölkənin ən böyük əyalətlərindən biri olan Azərbaycanda cəmiyyətin əsas təbəqəsi olan kəndlilər hakim təbəqələr tərəfindən amansızcasına istismar olunurdular.[2]

Kitabda Azərbaycan mədəniyyəti sahəsində baş verən dəyişikliklər, xüsusilə 1905-1911-ci illər İran Məşrutə inqilabı dövründə teatr və mətbuat sahəsində əldə olunmuş uğurlar geniş şəkildə şərh olunur. Qeyd olunur ki, mədəniyyət sahəsində baş verən bu canlanma müvəqqəti xarakter daşısa da, "vətənpərvər azərbaycanlılar içərisində onların ümummilli, mədəni və etnik vəhdəti haqqında fikir yetişir, özünə getdikcə daha geniş yol tapır, cənubi azərbaycanlılar bir millət kimi təşəkkül etməyə başlayırdılar".[3]

Kitab Cənubi Azərbaycan tarixini öyrənmək baxımından ilkin mənbə rolunu oynadığı üçün çox faydalıdır. Əsər səlis dildə, zəngin mənbə və ədəbiyyat əsasında yazılıb.

İnstitutun elmi şurası kitabın yuxarıda qeyd olunan məziyyətlərini, müvafiq sahələr üzrə mütəxəssislərin, alim və tədqiqatçıların tariximizin hələ də tam araşdırılmamış cənub qoluna olan marağını nəzərə alaraq onun yenidən latın əlifbasında çap edilməsinə qərar vermiş oldu. Kitabın elektron nüsxəsinin də çapdan sonra geniş oxucu kütləsinin diqqətinə təqdim edilməsi nəzərdə tutulur.

"Cənubi Azərbaycan" şöbəsinin əməkdaşları 2020-2022-ci illərin plan işi üzrə "Cənubi Azərbaycan tarixinin oçerki. Ən yeni dövr: 1918-1979" adlı çox böyük və əhatəli elmi bir işin icrası ilə məşğuldurlar. Qarşıdakı yaxın illərdə bu əsər də çap edilərək oxucuların ixtiyarına veriləcəkdir.

---

[1] Bax:V.Mustafayev. Cənubi Azərbaycan məsələsinin öyrənilməsi, Bakı, "Nurlar", 2002, səh.38

[2] Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917), Bakı, 1985, səh.36-37, 39, 214-216, 235-242

[3] Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917), Bakı, 1985, səh.308

Son olaraq qeyd olunmalıdır ki, 1976-cı ildən başlayaraq AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu nəzdində fəaliyyət göstərən "Cənubi Azərbaycan" şöbəsi parçalanmış Vətənimizin cənub hissəsinin çağdaş tarixini kompleks şəkildə öyrənmək, tədqiq etmək və bununla bağlı onlarla elmi-tədqiqat, elmi-publisistik əsərləri ortaya qoymaqla artıq ənənəvi bir məktəbə çevrilmişdir.

***Səməd Bayramzadə,***
***dosent, tarix üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Milli Elmlər Akademiyası***
***Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu***
***Cənubi Azərbaycan şöbəsinin müdiri***

# MÜQƏDDİMƏ

Qədim mədəniyyətlərin yaranıb inkişaf etdiyi bir ərazidə yerləşən Azərbaycan diyarı uzun əsrlər boyu mühüm tarixi hadisələr meydanı olmuşdur. Burada istər vaxtilə mövcud olmuş dövlətlər (Manna, Atropaten, Albaniya), istərsə də orta əsrlərdə müstəqil dövlət yaratmış hakim sülalələr (Atabəylər, Qaraqoyunlular, Şirvanşahlar, Səfəvilər və b.) Zaqafqaziyanın, İranın, bəzən də daha geniş bir ərazinin ictimai-siyasi tarixində mühüm rol oynamışlar.

Artıq orta əsrlərin ilkin dövründə vahid xalq kimi ümumi birliyi yaranmağa başlamış azərbaycanlılar Yaxın və Orta Şərqlə yanaşı, ümumdünya mədəniyyəti xəzinəsinə də layiqli töhfələr vermişlər. Azərbaycanın orta əsr elm və mədəniyyət xadimləri öz ana dillərində – azərbaycanca yazıb yaratmaqla türk xalqları mədəniyyətində, bütün orta əsrlər boyu Yaxın və Orta Şərqin geniş ərazisində şeir dili hesab edilən farsca, başlıca olaraq elmi nəsr dili kimi qəbul olunmuş ərəbcə yazmaqla geniş bir ərazini əhatə edən müsəlman mədəniyyətində layiqli yer tutmuşlar.

Bu ölkənin əhalisi uzun əsrlər boyu indiki Azərbaycan Respublikası və İran dövlətinin tərkibində olan Cənubi Azərbaycan sahəsinə təqribən uyğun gələn bir ərazidə sakin olmuşdur. Orta əsrlərin məşhur ərəb dilli tarixçilərindən olan Təbəri (839-923) həmin xalqın yaşadığı Azərbaycan ölkəsindən, onun sərhədlərindən danışarkən yazırdı: "Azərbaycan hüdudunun başlanğıcını, Əhər və Zəngan (Zəncan – red.) daxil olmaqla, Həmədanı, axırını isə xəzərlərin Dərbəndini götürürlər və bu aralıqda olan on-on iki şəhəri Azərbaycan adlandırırlar"[4]. Azərbaycanlıların əcdadlarının yaşadığı bu ərazi bəzən istila və miqrasiyaya məruz qalsa da onun etnik və coğrafi sərhədləri sonrakı dövrlərdə də əhəmiyyətli bir dəyişikliyə uğramamışdır. Belə ki, gürcü çarı II İraklinin (1762-1798) yanında Rusiya dövlətinin səlahiyyətli nümayəndəsi, Zaqafqaziya və İranın vəziyyəti ilə tanış olan polkovnik Burnaşev

---

[4] Tərcome-ye tarix-e Təbəri be enşa-ye Əbu Məhəmməd Biləmin (*Əbu Məhəmməd Balaminin Təbəri tarixinin tərcüməsi*), Tehran, 1344/1965, s.51

1786-cı ildə hazırladığı kitabçaya o zaman müstəqil xanlıqlardan ibarət Azərbaycan vilayətlərini və onların mərkəz şəhərləri sırasına Bakı, Quba, Nuxa, Şirvan, Gəncə, Şuşa, Naxçıvan, Təbriz, Marağa, Urmiya, Xoy, Ərdəbil, Meşkin və s. daxil etmişdir.[5]

Bir cox ölkə və xalqların tarixində müşahidə olunduğu kimi, Azərbaycanın bu etnik və coğrafi sərhədləri də həmişə həmin ərazidə müxtəlif dövrlərdə mövcud olmuş dövlətlərin siyasi sərhədləri ilə eyni olmamışdır. Dövlət sərhədləri bəzən Azərbaycan ölkəsinin ayrı-ayrı hissələrini əhatə etmiş, bəzi hallarda etnik-coğrafi çərçivədən kənara çıxmışdır. Bir sıra hallarda isə Azərbaycan ərazisi, onun əhalisi bütövlükdə və ya qismən daha qüvvətli qonşu dövlətlərin tərkibinə daxil edilmişdir. Yalnız XII-XIII əsrin əvvəllərində Atabəylər dövründə, XVI əsrin ilk illərində I Şah İsmayılın başçılığı ilə Azərbaycanda hakimiyyəti ələ alaraq bütün Azərbaycan ərazisini vahid bir dövlət altında birləşdirməyə əsasən nail olmuş və özlərini "Azərbaycan taxtı və səltənəti" uğrunda mübarizlər[6] kimi qələmə vermiş Səfəvilər hakimiyyətinin başlanğıcında olduğu kimi, Azərbaycanın etnik-coğrafi və dövlət sərhədləri təqribən uyğun gəlmişdir. XVIII əsrin II yarısında ərazi ayrı-ayrı xırda feodal dövlətlərinə – xanlıqlara parçalandığı zaman da Azərbaycanın bəzi dövlət başçıları bütün ölkə ərazisini, bütün xalqı vahid bir dövlət tərkibində birləşdirməyə təşəbbüs göstərmişlər (bunlardan yalnız 1758-1789-ci illərdə Quba xanlığında hakimiyyət etmiş Fətəli xan Azərbaycanın şimal-şərq hissəsini qısa müddətə birləşdirə bilmişdir).

XVIII əsrin sonlarına doğru Azərbaycanın yerləşdiyi nahiyədə yeni bir mürəkkəb siyasi vəziyyət yarandı. Ölkənin cənub xanlıqları İranda idarəçiliyi ələ almış Qacarlar sülaləsinin hakimiyyəti altına keçdi. Digər tərəfdən, Fransa, İngiltərə və çar Rusiya-

---

[5] Описание областей Азербайджанских в Персии и их политического состояния сделанное пребывающим при его Высочестве Царя Картелинском и Кахетинском Ираклии Темуразовиче Полковником Ковалером Бурнашевым в Тифлисе в 1786 г.: Курск, 1793, стр.3-24.

[6] Azərbaycan tarixi, I cid, Bakı, 1961, səh.217.

sının bu regionda siyasi fəaliyyətinin genişlənməsi XIX əsrin əvvəllərində İran-Rusiya müharibələri (1804-1813, 1826-1828) və Azərbaycanın iki yerə parçalanması ilə nəticələndi. Həmin müharibələrə son qoyan Türkmənçay sülh müqaviləsi əsasında Azərbaycan çar Rusiyası və feodal İranı arasında bölünmüş oldu. Bununla da eyni tarixi köklərə malik, tarixən eyni ərazidə yaşayan, vahid bir dildə danışan, eyni mədəniyyətə və həyat tərzinə malik vahid bir xalq iki hissəyə ayrılmış oldu.[7]

Sosial-iqtisadi, siyasi və mədəni cəhətdən daha qabaqcıl olan Rusiyanın tərkibinə daxil olmuş Şimali Azərbaycan əhalisinin taleyi həmin imperiya ərazisində yaşayan digər xalqların taleyi ilə qovuşdu. Bununla çar Rusiyasının digər ucqarları kimi Azərbaycanda da, çarizmin subyektiv cəhdlərinə baxmayaraq, kapitalist münasibətləri inkişaf etməyə başladı, ölkə və xalqın həyatında mədəni dirçəliş baş verdi. Bu inkişaf Şimali Azərbaycan xalqının milli təmərküzləşməsinə, burada burjua millətinin yaranmasına təkan verdi. XX əsrin əvvəllərində dünya inqilabi hərəkatının mərkəzi Rusiyaya keçdikdə Şimali Azərbaycan əhalisi də burada yaşayan xalqların inqilabi mübarizəsi axınına qoşulmuş oldu. Oktyabr sosialist inqilabının qələbəsi ilə bitən bu mübarizə Azərbaycan üçün Sovet hakimiyyətinin qurulması, formaca milli, məzmunca sosialist cəmiyyətinin, ona müvafiq mədəniyyətin yaranması, Azərbaycan sosialist millətinin və onun dövlət quruculuğunun formalaşması ilə nəticələndi.

Qacar monarxiyası hakimiyyəti altında qalmış Cənubi Azərbaycan əhalisinin sonrakı tarixi inkişafı isə tamamilə başqa şəkildə çərəyan etdi. Cənubi Azərbaycan əhalisinin taleyi də İranda yaşayan digər xalqların taleyi kimi oldu. Feodal quruluşunun ləng

---

[7] Bax. Azərbaycan tarixi, II cild, Bakı, 1964, səh. 49. Bir neçə başqa Şərq xalqlarının da (beluclar, kürdlər, özbəklər, türkmənlər, taciklər və b.) müstəmləkəçilik nəticəsində düçar olduğu belə etnik parçalanmanın həmin xalqlar üçün nə qədər ağır olması, bu hadisənin “əsl milli faciəyə” çevrilməsi haqqında bax: “Национальные проблемы современного Востока» (Сборник статей), М., 1977, səh.17.

dağılması, ölkənin yarımmüstəmləkə vəziyyətində olması, imperializm ağalığı nəticəsində kapitalist münasibətlərinin çox zəif və eybəcər şəkildə formalaşması, feodal və kapitalist istehsal üsulunun çulğalaşmasından doğan vəhşicəsinə istismar, acınacaqlı həyat tərzi həmin taleyin əlamətdar cəhətləri idi.

Əlverişli coğrafi mövqeyə, böyük ticarət yolları qovşağında yerləşməklə vaxtilə inkişaf etmiş iqtisadiyyata malik Cənubi Azərbaycan, XVIII-XIX əsrlərin əvvəlindəki tənəzzülə baxmayaraq, İran üçün böyük əhəmiyyət kəsb edirdi. Arada dövlət sərhədlərinin olmasına, inkişaf yollarının ayrılmasına baxmayaraq, Şimali Azərbaycanla etnik qohumluq əlaqələri, Şimali Azərbaycanla, onun vasitəsilə Zaqafqaziya və Rusiya ilə mədəni, iqtisadi əlaqələrin davam etməsi Cənubi Azərbaycanın rolunu daha da artırırdı. Cənubi Azərbaycan və onun paytaxtı, qədim mədəniyyət tarixinə malik Təbriz geridə qalmış İranın ümumi inkişafında əsas yer tuturdu. Təbriz "İranın hərbi və siyasi fəaliyyətinin mühüm mərkəzinə çevrilmişdi və bu cəhətdən onun əhəmiyyəti Tehrandan dəfələrlə artıq olmuş, hətta xarici ölkələrin siyasi nümayəndə və işgüzar şəxslərinin iqamətgahı bu şəhərdə yerləşmişdir".[8] Bu dövrdə Təbriz eyni zamanda bütün İranın iqtisadi həyatında xüsusi mövqe tutmaqla onun ticarət mərkəzi rolunu oynayırdı.

XIX və XX əsrin əvvəllərində Cənubi Azərbaycan bütün İranın ictimai-siyasi, mənəvi inkişafında da mühüm mövqe tuturdu. Azərbaycanın mədəniyyət, ictimai xadimləri, yazıçı və şairləri İranda yaranan və dövrün mütərəqqi fikirlərini özündə əks etdirən ziyalıların aparıcı dəstələrindən birini təşkil edirdilər. XIX əsrin əvvəllərindən etibarən Avropa dövlətləri ilə əlaqələrin, eyni zamanda da Rusiya ilə qonşuluq münasibətlərinin inkişafı nəticəsində İranda qabaqcıl fikirləri yayanlar azərbaycanlılar olduğu kimi ölkənin ictimai vəziyyətini dəyişməyə çalışan yenilikçi məktəb də məhz Azərbaycanda yaranırdı. Azərbaycanlılar 1905-

---

[8] Firidun Adəmiyyət. Əmir Kəbir və İran ya vərəqi əz tarix-e siyasi-ye İran (*Əmir Kabir və İran və ya İran siyasi tarixindən bir vərəq*), qesmət-e əvvəl/ I hissə, Tehran, 1323/1944, s.62

1911-ci illər inqilabı zamanı İranın ictimai-siyasi həyatında həlledici rol oynadılar.

Milli inkişaf sahəsində şimal qardaşlarından bir çox cəhətdən geridə qalsalar da, Cənubi azərbaycanlılar İranın hakim etnik qrupu olan farslarla eyni bir zamanda (ölkədə yaşayan başqa xalqlardan daha tez) - XIX əsrin sonlarından millət kimi formalaşmağa başladılar. Bu dövrdə İranda milli məhdudiyyət, milli ayrıseçkilik hələ güclü və kobud şəkildə hiss olunmurdu.

Ən yeni dövrdə, xüsusilə 1925-ci ildən etibarən İranda azərbaycanlıların milli inkişaf imkanları hədsiz pisləşmiş və mürəkkəbləşmişdir. İran dövləti tərkibində yaşayan başqa millət və milli qruplarda öz hakimiyyətləri üçün daha bir potensial məhvedici qüvvə görən hakim dairələr bu dövrdə açıq milli assimilyasiya siyasəti yeritməyə başladılar. Bu siyasət xüsusilə bir millət kimi yetişməkdə olan Cənubi azərbaycanlılara qarşı daha amansızlıqla həyata keçirildi.

Şah hakimiyyətinin süqutunadək müxtəlif formalarda davam edən bu siyasət Cənubi Azərbaycanı ərazi cəhətdən məhdudlaşdırmaq,[9] onun iqtisadiyyatını mümkün qədər durğun vəziyyətdə

---

[9] İrana qatıldıqdan sonra ölkənin dörd əyalətnndən birini təşkil edən Azərbaycan əyaləti ərazisinə ilk dövrlərdə çənubda Həmədan, cənub-şərqdə Zəncan və Qəzvin mahalları da daxil idi. Sonralar əyalətin inzibati sərhədləri nisbətən daraldılmış və 1906-cı ildə qəbul olunmuş seçki nizamnaməsində Azərbaycan əyalətinə Təbriz. Urmiya, Xoy, Deyləmqan, Maku, Marağa, Binab, Miyandoab, Sovucbulaq, Dehxarqan, Mərənd, Əhər, Ərdəbil, Meşkin, Astara, Xalxal, Sərab, Miyanə və Sainqala mahalları daxil edilmişdir (b a x: Məcmue-ye mosəvvəbat-e ədvar-e əvvəl və dovvom-e qanunqozari-ye Məcles-e Şura-ye Melli (*Milli Məclisin birinci və ikinci dövrlərinin qanunlar toplusu*), Tehran, 1318/1939, s.47-52). Bunların İran müəlliflərindən Məsud Keyhanın 1932-ci ildə nəşr olunmuş “İranın müfəssəl coğrafiyası” kitabındakı məlumatla müqayisəsi (bax: Məsud Keyhan. Coğrafiya-ye mofəssəl-e İran, Cild 2, Tehran, 1311/1932, s.150-151) göstərir ki, əyalətin inzibati sərhədləri bir qədər də məhdudlaşdırılmışdır. 1937-ci ilin sonlarında (1316-cı şəmsi ilinin aban ayı) təsdiq edilmiş yeni inzibati bölgüyə görə İran 10 ostana (vilayətə) bölündükdə isə Azərbaycan ərazisinin başlıca hissəsi üçüncü (“Şərqi Azərbaycan”, sahəsi 676,1 min $km^2$, mərkəzi Təbriz şəhəri) və dördüncü (“Qərbi Azərbaycan”, sahəsi 43,7 min $km^2$, mərkəzi Urmiya şəhəri) ostanlara ayrılmış oldu. Əhalisi

saxlamaq, əhaliyə milli mədəniyyətin inkişafı üçün əsas amillərdən olan ana dilində oxuyub-yazmağı qadağan etmək, bir sözlə, xalqı vahid iqtisadi və milli mədəni inkişafdan məhrum etmək və nəticə etibarilə onu hakim fars milləti tərkibində əritmək məqsədini həyata keçirməyə yönəldilmişdi. İranda ayrı-ayrı millətlərin özünəməxsus mədəniyyətinin varlığını, bunun əsl köklərini inkar etmək və burada milli mədəniyyətlərin inkişafının qarşısını almaq məqsədinə tabe olunmuş hakim paniranist ideologiyası ölkədəki bütün başqa millətlərə, o cümlədən azərbaycanlılara, onların guya sonradan türkləşmiş fars olmalarını, danışdıqları Azərbaycan dilinin isə fars dilinin məhəlli (yerli) ləhcəsi olmasını aşılamaq istiqamətində radiodan, televiziyadan, mətbuatdan və digər təbliğat vasitələrindən geniş istifadə edirdi. Bu təbliğatda İrandakı azərbaycanlıların etnogenez məsələlərinin təhrif olunmasına, onların Şimali Azərbaycanındakı əhali ilə tarixi birliyinin inkar edilməsinə xüsusi yer verilir, bütün cəhətlərdən örnək ola biləcək Şimali Azərbaycan ilə hər hansı tanışlığa sədd çəkilməsinə, bir sözlə, milli şüuru qidalandıra və yaşada biləcək nə varsa, onun qarşısının alınmasına səy göstərilirdi. Bu siyasət Əhməd Kavyanpur, Məhəmməd Cavad Məşkur, Cəmaləddin Fəqih və digər bu kimi fars millətçi şovinistləri tərəfindən Azərbaycanın ümumi tarixinə,

---

bütövlükdə azərbaycanlılardan ibarət olan Zəncan mahalı və digər çoxlu mahal və kənd bu bölgü əsasında iqtisadi-coğrafi, etnik, xüsusən dil cəhətdən fərqli olan qonşu ostanlara daxil edilmişdir (İranda yaşayan müxtəlif xalqlar arasında milli ədavəti artırmaq, qeyri-fars millətlərin milli inkişaf və birliyini pozmaq siyasətindən doğan həmin bölgüdə kürdlər yaşayan Savucbulaq - indiki Məhabad, Uşniyyə kimi mahallar Qərbi Azərbaycana daxil edilmişdir). Sonralar (1954) Astara və ətraf rayonu "Şərqi Azərbaycan"dan alınaraq "Gilan" ostanına qatılmışdır. Son illərdə Zəncan və Həmədan heç bir ostana daxil olmayan ayrıca qubernatorluğa (ostandan kiçik inzibati vahiddir), 1976-cı ildə isə ostana çevrilmişdir (buna baxmayaraq bir çox müasir Qərb müəllifləri İran Azərbaycanı məfhumuna mübahisəsiz olaraq Zəncan və Həmədanı da daxil edirlər (Bax: Stuart Swiny. Survey in North-West Iran (*İranın şimal-qərbinə aid araşdırma*), 1971, - "East and West" New-Stries, 1975, vo1. 25. № 1-2, March – June, p.77).

onun şəhərlərinin tarixinə dair günümüzə kimi İranda çap olunmuş kitabların əsas ruhunu təşkil etmişdir.

Şah üsuli-idarəsi hər vasitə ilə azərbaycanlıları öz ana dilindən məhrum etməyə çalışırdı. Bunun nəticəsində sayca farslarla yanaşı İranda iki ən böyük etnik vahiddən biri olan bu xalqın[10] dilində keçmiş şah hakimiyyətinin xüsusilə son illərində nə bir məktəb fəaliyyət göstərir, nə bir qəzet, nə bir jurnal, nə bir kitab çap edilir (vaxtilə çap edilmiş kitablar isə hər yandan yığışdırılır və məhv edilirdi), nə də bir tamaşa göstərilirdi. Təbriz, Ərdəbil və Urmiya radiolarında fars sözləri və ibarələri ilə doldurulmuş "məhəlli/yerli ləhcə"dəki bir-iki saatlıq veriliş nəzərə alınmazsa, bütün gündəlik proqram fars dilində aparılırdı.[11] Bu bir yana dursun, fars dilində olan məktəblərin özü belə çatışmır, kitabxana, teatr və başqa mədəniyyət ocaqları az miqdarda idi. Bunlardan əlavə, əhaliyə səhiyyə xidməti, mənzil tikintisi, şəhər və kəndlərin su, elektrik enerjisi və s. ilə təchizi son dərəcə yarıtmaz idi.

Cənubi Azərbaycana münasibətdə həyata keçirilən iqtisadi ayrı-seçkilik siyasəti isə 1960-1970-ci illərdə İranda təsərrüfatın bütün sahələrində "ağ inqilab" adı altında yuxarıdan həyata keçirilən "islahat"lar dövründə də öz kəskinliyi ilə davam etdirilirdi. Böyük hay-küylə həyata keçirilən bu "islahat"lara baxmayaraq,

---

[10] 1976-cı il sayımına görə İranda 33,66 milyon əhali yaşayırdı. Bax: Nətayec-e sərşomari-ye omumi-ye nofus və məskən (*Əhalinin ümumi siyahıya alınmasının nəticələri*), 2535/1976, s.7 (Bu rəqəm 1978-ci ildə 35 milyona çatmışdır). Həmin sayım məlumatına görə Qərbi Azərbaycan, Şərqi Azərbaycan və Zəncan ostanlarında birlikdə başlıça olaraq azərbaycanlılardan ibarət 5,8 milyona yaxın əhali var idi (*yenə orada*). İranın Tehran, Gilan, Həmədan, Xorasan, İsfahan, Xuzistan və b. ostanlarında da çoxlu azərbaycanlı yaşayır. Şah üsuli-idarəsi ümumi sayımlarda (1966, 1976) əhalinin milli tərkibini qəsdən göstərmədiyindən İranda yaşayan azərbaycanlıların sayı dəqiq məlum deyildir. İran mətbuatında 1979-cu ilin əvvəllərində verilən qeyri-rəsmi məlumata görə bu ölkədə 13 və ya 14 milyona yaxın azərbaycanlı vardır (bax: "Keyhan" qəzeti, 28 mart 1979-cu il; "Yoldaş" jurnalı, 8 ordibehişt, 1358 (*28 aprel 1979*), No 8, səh. 35). Ən son məlumatda isə bu rəqəm qeyri-rəsmi olaraq 15 milyondan artıq və hətta daha böyük miqdarda göstərilir (Bax: "İnqilab yolunda" jurnalı, No 11, 5 may 1981; "Dədə Qorqud" jurnalı, No 8, 20 mart 1981 və s.)

[11] "Azərbaycan" jurnalı, 1356/1978, No 11, səh.28-29.

bütün ölkədə olduğu kimi, Cənubi Azərbaycanda da kənd təsərrüfatı tənəzzül edirdi. Sənaye sahəsində isə vəziyyət daha ağır idi; İranın başqa yerlərində yüzlərlə sənaye müəssisəsi yaradıldığı halda, Cənubi Azərbaycanda bu sahənin inkişafına son dərəcə az vəsait sərf olunurdu. İranın 1356 (*21.03.1977 - 21.03.1978*)-ci il büdcəsində sənaye üçün ayrılmış 115,66 milyard riallıq vəsaitin, demək olar ki, hamısının İranın mərkəzi və cənub rayonlarında tikilən və yenidən qurulan onlarla sənaye müəssisəsinə sərf edilməsi nəzərdə tutulmuş, bu vəsaitdən Azərbaycana yalnız cüzi bir məbləğ Təbriz maşınqayırma zavodunun genişləndirilməsi və Muğanda kimyəvi kübrə anbarı tikilməsi üçün ayrılmışdı.[12] Sənayenin zəif inkişafı nəticəsində Cənubi Azərbaycan şəhərlərinin sosial-iqtisadi həyatında durğunluq hökm sürür, Təbriz öz iqtisadi əhəmiyyətinə görə İran miqyasında ikinci dərəcəli şəhərlər cərgəsinə keçirdi. Burada əhalinin sayı son illərdə bir qədər artsa da (1971-ci ildə 461.139 nəfərdən 1976-cı ildə 598.576 nəfərə),[13] şəhər əhalinin miqdarına görə Tehran, İsfahan və Məşhəddən sonra yalnız dördüncü yeri tuturdu.[14]

Kənd təsərrüfatının tənəzzülü, sənayenin isə zəif inkişafı Cənubi Azərbaycanda işsizliyi hədsiz artırır, bu isə öz növbəsində əhali axını yaradırdı. Yüz minlərlə işsiz kəndli şəhərlərə axışır, burada da özlərinə iş tapa bilməyərək həmin şəhərlər ətrafındakı zağalarda yaşamağa məcbur olurdu. Təbriz şəhəri ətrafındakı zağalarda 300 min nəfər belə gəlmə işsiz yaşayırdı. Sayı durmadan artan işsizlərin əksəriyyəti Tehrana,[15] İranın cənubunda sürətlə inkişaf edən sənaye şəhərlərinə köçüb gedirdi. İş ardınca başqa şəhərlərə gedənlər içərisində çoxlu ziyalı da var idi. Cənubi Azərbaycan burjuaziyasının da bir çox nümayəndələri burada şərait olmadığından öz kapitalını İranın başqa yerlərində sənaye obyektlərinin yaranmasına sərf edirdilər.

---

[12] "Azərbaycan" jurnalı, 1356/1978, No 8, səh.21.

[13] "Ettelaat" qəzeti, 2536-cı il 14 şəhrivər (*5 sentyabr 1977-ci il*), səh.8.

[14] Yenə orada.

[15] Qeyri-rəsmi məlumata görə 1976-cı ildə Tehranda yaşayan 4,5 milyon əhalinin üçdə birini azərbaycanlılar təşkil edirdi.

Yarım əsrdən çox bir dövr ərzində İranda aparılan bu hakim fars şovinizmi siyasətinə baxmayaraq, azərbaycanlılara öz tarixi keçmişini unutdurmaq, onların dilini, ənənələrini – bütün mənəvi sərvətlərini, nəhayət, mübarizə ruhunu həmişəlik əlindən almaq mümkün olmamışdır.

Bu dövrdə dəfələrlə baş vermiş milli azadlıq hərəkatı nəticəsində az müddətə də olsa (1920-ci ildə Şeyx Məhəmməd Xiyabaninin, 1945 - 1946-cı illərdə Seyid Cəfər Pişəvərinin başçılığı ilə) İran çərçivəsində milli hakimiyyət qurmaqla azərbaycanlılar öz milli varlığını dönə-dönə təsbit etmişlər. Onlar bütün İranda gedən demokratik hərəkatların bir hissəsi olan bu mübarizədə ölkədə yaşayan bütün xalqların demokratik və milli hüquqlarının tərəfdarı kimi çıxış etmiş, İranın imperialist ağalığından xilasını, burada demokratik bir quruluş yaradılması uğrunda çalışmağı qarşıya məqsəd qoymuşlar. Bütün İranda sosial ziddiyyətlərin son dərəcə kəskinləşməsi nəticəsində baş vermiş 1978-1979-cu illərin antiimperialist və antimonarxist inqilabında ən fəal şəkildə iştirak etmiş və inqilabın gedişində 25 mindən çox qurban vermiş azərbayçanlılar İranda bir daha özlərini yetkin bir millət kimi göstərdilər. Onlar ayağa qalxmaqla bütün İranda geniş xalq kütlələrinin potensial qəzəbinin fəal çıxışlara çevrilməsində bir növ katalizator rolunu oynadılar. 1978-ci ilin fevral ayının 18-də[16] Təbrizdə baş verən və "29 Bəhmən üsyanı" kimi məşhur olan çıxış əslində İranda yeni inqilabın başlanğıcı oldu.[17] Fevralın 18-19-da Təbriz üsyançıları onlara qarşı təcili surətdə göndərilmiş böyük hərbi hissələrə, tanklara, zirehli maşın birləşmələrinə qarşı daşla, ağacla, dəyənəklə, alışqan maddə doldurulmuş şüşə qablar vasitəsilə vuruşdular. Təkcə bu iki gün ərzində yüzlərlə ölən, minlərlə yaralanan oldu. Üsyan yatırıldıqdan sonra yüzlərlə adam həbs edil-

[16] Hicri şəmsi tarixi ilə 1376-cı il bəhmən ayının 29-da.

[17] Cənubi Azərbaycanın həmin inqilabi hadisələrdə rolu haqqında bax: Tom Fo1ey. Azerbaijani's role in the Iranian revolution, - "Daily World", Friday, February 23, 1979, p. 9.

di. Məhəmməd Rza şah diktaturasının yaratdığı kəskin terror şəraitində uğurla təşkil edilmiş Təbriz üsyanı bütün İran cəmiyyətinə öz təsirini göstərdi - bir tərəfdən təpədən-dırnağadək silahlanmış irticaya ən böyük zərbə oldu ("üsyan şahlıq üsulunun fəqərə sütununu qırdı"), digər tərəfdən, İran xalqlarını inqilabi çıxışlara səfərbər etdi. İranın bir çox siyasi xadimlərinin düzgün müşahidə etdiyi kimi, "Təbrizdə qanlarını axıdanlar İran inqilabının təməlini qoydular."[18] Təbriz hadisələrindən başlayaraq, İranda antiimperialist və demokratik inqilab sürətlə yüksəlişə doğru getdi. İnqilabın birinci mərhələsi şahın ölkədən qaçması (16 yanvar 1979), Tehran və bütün ölkədə "22 Bəhmən" üsyanının qələbə çalması (11 fevral 1979) və İranda İslam Respublikasının elan edilməsi ilə (1 aprel 1979) nəticələndi. Sov.İKP XXVI qurultayında "son illərin beynəlxalq həyatında böyük hadisə" kimi qiymətləndirilən[19] bu inqilabda Təbrizlə yanaşı Urmiya, Ərdəbil, Astara, Marağa, Mərənd, Zəncan və s. Azərbaycan şəhərləri şah diktaturası və ABŞ imperialistlərinə qarşı mübarizənin əsas mərkəzlərindən idi. Cənubi Azərbaycan əhalisinin demək olar ki, bütün sinif və təbəqələri - fəhlələr, kəndlilər, xırda və orta burjuaziya, ziyalılar, ruhanilər inqilabda iştirak etdilər. Tələbələr, hətta şagirdlər inqilabi çıxışlarda mühüm rol oynadılar. İnqilabın gedişində ümumi İranın demokratikləşməsi uğrunda mübarizə ilə yanaşı ölkədə yaşayan başqa xalqlar kimi azərbaycanlılar da öz milli tələblərini irəli sürdülər - bütün azlıqda qalan millət və milli qruplara bərabər hüquqlar təmin edilməsi, vahid inzibati bölgüdə birləşdirilməklə[20] Cənubi Azərbaycana İran dövləti tərkibində muxtariyyət verilməsi, Azərbaycan dili və mədəniyyətinin inkişafına şərait yaradılması və s.

İnqilabın qələbəsindən sonra İranda bir-birini əvəz etmiş siyasi böhranlar, yaranmış mürəkkəb və gərgin vəziyyət şəraitində

---

[18] Bax: "Günaydın" qəzeti, 15 iyun 1979-cu il, səh. 14.
[19] Bax: Sov. İKP XXVI qurultayının materialları, Bakı, 1981, səh. 16.
[20] İran İslam respublikası ölkənin əvvəlki inzibati quruluşunu eynilə saxlamışdır.

Cənubi Azərbaycan demokratiyası, Tehranda[21] və s. şəhərlərdə yaşayan azərbaycanlılar İran İslam Respublikasının ümumi mənafeyindən çıxış etməklə yanaşı inqilabdan sonra verilmiş nisbi azadlıqlar çərçivəsində milli inkişaf sahəsində bəzi nailiyyətlər qazana bildilər: böyük məhdudiyyətlə olsa da, Azərbaycan dilində kitablar, qəzet-jurnallar çap edildi, şəxsi təşəbbüslər əsasında Azərbaycan dilini öyrədən kurslar açıldı, bəzi siyasi təşkilatlar və cəmiyyətlər fəaliyyətə başladı, bir sıra mədəniyyət ocaqları, o cümlədən Tehran və Təbrizdə ayrı-ayrılıqda Azərbaycan yazıçılar və şairlər cəmiyyəti işə başladı və s. Bu nailiyyətlərin qayəsini azərbaycanlıları vahid Azərbaycan tarixi və onun mənəvi sərvətləri ilə tanış etmək, vahid tarixi-mədəni köklərə malik Şimali və Cənubi Azərbaycan arasında elmi, ədəbi və mədəni əlaqələrin yaranmasına, bu sahədə körpü salınmasına yardım etmək və bu dayaqlar üzərində Cənubi Azərbaycanın inqilabi və demokratik ruhlu ədəbiyyat və incəsənətini inkişaf etdirmək kimi mühüm vətəndaşlıq məsələləri təşkil edirdi. Bu məsələlərin qoyuluşunda vahid Azərbaycan xalqının mədəni irsinin mühüm bir hissəbini təşkil edən Şimali Azərbaycanının elm və mədəniyyəti ilə tanışlığa, burada elm, mədəniyyət və incəsənətin müxtəlif sahələrindəki nailiyyətlərdən faydalanmağa, bunların həyata keçirilməsi üçün zəruri olan əlaqələrin yaradılmasına, qiyabi də olsa yaranmış mənəvi-mədəni əlaqələrin daha da canlandırılmasına Cənubi Azərbaycanda maarif və mədəniyyətin, elm və incəsənətin inkişafının rəhni kimi baxılması, bunların Cənubi Azərbaycan üçün örnək hesab edilməsi olduqca səciyyəvidir.

1978-1979-cu illər inqilabı İranda monarxiyanı devirsə də, imperialistlərin və ilk növbədə ABŞ-ın ölkədəki siyasi, iqtisadi və mənəvi nüfuzuna son qoysa da, ölkənin bir çox kəskin daxili sosial və iqtisadi məsələlərini, o cümlədən milli məsələni həll edə bilməmişdir. Hazırda İranda yaşayan bir sıra xalqlar - kürdlər,

---

[21] Hazırda Tehranda ətrafı ilə birlikdə 7 milyona yaxın əhali yaşayır ("Kommunist" qəzeti, 17 noyabr 1981-ci il) ki, bunun da qeyri-rəsmi məlumata görə, təqribən yarısını azərbaycanlılar təşkil edir.

ərəblər, türkmənlər, beluclar kimi, azərbaycanlıların da qarşısında sosial-iqtisadi məsələlərin həlli, öz milli tələbləri uğrunda – Cənubi Azərbaycanın İran dövləti çərçivəsində vahid və muxtar bir inzibati bölgüdə birləşdirilməsi, milli mədəniyyətin inkişafı və mədəniyyətin azərbaycanlaşdırılması yolunda xalqın özünün seçəcəyi hansı bir şəkildəsə gedəcək mübarizə mərhələsi durur.

Lakin Amerika imperialistlərinin və keçmiş şah agenturasının İrandakı gizli fəaliyyəti, onların öz mənafeləri xatirinə ölkədəki ekstremist qrupları və müxtəlif millətlər içərisindəki qeyri-sağlam qüvvələri mərkəzi dövlətə qarşı çıxışlara təhrik etməsi, İran İslam Respublikasının yekdil olmayan rəhbərliyinin isə milli əsasda gedən bütün çıxışlara fərq qoymadan barışmaz mövqe tutması, rəhbərliyin sözündə və əməlində nəzərə çarpan uyğunsuzluq kəskin ictimai problemin - milli məsələnin həllinə əngəl törədən amillər olmaqla İranda ayrı-ayrı millətlərin öz müqəddəs və haqlı tələbləri uğrunda mübarizəsini son dərəcə çətinləşdirir.

1980-ci ilin yayından hakim dairələrdə sağa meylin artması, xüsusilə 1983-cü ilin əvvəllərindən İslam Respublikası rəhbərliyinin daxili və xarici siyasət sahəsində kəskin irticaçı mövqe tutması bu məsələlərin həllini uzaqlaşdırmışdır.

Beləliklə, tarixin ədalətsiz hökmü ilə Azərbaycan diyarının iki yerə bölünməsindən bəri davam edən dövr ərzində Cənubi Azərbaycan mürəkkəb, keşməkeşli bir yol keçmişdir. Bu dövr tarixi köklər üzərində yaranmış bir xalqın böyük bir hissəsinin çarpışması və bütün çətinliklərə, maneələrə baxmayaraq, ayrıca bir millət kimi formalaşması dövrü olmuşdur. Həmin dövr ərzində Cənubi azərbaycanlılar dəfələrlə səslərini ucaltmış, İranın demokratikləşdirilməsi uğrunda çarpışmaların carçısı olmaqla, bu vuruşmaların həmişə ön cərgəsində getmiş, çox vaxt isə irtica qüvvələrinə qarşı mübarizənin bayraqdarı olmuş, ölkədə inqilabların taleyini həll etmişlər. Cənubi azərbaycanlılar hər məğlubiyyətdən sonra yeni döyüşə başlamışlar. Cənubi azərbaycanlıların keçdiyi inqilabi yol, onların mübarizliyi və mətanəti inanmağa əsas verir ki, bu xalq gec-tez taleyini öz arzusuna uyğun şəkildə

müəyyən edə biləcək və sosial-iqtisadi, siyasi və mədəni inkişafının tam ixtiyarlı sahibi olacaqdır.

Cənubi azərbaycanlıların istər mədəni, sosial-iqtisadi inkişafı, istərsə də siyasi mübarizə tarixi bu vaxtadək tam və ətraflı öyrənilməmişdir. Oxuculara təqdim olunan və azərbaycanlıların tarixi inkişafının bir mərhələsini əhatə edən bu əsər həmin sahədə ilk təşəbbüsdür.

Biz inanırıq ki, Cənubi azərbaycanlıların 1828-1917-ci illər ərzindəki siyasi, sosial-iqtisadi və mədəni inkişafının başlıca məsələlərinin araşdırılmasını qarşıya məqsəd qoyan bu əsər azərbaycanlı oxucular tərəfindən maraqla qarşılanacaq, hər iki Azərbaycan arasında əlaqələrin genişlənməsi yolunda atılan addımlardan biri kimi qəbul olunacaqdır.

# I BÖLMƏ

# CƏNUBİ AZƏRBAYCAN XIX ƏSRDƏ

## I FƏSİL

## CƏNUBİ AZƏRBAYCAN XIX ƏSRİN ORTALARINDA

### 1. İQTİSADİ VƏZİYYƏT

XIX əsrdə Azərbaycanın bütövlükdə götürüldükdə iqtisadi inkişafını müəyyən etmiş əsas amil onun çar Rusiyası və Qacar səltənəti arasında bölüşdürülməsi oldu. Bu hadisə ölkənin əsrlər boyu yaranmış daxili iqtisadi əlaqələrinin ilk dövrdə tamamilə pozulmasına səbəb olmasa da, Şimali və Cənubi Azərbaycanı bir-birindən ayıran dövlət sərhədlərinin yaranması hər iki hissənin təsərrüfat həyatının sonrakı məzmununu və xarakterini müəyyən etdi.

Azərbaycanın şimal hissəsinin Rusiyaya birləşdirilməsi Şimali Azərbaycanı Ümumrusiya və sonuncu vasitəsilə ümumdünya iqtisadi inkişaf dairəsinə daxil etməklə, obyektiv olaraq bu diyarda iqtisadi proseslərin sürətlənməsinə, daha mütərəqqi kapitalist inkişaf yoluna düşməsinə şərait yaratdı. Bu mənada kapitalizmə keçidin ilk müvəffəqiyyətləri üçün zəruri olan sabitlik, qayda-qanun (iqtisadi qanunvericilik, möhkəm maliyyə-vergi sistemi, himayəçilik və i. a.), xüsusi mülkiyyətin[22] və ticarət-sənaye sahibkarlıq fəaliyyətinin toxunulmazlığının bərqərar edilməsinin böyük əhəmiyyəti var idi[23]. Bu vəziyyət eyni zamanda xırda istehsalçılar içərisində

---

[22] Burada söhbət, əlbəttə, çar hökuməti tərəfindən rəsmən tanınmış mülkiyyətlərdən gedir.

[23] Şimali Azərbaycanın Rusiyaya birləşdirilməsinin mütərəqqi nəticələri Azərbaycan sovet tarixşünaslığında geniş işıqlandırılmışdır. Bu barədə bax: «Azərbaycanın Rusiya ilə birləşdirilməsi və onun mütərəqqi, iqtisadi və mədəni nəticələri», Bakı. 1956; А.С.Сумбатзаде. Сельское хозяйство Азербайджана в XIX в., Баку, 1958; А.С.Сумбатзаде. Прогрессивные экономические

istehsal vasitələrindən ayrılma prosesini artırmaqla yanaşı, geniş təkrar istehsal üçün də əlverişli şərait yaradırdı.

Cənubi Azərbaycanın iqtisadiyyatında isə bütün İranda olduğu kimi, durğunluq meyli davam edirdi. Qacar monarxiyası İranda öz mövqeyini möhkəmləndirdikdən sonra burada daxili feodal müharibələrinə son qoyulsa və köçəri təsərrüfata malik qəbilələrin şəhərlər üzərinə iri basqınlarının qarşısı başlıca olaraq alınsa da, bütövlükdə götürüldükdə, təsərrüfatın inkişafı üçün ölkədə mövcud olan şərait son dərəcə əlverişsiz idi. XIX əsrin əvvəllərində İranın Rusiya ilə apardığı uğursuz müharibələrin xərcinin, İranın Rusiyaya ödəməli olduğu təzminatın ağırlığının zəhmətkeşlərin, qismən də Cənubi Azərbaycan əhalisinin çiyinlərinə yüklənməsi daxili amillərdən yaranan şəraiti daha da pisləşdirirdi. Feodal torpaq sahibləri xanların özbaşınalığı, xüsusi mülkiyyətin və ticarət-sənaye əməliyyatlarının qorunmaması, adi hala çevrilmiş qanunsuz vergilər, aydın iqtisadi qanunvericilik normalarının olmaması üzündən yaranmış hərc-mərcliyin və İranın feodal dövlət aparatının doğurduğu bu kimi başqa cəhətlər təsərrüfat sahəsindəki hər hansı bir fəaliyyəti, təşəbbüsü əvvəlcədən risqlə bağlayırdı. Buna görə də bir çox tacirlər və sahibkarlar xarici təbəəliyi qəbul etməyə, bununla da ölkədə hökm sürən özbaşınalıqdan can qurtarmağa çalışırdılar. XIX əsrin sonunda xarici banklarla, o cümlədən ölkədə fəaliyyət göstərən rus girov-borc bankı ilə geniş maliyyə-ticarət əlaqələrində olan iri tacir və sahibkarlar da nisbətən əlverişli vəziyyətdə idilər. Lakin kapital sahibi olanların

---

последствия присоединения Азербайджана к Росии в XIX в. (без нефтяной промышленности), Труды Ин-та истории и философии АН Азерб.ССР, т. V, 1954, səh. 184-197; А.С.Сумбатзаде. Рост торгового земледелия в Азербайджане XIX в. (К вопросу о развитии российского капитализма вширь); «Вопросы истории», 1958, №4, səh. 114-126; М.А.Исмаилов. Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX и начале XX вв., Баку, 1964; M.İsmayılov. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı, Bakı, 1960; M.Ə.Musayev. XIX əsrdə Bakı şəhərinin ticarəti, Bakı, 1956 və b.

çoxu belə “müdafiə”dən məhrum idi və buna görə də belə sahibkarların əksəriyyəti öz kapitalını istehsal sahəsinə deyil, torpaq alınmasına (bu torpaqlarda istehsal münasibətlərində, bir qayda olaraq, heç bir dəyişiklik yaratmadan) sərf etməyi üstün tuturdu. Bütün XIX əsr ərzində İran dövlətinin Avropa dövlətlərinə bir-birinin ardınca güzəştlərə getməsi, onların xeyrinə müqavilələr, o cümlədən ticarət müqavilələri bağlaması və s. nəticəsində ölkədə kapitulyasiya qaydası yarandı. Ölkə yarımmüstəmləkəyə çevrildikdən sönra isə İranın, o cümlədən Cənubi Azərbaycanın iqtisadi inkişaf yolunda ən mühüm əngəl iqtisadiyyatı birtərəfli və eybəcər inkişafa düçar etmiş xarici kapitalın ağalığı oldu.

## Kənd təsərrüfatı və sənətkarlıq

Cənubi Azərbaycanda əhalinin əsas məşğuliyyəti yenə də kənd təsərrüfatı - əkinçilik və maldarlıq idi. Təkcə kənd əhalisi deyil, şəhər əhalisinin də bir hissəsi əkinçilik, bağçılıq, bostançılıq və kənd təsərrüfatının başqa sahələrində çalışırdı.

XIX əsrin 30-60-cı illərində Cənubi Azərbaycanda təbii və qismən də süni suvarma əsasında buğda, arpa, çəltik və başqa dənli bitkilərlə yanaşı, texniki bitkilər də, o cümlədən pambıq, tütün, gənəgərçək əkilir, barama yetişdirilir, mum hazırlanır, müxtəlif meyvələr becərilirdi.[24] 1837-1840-cı illərdə İranda olmuş rus zabiti İ.F.Blaramberqin göstərdiyinə görə, Azərbaycanın Xoy mahalında becərilən pambıq bütün İranda istehsal edilən ən yaxşı pambıq növü hesab olunurdu.[25] Bir çox şəhər və kəndlərdə nar, heyva, albalı, alça, ərik, hulu, alma, armud, püstə, badam, qoz, fındıq və müxtəlif növlü üzüm yetişdirilirdi. Təbrizlə Miyana,

---

[24] Г.Прейфер. Путешествие по Индии и Персии в страну душителей и огнепоклонников с описанием всех замечательных памятников и древних развалин, М., 1879, səh. 167 (Sonrakı səhifələrdə Q.Preyfer, səh... yazılacaqdır); (N. T.) Письма русского из Персии, ч. 1,.СПб, 1844, səh. 61; Rabert Qrant Vatson. Tarix-e Qacar (*Qacar tarixi*), Tərcome-ye Abbas Azəri, Tehran, 1340/1961, s.121 (Sonrakı səhpfələrdə: R.Vatson, səh... yazılacaqdır).

[25] И.Ф.Бларамберг. Статистическое обозрение Персии, СПб., 1852, səh. 30.

Mərənd və başqa şəhərlər arasında yerləşən kəndlər meyvə bağları ilə zəngin idi.[26] Meyvəçiliyin müxtəlif sahələrinə malik olan Cənubi Azərbaycanda geniş miqyasda quru meyvələr, xüsusilə Marağa və Urmiya rayonlarında yüksək keyfiyyətli kişmiş hazırlanırdı. Cənubi Azərbaycan İranda ən məhsuldar taxılçılıq və meyvəçilik rayonlarından biri idi və əyalətdən taxılla yanaşı, quru meyvələr də ixrac edilirdi. Burada qızıl boya, mazı, indiqo və s. kimi müxtəlif boyaq maddələri və boyaqçılıqda işlədilən kitrəverən bitkilər də yetişirdi. Əhalinin köçəri həyat sürən hissəsinin əsas məşğuliyyəti maldarlıq idi. Əyalətin zəngin təbii yem bazası oturaq və yarımoturaq həyat sürən əhaliyə də maldarlıqla məşğul olmağa imkan verirdi. Heyvandarlıq məhsullarından yun, dəri, gön və s. ölkə daxilində keçə, yəhər hazırlanması, xalça-palaz toxunması, şəhərlərdə nəfis xalçalar, şal və s. istehsalında işlənilirdi.

Şəhərlərin inkişafında əvvəlki əsrlərin durğunluğu hələ hiss olunurdu. Nadir Mirzə özünün Təbriz tarixinə həsr etdiyi əsərdə göstərir ki,[27] son bir neçə əsrdə bu mühüm şəhərin əhalisinin sayı xeyli azalmışdı. XVIII əsrin ümumi iqtisadi düşkünlüyü Marağa, Ərdəbil, Miyana, Zəncan və s. şəhərlərdə də hiss olunurdu.

XIX əsrin ortalarında Cənubi Azərbaycan şəhərləri öz orta əsr qiyafəsini saxlamışdı. Şəhərlərin sosial-iqtisadi həyatında hələ də mühüm rol oynayan sənətkarlar ölkədə istehlak edilən əsas sənaye mallarının başlıca istehsalçıları idilər. Müharibədən sonra yaranmış nisbi dinclik şəraitində sənətkarlıq zəif də olsa müəyyən tədrici inkişaf imkanı qazandı. Lakin İngiltərə, Rusiya və başqa dövlətlərin İranda əldə etdiyi imtiyazlı müqavilələrin Azərbaycan bazarlarının qapılarını xarici mallar üçün geniş açması bu ahəngi pozdu. Durmadan artan xarici mallar axını, əlbəttə sənətkarlığın ən mühüm sahəsi olan toxuculuq üçün fövqəladə zərbə idi. Parça, başlıca olaraq pambıq parça istehsal edən sənətkarların xarici mallarla rəqabətə tab gətirə bilməməsi və onların müflisləşməsi

---

[26] И.Ф.Бларамберг. Воспоминания, М., 1978, səh. 91.

[27] Nader Mirza. Tarix və coğrafiya-ye darossəltəne-ye Təbriz (*Təbriz şah sarayının tarixi və coğrafiyası*), Tehran, 1314/1935, s.56

nəticəsində 30-40-cı illərdə belə parçaların istehsalı və ixracı azaldı.[28] Lakin Təbriz və başqa şəhərlərdə istehsal olunmuş parçalar keçmiş ənənə üzrə qonşu Zaqafqaziyada malik olduğu bazarı hələ itirməmişdi və buna görə də öz istehsal gücünü hələlik müəyyən dərəcədə saxlaya bilmişdi.

Bəzi sahələrin tənəzzül etməsinə baxmayaraq, sənətkarlıq sənaye istehsalının yeganə forması olaraq qalır və ölkə təsərrüfatında mühüm yer tuturdu. Xalça, keçə və s. kimi istehsal sahələri isə xarici malların rəqabətilə qarşılaşmadığı üçün tənəzzül etmir, bəlkə əksinə, daxili və xarici bazarın tələbatı ilə əlaqədar inkişaf edirdi. Azərbaycanda xalçaçılıq mərkəzlərindən olan "Miyanada elə bir ev yox idi ki, orada xalça istehsalı ilə məşğul olmasınlar".[29] Təbriz özünün yüksək keyfiyyətli yun malları, ipək parçaları ilə məşhur idi.[30]

Geniş yayılmış xırda emalatxanalarda sifariş olunan malların istehsalı ilə yanaşı, satış üçün də mal istehsal edilirdi. Şəhərlərdə ayaqqabı, saxsı və ya mis qab-qacaq, digər məişət şeyləri, təsərrüfat alətləri və s. istehsalı xeyli inkişaf etmişdi.[31] Təbrizdə baramaaçan, ipək, pambıq və kətan parçalar toxuyan, sabun bişirən, çini qablar, qəlyan və s. hazırlayan, gön-dəri, dəmirçilik və s. üzrə emalatxanalar,[32] Xoy, Urmiya və Qaradağda, bəsit də olsa, şüşə qablar istehsal edən müəssisələr[33] və i. a. mövcud idi. Daxili və xarici bazarın tələbatına uyğun olaraq Azərbaycan şəhərlərində gön və dəri istehsalı da sənətkarlıqda mühüm rol oynayırdı.

---

[28] И.Ф.Бларамберг. Статистическое обозрение Персии, СПб., 1852, səh. 88.

[29] И.Ф.Бларамберг. Статистическое обозрение Персии, СПб., 1852, səh. 43.

[30] Yenə orada, səh. 43; Военно-статистический сборник, вып. III., СПб., 1868, səh. 12; Rusiya xarici siyasət arxivi (RXSA), «Baş Arxiv 1-9» fondu, iş 11, vər. 25.

[31] Состояние торговли в Персии. журн. «Вестник промышленности», т VII, №3, 1860, səh. 318; «Журнал мануфактур и торговли», №5, 1832, səh. 103.

[32] В.Бороздна. Краткое описание путешествии Российско-императорского посольства в Персию в 1817 году, СПб., 1821, səh. 103.

[33] О некоторых статьях торговли в Персии. «Журнал мануфактур и торговли», 1843, №8, səh. 296

XIX əsrin ortalarında Cənubi Azərbaycanda sənətkarlığın bu müxtəlif peşələr üzrə başlıca sahələri inkişaf etməkdə idi. İranda istər XIX əsrin ortalarında, istər sonunda, istərsə də XX əsrin əvvəllərində heç bir statistika aparılmadığından bunlar və eləcə də təsərrüfatın başqa sahələri üzrə istehsalın dinamikasını göstərən

hər hansı rəqəmlər gətirə bilmirik. Xarici ticarətlə əlaqədar çar Rusiyasının xarici ölkələrlə, o cümlədən İranla mal mübadiləsi haqqında sərhəd gömrükxanalarının qeydiyyatı və ölkənin ayrı-ayrı şəhərlərində yerləşən rus konsulluqlarının həmin məntəqələrin Rusiya ilə ticarəti haqqında verdikləri illik hesabatları əsasında aşağıda gətiriləcək rəqəmlər və digər məlumatdan görəcəyik ki, qeyd olunan dövrdə əsasən müxtəlif sənətkarlıq mallarından ibarət məhsulların Rusiya bazarına ixracı ilbəil artırdı. Bu artım isə öz-özlüyündə həmin sahələr üzrə, təbii olaraq, istehsalın artdığını, eyni zamanda sənətkarları pambıq, yun, barama, dəri və s. kimi xammalla təchiz edən kənd təsərrüfatı sahələrinin də müəyyən dərəcədə inkişaf etdiyini göstərir.

Cənubi Azərbaycan şəhərlərində orta əsrlərə xas olan sex quruluşu qalmaqda idi - xırda müəssisələr ayrı-ayrı istehsal sahələri üzrə sexlərdə birləşirdi. Ümumiyyətlə, bütün İranda olduğu kimi, Azərbaycanda da emalatxanalarda adətən, 2-3 sənətkar işləyirdi. Hələ muzdlu əməkdən istifadə sənətkarlıq üçün səciyyəvi deyildi. Bununla yanaşı, daxili və xarici bazarda rəqibi olmayan malların istehsalı ilə məşğul olan sahələrdə (ilk növbədə xalçaçılıqda) bir tərəfdən ləng də olsa, iriləşmə prosesi gedir, digər tərəfdən isə muzdlu əməkdən istifadə olunmaqla manufakturanın başlanğıcına xas münasibətlər inkişaf edirdi.[34] Hələ vəliəhd Abbas Mirzə tərəfindən müharibələr bitdikdən sonra buraya dəvət edilmiş ingilis sahibkarı Amstronq Təbriz yaxınlığında əyirici, darayıcı və toxucu, Xoyda isə xovlayıcı fabriklər açmışdı. Lakin bu fabriklərin nə qədər işləməsi məlum deyildir. Ayrı-ayrı uzaqgörən şəxslərin, məsələn, Təbriz taciri Hacı Mirzə Məhəmmədin XIX əsrin

---

[34] Гагемейстер. О европейской торговле в Турции и Персии, «Журнал мануфактур и торговли», 1838, № 1, səh. 97.

50-ci illərinin əvvəllərində bir sıra şəhərlərdə fabrik-zavod təsis etmək cəhdləri qısa müddət ərzində boşa çıxmışdı. Bir tərəfdən feodal münasibətlərinin hələ xeyli möhkəm olması, digər tərəfdən isə ölkənin xarici dövlətlərdən asılılığı ayrı-ayrı sənaye ocaqları yaratmaq təşəbbüsünə mane olurdu. Hökm sürən ictimai quruluş və buradan doğan qanunsuzluq feodalizm mühitində yeni, kapitalist münasibətlərinin inkişafını olduqca ləngidirdi. Engelsin Şərqdə "tacirin şəxsiyyət və mülkiyyətinin" təmin olunmaması haqqında sözləri[35] İrana da aid idi. XIX əsrin ortalarında İranda olmuş məşhur şərqşünas Berezin yazırdı: "Vətəndaş azadlıqlarının, şəxsi toxunulmazlığın, ədalət məhkəməsinin və müstəqilliyin kiçicik əlamətinin belə olmaması xalqı mənəvi cəhətdən əzir və alçaldır, həmçinin maddi sərvətlərin inkişafını dayandırırdı".[36]

Beləliklə, bir tərəfdən nambıq, ipək, yun parça istehsal edən sənət sahələri tənəzzül edir, digər tərəfdən isə xalça toxunması, gön-dəri istehsalı və s. sahələr artır, xalçaçılıq kimi mühüm və geniş sahədə isə hələlik ilk, bəzən müvəffəqiyyətsiz addımlarla olsa da, yeni kapitalist istehsal üsulunun inkişafı başlayırdı. Lakin bütün bu dəyişikliklər çox mürəkkəb və ziddiyyətli bir şəraitdə gedirdi.

## Daxili və xarici ticarətin vəziyyəti. Şimali Azərbaycanla ticarət əlaqələri.

Müharibələr bitdikdən sonra təsərrüfat həyatının nisbi canlanması ticarətin də genişlənməsinə təkan verdi.

Cənubi Azərbaycanın mühüm şəhərləri, o cümlədən Təbriz, Ərdəbil, Marağa, Urmiya, Zəncan istər əyalətin öz daxilində, istər İran miqyasında, istərsə də İranın xarici ölkələrlə ticarət əlaqələrində mühüm rol oynayırdılar.

Xalçaları, ipəyi və pambıq-kətan parçaları ilə məşhur olan Təbrizin siyasi-strateji cəhətdən əlavə ticarət əhəmiyyəti xüsusilə

[35] Bax. К.Маркс и Ф.Энгельс. Соч., изд. II, т. 22 М., 1962 səh. 33.
[36] И.Н.Березин. Сцены в пустыне. В каравансарае, «Русский вестник», т. 25 кн. 2, 1860, səh. 710.

böyük idi. XIX əsrin ikinci rübündən başlayaraq Asiya - Avropa ticarətində malların toplanma məntəqəsinin İzmirdən İstanbula köçürülməsi İran ticarəti yollarının ağırlıq mərkəzinin də dəyişməsinə, Cənubi Azərbaycan və onun mərkəzi şəhəri Təbrizin (buradan İstanbula Trabzon vasitəsilə rahat karvan yolu mövcud idi) İranın xarici ticarətində ön cərgəyə keçməsinə səbəb olmuşdu.[37] Digər tərəfdən, hərbi əməliyyatlar dayandırıldıqdan sonra Rusiya ilə bərpa edilən ticarət əlaqələrinin inkişafında Cənubi Azərbaycan və Təbrizin xüsusi əhəmiyyəti var idi. Bu dövrdən başlayaraq Təbriz İranın Rusiya, Türkiyə və Qərbi Avropa ölkələri ilə ticarətində olduqca mühüm rol oynayır və ticarət əlaqələri inkişaf etdikcə Təbrizin əhəmiyyəti də artırdı. Ticarət yolları düyümündə yerləşən Təbriz İranın ən böyük mərkəzlərindən biri idi. XIX əsrin 30-cu illərində İranda olmuş baron F.Korf öz xatirələrində yazırdı: "Avropa ilə ticarətdə İranın baş şəhəri, şübhəsiz, Təbrizdir".[38] Təbrizdə rus baş konsulluğunun əməkdaşı F.Bakulin isə Təbrizi "İranın ticarət paytaxtı" adlandırırdı.[39]

Bununla əlaqədar olaraq Təbrizdə əhalinin sayı artırdı. Artıq əsrin ortalarına doğru Təbrizdə 100 mindən çox əhali yaşayırdı. 1848-ci ildə burada olmuş avropalı qadın alim Preyfer Təbriz əhalisinin sayını 160 min[40], Nəsrəddin şahın hakimiyyətinin (1848-1896) ilk illərində İranda olmuş Vatson isə, hətta 200 min nəfərə[41] çatdığını göstərirlər. Şəhəri görən avropalılar onun gözəlliyini vəsf etmişlər. Preyfer Təbriz haqqında belə yazmışdır: "...Təbriz Tehrandan və İsfahandan gözəldir, 160 min əhalisi, çoxlu kətan,

---

[37] И.Ф.Бларамберг. Статистическое обозрение Персии, səh. 87.
[38] Ф.Корф. Воспоминания о Персии. 1834-1835, СПб., 1838, səh. 115.
[39] Ф.Бакулин. Очерки торговли с Персиею. Азербайджан. Мазандеран. Астерабад, СПб., 1875, səh. 36.
[40] Q.Preyfer, səh. 174.
[41] R.Vatson, səh. 121. Başqa müəlliflər şəhərin əhalisini 100 ilə 140 min arasında göstərirlər ki, bu, həqiqətə daha yaxındır. Bax: G.N.Curzon. Rersia and the Persian question. London – New-York, I vo1, 1892, p. 52 (sonrakı səhifələrdə: Kerzon, I cild, səh... göstəriləcəkdir).

ipək fabriki vardır. Təbriz Asiyanın ən başlıca şəhərlərindən hesab olunur".[42] Burada Preyferin fabrik adlandırdığı müəssisələrin əksəriyyətini sənətkarlıq emalatxanaları hesab etmək lazımdır, çünki bu dövrdə Azərbaycanda hələ fabrik-zavod sənayesi yaradılmasına, yuxarıda gördüyümüz kimi, ilk təşəbbüslər göstərilirdi.

Preyfer Təbrizdə tikilmiş yeni bazarın genişliyini, onun Yaxın Şərqin ən məşhur bazarlarından olan İstanbul bazarı qədər yaraşıqlı olduğunu da yazır.[43] Təbrizdəki həmin bazar 1848-ci ilədək Azərbaycan əyalətində dövlət xidmətində olmuş Mirzə Tağı xan tərəfindən tikdirilmişdir.[44]

Preyferdən bir neçə il sonra İranda olmuş ingilis müəllifi Robert Vatson Təbrizdə mindən artıq dükan, tacirlər üçün 32 karvansara, bundan əlavə, qatırçılar və onların yükləri üçün 37 karvansara mövcud olduğunu yazır.[45]

XIX əsrin ortalarında Təbrizin ticarət əlaqələrinin artması nəticəsində şəhərin kapital dövriyyəsi 1839-cu ildəki 12 milyon manatdan 60-cı illərin əvvəllərində təqribən 30 milyon manata çatmışdı.[46]

Təbrizdən başqa digər nisbətən böyük şəhərlərin də sənətkarlığın ayrı-ayrı sahələrində və ticarət əlaqələrində müəyyən rolu var idi. Bunlardan Miyana yumşaq, gözəl rəngli və möhkəm xalçaları ilə,[47] Marağa və 20 mindən çox əhalisi olan Urmiya[48] tütünü və kişmişi, Xoy öz corabları ilə məşhur idi.

---

[42] Q.Preyfer, səh. 174.

[43] Yenə orada, səh. 175

[44] R. Vatson, səh. 266.

[45] R.Vatson, səh. 122. 1839-1840-ci illərdə Təbrizdə olmuş başqa bir müəllif buradakı dükan və karvansaraların miqdarının minə qədər olduğunu göstərir. Bax: (N.T.). Письма русского из Персии, ч. I, səh. 21.

[46] Bax: И.Ф.Бларамберг. Статистическое обозрение Персии, səh. 99, 100; И.Огранович. Поездка в Персию в 1863 году, «Военный сб.»,1866, т. 52, отд. 2, №11, səh. 168.

[47] (Н.Т.). Письма русского из Персии, ч. I, səh. 48; И.Ф.Бларамберг. Воспоминания, səh. 91.

[48] Q.Preyfer, səh. 166-168.

Bu mühüm şəhərlərdən əlavə bunlar arasında yerləşən onlarla başqa xırda şəhərlərdə əyalətin ticarət əlaqələrində müəyyən rol oynayırdı.

Bununla yanaşı, Cənubi Azərbaycan şəhərləri yenə də orta əsr feodal şəhəri xüsusiyyətlərini daşımaqda davam edirdi. Bu hal özünü, hər şeydən əvvəl, şəhər əhalisinin ticarət-sənaye fəaliyyəti ilə yanaşı, yenə də kənd təsərrüfatının müxtəlif sahələri ilə məşğul olmasında göstərirdi. Əyalətin ən böyük ticarət-sənətkarlıq mərkəzi sayılan Təbrizdə belə əhalinin mühüm bir hissəsi bağçılıqla məşğul olurdu. Urmiya kimi şəhərlərdə isə bağçılıq əhalinin əsas məşğuliyyətlərindən birini təşkil edirdi. Bundan əlavə, bəzi nisbətən kiçik şəhərlər yenə də ayrı-ayrı feodal başçılarının sərəncamında idi. Məsələn, istinadgah kimi Maku şəhəri Maku xanlarının başında duran sərdarın, Əhər şəhəri Qaradağ xanının sərəncamında olmaqla orta əsr feodal şəhəri xüsusiyyətlərini daşıyırdı.

Şəhərlərin siyasi-ictimai həyatında, orta əsr feodal şəhərlərində olduğu kimi, yenə də məhz bazarlar mühüm amil idi. Öz karvansaraları və anbarları olan bazarlar istər daxili, istərsə də xarici ticarətdə böyük rol oynayırdı.

Əyalətin daxili ticarəti ilə əlaqədar bunu demək olar ki, şəhər əhalisinin istehlakı üçün lazım olan taxıl və digər məhsullar yaxın kəndlərdən gətirilirdi. Ərzaq mallarından əlavə Təbriz, Miyana və başqa şəhərlərə xalçaçılıq, toxuculuq, əyiricilik, dabbağlıq, keçəçilik, dulusçuluq, miskərlik, boyaqçılıq və s. sənətkarlıq sahələrində işlənmək üçün əyalətin müxtəlif yerlərindən xammal daxil olurdu. Xüsusilə uzaq kəndlərdən daxil olan məhsulların əsas hissəsi şəhərlərdə fəaliyyət göstərən ticarət evləri vasitəsilə gətirilirdi. Xoyda əldə edilən zərif keçi tükündən Təbrizdə məşhur Kəşmir növlü şallar istehsal edirdilər.[49] Kəndlərdən Cənubi Azərbaycan şəhərlərinə çoxlu miqdarda xammal gətirildiyi halda, sənətkarlıq məhsullarının kəndlərə aparılması cüzi idi və ümumiyyətlə götürüldükdə bütün əyalətdə hələ natural təsərrüfat hakim idi. Bu vəziyyət ölkə əhalisinin əksəriyyətini təşkil edən kəndlilərin əsas

[49] И.Ф.Бларамберг. Статистическое обозрение Персии, səh. 35.

hissəsinin özünü ərzaq mallarından əlavə sənaye malları ilə də, bir qayda olaraq, təchiz etməsindən doğurdu. Yəni kəndli təsərrüfatı çox hallarda həm taxıl istehsal edir, həm mal-qara saxlayır, həm də öz istehlakı üçün pambıq və ya kətan parça, corab toxuyur, çarıq hazırlayır və i. a.

Cənubi Azərbaycanın İranın başqa əyalət və vilayətləri ilə ticarət əlaqələri isə yenə əvvəlki qayda üzrə davam edirdi. Buradan İranın müxtəlif yerlərinə taxıl və digər kənd təsərrüfatı malları, sənətkarlıq məhsulları aparılırdı. Məsələn, Cənubi Azərbaycanın şimal-qərb rayonlarında toplanan qiymətli boyaq maddələrindən olan mazı yerli sənaye muəssisələrində işlənmək və xaricə göndərilmək üçün Təbrizə gətirilməkdən əlavə, Tehrana və İranın digər şəhərlərinə də aparılırdı. Təbrizdə dəridən hazırlanan məhsullar İranın hər yerinə göndərilirdi.[50] Təbrizin özünə isə ipək parçalar toxunması üçün Cənubi Azərbaycanın öz vilayətlərindən əlavə İranın əsas baramaçılıq rayonlarından olan Gilandan da barama gətirilirdi. Kermandan gətirilən zərif keçi tükündən isə Rusiya bazarına göndərilmək üçün Təbrizdə Kəşmir növlü şallar toxunurdu.[51]

Cənubi Azərbaycanın İranın müxtəlif sənətkarlıq məhsullarının xarici bazara - Rusiyaya, Türkiyəyə və başqa ölkələrə çıxarılmasında oynadığı əhəmiyyətli rol xüsusi qeyd olunmalıdır.

Rusiya - İran müharibələri bitdikdən və Cənubi Azərbaycanın xarici ölkələrlə, xüsusilə qonşu ölkələrlə ənənəvi ticarəti bərpa olunduqdan sonra əyalətin ticarətində bir sıra dəyişikliklər baş verdi. Bu dəyişikliklər, hər şeydən əvvəl, İranın, o cümlədən Cənubi Azərbaycanın Qərbi Avropa dövlətlərinin tədricən nüfuzu altına düşməsi nəticəsində yarandı. Xarici kapital nümayəndələri, ilk dövrdə başlıca olaraq ingilis burjuaziyası, İranın Avropa döv-

---

[50] И.Ф.Бларамберг. Статистическое обозрение Персии, səh. 24; (Неизвестный автор). Подробное описание Персии и государства Кабула, Сеистана, Синди, Бальха, Белуджистана, земли Хорасана, также Грузии и персидских провинций, присоединенных к России, ч. I, М., 1829, səh. 40.
[51]Гагемейстер. О европейской торговли в Турции и Персии, СПб., 1838, səh. 42.

lətlərinə və onların təbəələrinə verdiyi bir sıra güzəştlərdən ölkəni, o cümlədən Azərbaycanı öz sənaye mallarından ötrü satış bazarına çevirmək üçün istifadə etdi. 30-cu illərdən başlayaraq ölkəyə xarici mallar, o cümlədən ingilis toxuculuq mallarının idxalı artmağa başladı. Bu mallar əsasən Trabzondan keçməklə Türkiyə, qismən Qafqazdan keçməklə Rusiya vasitəsilə daxil olurdu. Əgər 1833-cü ildə Təbrizə xaricdən 15 milyon manatlıq mal gətirilmişdisə, 1836-cı ildə bu, 40 milyon manata çatmışdı.[52]

Burada bir cəhət də qeyd olunmalıdır ki, Təbrizdən həmin yollarla aparılan mallar Avropadan gətirilən mallardan qat-qat az idi. Belə ki, 1835-ci ildə Təbrizdən İstanbula əsasən xalça, yun yaylıqlar, ipək və pambıq parçalar, qismən isə xam ipək, pambıq, tənbəki, boyaq maddələri və s. ibarət cəmi 9 milyon manatlıq məhsul aparılmışdı.[53] Lakin 1837-1838-ci illərdə İranın Herat üzərinə hücumu ilə əlaqədar olaraq İngiltərə ilə İran arasında diplomatik münasibətlər pozulduğu vaxt hər iki ölkə arasında ticarət əlaqələri də zəiflədi. Təbrizə Avropadan gələn malların əsas hissəsini İngiltərədən gətirilən əmtəələr təşkil etdiyindən bu azalma ümumi Avropadan olan ixraca da əsaslı şəkildə təsir göstərdi. Sonralar bu ticarət yenə genişlənsə də,[54] əvvəlki səviyyəyə çata bilmədi.

İlk illərdə həmin malların gətirilməsi əsas etibarilə yerli tacirlərin ixtiyarında idi. Lakin tezliklə Avropa şirkətləri Təbrizdə öz ticarət şirkətlərini açmağa başladılar. Xarici malların idxalının artması ilə əlaqədar olaraq, ölkədə xarici ticarət şirkətlərinin miqdarı getdikcə çoxalırdı. 30-40-cı illərdə Ralli, Qlavani, Stefanoviç, Stivens qardaşları Təbrizdə ticarət şirkətləri yaratdılar.[55]

---

[52] Gürcüstan Mərkəzi Dövlət Arxivi (sonrakı səhifələrdə: Gürcüstan MDTA yazılacaqdır), f. 4. siy. 5, iş 843, vər. 14-15; Gətirilən malların 90 faizini İngiltərənin sənaye malları (parçalar) təşkil edirdi. Bax: "Журнал мануфактур и торговли», №8, 1848, səh. 256-257.

[53] Gürcüstan MDTA, f. 11, iş 432, vər. 18-19.

[54] Kerzon, I c., səh. 525.

[55] Состояние торговли в Персии, журн. «Вестник промышленности», VII,. 1860, № 3. səh. 310-311.

1870-ci ildə burada artıq 8 xarici ticarət şirkəti fəaliyyət göstərirdi. Bunların Təbrizə gətirdikləri malların 95 faizini İngiltərədə istehsal edilmiş toxuculuq məhsulları təşkil edirdi.[56] Xarici şirkətlərin sayı getdikcə artırdı. İranda kapitulyasiya qaydasından geniş istifadə edən həmin şirkətlər tezliklə yerli tacirləri xarici ticarətdən qismən də olsa sıxışdıra bildi. 40-cı illərdə Təbrizə daxil olan malların yarıdan çoxu xarici kapital nümayəndələri vasitəsilə gətirilmişdi. Lakin malların Təbrizdən ixracedilmə əməliyyatında üstünlük hələlik əsasən yerli tacirlərin əlində idi. Məsələn, 1845-ci ildə Təbrizə gətirilən malların təqribən 44,5 faizi yerli tacirlərin öhdəsinə düşürdüsə, malların buradan istər İstanbula (buradan da qismən Avropa ölkələrinə aparılmaqla), istərsə də Rusiyaya aparılmasının təqribən 69 faizi yerli azərbaycanlı, qismən də erməni tacirlər vasitəsilə həyata keçirilmişdi.[57]

Xarici şirkətlərin fəaliyyəti bütün İranda olduğu kimi, Azərbaycanda da bəzi istisnalar olmaqla, bir sıra sahələr üzrə sənətkarların, xüsusilə parça toxunması ilə məşğul olan sənətkarların iflasına səbəb oldu; belə ki, onların əl dəzgahlarında toxuduğu və buna görə də baha başa gələn parçalara nisbətən manufaktura malları iki-üç dəfə ucuz satılırdı. Belə bir rəqabət qarşısında durmaq ayrı-ayrı sənətkarlar üçün olduqca çətin idi. İran hökuməti isə yerli şirkətləri, tacir və sənətkarları xarici malların rəqabətindən qorumaq üçün heç bir təşəbbüs göstərmir, əksinə, İran tacirlərinin xarici malların idxalını azaltmaq haqqında xahişlərini cavabsız qoyur, xarici kapital nümayəndələrinə verilən imtiyazları isə getdikcə artırırdı. Bu, şübhəsiz, yerli tacirləri ağır vəziyyətdə qoyurdu. 1836-cı ildə İran dövlətinin ingilis tacirlərinə verdiyi bəzi güzəştlər, 1841-ci ildə isə İngiltərə ilə bağladığı ticarət müqaviləsi ingilis sənaye mallarının İrana, o cümlədən Azərbaycana daha asanlıqla daxil olmasına imkan yaratdı. Bu müqaviləyə görə

---

[56] Ф. Бакулин. Очерки торговли с Персиею. Азербайджан. Мазандеран. Астерабад, СПб., 1875, səh. 7.
[57] Bax: Gurcüstan MDTA, f. 11, iş 1552, vər. 68.

ingilis tacirləri 1828-ci ildə Rusiya tacirlərinə verilmiş eyni güzəştləri əldə etdilər. Onlar İranda daxili gömrük vergisindən azad edildilər, gətirilən mallar üçün sərhəd gömrüyü malların dəyərinin 5 faizi miqdarında müəyyən olundu. İngiltərə İranın üç şəhərində, o cümlədən Təbrizdə öz ticarət nümayəndələrini saxlamaq hüququ da qazandı. 1856-1857-ci illərdə İran üçün uğursuz olan İngilərə - İran müharibəsi nəticəsində bağlanmış sülh müqaviləsinə görə isə ingilis tacirləri İranda daha bir sıra üstünlüklər, o cümlədən toxunulmazlıq hüququ əldə etdilər. 1845-ci ildə İran dövləti eyni güzəştli tarifləri Fransa, Avstriya və digər Avropa dövlətlərinə də verdi.[58]

Öz mallarını Təbriz bazarına çıxarmağa marağı olan ölkələrdən biri də Rusiya idi. Türkmənçay müqaviləsi ilə eyni vaxtda bağlanmış ticarət müqaviləsinə görə Rusiya tacirləri Avropa malları üçün daha sonra verilmiş üstünlüklərə malik idilər. Lakin Rusiyadan gələn mallar hələ azlıq təşkil edirdi. Belə ki, 1833-1851-ci illərdə Təbrizə gətirilən 321 milyon manatlıq xarici malın yalnız 11 milyonu Rusiyanın payına düşürdü[59] ki, bunlar da əsas etibarilə Zaqafqaziyadan gətirilən əmtəələr idi.

Avropa dövlətləri, xüsusilə İngiltərə Cənubi Azərbaycana külli miqdarda sənaye malı gətirdiyi halda, buradan çox az mal (əsas etibarilə ipək və boyaq maddələri) aparırdı. Xarici ticarətdə bu vəziyyət əyalətin təsərrüfatına mənfi təsir göstərirdi. Ölkənin sənətkarlıq və qismən kənd təsərrüfatı məhsulları daha çox Rusiyaya, hələlik isə əsasən Zaqafqaziya bazarına aparılırdı. 1833-

---

[58] М.С.Иванов. Очерк истории Ирана, səh. 151; Л.М.Кулагнина. Экспансия английского империализма в Иране в конце XIX - начале XX в., М. 1981, səh. 86.

[59] Gürcustan MDTA, f. 4. siy. 5, iş 843, vər. 14-15; f. 11, iş 2501, vər. 10-11 (burada və sonrakı məlumatlarda nəzərə almaq lazımdır ki, gətirilən bu rəqəmlər çar məmurları tərəfindən rəsmi gömrük hesabatları əsasında tərtib edildiyindən qaçaq mallar buraya daxil deyildi. İrandan aparılmış qaçaq malların ümumi illik dəyəri 1845-ci ildə 2,5 milyon manat olmuş, 1850-ci ilədək bir milyon manata enmişdi. Sonrakı illərdə görülən tədbirlər nəticəsində qaçaq mal aparılması xeyli azalmışdı. Bax: Gürcüstan MDTA, f. 11, iş 1552, vər. 38-43; iş 2501, vər. 6).

1851-ci illər ərzində Təbrizdən aparılan malların yarıya qədəri Rusiyaya ixrac edilmişdi.[60]

Həmin ticarətin əlamətdar cəhəti burasındadır ki, Cənubi Azərbaycandan Rusiyaya olan ixracat başqa ölkələrə ixracatdan daha sürətlə artırdı. Həm də Rusiya dövləti ilə ticarətin nisbətən geniş miqyasda yenicə inkişaf etməyə başladığı bu dövrün nəzərə çarpan bir sıra cəhətləri var idi. Əvvəla, Cənubi Azərbaycandan Rusiyaya ixrac edilən malların mühüm hissəsini sənətkarlıq məhsulları təşkil edirdi ki, bu da Rusiyada bu dövrdə hələ sənayenin zəif inkişafı ilə izah oluna bilər. İkincisi, bu məhsulların əksəriyyətini müsəlman xalqlarının məişətdə işlətdikləri bir sıra şeylər (müxtəlif parçalar, süfrə, boğça, çadra, qətifə və s.) təşkil edirdi ki, bunlar əsas etibarilə Şimali Azərbaycanda satılırdı. Bu malların bir hissəsini Cənubi Azəraycanın özündə, o cümlədən Təbriz, Marağa, Ərdəbil, Miyana, Xoy və s. şəhərlərdə hazırlanan mallar təşkil etdiyi halda, digər hissəsi İranın başqa vilayətlərindən satılmaq üçün Təbrizə gətirilmiş əmtəələrdən ibarət idi.[61] Bundan əlavə, malların bir qismi ayrı-ayrı şəhərlərdə alınsa da, yenə Təbriz vasitəsilə ixrac olunurdu. Məsələn, 1851-ci ildə Rəştdən alınmış 4.953.194 manatlıq ipək xaricə, o cümlədən Rusiyaya Təbriz vasitəsilə ixrac edilmişdi.[62] Eyni zamanda qeyd etmək lazımdır ki, bu dövrdə İngiltərədən buraya gətirilən çit və digər parçalar Təbrizdə, eləcə də İranın bir sıra şəhərlərində boyadıldıqdan və naxışlandıqdan sonra Rusiyaya ixrac edilirdi. Kermanda becərilən xına sonrakı illərdə qismən Təbrizə gətirilir, burada üyüdülüb kisələrə yığıldıqdan sonra ixrac edilirdi.

Cənubi Azərbaycanın Rusiya ilə bu dövrdəki ticarəti haqqında bir cəhəti də qeyd etmək lazımdır ki, Rusiyanın Moskva, Nijni-Novqorod, Tula və başqa şəhərlərindən buraya çit, parça, çini, saxsı və büllur qablar, samovar və s. gətirilsə də, bu malların mü-

---

[60] Bax: Gürcüstan MDTA, f. 4, siy.5, iş 843, vər. 16-17; f. 11, iş 2501, vər. 11-12.
[61] Gürcüstan MDTA, f. 4, siy.5, iş 843, vər. 7.
[62] Gürcüstan MDTA, f. 11, iş 2501, vər. 2-6.

hüm bir hissəsini keçmiş ticarət ənənəsi üzrə Şimali Azərbaycandan alınan mallar (zəfəran, qara və ağ neft, Şirvan ipəyi, camış dərisi, az miqdarda mis və s.) təşkil edirdi.[63] 1850-ci ildə Şimali Azərbaycandan Təbrizə gətirilmiş 270 min manatlıq bu əmtəələr həmin ildə bütün Rusiyadan gətirilən bir milyon manatlıq malın dörddə birindən çoxunu təşkil edirdi.

Həmin illər ərzində digər Avropa ölkələri ilə ticarətin əksinə olaraq Rusiya ilə ticarət həmişə müsbət balanslı olmuşdu. 1833-1851-ci illərdə Təbrizdən Rusiyaya aparılan mallar gətirilənlərdən orta hesabla 5,4 dəfə artıq idi (doğrudur, sonrakı dövrdə Rusiya ilə ticarət artdıqca, bu nisbət xeyli kiçilmişdi). Bu ticarət əlaqələrinin daha başqa bir cəhəti Təbrizdən aparılan malların əsasən sənətkarlıq məhsullarından ibarət olması idi. Bu vəziyyət hələ ölkə ticarətinin müstəmləkə xarakteri daşımadığını göstərir. Lakii 30-cu illərdən başlayaraq Təbriz və başqa şəhərlərdə olan çar məmurları rus sahibkarlarına İrandan pambıq ixracını artırmaqla Rusiyada əlavə fabrik açmağı və İrandan gətirməkdənsə, əksinə, oraya pambıq parça ixracına başlamağı və s. tövsiyə edirdilər.[64]

Burada əsas bir cəhəti göstərmək lazımdır ki, Rusiya ilə İran arasında ticarət əlaqələrinin genişlənməyə başladığı ilk dövrdə Azərbaycanın iki ayrı-ayrı dövlət tərkibinə keçmiş şimal və cənub hissələri arasındakı ticarət əlaqələri böyük əhəmiyyət kəsb edirdi.

## 2. İCTİMAİ-SİYASİ QURULUŞ

### İctimai quruluş, kənd və şəhərlərdə sinfi münasibətlər.

XIX əsrin ortalarında Cənubi Azərbaycanın feodal münasibətlərində nəzərəçarpacaq dəyişiklik baş verməmişdi. Əyalət əhalisinin əsas hissəsi yenə də feodalları bütün həyat nemətləri ilə

---

[63] Gürcüstan MDTA, f. 4, siy.5, iş 843, vər. 8-10; f. 11, iş 2501, vər.7-8. Təbrizə gətirilən camış dərisi işlənmək üçün qismən Kermanşaha, əsasən isə dabbaqçılığın çox inkişaf etdiyi Həmədana aparılırdı (bax: Gürcüstan MDTA, f.4, siy.5. iş 843, vər. 2).

[64] Gürcüstan MDTA, f. 11, iş 2501, vər.2-6; iş 856, vər.2-7.

təchiz edən zəhmətkeş kəndlilərdən ibarət idi. Şəhərlərdə yaşayan əhalinin böyük bir qismi kənd təsərrüfatının müxtəlif sahələri ilə, xüsusilə bağçılıq və bostançılıqla məşğul olurdu. Şəhər əhalisinin qalan hissəsi isə tacir, sənətkar, sənətkar şagirdi, ruhani təbəqəsindən və şəhər yoxsullarından ibarət idi.

Yuxarıda qeyd edildiyi kimi, ölkənin iqtisadiyyatındakı dəyişiklik əsaslı deyildi, sənaye ocaqları, demək olar ki, hələ yaranmamışdı. Xarici malların idxalının artması əyalətdə ayrı-ayrı sinif və təbəqələrin mövqeyini sarsıtmış olsa da, ictimai quruluşa, feodal münasibətlərinin əsasını təşkil edən torpaq üzərində mülkiyyətin xüsusiyyətinə hələlik elə bir təsir göstərə bilməmişdi. Torpaq üzərində mülkiyyət formaları, demək olar ki, elə XVII-XVIII əsrlərdəki kimi idi. Kəndlər və bunlar ətrafındakı əkin sahələri, bostan və bağlar, otlaqlar və sairədən ibarət torpaqların böyük əksəriyyəti yenə də dövlət və şahın sərəncamında olan xalisə torpaqlardan ibarət idi. İranın dövlət xəzinəsinə məxsus xalisələr ilk Qacar şahları Ağa Məhəmməd şah və Fətəli şah dövründə xeyli çoxalmış, Məhəmməd şah tərəfindən isə, əksinə, keçmiş sahiblərinə qaytarılmaq nəticəsində xeyli azalsa da, Nəsrəddin şahın hakimiyyətinin başlanğıcında müxtəlif yollarla yenidən artmışdı.

Dövlət, ixtiyarında olan xalisə torpaqlarının əksəriyyətini hakim Qacar sülaləsi üzvlərinə, müxtəlif xidmətlərinə görə ayrı-ayrı feodallara, dövlət məmurları və başqalarına vəzifədə olduğu müddətə və ya ömrünün sonunadək bağışlayırdı. Tiyul adlanan bu torpaqlar onun sahibinə tam mülkiyyət hüququ vermirdi, belə ki, tiyul sahibi həmin torpaq sahəsini sata və ya bağışlaya bilməzdi və əslində o, həmin torpaq mülkiyyətinin yalnız renta-vergisindən istifadə etmək hüququnu qazanmış olurdu.

XIX əsrin ortalarında Cənubi Azərbaycanda feodalların sahib olduqları böyük torpaq sahələrinin əksəriyyəti şah tərəfindən tam mülkiyyət hüququ olmadan dövlət torpaqları hesabına bağışlanmış tiyul və başqa torpaq sahibliyi formalarından ibarət idi. Onlara da tiyul, bir qayda olaraq, hər hansı mülki və ya hərbi xidmət müqabilində verilmişdi. Məsələn, Talış xanı Sultan Əhməd xan

Arşaq mahalını idarə etməsi müqabilində mahalın dövlət vergisinin məhsulla verilən hissəsini (160 xalvar) alırdı.[65] Türkmənçay kəndinin gəliri isə Cənubi Azərbaycanda yüksək hərbi vəzifə daşıyan Sadiqülmülkə məvacib əvəzində tiyul olaraq bağışlanmışdı.[66]

Mahal və ya kəndin gəliri - renta-vergisi hər hansı bir şəxsə qismən də verilə bilərdi. Məsələn, XIX əsrin əvvəllərinə aid bir fərmanda qeyd olunurdu ki, Dizmar mahalının (Qaradağ) Milak kəndinin pul və məhsul vergisi Əsəd bəy və Abutalıb bəyə onların illik məvacibi əvəzində verilir. Həmin şəxslər vergidən öz maaşlarını çıxdıqdan sonra bu barədə mahal hakiminə barat (yazılı sənəd) və verginin qalan hissəsini verməli idilər. Mahal mübaşirlərinə isə fərmana görə həmin kəndə daxil olmaq qadağan edilirdi.[67]

Dövlət, xalisə torpaqların renta-gəlirindən əlavə, ayrı-ayrı şəxslərin xüsusi mülkiyyətini təşkil edən torpaqlardan aldığı dövlət vergisini də tiyul kimi bu və ya digər vəzifə sahibinə məvacib əvəzinə verirdi. Məhz buna görə də mülk sahiblərinin çoxu öz kəndlərinin maliyyatını dövlət xəzinəsindən tiyul almağa çalışırdı.[68]

Hərbi və mülki vəzifə daşımaq şərtilə tiyul verilməsi tədricən azalırdı. Əsrin ortalarında nüfuzlu tiyul sahibləri, bir qayda olaraq, həmin torpaqları öz faktiki mülkiyyətinə çevirirdilər.

Şah oturaq və ya köçəri, yarımköçəri həyat sürən ayrı-ayrı tayfalara dövlət qarşısında hərbi xidmətə görə[69] torpaq sahələri bağışlayırdı. Bütün tayfanın sərəncamına verilən bu torpaqlar "ilati" - ilat (ellər) torpağı adlanırdı. Tayfa başçıları həmin tor-

---

[65] И.А.Огранович. Провинции Ардебильская и Серабская, Тифлис, 1876, səh.71

[66] И.А.Огранович. Поездка в Персию в 1836 году, «Военный сборник», 1866, т.52, отд.2, № 11, səh.173

[67] Gürcüstan MDTA, f.1452, sənəd 180 və 208

[68] Ann K.S.Lambton. Landlord and Peasant in Persia, London – New-York - Toronto, 1952, p.155.

[69] Dövlət nizami hərbi qüvvəyə malik olmaqla, müharibə zamanı və ya başqa fövqəladə hallarda tayfaların təqdim etdiyi çəriklərdən geniş istifadə edirdi. Dövlət sərhədlərinin qorunması vəzifəsi də, bir qayda olaraq, tayfaların öhdəsində idi.

paqların əkin yerlərini elin (obanın) üzvləri arasında bölməli idilər, lakin əslində torpaqlar o tayfa başçısının və ya tayfanın başında duran ailənin ixtiyarında idi.

İri feodallar arasında torpaq, o cümlədən otlaq yerləri və sudan ötrü arasıkəsilməyən çəkişmələr və bəzən silahlı toqquşmalar baş verirdi. Bu çəkişmələr kəndli əkinlərinin məhvinə səbəb olurdu.

Tiyul sistemi bu yolla öz əllərində geniş torpaq sahələrini cəmləmiş torpaq əsilzadələri müstəsna olmaqla, həmin sahibliklə bağlı olan şəxslər - kəndlilər, tiyul almış xırda dövlət məmurları, maliyyatı tiyul verilmiş orta və xırda torpaq mülkiyyətçiləri və xüsusilə dövlətin özü üçün iqtisadi cəhətdən əlverişli deyildi. Buna görə XIX əsr ərzində dövlət bir neçə dəfə vəzifə müqabilində torpağın gəlirinin tiyul verilməsini ləğv etməyə və dövlət qulluqçularına məvacibi bilavasitə dövlət xəzinəsindən ödəməyə təşəbbüs göstərsə də, buna müvəffəq ola bilməmişdi (XIX əsrin ortalarında baş nazirlərdən Hacı Mirzə Ağası[70], daha sonra Mirzə Tağı xan[71] bu təşəbbüsdə olmuşlar).

Feodalların mülkiyyətini tiyul və ilat torpaqları təşkil etmirdi. Feodalların öz xüsusi mülkiyyətində olan torpaqlar isə (Cənubi Azərbaycanda “mülk” adlanırdı) az idi. Buraya dövlətin nadir hallarda ayrı-ayrı şəxslərə xüsusi mülkiyyət hüququnda bağışladığı torpaqlar, dövlətdən satın alınmış və ya becərilən xam torpaqlar daxil idi. XIX əsrin ortalarına doğru xüsusi mülkiyyət hüququnda ayrı-ayrı şəxslərə məxsus torpaqların çoxalması meyli nəzərə çarpırdı. Mülk torpaqlarının əksəriyyəti feodal-zadəganların əlində cəmlənmişdi. Bir çox hallarda müamiləçi sərraflar da əsasən borc pul müqabilində girov götürmək yolu ilə torpaq mülklərini ələ keçirirdilər. Lakin bu dövrdə İranda şəxsiyyət və mülkiyyətin toxunulmazlığının təmin olunmaması başqa təbəqələrin, o cümlədən sərmayəsi olan tacirlərin torpaq mülkiyyəti ələ keçirməsini xeyli məhdudlaşdırırdı.

---

[70] (Н.Т.) Письма русского из Персии, ч.. I, səh. 242.

[71] Baş nazir və hərbi qüvvələr üzrə nazir vəzifələrini tutduğu üçün o, Əmir Kəbir və Əmir Nizam titullarını daşıyırdı.

Əyalətdəki torpaqların bir qismi də ali ruhanilərin başçılıq etdiyi dini idarələrə (məscid, məqbərə, mədrəsə və s.) məxsus "vəqf" adlanan torpaqlardan ibarət idi. Ərdəbildə Şeyx Səfi məscidinə və məqbərəsinə məxsus torpaqlar Cənubi Azərbaycanda ən böyük vəqf torpaqlar sayılırdı.[72] Bundan başqa, əyalətin digər yerlərində də nisbətən kiçik vəqflər var idi.

Bütün İranda olduğu kimi, Cənubi Azərbaycanda da ruhanilər vəqfləri idarə etmək adı altında vəqf torpaqlarının əsas gəlirini mənimsəyir və bu yolla külli miqdarda sərvət toplayırdılar. Bundan əlavə, onlar vəqf torpaqlarını dolayı yolla zəbt etməkdən də çəkinmirdilər. Məlumdur ki, vəqf torpaqları rəsmən məhdud feodal mülkiyyəti idi və şəriətə görə bu torpaqlar nə satıla, nə bağışlana, nə də girov qoyula bilərdi. Lakin bütün İranda olduğu kimi, Cənubi Azərbaycanda da ruhanilər vəqf torpaqlarını daha yaxşı mülkiyyətlə əvəz etmək adı ilə öz qeyri-məhdud xüsusi mülkiyyətlərinə çevirməyə cəhd göstərirdilər.

Bundan əlavə, bütün mülki məhkəmə işlərini, notarius aktlarının tərtibini, təhsil işini öz əlində cəmləyən, bu yolla da çoxlu gəlir əldə edən, yüksək dini məqamlara sahib olan iri ruhanilər - şeyxülislam, müctəhid və bəzi hallarda imamcümələr böyük iqtisadi, siyasi qüdrət və nüfuza malik idilər. Onlar iri əsilzadələrlə yanaşı, feodal sinfinin çox qüvvətli və imtiyazlı hissəsini təşkil edirdilər. Ruhanilərin yuxarı, qismən də orta təbəqəsi xüsusi mülkiyyət hüququnda əmlaka, o cümlədən torpaq sahələrinə malik olmaqdan əlavə dövlətdən də tiyul və təqaüd olaraq çoxlu vəsait alırdı. 1843-cü il qanunu ilə şah hökuməti notarius aktları tərtib etmək işini dövlət dəftərxanalarına tapşırmaqla ruhaniləri rəsmən bu hüquqdan məhrum etməyə təşəbbüs göstərsə də, ümumiyyətlə, Məhəmməd şah dövründə (1834-1848) ruhanilərə verilən tiyulların və təqaüdlərin miqdarı xeyli artmışdı. Mirzə Tağı xanın baş nazir olduğu dövrdə (1848-1851) dövlət xəzinəsindən ruhanilərə verilən təqaüdlər azaldılmış və Məhəmməd şah zamanı onlara ve-

[72] Л.К.Артаманов. Северный Азербайджан. Тифлис 1890, ч.1., səh. 28.

rilmiş və vəqf xarakteri daşımayan, yəni dini idarələrə aid olmayan tiyullar yoxlanılaraq qismən geri alınmışdı.[73] Eyni zamanda Qacar şahları Ərdəbildə olan vəqf torpaqlarını da qismən zəbt etmişdilər.[74]

Əyalətin zəhmətkeş və istismar olunan sinfini təşkil edən kəndlilərin cüzi hissəsinin xüsusi torpaqları var idi. "Xırdamalik" adlanan, daha çox Urmiya rayonunda təsadüf edilən bu kimi sahələrin ümumi həcmi torpaq mülkiyyətinin başqa növləri ilə müqayisədə heç dərəcəsində idi. İngilis müəllifi Frezerin qeyd etdiyinə görə[75] XIX əsrin əvvəllərində Azərbaycan əyalətində kəndlilərin kənd ətrafında mülkədardan pulla torpaq alması halları nisbətən tez-tez baş versə də və burada kəndli icma torpaqları İranın başqa yerlərinə nisbətən daha çox qalmış olsa da, bunların əyalətin iqtisadiyyatında rolu az idi. Kəndli kütlələrinin əksəriyyətinin torpağı yox idi, onlar dövlətə, dini və dünyəvi feodallara, o cümlədən tayfa başçılarına məxsus torpaqlarda sakin idilər və əkin yerlərindən, əvvəlki dövrdə olduğu kimi, paydarlıq icarəsi əsasında istifadə edirdilər. Kəndlilər ata-babadan əkib-becərdikləri torpaqlar üzərində sahiblik hüququna malik idilər (bunu 1843-cü il qanunu da təsdiq edirdi),[76] yəni onları zorla həmin torpaqlardan başqa yerə köçürmək olmazdı. Köçəri və yarımköçəri həyat sürən maldar kəndlilər isə qəbilə başçılarının mal-qarasını otarırdılar.

Kəndlilərin əsas istismar forması məhsul rentası idi. Kəndli bir qayda olaraq, becərdiyi məhsulun təqribən yarısını, istehsal şərtlərindən asılı olaraq bəzən daha çox hissəsini torpaq sahibinə renta və dövlətə vergi kimi verirdi. Kəndli renta və vergini əsasən

---

[73] Bax: А.Г.Подольский. Реформы Амир-Низама (1848-1851), канд. дисс., МГУ, 1949, səh. 93, 158.

[74] R.Vatson, səh. 197.

[75] J.B.Frasser. Narrative of a Journey into Khorasan in the years 1821 and 1822, London, 1825, p. 209.

[76] Bax: Mirza Məhəmməd Təği Lisan əl-Mülk Sepehr. Nasix əl-təvarix döureye kamel-e tarix-e Qacariye (*Qacar tarixinin tam dövrünün salnamələri*), Tehran, 1337/1958, cild 2, səh.148 (Sonrakı səhifələrdə. Sepehr. Qacar tarixi, səh... yazılacaqdır).

məhsulla, qismən də pulla ödəyir,[77] təsərrüfatın başqa sahələri, o cümlədən saxladığı mal-qara üçün hər heyvan başına müəyyən məbləğ verirdi.

XIX əsrin ortalarında dövlət vergilərinin qoyulduğu miqdardan artıq yığılması müşahidə olunur. Maliyyə-vergi işinə mustofilərdən (maliyyə işçilərindən) ibarət idarə başçılıq edirdi. Vergi siyahısının tərtib edilməsi, ayrı-ayrı mahal və vilayətlərin büdcələrinin təşkili və s. həmin mustofilərin vəzifəsinə daxil idi. 30-cu illərdə həmin idarə tərəfindən tərtib olunmuş vergi siyahılarına görə dövlət vergisi (maliyyat) kəndlinin ümumi məhsulunun onda biri qədər müəyyən edildiyi halda, əslində onda iki, sonrakı dövrdə daha çox hissə yığılırdı.[78] Kəndlini var-yoxdan çıxaran xüsusilə qeyri-sabit vergilər idi. Məsələn, dövlət hər hansı bir tədbir həyata keçirmək istədikdə, dövlət büdcəsində kəsir olduqda və s. hallarda "saderat" adı ilə kəndlilərdən əlavə vergi alırdı. Bundan başqa, yolboyu yerləşən kəndlərin əhalisi şah ordusunu onun keçdiyi bütün yerlərdə lazımi ərzaqla təmin etməli idi ("sürsat" vergisi). Ordu, o cümlədən əsgərlər bu imkandan son dərəcə sui-istifadə edir, xüsusilə yol kənarında yaşayan kəndliləri soyurdular.[79] Cənubi Azərbaycanda olmuş bir çox müəlliflər yolboyu bu səbəbdən tərk edilmiş bir çox kəndlərə rast gəldiklərini yazırlar. Bəzən isə bütöv bir kənd vergilərin ağırlığından oturaq həyatdan ilatlığa keçirdi.[80]

Kəndli təsərrüfatı natural xarakter daşıyırdı. Kəndli ailələrinin əksəriyyəti ailə üzvlərinə lazım olan zəruri əşyanı - paltar, ayaqqabı və s. özləri istehsal edirdi. Kəndli qadınlar kənd təsərrüfatı işlərindən azad olduqları vaxt sap və ya yun əyirir, parça, xalça, palaz, corab və s. toxuyurdular. Əyalətin bəzi rayonlarında (məsələn, ipəkçilik, pambıqçılıq, bağçılıq, bir sıra heyvandarlıq

---

[77] Г.Друвиль. Путешествие в Персию в 1812 и 1813 годах, ч.1, səh.125.

[78] Əli Əsğər Şəmim. İran dər doure-ye səltənət-e Qacar, Tehran 1342/1963, səh.272 (Sonrakı səhifələrdə: Ə.Ə.Şəmim səh... yazılacaqdır).

[79] (Н.Т.) Письма русского из Персии, ч. II, СПб., 1844, səh.319.

[80] П.Ограмович. Поездка в Перси.1863 году, «Военный сборник», 1866, т.52, отд.2, №11, səh.173, 183.

rayonlarında) kəndlilər az-çox bazarla bağlı idilər. Onlar qadının evdə toxuduğu kobud parçanı, xalça və s. sənətkarlıq məhsullarını şəhərdə sataraq ailənin istehlakı üçün zəruri şeyləri alırdılar.[81]

Əksər kəndli ailələrinin maddi vəziyyətinin ağırlığı nəticəsində onların həyat şəraiti də çox aşağı səviyyədə idi. Kəndlilərin çoxu pəncərəsiz palçıq evlərdə yaşayırdı.[82] Mənzil şəraitinin yarıtmazlığı bir sıra xəstəliklərin baş verməsinə səbəb olur, istər kənd, istərsə də şəhərlərdə vəba, taun kimi epidemiyaların yayılması üçün əlverişli şərait yaradırdı. Keçən əsrin 30-cu illərində Türkiyədən keçmiş vəba xəstəliyi Cənubi Azərbaycan əyalətində yayılaraq çoxlu insan tələfatına səbəb olmuşdu.[83]

Şəhərlərdəki ictimai münasibətlər haqqında isə aşağıdakıları demək olar.

Şəhərin imtiyazlı təbəqələrini irsən müxtəlif vəzifə və ali mənsəblərə sahib olan əsilzadələr - əyan və əşrəflər təşkil edirdi. Bu qəbildən olan iri torpaq sahibləri iqtisadi cəhətdən də qüdrətli idilər və əsasən şəhərlərdə yaşayırdılar.[84] Mahal və bölüklərin hakimi və digər dövlət vəzifələrini daşıyanlar isə sahib olduqları torpaq mülklərində kəndliləri şiddətli istismar etməkdən əlavə, şəhər əhalisinin - sənətkar, tacir və başqalarının da dövlət vergiləri yolu ilə soyulmasında iştirak edirdilər. Bunlar eyni zamanda, xüsusilə qıtlıq və aclıq illərində ərzaq mallarının möhtəkirliyi yolu ilə də külli miqdarda qazanc əldə etməkdən çəkinmirdilər. Məscid və digər dini ocaqlar vasitəsilə şəhər əhalisini soyan iri ruhanilər də möhtəkirliyə əl atırdılar.

Şəhərlərin ictimai-iqtisadi həyatında mühüm rol oynayan təbəqələrin -sənətkarlar və tacirlərin vəziyyəti bilavasitə bazarla

---

[81] (Н.Т.) Письма русского из Персии, ч. II, səh. 331.
[82] Yenə orada, səh. 319, 332.
[83] И.Н.Березин. Путешествие по Востоку. Путеществие по северной Персии, ч. II, Казань, 1852, səh.57, 129; Gürcüstan MDTA, f.11, iş 431, vər.17, 25.
[84] Ə.Ə.Şəmim, səh. 295.

müəyyən edilirdi. Bazarlar həm müxtəlif sənətkarlıq (dəmirçi, misgər, dülgər, dulusçu, dabbağ, dərzi, papaqçı, başmaqçı, çörəkçi, qəndçi və i. a.) emalatxanalarının cəmləşdiyi, həm də iri, orta və xırda tacirlərin fəaliyyət göstərdiyi yer idi. Deməli, şəhər bazarları həm bəsit sənaye malları istehsalı, həm də bu istehsal malları və kənd təsərrüfatı məhsullarının, eyni zamanda xaricdən gətirilmiş əmtəələrin satış mərkəzi rolunu oynayırdı. Ölkədə baş verən bütün hadisələr bu və ya digər dərəcədə burada öz əks-sədasını tapdığından bazarlar eyni zamanda bir növ siyasi klub rolunu oynayırdı. Şəhərlərdə baş verən ictimai-siyasi hadisələr, çıxışlar bir qayda olaraq, həmişə bazarlardan başlayırdı. Buna görə də bazarın bağlanması mühüm siyasi hadisə hesab olunurdu.

Şəhər əhalisinin dövlət vergisinə cəlb olunan hissəsi tacir və sənətkarlar idi. Məsələn, keçən əsrin 60-cı illərinin əvvəllərində, dəqiq olmayan məlumata görə, Təbrizin dövlətə vergisi ildə 21.000 tümən olmuşdu.[85]

Əvvəlki dövrlərdə olduğu kimi, sənətkarlar yenə də sexlərdə birləşirdilər. Tacirlərin də öz ittifaqı var idi. Şəhərin ən varlı və nüfuzlu taciri bu ittifaqın başında durur,[86] tacirbaşı (və ya məlikküttüccar) ləqəbini daşıyırdı. Sənətkar və tacirlər arasında vergilər müvafiq olaraq həmin sex və tacirlər ittifaqları vasitəsilə bölünürdü.

Ümumiyyətlə götürüldükdə tacirləri (istər daxili, istərsə də xarici ticarətdə fəaliyyət göstərənləri) üç qrupa bölmək olar. Keçən əsrin 60-cı illərinin sonlarında yazılmış əsərdə həmin qruplar haqqında aşağıdakı məlumat verilir.[87]

---

[85] И.Огранович. Поездка в Персию в 1863 г., «Военный сборник», т.52, отд.2, № 11, səh. 166.

[86] Məsələn, tacir başçılarından birisi Rusiya, İngiltərə, Türkiyə və Hindistanla geniş ticarət aparırdı və onun dörd milyon tümənədək sərmayəsi var idi (bax: И.Огранович. Поездка в Персию в 1863 году, "Военный сборник", т.52, отд.2, № 12, səh. 377).

[87] Ф.Бакулин. Очерки торговли с Персией. Азербайджан. Мазандеран, Астерабад, səh. 8-9.

1. Sərəncamında 5.000-20.000 tümən (15.000-60.000 manat) miqdarında sərmayəsi olan tacirlər. Bunlar xaricdən, əsasən İstanbuldan (buna görə də onlara istanbulçu da deyirdilər) böyük hissələrlə nisyə Avropa malları gətirirdilər. Bunları iri tacir hesab etmək olar.

2. 500-5.000 tümən (1.500-15.000 manat) sərmayəsi olan orta tacirlər. Binəkdar adlanan bu tacirlər Təbrizdəki xarici ticarət şirkətlərindən kiçik hissələrlə aldıqları malı xırda tacirlərə satırdılar.

3. Bəzzaz adlanan xırda tacirlər həmin malları bilavasitə alıcılara satırdılar.

Bütün şəhərlərdə bazarlar daruqənin (darğanın) idarəsi altında idi. Daruqə sərəncamında olan köməkçilər vasitəsilə dövlət vergilərinin sənətkar və tacirlərdən yığılmasına, əlavə vergilər həvalə edilməsinə, ərzaq mallarının təyin olunmuş qiymətdə satılmasına, çəki daşlarının düzgün olmasına və s. nəzarət edirdi. Daruqələr bütün bu işlərdən müxtəlif yollarla (vergilərin artıq yığılması, cərimələr qoyulması və s.) böyük qazanc əldə edirdilər. Onlar bu işdə özbaşınalıqdan və müxtəlif şəkildə təzyiqlərdən çəkinmirdilər.[88]1812-1813-cü illərdə ölkədə olmuş fransız zabiti Druvil Urmiyada bu vəzifə üçün bir nəfər şəxsin 10 min tümən rüşvət təklif etməsinin şahidi olduğunu yazır.[89] Eyni vəziyyət sonrakı illərdə də davam etmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi, bir çox şəhərlər (Maku Əhər və s.) orta əsr şəhərləri xüsusiyyəti daşıdığından feodal başçılarının zülmü şəhər əhalisi - sənətkarlar və tacirlər üzərində də hiss olunurdu.

---

[88] Г.Друвиль. Путешествие в Персию в 1812 и 1813 годах, ч. 1. səh. 97-100.

[89] Г.Друвиль. Путешествие в Персию в 1812 и 1813 годах, ч. 1. səh. 97

## İnzibati-siyasi quruluş.
## Şah hakimiyyətinin və yerli xanların ikiqat zülmü

Gülüstan müqaviləsindən sonra mərkəzi İran hökuməti Cənubi Azərbaycan əyalətində bir sıra nüfuzlu və qüvvətli xanların, o cümlədən Maku, Urmiya, Nəmin, Gərgər xanlarının hakimiyyətini tanımaqla, onları ayrı-ayrı xanlıqların hakimi kimi təsdiq etdi və daxili müstəqilliklərini saxlamalı oldu. Siyasi cəhətdən İran dövlətinə tabe olan bu yarımmüstəqil xanlıqlar (Maku xanları xüsusilə qüdrətli olmuşlar)[90] hələ uzun müddət öz daxili sərbəstliklərini qoruya bildilər. Dövlət bu xanlıqların daxili işlərinə qarışmır, lakin onlardan vergi və əsasən silahlı qüvvə tələb edirdi. Əvvəlki illərdə olduğu kimi, yenə də Cənubi Azərbaycan xanlıqları İran dövlətini mühüm hərbi qüvvə ilə təchiz edirdi. Qacarların hakimiyyəti dövründə İran ordusunun əsas piyada və atlı hissələrini məhz Cənubi Azərbaycanın müxtəlif qəbilələrindən - əfşarlar, şəqaqilər, eləcə də İranın başqa yerlərində yaşayan tayfalardan (Mazandaranda Qacarlardan) toplanan qüvvələr təşkil edirdi.[91]

Cənubi Azərbaycandakı digər xanlıqlar tamamilə ləğv edildi. Dövlət keçmiş xanlıqların yerinə ayrı-ayrı vilayətlərə lazım bildiyi adamları hakim təyin etdi. Əyalətdə vali vəzifəsindən tutmuş vilayət hakimlərinədək, yuxarıda göstərilən bir neçə xanlıq müstəsna olmaqla, yerli xanlardan təyin edilməyib, əsasən mərkəzdən göndərildiyinə görə xanlar Qacarlardan narazı idilər.[92]

---

[90] Maku xanlığı yalnız 1924-cü ildə ləğv edildi.

[91]Bax: Г.Друвиль. Путешествие в Персию в 1812 и 1813 годах, ч. I, səh. 16; Артаманов. Персия как наш противник в Закавказье, Тифлис, 1889, səh. 11, 24-25; R.Vatson, səh. 121.

[92] Məsələn, Şəqaqi elinin (Sarab xanlığı) başçısı Sadıq xan Fətəli şah tərəfindən Tehranda öldürüldükdən sonra onun oğlu Cahangir xan elin başçısı keçsə də, Sarab xanlığının hakimiyyətindən məhrum edilmişdi. Çahangir xan Qacarların barışmaz düşməni idi. Bax: R.Vatson, səh. 163.

Mindən artıq arvad-uşaqı olan Fətəli şah[93] saysız-hesabsız şahzadələri İranın müxtəlif yerlərinə, o cümlədən Cənubi Azərbaycana vali və hakim vəzifələrinə təyin edirdi.

İstibdad üsuli-idarəsinin hakim olduğu İranda Fətəli şah bütün sərəncamları baş vəzir və ya baş nazir (sədre-ə'zəm) vasitəsilə həyata keçirirdi. Təqribən hicri 1239-cu ildə[94] formal şəkildə olsa da, ilk dəfə olaraq xarici işlər nazirliyi, bir qədər sonra daha üç nazirlik yarandı.[95] Nəsrəddin şah dövründə nazirliklərin yaradılmasına yenidən təşəbbüs göstərildi. 1858-ci ildə ölkənin bütün işlərini idarə etmək üçün altı nazirlikdən ibarət nazirlər heyəti yaradıldı. Daxili, xarici, maliyyə, ədliyyə və s. nazirliklərdən ibarət bu heyət bilavasitə şaha tabe idi. Nəsrəddin şah eyni zamanda nazirlərin, böyük şahzadə və bir neçə başqa yüksək rütbəli əyanların iştirakilə dövlət məclisi (məclis-e dərbar-e ə'zəm) də yaratdı.[96] Bu məclis sonra yalnız nazirlərdən ibarət nazirlər şurası məclisi ilə əvəz edildi. Lakin bu tədbirlərə baxmayaraq, dövlətin bütün işlərini əslində şahın adından sədre-ə'zəm idarə edirdi. Yəni əvvəlki dövlət quruluşunda heç bir dəyişiklik yox idi.

Fətəli şahdan başlayaraq, Qacar şahlarının daxili siyasətində Cənubi Azərbaycan xüsusi yer tuturdu. Fətəli şah zamanında Cənubi Azərbaycan "vəliəhdneşin" (vəliəhd əyləşən yer) hesab edilmiş, "darüssəltənə" (səltənət evi) adlandırılan Təbrizdə isə bundan sonra həmişə Qacarların rəsmi vəliəhdləri oturmuşlar. Vəliəhdin İran dövlətinin canişini kimi Təbrizdə oturması, şübhəsiz, Azərbaycanın İran üçün iqtisadi, xüsusilə siyasi əhəmiyyətindən

---

[93] Saray tarixçisi Sepehr yazır ki, Fətəli şahdan sonra onun 57 oğlu, 46 qızı, hərəmxanasında minə yaxın arvadı (bunlardan 158-i adlı-sanlı nəsildən idi) qalmışdı. Bax: Sepehr. Qacar tarixi, cild 1, səh.314, 328

1834-1835-ci illərdə İranda olmuş baron Korf Fətəli şahın təkcə övladlarının - oğul-qız və nəvə-nəticələrinin sayını 935 nəfər göstərir. Bax: Ф.Корф. Воспоминания о Персии, 1834-1835, СПб., 1838, səh. 139.

[94] Hicri-qəməri 1239-cu ili miladi tarixi ilə 7.09.1823 - 25.08.1824-cü ilə uyğundur.

[95] Ə.Ə.Şəmim, səh. 263.

[96] Ə.Ə. Şəmim, səh. 140.

doğurdu. İlk Qacar şahları dövründə Cənubi Azərbaycan, xüsusilə Təbriz dövlətin xarici siyasətində də mühüm rol oynayırdı. Belə ki, vəliəhd burada oturduğu və Təbriz bir növ ikinci paytaxt olduğu üçün xarici diplomatik nümayəndələrin də iqamətgahı ilk dövrdə Təbriz hesab edilirdi. 1814-cü ildə Tehranda bağlanmış İngiltərə - İran müqaviləsinə görə yaradılmış daimi ingilis səfirliyinin iqamətgahı Təbriz müəyyən edilmişdi.

1828-ci ilin 10 fevralında Türkmənçay müqaviləsi bağlandıqdan və İranla Rusiya arasında diplomatik münasibətlər bərpa edildikdən sonra İrana göndərilən Rusiyanın səlahiyyətli səfirinin də iqamətgahı ilk dövrdə Təbriz şəhərində idi.[97] Bundan əlavə, hər iki dövlətin razılığına görə İranda Rusiyanın üç konsulluğu olmalı idi ki, bunlardan baş konsulluq Təbrizdə, qalan ikisi Gilanda (Rəşt şəhərində) və Astarabadda açılmışdı. Türkiyənin baş konsulluğu da Təbriz şəhərində yerləşirdi.

Başda vəliəhd olmaqla əyalətin müxtəlif inzibati idarə orqanlarına təyin olunmuş şahzadələrin hər biri öz ətrafında böyük bir müftəxorlar dəstəsi toplamışdı. Əyalətin idarə olunmasına rəhbərlik rəsmən vəliəhdin ixtiyarında idi, əslində isə bu işi, adətən, şahzadələr içərisindən təyin olunan vali (qaimməqam) aparırdı.[98] Valinin sərəncamında böyük bir idarə aparatı var idi. Buraya Təbriz şəhərinin bəylərbəyisi, əyalətdə yerləşən bütün nizami qoşun hissələrinin başçısı vəzire-nizam (və ya əmire-nizam), vergilərin toplanması və ümumiyyətlə əyalətin maliyyə işlərinə başçılıq edən mustofi və başqaları[99] daxil idi. Bəzən, məsələn, 1858-ci ildə xəbər verildiyi kimi, vali şahzadə Rüknüddövlə idarə işlərində zəiflik göstərdiyinə görə vəzire-nizam əyalətin idarə olunmasını öz əlinə ala bilmişdi.[100]

Yerlərdə, yəni ayrı-ayrı vilayətlərdə isə bu göstərilən idarə aparatı nisbətən kiçik miqyasda təkrar edilirdi.

---

[97] В.Потто. Кавказская война в отдельных очерках, эпизодах, легендах и библиографиях, т.3, вып.4, СПб., 1887, səh. 613.
[98] R.Vatson, səh. 186.
[99] Gürcüstan MDTA, f. 11, iş 3251, vər. 2; iş 431; vər. 36.
[100] Gürcüstan MDTA, f. 11, iş 3251, vər. 2.

Əyalətdə mühüm vəzifələrə namizədləri şəxsən şah özü müəyyən edir və bu barədə xüsusi fərman verirdi. Məsələn, 1837-ci ildə Məhəmməd şahın Təbriz bəylərbəyisi vəzifəsinə Əhməd xanı (atası Məhəmməd xan öldükdən sonra), Xoy mahalına Xudadad xanı, Qaradağa Əmiraslan xan Dumbulunu, Ərdəbilə zəncanlı Hüseynqulu xanı təyin etməsi məlumdur.[101] Göründüyü kimi, şah bəzi vəzifələrə yerli xanlardan da təyin edirdi.

Əyalətin mərkəzi Təbrizə, vilayət və mahallara təyin olunan şahzadələr öz vəzifələrinə gəlir mənbəyi kimi baxır, əhalini soyurdular. Bu məsələ ədəbiyyat və mənbələrdə geniş işıqlandırılmışdır. Qacarlar dövrünü xüsusi tədqiq etmiş İran tarixçisi Əli Əsğər Şəmim bu cəhətə toxunaraq yazırdı: "Qacar şahzadələri öz ad, məqam və malik olduqları ixtiyaratdan istifadə edərək şahın özünün istibdadından daha şiddətli və daha qəddar bir istibdadla xalqı incidirdilər... Şahzadələrdən hər biri məqam və dərəcəsindən asılı olaraq öz ətrafında vəzir, mustofi, məmurlar, fərraşlar və s. ibarət bir idarə sistemi düzəldirdi. Bunların isə xərci dövlət xəzinəsindən verilirdi. Şahzadələr bu sahədə bir-birilə rəqabət etdiyindən bunların sayı gündən-günə çoxalır və deməli, dövlətin xərci artırdı".[102]

İngilis müəllifi Vatson yazırdı ki, "Azərbaycan əyaləti Məhəmməd Mirzənin qardaşlarının zülm və işgəncələrindən çoxlu zərər çəkmişdir".[103] Məhəmməd Mirzə şah olduqdan sonra onun bir müddət Azərbaycan əyalətində vali olmuş qardaşı Qəhrəman Mirzəni idarə işləri yox, vergilərin artıqlamasilə yığılması, daha çox varlanmaq maraqlandırırdı.[104]

Hakimiyyət orqanlarındakı başqa məmurlar da şahzadələrdən geri qalmırdılar. 1858-ci ildə Təbrizdəki rus baş konsulunun hesabatında göstərilirdi ki, əyalətin idarə işlərində hakimlik edən vəzire-nizam Mirzə Fəzlullah (sədre-əzəmin qardaşı) vali şahza-

---

[101] Gürcüstan MDTA, f.11, iş 431, vər.36, 41.
[102] Ə.Ə.Şəmim, səh. 253-254.
[103] R.Vatson, səh.1851.
[104] (Н.Т.) Письма русского из Персии, ч.I, səh.64-66.

də Rüknüddövlənin zəifliyindən istifadə edərək son dərəcə tamahkarlığa yol verir, "Azərbaycana ona bağışlanmış gəlir mənbəyi kimi baxırdı... Əyaləti soymaqla o, Azərbaycanı ən fəlakətli vəziyyətə gətirib çıxarmışdı".[105]

Qacar şahları yüksək vəzifələrdən əlavə şahzadələrə tiyul olaraq əmlak və əkin yerləri də bağışlayırdılar. Yuxarıda qeyd olunduğu kimi, belə bağışlamalara Məhəmməd şah dövründə daha çox təsadüf olunurdu. Beləliklə, hakim Qacar sülaləsinin üzvləri idarə aparatında olmaqla siyasi hakimiyyət əldə etməkdən əlavə, aldıqları tiyul və qarətləri hesabına torpaq sahibləri sırasında dururdular. Bununla da onlar həm siyasi nüfuza, həm də sosial və iqtisadi qüdrətə malik olmaqla feodal sinfinin ən iri və möhkəm hissəsini təşkil edirdilər. **Qacarlar əslən Azərbaycan tayfalarından[106] olmalarına, məhz bu qəbilələrin hərbi qüvvələrinin yardımı ilə hakimiyyətə gəlmələrinə baxmayaraq, İranda hakim milli qrup olan farsları heç də sıxışdırmamış, bəlkə əksinə, əvvəlki dövlət aparatını, onun bütün ənənələrini[107] saxlamışdılar.**

Azərbaycan əhalisinin, xüsusilə geniş kəndli kütlələrinin qarşı-qarşıya durduğu əsas istismarçılar yerli feodallar idi. Bir çox xanlar siyasi hakimiyyətdən kənar edilsələr də, onların xalq kütləri üzərindəki ağalığı toxunulmaz qalırdı. Yuxarıda qeyd edilən Maku, Urmiya xanları və başqa vilayətlərdəki xanlar isə eyni zamanda siyasi hakimiyyətə də sahib idilər, deməli, bunların istismarı daha şiddətli idi. Ucqar dağlıq rayonda yerləşən, köçəri və yarımköçəri təsərrüfata malik olan Maku kimi yarımmüstəqil

---

[105] Gürcüstan MDTA, f.11, 3251, vər.3.

[106] Azərbaycan tayfalarından olan Qacarlar qismən Gəncə ətrafında yaşayırdılar. I Şah Abbas (1587-1629) burada yaşayan Qacarlardan 30.000 ailəni köçürərək onları Mərv nahiyəsnndə və Astarabadın Mübarəkabad qalası ətrafında yerləşdirdi. XVIII əsrin ikinci yarısında İranda hakimiyyət uğrunda mübarizə aparan tayfalardan biri də vaxtilə Astarabada köçürülmüş Qacarlar idi (Bax: A.Bakıxanov. Gülüstani-İrəm, Bakı, 1951, səh. 180).

[107] Bax: В.Н.Левиатов. Очерки из истории Азербайджана в XVIII веке, Баку, 1948, səh. 158-159.

xanlıqda qəbilə birliyinin başında duran tayfa başçıları bütün inzibati-maliyyə işlərini və hərbi-siyasi hakimiyyəti öz əllərində cəmləmişdilər. Onlar təsərrüfat işlərinə rəhbərlik edir, vergiləri toplayır, lazım gəldikdə öz feodal şərikləri ilə dövlətin xidmətində olurdular.

Beləliklə, əhali həm yerli xanların, həm də hakim sülalənin getdikcə möhkəmlənən hakimiyyətinin zülmünə məruz qalırdı. Dövlət məmurlarının qanunsuz rəftarı xalqın vəziyyətini daha da ağırlaşdırırdı. Bu cəhət Təbrizdəki rus baş konsulunun 1845-ci ildə şəhərin ticarəti haqqında verdiyi məlumatda da qeyd edilirdi. Məlumatda deyilirdi ki, əhali qanunsuz idarə edilməkdən üzülmüşdür.[108] Bu vəziyyət bəzi kəndliləri qismən şəhərlərə qaçmağa məcbur edirdi. Onlar burada şəhər yoxsulları sırasına daxil olurdular. Yoxsullaşmış kəndlilər qonşu vilayət və mahallarda iş axtarmağa[109] məcbur olduqları kimi, bəzən daha uzaqlara, hətta xaricə, məsələn, Dərbəndə (burada qızıl boya yığırdılar) qədər gedib çıxırdılar.

Yuxarıda deyilənlərdən aydın olur ki, keçən əsrin ortalarında Cənubi Azərbaycanda mövcud olan sosial-iqtisadi və siyasi vəziyyət geniş xalq kütlələrinin az-çox normal yaşayışı ilə tam uyğunsuzluq təşkil edirdi. Bu uyğunsuzluq nəticəsində əhali, xüsusilə sənətkarlar, xırda tacirlər və kəndlilər içərisində narazılıq, bəzi hallarda isə ayrı-ayrı çıxışlar baş verirdi. Dövlət məmurlarının ölkədə əmin-amanlığı qorumaq əvəzinə soyğunçuluqla məşğul olması, bunun nəticəsində quldur dəstələrinin basqınlarının artması, ticarət yollarının təhlükəli olması[110], ən böyük bəlalardan olan xarici şirkətlərin kəskin rəqabəti tacirlərin digər qruplarının da narazılığına, habelə kütləvi həyəcanlara səbəb olurdu.

---

[108] Gürcüstan MDTA, f.11, iş 1552, vər.43.

[109] 1846-cı ildə xəbər verildiyi kimi, yayda kəndlilər Xalxaldan qonşu Gilana düyü zəmilərində işləməyə gedirdilər. Bax: RXSA, “Baş arxiv 1-9” fondu, iş 11, vər.177.

[110] Bax: Gürcüstan MDTA, f.11, iş 3251, vər.2-6.

30-cu illərin sonu, 40-cı illərin əvvəllərində Təbrizdə, tez yatırılsa da, bir neçə dəfə həyəcan və çıxışlar baş vermişdi.[111] 1847-ci ildə Zəncanda sənətkarlar, xırda tacirlər və şəhər yoxsulları hakimə qarşı çıxmış, onu şəhərdən qovmuşdular. 1848-ci ildə yenə də Təbrizdə şəhər yoxsulları və sənətkarların həyəcan və çıxışı baş vermişdi.[112]

1850-ci ildə Zəncanda babilər üsyana qalxdılar. Babi üsyanları yatırıldıqdan sonra əhali içərisindəki narazılıqlar, xüsusilə dövlət məmurlarının özbaşınalığına qarşı etiraz çıxışları özünü zəif də olsa, vaxtaşırı göstərirdi. Sosial-siyasi və iqtisadi əsasda baş vermiş belə gərgin vəziyyət 1858-ci ildə yaranmışdı. Həmin ildə əyalətin idarələrindəki baş məmurların soyğunçuluq hərəkətləri hər yerdə əhalinin narazılığına səbəb olmuşdu. Bu etirazlar 1858-ci ilin yanvarında yuxarıda adı çəkilən vəzire-nizam Mirzə Fəzlullaha qarşı Təbrizdə açıq üsyana çevrilmiş, əhali yalnız vəzire-nizam Tehrana çağırıldıqdan sonra sakitləşmişdi.[113]

1864-cü ildə Təbrizdə xarici şirkətlərin kəskin rəqabətilə üzləşən tacirlərin kütləvi etirazı baş vermişdi. Təbriz bazarında malların satış qiymətinin aşağı salınması əsasında baş vermiş və dörd ay davam etmiş bu narazılıq müddətində bütün xarici şirkətlərlə ticarət əlaqələri dayandırılmışdı. Yalnız qiymətlər əvvəlki səviyyəyə qaldırıldıqdan sonra tacirlər dükanlarını açmışdılar.[114]

XIX əsrin ortalarında baş vermiş bu ayrı-ayrı çıxışlar öz əhatə dairəsinə, ictimai tələblərinə görə başlıca olaraq çox məhdud, heç bir siyasi-məfkurəvi prinsipə əsaslanmayan, pərakəndə və kortəbii idi. Bunlardan yalnız 1848-1852-ci illərdə genişlənmiş babi üsyanları öz ictimai-siyasi məzmunu, nəhayət, kütləviliyi ilə fərqlənir və özünəməxsus yer tuturdu.

---

[111] Н.Т. Письмо русского из Персии, ч. I, səh. 220; И.Н.Березин. Путешествие по Востоку. Путешествие по северной Персии, ч. II, səh. 27.

[112] М.С.Иванов. Очерк истории Ирана, səh. 158.

[113] Gürcüstan MDTA, f.11, iş 3251, vər.2-6.

[114] Л.М.Кулагина. Экспансия английского империализма в Иране в конце X1X -  начале XX в, 1981, səh. 108.

## 3. AZƏRBAYCANDA BABİLƏR HƏRƏKATI

Babizmin və bu təriqət zəminində genişlənmiş hərəkatın banisi Seyid Əli Məhəmməd olmuşdur. 1820-ci ildə Şirazda pambıq parça alıb-satan xırda tacir ailəsində anadan olmuş Əli Məhəmməd əvvəllər "şeyxi" təriqətinə mənsub idi. Həmin təriqətin son başçısı Seyid Kazım öldükdən sonra Seyid Əli Məhəmməd özünü şeyxi təriqətinin başçısı elan etmişdi. Seyid Əli zülm və ədalətsizlik içərisində yaşayan xalqa həqiqətlərin çatdırılmasında özünü sonuncu imam Mehdi ilə xalq arasında vasitəçi elan etmiş və buna görə də 1844-cü ildən etibarən Bab (ərəbcə qapı, darvaza deməkdir) ləqəbini götürmüşdü. O, irəli sürdüyü fikirlərlə yeni bir təriqətin əsasını qoymuşdur.

Hakim dairələr tərəfindən təqib olunmasına, işgəncələrə məruz qalmasına, bir şəhərdən digərinə qaçmağa məcbur olmasına və nəhayət, İsfahandan Makuya, oradan isə Urmiya yaxınlığındakı Çehrik qalasına sürgünə göndərilməsinə, sonra isə Təbrizə gətirilərək din xadimlərinin mühakiməsinə verilməsinə[115] baxmayaraq, Bab öz əqidəsindən dönməmiş, getdiyi yerlərdə öz fikirlərini təbliğ etmişdi. Zülmdən, hakimlərin soyğunçuluğundan əziyyət çəkən geniş xalq kütləsinin bir qismi Babın çağırışlarında öz ağır vəziyyətindən qurtuluş görür, xilas olmaq üçün ona qoşulur, ardınca getməyə hazır olduğunu bildirirdi.[116]

1848-1849-cu illərdə (xüsusilə 1849-cu ildə Mazandaranda babilər üsyanı yatırıldıqdan sonra) İranda Babın tərəfdarlarının sayı daha da artmışdı. Çehrik qalasına İranın müxtəlif yerlərindən, hətta Türkiyə və Hindistandan Babın görüşünə adamlar gəlirdilər.

Babın əsas ideyaları onun "Bəyan" adlı əsərində ifadə olunmuşdur. Babın fikrincə, bütün dünya və insan cəmiyyəti bir-birini əvəz edən dövrlər üzrə inkişaf edir və hər yeni dövrün öz qanun-

---

[115] Bax: Sepehr. Qacar tarixi, II cild, səh. 203; Мирза Казем-Бек. Баб и бабиды. Религиозно-политические смуты в Персии в 1844-1852 годах, СПб, 1865, səh. 13-35.

[116] М.С.Иванов. Бабидские восстания в Иране. М. - Л., 1939, səh. 64-65.

qaydaları olur. Hər yeni dövrün qanun-qaydasını o dövrün peyğəmbəri gətirir. Bab deyirdi ki, indi üləma və hakimlərin zülmü nəticəsində İran bədbəxtlik və əziyyətlər diyarına çevrildiyindən yeni peyğəmbər imam Mehdinin zühür etməsi vaxtı çatmışdır. Bunlara əsaslanaraq o özünü əvvəl imam Mehdinin fikirlərini xalqa çatdırmaqda vasitəçi - Bab, sonra isə yeni pəyğəmbər elan etdi.[117]

Bab yeni yaradılacaq cəmiyyətdə insanlar arasında, o cümlədən qadınlara münasibətdə bərabərlik, ədalət, şəxsiyyətin toxunulmazlığını elan edirdi. Babın fikrincə, bu dini əqidəni qəbul etməyənlər ölkədən qovulmalı, onların əmlakı isə babilər arasında bölüşdürülməli idi. Babın müddəalarında ticarətə və tacirlərə xüsusi yer verilir, onların mənafeyi ilə əlaqədar aydın tələblər irəli sürülürdü (Bab özü tacir olmuşdur). Ümumiyyətlə isə Bab öz fikirlərində tacir, sənətkar və kəndlilərin arzularını əks etdirirdi.[118] İctimai-siyasi xarakteri etibarilə babizm feodallara, ali ruhanilərə və xarici kapitala qarşı çevrilmişdi. Lakin Babın inqilabi tələbləri xalqa yeni din vasitəsilə təqdim edilirdi. Bu da təəccüblü deyildi. Marksın dediyi kimi, vaxtilə Şərqdə bütün inqilabi çıxışlar din pərdəsi altında aparılmışdır.[119] Orta əsr qalıqlarının və xurafatın hələ qüvvətli olduğu XIX əsr İranında da bu təbii hal idi.

Babın dedikləri geniş xalq kütlələrinin istəklərini əks etdirdiyindən onun tərəfdarları sürətlə artırdı. Ayrı-ayrı yerlərdə üsyanlar baş verirdi. Hökumətin Bab tərəfdarlarını təqib etməsi Mazandaranda böyük bir üsyana (oktyabr 1848 - may 1849) səbəb oldu.

Babı öldürməklə bütün İranda hərəkatın qarşısını almağa ümid edən hökumət 1850-ci il iyulun ilk günlərində onu Təbrizdə edam etdirdi.[120] Lakin Babın öldürülməsi ilə hərəkat yatmadı, İran hökumətinin gözlədiyinin əksinə olaraq, daha artıq alovlandı.

---

[117] Bax: Sepehr. Qacar tarixi, II cild, səh. 160; III cild, səh. 56-57;, М.С.Иванов. Бабидские восстания в Иране, səh. 70.

[118] Ətraflı məlumat almaq üçün bax: М.С.Иванов. Бабидские восстания в Иране, səh. 68-76.

[119] К.Маркс и Ф.Энгельс. Сочинения, изд. 2, т.15, М., 1959, səh. 529.

[120] Bax: Sepehr. Qaçar tarixi, III cild, səh. 99-101.

Babın şagirdləri və tərəfdarları "Bəyan"ın təbliğini daha böyük qüvvə və əzmlə davam etdirməyə başladılar.

Babın həmfikirləri İranın müxtəlif yerlərində fəaliyyət göstərirdilər. Onlar Mazandaranda, Xorasanda yığıncaqlar keçirərək çıxışa hazırlaşırdılar.[121]

Cənubi Azərbaycanda Babın çoxlu ardıcılı (Zəncanda Molla Məhəmmədəli, Təbrizdə və s. yerlərdə ərdəbilli Molla Yusif və b.) var idi. Onlar Azərbaycan kəndlərini gəzərək, xalqı feodal və üləmaların zülmünə və qanunsuz hərəkətlərinə qarşı üsyana çağırırdılar. Azərbaycanda mövcud olan ictimai-siyasi zəmin əsasında aparılan bu təbliğat nəticəsində babilərin sayı sürətlə artırdı. Azərbaycanda babilərin nüfuzu o qədər güclənmişdi ki, hətta bütöv kəndlər (misal üçün, Təbriz yaxınlığındakı Milan kəndinin bütün əhalisi) babiliyi qəbul etmişdi.[122] Bab hələ Makuya sürgün edildiyi zaman Cənubi Azərbaycandan keçərkən əyalətin şəhər və kəndlərində əhali tərəfindən böyük rəğbətlə qarşılanmışdı.[123]

Babın ardıcılları arasında qadınlar da var idi. Bab təliminin bərabərlik, o cümlədən kişilərlə qadınlar arasında bərabərlik elan etməsi qadınlar arasında babilərə böyük hörmət qazandırmışdı. Babın davamçısı olan Sübhi Əzəlin qohumu Fəzlullah Mehtədi Sübhinin yazdığına görə İranda bir çox ailələrdə qadınlar babilik (sonra isə bəhailik) təriqətini qəbul etmişdilər.[124] Həmin qadınlardan biri - Qəzvin müctəhidi Hacı Məhəmməd Salehin qızı öz zəkası, savadı, şairlik və natiqlik istedadı ilə xüsusi şöhrət qazanmışdı. Əsl adı Zərrintac olan bu azərbaycanlı qadını ardıcılları Qürrətüleyn (gözün nuru) adlandırır, xalq isə onu Tahirə (təmizlərin təmizi) deyə çağırırdı. Zərrintacın məntiqi və alovlu nitqləri, incə və ağıllı şeirləri Qəzvində Babın tərəfdarlarını sürətlə artırır-

---

[121] Sepehr. Qacar tarixi, II cild, səh. 209.
[122] Мирза Казем-бек. Баб и бабиды, səh. 58.
[123] Атрпет. Бабизм и бехаизм, Тифлис; 1910, səh. 57; М.С.Иванов. Бабидские восстания в Иране, səh. 65.
[124] Bax: Fəzlullah Mehtədi Sobhi. Peyam-e pedər (*Atanın ismarıcı*), Tehran, 1334/1955.

dı. Qürrətüleyn şəhərdəki ruhanilərin təqibləri nəticəsində Qəzvini tərk etməli olsa da, öz təbliğatını İranın müxtəlif şəhər və kəndlərində davam etdirirdi.[125]

Cənubi Azərbaycanda babilərin ən böyük üsyanı Zəncanda olmuşdu. 1850-ci ilin baharında təkcə şəhərdə babilərin sayı 15 min nəfərə çatırdı.[126] Bundan əlavə, yaxınlıqdakı kəndlərin əhalisinin də bir çoxu onlara qoşulmuşdu.[127]

Babilər hakim dairələrlə ciddi mübarizəyə hazırlaşırdılar. Onlar 1850-ci ilin mayında şəhər qalasını tutdular.[128] Şəhər iki hissəyə bölündü: şəhərin yarıdan çox hissəsi babilərin əlinə keçdi. Babilərin zəbt etdiyi hissədə yaşayan zadəganlar və varlılar öz əmlakını tərk edərək o biri hissəyə qaçdılar. Vuruşmalarda babilərin ailə üzvləri də iştirak edirdilər. Qadınlar istehkamlar düzəldir, kişilərlə yanaşı vuruşurdular. Əsas etibarilə kəndli və sənətkarlardan ibarət olan babilər içərisində çoxlu tacir və aşağı təbəqəyə mənsub ruhanilər də var idi.[129] Üsyanın başçısı Molla Məhəmmədəlidən əlavə başqalarını da göstərmək olar: silahlı dəstələrə başçılıq edən Din Məhəmməd, tacir Hacı Abdulla, parça ticarəti edən Məşədi Süleyman, çörəkçi Hacı Abdulla, dəmirçi Kazım və b. sənətkarlar, qılınc, nizə, tüfəng, hətta iki top hazırlamışdılar.[130] Ətraf kəndlərdən olan əhali üsyançıları gizli surətdə ərzaqla təchiz edirdi.[131]

Şah hökuməti tərəfindən üsyanı yatırmaq üçün göndərilmiş hərbi hissələr və feodal dəstələri iyunun əvvəllərinddə Zəncanı mühasirəyə aldılar. Babilər qoşunun ilk hücumunu müvəffəqiyyətlə dəf etdilər.

---

[125] Вах: Мирза Казем-бек. Баб и бабиды, səh.58-61; Атрпет. Бабизм и бехаизм, səh.69-70.

[126] М.С.Иванов. Бабидские восстания в Иране, səh.110.

[127] Мирза Казем-Бек. Баб и бабиды, səh.102.

[128] Sepehr. Qacar tarixi, III cild, səh.90-91.

[129] М.С.Иванов. Бабидские восстания в Иране, səh.111.

[130] Yenə orada, səh. 112; Мирза Казем-Бек. Баб и бабиды, səh.110.

[131] Мирза Казем-Бек. Баб и бабиды, səh.110.

İyulun əvvəllərində Təbrizdə Babın edam edilməsi xəbəri Zəncan üsyançılarının cərgələrini sarsıda bilmədi, əksinə, babilər daha böyük ruh yüksəkliyi ilə vuruşdular. İyulun sonunda Tehran hökuməti üsyançılar üzərinə yeni qoşun dəstəsi göndərdi.

Ağır itkilərə və istehkamların bir hissəsinin şah qoşunları əlinə keçməsinə baxmayaraq, üsyançılar böyük qətiyyətlə vuruşurdular.[132] Bu vuruşmalarda qadınlar böyük fədakarlıq göstərirdilər. Onlardan biri igidliyinə görə əfsanəvi qəhrəmanın adı ilə - Rüstəməli adlandırılmışdır.[133] Lakin babilərin qüvvəsi getdikcə tükənirdi. Dekabr ayında 30 minlik şah qoşunu və feodal dəstələri hər tərəfdən hücuma keçdilər. Hər tərəfdən əhatə olunmuş babilər mühasirəni yarıb keçməyə təşəbbüs etdilər. Üsyançıların çoxu həlak oldu, Məhəmmədəli isə ağır yaralandı və üç gündən sonra öldü. Onu öz həyatində dəfn etdilər.[134] Babilərdən yalnız 100 nəfər sağ qalmışdı. Daha beş gün vuruşduqdan sonra üsyançılar onlara şəhəri tərk etməyə imkan vermək şərti ilə mübarizəni dayandırmağa razı olduqlarını bildirdilər. Şah ordusunun başçıları bu təklifi qəbul etmələri haqqında Qurana and içdilər, lakin silahı yerə qoyan üsyançıların hamısını qırdılar.[135] Beləliklə, 1850-ci il dekabrın sonunda Zəncan üsyanı yatırıldı.

Bütün İranda, o cümlədən Cənubi Azərbaycanda sosial ziddiyyətlərin kəskinləşməsi nəticəsində baş vermiş babi üsyanları mövcud ictimai münasibətlərdən, siyasi-inzibati quruluşdan narazı qüvvələrin ölkənin kapitalizmə keçid dövrü ərəfəsində baş ve-

---

[132] Bax: Sepehr. Qacar tarixi, III cild, səh.91-92.

[133] Новая история стран зарубежного Востока, səh.381; М.С.Иванов. Бабидские восстания в Иране, səh.116. 1863-cü ildə Zəncanda olmuş rus məmuru Oqranoviç şəhərin şərq hissəsində babilər üsyanı zamanı qazılmış xəndəklərin, tikilmiş istehkamların qalıqlarının hələ də qaldığını yazır. Oqranoviç eyni zamanda əhalinin söyləmələrinə əsasən babilərin "şir kimi vuruşmasını" və mətanətlə ölməsini, qadın və uşaqların cəsurluqda kişilərdən geri qalmadığını yazır (bax: И.Огранович. Поездка в Персию в 1863 году, «Военный сборник», 1866, т.52, отд.2, № 11. səh. 176-177).

[134] R.Vatson, səh. 264; Sepehr. Qacar tarixi, III cild, səh. 96.

[135] М.С.Иванов. Бабидские восстания в Иране, səh.120.

rən ilk kəskin çıxışlarından idi. Üsyanlar qeyri-mütəşəkkil xarakterdə olması, bütün hallarda passiv müdafiə taktikası ilə aparılması və b. səbəblərdən müvəffəqiyyətsizliyə uğrasa, zahirən dini pərdə - məsiha (messiya) əsasında aparılsa da, bu çıxışlar əslində kəndlilərin, şəhər orta təbəqələri və yoxsullarının sosial ədalətsizliyə, feodal qayda-qanunlarına qarşı çevrilmiş mübarizəsi idi. Göstərilən taktiki səhvlərinə, bir sıra tələblərinin utopik xarakter daşımasına baxmayaraq, bu üsyanlar o dövrdə İranda narazı qüvvələrin artıq əvvəlki kimi yaşamaq istəməməsini bildirən ilk silahlı çıxış idi. Babi üsyanları ölkənin ictimai-siyasi iqlimində heç bir dönüş yarada bilməsə də, narazılıqların başlıca səbəblərindən olan feodal vergi sistemində və s. sahələrdə üsyanların bilavasitə təsiri ilə az-çox dəyişiklik aparmağa təşəbbüs göstərən (bu üsyanlara qarşı silahlı qüvvə göndərməklə yanaşı) baş nazir Mirzə Tağı xanın islahatları baş tutmasa da, geniş kütlələrə çox əziyyət verən feodal özbaşınalığı üsyanlardan sonra tam qüvvədə davam etsə də, bu çıxışların geniş kütlələrin oyanmasında, gələcəkdə ölkədə feodal qaydalarına qarşı inqilabi şərait yaranmasında əhəmiyyəti çox idi. Babilik ölkədəki hələ gələcəkdə yetkinləşərək sosial təkamül prosesində siyasi cərəyanlara ayrılacaq və müxtəlif formalarda üzə çıxacaq ümumi ictimai narazılığın təzahürünün başlanğıcı və hələlik yeganə forması idi. Buna görə də tamamilə təbii idi ki, 1848-1852-ci illərdə bütün İranda babilər hərəkatı məğlub edilsə də, ölkədə, o cümlədən Cənubi Azərbaycanda babi tərəfdarlarının sayı daha da artdı. Əhalinin, demək olar ki, bütün narazı hissələrində babiliyə rəğbət güclü idi və şah hökuməti bunun qarşısını ala bilmirdi. 1896-cı ildə Nəsrəddin şahın öldürülməsi ərəfəsində İranda babilərin sayı iki milyondan çox idi. Bu da tamamilə təbii idi ki, bu böyük saylı ictimai qüvvə içərisindən gələcəyin bir çox inqilabçıları yetişmiş, babilərin inqilabi-demokratik hissəsi ölkədə baş verən xalq çıxışlarında, xüsusilə 1905-1911-ci illər İran inqilabında fəal iştirak etmişdilər.[136]

[136] М.С.Иванов. Бабидские восстания в Иране, səh.142.

# II FƏSİL

# CƏNUBİ AZƏRBAYCAN XIX ƏSRİN SON RÜBÜNDƏ

## 1. İQTİSADİYYAT

### İranın yarımmüstəmləkəyə çevrilməsi və Cənubi Azərbaycanda xarici kapitalın nüfuzunun artması

Keçən əsrin ikinci yarısından etibarən Qərb dövlətlərinin - ən əvvəl İngiltərə və çar Rusiyasının İrana iqtisadi təcavüzünün genişlənməsi nəticəsində ölkə sürətlə onların xammal mənbəyi və satış bazarına çevrildi. Bu zaman İran dövləti ingilis və rus kapitalistlərinə bir sıra yeni güzəşt və imtiyazlar verdi. 1879-cu ildə İranda rus zabitlərinin rəhbərliyi ilə Rusiyadakı kazak polkları nümunəsi əsasında kazak polku (sonra briqadası) yaradıldı. İranda ilk nizami hərbi qüvvə olan bu briqadada rəhbər mövqelər rus zabitlərinin ixtiyarında olduğundan briqada ölkədə çarizmin nüfuzunun saxlanmasında mühüm bir amil idi.

1889-cu ildə ingilis baronu Reyter İranda bank ("Şahənşah" bankı) açmaq, bir il sonra isə rus kapitalisti Polyakov girov-borc bankını yaratmaq hüququ əldə edərək ölkənin bütün maliyyə sistemini öz nəzarəti altına aldılar. Reyter eyni zamanda İranın cənubunda şosse yolları çəkmək haqqında imtiyaz əldə etdi.

1891-ci ildə Polyakovun İran dövlətindən aldığı yeni imtiyaz əsasında yaradılmış şirkət Xəzər dənizində gəmi nəqliyyatını təşkil etdi, bir sıra şosse yolları, o cümlədən Astara - Ərdəbil şosse yolunu çəkdi.

İranda kəskin rəqabət aparan İngiltərə və çar Rusiyası burada hələlik dəmir yolu çəkməmək haqqında razılığa gəldilər. Onların təkidi ilə İran hökuməti özü də dəmir yolu çəkməyəcəyini və bu hüququ üçüncü bir dövlətə verməyəcəyini də öhdəsinə götürdü.

1891-ci ilin martında şah İranda becərilən tütünün satın alınması, emalı və satılmasını İngiltərə təbəəsi Talbotun inhisarına verən imtiyazı imzaladı, lakin bütün ölkədə kəskin xalq etirazı nəticəsində şah imtiyazı tezliklə ləğv etməyə məcbur oldu.

1901-ci ildə şah hökuməti İran ərazisinin böyük hissəsində neft yataqlarının istismar edilməsi hüququnu ingilis kapitalisti d'Arsinin inhisarına verdi. Həmin imtiyaz əsasında 1909-cu ildə İran sərvətlərini talamaqda, ölkənin daxili işlərinə qarışmaqda mühüm amil olmuş bədnam İngiltərə - İran neft şirkəti yarandı. İran hökuməti xarici kapitalistlərə ölkədə teleqraf xətləri çəkilməsi (1862-ci ildən başlayaraq ingilis kapitalistlərinə), Xəzər dənizi sahillərində balıqçılıq (1888-ci ildə rus kapitalisti Lionozova) və s. haqqında da bir sıra əlverişli imtiyazlar vermişdi. 90-cı illərdən başlayaraq İran İngiltərədən ölkənin cənub gömrük gəlirinin girov qoyulması şərti ilə 500 min funt-sterlinq, 1900-cu ildə isə çar Rusiyasından İranın şimal gömrük gəlirinin girov qoyulması şərti ilə 22,5 milyon manat, 1902-ci ildə yenə Rusiyadan 10 milyon manat miqdarında borc pul aldı.

Bütün bunlar nəticəsində İran xarici dövlətlərdən - İngiltərə və çar Rusiyasından həm siyasi, həm də iqtisadi cəhətdən asılı bir dövlətə çevrildi. İranın xalq təsərrüfatı müstəmləkə və asılı ölkələrə xas olan yeni xüsusiyyətlər kəsb etdi. İran İngiltərə və Rusiyanın sənaye mallarının satış bazarına, hər iki ölkənin, başlıca olaraq çar Rusiyasının sənayesini xammalla, eyni zamanda Rusiyanın artmaqda olan şəhər əhalisini qismən də ərzaq malları ilə (quru meyvə, püstə-badam, düyü, ət, yumurta və s. ilə) təchiz edən mənbəyə çevrildi. Bununla da İran getdikcə daha yaxından dünya mal mübadiləsinə qoşuldu. İranın ümumdünya bazarına cəlb olunması ölkədə bəzi sənaye sahələrinin (dağ-mədən sənayesi, kənd təsərrüfatı mallarının ilk emalı ilə məşğul olan sahələrin) yaranmasına, kənd təsərrüfatının bir sıra sahələrinin inkişafına obyektiv olaraq müsbət təsir göstərdi. Ölkədə əmtəə istehsalı artdı, daxili bazar genişləndi. Lakin bu, asılı ölkələrə xas olan birtərəfli inkişaf idi: kənd təsərrüfatının yalnız xarici bazarda onun məhsuluna ehtiyac olan sahələri inkişaf edir, xarici bazarda tələbatı artan xalçaçılıq müstəsna olmaqla, sənətkarlığın digər növləri xarici sənaye mallarının rəqabəti nəticəsində tənəzzül edir, sənayenin əsasən xaricə ixrac edilən kənd təsərrüfatı mallarının ilk emalı ilə məşğul olan sahələri genişlənirdi.

İran üçün ümumi olan bu cəhətlər Cənubi Azərbaycana da eynilə xas idi. Coğrafi mevqeyinə görə Cənubi Azərbaycanda təbii olaraq Rusiyanın nüfuzu daha güclü idi.

Rus girov-borc bankının Azərbaycandakı şöbələri Rusiya kapitalı və ümumiyyətlə, Rusiya nüfuzunun burada möhkəmlənməsinə yardım edən ən mühüm amillərdən idi. XX əsrin əvvəllərində Azərbaycanın bir çox şəhərlərində bu bankın şöbələri fəaliyyət göstərirdi.

Əhalinin varlı təbəqələrindən bir qismi öz əmlakını dövlət məmurlarının soyğunçuluğundan, özbaşınalığından qorumaq üçün Rusiya təbəəliyini qəbul etməyə çalışırdı. Eyni zamanda Rusiyanın cənub əyalətlərindən, xüsusilə Zaqafqaziyadan ayrı-ayrı sahibkarlar (Məmmədovlar, Nəzərbəyovlar və b.) gələrək burada torpaq mülkləri ələ keçirirdilər. Əyalətdə rus təbəələrinin sayının durmadan artması təbii olaraq burada konsul idarələrinin çoxalmasına şərait yaradırdı. Rusiyanın Təbrizdəki baş konsulluğundan əlavə, XX əsrin əvvəllərində əyalətin Ərdəbil, Xoy, Urmiya və s. şəhərlərində konsulluq və vitse-konsulluqları təşkil edilmişdi. XIX əsrin sonlarında Təbrizdə Rusiyanın baş konsulluğundan əlavə, İngiltərə, ABŞ və Türkiyənin də baş konsulluqları, Fransanın isə konsulluğu açılmışdı.[137]

## Kənd təsərrüfatının vəziyyəti

XIX əsrin son rübü və XX əsrin əvvəllərində Cənubi Azərbaycanda kənd təsərrüfatının inkişafı Rusiya bazarı ilə münasibətlərin səviyyəsindən və xarakterindən asılı idi. Xarici bazarda, o cümlədən Rusiya bazarında, pambıq, xamna, boyaq maddələri, yun, gön-dəri, bağırsaq və s. kimi əkinçilik və heyvandarlıq məhsullarına və bəzi sənətkarlıq mallarına olan tələbatın artması həmin sahələrin qismən Azərbaycanda da inkişafına təkan verirdi.

Əvvəllərdə olduğu kimi, indi də Cənubi Azərbaycanda taxılçılıq, bağçılıq və maldarlıq kənd təsərrüfatının əsas sahələrini təşkil edirdi.

---

[137] П.А.Риттих. Политико-статистический очерк Персии, СПб., 1896, səh.186.

Azərbaycan yenə də İranda əsas taxıl bazalarından biri idi. Əyalətin taxılçılıq rayonlarının əksər yerlərində iki və ya üçtarlalı əkin sistemindən istifadə olunmaqla buğda, arpa, bəzi yerlərdə (Astara və qismən Meşkin mahallarında, Urmiya gölü və Miyanə ətrafında)[138] düyü əkilirdi. Əyalətdə istehsal olunan taxılın bir qismi yenə də İranın başqa rayonlarına aparılırdı. Ölkənin ümumdünya mal mübadiləsi dövriyyəsinə getdikcə nisbətən çox cəlb edilməsi burada xarici bazarda daha çox tələbat olan quru meyvə, pambıq, müxtəlif boyaq maddələri, qismən tütün istehsalının genişlənməsinə marağı artırırdı. Bu isə öz növbəsində taxıl əkinləri sahəsinin nisbətən azalmasına səbəb olurdu. Lakin buna baxmayaraq, Cənubi Azərbaycandan taxıl ixracı davam edirdi. 1878-ci ildə Rusiya - Türkiyə müharibəsi zamanı buradan Zaqafqaziyaya böyük taxıl ehtiyatı aparılmışdı.[139] Konsul məlumatından aydın olur ki, 1891-ci ildə Cənubi Azərbaycandan Rusiyaya 170.000 pud, 1892-ci ildə 185.000 pud taxıl, az miqdarda isə düyü ixrac edilmişdi.[140] Doğrudur, quraqlıq və s. səbəblər üzündən məhsuldarlıq aşağı səviyyədə olduqda Azərbaycana hətta başqa yerlərdən, o cümlədən Rusiyadan taxıl gətirilirdi.

XIX əsrin sonunda Cənubi Azərbaycanda yayılmağa başlayan texniki bitkilərdən başlıcası pambıq idi. Pambıq Cənubi Azərbaycanda çoxdan becərilirdi, lakin bunun daha geniş miqyasda əkilməsi və xaricə, xüsusilə Rusiyaya kütləvi ixracı XIX əsrin sonlarından (90-cı illərdən) başlandı.[141]

---

[138] Л.Ф.Тигранов. Из общественно-экономических отношений в Персии, Тифлис, 1905, səh. 95, 99 (Sonrakı səhifələrdə: Tiqranov, səh... yazılacaqdır).

[139] П.И.Аверьянов. Ф.Шкинский. Отчет о поездке по Северному Азербайджану в конце 1899 г., Тифлис, 1900, səh. 26 (sonrakı səhifələrdə: Averyanov - Şəkinski, səh... yazılacaqdır).

[140] П.А.Риттих. Политико-статистический очерк Персии , səh. 83-84.

[141] Rusiya sahibkarları İranda, o cümlədən Azərbaycan əyalətində pambıqçılığın genişlənməsinə və Rusiyaya ixracının artmasına çalışırdılar. Azərbaycan əyalətindən Rusiyaya pambıq ixracını artırmaq məqsədilə buradakı rus məmurları yerli istehsalçılara pulsuz toxumluq çiyid paylamağa təşəbbüs göstərmişlər (Kerzon, I cild, səh. 528). Bu təbii idi, çünki Rusiya sənayesinin işlətdiyi pambığın yarıdan çoxunu baha başa gələn Misir və Amerika pambığı təşkil

Ticarət əhəmiyyəti olan kənd təsərrüfatı məhsullarından biri də boyaqçılıqda işlədilən bitkilərdir. Azərbaycan əyalətində boyaq maddələri verən bitkilər hələ çoxdan külli miqdarda yetişdirilirdi.

Urmiya ətrafında istehsal olunan qızıl boya qismən xaricə ixrac edilirdi. Bundan əlavə, Azərbaycanın qərb rayonlarında mazı, boyaqçılıqda işlədilən kitrə (gətirə), bəzi rayonlarda isə qaraçöhrə və i. a. istehsal olunurdu.[142]

Cənubi Azərbaycanda tütün başlıca olaraq yerli ehtiyaclardan ötrü istehsal edilsə də, ixrac üçün yüksək keyfiyyətli tütün əsasən Urmiya rayonunda əkilirdi. Əyalətdə becərilmiş və İranın başqa yerlərindən gətirilən tütün Təbriz və digər şəhərlərdə emal edilirdi.

**Bağçılıq, bostançılıq və ipəkçilik.** Xarici bazarın təsiri ilə Cənubi Azərbaycanda ən çox genişlənən təsərrüfat sahəsi, demək olar ki, bağçılıq idi. Azərbaycanda alma, armud, ərik, hulu, alça, albalı, nar, heyva, qoz, fındıq, püstə və s. becərilməsi olduqca artmış, xüsusilə üzümçülük daha geniş miqyasda yayılmışdı. Azərbaycanın Təbriz, Marağa, Mərənd, Urmiya və digər şəhərlərində əhalinin xeyli hissəsi bağçılıq və bostançılıqla məşğul olurdu. Məsələn, Mərənd şəhərinin 4.333,2 desyatin ümumi sahəsinin 375 desyatinini meyvə bağları, 291,6 desyatinini üzüm bağları, 937,5 desyatinini bostanlar və 1187, 5 desyatinini əkin sahələri təşkil etdiyi halda, yalnız 541,6 desyatinini müxtəlif tikintilər əhatə edirdi.[143] Deməli, şəhərin ümumi sahəsinin yarıdan çoxunu bağlar və bostanlar tuturdu.

Cənubi Azərbaycanda külli miqdarda yetişdirilən müxtəlif meyvələrin böyük bir qismi qurudulur, xeyli hissəsi ixrac edilirdi. Quru meyvələr, xüsusilə kişmiş əyalətin ixracatında mühüm yer

---

edirdi. İrandan, xüsusilə Cənubi Azərbaycandan pambıq aparılması isə olduqca əlverişli idi.

[142] Məhəmmədəli Cəmalzade. Gənc-e şayqan ya ouza-ye eqtesadi-ye İran (*Böyük xəzinə və ya İranın iqtisadi vəziyyəti*), Berlin, 1335/1956, səh.36 (Sonrakı səhifələrdə Camalzadə, səh... yazılacaqdır).

[143] RXSA "İran stolu" fondu, iş 535, vər. 70.

tuturdu. 1896-cı ildə Azərbaycandan Rusiyaya 1.930.000 manatlıq quru meyvə, 177.000 manatlıq qoz və badam ixrac edilmişdi.[144] Bu sahə üzrə ixracat ildən-ilə artırdı. XX əsrin ilk illərində əyalətin təkcə Marağa rayonunda (Dehxarqan, Miandoab və Minabla birlikdə) ildə təqribən 2,5-3 milyon pud səbzə istehsal olunurdu ki, bunun da üçdə bir hissəsi xarici ölkələrə göndərilirdi.[145]

İpəkçiliklə əlaqədar olaraq, tut ağacı becərilməsinin də Azərbaycanın kənd təsərrüfatında xüsusi çəkisi yüksək idi. Lakin XIX əsrin 60-cı illərindən başlayaraq 20 ildən artıq bir müddət ərzində yayılmış ipəkqurdunun mütəmadi xəstəliyi burada barama becərilməsinə kəskin zərbə vurdu və bundan sonra ipəkçilik yenidən dirçəlməyə başlasa da, əvvəlki səviyyəsinə çatmadı.

Cənubi Azərbaycanda əldə edilən xam ipək əsasən əyalətin daxilində işlədilir, qismən də (məsələn, Astara mahalından əsasən barama şəklində) ixrac edilirdi.[146]

**Maldarlıq.** Azərbaycan kəndlilərinin məşğul olduğu əsas təsərrüfat sahələrindən biri də heyvandarlıq idi. Əhalinin təxminən dörddə bir hissəsini təşkil edən tayfaların (şahsevən, kürd və başqa tayfaların) köçəri həyat sürən hissəsinin, demək olar ki, yeganə məşğuliyyəti heyvandarlıq və bununla əlaqədar olan təsərrüfat sahələri (xalçaçılıq, keçəçilik və s.) idi. XIX əsrin ikinci yarısından etibarən tayfalar içərisində həm İran dövlətinin təşəbbüsü,[147] həm də ticarət əkinçiliyinin, xüsusilə pambıqçılıq kimi sahələrin yüksək gəlir verməsi Azərbaycanda tayfa və ellər içərisində oturaqlı-

---

144 Averyanov-Şəkinski, səh. 49.

145 Путевые заметки о персидских городах Мараге, Миан-дуабе и Соучбулаге. «Известия штаба Кавказского военного округа», №17-18, 1906, səh. 38.

146 Bax: Tiqranov, səh. 99.

147 Hələ 1860-cı ildə İranın mərkəzi hökumətinin şahsevən və b. tayfaları oturaq hala keçirməyə təşəbbüs göstərməsi Azərbaycanın Xoy, Maku və Urmiya mahallarında yaşayan tayfalar içərisində oturaqlığa keçməni xeyli artırmışdı. Bax: М.А.Дадашзаде. Аграрные отношенин в Южном Азербайджане накануне Иранской революции 1905-1911 гг., Автореферат канд. Диссертации, Баку, 1960, səh. 13.

ğa keçmək meylini gücləndirmişdi. Bunlar nəticəsində yarımoturaq və oturaq həyat sürən tayfaların sayı xeyli artmışdı. Həmin tayfaların yarımoturaq həyat sürən hissələrinin əsas təsərrüfat sahələrindən biri maldarlıq idi. Bununla yanaşı, əhalinin əkinçiliklə məşğul olan hissəsi, o cümlədən tamamilə oturaqlaşmış keçmiş tayfalar da qismən maldarlıqla məşğul olurdu. Təbii yem şəraiti burada dəvə, qoyun, keçi, at, inək, öküz və s. saxlanılmasına imkan yaradırdı.

Ət, yağ və süd kimi heyvandarlıq məhsullarından başqa yun, dəri, bağırsaq və s. həm əyalətin daxilində ev sənayesində keçə, yəhər hazırlanmasında, xalça-palaz toxunmasında, şəhərlərdə isə nəfis xalçalar, şal, gön-dəri və s. istehsalında işlənilir, həm də külli miqdarda xammal şəklində, ya da ilk emaldan keçdikdən sonra xaricə, əsasən Rusiyaya ixrac edilirdi. 1896-cı ildə buradan Rusiyaya 354.000 manatlıq gön, 531.000 manatlıq xalça, yun və pambıq parça aparılmışdı.[148]

Bəhs edilən dövrdə kənd təsərrüfatı məhsullarının xam və emal edilmiş şəkildə Rusiya bazarına ixrac edilməsi ildən-ilə artırdı. Bu artım öz-özlüyündə həmin sahələr üzrə istehsalın da genişləndiyini göstərir.

## Sənayenin vəziyyəti

XIX əsrin son rübündən, xüsusilə 80-90-cı illərindən etibarən bütün İran üçün səciyyəvi olan iqtisadi və sosial proseslərin sürətlənməsi, ölkə təsərrüfatının getdikcə daha çox xarici bazardan asılı olması başqa əyalətlərə nisbətən Azərbaycanda daha bariz şəkildə özünü göstərdi.

Azərbaycanda sənayenin inkişafı və vəziyyəti də xarici bazardan, xüsusilə Rusiya bazarından, xarici dövlətlərdən asılı idi. Bu dövrdə qonşu Rusiya, onun Zaqafqaziya kimi həmsərhəd hissəsi ilə iqtisadi əlaqələrin xeyli inkişafı Cənubi Azərbaycanın xalq təsərrüfatına dərin təsir göstərirdi. Mübaliğəsiz demək olar

[148] Averyanov-Şəkinski, səh .49.

ki, Cənubi Azərbaycan şəhərlərinin İranın başqa əyalət və şəhərlərilə iqtisadi əlaqəsinə nisbətən onun Zaqafqaziya bazarları ilə bağlılığı hələ də daha qüvvətli idi və sürətlə inkişaf edirdi. Bu, tarixi ənənələrdən və ərazi cəhətdən yaxınlıqdan əlavə, onunla izah edilirdi ki, feodal pərakəndəliyi, ticarət yollarının basqınlara məruz qaldığı, şəxsiyyət toxunulmazlığını təmin edən qanun olmadığı, yollarda və şəhərlərdə mallardan saysız-hesabsız vergilər alındığı, xaricilərin böyük üstünlüklərə malik olduğu bir şəraitdə inkişaf etməkdə olan yerli ticarət burjuaziyası üçün müəyyən qayda-qanun və ticarət üçün müvafiq əmin-amanlıq olan qonşu Rusiya ərazisində ticarət etmək daha əlverişli idi. Cənubi Azərbaycanın ticarət əlaqələrinin şimala yönəlməsinə şərait yaradan daha mühüm bir amil də çar Rusiyasının Avropa mallarının Zaqafqaziyaya daxil olmasını məhdudlaşdırmaq, İranda ticarəti isə, əksinə, Rusiya kapitalistlərinin mənafeyinə uyğun şəkildə genişləndirmək siyasətindən ibarət idi. Bütün bunlara görə Zaqafqaziya ilə ticarət Cənubi Azərbaycan tacirlərini daha çox cəlb edirdi.

XIX əsrin son rübündə sənayenin ilkin forması sex sənətkarlığı ilə yanaşı, sənətkarlığın ayrı-ayrı sahələrində əvvəlki dövrlərdə meydana gəlmiş manufaktura üçün səciyyəvi cəhətlərə indi daha çox təsadüf olunur - muzdlu əməkdən istifadə genişlənir, bir çox sənətkarlar ixtisaslı muzdlu fəhlələrə çevrilir, nəhayət, bəzi sənət sahələri üzrə onlarla və daha çox fəhləsi olan müəssisələr yaranırdı. Deməli, eyni vaxtda həm sex sənətkarlığı, həm manufaktura, həm də az miqdarda kapitalist müəssisələri fəaliyyət göstərirdi.

XIX əsrin son rübündə Cənubi Azərbaycanda öz varlığını davam etdirən əsas sənətkarlıq sahələrindən biri xalçaçılıq idi. Dünya bazarında xalçaya tələbatın daim yüksək olması sənətkarlığın bu sahəsini yaşadır və eyni zamanda Azərbaycan şəhərlərində on minlərlə keçmiş sənətkarın artıq ixtisaslı fəhlə kimi muzdlu əmək müqabilində istismarını təmin edirdi. Xalı istehsalı sənayenin kapitalist münasibətləri inkişaf etmiş ən başlıca sahəsi idi. Mühüm və daimi gəlir verən xalı istehsalı təkcə yerli deyil, eyni zamanda

xarici kapitalistləri də cəlb edən sənaye sahəsi olmuşdur. Ona görə get-gedə ayrı-ayrı iri tacirlər eyni zamanda xalı emalatxanaları sahibinə çevrilirdilər ki, bu da yerli şəraitdə ticarət kapitalının sənaye kapitalı ilə qovuşmasının ibtidai, spesifik forması idi.

Artıq XIX əsrin sonu - XX əsrin əvvəllərində xırda xalça müəssisələrinin ticarət kapitalının himayəsi altında birləşdirilməsi, onların iriləşdirilməsi və yeni müəssisələrin yaradılması prosesi gedirdi. Bu sahədə xarici kapitalistlər xüsusi fəaliyyət göstərirdilər. Məsələn, Rusiya təbəəsi, Gəncə taciri Məmmədovun Təbrizdə açdığı fabrik ən iri xalçaçılıq müəssisəsi olub, 1500 muzdlu fəhləni əhatə edirdi. Xalça hazırlanması ilə əlaqədar bütün əməliyyat bu müəssisənin özündə aparılırdı. Manufaktura xarakterli müəssisə olan bu fabrikin istehsal etdiyi iri yun və ipək xalılar Amerika, İngiltərə bazarlarına aparılırdı. Məmmədovun manufakturasının illik dövriyyəsi 500 min manat təşkil edirdi.[149] Yenə də Təbrizdə Amerika və İngiltərəyə xalça ixracı ilə məşğul olan ingilis taciri Stivensin bir neçə xalçaçılıq müəssisəsi var idi.[150]

Xarici kapital İranın xalça sənayesində hakim mövqeyə nail olduqdan sonra bütün dünyada İranın simvoluna çevrilmiş, bu ölkədə yaşayan xalqların yaradıcılıq istedadını, bədii zövq və məharətini təmsil edən xalçalar öz keyfiyyətini itirməyə başladı. Bunun iki səbəbi var idi: birincisi, xaricdən, başlıca olaraq Almaniyadan gətirilən süni boyalar, fövqəladə davamlı yerli boyaları sıxışdırırdı, nəticədə davamsız, süni rəngli boyanmış xammaldan toxunan xalıların keyfiyyəti aşağı düşürdü; ikincisi ənənəvi naxışlar yeni, avropalıların zövqünə uyğun naxışlarla əvəz olunurdu və bununla da İranda, o cümlədən Cənubi Azərbaycanda toxunan xalılar özünəməxsus gözəlliyini itirirdi.

---

[149] Averyanov-Şəkinski, səh.50-52. Məmmədovlar eyni zamanda Culfa ətrafında torpaq sahələrinə sahib idilər. Bax: Г.Н.Ильинский. Аграрные отношения в Иране в конце XIX - начале XX века. Ученые записки Института востоковедения АН СССР, т.VIII, 1953, səh.128-129.

[150] Averyanov-Şəkinski, səh.51.

Təbrizdə, Xalxalda və bəzi başqa şəhərlərdə yun və ipək yaylıq, şal, ipək, yun, pambıq parçalar və digər toxuculuq məhsullarının istehsalı, bütün maneələrə baxmayaraq hələ geniş miqyasda davam edirdi. Bu məhsulların bir hissəsi yerli əhalinin tələbatına sərf edilir, digər hissəsi isə həm İranın başqa əyalətlərinə, həm də digər ölkələrə ixrac olunurdu.

Şəhərlərdə ayaqqabı, papaq və s. istehsal edilirdi. Sənətkarlıqda dulusçuluq, o cümlədən tumac istehsalı, boyaqçılıq, keçəçilik, palanduzluq, sərraclıq və s. geniş yayılmışdı. Məsələn, nisbətən kiçik şəhər olan Mərənddə 50, Ərdəbildə isə 18 gön istehsal edən müəssisə fəaliyyət göstərirdi.[151] Sənətkarlığın bu sahəsi ticarət burjuaziyasının təsiri altında idi. Adətən, muzdlu əməkdən istifadə olunur və hər müəssisədə 5-15 adam çalışırdı.[152] Şəhərlərdə çox yayılmış sənətkarlıq ocaqlarından misпər, dəmirçi, zərgər dükanlarını xüsusilə qeyd etmək olar. Məsələn, Ərdəbildə 20 misпər, 70 papaq və s. geyimlər tikən, 100 dəmirçi, Mərənddə isə 7 dəmirçi emalatxanası var idi.

Təbrizdə bir sıra kənd təsərrüfatı məhsullarının - pambıq, tütün, eyni zamanda İranın başqa əyalətlərindən gətirilmiş xına, tiryək[153] və s. ilkin emalı üzrə müəssisələr də fəaliyyət göstərirdi.

Bir sıra şəhərlər öz sənaye məhsulları ilə bütün İranda şöhrət qazanmışdı. Belə ki, Zəncanda hazırlanmış bıçaqlar ölkənin bütün bazarlarında satılırdı.[154] Təbrizdə gözəl xəncərlər, Zəncanda isə zərgərlik məhsulları və s. istehsal olunurdu. Bunlardan əlavə saxsı qab-qacaq, kərpic istehsalı da geniş yayılmışdı.

---

[151] И.Ф.Бларамберг. Статистическое обозрение Персии, səh.43; А.Врезский. Персия, Военно-статистический сборник, вып.III, СПб., 1868, səh.12; Gürcüstan MDTA, fond 11, iş 1655, vərəq 18; И.Огранович. Провинции Ардебильская и Серабская, səh.26; RXSA, «İran stolu» fondu, iş 535, vər.85; А.А.Собоцинский. Персия. Статистико-экономический очерк, СПб., 1913, səh.228.

[152] И.Огранович. Провинции Ардебильская и Серабская, səh. 26.

[153] Bax: Camalzadə, səh.30.

[154] Л.Богданов. Персия в географическом, религиозном, бытовом, торгово-проимышленном и администартивном отношении, СПб., 1909, səh.10.

XX əsrin əvvəllərinə doğru ayrı-ayrı sənət sahələri üzrə yaranmış müəssisələr üçün muzdlu əməkdən istifadə artıq səciyyəvi hal olmuş, bazarla əlaqə daha da genişlənmişdi.

XIX əsrin sonlarında yerli sahibkarlar tərəfindən bir sıra belə sənaye müəssisələri (Hacı Abbasəli və Hacı Rzanın Təbrizdə açdıqı iki çini qablar zavodu, Mərənddə tikilmiş iki kərpic zavodu, Təbrizdə açılmış gön zavodu və s.) açılmışdı.[155]

Digər tərəfdən, xarici malların İrana axını ölkənin tədricən kapitalist dövlətlərin sənaye malları üçün satış bazarına çevrilməsi ilə əlaqədar, xalçaçılıq və bir neçə başqa sahə istisna olmaqla, sənətkarlıqda başlanmış ümumi böhran XIX əsrin sonlarına doğru təhlükəyə çevrilmişdi. İbtidai dəzgahlarda toxunmuş pambıq, yun, ipək və s. parçalar kimi yerli mallar müasir texnikanın istehsal etdiyi əmtəələrlə rəqabət apara bilmirdi. Digər tərəfdən, hakim dairələrin milli sənayeyə qayğısızlığı və yürütdüyü gömrük siyasəti nəticəsində xarici mallar sürətlə yerli bazarlarda hakim mövqe tuturdu. Məsələn, 1888-1913-cü illərdə xaricdən gətirilən çit parça 3 dəfə artmışdı. Burada dözülməz cəhət o idi ki, idxalatın əsas hissəsini heç də İranda istehsal olunmayan mallar deyil, bəlkə əksinə, yerli ehtiyaclar və ixrac üçün İranın özündə istehsal edilən əmtəə növləri təşkil edirdi. Belə ki, idxalatın 30-35 faizi pambıq, yun, ipək parçalardan ibarət idi.[156] Belə bir şəraitdə ölkədə xüsusilə pambıq parça istehsalı ildən-ilə azalır və onun qonşu Rusiya bazarlarına ixracı durmadan aşağı düşürdü.[157] Burada toxuculuq kimi çox mühüm sənətkarlıq sahəsini xarici mallardan asılı vəziyyətə salan daha bir cəhəti də qeyd etmək lazımdır. Məsələ bundadır ki, XIX əsrin son rübü - əsrin əvvəllərində ölkəyə xaricdən külli miqdarda iplik və sap gətirilirdi. XIX əsrin ortalarında buna təsadüf edilmirdisə (bəlkə əksinə, İran özü iplik ixrac

---

[155] Вах: Р.А.Сеидов. Иранская буржуазия в конце XIX - начале XX в., М., 1974, səh.117-118.

[156] В.Глуходед. Проблемы экономического развития Ирана, М., 1968, səh.26-27.

[157] М.Томара. Экономическое положение Персии, СПб, 1895, səh.165-167; «Бюллетень прессы Среднего Востока», Ташкент, 1931, № 10-11, səh.66.

edirdi), artıq 1888-1914-cü illərdə iplik və sap idxalı 10,5 dəfə artmışdı.[158] Əvvəllər özünü ipliklə artıqlamasilə təmin edən toxuculuq üçün bu zərbə idi: bir tərəfdən onu xarici yarımfabrikatdan asılı vəziyyətə salır, digər tərəfdən isə iplik və sap istehsal edən sənətkarları iflasa uğradırdı.

1885-ci ildə Nobel qardaşları İran dövləti tərəfindən altı il müddətinə verilmiş imtiyaz əsasında Ərdəbil rayonundakı Qotur-su yaxınlığında kükürd istehsalına başladılar.[159] 1898-ci ildə Rusiya təbəələri A.M.Qoryaynov və F.Y.Yenakiyev Qaradağ rayonunda mis və digər yeraltı sərvətlərin istehsalı üçün şahdan 70 il müddətinə imtiyaz əldə etdilər.[160] A.M.Qoryaynov və F.Q.Yenakiyevin "Qaradağ şirkəti" yüksək gəlir əldə etməsinə baxmayaraq, cəmi 10 il fəaliyyət göstərdi.

**Ticarət**

Bəhs edilən dövrdə Cənubi Azərbaycanın təsərrüfat həyatında az da olsa baş verən dəyişikliklər təbii olaraq onun ticarət əlaqələrinə də öz təsirini göstərdi; ticarətin həm genişlənməsinə, həm də mal mübadiləsindən daha çox əmtəə əlaqələri xüsusiyyəti kəsb etməsinə səbəb oldu.

Təsərrüfatın xarakterində əmələ gələn yeniliklər, natural təsərrüfatda gedən dağılma, rayonlar üzrə yaranmağa başlayan ixtisaslaşma əyalətin daxili ticarətinin də canlanmasına təkan verdi. Xammalın və istehlak məhsullarının bir mahaldan başqasına aparılıb-gətirilməsi artdı.

Təbriz, Ərdəbil mahalları, Araz çayının bütün sağ sahili əsas etibarilə taxılçılıqla məşğul olmaqda və ehtiyacdan artıq istehsal edilən taxılı əyalətin başqa mahallarına və İranın digər vilayətlərinə, qismən də Rusiyaya göndərməkdə davam etdiyi halda, Marağa, Dehxarqan, Miandoab, Minab, Urmiya və s. şəhərlər getdik-

---

[158] В.Глуховед. Проблемы экономического развития Ирана, səh.38.
[159] Р.А.Сеидов. Иранская буржуазия., səh. 125.
[160] Averyanov-Şəkinski, səh.52; Р.А.Сеидов. Иранская буржуазия, səh.124.

cə daha çox quru meyvə hazırlanması ilə ixtisaslaşdığına görə taxılın çatışmayan hissəsini qonşu rayonlardan gətirirdi. Eyni sözü əsasən pambıqçılıqla məşğul olan mahallar haqqında da demək mümkündür. Heyvandarlıq və onunla bağlı təsərrüfat sahələri ilə məşğul olan tayfalar isə, məsələn, şahsevənlər öz məhsullarını Ərdəbil və digər şəhərlərdə, kürdlər Makuda satır, əvəzində taxıl, qənd və s. ərzaq şeyləri, qismən də sənaye malları alırdılar.

Bir çox hallarda isə kəndlinin istehsal etdiyi kənd təsərrüfatı məhsulunun bazara çatdırılmasında xırda alverçilər vasitəçi rolunu oynayırdılar. Təbrizdəki ticarət şirkətləri belə tacirləri Azərbaycanın ən ucqar yerlərinə kəndlilərdən pambıq, yun, ipək və s. almağa göndərirdilər. Bu alverçilər kəndlidən pambıq, ipək, düyü və s. kənd təsərrüfatı mallarını çox ucuz qiymətə alırdılar.[161]

Meyvəçilik, pambıqçılıq və s. sahələrdə istehsal olunan əmtəə Cənubi Azərbaycanın xarici ticarətində mühüm yer tuturdu.

Qeyd etmək lazımdır ki, ölkədə mövcud olan bir sıra amillər (bütün ölkə üçün sabitləşmiş ölçü vahidlərinin olmaması, daxili gömrük alınması, gömrükxana məmurlarının özbaşınalığı və s.) istər daxili, istərsə də xarici ticarətin inkişafına müəyyən dərəcədə əngəl törədirdi. Daxili gömrük yerli tacirlər üçün xüsusilə ağır idi. Xarici tacirlərin malları daxili gömrükdən azad olduğu halda, yerli tacirlər bir çox vilayət mərkəzinə daxil olduqda belə gömrük haqqı verməli idilər.[162] Xarici ticarətlə bağlı olan tacirlər isə bundan əlavə, sərhəd gömrükxanasında ixrac və ya idxal etdiyi malın dəyərinin 3 faizi miqdarında sərhəd gömrüyü ödəyirdilər.[163] Lakin gömrükxana məmurlarının acgözlüyü və özbaşınalığı nəticəsində tacirlərin ödədiyi məbləğ əslində 3 faizdən artıq olurdu, çünki 1900-cü ilədək dövlət gömrük haqqının yığılmasını ayrı-ayrı şəxslərə iltizama verir və icarədarlar bunu öz xeyirlərinə olaraq mümkün qədər çox toplamağa çalışırdılar. Məsələn, dövlət

---

[161] Averyanov-Şəkinski, səh.52-53, 75. Onlardan bəzisinin bu kəndlərdə, məsələn, Səfərabad kəndində mal anbarı da var idi.

[162] Sərhəd gömrükxanalarından əlavə, Azərbaycanın daxilində Təbriz, Xoy, Sovucbulaq və Urmiyada gömrük məntəqələri var idi (Camalzadə, səh.39)

[163] Yenə orada, səh.38.

Xudafərin gömrük məntəqəsini ildə 18 min manata iltizama verirdi. İltizamçı isə həmin məntəqədən 25-30 min manatdan artıq gömrük haqqı əldə edirdi. Culfa gömrükxanasını ildə 26 min manata iltizama götürmüş general Ağa xan burada 46 min manatdan çox məbləğ toplayırdı.[164] 1899-cu ildə İran gömrüyünün ümumi iltizam haqqı 1,5 milyon tümən olmuşdu. 1900-cü ildə dövlət bu sahədə iltizamı ləğv edərək gömrük alınmasını bilavasitə dövlət məmurlarına tapşırdı.[165]

Xarici ticarətin birtərəfli olsa da inkişafı dövlətin gömrük üzrə gəlirini artırırdı. Lakin 1900-cü ildə İran dövləti Rusiyadan aldığı 22,5 milyon manatlıq borc müqabilində şimal sərhədlərindən alınan gömrük gəlirini girov qoymaqla ölkəni bu mühüm gəlirdən məhrum etdi. 1901-ci ildə isə Rusiya ilə bağladığı müqavilə əsasında rus malları üçün cəmi 1 faiz gömrük haqqı müəyyən edilməsi, şübhəsiz, bu gəliri xeyli azaltdı. Lakin buna baxmayaraq, iki qonşu ölkə arasında ticarət əlaqələrinin genişlənməsi nəticəsində İranın, o cümlədən Azərbaycanın gömrük gəliri XIX əsrin sonlarından Birinci Dünya müharibəsi başlananadək olan 16 il ərzində üç-dörd dəfə artmışdı.[166]

Bu dövrdə Azərbaycanın ən çox ixracat əhəmiyyəti olan təsərrüfat sahəsi - sənayedə xalçaçılıq, kənd təsərrüfatında isə bağçılıq və maldarlıq idi.

Kənd təsərrüfatı malları emal edildikdən sonra və ya tamamilə xam şəkildə ixrac olunmaq, yenə də xalça və s. toxumaq, gön hazırlamaq və i. a. üçün şəhərlərə, xüsusilə Təbrizə gətirilirdi. Bu malların bir qismi İranın başqa yerlərinə, başlıca hissəsi isə xaricə gedirdi.

Cənubi Azərbaycan əyalətindən İranın başqa yerlərinə və xarici ölkələrə taxıl, ipək, quru meyvə, gön-dəri və s. aparılırdı. XIX əsrin sonlarında İranda olmuş bəzi avropalılar Azərbaycan əyalətini hələ də Şimali İranın taxıl anbarı adlandırırdılar.[167]

[164] Averyanov-Şəkinski, səh.55.
[165] Camalzadə səh.38.
[166] Bax: Camalzadə, səh.38-43.
[167] Kerzon, I cild, səh.515.

İranın cənub rayonlarından buraya xına, xurma, tütün, Gilandan isə əla növlü düyü və s. gətirilirdi.

Bundan əlavə, Cənubi Azərbaycan əyaləti İranın şimal və qismən mərkəzi rayonlarına daxil olan xarici mallar və buradan ixrac edilən yerli mallar üçün paylaşdırıcı və ötürücü bazar rolunu oynamaqda davam edirdi. XIX əsrin son rübündə (İranın cənub limanları ilə Avropa ölkələri, o cümlədən Rusiya ilə su ticarət yolları açılanadək) Cənubi Azərbaycanın ticarət yolları şəbəkəsi İranın nəinki şimal-qərb rayonları, eyni zamanda mərkəzi, hətta cənub rayonlarının idxalat və ixracatında mühüm vasitəçi rolunu oynayırdı.

Bununla əlaqədar olaraq Azərbaycan şəhərləri böyüyür, əhalinin sayı artırdı. 1889-1890-cı illərdə İranda olmuş Kerzon (Londonda çıxan "Tayms" qəzetinin müxbiri) da bu illərdə Təbriz əhalisinin 170-200 min nəfərə çatdığını yazırdı.[168] Əhalinin artmasına uyğun olaraq şəhərdə yaşayış evlərinin və ictimai binaların da sayı çoxalırdı. Keçən əsrin 80-ci illərində Təbrizdə 26 min yaşayış evi, 8 imamzadə, 318 məscid və təkyə, 100 hamam, 166 karvansara, 3.922 dükan, 28 qarovulxana və s. mövcud idi.[169]

Avropadan gətirilən mallar yenə də qismən əyalətin özündə sərf edilir, əsasən isə İranın mərkəzi və digər rayonlarına aparılırdı. Rusiyadan gələn mallar (bunlar qismən Tiflis - Culfa yolu ilə, qismən də Xəzər dənizi ilə Həştərxan – Bakı - Ənzəli vasitəsilə gətirilirdi) əsasən əyalətdə qalır, qismən Azərbaycanın ticarət

---

[168] Kerzon, I cild, səh.521. Bəzi müəlliflər həmin illərdə Təbriz əhalisinin sayını 240 min nəfər göstərirdilər ki, bu rəqəmləri şişirdilmiş hesab etmək lazımdır (Bax: П.А.Ригтих. Политико-статистический очерк Персии, səh.185). Müasir Amerika alimi C.Bariye mənbə və ədəbiyyatda rast gəldiyi müxtəlif rəqəmləri tutuşdurmaq və indiki dəqiq olan rəqəmləri və İran əhalisinin artım faizini əsas götürməklə sayımı olmayan illərdə İran əhalisinin miqdarını müəyyən etmişdir. C.Bariye 1900-cü ildə Təbriz əhalisinin 200 min nəfər olduğu qənaətinə gəlmişdir (Bax: Bharier Julian. Economik Development in İran 1900 - 1970, London - New-York - Toronto, 1971, p. 4).

[169] Kerzon, I cild, səh.521; Məsud Keyhan. Coğrafiya-ye mofəssəl-e İran (*İranın müfəssəl coğrafiyası*), cild2, səh.154

mərkəzləri vasitəsilə İranın qərb rayonlarına göndərilirdi. Beləliklə, Avropadan, habelə Rusiyadan bütün İran üçün gətirilən və aparılan mallar üçün əsas tranzit məntəqəsi rolunu Cənubi Azərbaycan oynayırdı. Lakin 1883-cü ildə Batumi – Tiflis - Bakı dəmiryolu xəttinin açılması,[170] bunun ardınca Rusiyanın İran bazarlarında öz rəqiblərinə zərbə vurmaq və İranda öz sənaye malları üçün əlverişli bazar yaratmaq məqsədilə Zaqafqaziyadan gömrüksüz azad tranziti ləğv etməsi Cənubi Azərbaycan əyalətinin tranzit ticarətinə, onun ticarət yollarının qismən dəyişməsinə müəyyən təsir göstərdi. Bu və Rusiya dövlətinin rus sahibkarlarına himayəçilik sahəsində həyata keçirdiyi digər tədbirləri Rusiyadan Cənubi Azərbaycana daha geniş miqyasda mal gətirilməsi üçün əlverişli şərait yaratmış oldu.[171] Bundan sonra Avropadan gətirilən mallar Cənubi Azərbaycana əsasən baha başa gələn (çünki Türkiyə hökuməti buradan keçən tranzit mallara gömrük haqqını artırmışdı) Trabzon, qismən də Bağdad - Süleymaniyyə, Hələb - Mosul vasitəsilə daxil olsa da, XIX əsrin sonlarında Avropa dövlətləri İranın cənub və qismən mərkəz rayonları ilə ticarət əlaqələrində tədricən Fars körfəzi vasitəsilə olan yola üstünlük verməyə başladılar.[172]

Digər tərəfdən, Batumi - Bakı dəmiryol xəttinin işə düşməsi ilə İrana, o cümlədən Cənubi Azərbaycana Rusiyanın müxtəlif rayonlarından gətirilən malların miqdarca çoxalması nəticəsində Astara limanının rolu son dərəcə artsa da,[173] XX əsrin ilk illərində

---

[170] 1899-1908-ci illər ərzində həmin yolun Tiflis-Aleksandropol-İrəvan-Çulfa xətti açılmışdır.

[171] Məsələn, çar hökuməti İrana göndərilən qənd üzərindən aksizi götürmüş və Rusiyada istehsal edilən qəndin İranda satışını genişləndirmək məqsədilə 1871-ci ildə qənd ixracına mükafat təyin etmişdi (Bax: M.Ə.Musayev. XIX əsrdə Bakı şəhərinin ticarəti, Bakı, 1966, səh.131)

[172] Hələ 1877-1878-ci illərdə Rusiya-Türkiyə müharibəsi zamanı Trabzon-Ərzurum yolu müvəqqəti olaraq bağlandığı vaxt Qərbi Avropa ticarət malları ölkəyə Fars körfəzi vasitəsilə yol tapmağa başlamışdı.

[173] Misal üçün göstərmək olar ki, 1892-ci ildə Rusiyadan Astara vasitəsilə dəniz yolu ilə Azərbaycan əyalətinə gətirilən malların dəyəri burada Rusiyadan

Fars körfəzindəki limanlarla Odessa arasında ucuz başa gələn dəniz yolu açıldıqdan sonra artıq İranın cənub və qismən mərkəz rayonlarından pambıq, boyaq maddələri, püstə, badam, xurma və s. kimi məhsullar baha başa gələn şimal quru yolu ilə yanaşı, su yolu ilə də aparılmağa başlandı.

Beləliklə, bütün İran miqyasında, daha doğrusu, İranın cənub və mərkəz rayonları məhsullarının ixracı cəhətdən Azərbaycan əyalətinin ticarətdəki rolu nisbətən azalmış oldu. Bununla belə, Cənubi Azərbaycanın xarici ticarəti İranın iqtisadi həyatında mühüm rol oynamaqda davam edirdi. 1898-ci ildə İrana gətirilən və buradan aparılan 38 milyon manatlıq əmtəənin təqribən 20 milyon manatlıq əsas hissəsi İranın şimal-qərbi, yəni Azərbaycan vasitəsilə gətirilib-aparılmışdı.[174]

Əyalətə daxil olan və buradan ixrac edilən malların paylaşdırıcı mərkəzi yenə də Təbriz şəhəri idi. Təbrizdən həm qərbə (Türkiyəyə), həm şimala (Rusiyaya), həm də cənub-şərqə (İranın mərkəzinə) karvan yolları ayrılırdı.

Bir sözlə, Cənubi Azərbaycan ərazisində mövcud olan mühüm ticarət yollarının hamısı Təbrizdən keçirdi. Xüsusilə Avropa ölkələri ilə Türkiyədən keçməklə olan ticarətdə Təbriz yeganə, Rusiya ilə ticarətdə isə əsas mərkəz idi. Rusiyanın İranla ticarətində Bakı necə mühüm rol oynayırdısa,[175] Təbriz də İranın Rusiya və başqa Avropa ölkələrilə ticarət əlaqələrində eyni dərəcədə əhəmiyyətli mövqe tuturdu.

Rusiya ilə ticarətdə Təbrizdən sonra ikinci mühüm ticarət mərkəzi Ərdəbil şəhəri idi. Təbriz - Culfa dəmir yolu çəkilənədək Rusiyaya aparılan və oradan gətirilən malların daşınmasında Ərdəbilin rolu böyük idi.

---

quru yol ilə gətirilən əmtəələrin dəyərindən 2,5 dəfə, 1897-ci ildə isə artıq 3,5 dəfə çox olmuşdur (bax: Averyanov-Şəkinski, səh.39).

[174] Н.Курмаков. Торговые и промшленные интеерсы России на нашем Ближнем Востоке в связи с постройкой персидских дорог, СПб., 1901, səh.11.

[175] 1900-cu ildə Rusiyanın İranla ticarətində Bakının tutduğu mövqe haqqında bax: M.Ə.Musayev. XIX əsrdə Bakı şəhərinin ticarəti, səh.58-84, 122-135.

Azərbaycan əyalətinin qərb rayonlarının əmtəə dövriyyəsində Xoy şəhərinin də əhəmiyyəti az deyildi. Belə ki, əyalətin qərb hissələrinə Rusiyadan gətirilən və buradan Rusiyaya aparılan mallar Təbriz şəhərini keçmədən əsasən Şahtaxtı - Xoy - Salmas - Urmiya - Sovucbulaq karvan yolu vasitəsilə hərəkət edirdi.

XIX əsrin ikinci yarısınadək Cənubi Azərbaycana gətirilən xarici malların əsas hissəsini Avropa sənaye malları təşkil edirdi. Keçən əsrin ikinci yarısına, hətta 80-ci illərinədək Təbrizin karvansaraları, demək olar ki, ancaq Avropa malları ilə dolu idi.[176]

Cənubi Azərbaycana, əvvəlki illərdə olduğu kimi, İngiltərə, Fransa, İtaliya, Belçika, Rusiya Avstriya və Almaniyadan çit, yun parça, məxmər, ipək, saxsı və şüşə qablar, qənd, çay, xırdavat şeyləri və s. gətirilir, buradan isə badam, qurudulmuş meyvə, o cümlədən kişmiş və s. aparılırdı. 1-ci cədvəldə 1868-1889-cu illərdə Cənubi Azərbaycana gətirilən və buradan aparılan malların ümumi dəyəri (funt-sterlinqlə)[177] göstərilir.[178]

**1-ci cədvəl**

| | 1868 | 1869 | 1870 | 1887 | 1888 | 1889 |
|---|---|---|---|---|---|---|
| İdxal | 1.351.000 | 1.575.776 | 1.094.717 | 910.108 | 664.126 | 853.891 |
| İxrac | 683.885 | 901.218 | 422.632 | 575.035 | 413.694 | 389.456 |

1-ci cədvəldən göründüyü kimi, göstərilən illərdə Cənubi Azərbaycanın Avropa ilə ticarəti passiv balanslı olmuşdur, yəni buraya gətirilən sənaye mallarının dəyəri ölkədən aparılan əmtəələrin dəyərindən çox idi. Bu isə ölkədən qızıl və gümüş pulun xaricə axmasına, ölkənin qiymətli metallar ehtiyatının azalmasına gətirib çıxarırdı. Lakin Azərbaycanın Avropa ilə ticarətində bir

---

176 Averyanov-Şəkinski, səh.38.

177 90-cı illər üçün verilən məlumata görə, funt-sterlinq 10 manata və ya 5 tümənə bərabər idi. Bax: П.А.Риттих. Политико-статистический очерк Персии, səh.113; Camalzadə, səh.38.

178 Kerzon, I cild, səh.525-526.

geriləmə nəzərə çarpırdı (bax: 1-ci cədvəl). Bu tənəzzül sonrakı illərdə də davam etmişdir.[179] Bununla belə 80-ci illərə qədər, yuxarıda deyildiyi kimi, gətirilən malların mühüm hissəsi hələ Qərbi Avropa ölkələrindən, xüsusilə İngiltərədən gələn əmtəələrdən ibarət idi. Məsələn, 1868-1870-ci illərdə İngiltərədən gətirilən pambıq parçalar idxal olunan bütün əmtəələrin orta hesabla 75 faizini təşkil edirdi. Ümumiyyətlə isə İngiltərədən gətirilən mallar Azərbaycan əyalətinin həmin illərdəki ümumi idxalatının 80 faizinə, aparılan mallar[180] ixracatının 10-12 faizinə bərabər idi.[181] Beləliklə, İngiltərə ilə olan ticarətdə ixracat idxalatdan 6-8 dəfə az idi.

Keçən əsrin ikinci yarısından etibarən isə Rusiyadan İrana, o cümlədən Cənubi Azərbaycana gətirilən və buradan aparılan mallar daha sürətlə artmağa başladı. 80-ci illərdən etibarən Rusiya dövlətinin İran bazarında hakim mövqe tutmaq məqsədilə yuxarıda göstərilən bir sıra tədbirləri həyata keçirməsi bu inkişaf üçün əlverişli şərait yaratdı. Bu tədbirlərə, yuxarıda göstərilənlərdən əlavə, Rusiyaya başqa ölkələrdən gətirilən mallara nisbətən İrandan gətirilən mallar üzərinə dəfələrlə az gömrük qoyulmasını, 1901-ci ildə isə Rusiya ilə İran arasında bağlanmış müqaviləyə əsasən Rusiyadan alınan mallar üçün gömrük haqqının olduqca aşağı salınmasını, bəzi mallar üçün isə (o cümlədən, İranın daxilində) ləğv edilməsini də əlavə etmək lazımdır.

Yaranmış əlverişli şəraitdən istifadə edən Rusiya tacirləri az müddət ərzində Təbriz bazarında Fransa qəndinə, İngiltərə çitinə, Amerikadan gətirilən ağ neftə və s. mallara qarşı rəqabətdə üstünlük əldə edə bildilər.[182]

Artıq XIX və XX əsrlərin qovşağında Rusiya Cənubi Azərbaycanın idxalat və ixracatında mühüm yer tuturdu.

---

[179] Averyanov-Şəkinski, səh.41.
[180] İngiltərə buradan əsas etibarilə böyük mənfəət gətirən xalça ixrac edirdi.
[181] Kerzon, I cild, səh.527.
[182] Bax: Kerzon, I cild, səh.526; Averyanov-Şəkinski, səh.44-47.

Cənubi Azərbaycanın, eləcə də İranın müxtəlif yerlərindən Təbrizə karvan yolları vasitəsilə gətirilən mallardan əlavə Rusiyaya əyalətin ayrı-ayrı mahallarından Təbrizə gətirilmədən də əmtəə ixrac edilirdi. Məsələn, Marağa və Urmiya Ərdəbil-Astara vasitəsilə Rusiyaya səbzə, Sovucbulaq isə mazı, kitrə, saqqız, dəri, xurma və s. göndərirdi.[183]

Rusiyadan həmin məntəqələrə müxtəlif sənaye malları - qənd, ağ neft, manufaktura, şüşə və saxsı qablar, metal məmulatı, şam, çay və i. a. daxil olurdu. 2-ci cədvəldə 1892-1897-ci illərdə Cənubi Azərbaycanla Rusiya arasındakı ticarətin ümumi vəziyyəti göstərilmişdir.[184]

**2- ci cədvəl**

| İllər | Rusiyadan Cənubi Azərbaycana gətirilmişdir (min manatla) | | | Hər iki yolla Cənubi Azərbaycandan Rusiyaya aparılmışdır (min manatla) |
|---|---|---|---|---|
| | Su yolu ilə | Quru sərhəd yolu ilə | Hər iki yolla birlikdə | |
| 1892 | 1.928 | 774 | 2.692 | 6.355 |
| 1893 | 2.889 | 894 | 3.783 | 5.390 |
| 1894 | 2.639 | 680 | 3.319 | 4.374 |
| 1895 | 3.202 | 916 | 4.118 | 3.803 |
| 1896 | 2.105 | 1.704 | 3.809 | 4.523 |
| 1897 | 3.200 | 900 | 4.100 | məlumat yoxdur |

Sonrakı illərdə də bu ticarət inkişafını davam etdirmişdir.

[183] Bax:Tiqranov, səh.154-156. Bu malların əsas hissəsinin ticarəti bir neçə Bakı, habelə Həştərxan ticarət firmalarının əlində olub, erməni və azərbaycanlılardan ibarət komisyonçular vasitəsilə aparılırdı (Р.Курмаков. Торговые и промышленные интересы России на нашем ближнем Востоке в связи с постройкой персидских дорог, səh.8).

[184] Averyanov-Şəkinski, səh.39; П.А.Риттих. Железнодорожный путь через Персию. СПб, 1900, səh.59 (Cədvəldə rəqəmlər yuvarlaqlaşdırılmışdır).

Gətirilən rəqəmlər bir daha göstərir ki, Cənubi Azərbaycan əyalətinin Rusiya ilə ticarəti təqribən bütün illərdə müsbət balanslı olmuşdur. Bəzi illərdə məsələn, 1892-ci ildə hətta ixracatın dəyəri idxalatın dəyərindən 2,3 dəfə çox idi.

Deməli, bəhs olunan dövrdə Cənubi Azərbaycandan Rusiyaya geniş miqyasda həm kənd təsərrüfatı, həm də sənətkarlıq məhsulları ixrac edilmişdir. Qeyd etmək lazımdır ki, Cənubi Azərbaycanın Rusiya ilə ticarətində yerli tacirlər hələ mühüm rol oynamaqda davam edirdilər. Cənubi Azərbaycanda fəaliyyət göstərən yerli ticarət şirkətləri Rusiyanın müxtəlif şəhərlərinə - Bakı, Moskva, Nijni Novqorod və s. apardıqları məhsulların əvəzində qənd, çit, dəmir kimi ərzaq və sənaye malları gətirirdilər. Məsələn, ən iri və başlıca olaraq quru meyvə ixracı ilə məşğul olan Tumanyans qardaşları şirkəti Rusiyaya ildə bir milyon manatdan artıq məbləğdə quru meyvə ixrac edirdi.[185] Bu ixracda əvvəlki dövrdən fərqli olaraq kənd təsərrüfatı məhsulları üstünlük təşkil edirdi. Bunu demək kifayətdir ki, 1896-cı ildə Rusiyaya ixrac edilmiş 4,5 milyon manatlıq malın 2.107 min manatlığı, yəni təqribən yarısı qoz-badam və quru meyvədən ibarət idi. Qalan hissə isə əsasən taxıl, pambıq, yun, mal-qara və s. təşkil edirdi.[186] Beləliklə, Rusiya Cənubi Azərbaycandan kənd təsərrüfatı məhsullarını geniş miqyasda ixrac etməklə obyektiv olaraq təsərrüfatın bu sahəsinin inkişafına imkan yaradırdı. Lakin bu inkişaf birtərəfli olub, getdikcə daha çox müstəmləkə və asılı ölkələrə xas xüsusiyyətlər qazanırdı. Göstərilən inkişafla yanaşı, o zaman sənaye malları istehsalının əsas forması olan sənətkarlıq (xalçaçılıq istisna olmaqla) tənəzzül keçirməkdə davam edirdi. XIX əsrin ortalarında Cənubi Azərbaycandan sənətkarlıq məhsulları geniş ixrac edildiyi halda, artıq əsrin sonlarına doğru buradan ixrac edilən sənaye malları azlıq təşkil edirdi. Pambıq, yun, barama, gön və s. əsasən xammal şəklində aparılırdı. Ölkənin özündə sənayenin

---

[185] М.Л.Томара. Экономическое положение Персии, səh.112.
[186] Averyanov-Şəkinski, səh.49.

durğunluğu və xarici malların rəqabəti nəticəsində mövcud sənətkarlıq peşələri iflasa uğrayır, xaricdən, əsasən Rusiyadan külli miqdarda pambıq, yun, ipək parça, saxsı qab və s. gətirilirdi.

Bütün bunlar XIX əsrin son rübündə Azərbaycanın xarici ticarətinin və iqtisadiyyatının müstəmləkə və asılı ölkələrə xas şəkildə inkişaf etdiyini göstərir. Başqa sözlə desək, belə ticarət ölkəni xarici imperialist dövlətlərin sənayesini xammalla təchiz edən mənbəyə və həmin ölkələrin sənaye malları üçün satış bazarına çevirirdi.

## 2. AQRAR MÜNASİBƏTLƏR VƏ KƏNDLİLƏRİN VƏZİYYƏTİ

### Torpaq mülkiyyəti formaları. Kənddə feodal asılılığı münasibətlərinin hakim olması

Əvvəlki dövrdə olduğu kimi, torpaq üzərində mülkiyyət və sahiblik formaları xalisə, tiyul, ilati, vəqf, xırdamalik və nəhayət, mülk torpaqlardan ibarət idi.

Əgər XIX əsrin ortalarında torpaq mülkiyyəti formaları içərisində xalisələr əhəmiyyətli yer tuturdusa, artıq əsrin son rübündə Nəsrəddin şah xalisələrin bağışlanmasına, əslində isə satılmasına çox yol verdiyindən və ümumiyyətlə, bu torpaqların idarə edilməsi yarıtmaz olduğundan xalisələr bir mülkiyyət forması kimi tənəzzülə başladı. Dövlət nəzarətinin zəifləməsi nəticəsində xalisə mülklərin çoxu dağılır və məmurların zülmündən qurtarmaq üçün əhalinin başqa yerlərə köçmək meyli artırdı.

1871-1872-ci illərdə baş vermiş növbəti qıtlıq və aclıq bu vəziyyəti daha da kəskinləşdirdi.

Şah hökuməti xalisə torpaqlardakı tənəzzülə son qoymaq, eyni zamanda birdəfəlik böyük bir vəsait əldə etmək məqsədilə xalisələri (Tehran ətrafındakı torpaqlar istisna olmaqla) satmağı qərara aldı. Bu barədə hicri 1304 (1886-87)-cü ildə[187] verilmiş şah

[187]Camalzadə, səh.138; Mirza Həsən xan Şeyx Cabəri Ənsari. Tarix-e Esfehan və Rey (*İsfahan və Rey tarixi*), 1322/1943, səh.60

fərmanından sonra dövlət torpaqları sürətlə alınmağa başladı, möhtəkir torpaq alveri genişləndi. Bunun da səbəbi aydın idi.

Haqqında danışılan dövrdə xarici kapitalın ölkəyə soxulması sənayenin inkişafına mane olduğu halda, xarici bazarın tələbinə uyğun olaraq burada ticarət əkinçiliyinin artmasına, torpağın kapital tətbiqi üçün ölkədə, demək olar ki, yeganə sabit obyekt və gəlir mənbəyinə çevrilməsinə səbəb olmuşdu.

Cənubi Azərbaycanda olan dövlət torpaqlarının da çoxu tez bir zamanda satın alındı. Burada da xalisə torpaqları, əsasən şahzadələrə, xanlara və digər torpaq əsilzadələrinə satıldı. Maku xanlığında dövlət kəndlərinin əksəriyyətini xanlığın sərdarı İqbalüssəltənə və Makunun başqa xanları aldılar. Maku sərdarı Çaypara və Çaldıran bölüklərini bütövlükdə almışdı.[188]

Xalisələrin bir qismini də xırda dövlət məmurları, ruhanilər və nəhayət, tacirlər satın aldılar. Xalisələrin böyük bir qismi, əvvəlki dövrdə olduğu kimi, tiyul şəklində ayrı-ayrı dövlət məmurlarının, dövlət xəzinəsindən təqaüd alan şəxslərin sərəncamında qalmaqda idi. 1878-79-cu il (hicri 1296) məlumatına görə, Zəncanda tiyul verilmiş xalisə kəndlər torpaq mülkiyyəti növləri içərisində hələ əhəmiyyətli yer tuturdu.[189]

Tiyulların bir çoxu artıq nəsildən-nəslə keçdiyindən bəhs edilən dövrdə bunlar tiyuldarların tam ixtiyarında olmaqla əslində onların mülkiyyətinə çevrilmişdi. XIX əsrin axırlarına yaxın bu meyl daha da güclənmişdi. Dövlət rəsmən tiyulları öz mülkiyyəti hesab etsə də, bir çox tiyuldarlar əslində həmin tiyullar üzərində xüsusi mülkiyyət hüquqlarını genişləndirməyə çalışırdılar. XX əsrin ilk illərində (1903-cü ildə) Cənubi Azərbaycanda öz tiyulundan xüsusi mülkiyyət hüququnda istifadə etməyə çalışan tiyuldarlar kəndliləri torpaq üzərində faktik sahiblikdən məhrum etməyə, hətta çoxillik kökü olan bitkilər - meyvə ağacları, yonca və s. becərilən və toxunulmaz sayılan kəndli "rişə"lərini zəbt etməyə

---

[188]В.Минорский. Отчет о поездке в Макинское ханство. Материалы по изучению Востока, 1909, вып.I, səh.3, 31.

[189]Ann K.S.Lambton.Landlord and Peasant in Persia, p.155 (Sonrakı səhifələrdə: Ləmbton, səh... yazılacaqdır).

cəhd göstərirdilər.[190] Bununla belə, tiyuldarların hüquqi cəhətdən yenə də öz tiyulları üzərində mülkiyyət hüququ yox idi; onlar tiyul torpaqları bağışlaya, başqa mülklə dəyişə və sata bilməzdilər. Odur ki, xalisələr satıldıqda əsilzadələrdən və başqalarından ibarət tiyul sahibləri öz tiyullarını çox ucuz qiymətə satın alaraq[191] xüsusi mülkiyyətə çevirirdilər.

Bütün bunlara baxmayaraq 1905-1911-ci illər inqilabı ərəfəsində bütün İranda olduğu kimi, Azərbaycanda da tiyulların sayı yenə də çox idi. Odur ki, bu dövrdə torpaqla bağlı olan və tiyul sisteminin varlığından zərər çəkən burjuaziya nümayəndələri tiyulların ləğvini tələb edirdilər. Bu tələblər bütün ölkə üzrə birinci İran məclisinin açılmasına qədər davam etmişdi, məclisin özündə isə qızğın müzakirələrdən sonra tiyul verilməsinin dayandırılması və ilk növbədə məvacib müqabilində verilmiş tiyulların ləğvi haqqında qərar qəbul olundu.[192] Bununla belə, keçmiş tiyul sahiblərinin çoxu tiyullarını uzun müddət öz əllərində saxlamaqda davam etdilər.

İlatların ixtiyarında olan torpaqlar da öz xüsusi çəkisini itirməmişdi. Lakin vaxtilə tayfaların ümumi istifadəsinə verilmiş ilati torpaqlar XIX əsrin sonlarında artıq tayfanın başında duran hakim elin üzvlərinin, daha çox hallarda isə tayfa başçısının tam ixtiyarına keçmişdi (bununla belə, həmin başçı yenə də ilati torpaqları sata, bağışlaya, başqa mülklə dəyişə və ya girov qoya bilməzdi). Əmtəə-pul münasibətlərinin inkişafı ilə əlaqədar ölkədəki köçmə maldarlıqla məşğul olan tayfalar içərisində oturaqlığa keçmək halları çoxaldıqca ticarət maldarlığı ilə yanaşı, ticarət əkinçiliyinə də meyl artırdı. Bununla əlaqədar olaraq tayfa və el (oba) başçıları içərisində torpaqları öz feili mülkiyyətinə çevirmək

---

[190]Bax: Tiqranov, səh.48-49.
[191]Tiqranov, səh.84.
[192]Bax: Mozakerat-e Məcles-e Şoura-ye Melli-ye doure-ye əvvəl (*Birinci dövrə Milli Şura Məclisinin protokolları*), Tehran, 1325/1946, səh.125 (Sonrakı səhifələrdə: Birinci məclisin protokolları, səh... yazılacaqdır).

cəhdləri genişlənirdi. Məsələn, Şahsevən tayfasında ictimai torpaqlardan istifadə edən ellərin sayı olduqca azaldığı halda, obaların əksəriyyətində torpaq el başçılarına məxsus idi.[193]

Azərbaycanın qərbində yaşayan kürd tayfa və qəbilə başçıları da ilati torpaqların felən xüsusi sahiblərinə çevrilmişdilər. Kürd tayfa başçılarını 5-dən 100-dək kəndə sahib olan nəsli feodallar təşkil edirdi.[194] Onlardan bir-birilə qohum olan Maku xanları[195] xanlıqda və hətta onun xaricində torpaqların əksərinin nəsli sahibləri idilər.[196] Maku sərdarı geniş torpaqlardan əlavə çoxlu miqdarda qoyun sürüsünə, at ilxısına və s. malik idi.

Azərbaycanın bir çox başqa rayonlarında da əsas torpaq sahiblərini tayfalar və ellərlə bu və ya digər dərəcədə bağlı olan nəsli feodallar təşkil edirdi. XX əsrin əvvəllərində Xoy, Urmiya mahalları, Maku və Ovacıq xanlıqları haqqında tərtib edilmiş statistika məlumatları[197] və s. materiallardan aydın görünür ki, Azərbaycan əyalətində torpaq sahiblərinin müəyyən hissəsini zadəganlar təşkil edirdi. Bir çox hallarda isə xan və bəylərin malik olduğu torpaqlar sırasına keçmiş tayfa torpaqlarından əlavə, dövlətin "tiyul" və "mülk" kimi bağışladığı, özlərinin dövlətdən və ya başqa mülkiyyətçidən satın aldığı, yəni onların şərtsiz mülkiyyətində olan kənd, əkin və otlaq yerləri də daxil idi.

Keçən əsrin sonlarına doğru vəqflərin də xüsusi torpaq mülkiyyətinə çevrilməsi təmayülü artırdı. Ruhanilər vəqf torpaqlarını ucdantutma mənimsəyirdilər. Məsələn, hələ XVIII əsrdə Zahir adlı torpaq sahibinin vəqfə verdiyi 380 kənddən çoxu ayrı-ayrı şəxslər, çox ehtimal ki, ruhanilər tərəfindən zəbt edilmiş və XX

---

[193]Bax: Gürcüstan MDTA, fond 521, siyahı 2, iş 533, vər.3,5; К.Артамонов. Северный Азербайджан. ч.II, Тифлис, 1890, səh.415

[194]Л.С.Фришман. О феодальных отношениях у иранских племен. Ученые записки Казахского Государственного Университета, т.20, 1956, səh.113.

[195]В.Минорский. Отчет о поездке в Макинское ханство. Материалы по изучению Востока, 1909, вып.1, səh.19.

[196]MDHTA, f.76, iş 202, vər.14.

[197]Gürcüstan MDTA, f.85, iş 26, vər.3.7-89; iş 97, vər.112-141.

əsrin əvvəllərində bunlardan yalnız 15-ə qədəri dini idarələrin ixtiyarında qalmışdı.[198]

Böyük torpaq sahələrinə malik olan, hələ də bütün mülki məhkəmə və təhsil işlərini başlıca olaraq öz əllərində saxlayan iri və orta ruhanilər ölkədə, o cümlədən Cənubi Azərbaycanda XIX əsrin sonlarında da iqtisadi cəhətdən qüdrətli bir ictimai qüvvəni təşkil edirdilər.

Ruhanilərin aşağı təbəqəsini təşkil edən kənd mollaları, xırda seyidlər, dini məktəb tələbələri və b. öz iqtisadi və sosial vəziyyətlərinə görə zəhmətkeş xalqa daha yaxın olub, az hissəsi dövlətdən təqaüd aldığı halda, əksəriyyəti, xüsusilə seyidlər çox zaman ticarət, sənətkarlıq və əkinçiliklə məşğul olurdular. Bu şəxslər vəqfləri, dini idarələrin külli miqdarda gəlirini öz inhisarlarına almış iri ruhanilərdən narazı idilər.

XIX əsrin sonlarında kəndlilərə məxsus xırdamalik torpaqlar yenə də azlıq təşkil edirdi (xan, bəy, xırda tacir, dövlət məmuru, sənətkar və b. məxsus kiçik torpaq sahələri də belə adlandırıldığı üçün kəndli mülkiyyətindən fərqləndirmək məqsədilə XIX əsrin sonlarında İranın bir çox yerlərində bunlara "ərbabi-ye xordemalek" - xırdamalik ərbabi deyilməyə başlandı).

Adətən, kəndlilərə məxsus torpaq sahələri çox kiçik olurdu. Meyvəçilik rayonlarında kəndlilərin xüsusi torpaq sahələri daha az ölçülü idi. Məsələn, Urmiya rayonunda belə "cırtdan" torpaq sahələri hətta səkkizdə bir tanab[199] qədər də olurdu ki, burada yalnız meyvə ağacları və tərəvəz əkilirdi.

Kəndlilərin malik olduğu torpaqlar əsas etibarilə keçmiş kəndli icma mülkiyyətinin[200] qalıqları idi. Bununla yanaşı xırda-

---

[198]Атрпет. Мамед-Али шах. Александрополь, 1909, səh.44.

[199]1 tanab və ya tanaf təqribən 0,4 hektara bərabərdir.

[200]Urmiyada "camaat torpağı" adlanan bu cür kəndli icma mülkiyyəti forması hələ XIX əsrdə mövcud idi (Bax: "Azərbaycan" qəzeti (*əski əlifbada*), 13 mart 1968-ci il).

malik torpaq sahibləri içərisində, məsələn, XIX əsrin sonuna doğru, Ərdəbil vilayətində olduğu kimi, torpaq sahələri satın almış kəndlilərə az da olsa təsadüf edilirdi.[201]

İranda, o cümlədən Cənubi Azərbaycanda feodalizmin tənəzzül dövrünün şiddətləndiyi XIX əsrin sonu və XX əsrin əvvəllərində icma artıq torpaq mülkiyyəti forması kimi cüzi miqdarda qalmışdı.

Xırdamalik kəndlilərin sərbəst təsərrüfatı olsa da, onların xırda torpaq sahələri mülkədarlara məxsus geniş torpaq "dənizləri" içərisində bir ada kimi idi və əksər hallarda sudan istifadədə, dövlət vergilərinin ödənilməsində və s. ya qonşu, yaxud da həmin kəndin mülkədarlarından asılı olurdular. Əmtəə-pul əlaqələrinin inkişafı ilə belə xırdamaliklərin torpağı tədricən həmin qonşu mülkədarlar tərəfindən zəbt edilirdi.

Xırdamalik kəndli torpaqlarının azalmasına sələmçi kapitalın əsarəti və dövlət vergilərinin yığılmasındakı hərc-mərclik də təsir göstərirdi. Keçən əsrin axırlarında xarici ölkələrə, xüsusilə çar Rusiyasına xırdamalik kəndlilər də kəsbkarlığa gedirdilər. Məsələn, Mərəld şəhərindən verilən məlumata görə 80-ci illərin sonunda burada torpaqlı kəndlilər öz torpaqlarını satıb, Rusiyaya kəsbkarlığa gedirdilər, qayıtdıqda isə torpaqları olmadığından hər cür işlərdə çalışırdılar.[202]

XIX əsrin əvvəllərində əyalətdə torpaq mülkiyyəti formaları içərisində hələ əhəmiyyətli yer tutmayan mülk torpaqlar XIX əsrin sonuna doğru əsas mülkiyyət formasına çevrilmişdi. Həmin əsrin xüsusilə son rübündən ticarət əkinçiliyinin inkişafı və bununla əlaqədar olaraq torpağın mühüm gəlir mənbəyi kimi əhəmiyyətinin artması mülk torpaqların sürətlə çoxalmasının başlıca amillərindən oldu. 1886-87-ci ildən etibarən dövlətin xalisələri kütləvi surətdə satmağa başlaması isə bunun üçün əlverişli şərait yaratdı.

---

[201]Averyanov-Şəkinski, səh.19-20.

[202]RXSA, "İran stolu" fondu, iş 535, vər.80.

Mülk torpaqlar sahəsi xam torpaq sahələrinin becərilməyə başlaması hesabına da artmışdı. XIX əsrin sonlarında verilən məlumata görə Maku xanı istifadəsiz qalmış geniş torpaq sahələrinə kanallar çəkərək həmin torpaqları əkinə yararlı hala salmış, kəndliləri oraya köçürüb başlıca olaraq pambıq və taxıl əkinlərinə başlamışdı.[203]

Əgər XIX əsrin ikinci yarısına qədər Cənubi Azərbaycanda xüsusi mülkiyyətdə olan torpaqlar əsasən vaxtilə şah tərəfindən mülk kimi verilmiş torpaqlar idisə, XIX əsrin ikinci yarısından etibarən bunların mühüm bir hissəsini alqı-satqı yolu ilə əldə olunmuş torpaqlar təşkil edirdi. Alqı-satqı yolu ilə şahzadələr,[204] xanlar və bəylərlə yanaşı, tacirlər, sərraflar (sələmçilər) da torpaq sahələri ələ keçirməyə başladılar. Həmin dövrdə fəaliyyət göstərən bir sıra sələmçi-ticarət şirkətləri də torpaq almağa girişdilər. Keçən əsrin 60-cı (XIX əsr) illərindən Təbrizdə işə başlamış Tumanyansın ticarət şirkətinin fəaliyyəti bu cəhətdən səciyyəvidir. Həmin ticarət şirkəti fəaliyyətinin ilk dövründə əsasən sələmçilik, qismən də ixracat və idxalatla məşğul olmuşdur. Lakin ixrac etdiyi əmtəələrin əhəmiyyətini başa düşdükdən sonra şirkət özü həmin məhsulları hasil etmək qərarına gələrək Azərbaycanda, eləcə də İranın bir çox vilayətlərində torpaq satın aldı və bilavasitə pambıq, ipək, quru meyvə tədarükünə başladı.[205] Təbriz tacirlərinin Cənubi Azərbaycanın bir sıra yerlərində, o cümlədən Qaradağda da torpaq mülkləri var idi.[206]

---

[203]Bax: M.A.Dadaşzadə. 1905-1911-ci illər İran inqilabı ərəfəsində İran Azərbaycanında kəndlilərin istismar edilməsi haqqında "Azərbaycan SSR EA Xəbərləri" (ictimai elmlər seriyası), 1959, №5, səh.118.

[204]Şahzadələrdən Eynüddövlənin Miandoabda, Fərman Fərmanın Azərbaycanın bir sıra yerlərində torpaq mülkləri var idi. Bax: Н.К.Белона. К вопросу о так называемой социально-демократической партии Ирана. «Вопросы истории и литературы стран зарубежного Востока», М., 1960, səh.132.

[205]Tarixçe-ye si sale-ye Bank-e Melli-ye İran (*İran Milli Bankının otuz illik tarixçəsi*), 1307-1337/1928-1958, Tehran, 1338/1959, səh.47 (Sonrakı səhifələrdə: İran Milli Bankının otuz illik tarixçəsi, səh... yazılacaqdır).

[206]В.Минорский. Отчет о поездкев Макинское ханство. Материалы по изучению Востока, 1909, вып.I. səh.11.

Ruhanilərin yuxarı təbəqələrinin nümayəndələri - müctəhidlər və digər din xadimləri də külli miqdarda torpaq sahələri almağa başladılar. Təbriz və digər şəhərlərin ruhaniləri elə varlanmışdılar ki, hər müctəhidin satın aldığı kəndlərin sayı 50-200-ə çatmışdı.[207]

XIX əsrin sonu və XX əsrin əvvəllərindəki Azərbaycan üçün iri torpaq sahiblərinin hakim olması səciyyəvidir. İri torpaq sahibləri sırasına yüzlərlə və onlarla kəndi olan mülkədarlar daxil idi.

Şahın baş mehtəri vəzifəsini daşıyan Təbriz mülkədarı Seyid Hacı Sədrülmülkün Azərbaycanda və İranın bir sıra vilayətlərində 500-dən artıq (o, xırda torpaq sahiblərinin də yerlərini zəbt etməkdən çəkinmirdi),[208] Zəncan əmiri Sərdar Fatehin 500-ə yaxın, Talış xanı Seyfülmülk Sultan Əhməd xanın Ərdəbil vilayətində 109,[209] Maku Sərdarının 100-150 kəndi var idi.[210] Bu torpaq sahiblərinin xeyli hissəsi nəsli feodal zadəgan nümayəndələrindən ibarət idisə, digər mühüm hissəsini saray xadimləri, əyalət və vilayətlərin hakimləri, başqa yüksək rütbəli dövlət məmurları təşkil edirdi. Sonuncuların əksəriyyəti öz torpaqlarının çoxunu irsən deyil, vəzifədə olduqları müddətdə, alqı-satqı, zəbt və s. yollarla ələ keçirmişdilər.

Dövlət məmurlarından əlavə, ruhanilərin də iri torpaq sahibliyində mühüm mövqe tutduğunu gördük. İri torpaq sahibləri içərisində sərraflar da nəzərə çarpırdı.

Orta torpaq sahibləri ən çoxu 20 kəndə sahib idi. Qalanlarının 5-6, əksərinin isə 2-3 kəndi vardı. Bir kəndə və ya bunun yalnız müəyyən bir hissəsinə malik olan torpaq sahiblərinə (xırdamalik ərbablara) Urmiya və Zəncanda çox təsadüf edilirdi. Kəndli torpaqları kimi, xırdamalik ərbab torpaqlarının da zəbt olunması halları İran inqilabından əvvəl tez-tez baş verirdi.

---

[207]Атрпет. Мамед-Али шах. səh.137.

[208]Атрпет. Имамат, Александрполь, 1909, səh.79.

[209]И.А.Огранович. Провинции Ардебильская и Серабская, səh.66, 69-71, 75-77.

[210]В.Минорский. Отчет о поездке в Макинское ханство. Материалы по изучению Востока, 1909, вып.1. səh.7.

Torpaq üzərində xüsusi mülkiyyət artdıqca və möhkəmləndikcə, torpaqlar qismən ticarət və sələmçi burjuaziya nümayəndələrinin əlinə keçdikcə təbii olaraq xüsusi mülkiyyətin toxunulmazlığı tələbləri də artırdı. Konstitusiya qəbul olunanadək İranda xüsusi mülkiyyətin toxunulmazlığı nə rəsmən, nə də felən təmin olunmadığından bundan yalnız kəndlilər deyil, həm də burjuaziyanın nümayəndələri xeyli zərər çəkirdilər. Hakimiyyət başında olan iri feodallar öz silahlı dəstələri vasitəsilə torpaq mülklərini başqa feodalların və ya köçəri tayfaların basqın, qarət, nəhayət, zəbtindən müdafiə edərək asılı kəndlilərdən feodal rentasını toplaya bilirdilərsə, torpaq sahibi olan tacirlər bu imkandan məhrum idilər.

Qeyd etmək lazımdır ki, təkcə tacirlər deyil, kiçik, hətta orta mülkədarlar da göstərilən təhlükələrdən özlərini kifayət qədər qoruya bilmirdilər. Onlar bir çox hallarda belə bir təminat üçün hətta xarici dövlət nümayəndəliyinə müraciət edirdilər. XIX əsrin sonu və XX əsrin əvvəllərində Cənubi Azərbaycanda torpaq sahibləri və tacirlər tərəfindən xarici təbəəliyi, xüsusilə rus, az da olsa osmanlı təbəəliyini qəbul etmək üçün müvafiq konsulluqlara müraciət olunması geniş yayılmışdı. Xarici təbəəliyi qəbul etməklə həmin şəxslər müvafiq konsulluğun himayəsini qazanmış olurdular. Bu isə ölkə daxilində xarici təbəə kimi onların şəxsiyyət və əmlakının toxunulmazlığını təmin etməklə, həmin torpaq sahiblərini dövlət vergi məmurlarının özbaşınalığından xilas etmiş olurdu. Eyni məqsədlə rus təbəəliyini bəzən iri torpaq sahibləri də qəbul edirdilər. Bəzən də torpaq sahibləri İranda fəaliyyət göstərən xarici dövlətlərin himayəsini qazanmaq üçün öz əmlakını İranda açılmış olan xarici banklara girov qoymağa çalışırdılar.[211] Torpaq sahibləri öz torpaqlarını rus təbəələrinə icarəyə verir və bu çox zaman ancaq toxunulmazlıq xatirinə, rəsmiyyət üçün edilirdi. Belə hallarda bəzən siyasi məqsəd də az rol oynamırdı.

Burada gözə çarpan bir cəhəti qeyd etmək lazımdır ki, Cənubi Azərbaycanda, yuxarıda ötəri deyildiyi kimi, Şimali Azərbaycandan da çoxlu torpaq sahibi var idi. Bakı, Gəncə, Şamaxı və başqa

---

[211]Bax: RXSA, "İran stolu" fondu, siyahı 489, iş 175, vər.197.

şəhərlərdən olan bu sahiblər Cənubi Azərbaycanda torpaq sahibi olan bütün rus təbəələrinin[212] malik olduğu torpaqların 86,5 faizini öz əllərində cəmləmişdilər.[213] Eyni zamanda Cənubi Azərbaycan torpaq sahibləri içərisində də Zaqafqaziyada, xüsusən Şimali Azərbaycanda daşınmaz əmlaka, o cümlədən torpaq mülkiyyətinə sahib olanlar var idi.[214] Maraqlıdır ki, Təbrizdəki baş rus konsulluğunun məmuru bu hadisəni, yəni azərbaycanlıların qarşılıqlı surətdə Şimali və Cənubi Azərbaycanda torpaq mülkiyyətinə malik olmasını əsasən Azərbaycanın hər ikihissəsində yaşayan əhalinin "vahid tayfa və vahid məzhəbə mənsubiyyətilə" izah edir.[215]

Daha kiçik torpaq sahiblərinin, o cümlədən mülkiyyətçi kəndlilərin torpaqlarını vəqfə keçirməsi də öz mülkünün toxunulmazlığını təmin etmək məqsədini güdürdü. Bir sözlə, Engelsin Şərqdə xüsusi mülkiyyətin təmin olunmaması haqqında yuxarıda gətirilən fikri XIX əsrin sonu və XX əsrin əvvəllərindəki İran, o cümlədən Cənubi Azərbaycan üçün hələ qüvvədə idi və burjua mülkiyyətinin birinci əsas şərti - tacirin şəxsiyyət və mülkiyyətinin təmini ölkədə hələ də yox idi. Məhz buna görə də ölkənin bu dövrdə mütərəqqi rol oynayan burjuaziyasının əsas tələblərindən biri şəxsiyyətin və xüsusi mülkiyyətin qorunmasının təmin edilməsi idi.

Bəhs olunan dövrdə Azərbaycanda torpaq sahibləri (istər mülk, istərsə də tiyul və ilati sahibləri), xüsusilə iri feodallar özləri təsərrüfatla çox az məşğul olurdular. Adətən, onlar Tehran, Təbriz və başqa şəhərlərdə yaşayır,kəndlərini yerlərdə olan nümayəndələri - mübaşir, kətxuda və başqaları vasitəsilə idarə edirdilər.

---

[212]XX əsrin əvvəllərində Cənubi Azərbaycanda Rusiya təbəələrinə məxsus 192 kənd var idi. Bax: Известия Министерства Иностранных Дел. СПб, 1913, кн.3, səh.149.

[213]GürcüstanMDTA, fond 15, iş 338, vər.4.

[214]Yenə orada, vər.6.

[215]Gürcüstan MDTA, f.15, iş 338, vər.6.

Əksərən torpaqsız, başqa istehsal vasitələrinə isə qismən malik olan kəndli əkin üçün sahəni yaşadığı yerdəki torpağın sahibindən - feodaldan paydarlıq icarəsi əsasında icarəyə götürürdü. Kəndli torpaqdan əlavə feodaldan qismən çatışmayan digər istehsal vasitələrini (su, iş heyvanı və aləti, dənlik toxum) də alırdı. Bunları hansı tərəfin verməsi və başqa amillərdən asılı olaraq məhsul bölgüsü aparılırdı.

Süni suvarılan torpaqların icarəsində ən çox yayılmış forma nesfkari, yəni yarıdarlıq idi.[216] Azərbaycanın suvarılmayan, əsasən dənli bitkilər əkilən dəmyə torpaqlar olan rayonlarında ən çox yayılmış paydarlıq icarə növü kəndlinin mülkədar torpağını özünün iş aləti və heyvanı, toxumu və s. ilə becərdiyi icarə idi. Bu halda kəndli əsas məhsulun (buğda, arpa, saman və s.) onda birindən beşdə birinə qədərini mülkədara verirdi. Bundan əlavə, mülkədarlar kəndlinin malik olduğu bütün gəlir mənbələrindən müəyyən hissə alırdılar.[217] Kəndli öz əməyindən başqa heç bir şeyə sahib olmadıqda isə, torpaq sahibi məhsulun 70-85 faizini götürürdü.[218]

Torpaq sahibləri, onlara əlverişli olduqda, kəndlilərdən məhsulla verilməli olan icarə haqqının pulla ödənilməsini tələb edə bilirdilər.

Kəndli icarə haqqından başqa, mülkədara əlavə vergilər verir, onun üçün müxtəlif ənənəvi feodal mükəlləfiyyətlərini də daşıyırdı. Kəndli istifadə etdiyi ev üçün müəyyən məbləğ, təsərrüfatının müxtəlif sahələrindən məhsulla pay (toyuq, yumurta, yağ və s.) verir, biyara işləyir və başqa mukəlləfiyyətlər daşıyırdı. Bunlar torpaq rentasının bir hissəsini, bir çox hallarda isə kəndlinin zəruri əməyinin müəyyən qismini əhatə edirdi.

---

[216]Вах. Максимович-Васильковский. Отчет о поездке по губернаторствам Западной Персии, Тифлис, 1905, ч.II, səh.273; Тигранов, səh.36; Чернозубов. Страна льва и солнца, səh.186.
[217]Tiqranov, səh. 36; Gürcüstan MDTA, f.521, siy.2, iş 426, vər.34, 46, 47, 49, 62, 64.
[218]Tiqranov, səh.36.

Bütün hallarda paydar kəndlinin ödədiyi renta çox yüksək idi. Göstərilən cəhətlərdən əlavə, torpaqların harada - şəhər ətrafında, yaxud su mənbəyinə yaxın yerləşməsi də paydarlıq rentasının daha yüksək olmasına təsir edirdi.

Paydar kəndli bir qayda olaraq rentanı məhsuldan pay hesabı ilə ödəyirdi, pul rentasına isə təsbit edilmiş icarədə rast gəlmək olardı. Bəzi hallarda kəndli rentanın bir hissəsini məhsulla, qismən də işləyib ödəmə ilə (biyarla) verirdi. Bir çox yerlərdə biyar günləri ildə 1-2 aya çatır, bəzi yerlərdə isə 2-3 gündən artıq olmurdu (birinci halda biyar rentanın bir qismini təşkil edən, ikinci halda isə feodal mükəlləfiyyəti olan işləyib ödəmə idi).

XIX əsrin sonu və XX əsrin əvvəllərində torpaq sahibləri, ticarət əkinçiliyinin inkişafı ilə əlaqədar olaraq, icarə haqqının heç olmazsa qismən işləyib ödəmə ilə yerinə yetirilməsinə müəyyən maraq göstərirdilər. Bəzən mülkədarlar kəndlilərin pay torpaqlarını qismən ələ keçirərək, həmin torpaqlardan işləyib ödəmə əsasında istifadə edirdilər. Mülkədarlar kəndlilərin istifadəsində olan çay və bulaqlar ətrafındakı çəmən, bostan, düyü zəmiləri və bağları zəbt edərək, həmin yerləri ya kəndliləri biyara işlətməklə becərtdirir, yaxud da daha ağır şərtlərlə onlara icarəyə verirdilər.[219]

Atrpet ticarət əkinçiliyinin və bağçılığının artması ilə torpaq sahiblərinin biyara əsaslanaraq öz şəxsi təsərrüfatlarını yaratdıqlarını təsdiq edərək yazır: "Kənd sahiblərinin öz [şəxsi] təsərrüfatı yox idi... Lakin meyvə külli miqdarda satılmağa başladıqda kənd sahibləri torpağın yaxşı sahələrini seçdilər, bağ saldılar və kəndliləri havayı olaraq öz bağlarında işləməyə məcbur etdilər".[220]

XIX əsrin sonu və XX əsrin əvvəllərində biyardan istifadə nisbətən artmışdı. Qeyd etmək lazımdır ki, feodallar asılı kəndlilərin havayı əməyindən təkcə çöl işlərində deyil, eyni zamanda digər sahələrdə, o cümlədən tikintidə, yol çəkilməsində və s.-də istifadə edə bilirdilər. Məsələn, 1899-cu ildə Cənubi Azərbaycan-

---

[219]Tiqranov, səh.45.
[220]Атрпет. Мамед-Али шах, səh.143.

da dəmir yolu xətti çəkmək planının hazırlanması ilə əlaqədar burada olmuş Averyanov və Şəkinskinin təqdim etdiyi birgə hesabatdan aydın olur ki, Yelizavetpol (indiki Kirovabad) və başqa quberniyalarda azərbaycanlılarla daimi əlaqə saxlayan, buna görə də dəmir yolu çəkilməsi planından əvvəlcədən xəbərdar olan və bu işdə iştirak etmək istəyən Cənubi Azərbaycan xan və bəyləri "öz asılı kəndlilər"inin ucuz, hətta havayı əməyindən istifadə edərək külli miqdarda qazanmaq niyyətini gizlətmirdilər".[221] Qeyd etmək lazımdır ki, dəmir yolu çəkilməsindən xəbərdar olan kəndlilər yolun çəkilməsi zamanı onlar üçün kifayət qədər iş tapılacağı, bir daha xaricə iş ardınca getməyəcəkləri ümidilə sevinirdilər. Lakin kəndlilər onların işə götürülməsində mülkədarların vasitəçi olmasını istəmirdilər, çünki onların əmək haqqının həmin xan və bəylər tərəfindən qismən mənimsəniləcəyindən qorxurdular.[222]

Paydar kəndlilər uzun əsrlərdən bərn demək olar ki, həmişə eyni yerdə yaşayıb, eyni torpaq sahələrindən istifadə edirdilər, başqa sözlə desək, onlar həmin torpaqlar üzərində istifadə hüququna malik idilər. Adət və ənənəyə görə isə kəndli müəyyən bir torpaq sahəsini uzun müddət əkib-becərdikdə o, həmin torpaq üzərində sahiblik hüququ qazanırdı. Buna görə də kəndlinin daimi icarəsində olan torpaqların feilən sahibi həmin kəndlilər idi. Şəri-

---

[221]Averyanov-Şəkinski, səh.33-34.

[222]Yenə orada, səh.34. Cənubi Azərbaycanda dəmir yolu çəkilməsi ehtimalından demək olar ki, şahsevənlər, daha doğrusu, onların el və tayfa başçıları müəyyən dərəcədə narahat idilər. Şimalda Cəbrayıl uyezdində azərbaycanlılarla daimi əlaqədə olan Şahsevən xan və bəyləri dəmir yolu çəkiləcəyi təqdirdə Şimali Azərbaycanla əlaqələrin artacağından xoşlansalar və bununla heyvan sürülərini Muğana qışlamağa köçürmək məhdudiyyətinin azalacağına ümid etsələr də (1884-cü ildə çar hökuməti şahsevənlərin vaxtaşırı Cənubi Azərbaycandan Şimali Azərbaycana-Muğana qışlağa köçməsini qadağan etmişdi), digər tərəfdən, onlar dəmir yolunun çarvadarlığı - heyvanla yük daşınmasını sıxışdıracağından, bununla da onların əsas dəvə alıcılarını məhdudlaşdıracağından qorxurdular. Bununla belə, Şahsevən tayfa başçıları dəmir yolu çəkilməsilə onların yaşadığı ərazinin Rusiya tərkibinə qatılacağını və bunun iqtisadi cəhətdən onlar üçün əlverişli olacağını zənn edirdilər (bax: yenə orada, səh, 71-72).

ət və ənənəyə görə kəndlini həmin hüquqdan məhrum etmək olmazdı. Bundan əlavə, yuxarıda qeyd olunan 1843-cü il qanununa görə də kəndlilər torpaq üzərində sahiblik hüququna malik idilər. Kəndlilərin əsasən bağlardan ibarət olan "rişə"lər[223] üzərində sahiblik hüququ daha toxunulmaz idi. Kəndlinin rişə torpaqlarda əkdiyi ağac və s. hələ var ikən onu həmin torpaq sahəsindən məhrum etmək olmazdı. Lakin XIX əsrin sonu və XX əsrin əvvəllərində İranda torpaq üzərində burjua mülkiyyəti xüsusiyyətlərinin meydana gəlməsi və getdikcə möhkəmlənməsi ilə əlaqədar olaraq torpaq sahibləri kəndliləri torpaq uzərindəki sahiblik hüququndan getdikcə daha çox məhrum etməyə başladılar.

Azərbaycanda mülkədarlar kəndlilərin daimi icarəsində olan torpaqların ən münbit hissələrini zəbt edərək onları daha çox istehsal imkanı (öküzü və s.) olan kəndlilərə icarəyə verməyə çalışırdılar.

Cənubi Azərbaycanda vasitəli icarə geniş yayılmışdı. Belə halda ayrı-ayrı şəxslər dövlət, vəqf və xususi torpaqları bütövlükdə icarəyə götürərək onları kiçik hissələrlə kəndlilərə icarəyə verirdilər.

Cənubi Azərbaycanda bu kimi iri icarəçilər içərisində rus təbəəliyində olan şəxslər də (azərbaycanlılar, ermənilər, ruslar və b.) az deyildi. Məsələn, Nəzərbəyov qardaşları Təbriz, Urmiya və Ərdəbil mahallarında xüsusi mülkiyyət hüququnda sahib olduqları torpaqlarla yanaşı, 250.000 tümən qiyməti olan geniş torpaq sahələrini də uzunmüddətli icarəyə götürmüşdülər.[224] Onlar bu torpaqları kiçik hissələrlə yenidən icarəyə verirdilər.

Ümumiyyətlə, torpaq sahibləri həmin torpaqları xırda hissələrlə paydar kəndlilərə icarəyə verməyi üstün tutsalar da, XIX əsrin ikinci yarısından başlayaraq ticarət əhəmiyyətli kənd təsərrüfatı məhsullarından daha çox gəlir əldə etmək imkanı yarandıqdan sonra öz şəxsi təsərrüfatlarını yaratmağa və genişləndirməyə az-çox meyl göstərirdilər. Öz şəxsi təsərrüfatını genişləndirən

---

[223]Urmiyada təqribən eyni mənada "səy" istilahı işlənirdi.
[224]Gürcüstan MDTA, f.15, iş 338, vəd.5.

mülkədarlar biyar əməyinə əsaslanmaqdan əlavə muzdlu əməkdən də istifadə edirdilər.[225] Şəxsi təsərrüfatı ilə məşğul olan torpaq sahibləri içərisində mülkədar-tacirlər mühüm yer tutur və əmtəə xarakterli texniki bitkilər əkilməsi sahəsində daha çox fəaliyyət göstərirdilər.

Lakin İran inqilabı ərəfəsindəki dövrdə belə təsərrüfatların sayı hələ çox deyildi. Nəzərə çarpan yeni cəhət feodal təsərrüfatının mahiyyəti, demək olar ki, dəyişmədən onun xarici aləmlə əlaqəsinin artmasından ibarət idi. Bu dövr üçün keçmiş feodal təsərrüfatları artıq əvvəlki qapalı, xarici mühitlə az əlaqəsi olan təsərrüfatlar deyildi. Bir sıra feodallar getdikcə daha çox ticarət əkinçiliyinə qoşulurdular. Onlar paydar kəndlilərin istismarını şiddətləndirməklə xırda əmtəə istehsalını artırır, bu yolla külli miqdarda gəlir götürürdülər.Belə feodallar bir qayda olaraq, xarici bazarla, xüsusilə bəhs edilən dövrdə Cənubi Azərbaycanın kənd təsərrüfatı mallarının əsas alıcısı olan Rusiya bazarı ilə bağlı idilər. Xarici bazarın tələbatına uyğunlaşma prosesi ticarət əkinçiliyi, ticarət maldarlığı axınına qoşulmuş el və tayfa başçıları içərisində də gedirdi.

İri feodallar böyük qazanc əldə etmək məqsədilə taxıl möhtəkirliyi ilə də məşğul oldular. İran inqilabı ərəfəsində onların bu sahədə fəaliyyəti çox genişlənmişdi. Taxıl möhtəkirləri içərisində geniş torpaq sahələrinə malik olan, Təbriz və başqa şəhərlərdə yaşayan iri ruhanilər xüsusilə nəzərə çarpırdı. Taxıl möhtəkirlərinin amansızlığı 1898-ci ildə Təbrizdə,[226] 1903-cü ildə Təbriz, Zəncan, Ərdəbil və başqa şəhərlərdə[227] xüsusilə inqilab dövründə əhalinin çıxışlarına səbəb olmuşdu.

Əyalətdə əsas istismarçı sinif olan feodallarla kəndlilər arasındakı münasibətlər, kəndlilərin feodallardan asılılıq dərəcəsi və forması da eyni deyildi. Cənubi Azərbaycanın elə yerləri var idi

---

[225]Bax: Tiqranov, səh.24-25; RXSA, "İran stolu" fondu, iş 535, vər.71

[226]Əhməd Kəsrəvi.Tarix-e məşrute-ye İran (*İran konstitusiya tarixi*), Tehran, çap-e çəharom/4-cü çapı, səh.140-143 (Sonrakı səhifələrdə: Ə.Kəsrəvi. İranın konstitusiya tarixi səh... yazılacaqdır).

[227]Tiqranov, səh.68.

ki, orada feodal asılılığı təhkimçilik dərəcəsinə yaxınlaşırdı (təhkimçiliyin özü isə klassik formada Şimali Azərbaycanda, İranda və başqa Yaxın Şərq ölkələrində olmadığı kimi, Cənubi Azərbaycanda da yox idi). Bu vəziyyəti birinci növbədə Maku və Qaradağ kimi xanlıqlara aid etmək lazımdır. Özünü idarə hüququna malik olan belə yarımmüstəqil nəsli xanların əlində kəndlilərə cismani cəza vermək və məhkəmə işlərini aparmaq kimi qeyri-iqtisadi məcburiyyət imkanı var idi. Bir çox feodallar öz həbsxanaları, qoşun hissələri və cəza dəstələri vasitəsilə asılı kəndlilər üzərində qeyri-iqtisadi məcburiyyət həyata keçirir, ən vəhşi cəza tədbirlərini (qulaq, əl kəsmək, çubuqla döymək vəs.) tətbiq etməkdən[228] və bir çox hallarda, rəsmən bu hüquqa malik olmasalar da, kəndlini öldürməkdən də çəkinmirdilər.[229]

Yeni silkə mənsub olan torpaq sahiblərinin təsərrüfatında isə şəxsi asılılıq cəhətdən kəndlilərin vəziyyəti nisbətən yüngül idi. Burada yüksək istismar hökm sürsə də, bu iqtisadi asılılıqdan doğan istismar idi, kəndlinin şəxsiyyəti, mənəviyyatı bir qayda olaraq bu istismar çərçivəsindən kənarda idi. Burada kəndlilərin məhkəmə işlərinə ya yerli ruhani başçısı, ya da dövlət inzibati idarə nümayəndələri baxırdı.[230] Yeni silkə mənsub torpaq sahibləri cərgəsinə tacir və sərraflardan, xırda mülkədarlardan ibarət, başqa sözlə, qeyri-iqtisadi məcburiyyəti həyata keçirməyə vasitələri (silahlı dəstələrə malik olmaq, yerlərdə dövlət vəzifəsi daşımaq və s. kimi) olmayan şəxslər daxil idi. Belə torpaq sahibləri kəndlilər üzərində qeyri-iqtisadi məcburiyyəti nisbətən zəif tətbiq edə bilirdilər. Doğrudur, burada kəndlər qonşu feodalların və qəbilələrin hücumuna, maliyyat toplayan dövlət məmurlarının yerli-yersiz tələblərinə məruz qalırdılar, lakin mülkədar onlar üzərində istədiyi kimi hökmranlıq edə bilmirdi. Bu tip mülkədarın artıq kəndliyə cismani cəza verməyə qüvvəsi çatmırdı. Qeyri-iqtisadi

---

[228]Bax:Birinci məçlisin protokolları, səh.119; Арутюнян. Энджумены в иранской революции 1905-1911 гг., Ереван, 1955, səh.142; MDHTA fond 76, iş 202, vər.11.

[229]Bütün İranda ölüm hökmünü yalnız şah verə bilərdi.

[230]Tiqranov, səh.56.

məcpuriyyət zəif olduğundan mülkədar kəndliləri müxtəlif natural mükəlləfiyyətlər daşımağa o qədər də məcbur edə bilmirdi. Burada iqtisadi asılılıq və bundan doğan borc əsarəti əsasən daha mühüm rol oynayırdı.[231]

Şəxsi asılılığın və ya qeyri-iqtisadi məcburiyyətin qüvvətli olduğu yerlərdə isə feodallar paydar kəndlilərin ümumi məhsulunun müəyyən bir hissəsini mənimsəməkdən əlavə, kəndlidən bir sıra əlavə vergi və mükəlləfiyyətlər ödəməyi də tələb edirdilər. Belə hallarda kəndlinin izafi məhsulu qismən də əlavə vergi və mükəlləfiyyətlər şəklində onun əlindən alınırdı. Deməli, torpaq rentası həm məhsulun bir hissəsi, həm də əlavə vergi və mükəlləfiyyətlərdən ibarət olurdu.

Kəndli bu feodal mükəlləfiyyətlərindən "əvariz" əsasında mülkədara ət, yağ, toyuq, yumurta, pendir, qənd, meyvə və s. verməli, onu yanacaqla və s.ilə təmin etməli idi. "Əvariz" xüsusilə feodal malikanəsinin yerləşdiyi kənddə və onun ətrafında əhali üçün ağır məhrumiyyətlər törədirdi. Həmin mükəlləfiyyətin qəti müəyyən edilmiş ölçüsü yox idi, ayrı-ayrı yerlərdə müxtəlif miqdarda və şəkildə yığılırdı. Bu isə mülkədarlara kəndliləri istədikləri kimi soymağa imkan verirdi. Misal üçün, 70-ci illərdə Ərdəbildə hər bir kəndli evi mülkədara 3 toyuq, 5 yumurta, 3 girvəngə yağ, 2 heyvan yükü odun, 5 yük təzək, 5 kəllə qənd və ya 1-3 yük müxtəlif meyvə, 50 qəpik-1 manat pul və s. verməli idi.[232] Sonrakı illərdə bu mükəlləfiyyətlər artmış və bir sıra yerlərdə hər kəndli ailəsindən 0,5-1 pud un, bir qoyun (ya quzu), 5-15 toyuq-cücə, 25-30 yumurta, 3-15 girvəngə yağ, 2-10 girvəngə pendir, qaymaq, süd, qənd və s. alınırdı.[233]

Torpaq sahibləri "biyar" mükəlləfiyyəti əsasında kəhrizlərin, mülkədar malikanəsinin təmirində, az hallarda tarla işlərində

---

[231]SSRİ Xarici Siyasət Arxivi (SSRİ XSA), f. 94, qovluq 15, iş 32-4, vər.46.
[232]И.А.Огранович. Провинции Ардебильская и Серабская, səh.39.
[233]Л.Тигранов, səh. 43; SSRİ EA Şərqşünaslıq İnstitutunun nəzdində şərqşünaslar arxivi, f.1, siy.6, iş 80 b, vər.42. (sonrakı səhifələrdə şərqşünaslar arxivi yazılacaqdır); Gürcüstan MDTA, f. 521, siy.2, iş 426, vər,34; "Kommunist" qəzeti (*əski əlifbada*), 1 avqust 1920- ci il.

kəndlinin havayı əməyindən istifadə edir, “barkərdə” əsasında isə biçilmiş taxılı, samanı, otu və s. istədikləri yerə daşıtdırırdılar.[234] Torpaq sahibləri istədikləri vaxt həmin mükəlləfiyyətləri taxıl və ya pulla əvəz edə bilirdilər.[235]

Kəndli bayramlardan əlavə, başqa müxtəlif hadisələrlə əlaqədar olaraq, mülkədara hədiyyə verməli idi.[236]

Kəndli əkinçilikdən başqa, ayrı peşələrlə məşğul olduqda torpaq sahibi kəndlinin əldə etdiyi əlavə qazancdan da müəyyən hissə tələb edir və ya onlar üzərinə müxtəlif cərimələr qoyurdu.[237]

Xanlıqlardan ibarət irsi feodal torpaqlarında kəndlilərin daşıdıqları mükəlləfiyyətlər daha ağır idi. Hər şeydən əvvəl, onlar feodal tələb etdiyi vaxt çöl işlərindən ayrılıb öz silahı ilə feodalın hüzurunda hazır olmalı idilər.[238]

Kəndlilərin torpaq sahibləri tərəfindən istismarını onların kəndlərdəki nümayəndələri (mübaşir, kətxuda, pakar və b.) daha ağır şəkildə davam etdirirdilər.

Bu amansız istismar şəraitində kəndlilərin az hissəsində feodal vergi və mükəlləfiyyətlərinin öhdəsindən gəlmək, dövlət vergilərini vermək, təkrar istehsal, bəzən isə bazarda satmaq üçün məhsul saxlamaq müyəssər olurdu. Bir çox hallarda kəndli ev əşyasını və hətta kənar peşələrdən əldə etdiyi qazancın da bir hissəsini feodal mükəlləfiyyətləri əvəzində torpaq sahibinə verməli olurdu. Bununla da feodal rentası və mükəlləfiyyətləri kəndlinin izafi məhsulundan əlavə, onun zəruri məhsulunu da qismən əhatə etmiş olurdu.

---

[234]Bax: “Kommunist” qəzeti (*əski əlifbada*), 1 avqust 1920-ci il; Şərqşunaslar arxivi, f.1, siy.6. iş 80 b, vər.42.
[235]L.Tiqranovun yazdığı kimi, Azərbaycanda kəndlilər rentanın, o cümlədən buraya daxil olan əlavə vergilərin və həmçinin dövlət vergisinin. təqribən 60-70 faizini pulla ödəyirdilər - L.Tiqranov, səh.54-55.
[236]Bax:“Kommunist” qəzeti, 1 avqust, 1920-ci il
[237]Yenə orada.
[238]Bax: Gürcüstan MDTA, f.521, siy.9, iş 104, vər.2.

## Dövlət vergi sistemi və kəndlilər

Torpaq sahibinə müxtəlif vergi və mükəlləfiyyətlər ödəyən kəndlilər dövlətə də vergi verməli idilər. Dövlət xərclərinin ağırlığı, bir qayda olaraq, əsas etibarilə kəndlilərin üzərinə düşürdü.

Haqqında danışdığımız dövrdə əhalinin dövlət vergilərinə cəlb olunması cüzi dəyişikliklə feodal quruluşuna xas olan köhnə maliyyə-vergi sistemi əsasında aparılırdı.

Bu sistemin xüsusiyyəti, hər şeydən əvvəl, ondan ibarət idi ki, vergilərin ağırlığı əmlak sahibi olan varlı siniflərin deyil, kənd zəhmətkeşlərinin, qismən şəhərdəki sənətkar və xırda alverçilərin üzərinə düşürdu. Dövlət vergisi-maliyyat bir qayda olaraq torpaq mülkiyyətçisinin əldə etdiyi gəlirdən deyil, həmin torpaqları əkib-becərən paydar kəndlilərin ümumi illik məhsulundan alınırdı.

XIX əsrin son rübündə bir neçə dəfə yeni siyahıyaalınma keçirməyə təşəbbüs göstərilsə, 1890-cı ildə kadastr tərtib olunsa da, dövlət əhalidən maliyyatı yenə də köhnə qayda ilə - XIX əsrin 30-cu illərində tərtib edilmiş vergi siyahıları əsasında toplayırdı.

Bəhs edilən dövrdə kəndlilərin dövlət tərəfindən istismarı yenə də əsas etibarilə bilavasitə müstəqim vergilərə daxil olan sabit vergilərin (məhsulun onda biri qədər müəyyən edilmiş[239] torpaq vergisi – “maliyyate-ərzi” və ya “malucehat”, yalnız kəndlilərdən alınan baş pulu– “səranə”,[240] əsasən köçəri və yarımköçəri həyatsürən maldar tayfalardan ev heyvanlarının sayına görə alınan “sərgəllə” və ya otaqların miqdarına görə yığılan “qapı pulu” və s.) yığılması yolu ilə həyata keçirilirdi. Bir qayda olaraq sabit vergilər əkinçilik, maldarlıq, sənətkarlıq və ticarətlə məşğul olan şəxslərdən alınırdı.

---

[239]Yuxarıda qeyd olunan kadastrda da torpaq vergisi məhsulun onda biri qədər (taxıl və yoncadan cinslə, texniki və bostan bitkilərindən pulla dəyəri) müəyyən edilmişdi. Bax: Həsən bin Əli əl-Maraği Etimadüssəltənə. Kadastre (*Kadastr*), 1307/1928, səh.96. Əslində isə vergilər məhsulun hətta 30-35 faizini təşkil edirdi. G.N.Curzon. Rersia and the Persian question. London – New-York, II vo1., 1892, p.470 (sonrakı səhifələrdə: Kerzon, II cild, səh... yazılacaqdır); Camalzadə, səh.120.

[240]Azərbaycanda evli olan hər bir kəndli 1-1,5 tümən, subay kişilər, isə 12-16 yaşından başlayaraq, 0,5-1 tümən baş pulu verirdiər - Tiqranov, səh. 38.

Bunlardan əlavə, kəndlilər dövlət qarşısında bir sıra mükəlləfiyyətlər də daşımalı idilər ki, onlardan ən muhümü hərbi mükəlləfiyyət idi. Hər kənd "boniçə" adlanan qayda əsasında, yəni dövlət maliyyatının miqdarına uyğun olaraq müəyyən edilmiş sayda əsgər verməli idi.

1889-cu ildə Azarbaycanda ezamiyyətdə olmuş kazak briqadasının zabiti Mirpənc Rəhim xan öz məlumatında yazırdı ki, bu əyalətdə, o cümlədən Maku xanlığındakı kəndlərdə boniçə əsasında dövlət maliyyatının hər 25 tüməninə bir əsgər verilməli idi.[241]

İlatları hərbi xidmətə daha çox cəlb edirdilər və adətən, tayfaların torpaq vergisi hərbi xidmətlə əvəz olunurdu.[242] Nəticə etibarilə ilatlara daxil olan təqribən hər 2-3 ailədən bir nəfər hərbi xidmətə gedirdi.

Kəndlilər ildə bir neçə gün yollar çəkilməsi, çaylarda bəndlər tikilməsi, onların təmiri və s. bu kimi sahələrdə ictimai biyara işləməli idilər. Bundan əlavə, xalisə torpaqlarda sakin olan kəndlilər dövlətin məhsulla yığdığı maliyyatı hakimin əmri ilə şəhərə daşımalı idilər.[243]

Dövlət vergilərini əkinçilərdən bir qayda olaraq, kəndxudalar çox zaman zabitlərin (dövlət vergi yığanları)[244] iştirakı ilə toplayaraq, məmurlara təhvil verirdilər. Maldarlardan isə ağsaqqallar toplayaraq tayfa başçısına, sonuncular isə hakimə çatdırırdılar. Vergilərin yığılmasının bilavasitə və dolayı yolla iştirakçısı olan şəxslər öz növbəsində kəndliləri mümkün qədər çox soymağa çalışırdılar. Buna görə mülkədarların əksəriyyəti dövlət vergilərini öz nümayəndələri vasitəsilə toplayıb dövlət məmurlarına təhvil verməyə çalışır və bir çox hallarda buna nail olurdular.[245] Aydındır ki, bu yolla mülkədarlar verginin artığını özləri mənimsəyirdilər.[246]

---

[241]MDHTA, f.76, iş 202, vər.16.
[242]Kerzon, II cild, səh.473; Camalzadə. Göstərilən əsəri, səh.121.
[243]"Həblülmətin" qəzeti, No 33, 1315-ci il.
[244]Hər əyalət və vilayətin başçısı məhsul yığımı ərəfəsində vergi toplamaq üçün yerlərə xüsusi məmur göndərirdi.
[245]Tiqranov, səh.47, 51; Əhməd Xodadadə, səh.11; Gürcüstan MDTA, f. 973, iş 6, vər.178, 210.
[246]Şərqşünaslar arxivi, f.1, siy.6, iş 80 b, vər.54.

Kəndlilər əsas vergilərdən başqa qeyri-sabit və ya qeyri-düzgün adlandırılan“saderat”, “sursat” və s. kimi əlavə vergilər də verirdilər ki, bunlar da əhali üçün daha dözülməz idi. Kerzon belə qeyri-sabit vergiləri “xalq üçün əziyyət və zülm mənbəyi” adlandırır.[247]

Əlavə vergilər xüsusilə İran inqilabından əvvəlki 20 il müddətində, xüsusilə Müzəffərəddin şahın hakimiyyəti dövründə (1896-1907) artmışdı.

Vergilərin artıq toplanması, özbaşınalıq, zor işlədilməsi İranda, o cümlədən Cənubi Azərbaycanda adi hal idi. Dövlətin vergi siyasətində mövcud olan bütün bu cəhətlər həmin sistemi kəndlinin həyatı üçün fövqəladə dərəcədə dözülməz edirdi.

Maliyyatın yüksək olması xırda istehsalçıları müflisləşdirir, onları istehsal vasitələrindən ayırır, kənddə lümpen-proletarların sayını artırırdı.

Qeyd etmək lazımdır ki, yalnız ayrı-ayrı inzibati bölgü dairəsində vali, hakim və i. a. vəzifələri daşıyan, həmçinin mülkiyyətlərindən dövlət vergilərinin yığılmasını öz əllərinə ala bilmiş torpaq sahibləri, maliyyə məmurları mövcud vergi sistemini xeyirli və məqsədəuyğun hesab edirdilər. Cəmiyyətin qalan nümayəndələri isə rüşvət və satqınlıq əsasında qurulmuş bu vergi sistemindən narazı idilər. Dövlətin vergi siyasəti və dövlət məmurlarının əziyyəti kəndlilərdən tutmuş, bəzən iri torpaq sahiblərinə qədər torpaqla bağlı olan bütün sinif və təbəqələrin, o cümlədən torpaqmülkiyyətinə malik burjuaziya nümayəndələrinin narazılığına səbəb olurdu.[248] Hətta bir çox dövlət xadimləri də vergi sisteminin xəzinə üçün yarıtmaz (çünki toplanan vergilərin yalnız bir qismi dövlətə çatırdı) və ölkə üçün dağıdıcı olduğunu başa düşür, bu sahədə müəyyən islahatlar keçirməyə təşəbbüs göstərirdilər.

---

[247]Kerzon, II c., səh.477.

[248]Bax: “Həblülmətin” qəzeti, 23 fevral 1906-cı il, No 26; RXSA, “İran stolu” fondu, iş 774, vər.24.

## Ticarət-sələm kapitalının güclənməsi və onun tüfeyli xarakteri. Xarici kapitalın Cənubi Azərbaycan kəndinə nüfuzu

XIX əsrin 70-80-ci illərindən etibarən əyalətin ümumdünya bazarlarına daha geniş cəlb olunması və bir sıra kənd təsərrüfatı məhsullarının ixracının artması ilə ölkədə əmtəə satışı çoxalır, əmtəə-pul dövriyyəsi genişlənirdi.

Əmtəə istehsalı kəndliləri də özünə cəlb edir, onların bazarla əlaqəsini nisbətən artırırdı. Kəndlilərin əksəriyyəti torpaq sahibinə və dövlətə çatacaq müxtəlif vergi və mükəlləfiyyətlərin öhdəsindən çətinliklə kələ bilsə də, az bir qismi bazara müəyyən miqdar məhsul çıxara bilirdi. Azərbaycan kəndlisi bəzən artıq taxıl məhsulunu, bəzən isə qismən bazar üçün istehsal etdiyi texniki bitkiləri, meyvə və tərəvəzi, bəzi sənətkarlıq şeylərini bazara çıxarır, ailəsinə lazım olan parça, neft, çay və s. kimi malları bazardan alırdı. Bunların nəticəsində belə kəndlinin təsərrüfatı natural istehlakçı təsərrüfatdan tədricən xırda əmtəə təsərrüfatına çevrilirdi. Digər tərəfdən, vergilərin getdikcə daha çox pulla tələb olunması və istismarın şiddətlənməsi kəndli təsərrüfatını xırda əmtəə təsərrüfatına çevirməsə də, kəndliləri bazarla daha çox bağlayırdı.

Kəndli əmtəə kimi istehsal etdiyi əsas məhsulunu az hallarda özü bilavasitə bazara çıxara bilirdi. Çox zaman kəndli artıq məhsulunu məcburən ya torpaq sahibinə, yaxud da onun lazım bildiyi şəxsə sata bilirdi. Belə məhdudiyyət olmadıqda öz məhsullarını bilavasitə bazara çıxartmağa imkan yarandıqda isə kəndlilər, o cümlədən xırdamalik kəndlilər sələmçi ticarət burjuaziyasının istismarına məruz qalırdılar.

Keçən əsrin 70-80-ci illərindən Cənubi Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının artması ilə əlaqədar olaraq əmtəələrin texniki emalı, ölkə daxilində bir yerdən başqa yerə aparılması və nəhayət, xaricə ixrac edilməsilə məşğul olan tacirlərin də sayı və fəaliyyət dairəsi genişlənirdi. Bir sıra tacirlər xarici ölkələrə xalça, şal və s. kustar sənaye məhsulları ilə yanaşı, torpaq

sahibləri və bilavasitə istehsalçılardan aldıqları pambıq, tiryək, kitrə, yun, badam, xurma, dəri və s. ixrac edir, əvəzində manufaktura, qənd və s. gətirirdilər.

XIX əsrin sonu və XX əsrin əvvəllərində kənd təsərrüfatı məhsullarının satın alınması, texniki emalı və ixracı ilə tək-tək şəxslər və xarici şirkətlərlə yanaşı, bir sıra yerli ticarət şirkətləri də məşğul olurdu. Onlar əsasən həm öz torpaqlarından əldə etdikləri, həm satın aldıqları kənd təsərrüfatı mallarının ticarətilə, həm də sərraflıq (sələmçilik) və başqa əməliyyatlarla məşğul olurdular. “Tumanyans şirkəti”nin fəaliyyəti bu cəhətdən maraqlıdır. Əsasən ticarət və sərrafçılıqla işə başlamış həmin şirkət İranın bir çox yerlərində torpaq sahələri ələ keçirmiş və özü bilavasitə pambıq, ipək, quru meyvə istehsalına başlamışdı. Bundan əlavə, şirkət hasil etdiyi və satın aldıqı kənd təsərrüfatı məhsullarını ilk texniki emaldan keçirmək üçün pambıqtəmizləyən, meyvəqurudan və s. müəssisələr də açmışdı, Birinci dünya müharibəsinin sonuna kimi fəaliyyət göstərmiş həmin şirkət borc verməklə məşğul olurdu.[249]

Belə iri şirkətlərlə yanaşı, demək olar ki, bütün ticarət mərkəzlərində kənd təsərrüfatı mallarını alan onlarla xırda şirkət də fəaliyyət göstərirdi.[250] Həmin şirkətlər torpaq sahibləri və qismən də bilavasitə kəndlilərdən məhsul almaq üçün ya öz nümayəndələrini kəndlərə göndərir, yaxud da vasitəçi dəllallara müraciət edirdilər.

Çox zaman kəndliyə beh və ya borc verən alverçinin - dəllalın şəxsində həm xırda tacir, həm də xırda müamiləçi birləşirdi. Ümumiyyətlə, XIX əsrin sonu və XX əsrin əvvəllərində İranda tacirlərin çoxu sələmçiliklə məşğul olurdu. 1889-cu ildə İranda ilk xarici (ingilis) bank olan “Banke şahənşahi” və bunun ardınca 1890-cı ildə rus girov-borc bankı yarandıqdan sonra iri şəhərlərdə

---

[249]İran Milli Bankının otuzillik tarixçəsi, səh.47-49.
[250]Bax: Hanri Rene D. Aleman, farsca nəşri, səh. 106, 1129; Путевые заметки о персидских городах Мараге, Миан-дуабе и Соучбулаге, «Известия штаба Кавказского военного округа», №17-18, 1906, səh.41, 57.

əməliyyatları məhdudlaşdığından torpaq ələ keçirən, istehsalçılara və ya torpaq sahiblərinə əvvəlcədən borc verməklə kənd təsərrüfatı malları alveri ilə məşğul olan sərraf-tacirlərin sayı artdı.

Həmin dövrdən sonra tacir-sərraflar da qismən kəndliyə beh və ya borc verən, onun məhsulunu satın alıb müəssisə və ya topdansatış tacirinə satan piləvərlər cərgəsinə keçdilər. Tiçarət və sələm burjuaziyası nümayəndələri olan bu tacir-piləvərlər ölkənin ictimai-siyasi həyatında mənfi rol oynayırdılar. Bunlar məhsuldar qüvvələrin inkişafı nöqteyi-nəzərindən heç bir faydalı iş görmür, əksər hallarda xalq təsərrüfatının inkişafına deyil, bəlkə əksinə, ləngidilməsinə səbəb oldular. Kəndliyə əvvəlcə borc və ya beh verməklə onun məhsulunu mümkün qədər aşağı qiymətə alan bu tüfeylilər kəndli təsərrüfatının daim məhdud və aşağı səviyyədə qalmasına səbəb olurdular. Kəndlinin alın təri ilə əldə etdiyi əlavə qazanc bu tacir-piləvərlərin cibinə dolduğundan kəndlinin öz təsərrüfatını genişləndirməyə imkanı qalmırdı. K.Marks sələmçi kapitalın kəndli təsərrüfatını taqətdənsalıcı tüfeyli rolu haqqında belə yazırdı: “Sələmçilik istehsal üsulunu dəyişdirmir, lakin zəli kimi yapışıb onu soraraq acınacaqlı vəziyyətə salır. Sə1əmçilik onun şirəsini sorur, onu taqətdən salır və təkrar istehsalı getdikcə daha acınacaqlı şəraitdə baş verməyə məcbur edir”.[251]

Mal-qara tələfatı, quraqlıq və s. təbii fəlakətlər nəticəsində çıxılmaz vəziyyətə düşən xırdamalik kəndli də bəzən torpağını girov qoymaqla sələmçi tacirdən borc almağa məcbur olurdu. Çox zaman kəndli borcu qaytara bilmədiyindən həmin torpaq sahəsi sələmçinin mülkiyyətinə çevrilirdi. Bəzən isə xırdamalik kəndli öz torpaq sahəsini dəyərindən ucuz qiymətə sələmçi tacirə satmağa məcbur olurdu.[252]

Digər tərəfdən, həmin sərraf-tacirlər torpağın girov qoyulması şərtilə bir çox mülkədarlara da yüksək faizlə borc verirdilər.

---

[251]Karl Marks. Kapital, III cild, Bakı, 1960, səh. 616.

[252]İbrahim Teymuri.Əsr-e bixəbəri ya tarix-e emteyazat dər İran (*İranda cəhalət dövrü və ya imtiyazlar tarixi*), Tehran, “İqbal”, 1332/1953, s.107

Borc ‘ödənilmədikdə, girov qoyulmuş torpaq sərrafın mülkiyyətinə çevrilirdi. Deməli, sərraf-tacir müstəqil pul əmlakı yaratmaqla bir tərəfdən istehsalçıları müflisləşdirərək, onları getdikcə istehsal vasitələrindən məhrum edir, bununla da öz əməyini satmağa hazır olan pauperlərin yaranması prosesini sürətləndirir (bu isə ölkədə kapitalizmin meydana gəlməsi üçün ilkin şərtlərdəndir), digər tərəfdən, kiçik, orta və hətta bəzən iri feodalları tədricən torpaq mülkiyyətindən kənar edirdilər. Bundan əlavə, onlar torpaq satın alırdılar. Hər iki yolla ələ keçirdikləri torpaqlarda sərraf-tacirlər isteheal münasibətlərində bir qayda olaraq dəyişiklik yaratmasalar, köhnə feodal münasibətlərini saxlasalar da bəzən bu ümumi haldan kənara çıxaraq, xususilə texniki bitkilər sahəsində istehsal üsulunda müəyyən dəyişiklik yaradır, azad və yarımazad əməyə əsaslanır, başqa sözlə desək, kənd təsərrüfatında kapitalist istehsal qaydalarını tətbiq etməyə meyl göstərirdilər. Bir çox iri sərraf-tacirlər pambıqtəmizləyən, meyvə-qurudan, baramaaçan, tiryək hazırlayan və s. xammalın ilk emalı ilə məşğul olan müəssisələrə də malik idilər. Bu cür hallarda həmin sərraf-tacirlər, başqa sözlə, ticarət-sələm burjuaziyasının nümayəndələri istehsal üsulunun dəyişilməsinin, feodalizmə nisbətən mütərəqqi istehsal qaydalarının - kapitalizmin yaranmasının bilavasitə iştirakçısı olurdular. Lakin ümumiyyətlə götürüldükdə isə ticarət-sələmçi burjuaziyasının əsas fəaliyyətinin ölkədə məhsuldar qüvvələrin inkişafında rolu məhdud idi, çünki sələmçi tacirlər istehsalçıların kəskin istismarı nəticəsində əldə etdikləri sərvətləri sənaye ocaqlarının yaradılmasına və ya kənd təsərrüfatının intensiv inkişafına az hallarda tətbiq edirdilər. Onların əksəriyyəti, xüsusilə xırda sələmçilər topladıqları vəsaiti ölü kapitala - qızıla çevirib saxlayır, ondan əsasən yüksək faizlə borc vermək üçün istifadə edirdilər. Deməli, onlar ölkədə ilkin kapital yığımına və bununla da kapitalizmə keçid üçün zəmin yaradılmasına yardım etsələr də, həmin kapitalın özü-özlüyündə ölkədə kapitalist münasibətlərinin inkişafında rolu az idi. Ölkənin və xalqın ümumi ehtiyacı ilə hesablaşmayan ticarət-sələm burjuaziyası özü üçün ən yüngül yolla - xarici bazarın tələbatını ödəmək yolu ilə gedirdi. Sələmçi tacirlər

İrandakı xarici şirkət və banklardan borc alıb istehsalçılara paylamaqla ölkədə xarici kapitalın vasitəçisinə çevrilir, xalq təsərrüfatını xarici bazarın ehtiyacına uyğunlaşdırmağa yardım edirdilər. Bu isə ölkənin xalq təsərrüfatı və istehsalçılarının, o cümlədən kəndlilərin xarici kapital tərəfindən şiddətli istismarına imkan yaratmaqla yanaşı, onları xarici bazardan asılı vəziyyətə salırdı.

Bəhs olunan dövrdə Cənubi Azərbaycan kəndinə tədricən xarici kapital, ilk növbədə rus kapitalı da müxtəlif yollarla nüfuz edirdi.

Xarici kapital nümayəndələri torpaq sahiblərinin əmtəəsini satın almaqdan əlavə kəndlinin də pambıq, tütün, quru meyvə kimi satlıq malını, onun istehsal etdiyi xalça, cecim və s. sənət məhsullarını almağa çalışırdı. Bunun üçün onlar kəndliyə bir çox hallarda borc pul və ya beh vermək üsulundan istifadə edirdilər. Bu üsullar onlara kəndli məhsulunu olduqca aşağı qiymətə almaqla böyük qazanc götürməyə imkan verirdi.

Xarici kapitalistlər bir sıra sahələrdə İranın ixracatında əldə etdikləri üstünlük və yüksək qazancla kifayətlənməyərək İran kəndinə bilavasitə daxil olmaq üçün ölkədə kənd təsərrüfatı məhsullarının alınıb-satılması, eyni zamanda ixrac edilməsini öz inhisarları altına almağa çalışırdılar.

Bu imtiyazlardan geniş xalq kütlələrinin mənafeyinə ən çox zidd olanı şah hökumətinin 1890-cı ilin martında ingilis kapitalisti Talbota verdiyi, aşağıda haqqında bəhs olunacaq tütün və tənbəki inhisarı idi.

Xarici kapitalın Cənubi Azərbaycan kəndinə daxil olduğu yollardan biri də həmin kapital nümayəndələrinin burada torpaq sahələri ələ keçirməsi idi. Bunu xüsusilə rus kapitalı haqqında demək lazımdır. Rəsmən İran qanunları iranlı olmayanlara ölkədə torpaq və başqa daşınmaz əmlak satın almağa yol verməsə də, XX əsrin əvvəllərində bir sıra rus sahibkarları bilavasitə və dolayı yollarla İranın şimalında, o cümlədən Cənubi Azərbaycanda torpaq sahələri ələ keçirmişdilər.

Xarici kapital İranın kənd təsərrüfatına daha geniş kanalla-ölkədə açılmış xarici banklar vasitəsilə də nüfuz edirdi. Rus girov-borc bankı yerli torpaq sahiblərinə və tacirlərə, qismən də xırdamalik kəndlilərə borc verməklə onları özündən asılı vəziyyətdə saxlayır, borclar ödənilmədikdə isə bu şəxslərin əmlakını ələ keçirirdi. Nəticədə ölkənin şimal hissəsində, o cümlədən Cənubi Azərbaycanda çoxlu əmlak və əkin məhsulu bankın ixtiyarına keçmişdi.[253] Bundan əlavə, bankdan borc alan şəxslər öz məhsullarını (düyu, barama,quru meyvə və s.) ancaq bank vasitəsilə sata bilərdilər.[254]

Beləliklə, müxtəlif yollarla İranın kənd təsərrüfatına nüfuz edən xarici kapital Azərbaycan kəndlilərini istismar edirdi. Xarici kapitalın fəaliyyəti bəzi cəhətlərdən (məsələn, kənd təsərrüfatı məhsullarını emal edən yüngül sənaye müəssisələri açması, müəyyən dərəcədə muzdlu əməyə əsaslanmaqla kənd təsərrufatının kapitalistcəsinə inkişafına səbəb olması və bununla da ölkədə fəhlə sinfinin əmələ gəlməsi üçün şərait yaranması və s.) obyektiv surətdə məhsuldar qüvvələrin inkişafına yardım etsə də, bu, ölkə və onun geniş istehsalçıları, o cümlədən kəndlilər üçün ağır bir yük idi.

## Kəndlilərin ağır vəziyyəti. Xaricə kütləvi kəsbkarlığın başlanması

Yuxarıda deyilənlərdən aydın olur ki, kəndlinin istehsal etdiyi izafi məhsul, bir çox hallarda isə zəruri məhsulun da bir hissəsi rentanın, o cümlədən torpaq sahibinin tələb etdiyi əlavə vergi və mükəlləfiyyətlərin, dövlət vergilərinin ödənilməsinə sərf edilirdi. Həmin məhsulun müəyyən qismini dəyərli ticarət-sələmçi kapitalı və ölkəyə soxulmuş xarici kapital nümayəndələri bilavasitə və ya dolayı yolla kəndlinin əlindən alırdı.

---

[253]İran Milli Bankının otuzillik tarixçəsi, səh.45.

[254]"Həblülmətin" qəzeti, 16 may 1904-cü il; RXSA, "İran stolu" fondu, siy. 5286, iş 25, vər.5.

Bunlardan əlavə, kəndli öz məhsulundan müəyyən miqdar kəndin dəmirçisinə, dülgərinə, bərbərinə, hamamçısına, mollasına, habelə dərviş və dilənçilərə verməli olurdu. Seyidlər də "xüms" tələb etmək haqqına malik idilər.

Maldar tayfalar da vaxtaşırı basqınları ilə Azərbaycan kəndlilərini incidirdilər. Məsələn, Salmas və Xoy kəndlilərinə kürd tayfaları,[255] Ərdəbil kəndlilərinə şahsevənlər[256] olmazın əziyyətlər verir, bəzən onların torpaqlarını da zəbt edirdilər.

Ayrı-ayrı feodalların çəkişməsi və hətta silahlı toqquşmaları da geniş kəndli kütlələrini var-yoxdan çıxarırdı.[257]

Kəndlilərin vəziyyətini bir sıra başqa amillər - istehlak mallarının bahalanması (bu işdə möhtəkirlər az rol oynamırdı), kənd təsərrüfatı ziyanvericilərinin hücumu, quraqlıq, yağıntı və s. kimi təbii fəlakətlər, müxtəlif epidemiyalar daha da gərginləşdirirdi.

Amansız istismar və göstərilən amillər nəticəsində Cənubi Azərbaycan kəndlilərinin, az bir qismi istisna olmaqla, əksəriyyətinin maddi vəziyyəti çətinləşmişdi. Kəndlilərin yalnız az bir hissəsi torpaq sahibi və dövlət məmurlarının soyğunçuluğundan sonra ailəsinin istehlakı və təkrar istehsal üçün məhsul saxlaya bilirdi. Çox az kəndliyə bütün bunlardan sonra bazarda satmaq üçün əmtəə çıxarmaq müyəssər olurdu. Kəndlilərin əksəriyyəti isə ailəsini güclə dolandıra bilir, yoxsulluq içərisində, dözülməz mənzil şəraitində yaşayırdı.

Hər hansı bir səhiyyə yardımı göstərilmədiyi kimi, onlar içərisində heç bir maarif işi də aparılmırdı.

Adətən, bir neçə kəndin bir mollası olurdu ki, bəzi kəndlilər məktəb yaşlı uşaqlarına savad öyrədilməsi üçün ona xırman vaxtı müəyyən miqdarda taxıl verirdilər. Kəndlilərin çoxunun isə öz uşaqlarını oxutmağa imkanı yox idi; yoxsul kəndli uşağı çox kiçik

---

[255]MDHTA, f.76, iş 202, vər.5,6.
[256]Gürcüstan MDTA, f.973, iş 6, vər.53, 106, 138, 170, 174.
[257]Bax: Əhməd Xodadadə, səh.85; Gürcüstan MDTA, f.521, siy.5, iş 497, vər.60.

yaşlarından müxtəlif təsərrüfat işlərində öz valideyninə kömək etməli idi. Buna görə də kəndlilər içərisində az savadlıya (yazıb-oxumağı bacarana) da çox nadir hallarda təsadüf edilirdi.

Kəndli qadınlarının vəziyyəti daha ağır idi. Kəndlərin çoxunda qadınlar bir qayda olaraq həm ev, həm də çöl işlərində çalışırdılar.[258] Bunlardan əlavə, uzun əmək və diqqət tələb edən xalça, palaz və s. toxumaq işi də kənd qadınlarının üzərində idi.

İstismarın artması nəticəsində Cənubi Azərbaycan kəndlilərinin maddi vəziyyəti XX əsrin əvvəllərinə doğru daha da ağırlaşmışdı. Lakin bütün kəndlilərin maddi vəziyyəti eyni dərəcədə deyildi. Kənd zəhmətkeşləri içərisində müxtəlif təbəqələr - ən yoxsul və yoxsullarla yanaşı, ortabablar da var idi. Bundan əlavə, kəndlilər arasında tək-tək varlılara da təsadüf edilirdi.

Bəhs olunan dövr ərzində Cənubi Azərbaycan kəndində varlı kəndlilərin sayı çox az artdığı halda, yoxsul və ən yoxsul kəndlilər sürətlə çoxalırdı. Bunlar başlıca olaraq əmlak bərabərsizliyini əks etdirən feodal kəndli təbəqələrindən ibarət idi. Kapitalist təbəqələşməsi, yəni onlar içərisindən kənd proletarları və qolçomaqlarının ayrılması prosesi isə rüşeym halında gedirdi.

Bəhs olunan dövrdə Azərbaycan əyalətində yoxsul kəndlilər içərisində "qara rəiyyət" və ya sadəcə olaraq "qara", Urmiyada isə "qarayaxa" adlanan kəndlilərin sayı artmışdı. Heç bir şeyi olmayan qaralar mülkədardan torpaq icarəyə götürə bilmədiyindən, onların müəyyən bir məşğuliyyəti yox idi. Onlar əsasən günəmuzd işlə, bəzən xırda sənətlərlə, hətta dilənçiliklə məşğul olurdular.[259] Deməli, bu dövrdə günəmuzd işlə məşğul olan qaraların simasında əyalətdə gələcək kənd təsərrüfatı fəhlələri yaranırdı.[260]

---

[258]Путевые заметки о персидских городах Мараге, Миандуабе и Соучбулаге, «Известия штаба Кавказского воен. округа», № 17-18, 1906, səh.46; RXSA, «İran stolu» fondu, iş 3954, vər.127.
[259]Tiqranov, səh. 24-25.
[260]20-ci illərdə tərtib edilmiş Urmiya rayonuna aid sənəddə "qarayaxa" kəndlilər artıq əsl mənasında muzdur adlandırılırlar (bax: SSRİ XSA, f.174, siy.6. indeks 721, sıra 33, qovluq 19, vər.115).

Qolçomaq tipli kəndlilərə isə tək-tək hallarda varlı, yəni ailə üzvləri ilə birlikdə becərə biləcəyindən artıq torpağa malik olan kəndlilər içərisində (məsələn, Ərdəbildə)[261] rast kəlmək olurdu. Belə kəndli həmin torpaq sahəsini ya xırda hissələrlə başqa kəndlilərə icarəyə verir, ya da muzdlu əməkdən istifadə etməklə özü əkirdi.

Yoxsul və ən yoxsul kəndlilərin sayı artdıqca kənd zəhmətkeşlərinin nisbətən az hissəsi öz ailəsini əkinçiliklə dolandıra bilirdi. Natural təsərrüfatın dağılmağa başlaması nəticəsində kəndli ev sənayesinin, xarici sənaye mallarının rəqabəti təsiri ilə isə kəndlinin əlavə qazanc əldə etmək üçün məşğul olduğu kustar peşələrin tənəzzülə (xalçaçılıq, çarvadarlıq kimi bəzi sahələr mustəsna olmaqla) vəziyyəti daha da gərginləşdirirdi. Çünki əksər kəndli ailələrində əkinçilikdən əldə edilən gəlir ailənin ən məhdud dolanacaq xərcini belə ödəmirdi. Bu vaxtadək kəndli evdə hazırlanan corab, çarıq, kobud parçalar vasitəsilə ailə üzvlərinin sənaye mallarına ehtiyacını çox bəsit şəkildə də olsa təmin edir və ya hazırladığı xalça, cecim, parça, qab-qacaq və s. satmaqla ailə büdcəsinin kəsirini müəyyən dərəcədə ödəyə bilirdi. Lakin İngiltərə və Rusiyadan ölkəyə ucuz sənaye mallarının (çit, şüşə, saxsı qablar və s.) külli miqdarda idxalı və onların baha başa gələn yerli kustar malları ilə müvəffəqiyyətlə rəqabəti xalçaçılıq, bununla əlaqədar boyaqçılıq, əyiricilik kimi bir neçə sahə istisna olmaqla[262] həmin peşələrin məhvinə səbəb olurdu. Eyni zamanda ölkədə daxili və xarici ticarətin inkişafı nəticəsində əmtəə məhsullarının daşınmasının getdikcə artması ilə əlaqədar çarvadarlıq (yük daşımaq) geniş yayılmışdı. Bu peşə ilə, bir qayda olaraq dəvəsi, atı, qatırı və ulağı olan kəndlilər məşğul olurdular. Çarvadarlar içərisində varlı kəndlilərə nisbətən çox təsadüf edilirdi. Məsələn,

---

[261]Bax: И.А.Огранович. Провинции Ардебильская и Серабская.səh. 39.

[262]Bu dövrdə Azərbaycanın şəhərlərində olduğu kimi, kəndlərində də xalça istehsalı rəvac tapmışdı. Burada mövcud olan bir sıra xalçaçılıq mərkəzlərinin (Təbriz, Miyana və s.) yerləşdiyi mahalların çox kəndlərində, xususilə şəhərətrafı kəndlərdə kəndlilər satış üçün xalça toxuyurdular. Bəzən həmin kustar kəndlilər şəhərdən sifariş də alırdılar.

Ərdəbildə əsasən yük daşımaqla məşğul olan çarvadarbaşıların hər birinin 10-25 dəvəsi var idi[263] (onlar bu dəvələrin hər birini şahsevən tayfa başçılarından 40 tümənə alırdılar).[264]

Qalan peşələr isə tənəzzül etməklə kəndlini ailə büdcəsinin kəsir hissəsini ödəyən əlavə gəlirdən məhrum edirdi. Kəndli öz iş qüvvəsini satmaq üçün kənarda iş axtarmağa, kəsbkarlığa getməyə məcbur olurdu.

Əvvəllər də kəndlilər arasında kəsbkarlıq var idi. Lakin o zaman bu kütləvi hal deyildi. XIX əsrin sonuncu rübündə isə bir tərəfdən ticarət əkinçiliyinin inkişafı və bununla əlaqədar olaraq mülkədarın şəxsi təsərrüfatının yaranması nəticəsində xüsusilə məhsul yığımı zamanı əlavə işlək əllərə ehtiyac,[265] digər tərəfdən isə kəndlilərin yoxsullaşması və pauperləşməsi Azərbaycan kəndində kəsbkarlığı artırırdı. Üçüncü bir tərəfdən 1870-ci ildə bütün İranda kəndlilərin torpağa bağlılıqdan rəsmən azad edilməsi onların bir yerdən başqa yerə getmək məhdudiyyətini əsasən aradan qaldırmaqla kütləvi kəsbkarlığa əlavə imkan yaradırdı. Nəticədə, 1905-1911-ci illər İran inqilabı ərəfəsində Cənubi Azərbaycan kəndlərində kəsbkarlıq kütləvi şəkil almışdı.

Kəsbkar kəndlilərin bir qismi əyalətin özündə iş axtarırdı. Misal üçün Mərənd əhalisinin kənd təsərrüfatı ilə məşğul olan hissəsinin beşdə üç qismi torpaq çatışmadığından kənar peşələrlə məşğul olmağa məcbur idi. Onlardan bir hissəsi Rusiyaya işləməyə getdiyi halda, bir qismi qonşu kəndlərdə xanların yanında muzdurluq edir, qalan hissəsi Mərəndin üzündə torpaq sahibi olan əkinçilərdən bəzilərinin təsərrüfatında günəmuzd işləyirdilər.[266]

Kəndlilər iş ardınca qonşu əyalətlərə də gedirdilər. Onlar düyü zəmilərində işləyir, boyaq maddələri yığılmasında və s. işlərdə

---

[263]Вах: И.А.Огранович. Провинции Ардебильскя и Сарабская, səh.45.
[264]Averyanov-Şəkinski, səh.71.
[265]Ölkədə inkişaf edən ticarət əkinçiliyi, bununla əlaqədar olaraq rayonlar arasındakı müəyyən ixtisaslaşma prosesi özü əhalinin bir yerdən başqa yerə getməsini tələb edirdi. Əslində bu yerdəyişmənin səbəbini kəsbkarlığa aid etmək olar.
[266]RXSA, "İran stolu" fondu, iş 535, vər.7.

çalışırdılar. Cənubi Azərbaycan kəndliləri qonşu vilayət olan Gilandan əlavə Bəndər-Gəzə qədər iş ardınca gedirdilər.[267] Məsələn, rus kapitalistlərindən Lianozov İranın Xəzər dənizi sahillərində balıq vətəgələrində geniş miqyasda balıq ovuna başladıqdan sonra vətəgələrə mövsüm zamanı (dekabr-may) ətrafdan, xüsusilə Azərbaycanın Xalxal mahalından çoxlu işçi qüvvəsi toplanırdı.[268]

Iş axtaran kəndlilərin bir qismi yolların çəkilməsində və başqa tikinti işlərində kəsbkarlıq edirdilər. Lakin ölkədə sənaye geri qaldığından, muzdlu əməkdən istifadə etmək istəyən mülkədarlar sayca az olduğundan, qolçomaqlar isə bir təbəqə kimi, demək olar ki, hələ yaranmadığından muzdlu iş ucuz olsa da, öz iş qüvvəsini satmaq istəyənlərin əksəriyyəti iş tapa bilmirdi. Kəndlilərin bir qismi ölkədə sənaye və ya kənd, təsərrüfatı fəhlələrinə çevrilir və ya şəhər yoxsulları sırasına daxil olur, bir hissəsi xarici ölkələrə getməyə məcbur olur, əsas hissəsi isə daha ağır şərtlərlə torpaq icarə etməklə yenidən paydara çevrilirdi.

Qeyd etmək lazımdır ki, istər ölkənin daxilində, istərsə də xaricində kəsbkarlıq edənlərin əksəriyyətini yoxsul və ən yoxsul kəndlilər təşkil edirdi. Lakin kənar peşələrlə məşğul olanlar içərisində ehtiyac üzündən deyil, əlavə qazanc əldə etmək məqsədi daşıyan varlı kəndlilərə də az miqdarda təsadüf olunurdu ki, onlar əkinçiliklə bərabər, çarvadarlıq, ticarət və başqa peşələrlə məşğul olurdular.

Azərbaycandan xaricə iş ardınca gedən və böyük əksəriyyəti kəndlilərdən ibarət olan kəsbkarların az bir qismi Osmanlı Türkiyəsinə, əsas etibarilə isə Rusiyaya - Zaqafqaziyaya, Volqaboyuna, Orta Asiyaya və b. yerlərə gedirdilər. Sərhədə yaxın mahallardan kəsbkarlığa gedənlərin sayı daha çox idi. Məsələn, Azərbayanın Vilkic və Ərdəbil mahallarından, Sərab, Xalxal və Miyana mahallarının Ərdəbillə qonşu olan kəndlərindən hər kəndli

[267] А.М.Матвеев. Социально-политическая борьба в Астрабаде. Ташкент, 1957, səh.30.
[268] SSRİ MDTA, r.560, siy.28, iş 297, vər.115.

ailəsindən bir nəfər Zaqafqaziyaya işləməyə gedirdi. Təkcə Ərdəbil mahalı və qonşu kəndlərdən Rusiyaya hər il ən azı 30-40 min kəsbkar kəndli yollanırdı.[269]

Rusiyaya gedən kəsbkarlar təbii olaraq daha çox Şimali Azərbaycan ərazisində çalışırdılar. Onlar Bakı, Yelizavetpol (Gəncə) quberniyalarında əsasən kənd təsərrüfatında, qismən də sənayedə qeyri-ixtisaslı işlərdə çalışırdılar. Burada pambıq və başqa məhsul yığımı zamanı tarlalarda, suvarma kanallarının təmizlənməsində, Bakı neft mədənlərində ən ağır və çirkli işlərdə çalışanların əksəriyyəti cənubdan gələn kəsbkarlar idi. Zaqafqaziyanın bir sıra müəssisələrində, məsələn, Ermənistanda Allahverdi mis karxanalarında[270] işləyənlərin əksəriyyəti Cənubi Azərbaycandan gələn kəsbkarlar idi. Bakı, Həştərxan və Volqaboyu partlarında iranlı kəsbkarlar hambal və qarmaqçı işləyirdilər. Onlar dəmir yolları çəkilməsində, körpülərin tikilməsində çalışırdılar. İstər kənd təsərrüfatında, istərsə də sənayenin müxtəlif sahələrində ən ağır işlərdə çalışmalarına baxmayaraq, iranlı kəsbkarlar yerli fəhlə və muzdurlardan xeyli az maaş alırdılar.[271]

Buna baxmayaraq, Rusiyaya gedən kəsbkarların sayı durmadan artırdı. Həmin kəsbkarların az hissəsi bir və ya bir neçə illiyə (bunların da daha az qismi həmişəlik) getdiyi halda, əksəriyyəti bir mövsüm müddətinə gedirdi. Zaqafqaziyanın Yelizavetpol,[272] Bakı və Tiflis quberniyalarında suvarma kanallarının çəkilməsi və təmizlənməsi, tarlaların, üzümlüklərin suvarılması, düyü, taxıl, pambıq yığılması və s. kimi ən ağır işləri görən kəsbkarlar buraya təbii olaraq əsasən yay aylarında gəlirdilər. Əsasən kəndlilərdən

---

[269]Тигранов. səh.160.

[270]Bax: С.М.Алиев. К вопросу о связях Бакинского и Тифлисского комитетов РСДРП с иранскими революционерами в 1903-1911 гг. – Славные страницы борьбы и побед, Баку, 1965, səh.194-196.

[271]И.В.Стригунов. Из истории формировании Бакинского пролетариата (70-90-е годы XIX в.), Баку, 1960, səh.216; Н.К.Белова. Об отходничестве из северо-западного Ирана в конце XIX - начале XX вв., «Вопросы истории», 1956, № 10, səh.116.

[272]Yelizavetpol quberniyasına hər il 100.000-ə yaxın kəsbkar gəlirdi (Н.К.Белова. Об отходничестве.., səh.115).

ibarət bu kəsbkarlar öz yurdunda tarla işlərini ailənin başqa üzvlərinə həvalə edir, ya da yuxarıda göstərilən Mərənd xırdamalik kəndliləri kimi istehsal vasitələrindən ayrılaraq əsas etibarilə fəhləliklə dolanırdılar.

Kəndlilərin Rusiyada qeyri-əkinçilik kəsbkarlığı ilə məşğul olan qalan hissəsi əsasən yaydan sonra gedirdilər. "İranın milli bankının otuzillik tarixçəsi"ndə bu barədə deyilir: "İranın şimal rayonlarından, xüsusilə Azərbaycandan əkinçilərin böyük bir dəstəsi qış vaxtı Qafqaza işləməyə gedərək, baharın ortalarında qənaət edilmiş...pulla geri qayıdırdılar".[273]

Deməli, Rusiyaya işləməyə gedən kəndlilərin əksəriyyəti öz təsərrüfatlarından ayrılmadan kəsbkarlıqla məşğul olurdu ki, bunların bir qismi üçün bu, "yardımçı" kəsbkarlıq idi, çünki kəsbkarlıqdan qazandıqları onların şəxsi və istehsal xərclərinin bir hissəsini ödəyirdi.

Kəndlilərin az qismi arasıkəsilmədən bir və ya bir neçə il kəsbkarlıqda qalırdı.

Rusiyada, xüsusilə neft Bakısında çalışan Cənubi Azərbaycan kəndliləri içərisində tamam köçüb Bakıda yaşayan və beləliklə, inqilab şəhərinin fəhlə kadrları cərgəsinə daxil olanlar da az deyildi. Onlar içərisindən Bakı proletariatının çarizmə və imperialist müdaxiləçilərinə qarşı qızğın mübarizəsinin ön sıralarında getmiş Mirbəşir Qasımov, Bəhram Ağayev və b. bolşeviklər yetişmişdi.

Xarici ölkələrdə çalışan Cənubi Azərbaycan kəsbkarlarının vəziyyəti ağır idi. İran müəllifi Nazimülislam Kermaninin Nəsrəddin şahın qatili Mirzə Rzanın dili ilə dediyi aşağıdakı sözlər xarici ölkələrə iş dalınca gedən və əsasən azərbaycanlılardan ibarət İran kəsbkarlarının acınacaqlı vəziyyətini çox gözəl təsvir edir: "Əgər ayağınızı bir azca İran torpağından xaricə qoysanız, siz Ərəb Əraqında,[274] Qafqaz şəhərlərində, Aşqabadda və Rusi-

[273]İran Milli Bankının otuzillik tarixçəsi, səh.15.
[274]O zaman Osmanlı imperiyasına daxil olan indiki İraq.

yanın yaxın yerlərində zülm və işgəncə əlindən öz əziz vətənindən qaçmış və əlacsızlıqdan ən kəsif peşələrdə və məşğuliyyətlərdə çalışmağa məcbur olmuş minlərlə biçarə iranlı rəiyyəti görərsiniz. O yerlərdə nə qədər hambal, zibilçi, ulaqçı və muzdur görsəniz, onlar hamısı iranlılardır...”.[275]

Kəsbkarların əsas yeməyi soğan-çörək, çay və ucuz meyvə idi. Onlar yalnız belə bir qənaət nəticəsində, yarıac yaşayış hesabına müəyyən məbləğ yığıb vətənə apara bilirdilər.

Kəsbkarlığa gedən kəndlini çöl tarla işlərində əvəz edəcək ailə üzvü qaldıqda kəsbkar kəndlinin xaricdə qazandığı məbləğ həmin ailənin ağır vəziyyətini düzəltmək üçün bir vasitə olurdu (xüsusilə kəndli bir və ya bir neçə illiyə getdikdə).

Azərbaycan əyalətində ortabab bir kəndli ailəsinin əkinçilikdən əldə etdiyi ümumi illik gəlir təqribən 100 tümənə bərabər idi. Həmin məbləğ renta və vergilərin ödənilməsinə, təkrar istehsal və ailənin xərclərinin yarısına güclə çatırdı. Bakıda ixtisassız iranlı qara fəhlə ayda ən azı 5 tümən (10 manat),[276] orta hesabla 10 tümən[277] qazana bilirdi. Deməli, həmin kəsbkar 10 aylıq iş müddətində ən azı 50 tümən, yəni ortabab bir kəndli ailəsinin əkinçilikdən əldə etdiyinin yarısı qədər qazana bilirdi. Lakin qürbətdə ağır zəhmət, yarıac həyat bahasına əldə edilən bu azacıq qazancın da xeyli hissəsini İran bürokratiyası, feodal-mülkədarlar kəsbkarların əlindən alırdılar.

Adətən, ailəsi mülkədar (və ya dövlət) torpaqlarında yaşayan, lakin təsərrüfata malik olmayan, özü isə kəsbkarlığa gedən kəndli həmin peşədə qazandığı məbləğin (pasport almaq, yol xərci və

---

[275]Nazimülislam Kermani. Tarix-e bidari-ye iraniyan (*İranlıların oyanış tarixi*), çap-e dovvom/ikinci çap, 1332/1953, səh.82 (Sonrakı səhifələrdə: “Nazimülislam Kermani. Tarixe-bidari, səh... yazılacaqdır).

[276]Bax: Н.К.Белова. Об отходничестве..., səh.118.

[277]Bakıdakı İran konsulu öz məktubunda Bakıda ixtisassız iranlı fəhlələrin ayda 18-30 manat və ya 9-15 tümən qazana bildiklərini yazırdı (Azərb. SSR MDOİA, f.275, siy.1, iş 241, vər.1-2). İranlı qara fəhlənin əmək haqqı barəsindəki müxtəlif rəqəmləri tutuşduraraq orta rəqəm kimi 10 tümən qəbul edə bilərik.

şəxsi məsrəf çıxıldıqdan sonra) müəyyən hissəsini mülkədara və dövlətə vergiyə sərf edirdi. Belə kəndlilər əsasən kənar peşədən əldə etdikləri qazancla dolanırdılar. Yardımçı kəsbkarlığa gedən kəndlilər isə qürbətdə qazandıqlarını əsasən borcun ödənilməsinə və ya təkrar istehsala sərf edirdilər.

Azərbaycan kəndliləri içərisində kəsbkarlığın belə yüksək olması göstərirdi ki, onlar içərisində yoxsullaşma yüksək idi. Getdikcə daha çox kəndlilər əkinçilik əsasında öz ailəsinin güzəranı üçün lazım olan adi vəsaiti belə əldə edə bilmir və kəsbkarlıqdan qazandıqları vəsaitlə dolanırdılar. Başqa sözlə desək, bunlar əkinçilikdə öz təsərrüfatı ilə zəif əlaqəsi olan kənd təsərrüfatı və qismən də sənaye fəhlələri idi. Bu isə artıq ölkədə feodalizmin tənəzzülünü, məhsuldar qüvvələrlə istehsal münasibətləri arasındakı ziddiyyətin son dərəcə artmasını, böhran keçirən feodalizm quruluşunun dağılmasının zəruri olduğunu göstərirdi.

Kəsbkarlığın getdikcə daha çox kütləvi şəkil alması, Azərbaycan kəndlilərinin həyatında müəyyən mütərəqqi əhəmiyyət də kəsb edirdi. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, istər daxildə, istərsə də xaricdə kəsbkarlıq bir qayda olaraq torpağa bağlı olan kənd əhalisinin bir yerdən başqa yerə keçməsinə, bununla da onun şüurunun artmasına yardım edirdi.

Cənubi Azərbaycan kəndlilərinin qeyri-əkinçilik kəsbkarlığı, xüsusilə onların inqilab beşiyi Bakıda və başqa şəhərlərdə olması, kənd zəhmətkeşlərinin böyük dəstəsinin təcrid edilmiş kənd həyatından ayrılması, qısa müddətə də olsa, mütəşəkkil fəhlələr içərisində çalışmasında, hətta sinfi mübarizə ilə tanış olmasında, başqa sözlə desək, onda siyasi və sinfi şüurun yaranmasında böyük rol oynayırdı. Bəhs edilən dövrdə, xüsusilə 1905-1911-ci illər inqilabı dövründə İranda kənd zəhmətkeşlərinin aqrar hərəkatda az-çox fəallıq göstərdiyi yerlərdən biri məhz qeyri-əkinçilik kəsbkarlığın daha çox yayıldığı Azərbaycan əyaləti idi.

## 3. ŞƏHƏRLƏRDƏ SOSİAL VƏZİYYƏT

XIX əsrin son rübündə Azərbaycan şəhərlərində ictimai münasibətlər üçün yeni cəhətlər - burjuaziya və fəhlə siniflərinin təşəkkülü ilə əlaqədar meydana çıxan proseslər idi.

XIX əsrin son rübündə ölkənin iqtisadi həyatında mövqeyini daha da möhkəmlətmiş xarici ticarət kapitalı öz təbiəti və quruluşu etibarilə orta əsr xüsusiyyətlərini saxlamış yerli bazarların əməliyyatını öz mənafeyinə tabe etmişdi. Müstəmləkə siyasəti yerli istehsalı özünə tabe etməyə çalışdığı kimi, əmtəə mübadiləsi sahəsində də rəhbər mövqe əldə edirdi. Mövcud vəziyyət ölkədə sənaye burjuaziyasının yaranmasını olduqca ləngidir, yerli kapital nümayəndələrinin çətinliklə açdığı tək-tək sənaye ocaqlarının əksəriyyətini iflasa uğradırdı. Məsələn, yuxarıda adlarını çəkdiyimiz Hacı Abbasəli və Hacı Rzanın açdığı iki çini qablar zavodu Rusiya sahibkarlarının təzyiqi nəticəsində bağlanmış və onlara 130 min tümən miqdarında zərər dəymişdi.[278] Bu vəziyyət milli burjuaziyanı əsasən ticarət sahəsinə yönəldirdi. Yalnız ticarət burjuaziyası böyük çətinliklərlə üzləşməklə az-çox fəaliyyət göstərə bilirdi. Belə bir şəraitdə xarici malların ölkəyə axınında vasitəçi rol oynayan komprador burjuaziya inkişaf üçün daha çox imkan əldə edirdi.

Ticarət əlaqələrinin inkişafındakı çətinliklər və maneələrlə əlaqədar olaraq dəllallıq mühüm bir sistemə, vasitəyə çevrilmişdi ki, bu da bir tərəfdən istehsalla istehlakçı arasında məsafəni uzadır, digər tərəfdən isə qiymətləri artırırdı. Bütün ticarət iri və orta tacirlərin əlində təmərküzləşmişdi. Xırda dükançılar malı belə tacirlərdən alır və tədricən satırdılar. Cənubi Azərbaycan şəhərlərində yüzlərlə belə dükan var idi. Məsələn, XX əsrin ilk illərində Ərdəbildə 1165, Mərənddə isə 495 dükan var idi.[279] Təbrizin Rusiya ilə ticarət yolu üzərində yerləşən kiçik şəhərlərdə bu qədər dükan olması təsadüfi deyildi. Cənubi Azərbaycanda təbrizli Hacı

---

[278] Р.А.Сеидов. Иранская буржуазия, səh.117.

[279] М.С.Иванов. Иранская революция 1905-1911 годов. М., 1957 səh.35.

Məhəmməd İsmayıl Məğazeyi, Hacı Mehdi Kuzekonani qardaşları, Hacı Məliküttuccar kimi bütün İranda tanınmış iri tacirlər yetişmişdi. XIX əsrin ortalarında Təbrizdə kiçik bir dükan açmış Xariton Tumanyans və onun üç qardaşı sonralar bütün İranın ən iri tacirlərinə çevrildilər. Lakin sənayenin inkişafı üçün şərait olmadığından iri və orta tacirlər öz kapitallarını torpaq, malikanə almağa sərf edirdilər. Eyni zamanda onlar bank əməliyyatına da qoşulurdular, çünki bu sahə tez və yüksək gəlir gətirən mənbə idi. İri bankirlər borc müqabilində 24-29% (illik), orta və xırda sərmayədarlar isə 50-100%-ə qədər müamilə haqqı alırdılar.[280] Xarici kapitalın iqtisadi təzyiqinə davam gətirmək məqsədilə XIX əsrin 90-cı illərində iri ticarət burjuaziyasının nümayəndələri birləşməyə meyl göstərirdilər. Təbrizdə 1897-ci ildə Hacı Mehdi Kuzekonani qardaşları və Hacı Seyid Murtuza Sərraf tərəfindən yaradılmış və 15 il fəaliyyət göstərmiş "Ettehadiyyə cəmiyyəti"[281] Azərbaycanda iri tacirlərin təşkil etdiyi maliyyə əməliyyatı ilə məşğul olan mühüm və yeni birlik idi. Eyni zamanda ticarətlə məşğul olan iri mülkədarlar sindikat yaradaraq taxılın qiymətini istədikləri səviyyədə müəyyən edirdilər.[282] Əldə olan məlumat göstərir ki, belə birləşmələr ticarət burjuaziyası üçün maliyyə əməliyyatı ilə məşğul olmağa müəyyən imkan yaradırdı. Məsələn, Şahənşah bankının Təbrizdəki şöbəsi 90-cı illərdə "Ettehadiyyə"nin rəqabətinə çətinliklə tab gətirirdi, çünki yerli tacirlər və sərraflar bu cəmiyyətə rəğbət bəsləyirdilər. "Ettehadiyyə"nin müvəffəqiyyətinin əsas səbəblərindən biri onun Şahənşah bankı ilə rəqabət aparan "Kastelli qardaşları firması ilə əməkdaşlıq etməsi idi. Lakin bu əməkdaşlıq sonuncunun rəhbərliyi altında davam edirdi.[283]

Beləliklə, mövcud daxili şəraitdə məhz xarici kapitalın nüfuzu ticarət və maliyyə burjuaziyasının inkişafına, bu inkişafın milli iqtisadiyyatın mənafeyinə tabe edilməsinə əsas və başlıca maneə

---

[280]В.Глуходед. Проблемы экономического развития Ирана, səh.54-55.
[281]İran Milli Bankının otuzillik tarixçəsi, səh.53.
[282]Атрпет. Мамед-Али шах, səh.141.
[283]М.Томара. Экономическое положение Персии, səh.117.

olaraq qalırdı. Sosial ziddiyyətlər artdıqca xarici kapitalın həm iqtisadi, həm siyasi ağalığı genişləndikcə tədricən inkişaf edən ticarət burjuaziyası hakimiyyətdə olan feodal aristokratiyasının daxili və xarici siyasətinin yarıtmazlığını, milli mənafeyə vurduğu zərbənin nəticələrini daha aydın başa düşür, bu qüvvəyə və eyni zamanda xarici kapitala qarşı mübarizə üçün yollar və imkanlar axtarırdı.

İstər xarici kapital nümayəndələrinin, istərsə də yerli burjuaziyanın Cənubi Azərbaycanda tək-tək sənaye ocaqları açması burada sənaye proletariatının da əmələ gəlməsinə obyektiv olaraq şərait yaratmış oldu. Keçən əsrin son onillikləri və XX əsrin əvvəllərində Azərbaycanda sənətkarlığın mühüm sahələrində muzdlu əməyin tətbiqinin genişlənməsi, xalçaçılıqda manufakturanın inkişafı, ayrı-ayrı fabrik və başqa müəssisələrin meydana çıxması, şosse yolları çəkilməsi və s. fəhlə sinfinin yaranması prosesində mühüm rol oynamışdır. Feodal münasibətlərin hələ möhkəmliyi və xarici kapitalın ağalığı bu prosesi ləngitsə də, dövrün qabaqcıl, ən perspektivli sosial qüvvəsi olan fəhlə sinfinin inkişafı fövqəladə ictimai və siyasi bir hadisə idi.

Azərbaycanda yaranmaqda olan fəhlə sinfinin ən mühüm xüsusiyyətlərindən biri bu idi ki, onun sayca inkişafı və siyasi şüurunun artması qonşu Rusiyanın Zaqafqaziya (xüsusilə Şimali Azərbaycan) və Orta Asiya kimi əyalətlərinin iqtisadi və siyasi həyatı ilə birbaşa və qırılmaz surətdə bağlı olmuşdur. Bu amil Azərbaycan fəhlələrinin sonrakı inkişafında və mübarizəsində daim özünü göstərmişdir.

Feodal istismarı nəticəsində torpağını itirmiş və itirməkdə olan məzlum, mövhumat və avamlıq pəncəsində çapalayan kəndlinin qonşu Rusiyanın proletar mərkəzlərinə cəlb edilməsi onu məhdud ucqarlardan ayıraraq daha mütərəqqi ictimai münasibətlərə cəlb edir, sinfi dünyagörüşünün inkişafına təkan verirdi. Beləliklə, kəsbkarlıq kəndli kütlələrinin proletarlaşması prosesi üçün mühüm kanal, vasitə olmaqla fəhlə sinfinin formalaşmasında fövqəladə əhəmiyyətli amillərdən biri idi. Cənubi Azərbaycan-

dan Rusiyanın sənaye mərkəzlərinə, o cümlədən proletar Bakısına kəsbkarlığın daim artması eyii zamanda xalq inqilabları dövründə Rusiya imperiyası və Cənubi Azərbaycan zəhmətkeşlərinin inqilabi həmrəylik və qarşılıqlı yardım əlaqələrinin yaranması üçün çox mühüm və əlverişli özül olmuşdu.

Fəhlə sinfinin inkişafının ilk mərhələsində bu yeni sosial qüvvənin sayca azlığına, fəhlələrin hələ böyük əksəriyyətinin sənətkarlıqdan tam ayrılmamasına, kəndlə əlaqənin möhkəmliyinə, onların şüurunda feodalizm və din qalıqlarının qüvvətli olmasına baxmayaraq, feodalizmə və xarici kapitala qarşı ən mübariz və durmadan inkişaf edən sinfin ictimai və siyasi həyatda fəaliyyət dövrü başlayırdı.

XIX əsrin sonu - XX əsrin əvvəllərində azərbaycanlı fəhlələrin vəziyyəti çox ağır idi. Həyat səviyyəsinin aşağı olması onları kiçik əmək haqqı müqabilində gün doğandan gün batanadək dözülməz iş şəraitində çalışmağa vadar edirdi. Fəhlə sinfinin zəifliyi, qeyri-mütəşəkkilliyi, sayca azlığı, siyasi şüurunun məhdudluğu sahibkarlara onları istədikləri şəkildə istismar etməyə imkan verirdi. Yarımqaranlıq, rütubətli, döşəməsi torpaq binalarda yerləşən emalatxanalar yarımac fəhlələrdə vərəm, revmatizm və başqa ağır xəstəliklərə səbəb olur, xüsusilə qadın və uşaqların səhhətinə pis təsir göstərirdi. Mənzil şəraitinin ağırlığı, sanitariya xidmətinin olmaması, mövhumat və avamlıq fəhlələrin güzəranını daha da acınacaqlı edirdi. O dövrdə adi fəhlə gündə orta hesabla 1 -1,5 qran və ya 20-30 şahı əmək haqqı alır, qadın və uşaqların əmək haqqı isə cəmi 10-15 şahı təşkil edirdi.[284] Başqa amillərlə yanaşı, eyni zamanda əmək haqqı səviyyəsinin aşağı olması sənayedə inkişafa mane olurdu, çünki bu hal sahibkarlara az məsrəflə yüksək qazanc götürməyə şərait yaratdığından onlarda daha yüksək istehsal formasına keçmək üçün maraq oyatmırdı. Uşaq və

[284]З.Абдуллаев. Промышленность и зарождение рабочего класса Ирана, Баку, 1968. səh.224-225; М.С.Иванов. Новые материалы о социал-демократической группе в Тебризе в 1908 г., «Проблемы востоковедение», 1959, № 5, səh.181.

qadınların fəhlələrin-tərkibində çoxluq təşkil etməsi vəziyyəti daha da çıxılmaz edirdi. Qadın və uşaqlar toxuculuqda, xalçaçılıqda başlıca qüvvə idilər. Məsələn, Məmmədovun xalça fabrikində çalışan fəhlələrin üçdə biri 6-14 yaşlı uşaqlar idi. Qəzvininin fabrikində də fəhlələrin əksəriyyətini uşaqlar təşkil edirdi. Şal, ayaqqabı və bəzi başqa mallar istehsal edən sahələr də başlıca olaraq uşaq əməyinə əsaslanırdı.[285]

Ən adi insani hüquqlardan məhrum edilmiş fəhlələr müəssisə sahibinin qoyduğu qaydalara danışıqsız tabe olmalı, hər cür təhqirə, pis rəftara dözməli idilər. Mövcud dövlət quruluşu, sosial-iqtisadi inkişaf səviyyəsi də şəraitində fəhlə qanunvericiliyindən əsər-əlamət belə yox idi.

Şəhərlərdə yaranan yeni ictimai qüvvə içərisində şəhər yoxsulları da qeyd edilməlidir. Müflisləşən sənətkarlar, əkinçiliyi davam etdirmək imkanını itirmiş kəndlilər şəhər yoxsullarının əsas artım mənbəyini təşkil edirdi. Müəyyən peşə və məşğuliyyətdən məhrum, əsasən isə işsizlərdən ibarət olan bu lümpen-proletarlar dəstəsi təsadüfi günəmuzd işlərlə dolanır və baş verən fəlakətlər, aclıq, çörək qıtlığı bütün ağırlığı ilə ilk növbədə bunların üzərinə düşürdü. Məsələ burasındadır ki, iri şəhərlərdə az-çox imkanı olan ailələr çörəyi evdə bişirdikləri halda şəhər yoxsulları bu ən zəruri ərzağı çörək dükanlarından almalı idi. Çox zaman möhtəkirlər tərəfindən süni surətdə yaradılan taxıl qıtlığı zamanı çörəkçilər çörəyin qiymətini olduqca artırır, ona arpa və s. qatır bəzən qiyməti daha da artırmaq üçün bu keyfiyyətsiz çörəyi də kifayət qədər satmırdılar. Yoxsul qadınlar saatlarla çörək növbəsinə dayanırdılar.[286] Bu hal dəfələrlə şəhərlərdə çörək qiyamlarının baş verməsinə səbəb olurdu. Odur ki, yoxsullar şəhərlərdə ən narazı ünsürləri təşkil edir, baş verən müxtəlif xarakterli bütün çıxışların fəal iştirakçısı olurdular.

---

[285]SSRİ MDTA, fond 560, siyahı 28, iş 291, vərəq 8; Yenə orada. iş 359, vərəq 231.

[286]Bax: Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.142

Şəhərlərdən ölkə daxilinə, xüsusilə xaricə kəsbkarlığa gedənlərin əsas hissəsini məhz şəhər yoxsulları təşkil edirdi.

Sexlərdə birləşmiş sənətkarların da sosial-iqtisadi mövqeyi qeyri-sabit olub, əksəriyyətinin vəziyyəti fəhlələrə yaxın idi. Ölkənin sosial-iqtisadi təminat gözləyən narazı ünsürləri sırasına xarici kapitalın məngənəsində sıxılan xırda tacirləri, ruhanilərin aşağı təbəqələrini və qulluqçu ziyalıları da daxil etmək lazımdır. Şəhərlərin orta təbəqələri deyilən hissəsini təşkil edən həmin qüvvələr bu dövrün və habelə sonrakı inqilab dövrunün ən fəal ünsürlərindən biri idi. XIX əsrin sonu və XX əsrin əvvəllərində İranda, o cümlədən Cənubi Azərbaycanda yaranmağa başlayan bir sıra mütərəqqi siyasi təşkilat və əncümənlərin fəaliyyəti, bu və başqa şəkildə gedən siyasi mübarizələr bu ünsürlərin iştirakı olmadan baş vermirdi.

## 4. SİYASİ VƏZİYYƏT VƏ SİNFİ MÜNASİBƏTLƏR

### Şah üsuli-idarəsi və yerli feodalların hökmranlığının davam etməsi

XIX əsrin son rübündə, İranın şahlıq üsuli idarəsində gözə çarpan bir dəyişiklik yaranmamışdı. 1858-ci iddə ölkəni idarə etmək üçün yaranmış 6 nazirlikdən ibarət nazirlər heyətində nazirliklərin sayı tez-tez dəyişirdi. 1866/67-ci ildə onların sayı 7-yə, 1872/73-cü ildə 9-a, 1881/82-ci ildə isə 13-ə çatmışdı.[287]

Müxtəlif işlər üzrə nazirliklərin (xarici işlər, daxili işlər, maliyyə, hərbi və s.) olmasına baxmayaraq, dövlətin bütün işlərini yenə də əslində şahın adından baş nazir (Sədr-e əzəm və ya Atabə-ye əzəm) idarə edirdi.

Dövlət aparatındakı bu zahiri dəyişikliklərin yerlərdə heç bir təsiri yox idi və idarə işləri yenə də köhnə qaydada davam edirdi.

---

[287] Ə.Ə.Şəmim, səh.140-141; Abbas İqbal. Tarix-e mofəssəl-e İran əz estila-ye moğol ta enqeraz-e Qacariye (*İranın Monqol istilasından Qacarların süqutuna qədər olan tarixi*), Tehran, 1320/1941, səh.327-328

[155] Averyanov-Şəkinski, səh.4

Əsas fərq bundan ibarət idi ki, şah hökuməti öz siyasi hakimiyyətini yerlərdə getdikcə daha çox möhkəmləndirməyə çalışırdı. Rusiya-İran müharibələrindən sonra mərkəzi hökumət Azərbaycan əyalətində hələ bir çox xanların qüvvəsi ilə hesablaşmalı, bəzi xanları tanımaqla daxili işlərdə onlara yarımsərbəstlik verməli olmuşdu. Lakin getdikcə daha çox mərkəzləşdirmə siyasəti yeridən hökumət bu yarısərbəstliyi məhdudlaşdırmağa çalışırdı.

XIX əsrin son rübündə inzibati bölgü etibarilə Azərbaycan siyasi cəhətdən rəsmən bilavasitə mərkəzə (Təbrizdə vəliəhdə və ya şaha) tabe olan üç xanlıq, səkkiz vilayət və dörd mahaldan ibarət idi.[288] Maku, Nənim və Gərgər[289] xanlıqlarında, habelə 1868-ci ilədək Urmiya xanlığında[290] nəsli xanlar hakim vəzifələrini daşımaqda davam etdikləri halda (yalnız yeni şah onların hakimiyyətini təzədən təsdiq edirdi), səkkiz vilayət və dörd mahalda bu vəzifəni daşıyanlar şah tərəfindən təyin olunur, vaxtaşırı dəyişilirdi.

Əyalətin bütün idarə işlərində ali nəzarət rəsmən vəliəhdə (bu illərdə Müzəffərəddin Mirzə, 1896-cı ildə Müzəffərəddin artıq şah elan olunduqdan sonra isə Məhəmmədəli Mirzə) tabe olmaqla vali (və ya nizame-səltənə), pişkar,[291] əmire-nizam, naib və başqa köməkçilər tərəfindən icra edilsə də, xanlıqlar, vilayətlər və mahalların hakimləri yenə də bilavasitə şah tərəfindən təyin olunurdu.[292]

---

[288] Averyanov-Şəkinski, səh.4.

[289] Yenə orada, səh.5. Nəmin xanlığına dörd mahal (Arşaq, Vilkiç, Ucarud, Astara) daxil idi. Arşaq mahalı buradakı kənd və torpaqlar Nəmin xanının nəslindən olmayan şəxslərin (Təbrizdən ali rütbəli məmur və ruhanilərin) xüsusi mülkiyyətinə çevrildiyi üçün xanlıqdan ayrılmış və bir mahal kimi rəsmən Ərdəbil vilayətinə daxil edilmişdi, dövlət vergilərini isə birbaşa Təbrizə ödəyirdi (Tiqranov, səh.95, 97).

[290] Nəsrəddin şah hicri 1285 (1868-69-ci) ildə xüsusi fərmanla Urmiya xanlığını ləğv etdi. А.Далили. Исторический очерк Урмийского ханства, автореферат канд. дисс. Баку, 1968, səh.26.

[291] Pişkar və ya daha doğrusu, pişkare-maliyyə (maliyyə rəisi) 1888-ci ilədək dövlət tərəfindən yalnız Azərbaycan əyalətinə təyin olunurdu. Pişkar bir qayda olaraq dövlət və maliyyə naziri qarşısında məsul olmalı idi. Yerlərdəki maliyyə məmurları-mustofilər formal da olsa pişkara tabe idilər.

[292] Averyanov-Şəkinski, səh.4.

Əyalətdə qalan vəzifələri - valinin və hakimin köməkçilərini (naibləri), xanlıqlar və vilayətlərə daxil olan mahal başçıları və başqalarını vəliəhd ya da vali təyin edirdi. Daha kiçik vəzifələrə namizədləri hakim özü verirdi.

Təbrizdə əyləşən vəliəhd, vali və yüksək rütbəli digər şəxslər əyalətin əhalisini soymaqda davam edirdilər. Bu şəxslər əyalətdə olduqları müddətdə böyük sərvət toplayırdılar.

Təbrizdə həm vəliəhdin, həm də valinin olması əhali üçün ağır bir yük idi. 1872-ci ildə Təbrizdə yayılmış intibahnamədə (*xəbərdarlıq*) vali Sahibi-Divana müraciətlə deyilirdi: "Bizi idarə etmək üçün təkcə vəliəhdin olması kifayətdir. Artıq hakimlər, xüsusilə də sənin kimisi bizə lazım deyil".[293] Öz acgözlüyü və zülmkarlığı ilə əhalini cana gətirən Sahibi-Divana qarşı Təbrizdə dəfələrlə çıxışlar baş vermiş və nəhayət 1881-ci ildə Təbriz əhalisi onu Azərbaycandan qovmuşdur.[294] (Buna baxmayaraq, şah Sahibi-Divanı başqa yerə - Şiraza hakim təyin etmişdi).

Məhəmmədəli Mirzə Azərbaycanda canişin olduğu 1896-1907-ci illər ərzində böyük torpaq sahələri zəbt etmiş, sərvət toplamaq üçün taxıl möhtəkirliyindən belə çəkinməmişdir.[295]

Məhəmmədəli Mirzənin Azərbaycanda canişin olduğu müddətdə müxtəlif dövlət vəzifələrini daşıyan məmurların vaxtaşırı dəyişdirilməsi adi hal olmuşdu. Bir qayda olaraq məmurlar köhnə vəzifədə qalmaq və ya yeni vəzifə almaq üçün vəliəhdə, valiyə və ya çox mühüm vəzifə olduqda şaha böyük məbləğdə rüşvət verməli idilər.[296] Beləliklə də vəzifə tutan məmurların tez-tez dəyişdirilməsi vəliəhdə və valiyə külli miqdarda gəlir gətirdi. Bu yolla

---

[293] Gürcüstan MDTA, f.5, iş 2242, vər.2-3.

[294] Şərqşünaslar arxivi, f.17, iş 1/4, vər.38.

[295] М.С.Иванов. Иранская революция 1905-1911 годов, səh.46; Тигранов, səh.108.

[296] Məhəmmədəli Mirzə atası Müzəffərəddin şahın iradəcə zəifliyindən istifadə edərək, özünü əyalətdə daha səlahiyyətli aparır, mühüm vəzifələrə ayrı-ayrı şəxsləri şəxsən özü təyin edirdi. 1903-cü ildə Azərbaycanda olmuş L.F.Tiqranov xəbər verirdi ki, əyalətdə vəliəhd bu və ya digər şəxsi hakim vəzifəsinə təyin etdikdən sonra şah tərəfindən təsdiq olunurdu (Tiqranov, səh.66).

vəzifəyə keçmiş şəxslər verdikləri rüşvəti artıqlamasilə üzündən aşağı vəzifə tutanlardan alır, sonuncular isə vergiləri artırmaqla əhalidən çıxırdılar.

Hakim vilayət ya mahal mərkəzində oturaraq işlərini ətrafındakı köməkçilər vasitəsilə idarə edirdi. Şahın ailə üzvlərindən təyin olunmuş hakimlər daha böyük səlahiyyətə malik olurdular. Adətən, hakim həmin vilayət və ya mahalda bütün mülki idarə işlərinə, məhkəmə işlərinə və vergi toplanışına baxırdı. Bəzi hakimlər, məsələn, Ərdəbil və Mərənd vilayətlərinin hakimləri isə həmin vilayətlərdə yerləşən hərbi hissələrə də rəhbərlik edirdilər.[297]

Hakimlər də vali və başqaları kimi vəzifədə olduqları müddətdə dövlətdən heç bir məvacib almır, əvəzində sərəncamında olan vilayətdən toplanmış dövlət vergilərinin müəyyən bir hissəsini özü və digər məmurlar üçün saxlayırdılar. Əslində isə hakimlər bu vəziyyətdən dövlət verkilərini xeyli artıqlamasilə toplamaq və daha böyük məbləğ mənimsəmək üçün geniş istifadə edirdilər. Məsələn, Mərənd vilayətinin vergiləri rəsmən 32 min manat müəyyən edilmişdi. Bunun 6 min manatı vilayətin təqdim etdiyi min nəfərlik piyada əsgərə, dörd min manatı artilleriyaya sərf olunur, üç min manat hakimin məvacibini təşkil edir, qalan məbləğ isə dövlət xəzinəsinə çatırdı. Lakin əslində vergilər iki dəfə artıq yığılır və dövlət məmurları tərəfindən mənimsənilirdi.[298]

Hakimin köməkçiləri arasında vəzifələr təqribən belə bölünmüşdü: hakimin müavini - naib (naibül-hökümə) və polis idarəsinin rəisi - qalabəyi şəhəri idarə işi ilə məşğul olmalı, vəzir vergilərin qoyulması və toplanmasına nəzarət etməli, münşibaşı dəftərxana işlərinə baxmalı, fərraşbaşı və tüfəngdarbaşı asayişə cavabdeh olmalı.[299] İqtisadi cəhətdən bu vəzifə sahiblərinin əsas işi şəhərlərdəki sənətkar və tacirlər üzərinə qoyulmuş vergilərin döv-

---

[297] Averyanov - Şəkinski, səh.5-6.

[298] Averyanov - Şəkinski, səh.11.

[299] Вах: И.А.Огранович. Провинции Ардебильская и Серабская, səh.4; Tiqranov, səh.66-71.

lət xəzinəsinə çatmasını təmin etməkdən, şəhər gömrük vergilərinin toplanmasından, eyni zamanda hər ilin əvvəlində ayrı-ayrı mahal və kəndlər üçün köhnə siyahılar əsasında tərtib edilmiş vergi siyahılarını yerlərə çatdırmaq, məhsul yığımı mövsümünün axırında yığılan vergiləri xəzinəyə yetirməkdən ibarət idi.

Dövlətə məxsus kəndlərdə (əgər bunlar tiyul və iltizama verilməyibsə) idarə işlərilə - torpaqların paydar kəndlilərə icarəyə verilməsi, onların toxumla təchiz olunması və s. xüsusi dövlət məmurları mübaşirlər məşğul olurdular.

Hər bir vilayət mahallara bölünürdü. Mahalların başında, adətən, mahalın ən iri feodalı, xan dururdu. Xanlardan çoxu, xüsusilə Qaradağ və Ərdəbil vilayətlərinə daxil olan mahallarda, bu vəzifəni irsən davam etdirirdilər. Onların bu hüququnu bir qayda olaraq vəliəhd təsdiq edirdi. Yalnız bəzi mübahisəli hallarda bu işə Tehran hökuməti qarışırdı.[300]

Kəndlərdə isə inzibati idarə işləri, əvvəldə olduğu kimi, yenə də feodalların əlində idi. Adətən, şəhərlərdə yaşayan iri torpaq sahibləri kəndlərdəki nümayəndələri vasitəsilə öz mülklərinin idarə işlərinə, xüsusilə vergi toplanışına nəzarət edirdilər.

Orta torpaq sahibləri, adətən, yaşadıqları kəndin torpaqlarının idarəsilə bilavasitə özləri məşğul olur, digər kəndlərdəki mülklərinə isə nümayəndələr vasitəsilə nəzarət edirdilər.

Kiçik torpaq sahibi olan mülkədarlar isə torpaq mülklərini özləri idarə edirdilər.

İri torpaq sahibləri kəndlərini idarə etmək üçün işlər müdiri - mübaşir təyin edirdilər. Mübaşir də öz növbəsində, hər kəndə çox zaman kənd əhalisinin varlı nümayəndələri içərisindən kətxuda təyin edirdi. Kiçik torpaq sahiblərinin idarə işlərinə yalnız kətxuda baxırdı.

İri torpaq sahiblərinin əmlakına ümumi nəzarəti - icarə haqqı və vergilərin vaxtında toplanması, kəndlər arasında suyun bölünməsi və s. vəzifələri, adətən mübaşirlər aparırdılar. Kətxudanın öhdəsinə xırda inzibati, polis nəzarəti, vergi və ya cərimələrin

---

300 Averyanov-Şəkinski, səh.7.

kəndlilər arasında vaxtaşırı bölünməsini, kəndlilərin növbə ilə biyara getməsini təşkil etmək, kəndə gələn mülkədarı və ya dövlətin inzibati nümayəndələrini[301] mənzil və yeməklə təmin etmək və s. işlər düşürdü.

Bir çox hallarda torpaq sahibi eyni zamanda dövlətin nümayəndəsi kimi inzibati vəzifə daşıdıqda, idarə işləri ilə daha çox bağlı olurdu. Məsələn, Makunun torpaqlarının çox hissəsinin sahibi və orada dövlət nümayəndəsi olan sərdar bütün kəndləri 100-150 köməkçi vasitəsilə şəxsən özü idarə edir, hər bir məsələyə (şikayətçiləri dinləmək, torpağı icarəyə vermək, toxum, borc vermək və s.) özü baxırdı.[302]

Feodalların, xüsusilə iri feodalların sərəncamında silahlı atlı dəstələrinin olması onlara kəndliləri istədikləri kimi soymağa, qeyri-iqtisadi asılılıqda saxlamağa imkan verirdi.

Xüsusilə özünüidarə hüququna malik, yəni heç bir hakimə tabe olmayan (daha doğrusu, özü eyni zamanda hakim olan) xanlıqlarda bu hal qabarıq şəkildə nəzərə çarpırdı. Məsələn, yuxarıda qeyd etdiyimiz kimi, Maku sərdarı kəndlilərə istədiyi cəzanı verirdi.

Feodallar cərgəsində olan yüksək rütbəli ruhanilər - şeyxülislam, müctəhid və başqaları (bunlar böyük torpaq mülklərinə malik olmaqla eyni zamanda vəqf torpaqlarının faktik sahibi idilər) da dini məqamdan istifadə edərək kəndliləri istədikləri kimi soyurdular. Onlar xüsusilə taxılın alınıb-satılmasında möhtəkirlikdən çəkinmir, beləliklə şəhər zəhmətkeş və yoxsullarının istismarında da iştirak etmiş olurdular.

---

[301] İlin müəyyən vaxtında hakimlərin göndərdiyi məmurlar dövlət vergilərini kətxudadan təhvil alıb mahal və ya vilayət mərkəzinə (sonra daha yuxarılara) satdırırdılar. Bəzən separatist və dövlət vergilərindən boyun qaçıran feodallar olduqda hakim özü silahlı qüvvələri ilə birlikdə yerlərə vergi almağa gedirdi. Kəndlilər hakimi və onun məiyyətini yolboyu və gəldiyi yerdə mənzil və ərzaqla təmin etməli idilər.

[302] В.Минорски. Отчет о поездке в Макинское ханство. Материалы по изучению Востока, 1909, вып.I, səh.13.

Yaranmaqda olan burjuaziya istismarçı sinfi təşkil etsə də, hakim sinif olan və inzibati-hakimiyyət orqanlarını əlində saxlayan feodalların təzyiqi altında idi. Yenə də tacirlərin əmlak və şəxsiyyətinin toxunulmazlığını, ticarətin və bununla bağlı olan əməliyyatların, o cümlədən ticarət yollarının əmin-amanlığını təmin edən heç bir qanun-qayda yox idi. Çünki bu təminatı yaratmalı və qorumalı olan inzibati başçılar özləri müxtəlif bəhanələrlə tacirlərin də əmlakını zəbt etməkdən çəkinmirdilər. Rusiyanın ticarət və manufaktura departamentinin Rusiya-İran ticarətinin vəziyyətini araşdırmaq üçün 1893-1894-cü illərdə xüsusi tapşırıqla İrana göndərilmiş məmuru M.L.Tomara da bunu təsdiq edir. O yazırdı: "Tacirlərin inzibati idarələrdən asılılığına gəldikdə, demək lazımdır ki, İranda haqsızlıq və mülkiyyətin təminatsızlığı hökm sürdüyü bir şəraitdə vali və hakim tərəfindən tacirin əmlak və pulunun zəbt edilməsi asanlıqla baş verə bilər".[303] Bununla bərabər, hələ çox zəif və qeyri-sabit vəziyyətdə olan sənaye burjuaziyası (əksəriyyəti sənaye ocaqları açmağa təşəbbüs göstərən tacirlər idi) xarici kapital nümayəndələrilə yanaşı, yaranmaqda olan fəhlələri ən iyrənc formalarla istismar edirdi.

## Geniş xalq kütlələrinin narazılığı və istismarçılara qarşı sinfi mübarizənin formaları. İmperializmə qarşı ilk çıxış

Xarici kapitalın ağalığı, sosial zülm, dövlət məmurlarının yerlərdəki özbaşınalığı geniş xalq kütləri içərisində böyük narazılığa səbəb olurdu. Ölkədə vaxtaşırı baş verən təbii fəlakətlər (quraqlıq, çəyirtkə basqını, epidemiyalar və s.) və bunlarla əlaqədar meydana çıxan, çox zaman isə möhtəkirlər tərəfindən süni surətdə yaradılan ərzaq qıtlığı istər şəhər, istərsə də kənd zəhmətkeşləri, yuxarıda qeyd olunduğu kimi, xüsusilə şəhər yoxsulları içərisindəki bu narazılığı və həyəcanları son dərəcə artırırdı. XX əsrin əvvəllərinə doğru bütün ölkədə sosial və sinfi ziddiyyətlər olduqca kəskinləşmiş, ayrı-ayrı şəhər və kəndlərdə müxtəlif xarakterli çıxışlar baş vermişdi.

303 М.Л.Томара. Экономическое положение Персии, səh.107.

XIX əsrin son rübündə Azərbaycan kəndlilərinin əksəriyyətinin dözülməz dərəcədə ağır vəziyyətdə yaşaması təbii olaraq onları feodal mülkədarlar, dövlət məmurları əleyhinə çıxışlara məcbur edirdi. Bu dövrdə kəndlilərin aydın şəkildə ifadə olunmuş sırf sinfi mahiyyətli, inqilabi xarakter daşıyan çıxışları, demək olar ki, yox idi.

XIX əsrin 90-cı illərinədək baş vermiş, ölkənin ayrı-ayrı yerlərində şah hakimiyyətinə, feodallara qarşı çevrilmiş çıxışlar pərakəndə və kortəbii olmuşdur. Bunlar çox vaxt kütləvi etiraz, şikayət, adətən, silahsız müqavimət və s. ibarət olub, passiv mübarizə xarakteri daşıyırdı.

Bəhs olunan dövrdə səbri tükənmiş Cənubi Azərbaycan kəndlisinin feodal və mülkədarların ağır zülmünə qarşı etiraz əlaməti olaraq istifadə etdiyi geniş yayılmış vasitələrdən biri də başqa torpaq sahibinin yanına qaçmaq, yaxud öz məskənini tərk edib xaricə köçmək idi.

Kəndlilərin bir torpaq sahibinin yanından getməsi bəzən kütləvi şəkil alır, yəni eyni vaxtda əhali kəndi tərk edirdi. Belə hallarda kəndlilər mülkədarın torpaqlarını tərk etməklə kifayətlənməyərək ondan hökumətə kütləvi şəkildə şikayətə də gedirdilər. Lakin belə hallarda hökumət nümayəndələri, bir qayda olaraq, mülkədardan rüşvət alır və məsələni ört-basdır edirdilər. Kəndlilər şikayətin nəticəsiz qaldığını gördükdə çox zaman köçüb başqa kəndə gedir. Həmin kənd boş qalırdı.[304]

Bu şikayətlər bir çox hallarda XIX əsrin sonu və XX əsrin əvvəllərində geniş yayılmış torpaq zəbtinə qarşı da yönəlmiş olurdu.

Bu dövrdə Cənubi Azərbaycan şəhərlərində, xüsusilə Təbrizdə daha fəal çıxışlar baş vermişdi. Bu ümumxalq həyəcanları içərisində az-çox yayılmış mübarizə forması əyalət, vilayət və mahallara başçılıq edən dövlət nümayəndələrinə qarşı çevrilmiş çıxışlar idi. Bunlar ayrı-ayrı şəxslərə qarşı çevrilmiş olsa da, dövlət nümayəndələrinə qarşı yönəldiyindən eyni zamanda feodalizmə qarşı mübarizə kimi diqqəti cəlb edir.

---

[304] Hanri Rene D’Aleman. Farsca nəşri, səh.77.

1871-1872-ci quraqlıq illərində bütün İranda aclıq baş verdiyi zaman Cənubi Azərbaycan əyalətində də əhali çox əziyyət çəkmişdi. Bu vəziyyəti taxıl möhtəkirliyi ilə məşğul olana və ya möhtəkirlərə himayədarlıq edən dövlət məmurları daha da ağırlaşdırırdılar. Belə məmurlardan biri əyalətin valisi Sahibe-Divan idi. 1872-ci ilin yanvarında taxıl çatışmazlığı ilə əlaqədar olaraq Təbriz əhalisinin həyəcanı baş vermişdi. Çörək qıtlığını aradan qaldırmaq üçün hökumət tərəfindən heç bir mühüm tədbir həyata keçirilmədiyindən əhalinin həyəcanlı vəziyyəti bir neçə müddət davam etmişdi.[305] Aclığın qarşısını almaq üçün Rusiyadan göndərilən taxılın Təbrizə gətirilməsi Sahibe-Divan tərəfindən qəsdən ləngidildiyindən aprel ayının sonlarında şəhərdə yenidən həyəcanlar baş verdi. Aprel ayının 27-də şəhərdə hökumət orqanları əleyhinə intibahnamə yayıldı. İntibahnamə vəliəhdin, valinin yaşadığı binaların qapılarına, bazar və karvansaraların müxtəlif yerlərinə yapışdırılmışdı. Təbrizdə aclığa qarşı mübarizə məqsədilə yaranmış 500 nəfərlik bir qrup həmin intibahnamədə Sahibe-Divana üç gün möhlət vermiş, aclığın qarşısı alınmadığı təqdirdə onu ölümlə hədələmişdi.[306] [173] Aprelin 28-də səhər qadınlardan ibarət bir dəstə rus baş konsulluğu qarşısına gələrək çörək tələb etdi. Baş konsul bu həyəcanlı vəziyyətin təhlükəli olduğuna işarə edərək öz məlumatında yazırdı: "...Təbriz əhalisinin məlum coşğun xarakteri nəzərə alınarsa, demək lazımdır ki, qiyam başlanması üçün bircə qığılcım kifayətdir. Qiyam isə başlansa, onu yatırmaq mümkün olmayacaqdır". [307]

Bu gərgin vəziyyətdən çıxmaq üçün Sahibe-Divan dərhal ərzaq mallarının qiymətini aşağı endirmək haqqında bazara göstəriş verməyə məcbur oldu; bazara bol taxıl çıxarıldı, taxılın batmanı

---

[305] Gürcüstan MDTA, f.5, iş 2242, vər.1 - 2.
[306] Yenə orada, vər.2.
[307] Gürcüstan MDTA, f.5, iş 2242, vər.3.

bir qran 18 şahıdan bir qrana, ətin batmanı 5 qrandan 2 qrana salındı. Bu tədbirlər həyəcanın qarşısını aldı,[308] lakin ümumi vəziyyəti dəyişmədi. 1880-ci ildə Təbrizdə əhali içərisində narazılıq yenidən şiddətləndi. Azərbaycan əyalətindəki vəziyyətdən narahat olan Nəsrəddin şah 1880-ci il oktyabrın 3-də daxili işlər naziri Mustofiülməmalikə məktubunda Cənubi Azərbaycan əyalətinin daxili vəziyyətinə diqqəti artırmağı ona xüsusi tapşırmışdı. Məktubda deyilirdi: "Azərbaycan məmləkətinin qanun-qaydada saxlanması daha vacib və daha zəruri olduğundan, biz bu məmləkət sarıdan həmişə tamamilə asudə qalmalı olduğumuzdan... bu məmləkətin bütün işlərinin dərindən öyrənilməsini  hər cəhətdən sizin öhdənizə qoyuruq... Bu tarixdən özünüzü həmin məmləkətin işlərinin tam məsulu bilməlisiniz...".[309]

Lakin həmin tədbir də vəziyyəti dəyişməmiş və yuxarıda gördüyümüz kimi 1881-ci ildə Təriz əhalisi Sahib-Divanı Cənubi Azərbaycandan qovmuşdu.[310]

Bu hadisədən sonra Təbriz və başqa şəhərlərdə baş verən ən böyük çıxış 1891-ci ildə "Tənbəki üsyanı" adı ilə məşhur hərəkatdır ki, bu da İran xalqlarının, xüsusilə azərbaycanlıların imperializmə qarşı ilk çıxışı olmaqla onların siyasi mübarizəyə qoşulmasında mühüm rol oynamışdır.

Rusiya və İngiltərə Şərqin asılı ölkələri səviyyəsinə çatdırdıqları İrandan yeni-yeni imtiyazlar istəyir, İran dövlətinə qeyri-bərabər sazişlər təhmil edirdilər ki, bunlardan biri də tütün inhisarı idi.

---

[308] Yenə orada, vər.5-6.

[309] Mötəmedüssoltan Səniüddövlə Məhəmmədhəsən xan. Tarix-e montəzem-e Naseri (*Nizamlı Nasiri tarixi*),1298/1919, səh.245. Şahı Cənubi Azərbaycanda baş verə biləcək həyəcan və iğtişaşın əyalətin həmsərhəd olduğu Rusiya dövlətində əks-səda doğura biləcəyi və nəhayət, Cənubi Azərbaycanın İrandan ayrıla biləcəyi narahat edirdi (bax: İbrahim Səfai. Əsnad-e siyasi-ye douran-e Qacariye (*Qacar dövrünün siyasi sənədləri*), Tehran, 1346/1967, səh.28).

[310] Şərqşünaslar arxivi, f.17, iş 1(4), vər.38. 1881-ci ilin fevral ayında şah Azərbaycana yeni vali göndərmişdi. Bax:
Mötəmedüssoltan Səniüddövlə Məhəmmədhəsən xan. Tarix-e montəzem-e Naseri, səh.252.

1889-cu ilin aprel ayında Nəsrəddin şah Avropa ölkələrinə üçüncü səyahəti zamanı Londonda da olmuş, 25 min funtsterlinq rüşvət müqabilində ingilis kapitalisti Talbota tütün-tənbəki imtiyazı haqqında razılıq vermişdi.[311] İngilislər İranın baş naziri Əminüssultana, hərbi nazir Naibüssəltənəyə və digər başçılara da 400 min tümən məbləğində rüşvət verdilər.[312]

1891-çi il mart ayının 9-da bağlanmış və 15 maddədən ibarət bu müqavilə İranda tütün istehsalçılarını, şəhərlərdə tütün emalında çalışanları, tütün alverçilərini tamamilə şirkətin özbaşınalığına tabe edirdi. Müqavilədə qeyd olunmuşdu ki, İranın bütün əyalət və vilayətlərində, bir sözlə, ölkənin hər tərəfində tutün-tənbəki hazırlığı, emal edilməsi, alınıb-satılması, xarici ölkələrə ixrac edilməsi, bir sözlə, bu sahədə bütün işlər tam ixtiyarla imtiyazçılara verilir.[313] Bütün bunların müqabilində şirkət əldə edəcəyi qazancdan ildə cüzi bir məbləğ - İran hökümətinə 15 min funt-sterlinq ödəməyi öhdəsinə götürürdü.[314]

Tütün-tənbəki imtiyazı imzalandıqdan sonra ingilislər İranın bir çox mühüm vilayətlərində şirkətə məxsus idarələr təşkil etdilər. Bu idarələrdə işləmək üçün onlar İngiltərədən əlavə Hindistandan və digər müstəmləkə ölkələrindən işçi, qulluqçu adı ilə dəstə-dəstə öz təbəələrini gətirməyə başladılar.

Tezliklə ingilislərə qarşı böyük narazılıq başlandı. Bütün əhali, xüsusilə tütün və tənbəki əkini sahələrinə malik olan iri torpaq sahibləri, o cümlədən ruhani və tacirlər, bir çox yerlərdə tütün əkilməsilə bilavasitə məşğul olan kəndlilər, eyni zamanda, tütün alveri edən tacirlər, irili-xırdalı mövcud olan tütün emalatxanaları

---

[311] İbrahim Teymuri. Qərardad-e 1890 reji. Təhrim-e tənbaku (*1890-cı il imtiyazı. Tənbəki qadağası*), Tehran, 1328/1949, səh.271(Sonrakı səhifələrdə: İ.Teymuri, 1890-cı il imtiyazı, səh... yazılacaqdır).

[312] Ayətulla Şeyx Rza Zəncani. Təhrim-e tənbaku (*Tənbəki qadağası*), Tehran, 1322/1943, səh.34

[313] İ.Teymuri. 1890-cı il imtiyazı, səh.29-30.

[314] Ayətulla Şeyx Rza Zəncani. Təhrim-e tənbaku, səh.25

sahibləri, nəhayət, həmin müəssisələrdə çalışan sənətkar və fəhlələr arasında  həyəcan baş verdi. Heç kəs öz tütün və tənbəkisini ingilis kapitalistlərinə satmağa razı olmadı.

1891-ci ilin ortalarında ingilis şirkəti İran hökumətinin razılığı ilə tütün alverini qadağan etdi, tütün alverinin və tütün emalının ancaq ingilis şirkətinə məxsus olduğunu bildirdi. İmtiyaz sahibləri ölkədə istehsal olunan bütün tütün və tənbəkinin yalnız ingilis şirkətinə satılmasını tələb etdilər. Bu hadisə narazılıq və etirazı son dərəcə artırdı. İstehsalçılar, alverçilər, habelə bir çox vətənpərvər şəxslər iri ruhanilərin evlərində toplaşaraq onlardan yardım göstərməyi və işə qarışmağı tələb etdilər. Tehranda və digər böyük şəhərlərdə başlanmış həyəcan və etiraz ölkənin hər tərəfinə yayıldı. Xalqa qoşulmağa məcbur olan ruhanilər tütün, tənbəki işlədilməsini haram elan etdilər. Əhalinin tütün-tənbəki istehsalı, emalı və ticarətilə bağlı olmayan, lakin tütün-tənbəki məmulatından istifadə edən qalan hissəsi, o cümlədən qadınlar[315] da müvəqqəti olaraq tütün və tənbəkidən imtina etməklə hərəkata qoşuldular. Bu hərəkatın ən mühüm mərkəzlərindən biri Cənubi-Azərbaycan və onun paytaxtı Təbriz idi.

Qeyd etmək lazımdır ki, tütün-tənbəki əkini Cənubi Azərbaycanın kənd təsərrüfatı məhsulları sırasında əsas yer tutmurdu. Tütün, xüsusilə tənbəki başlıca olaraq Urmiyada becərilirdi. Lakin tütun və tənbəkinin daxili məsrəfi, daxili ticarət, həmçinin xaricə ixrac edilməsi cəhətdən Cənubi Azərbaycan tütün emalının ən mühüm məntəqələrindən biri idi. Şirkətin 1891-ci ildə bütün İrandan satın alınması nəzərdə tutulan 335 900 funt-sterlinq məbləğində tütün və tənbəkinin üçdə bir hissəsini Azərbaycan verməli idi.[316] Məhz buna görə də tütün imtiyazı ilə əlaqədar Cənubi Azərbaycanın tütün emalçıları, alverçiləri, ümumiyyətlə bütün əhali hərəkatda ən fəal surətdə iştirak etdilər.

---

[315] İranda qadınlar da qəlyan çəkirdilər.

[316] Correspondense Respecting the Persian Tobacco Consession. Presented to Both Houses of Parliament by Command of Her Majesty, London, of une, 1892, p.14-15 (Sonrakı səhifələrdə SRTS - bax: Р.С.Сеидов. Иранская буржуазия, səh.168-169).

İngilis kapitalistləri İranın müxtəlif vilayətlərində tütün idarələri təsis etməyə başladıqda öz qulluqçularından böyük bir qrupunu da Cənubi Azərbaycana göndərdi. Lakin azərbaycanlılar onları öz şəhərlərinə, xüsusilə Təbrizə buraxmadılar.

1891-ci il iyul ayının sonlarında Təbrizdən şaha ruhani, tacir və torpaq sahiblərinin ən görkəmli nümayəndələrinin imzası ilə teleqram göndərildi. Buna oxşar başqa bir teleqram da avqust ayının əvvəllərində Təbriz əhalisinin böyük bir hissəsinin imzası ilə petisiya şəklində şaha göndərildi. Hər iki sənəddə tütün və tənbəki inhisarının ləğv edilməsi tələb olunur və göstərilirdi ki, "əks halda əhali əldə silah öz mənafeyini qorumağa qalxacaqdır".[317] Bunun ardınca Təbrizdə bütün bazar və dükanlar bağlandı, tətilçilər məscidlərə, ruhanilərin evlərinə toplanaraq, əhalini imtiyaza qarşı geniş etiraz hərəkatına çağırdılar. Onlardan bir dəstə vəliəhdin sarayı qarşısında toplanaraq hökumətdən tütün-tənbəki imtiyazının ləğv olunmasını tələb etdi. İbrahim Teymurinin yazdığına görə, Təbrizdə üsyana qoşulmuş əhalinin təxminən 20 min nəfəri silahlanaraq hərəkata qarşı baş verə biləcək hər hansı hadisəyə müqavimət göstərmək üçün hazır vəziyyətdə dayandı.[318]

Azərbaycanda üsyanın güclənməsi, xüsusilə əhalinin silaha əl atması saray adamlarını və şahı dəhşətə gətirdi. Avqustun əvvəllərində şah baş nazir Əminüssultana məktubunda Azərbaycandakı vəziyyətin fövqəladəliyi ilə əlaqədar yazırdı: "Əgər orada şirkətin fəaliyyətini zorla yaymağa çalışsaq, o zaman biz həmin əyalətin bütün əhalisi ilə vuruşmalı olarıq".[319] Odur ki, şah avqustun 21-də Təbrizə göndərdiyi teleqramda tezliklə inhisarı ləğv edəcəyinə söz verdi. Avqustun 30-da alınmış ikinci teleqramında isə o, Cənubi Azərbaycanda tütün inhisarının ləğv olunduğunu elan etdi.[320]

---

317 RXSA, "Baş arxiv Y-Az" fondu, iş 39, vər.142-143; Р.А.Сеидов. Иранская буржуазия, səh.174

318 İ.Teymuri. 1890-ci il imtiyazı, səh.74.

319 İbrahim Səfai. Əsnad-e siyasi-ye douran-e Qacariye, səh.28

320 RXSA, "Baş arxiv Y-Az" fondu, iş 39, vər.173; Р.А.Сеидов. Иранская буржуазия, səh.177

Bundan sonra şah sarayda məşvərət məclisi çağırdı. Müxtəlif təkliflərdən sonra məclis belə qərara gəldi ki, saray başçılarından bir nəfər Təbrizə göndərilərək imtiyaz məsələsini azərbaycanlılara, ruhanilərə izah etsin, azərbaycanlılar arasında ixtilaf və nifaq törətməklə hərəkatı zəiflətməyə çalışsın. Azərbaycana göndərilmək üçün saray qulluqçularından Əmine-Hüzur təyin edildi. O, sentyabr ayında Təbrizə yola düşdü.[321]

Bu xəbər Təbrizə çatdıqda burada böyük etiraz nümayişi başlandı. Nümayişçilər bir itin boynundan kağız asaraq iti Əmine-Hüzur, kağızı isə şahın fərmanı adlandırıb küçələrdə, meydanlarda gəzdirdilər. Onlar məscidlərdə, şəhərin meydanlarında toplanaraq nitqlər söyləyir, saray məmurunu hədələyir, Təbrizə gələrsə, ona qarşı atəş açacaqlarını bildirirdilər. Əmine-Hüzur Təbrizə yaxınlaşdı, şəhərin 12 kilometrliyində yerləşən Basmınc qəsəbəsində qalmağa məcbur oldu. Nəhayət, vəliəhd Müzəffərəddin Mirzə şəxsən özü sarayın silahlı dəstələrilə Basmınca gedərək Əmine-Hüzuru özü ilə birlikdə şəhərə gətirdi və sarayda öz yanında saxladı.

Əmine-Hüzur sarayın, şahın sözlərini və göndərdiyi hədiyyələri ruhanilərə çatdırmaq üçün onlarla görüş istədi. Mirzə Cavad Müctəhidin evində görüş təşkil edildi. Əmine-Hüzur vəliəhdin sarayından müctəhidin evinədək Təbriz küçələrindən keçərkən minlərlə silahlı əhalinin imtiyaza və mütləqiyyətə qarşı nifrət və qəzəbini görüb, imtiyaz haqqında sarayın göstərişlərini, sözlərini söyləməyə cürət belə etmədi. Şahın göndərdiyi hədiyyələri ruhanilərə verdikdən sonra vəliəhdin sarayına, oradan da Tehrana qayıtdı. Bu hadisədən sonra Nəsrəddin şah azərbaycanlıların hərəkatını silah gücünə yatırmaq əmri versə də, nə vəliəhd, nə də Azərbaycan valisi Əmire-Nizam əmri yerinə yetirməyə cürət etmədilər. Əmire-Nizam şah tərəfindən Tehrana çağırıldı və Azərbaycan valiliyindən çıxarıldı.[322]

---

[321] İ.Teymuri. 1890-cı il imtiyazı, səh.76.

[322] Yenə orada, səh.77.

Digər tərəfdən, ingilislər Azərbaycanda imtiyazı həyata keçirərkən bəzi güzəştlərə gedəcəklərini bildirdilər. Lakin təbrizlilər şirkətin bu barədə bütün elanlarını divarlardan qoparıb atdılar, imtiyazla birlikdə bütün təklif və güzəştləri qəti surətdə rədd etdilər.

Nəsrəddin şahın göstərişilə ingilis imtiyazçılarının Cənubi Azərbaycanda fəaliyyəti dayandırıldı. Bu addım Nəsrəddin şahın Cənubi Azərbaycan əhalisi qarşısında geriyə çəkilməsi demək idi.

Cənubi Azərbaycandakı hərəkat, xüsusilə Təbriz əhalisinin çıxışları ingilis kapitalistlərinə qarşı İranın başqa yerlərində də mübarizənin güclənməsinə bilavasitə təsir göstərdi. İngiltərənin İrandakı müvəqqəti işlər vəkili Kennedinin sentyabrın 1-də Londona göndərdiyi teleqramda qeyd edilirdi ki, əgər Təbriz üsyançılarına qarşı ciddi bir tədbir görülməsə, "inqilabi ruh sürətlə bütün İranı bürüyəcək, çünki digər əyalətlər Azərbaycana işarə verən mərkəz kimi baxırlar".[323] Sentyabrın 5-də Rusiyanın İrandakı diplomatik nümayəndəsi Byutsov da öz növbəsində Peterburqa xarici işlər naziri Qirsə yazırdı: "İranın digər yerlərinin əhalisi azərbaycanlılar kimi azad ruhla fərqlənməsə də, Təbriz hadisələrinin başqa əyalətlər üçün, xüsusilə tütün inhisarının verilməsinə qarşı baharda narazılıqlar baş vermiş Şiraz üçün sirayətedici nümunə olmayacağına zəmanət vermək çətindir".[324] Şirazda inhisara qarşı çıxanlar doğrudan da belə bir elan vermişdilər: "Təbrizi diqqətlə izləyin, qoy Təbriz bizi öz ardınca aparsın, biz işarə gözləyirik".[325] Təbrizin ardınca tezliklə İranın bir çox rayonlarında, o cümlədən Şiraz, İsfahan və Məşhəddə şirkətə qarşı kəskin çıxışlar başlandı. Tehranın özündə inhisarın ləğv olunması tələbini təkidlə irəli sürən əhali 1892-ci il yanvarın 4-də şah sarayına hücum etdi. Bütün bunlar şah hökumətini təslim olmağa məcbur etdi və

---

[323] A.K.S.Lambton. The Tobasso Regie: Prelude to revolution, - "Studia Islamica", No XXII, le 30 Septembre, 1965, p.135, - Bax: Р.А.Сеидов. Иранская буржуазия, səh.177.

[324] RXSA, "Baş arxiv Y-Az" fondu, iş 39, vər.173-174 - Bax: Р.А.Сеидов. Иранская буржуазия, səh.178.

[325] SRTS, p. 15 - Bax: Р.А.Сеидов. Иранская буржуазия, səh.179.

1892-ci il yanvarın 5-də Talbotla bağlanmış müqavilənin ləğv olunduğu rəsmən bildirildi.[326] Bununla da hərəkat bütün ölkədə qələbə ilə nəticələndi. İmtiyazla əlaqədar İrana gəlmiş ingilis məmurları ölkəni tərk etməyə məcbur oldular.[327]

"Tənbəki üsyanı" İran xalqlarının, o cümlədən azərbaycanlıların mübarizə tarixində parlaq səhifələrdən birini təşkil edir.

İranda ilk antiimperialist çıxış olan bu hərəkatda Azərbaycanın torpaq mülkiyyətilə bağlı ticarət burjuaziyası, sənətkarları, onlara qoşulmuş ruhanilər, digər sinif və təbəqələrin nümayəndələri iştirak edirdilər.

Hərəkatın kəndlilərə də böyük təsiri olmuşdu. Cənubi Azərbaycan kəndliləri hərəkatda az-çox iştirak edir, şirkətə qarşı öz etirazlarını passiv də olsa, bəzən tütün əkinlərinin azaldılması və ya bundan tamamilə əl çəkilməsi ilə bildirirdilər. 1891-ci ildə İranın bir sıra tütün rayonlarında olduğu kimi, Urmiyada da tütün əkinlərinin sahəsi olduqca azalmışdı.[328] Bu, şübhəsiz, əsasən mülkədar əkinləri hesabına, qismən də kəndlilərin tütün əkməkdən imtina etməsi nəticəsində olmuşdu. Kəndlilər eyni zamanda şirkətə, ümumiyyətlə, ingilis imperialistlərinə və şah hakimiyyətinə qarşı fəal mübarizəyə də qoşulur, dəstə-dəstə mübarizə mərkəzlərinə toplaşırdılar. Azərbaycanda kəndlilərin imtiyaza qarşı mübarizə üçün hətta silahlanması və Təbrizə axışması hallarına da təsadüf edilirdi.[329] Bu isə kəndlilərdə də siyasi şüurun az-çox oynamağa başladığını göstərirdi.

---

[326] Camalzadə, səh.117.

[327] Lakin İran dövlətinin müqaviləyə uyğun olaraq imtiyaz sahibinə 500.000 funt-sterlinq miqdarında dəbbələmə pulu vermək üçün İrandakı ingilis şahənşahı bankından borc alması xalqın əldə etdiyn qələbənin dəyərini xeyli azaltdı. İran dövlətinin xariçi bankdan aldığı bu ilk borc İranın imperialist dövlətlərin maliyyə əsarətinə düşməsinin əsasını qoydu. Həmin pulu ödəmək üçün şah sarayı 1900-cü ildə Rusiyadan borc almalı oldu.

[328] RXSA, "İran stolu" fondu, iş 493, vər.62; "Baş arxiv Y-Az" fondu, iş 39, vər.205, 266.

[329] Bax: Л.В.Строева. Борьба иранского народа против английской табачной монополии в Иране в 1891-1892 гг., - «Проблемы истории национального-освободительного движения в странах Азии». Издательство Ленинградского Университета, 1963, səh.166-168.

Tənbəki inhisarına qarşı mübarizə, bunda iştirak etmiş bütün sinif və təbəqələr üçün bir imtahan oldu, onlara fəal mübarizə yolu ilə öz tələblərinə nail olmaq imkanına inam yaratdı. Xüsusilə şəhər və kənd zəhmətkeşlərinin gözünün açılmasında, onların öz həqiqi siyasi düşmənlərini tanımağa başlamasında və gələcək mübarizələr üçün ilkin məktəb keçməsində "tənbəki üsyanı"nın ciddi əhəmiyyəti oldu.[330] İngilis alimi Eduard Braun haqlı olaraq İranda xalqın milli intibahının məhz tənbəki üsyanından başlandığını yazır.[331]

Talbotun tənbəki inhisarına qarşı xalq üsyanından sonra da Azərbaycanda bir sıra həyəcanlar, o cümlədən möhtəkirlərə qarşı çevrilmiş bir çox kəskin çıxışlar baş vermişdi.

Bəhs olunan dövrdə təbii fəlakətlərlə əlaqədar ölkədə ərzaq mallarının qiyməti vaxtaşırı qalxıb-enməkdə davam etmişdir. Kənd təsərrüfatı mallarının, xüsusilə taxıl möhtəkirliyi ilə məşğul olan ayrı-ayrı torpaq sahibləri, mülkədar-tacirlər, iri ruhanilər, habelə vali və hakimlər taxılın satış qiymətlərini süni surətdə artırmaq üçün müxtəlif bəhanələrdən istifadə edirdilər. Ayrı-ayrı rayonlarda taxıl alınıb-satılmasını inhisarlarına keçirmiş həmin möhtəkirlər öz torpaq sahələrindən götürdükləri məhsuldan əlavə, kənd əhalisindən məhsulu ən aşağı qiymətə almağa, şəhər əhalisinə isə olduqca baha qiymətə satmağa çalışırdılar. Yerlərdə dövləti təmsil edən vali və hakimlər möhtəkirliyin qarşısını almalı olduqları halda, özləri bu işə əlavə qazanc mənbəyi kimi baxırdılar. Hətta Azərbaycanda geniş torpaq sahələrinə malik olan vəliəhd Məhəmmədəli Mirzə də taxılın bahalanmasından istifadə stməkdən çəkinmirdi.[332] Bütün bunların nəticəsində ayrı-ayrı illərdə ölkənin müxtəlif şəhərlərində taxıl möhtəkirlərinə qarşı çıxışlar olmuşdur.

---

330 Bax: Ş. Tağıyeva. XIX əsrin sonu və XX əsrin əvvəllərində İran kəndlilərinin vəziyyəti, Bakı, 1969, səh.165-166.

331 Eduard Braun. Enqelab-e İran (*İran inqilabı*), Tehran, 1338/1959, səh.57

332 Bax: Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.142.

Baş verən həyəcan və çıxışlarda qadınlar da fəal iştirak etmişlər. Tütün və tənbəki inhisarına qarşı mübarizədə əldə silah iştirak etmiş çadralı qadınlar indi də ayağa qalxdılar.[333] Təbriz qadınlarının bu çıxışlarına Zeynəb adlı yoxsul bir qadın başçılıq edirdi. Bu fəaliyyətinə görə o, xalq arasında Zeynəb paşa və ya dehbaşı (onbaşı) Zeynəb kimi məşhur olmuşdur. Zeynəb paşa qadınları ətrafına toplayaraq süni aclıqlar zamanı Təbrizdə möhtəkirlərin taxıl anbarlarını üzə çıxarır, anbarları açaraq taxılı yoxsul əhali arasında paylayırdı. Həmin hadisələrin şahidi olmuş Kərim Tahirzadə Behzadın verdiyi məlumata görə Zeynəb paşanın iştirak etdiyi son həyəcan Nizamülüləmaya qarşı çevrilmişdi.[334] Bu dövrdə möhtəkirlərə qarşı həyəcanlar içərisində ən kəskinn olan həmin çıxış 1898-ci ilin təqribən avqust ayının sonu, sentyabrın əvvəllərində Təbrizdə baş vermişdi. Möhtəkirlərlə əlbir olan çörəkçilər şəhərin yoxsul əhalisinə olduqca baha satdıqları çörəyi keyfiyyətsiz bişirir, qiymətini artırmaqla kifayətlənməyərək, ona arpa və s. qatır,[335] alıcıları çəkidə aldadırdılar. Yoxsul qadınlar saatlarla çörək dükanlarının qarşısında dayanır, axşamadək çalışıb pul qazanan fəhlələr çörək tapa bilməyərək evə əliboş qayıtmalı olurdular. Taxılın bahalığından və çörəyin qıtlığından bezmiş əhali həyəcana gələrək bazarları bağlamışdı. Pişkar Əmire-Nizam əhalini boş vədlərlə sakitləşdirmək istəsə də, buna nail ola bilməmişdi. Həyəcanın ikinci günü əhali çörəkçilərə taxıl satmaq istəməyən ən iri möhtəkirlərdən birinin - Nizamülüləmanın evini mühasirəyə aldı. Atışma nəticəsində hər iki tərəfdən ölənlər oldu. Nizamülüləma, qardaşları və onlarla əlbir olan Mirzə Musa Siqqətülislam gecə ikən yol taparaq ailələrilə birlikdə evdən qaçdılar.

---

[333] Kərim Tahirzade Behzad. Qiyam-e Azərbaycan dər enqelab-e məşrutiyyət-e İran (*İran məşrutə inqilabında Azərbaycan üsyanı*), 1334/1955, səh.84-85

[334] Kərim Tahirzade Behzad. Qiyam-e Azərbaycan dər enqelab-e məşrutiyyət-e İran, səh. 85.

[335] 1898-ci ildə Təbrizdə son dərəcə aşağı keyfiyyətli çörək satılmasını həmin ildə burada olmuş xarici ölkə nümayəndələri də təsdiq odirlər. Bax: Averyanov-Şəkinski. səh.23.

Səhər camaat onların evini talan etdi.[336] Bu hadisədən sonra əhali nisbətən sakitləşsə də, inqilabadək taxıl və çörək möhtəkirlərinin fəaliyyətinin qarşısı alına bilməmişdi. Lakin xalq getdikcə daha aydın başa düşürdü ki, vəziyyəti dəyişmək üçün "özü çarə axtarmalıdır". [337]

Tənbəki üsyanından sonra Cənubi Azərbaycan kəndliləri də eyni passiv üsulla dövlət vergilərinin ağırlığına, vergi toplayan məmurların acgözlüyünə, torpaq zəbtinə və s. haqsızlıqlara qarşı mübarizəni davam etdirmişlər. Azərbaycan kəndlilərinin ən çox istifadə etdiyi mübarizə forması yenə də vergilərin ağırlığından şikayət etmək, maliyyatın ödənilməsindən kütləvi şəkildə boyun qaçırmaq, bəstə əyləşmək və s. idi.

Bütün bunlar göstərir ki, XX əsrin əvvəllərinə doğru Azərbaycan əyalətində vəziyyət gərgin olmuşdur. 1891-ci il "tənbəki üsyanı"na qədərki dövr üçün, çox zaman ayrı-ayrı şəxslərə qarşı çevrilmiş, ümumiyyətlə götürüldükdə ictimai mahiyyət kəsb etməmiş kortəbii çıxışlar səciyyəvi idisə, göstərilən üsyandan sonra ölkədə xarici kapitalın ağalığına, hakim feodal sinfi nümayəndələrinin özbaşınalığına, o cümlədən möhtəkirliyə qarşı bir sıra şüurlu çıxışlar dövrü başlanmışdı. Bunlar əsas etibarilə şəhər əhalisinin mübarizəsi olsa da, kəndliləri də müəyyən dərəcədə əhatə edirdi. Lakin faktlar göstərir ki, İran inqilabından əvvəl ölkədə kəndlilərin öz sinfi düşmənlərinə qarşı ictimai mahiyyətli və fəal çıxışları yox dərəcəsində idi. Onların mülkədar və feodallara, dövlət məmurlarına qarşı çıxışları, əsasən yuxarıda göstərdiyimiz passiv mübarizə üsulundan uzağa getmirdi. Bir çox hallarda kəndlilər dövlət məmurlarına, ya dövlət üsuli-idarəsinə qarşı "öz" feodalları ilə birlikdə çıxış edirdilər. Bəzən isə kəndlilər öz feodallarının başqa feodallarla toqquşmalarında, onların separatist çıxışlarında, hətta başqa kəndlilərin torpaqlarının zəbt olunmasında və ya həyəcanın yatırılmasında iştirak edirdilər. Belə faktlara

---

[336] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.140-142.
[337] Yenə orada, səh.143.

ölkənin bir çox yerlərində, xüsusilə köçmə təsərrüfatla məşğul olan maldar tayfalar arasında daha çox rast gəlmək olur ki, bu da əyalətdə kəndlilərin sinfi şüurunun hələ zəif olduğunu göstərir. Lakin bir sıra amillər, o cümlədən baş verən ümumi həyəcanlar, kəndlilər içərisində təbəqələşmənin və bununla əlaqədar kəsbkarlığın (o cümlədən xarici ölkələrə) artması və s. tədricən kəndlilərin də gözünü açırdı. 1891-ci ildə İranda ingilis kapitalistlərinə qarşı ümumxalq mübarizəsinin yüksəlişi dövründə kəndlilərin də imperializmə və satqın şah hakimiyyəti əleyhinə hərəkata qoşulması bunu bir daha sübut etdi.

# II BÖLMƏ

# CƏNUBİ AZƏRBAYCAN XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

## III Fəsil

## 1905-1911-ci İLLƏR İRAN İNQİLABININ CƏNUBİ AZƏRBAYCANDA GEDİŞİ

### 1. İRAN İNQİLABININ SOSİAL İQTİSADİ VƏ SİYASİ ZƏMİNİ İNQİLAB ƏRƏFƏSİNDƏ CƏNUBİ AZƏRBAYCANDA SİYASİ VƏZİYYƏT

XX əsrin əvvəllərində bir tərəfdən ölkənin iqtisadi vəziyyətinin ağırlaşması, şah sarayı və hökumətin milli mənafeyə zidd siyasəti, rüşvətxorluq və ədalətsizlik doğuran siyasi quruluşun çürüklüyü, digər tərəfdən, İran cəmiyyətinin qabaqcıl dairələrinin milli şüurunun inkişafı İranda sosial ziddiyyətlərin daha da kəskinləşməsinə səbəb oldu.

Özbaşınalıq üzərində qurulan feodal quruluşu mövcud istismar formalarını kənddə xüsusilə gücləndirirdi. Mülkədar və hökumət məmurlarının kəndlilər üzərindəki istibdadı getdikcə daha da şiddətlənərək kənd istehsalçılarının müflisləşməsini və onların içərisində kəsbkarlıq prosesini qüvvətləndirirdi. 1905-ci ildə İranın yalnız şimal-qərb rayonlarından 300 minə yaxın adam Rusiyaya qazanc dalınca getmişdi.[338]

Müflisləşib yurdunu tərk edərək qazanc məqsədilə ölkənin şəhər və kəndlərini gəzən kəndlilərin sayı xeyli çoxalmışdı. Lakin o dövrdə İranın sənaye cəhətdən zəif inkişaf etmiş şəhərləri azad fəhlə qüvvəsini işlə, İran kəndləri isə onları məşğuliyyət və dola-

---

[338] Н.К.Белова. Об отходничестве из северно-западного Ирана в конце XIX – начале XX в., журн. «Вопросы истории», № 10, səh.114.

nacaqla təmin edə bilmirdi. Bütün bunlar İran əhalisinin dilənçiləşməsinə, öz vəziyyətinə görə daim narazılar sırasında olub, hər hansı bir siyasi iğtişaşa asanlıqla qoşulan ən yoxsul şəhər əhalisinin sayının artmasına səbəb olurdu.

Ölkənin maliyyə vəziyyəti tamamilə pozulmuşdu. E.Braunun verdiyi məlumata görə XX əsrin əvvəllərində bir neçə il ərzində İranın illik dövlət büdcəsinin kəsiri 3 milyon tümən (600 min funt-sterlinq) təşkil edirdi.[339] Belə bir şəraitdə büdcənin böyük bir hissəsi məhsuldar məqsədlərə deyil, əsasən şah sarayına sərf olunurdu.

Yeni borclar da, dövlət xəzinəsinin vəziyyətini yaxşılaşdıra bilmədi. 1902-ci ildə İran Rusiyadan ikinci dəfə 10 mln. manat məbləğində borc almışdı ki, bu da faydasız xərclənmişdi. 1903-cü ilin may ayında Təbrizin baş müctəhidi bildirmişdi ki, İranda şaha və hökumətə qarşı narazılığa səbəb Rusiyadan alınan böyük məbləğli borcların ölkəyə və xalqa heç bir xeyir vermədən şah və saray xadimləri tərəfindən xərclənməsi olmuşdur.[340] Sonrakı üç il ərzində (1903-1905-ci illər) İran Rusiyadan girov-borc bankı vasitəsilə ümumi məbləği 4 mln. manat olan qısamüddətli borclar almış və bunun nəticəsində ölkə maliyyə cəhətdən daha da asılı vəziyyətə düşmüşdü.

XX əsrin əvvəllərində İran iqtisadi və siyasi cəhətdən İngiltərə və Rusiyadan asılı yarımmüstəmləkəyə çevrilmişdi. İran iqtisadiyyatının əsası olan kənd təsərrüfatı açıq-aşkar Avropa ölkələri, ilk növbədə Rusiya sənayesinin xammal mənbəyinə çevrilirdi.

Xarici şirkətlər, o cümlədən ingilis və rus ticarət şirkətləri Təbriz, Tehran, İsfahan, Yəzd, Məşhəd, Sultanabad və digər yerlərdə öz fəaliyyətini genişləndirirdi. Onlar, demək olar ki, yalnız xalça almaqla və əsasən toxuculuq sənayesi malları satmaqla məşğul idilər.

Ölkədə nəqliyyat şəbəkəsinin kifayət dərəcədə olmaması üzündən İranın iqtisadi inkişafı və vahid daxili bazarın yaranması

---

[339] Edward Browne. The Persian Revolution of 1905-1909. Cambridge, p.240 (Sonrakı səhifələrdə. E.Braun. 1905-1909-cu illər İran inqilabı, səh... yazılacaqdır).

[340] RXSA, "İranda missiya fondu", siy. 528 "b", iş 15, vər.16.

ləngiyirdi. Bununla belə, öz iqtisadi və strateji niyyətlərini rəhbər tutan çar hökuməti İngiltərə ilə rəqabəti nəzərə alaraq 1899-cu ildə şahı məcbur etdi ki, İranda dəmir yolları çəkilməsi haqqındakı öhdəliyi daha 10 il müddətinə uzatsın.

XX əsrin əvvəllərində bir neçə ilin qıtlıq keçməsi, bundan istifadə edən mülkədar və alverçilərin taxıl möhtəkirliyinə başlaması nəticəsində bir çox rayonlarda baş nerən aclıq iğtişaşları İranın daxili vəziyyətini daha da mürəkkəbləşdirmişdi. 1903-cü ildə belçikalı müşavirlər və onların başçısı tərəfindən gömrük tarifinin xarici kapital xeyrinə, daxili istehsalatçıların və milli burjuaziyanın isə zərərinə tərtib edilməsi xalqın səbrini tükəndirdi. İqtisadi xarakterli həyəcanlar Təbriz, Tehran, Məşhəd və İsfahan kimi bir sıra şəhərlərdə xarici təzyiqə, xüsusilə belçikalıların rəhbərlik etdiyi gömrük idarəsinə və baş nazir Əminüssultan başda olmaqla hökumətin yeritdiyi siyasətə qarşı kəskin çıxışlara çevrildi. Ölkədə vəziyyət daha da gərkinləşirdi. Tehranda rus diplomatik missiyasının 1905-ci il 25 noyabr tarixli 1 nömrəli icmalında İran paytaxtının vəziyyəti haqqında belə deyilirdi: "İran xəzinəsi bomboşdur, maaş verilmir, şəhərdə narazılıq hökm sürür. Ruhanilər yığıncaqlar düzəldib Atabəy Əzəmin (baş nazir Eynüddövlənin - red.) vəzifədən götürülməsini tələb edir, xaricilərə qarşı fəal təbliğat aparılır".[341]

Eyni zamanda iğtişaşların getdikcə daha aydın siyasi şəkil alması və xarakterinə görə adi çıxışlardan fərqləndiyi nəzərə çarpırdı.

İranda siyasi hərəkatın yetişməsinə, onun xarakterinə bilavasntə liberal burjua ideyaları təsir göstərirdi ki, bu da İran cəmiyyətinin yeni sinfinin - burjuaziya sinfinin formalaşması, İranda millətlərin təşəkkül tapması prosesnnin sürətlənməsi, milli şüurun oyanması ilə əlaqədar idi.

Burjuaziyanın bir tərəfdən daxili bazarın yaranması, xüsusi mülkiyyətin hüquqi cəhətdən təmin olunması uğrunda feodalizm

---

[341] RXSA, "İran stolu" fondu, iş 903, vər.200.

qaydalarına qarşı çıxması, digər tərəfdən xarici kapitala, hər şeydən əvvəl, onun İrandakı ingilis Şahənşah bankı və rus girov-borc bankı kimi alətlərinə qarşı mübarizə aparması bu proseslərin daha sürətlənməsinə təsir göstərən amillər idi.

İran burjuaziyası ticarət sahəsində və başqa müəssisələrdə onunla bərabər iştirak edən liberal mülkədarlarla birlikdə tezliklə ölkədə vahid daxili bazarın yaranmasını, xüsusi mülkiyyətin hüquqi cəhətdən təmin olunmasını və beləliklə, ticarət və sənaye fəaliyyəti üçün imkan yaradılmasını arzulayırdı. Buna görə də, onun məqsədlərinə maneçilik törədən feodalizm qaydalarının ləğvinə çalışırdı.

Milliyyətlərin təşəkkülü ilə əlaqədar olaraq ölkədə baş verən mühüm etnik proseslər də inqilabçı burjua əhvali-ruhiyyəsinin yayılmasına səbəb olurdu. Bu, hər şeydən əvvəl, İranın iki böyük xalqına - farslara və azərbaycanlılara aid idi. Bütün İranda yayılmış burjua ideologiyası ilə yanaşı, burjua millətçiliyi ideyaları da yaranır və İranın əsasən iqtisadi cəhətdən daha çox inkişaf etmiş vilayətində -bilavasitə qonşu Rusiyanın demokratik ideyalarının daha çox təsir etdiyi Cənubi Azərbaycanda formalaşırdı.

İran ictimaiyyətinin (əsasən fars və azərbaycanlıların) ilk dövrdə öz xalqı içərisində maarifçiliyin təbliği və irticaçı rejimin tənqidi formasında ifadə olunan milli şüuru oyanmağa başlayırdı.

M.S.İvanovun qeyd etdiyi kimi, oyanmaqda olan milli şüurun səciyyəvi xüsusiyyəti onun "dini ideologiya ilə sıx bağlılığında idi ki, bu da ölkənin sosial-iqtisadi geriliyinin nəticəsi olub ictimai şüurun inkişafının aşağı səviyyədə durduğunu göstərirdi".[342]

Yaranmaqda olan yeni burjua məfkurəsi bir sıra maarifçi və gizli siyasi təşkilatların fəaliyyətinin ideya qayəsini təşkil edirdi. Hələ XIX əsrin axırlarında Tehranda və başqa şəhərlərdə vətənpərvər ziyalılar tərəfindən yaradılmağa başlanan siyasi təşkilatların sayı az və daxili şəraitdən asılı olaraq fəaliyyət dairəsi məhdud

---

[342] Национальные процессы в странах Ближнего и Среднего Востока. М., 1980, səh.97.

idi. Bunlara nisbətən maarifçi təşkilatlar (məsələn, ilk təşkilatlardan olan "Əncüməne-maarif") daha geniş iş aparır və eyni zamanda siyasi təşkilatların fəaliyyətinə yardım göstərirdilər.

Bu təşkilatlar ölkədə mütləqiyyət, istibdad əleyhinə mübarizəyə çağırır, mütləq monarxiyanın məhdudlaşdırılması, qanunverici orqan yaradılması, ədalətli idarə üsulunun bərqərar olunması və digər məqsədlər uğrunda çıxış edirdilər. Bu gizli təşkilatlar "Həblülmətin", "Sürəyya" və başqa mühacir İran qəzetlərində müraciət və məqalələr dərc etdirir, ölkənin geriliyi, mütləqiyyətin bəlaları, İranın ictimai-siyasi və mədəni inkişafı haqqında vərəqələr yayırdılar.[343] İranın digər şəhərlərində də maarifçi və siyasi təşkilatlar yaranmışdı.

1905-ci ilin dekabrında başlanan inqilabın hazırlanması və rəhbərliyində inqilab ərəfəsində təşkil edilən "İnqilabi komitə" və "Əncüməne-məxfi"nin ("Gizli əncümən"in) böyük rolu olmuşdur.

1904-cü ildə Tehranda iri torpaq sahiblərindən, ticarət-sələmçi dairələrindən, ruhanilərdən tutmuş xırda sənətkarlara qədər müxtəlif sinif və təbəqələrdən çıxan 60-a yaxın inqilabçı ziyalı nümayəndələrin yığıncağı keçirildi. Onlar əsasən iki cəbhəyə - demokrat və liberallar cəbhəsinə ayrılsalar da, mövcud quruluşa qarşı və konstitusiyalı hakimiyyət uğrunda mübarizədə müştərək məqsəd güdürdülər.[344] İclasda ölkənin və xalqın vəziyyəti, siyasi hərəkatın genişləndirilməsi və düzgün istiqamətləndirilməsi müfəssəl müzakirə olundu. "İnqilabi komitə adlanan seçilmiş rəhbər orqana cəmi doqquz nəfər - Məlikülmütəkəllimin, Seyid Camaləddin İsfəhani, Məhəmməd Rza Müsavat, Mirzə Möhsün və başqaları daxil idi. İclas 18 bənddən ibarət proqram-layihə qəbul etdi. Bu proqram İranın mütərəqqi və demokratik qüvvələrinə mütlə-

---

[343] Bu təşkilatın fəaliyyəti haqqında ətraflı bax: T.İbrahimov (Şahin). İranda siyasi cəmiyyət və təşkilatların yaranması və onların fəaliyyəti (1858-1906), Bakı, 1967, səh.101-106.

[344] Yenə orada, səh.134.

qiyyətin məhvi və onun yerində "Ədalət və azadlıq binası" qurulması üçün ictimai və siyasi ziddiyətlərdən istifadə etmək yollarını öyrədirdi.[345]

1905-ci ilin fevralında digər siyasi cəmiyyət – "Əncüməne-məxfi" təşkil olundu. Bu təşkilat Tehranın böyük müctəhidlərindən Seyid Məhəmməd Təbatəbai başda olmaqla ruhanilər qrupu tərəfindən yaradılmışdı. Təşkilatın ilk yığınçağı gizli olaraq Nazimülislam Kermaninin mənzilində çağırılmışdı. İnqilab ərəfəsində yaranan bu təşkilat sürətlə genişlənirdi, onun üzvləri, hər biri təqribən 30 nəfərdən ibarət özək-dərnəklərdə birləşirdi. Təşkilatın üzvləri içərisində ruhanilərdən başqa mülkədar və burjua nümayəndələri də var idi.[346]

"Əncüməne-məxfi"nin məram və məqsədi köhnə siyasi quruluşun devrilməsi, konstitusiyalı hakimiyyət yaradılması və burjua azadlıqlarının təmin olunmasından ibarət idi. Öz siyasi-təbliğati fəaliyyətində "Əncüməne-məxfi" İranın müstəqil iqtisadi inkişafı və xüsusilə onun milli sənayesinin inkişafı məsələlərinə xüsusi yer verirdi. Təşkilat mütləqiyyətə qarşı mübarizədə ölkədə böyük nüfuza malik olan ruhanilərin gücündən istifadə edirdi. Bununla belə, əncümənin qəbul etdiyi proqram və nizamnamə onun siyasi məqsədlərinin məhdudluğunu və sosial mənsubiyyəti ilə əlaqədar olaraq, dini xurafatın təsiri altında olmasını göstərirdi.[347]

Beləliklə, İranın maarifçi və siyasi təşkilatları inqilabi hərəkatın ideya cəhətdən hazırlanmasında mühüm rol oynayırdılar.

İnqilab ərəfəsində İranda həyəcan və çıxışlar daha da kəskinləşdi. 1905-ci ildə Rusiyada başlanan və qonşu İranın siyasi mühitinə bilavasitə təsir göstərən inqilabi hadisələr ölkədə həyəcan və çıxışların siyasi kəskinliyinin artmasını gücləndirdi, inqilabın başlanmasına təkan verdi.

Birinci Rusiya inqilabının Şərq ölkələrinə, o cümlədən İrana təsiri o qədər güclü və bariz idi ki, bunu çar Rusiyasının İrandakı

---

[345] Yenə orada, səh.137.

[346] Yenə orada, səh.137.

[347] T.İbrahimov (Şahin). İranda siyasi cəmiyyət və təşkilatların yaranması və onların fəaliyyəti (1858-1906), Bakı, 1967, səh. 144

rəsmi nümayəndələri belə görməyə bilmirdilər. Məsələn, rus diplomatik missiyasının Tehrandakı nümayəndəsi A.S.Somov 1905-ci il 18 noyabr tarixli məlumatında bu cəhəti qeyd edərək yazırdı: “Beləliklə, Rusiyadakı hadisələrin əks-sədası, Türkiyəyə rəğbət (1908-1909-cu illər gənc türklər inqilabı ərəfəsində inqilabi əhvali-ruhiyyə nəzərdə tutulur – red.), İngiltərənin ehtiyatsız təhrikləri, daxili vəziyyətdən narazılıq... İranda dərin və şiddətli qəzəb oyanmasına səbəb olmuşdur”.[348]

Bu hərəkat İran əhalisinin mövcud vəziyyətin dəyişdirilməsinə can atan müxtəlif təbəqələrinin məqsədlərini müəyyənləşdirdi. Yeni yaranmış burjuaziyanın məqsədi onun qarşısına çıxan maneələri yox etmək, qanunverici orqan yaratmaq, əmlakın qorunması haqqında qanun əldə etmək idi. Öz torpaq mülkiyyətini möhkəmləndirmək istəyən liberal mülkədarlar da onlarla birləşirdilər. Konstitusiya uğrunda hərəkatda fəal iştirak edən ruhanilərin bir hissəsi dünyəvi ideyaların İranda yayılması ilə zəifləyən nüfuzlarının möhkəmləndirilməsini, həmçinin öz vəqf mülkiyyətlərinin toxunulmazlığını istəyirdilər.

Əhalinin aşağı təbəqələri - əcnəbilərin rəqabətindən, milli sənaye istehsalının bazar qiymətlərinin sabit olmamasından zərər çəkən sənətkarlar, yenicə meydana gəlməyə başlayıb dözülməz əmək şəraitində çalışmağa məruz qalan fəhlələr, tacirlər silkinin ən çox iflasa uğrayan xırda alverçilər təbəqəsi, qeyri-məhdud dərəcədə istismar olunan kəndlilərin siyasi cəhətdən nisbətən çox inkişaf etmiş hissəsi (başlıca olaraq ölkənin şimal rayonlarında), habelə öz ictimai mövqeyinə görə onlara yaxın olan xırda ruhanilər “ədalətli quruluş”, “ədalətxana” yaradılmasını tələb edirdilər. Öz siyasi geriliyi və qeyri-mütəşəkkilliyi üzündən bu təbəqələrin çox vaxt aydın siyasi məqsədi olmasa da, onlar zülm və ədalətsizliyə qarşı mübarizə aparırdılar.

1905-1911-ci illərdə antifeodal, antiimperialist burjua inqilabı ərəfəsində ölkədə sosial ziddiyyətlərin kəskinləşdiyi bir dövrdə İranda ictimai qüvvələrin vəziyyəti belə idi. Bütün İrana xas olan

---

[348] RXSA, “İran stolu” fondu, iş 903, vər.195.

bu siyasi vəziyyət Cənubi Azərbaycanda da eyni dərəcədə, bəlkə daha gərgin şəkildə idi.

İnqilab ərəfəsində gizli siyasi qruplarda toplanan mütərəqqi ziyalılar Azərbaycanda mürtəce feodalizm qaydalarına, imperialist dövlətlərin təcavüzlərinə qarşı burjuaziyanın, ümumiyyətlə, xalq kütlələrinin mübarizəsini və çıxışlarını birləşdirməyə və genişləndirməyə çalışırdılar.

Təbrizdə də gizli, siyasi yığıncaqların fəaliyyət göstərməsi yeni maarif, mədəniyyət ocaqlarının yaranması və inkişafı ilə sıx surətdə bağlı idi. O zaman qəzet redaktorları və yeni tipli, üsulicədid məktəblərinin baniləri mürtəce ruhanilər tərəfindən babi, dinsiz adlandırılıb hər cür təzyiqə məruz qalsalar da, vətənpərvər ziyalılar həmin yeni maarif və mədəniyyət mərkəzləri ətrafında toplanır və gizli fəaliyyətlərini davam etdirirdilər. XIX əsrin son illərində Təbrizdə bir neçə gizli siyasi qrup təşkil olunur (onların xüsusi adları olmamışdır).

1897-ci ildə Təbrizin görkəmli ziyalılarından Seyid Hüseyn xan Ədalətin redaktorluğu ilə "Əlhədid" adlı qəzet nəşr edilməyə başlayır. Seyid Həsən Tağızadə, Seyid Həsən Şərifzadə, Seyid Məhəmməd Əbülziya, Əliqulu Səfərov, Məhəmmədəli Tərbiyyət "Əlhədid" qəzetinin redaktoru S.H.Ədalətin evində (qəzetin redaksiyası uzaqda yerləşirdi), gizli toplanaraq yığıncaqlar keçirirdilər.[349] Şərti olaraq birinci gizli siyasi qrup adlandırdığımız bu dəstənin hazırladığı "Əlhədid" qəzetinin yalnız üç nömrəsi çapdan çıxmışdır. "Əlhədid"in nəşri dayandırıldıqdan sonra siyasi qrupun digər üzvü Əliqulu Səfərov 1898-ci il iyunun 6-dan etibarən "Ehtiyac" adlı qəzetin bir neçə nömrəsini nəşr etdirmişdir.[350] Qəzetin birinci nömrəsi "Bu qəzet sənaye, ticarət və digər faydalı, milli məsələlərdən bəhs edəcəkdir"[351] başlığı altında çıxmışdır. Qəzetin səhifələrində ölkədə hökm sürən irtica tənqid olunur, mil-

---

[349] Mehdi Moctəhedi. Tarix-e zendeqani-ye Təqizade (*Tağızadənin həyat tarixi*), Tehran, 1322/1943

[350] "Ehtiyac" qəzeti, Təbriz, 13 səfər 1316/3 iyul 1898, No15.

[351] Yenə orada.

li səneyenin inkişaf etdirilməsi və kütlələrin azadlığı uğrunda mübarizə tədbirlərinə geniş yer verilirdi. Elə buna görə də 7-ci nömrədən sonra qəzetin nəşri Məhəmmədəli Mirzənin göstərişi ilə dayandırıldı.

"Ehtiyac" qəzeti bağlandıqdan sonra Əliqulu Səfərov "İqbal" qəzetini nəşr etdirməyə başladı. Qəzetin birinci nömrəsi 1898-ci il avqustun 18-də çıxmışdır.[352] "İqbal" məzmun və məqsəd etibarilə "Ehtiyac" qəzetinin eyni və onun davamıdır. "İqbal"ın birinci nömrəsi demək olar ki, "Ehtiyac"ın 8-ci nömrəsi yerinə nəşr edilmişdir. İstər "Ehtiyac", istərsə də "İqbal" qəzeti səhifələri birinci gizli siyasi qrupun üzvlərinin qələmi ilə yazılaraq onların məqsədlərini kütlələrə çatdırmaq üçün istifadə edilmişdir.

Birinci gizli qrup öz fəaliyyətində qəzet nəşr etməkdən əlavə, 1899-cu ildə Təbrizdə "Tərbiyyət" adlı üsuli-cədid məktəbi təsis etdi. Qruiun üzvlərindən S.M.Əbülziya məktəbin müdiri, M.Tərbiyyət, S.H.Ədalət, S.H.Tağızadə və başqaları müəllimlər idilər.[353] Əhali tərəfindən hüsn-rəğbətlə qarşılanan məktəbə az müddət ərzində çoxlu şagird toplandı, lakin məktəbin ömrü uzun sürmədi. 1899-cu ilin axırlarında Təbrizin digər üsuli-cədid məktəbləri kimi "Tərbiyət" məktəbi də fitnəkar ruhanilərdən Seyid Məhəmməd Yəzdinin təhriki ilə bir qrup avam və mövhumatçı camaat tərəfindən dağıdıldı.[354]

XIX əsrin son illərində və XX əsrin başlanğıcında Təbrizdə digər bir gizli siyasi yığıncağa və onun fəaliyyətinə təsadüf olunur. Bu ikinci dəstənin görkəmli üzvlərindən Əli Müsyö, Hacı Rəsul Sədəqiyani, Cəfər ağa Gənceyi, Mirzə Ələsgər Xoyi və Ağa

---

[352] Məhəmməd Sədr Haşemi. Cərayed və məcəllat-e İran (*İranın mətbuat tarixi*), cild 1, Esfehan, 1327/1948, səh.222 (sonrakı səhifələrdə: S.M.Sədr Haşimi. İranın mətbuat tarixi, səh... yazılacaqdır).
[353] Hoseyn Omid. Tarix-e fərhəng-e Azərbaycan (*Azərbaycanın mədəniyyət tarixi*), cild 1, Təbriz, 1332/1953, səh.52 (Sonrakı səhifələrdə: Hüseyn Ümid. Azərbaycanın mədəniyyət tarixi, səh... yazılacaqdır).
[354] "Sürəyya" qəzeti, No24, 22 səfər 1317/2 iyul 1899.

Məhəmməd Salmasini göstərmək olar.[355] Əli Müsyö bir sıra xarici ölkələrdə, o cümlədən Rusiyada və Avropanın digər ölkələrində olmuş, bir müddət İstanbulda yaşamış mübariz və təcrübəli ziyalılardan biri idi. O, Fransa inqilabları tarixi ilə maraqlanır, öz danışıqlarında həmişə Fransa zəhmətkeşlərinin mübarizə tarixindən misallar gətirirdi.[356]

İkinci qrup öz fəaliyyətində köhnə quruluşun mahiyyətini, mütləqiyyət üsuli-idarəsinin yaramazlığını ifşa etməklə, kütlələri oyatmağa, onları demokratiya uğrunda mübarizəyə qaldırmağa çalışırdı. Bu qrupun fəaliyyətində gizli vərəqlər nəşr etmək daha mühüm yer tuturdu. Onlar ölkə daxilində və qonşu ölkələrdə baş verən hər hansı mühüm bir ictimai və siyasi hadisəni kütlələrin mənafeyi nöqteyi-nəzərindən izah edir, onu yazılı şəkildə, vərəqələr vasitəsilə əhaliyə çatdırırdılar.

İkinci qrupun ən mühüm işlərindən biri Rusiya sosial-demokrat fəhlə partiyasının Qafqaz təşkilatları ilə əlaqəyə girməsi idi. Bu əlaqənin əsas vasitəçisi Culfa gömrük idarəsi qulluqçularından olan Baxşəli ağa adlı bir ziyalı idi. Qafqaz inqilabçılarının yaydıqları siyasi inqilabi vərəqələr, müraciətnamələr bu siyasi qrupa on

un vasitəsilə göndərilirdi.[357]

İkinci qrupun RSDFP-nin Qafqaz təşkilatı, xüsusilə partiyanın Bakı Komitəsi ilə əlaqəsi, inqilabi vərəqələrin Təbrizdə və İranın digər şəhərlərində yayılmasını gizli şəkildə həyata keçirməsi kütlələrin oyanmasında mühüm rol oynayırdı. Hərəkatın iştirakçısı İsmayıl Əmirxizi də öz tərcümeyi-halında göstərir ki, Rusiyadan gətirilən siyasi vərəqə və bəyannamələrin bir neçəsi Hacı Mehdi Kuzəkunani vasitəsilə onun əlinə keçmişdir, ona böyük təsiri olmuşdur.[358]

---

355 Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.151.
356 K.Tahirzadə. Azərbaycan üsyanı, səh.452.
357 Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.151.
358 Bax: K.Tahirzadə. Azərbaycan üsyanı, səh.428.

XIX əsrin son illərində Təbrizdə "İslamiyyə əncüməni" adlanan üçüncü mübariz bir qrup yaranır ki, onun üzvlərinin əksəriyyətini ikinci, üçüncü dərəcəli ruhanilər təşkil edirdi. Bu qrup Məhəmmədəli Mirzənin və ümumiyyətlə mütləqiyyətin zülmündən, irticaçı, acgöz ruhanilərin riyakarlığından, xalqın və ölkənin mənafeyini xaricilərə satmasından olduqca narazı idi. "İslamiyyə əncüməni" rövzəxanlıq və ya matəm məclisləri adı ilə yığışaraq, ictimai və siyasi məsələlər ətrafında müzakirələr aparırdı.[359] Kərim Tahirzadə həmin yığıncaqların 1898-ci ildən (hicri-qəməri 1316) toplandığını yazır.[360] Hacı Mirzə Əbülhəsən Çaykənari, Şeyx İsmayıl Həştrudi, Hacı Mirzə Ələkbər Mücahid, Şeyx Səlim, Mirzə Hüseyn Vaiz, Mirzə Cavad Nasehzadə bu siyasi qrupun fəal üzvləri idilər.[361]

Bu gizli qrup öz yığıncaqlarında xarici kapitalın təzyiqi, İranın xammal mənbəyinə, satış bazarına çevrilməsi, milli sənayenin taleyi, yerli istehsalçıların iflasa uğraması və s. haqqında danışır, İran məhsullarının satılması uğrunda təbliğat aparırdı.

Təbrizin siyasi cəmiyyət və qruplarının, ümumiyyətlə, əhalinin hər hansı bir etirazı və çıxışı mütləqiyyət məmurlarının təqiblərinə məruz qalırdı. Siyasi quruluşun mahiyyətindən bəhs edən qəzetlər bağlanır, yazıçılara divan tutulur, üsuli-cədid məktəbləri dağıdılırdı. Azərbaycanın maarifpərvər, azadlıqsevən mübariz ziyalıları təqiblərə və hücumlara qarşı çıxır, kütlələrin siyasi mübarizəyə cəlb edilməsi, onların birləşdirilməsi və güclü demokratik qüvvəyə çevrilməsi yolunda müxtəlif vasitələrdən istifadə edirdilər.

1900-cü ildə Təbrizin maarifpərvər ziyalılarından ibarət bir dəstə toplanaraq "Azərbaycan maarif əncüməni"ni təşkil etdilər. Bu əncümənə Təbrizdə mövcud olan üsuli-cədid məktəblərinin görkəmli müdir və müəllimlərindən Seyid Hüseyn Müstəşari, Ha-

---

[359]Bax: Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.152.
[360] K.Tahirzadə. Azərbaycan üsyanı, səh.48.
[361] Ə.Kəsrəvi . İranın konstitusiya tarixi, səh.152.

cı Axund, İbrahim Şəmsavəri, Hacı Mirzə Əhməd Müdərris, Mirzə Əbdüləli Zeyni, Mirzə Hüseyn xan Kamal, Mirzəli Rüşdi, Mirzə Rza Tərbiyyət, Mirzəli xan Pezeşki və başqaları daxil idilər. Siyasi mübarizə məqsədilə maarif və mədəniyyət ocaqlarından istifadə etməyə çalışan gizli cəmiyyətlərin təşkilatçılarından Əli Müsyö, Seyid Hüseyn xan Ədalət, S.H.Şərifzadə, S.H. Tağızadə, S.M.Əbülziya, Məhəmmədəli Tərbiyyət, Mirzə Hüseyn Vaiz, Mirzə Cavad Natiq, Həkkakbaşı Hacı Rəhim Badkubəçi, Hacı İsmayıl Həriri, Hacı Məhəmməd Həriri, Kazımzadə, Hacı Əliəkbər Əhrabi, Hacı Əli Davafruş kimi inqilabçı ziyalılar bu əncüməndə iştirak edirdilər.[362]

Gizli siyasi cəmiyyət və qrupların təşkilatçılarına maarif-mədəniyyət ocaqlarının, xüsusilə "Azərbaycan maarif əncüməni"nin üzvü olmaq, demokratik fikirləri yaymaqda bu kimi açıq yığıncaqlardan istifadə etmək əlverişli idi. "Azərbaycan maarif əncüməni" zadəgan ziyalılara mənsub olan Loğmanülməmalikin başçılığı ilə yaradılmışdı. Uzun illər Avropada təhsil almış, orada yaşamış Loğmanülməmalik sarayın xüsusi həkimlərindən olsa da, burjua azadlığının və konstitusiyalı üsuli-idarənin tərəfdarlarından idi. O, hələ 1899-cu ildə Təbrizdə "Loğmaniyyə" adlı tibb məktəbi yaratmış, fransız alimi Hanri Ronardla birlikdə həmin məktəbdən mütərəqqi fikirlərin yayılması məqsədilə istifadə etmişdi.[363] Təbriz tibb məktəbinin direktor müavini, İranın görkəmli demokrat şairi Ədibülməmalikin 1900-cü ildə həmin məktəbin nəzdində yaratdığı "Ədəbi əncümən"in və bu əncümənin nəşr etdirdiyi "Ədəb" qəzetinin mütərəqqi ictimai fikirlərin yayılmasında böyük rolu var idi.[364] Gizli siyasi cəmiyyətlərin, qrupların təşkilatçıları və üzvləri bu əncümələndən də açıq yığıncaqlar üçün istifadə edirdilər.

XX əsrin ilk illərində sarayın xarici dövlətlərdəi aldığı borclar, bu borcların səmərəsiz xərclənməsi, xaricilərlə qeyri-bərabər

---

[362] Bax: Hüseyn Ümid. Azərbaycanın mədəniyyət tarixi, I cild, səh.86.
[363] Rene Qruste. Asiyanın oyanması. İngilis imperializmi və xalqların qiyamı (tərcümə), Bakı, 1928, səh.77 (əski əlifbada).
[364] Hüseyn Ümid. Azərbaycanın mədəniyyət tarixi, II cild, səh.68.

müqavilələrin bağlanması bütün ölkədə olduğu kimi, Azərbaycanda da narazılıq və etirazı artırdı.

Yeni gömrük tarifi sistemi ilə İran iqtisadiyyatına vurulan ağır zərbə Təbrizdə və Azərbaycanın digər şəhərlərində şiddətli həyəcana səbəb oldu. 1903-cü ildə Cənubi Azərbaycanın Təbriz, Zəncan, Ərdəbil şəhərləri narazılıq mərkəzinə çevrilmişdi.[365] Azərbaycanda mütləqiyyətə, xüsusilə onun baş naziri Əminüssultana, hökumətin xarici mallarının İrana maneəsiz olaraq axmasına şərait yaradan yeni gömrük sazişləri bağlanmasına qarşı mübarizə gücləndi. 1903-cü ildə Əminüssultan Atabəy Nəcəf ruhaniləri tərəfindən kafir - dinsiz elan edildikdə[366] Nəcəf ruhanilərinin göndərdiyi yazılı vərəqələr Təbrizin gizli siyasi cəmiyyətləri, xüsusilə üçüncü gizli cəmiyyət tərəfindən şəhərin hər tərəfinə yayıldı. Gizli siyasi cəmiyyətlərə mənsub olan vaizlər və natiqlər mütləqiyyətin təqib etdiyi siyasətdən törənəcək daha ağır fəlakətlərn əhali içərisində şərh etməyə, ölkəni dəhşətli vəziyyətdən xilas etmək üçün yollar axtarmağa çağırırdılar.

1903-cü ilin iyul ayında Təbrizdə belçikalı gömrükçülərə, ümumiyyətlə, İranın dövlət idarələrində qulluğa götürülmüş xaricilərə qarşı etiraz gücləndi, bütün bazar və dükanlar bağlandı, əhali məscidlərə toplanaraq, gömruk rəisi Primin Təbrizdən, bütün belçikalı müşavirlərin və onlara mənsub olan qulluqçuların isə İrandan qovulmasını tələb etdilər.[367] Təbriz ruhanilərindən böyük bir dəstə də tətilçilərə qoşuldu. Onlar meyxanaların, mehmanxanaların və üsuli-cədid məktəblərinin bağlanmasını da tələbələrə əlavə etdilər. Vəliəhd Məhəmmədəli Mirzə məscid yığıncaqlarına yazılı surətdə bildirdi: “Cənab Primi şəhərdən çıxartdım, meyxanaların, mehmanxanaların və üsuli-cədid məktəblərinin bağlanmasına da göstəriş verdim”.[368]

---

[365] Tiqranov, səh.68.

[366] Mahmud Mahmud. Tarix-e rəvabet-e İran və Engilis dər qərn-e nuzdəhom-e miladi (*XIX əsrdə İran-İngiltərə münasibətləri tarixi*), cild 7, 1331/1952, Tehran, səh.214

[367] Ə. Kəsrəvi. İranın konstitusiyası tarixi, səh.31

[368] Ə. Kəsrəvi. İranın konstitusiyası tarixi, səh.31

Vəliəhdin yazısına etina etməyən həyəcanlanmış əhali, o cümlədən çoxlu dini məktəb tələbəsi küçələrə nümayişə çıxdılar. Gizli siyasi cəmiyyətlərin iştirakı ilə başlanmış etiraz yığıncaqları küçə nümayişlərinə çevrildikdə xurafatçı mollalar bundan öz mürtəce məqsədləri üçün istifadə etdilər. Onların təhrikilə şəhərdə olan meyxanalar, mehmanxanalar, həmçinin üsuli-cədid məktəbləri dağıdıldı.

Bu hadisədən sonra bəhs olunan siyasi cəmiyyətlər və qruplar öz təşkilatlarını möhkəmləndirmək, vahid, mütəşəkkil siyasi bir partiyada birləşmək zərurətini nəzərə alaraq bu mühüm vəzifəni həyata keçirmək üçün təşəbbüsə başladılar.

Azərbaycan gömrük idarələrinin rəisi Prim xalqın tələbi ilə Təbrizin 12 kilometrliyində yerləşən Basmınc qəsəbəsinə göndərilmişdi. Lakin avqust ayının əvvəllərində şəhərdə sakitlik yarandıqdan sonra Prim şəhərə qaytarıldı, etiraz nümayişlərində iştirak edənlər içərisindən 150 nəfərə qədər ruhani, tacir, sənətkar və dini məktəb tələbəsi Azərbaycanın ucqar rayonlarına sürgün edildi.[369]

Vəliəhd Məhəmmədəli Mirzənin irticaçı tədbirləri xalq kütlələrinin mübarizəsinə son qoya bilmədi. Mütləqiyyətə, onun baş naziri Əminüssultan Atabəyə və belçikalılara qarşı Təbrizdə başlanmış etiraz çıxışları Tehran, İsfahan, Yəzd, Şiraz, Buşehr, Məşhəd, Rəşt və s. şəhərləri də bürüdükdə saray 1903-cü ilin sentyabrında Əminüssultan Atabəyi hakimiyyətdən kənar etməyə məcbur oldu. Qacarlar sülaləsinin nümayəndəsi Eynüddövlə baş nazir təyin edildi. Bu dəyişiklik ölkənin və xalqın vəziyyətində heç bir yenilik yarada bilmədi. Gömrük müqavilələri ləğv edilmədi, ərzaq mallarının bahalığı, işsizlik, amansız istismar, zülm, qarət və s. olduğu kimi qaldı. Bütün bunlar bir daha göstərdi ki, ölkənin, əhalinin ehtiyaclarını ödəyə bilməyən, heç bir sosial, iqtisadi islahata qadir olmayan, ölkənin inkişafı və istiqlaliyyəti yolunda böyük maneəyə çevrilən köhnə quruluş və onun mütləqiyyət üsuli-idarəsinin dağıdılması, yeni, mütərəqqi üsuli-idarənin yaradıl-

---

369 Ə.Kəsrəvi. İranın konstitusiyası tarixi, səh.31

ması mübariz və demokratik qüvvələr qarşısında duran zəruri məsələdir. Məhz buna görə də 1904-cü ilin əvvəllərindən Təbrizin gizli siyasi cəmiyyət və qrupları vahid təşkilatda birləşmək məqsədilə "İctimaiyyun-amiy- yun" (Sosial-demokrat) adı altında bir proqram tərtib etdilər.[370] Yığıncağın seçdiyi heyətə Hacəli Davafruş, Hacı Rəsul Sədəqiyani, Məhəmmədəli Tərbiyyət, Mirzə Əbdülhəsən xan, Mir Çəlil. Mirəbülhəsən Mirab, Ağa Rəsul, Mürtəzəvi, Seyid Hüseyn xan Ədalət və Əli Müsyö daxil oldular. Aşağı təşkilatlar və şöbələrin yaradılmasına başlandı. Əli Müsyö rəyasət heyətilə təşkilat arasında vasitəçi nümayəndə təyin edildi.[371] Bu heyət və ya yığıncaq Təbrizdə "İctimaiyyun-amiyyun" (Sosial-demokrat) təşkilatının yaradılması sahəsində ilk təşəbbüs hesab olunmalıdır. Lakin bu təşəbbüsdən gözlənilən nəticə əldə edilmədi, yəni Təbrizin gizli siyasi cəmiyyətlərini birləşdirmək mümkün olmadı.

Əhali içərisində narazılıq isə davam etməkdə idi. 1905-ci ildə xalq içərisində həyəcanlar daha da artaraq az qala bütün İranı bürümüşdü. Bir çox şəhərlərdə, o cümlədən Təbrizdə və Həmədanda çıxışlar baş verirdi.[372]

Bütün bunlar İranda, o cümlədən Azərbaycanda inqilabın başlanması üçün şərait yaradan obyektiv səbəblər idi.

## 2. 1905-1911-ci İLLƏR İRAN İNQİLABININ BAŞLANMASI

1905-ci ildə xaricdən gətirilən malların, xüsusilə qəndin qiyməti bahalanmışdı. Baş nazir Eynüddövlə demokratik qüvvələrə qoşulmuş tacirləri, ruhaniləri və ümumiyyətlə əhalini qorxutmaq, onları inqilabi hərəkatdan uzaqlaşdırmaq məqsədilə qəndin bahalanmasını bəhanə edərək, dekabrın 12-də Tehranda 17 taciri həbs

---

[370] Bax: K.Tahirzadə. Azərbaycan üsyanı, səh.48.

[371] K.Tahirzadə. Azərbaycan üsyanı, səh. 43.

[372] М.С.Иванов. Иранская революция 1905-1911 годов, səh.64.

etdirdi və təhqiramiz şəkildə döydürdü.[373] Bu hadisə tacirlərin, alverçi və ruhanilərin həyəcanına səbəb oldu. Bütün bazar tətil etdi. Milli burjuaziya nümayəndələri, xırda burjuaziya və sənətkarlar - minlərlə adam ruhanilərin evlərinə toplaşaraq hökumətə qarşı etiraz yığıncaqları təşkil etdilər.[374] Bununla da inqilab başlanmış oldu. Etiraz yığıncaqlarının, ümumiyyətlə, inqilabın ilk dövründə çıxışların hazırlanmasında, hərəkatın idarə edilməsində İnqilab Komitəsinin, "Əncümənе-məxfi"nin mühüm təşkilatçılıq rolu var idi.

1905-ci il dekabrın 13-də Seyid Abdulla Behbəhani və Seyid Məhəmməd Təbatəbainin başçılığı ilə Şah məscidində yığıncaq keçirilməsinə mürtəce ruhanilər mane olduqda, dekabrın 14-də Tehranın mütərəqqi ruhanilərindən bir qrup başda olmaqla, yüzlərlə dini məktəb tələbəsi, minlərlə bazar əhli etiraz əlaməti olaraq Şahəbdüləzimdə bəstə oturmaq məqsədilə Tehranı tərk etdilər. Hökumətin silahlı qüvvələrininmaneçiliyinə baxmayaraq, əhali dəstə-dəstə Şahəbdüləzimə gedib, bəstə oturanlara qoşulurdu.[375]

İnqilab komitəsi (İK) bəstə oturanlarla sıx əlaqə saxlamaq, onların zəruri ehtiyaclarını ödəmək, onlarda mübarizə ruhunu yüksəltmək məqsədilə özünün bacarıqlı üzvlərindən Seyid Məhəmməd Rza Müsavat, Cəlalülməmalik İrəc Mirzə, Əbdülxaliq Givəçi, Səhafbaşı, Muinnizam, Ağa Məhəmməd Hüseyn Tacir (Xəyyat), Mirzə Möhsün, Seyid Əbdülvahab və təşkilatın başçılarından Seyid Cəmaləddin İsfahanini bəstə oturanlar sırasına daxil etmişdi. "Əncümənе-Məxfi"nin üzvlərindən Şeyx Məhəmməd Vaiz Şahəbdüləzimdə təşkil olunan yığıncaqlarda azadlıq və bərabərlik haqqında nitq söyləyir, kütlələri ölkədə hökm sürən hüquqsuzluğa qarşı mübarizəyə çağırırdı.[376]

---

[373] Ə. Kəsrəvi. İranın konstitusiya tarixi, səh.58.

[374] Mehdi Məlikzade. Tarix-e enqelab-e məşrutiyyət-e İran (*İran məşrutə inqilabı tarixi*), cild 2, Tehran, 1329/1950, səh.50 (Sonrakı səhifələrdə: M.Məlikzadə. Tarixe-inqilab, 2-ci cild, səh... yazılacaqdır.)

[375] M.Məlikzadə. Tarixe-inqilab, 2-ci cild, səh.48

[376] Yenə orada, səh.52. Bəst günlərində Şahəbdüləzimin əhalisi, bəstə oturanlar və bundan əlavə, cümə günləri Tehrandan oraya gedən yüzlərlə və minlərlə əhali toplanaraq, orada mitinq təşkil edirdilər.

Eynüddövlənin Şahəbdüləzimə göndərdiyi silahlı qüvvələrin başçısı Əmir Bahadır yalan vədlərlə ruhaniləri bəstdən çıxarmaq, çoxunu sürgünə göndərmək və bəzilərinə divan tutmaq əmrini icra etməli idi. Bəstçilər "Əncüməne-Məxfi" vasitəsilə bu fitnəkarlıqdan xəbər tutdular və bəsti tərk etmədilər. İK hadisənin qanlı toqquşma ilə nəticələnəcəyini Tehrandakı Osmanlı səfirir vasitəsilə şaha çatdırdıqda Əmir Bahadır saray tərəfindən geri çağrıldı.[377]

Baş nazir Eynüddövlə bəsti dağıtmaq, hərəkat başçılarını pərakəndə salmaq üçün müxtəlif hiylələrə əl atdı. Hərəkat başçılarının mətanəti bütün bu fırıldaqları boşa çıxardı, mütləqiyyət bəstçilər qarşısında güzəştə getməyə, onların bir sıra tələblərini qəbul etməyə məcbur oldu.

Hərəkat başçılarının hökumətə verdikləri 8 maddəlik tələbnamədə ruhani silkinin mənafeyini müdafiə edən maddələrdən əlavə, ümumxalq tələblərini əks etdirən bir neçə maddə qoyulmuşdu: "İranın hər tərəfində ədalətxana təsis edilsin";

Belçikalı Naus gömrük və maliyyə işlərindən kənar edilsin"; "Əlaüddövlə Tehran valiliyindən götürülsün".[378]

1906-cı il yanvarın 10-da tələblər saray tərəfindən qəbul olundu. Şahın verdiyi fərmanda deyilirdi ki, bütün vətəndaşlar qanun qarşısında bərabər olacaq, "ədalətxana" təsis ediləcəkdir. Bununla yanaşı, Əlaüddövlə və Kerman valisi də vəzifədən kənar edildilər. Çoxişlənən malların qiymətini sabitləşdirmək məqsədilə Tehran əhalisi tərəfindən seçilmiş bir şura yaradılacağı da vəd edildi.

Yanvarın 12-də bəstçiləri təntənə ilə şəhərə qaytardılar. Ruhanilər şah və baş nazir tərəfindən təmtəraqla qəbul olundular. Xalq bütün bunları ölkədə konstitusiya verilməsi kimi qəbul etdi.[379] Sonrakı hadisələr göstərdi ki, şah və baş nazirin verdiyi vədlər kütlələri sakitləşdirməkdən başqa bir məqsəd daşımırdı.

---

[377] M.Məlikzadə. Tarixe-inqilab, 2-ci cild, səh.55

[378] Ə.Kəsrəvi, İranın konstitusiya tarixi, səh.67.

[379] Bax: М.С.Иванов. Иранская революция 1905-1911 годов, стр.71; "Həblülmətin" qəzeti, 11 may 1906-cı il, No 35.

1906-cı il yanvar ayının axırında İK-nın başçılarından Seyid Camaləddin İsfahaninin Tehrandan sürgün edilməsi əhalinin narazılığının artmasına səbəb oldu. Bu hadisə ilə əlaqədar İK özünün nəşr etdiyi vərəqədə xalqın və ölkənin zülmdən, ədalətsizlikdən xilas edilməsi yolunun ancaq ümumi silahlı üsyanda olduğunu göstərirdi.[380]

İnqilabi əhvali-ruhiyyədə olan və ya inqilabçılara rəğbət bəsləyən şəxslərin paytaxtdan uzaqlaşdırılması davam etdirilirdi. 1906-cı il aprel ayının əvvəllərində ticarət naziri Səədüddövlə və Doktor Məhəmməd xan Ehyaülmülk Tehrandan sürgün edildilər. May ayında İnqilab Komitəsinin görkəmli üzvlərindən Mirzə Həsən Rüşdiyyə, Məcdülislam Kermani və Mirzə Ağa İsfahani həbs edilərək Kəlat zindanına göndərildilər.

İK özünün yaydığı vərəqələrilə mütləqiyyəti ifşa etməkdən əlavə, ruhaniləri hökumətə təzyiq göstərməyə məcbur edən yazılarla da çıxış edirdi. İnqilab Komitəsinin kəskin tənqidi və təzyiqi qarşısında ruhanilər, xüsusilə S.M.Təbatəbai dəfələrlə saraya müraciətlə "Ədalətxana" təsis olunması haqqında verilmiş vədin icrasını tələb etmişdi. Mütləqiyyət bu tələblərə nəinki müsbət cavab vermir, hətta demokratik qüvvələr arasında nifaq yaratmağa, hərəkat başçılarını pərakəndə salmağa çalışırdı.

İrticaçıların fitnəkar məqsədi hərəkat başçılarına aşkar olduqdan sonra onlar mübariz qüvvələri birləşdirmək üçün İnqilab Komitəsinin görkəmli üzvlərinin iştirakı ilə "Hövzəye-İslami" və ya "Əncüməne-İslami" adlanan rəhbərlik mərkəzi yaratdılar. Bu mərkəzə ruhanilərdən S.Ə.Behbəhani, S.M.Təbatəbai, Şeyx Murtuza Aştiyani, Şeyx Mustafa Aştiyani, Seyid Kamal Əfceyi və Sədrülüləma, İnqilab Komitəsi üzvlərindən isə Şeyx Mehdi Kaşi, Seyid Camaləddin İsfahani, Mirzə Nəsrullah Məlikülmütəkəllimin, Seyid Məhəmməd Rza Müsavat və başqaları daxil idilər.[381]

Bu əncümən yarandıqdan sonra ruhanilər böyük və izdihamlı yığıncaqlar qarşısında çıxış edərək, xalq kutlələrini mütləqiyyətə

---

[380] M.Məlikzadə. Tarixe-inqilab, 2-ci cild, səh.97.
[381] Yenə orada, səh.116.

qarşı mübarizəyə çağırırdılar. İyul ayının 7-də təşkil edilmiş ümumi yığıncaqda Təbatəbai mütləqiyyətin zülmündən, özbaşınalığından, törətdiyi cinayətlərdən, Tehranda hökm sürən hərbi vəziyyətdən aydın faktlarla danışaraq hökumət başçılarını ifşa etdi. O, mütləqiyyətin fitnəkarlığını şərh edərək, şah və yoxsulun qanun qarşısında bərabərliyini təmin edən məclis yaradılması tələbini irəli sürdü.[382]

"Əncüməne-İslam", İnqilab Komitəsi və digər siyasi qruplar tərəfindən mütləqiyyətin ifşası, xalq kütlələrinin mübarizəyə ruhlandırılması əhali içərisində davam edən inqilabi əhval-ruhiyyəni artırır, onları gərgin toqquşmalara hazırlaşdırırdı.

Digər tərəfdən, baş nazir Eynüddövlə hərəkatı yatırmaq üçün Tehrana silahlı qüvvələr gətirir, eyni zamanda hərəkat başçılarını tutdurmaq və sürgün etdirmək siyasətini davam etdirirdi. 1906-cı il iyul ayının 9-da Tehranın inqilabçı natiqlərindən Şeyx Məhəmmədin, Seyid Camaləddinin və Məlikülmütəkəlliminin həbsə alınması haqqında əmr verildi.[383] İyulun 10-da Şeyx Məhəmməd Vaiz silahlı əsgərlər tərəfindən tutularaq zindana aparıldıqda, əhali və tələbələr onu əsgərlərin əlindən aldılar. Əsgərlərlə əhali arasında toqquşmada Əbdülhəmid adlı bir tələbə həlak oldu. Tələbənin meyidinin Tehran küçələrindən keçirilib Cümə məscidinə aparılması geniş və izdihamlı nümayişə çevrildi.[384] İK əhalinin, xüsusilə bazar əhlinin məscidə toplanmasını təşkil etdi. Mütləqiyyətin məscidə toplananları dağıtmaq cəhdləri baş tutmadı. İyulun 12-də silahlı qüvvələrlə nümayişçilər arasında baş vermiş toqquşmada yüzə qədər nümayişçi yaralandı və həlak oldu.[38550]

İyulun 13-də və 14-də silahlı qüvvələrin şiddətli təzyiqinə baxmayaraq, yığıncaq dağılmadı. İyulun 15-də əhalini silah gü-

---

[382] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.90.

[383] Mirza Yəhya Doulətabadi. Həyat-e Yəhya və ya tarix-e moaser-e İran (*Yəhyanın həyatı və ya müasir İran tarixi*), cild 2, Tehran, 1328/1949, səh.66 (Sonrakı səhifələrdə: Dövlətabadi. Tarixe-moaser, səh... yazılacaqdır).

[384] Nazimulislam Kermani. Tarixe-bidari, səh.403.

[385] Yenə orada, səh. 432, 545, 457 səh. 409.

cünə məsciddən çıxarmaq əmri verildikdə ruhanilər məscidi, sonra Tehranı tərk edib, İraqın Nəcəf və Kərbəla şəhərlərinə getməsi üçün imkan verilməsini hökumətdən tələb etdilər. Saray razılıq verdi. İyulun 16-da müctəhidlərdən Təbatəbai, Behbəhani və İK üzvlərindən bir neçəsi başda olmaqla, yüzlərlə mədrəsə tələbəsi, tacir, alverçi, sənətkar və ziyalı Tehranı tərk edərək, Qum şəhərinə doğru yola düşdülər.

1906-cı il iyulun 17-də konstitusiyaçı tacirlərdən Hacı Məhəmməd Tağı Binəkdar başda olmaqla 9 tacir ingilis səfirliyinin bağında bəstə oturdular. İyulun 19-da dini tələbələrdən 50 nəfər bəstə oturanlara qoşuldu. Bu hadisə ilə əlaqədar iyulun 20-də Tehranda bütün bazar əhli tətil etdi, yüzlərlə molla, dini tələbə, tacir, alverçi və sənətkar ingilis səfirliyində bəstə oturdu. İyulun 22-də bəstçilərin sayı min nəfərə çatdı. İyulun 23-də Tehranın yeganə ali məktəbi olan darülfünun tələbələri, müəllimləri, həmçinin digər məktəblərin müəllimləri və bir çox ziyalılar bəstçilərə qoşuldular. Avqust ayının 2-də artıq bəstçilərin sayı 14 min nəfərə çatmışdı.[386] Hökumət qoşunları içərisində də xalq hərəkatına rəğbət qüvvətlənmiş, bir neçə zabit xalqa qoşulmuşdu.[387] Bəstçilər aşağıdakı tələbləri şaha təqdim etdilər: konstitusiya (məşrutə) elan etmək, məclis çağırmaq, Eynüddövləni vəzifəsindən kənar etmək, ruhaniləri Qumdan geri çağırmaq, sürgün edilmiş inqilabçıları azad etmək və i. a.[388]

Mütləqiyyət inqilabçıların tələblərini qəbul etməyə məcbur oldu. Avqust ayının 5-də konstitusiya verilməsi haqqında şah tərəfindən fərman imzalandı. Avqustun 7-də verilmiş ikinci fərmanda məclis nümayəndələrinin xalq tərəfindən seçiləcəyi elan olundu. Qum şəhərinə köçmüş inqilabçılar Tehrana qayıtdılar və avqustun 18-də bəstçilər ingilis səfarətxanasından çıxdılar, bazarı, dükanları açdılar, şəhərin hər tərəfində şənlik mərasimi keçirdilər.

---

[386] Nazimülislam Kermani. Tarixi bidari, səh.409.
[387] M.Məlikzadə. Tarixe-inqilab, 2-ci cild, səh.173.
[388] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, 2-ci cild, səh.156.

Avqustun 19-da hərəkat başçıları, dövlət nazirləri, əhalinin muxtəlif sinif və təbəqələrindən üç min nəfər toplanaraq təntənəli surətdə məclis (Məclese-şoraye-melli) yaradılmasını elan etdilər. Həmin yığıncaqda məclisə nümayəndələr seçilməsi üçün nizamnamə tərtib edilməsi işi orada təşkil olunmuş müvəqqəti məclisə tapşırıldı. Sentyabrın 9-da seçki nizamnaməsi şah tərəfindən imzalandıqdan sonra Tehranda məclisə seçkilər başlandı.

İnqilabçıların mərkəzdə əldə etdiyi bu müvəffəqiyyətlərə baxmayaraq, ölkənin başqa vilayətlərində mütləqiyyət öz işini davam etdirirdi. Artıq Avropa qəzetləri belə İran inqilabından, onun qələbələrindən bəhs etdikləri halda, Təbrizə və başqa şəhərlərə bu hadisələr haqqında heç bir rəsmi məlumat verilmirdi. Əksinə, mütləqiyyət Tehran əhalisinin əldə etdiyi müvəffəqiyyətin özünü də ləğv etmək üçün hazırlıq görürdü. Bu tədbirlərə baxmayaraq, İranın digər əyalət və vila- yətlərində də tehranlılarla həmrəylik hərəkatı baş verirdi, Təbriz, İsfahan, Şiraz və başqa yerlərdən göndərilən teleqramlarda paytaxt inqilabçılarına yardım təklif edilirdi.[389] İstibdad konstitusiya fərmanını ləğv etmək istədikdə isə başqa əyalətlər də fəal surətdə inqilaba qoşuldular. Bu hərəkat Təbrizdən başladı və Əhməd Kəsrəvinin yazdığı kimi “mütləqiyyətin ümidlərini boşa çıxartdı”.[390]

## 3. CƏNUBİ AZƏRBAYCANDA İNQİLABİ ÇIXIŞLARIN BAŞLANMASI

1906-cı ilin avqust ayında Tehranda inqilabi hərəkatın qələbəsi, konstitusiya elan edilməsi, sonra isə mütləqiyyətin konstitusiya verilməsini pozmaq cəhdi və şahın məclisə seçkilər haqqında nizamnaməyə qol çəkməkdən imtina etməsi xəbəri Təbrizə çatdıqda Təbrizin mübariz qüvvələri, onun siyasi cəmiyyətləri irticanın niyyətlərini boşa çıxarmaq və qələbənin nəticələrini bütün

---

[389] М.С.Иванов. Иранская революция 1905-1911 годов, səh.79.
[390] Bax: Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.125.

ölkəyə şamil etmək üçun ciddi işə başladılar. Onlar Tehranda olduğu kimi, Təbrizdə də ümumi tətil təşkil etdilər. Təbrizin gizli siyasi cəmiyyətlərindən olan "İslamiyyə əncüməni"nin görkəmli üzvləri Dəvəçi məhəlləsinin[391] vəliəhd Məhəmmədəlidən narazı olan seyidləri[392] içərisində iş aparmış və onların çoxunu həmin təşkilat ətrafında birləşdirmişdilər. 1906-cı il sentyabrın 19-da "İslamiyyə Əncüməni" üzvlərindən Mirzə Cavad Nasehzadə və Mirzə Ələkbər Mücahid bir dəstə seyidin iştirakı ilə gizli iclas təşkil edərək şəhərdə ümumi tətil keçirməyi və ingilis konsulxanasında bəstə əyləşməyi qərara aldılar.[393] Sentyabrın 20-də səhər tezdən Dəvəçi seyidlərindən 15 nəfər bu qərarı həyata keçirdi. Həmin Gün "İslamiyyə Əncüməni" üzvlərindən Şeyx Səlimin, Hacı Mirzə Əbülhəsən Çaykənarinin başçılığı ilə başqa bir dəstə də onlara qoşuldu.[394] Sentyabrın 21-də bütün bazar və dükanlar bağlandı, minlərlə xırda alverçi, sənətkar, şəhər zəhmətkeşi və yoxsul bəstçilərə qoşulmaq üçün yola düşdü. Şəhəri həyəcan bürüdü. Bəstçilərin kiçik bir dəstəsi konsulxanada, minlərlə adam isə "Samsam xan" məscidində və onun ətrafında toplandı. Tehranda olduğu kimi, burada da bəstçilərin bütün xərcini konstitusiyaçı varlı tacirlər, xüsusilə gizli siyasi cəmiyyətlərə mənsub olan tacirlər - Hacı Mehdi Kuzəkunani, Hacı Rəhim Badkubəçi, Hacı Əlinağı Gənceyi, Hacı Məhəmmədəli Badamçı və başqaları ödəyirdilər. Sentyabrın 22-də şəhərin iri ruhaniləri də əhalidən ayrılmaq, dindar və savadsız kütlələr içərisində hörmətdən düşmək qorxusundan "Samsam xan" məscidinə gəlib, bəstçilərə qoşulmağa məcbur oldular. Həmin gün şəhərin yaxınlığında yerləşən kazarmanın 800 əsgəri öz nümayəndələri vasitəsilə hərəkatı müdafiə edəcəyini bildirdi.[395]

---

[391] "Dəvəçi" Təbrizin şimal-qərbində yerləşmiş ən böyük məhəllə idi.

[392] Dəvəçi məhəlləsində ərzəl seyidləri böyük tayfa təşkil edirdi. Hacı Mir Manaf, Mir Haşım onların başçıları idilər.

[393] Ə. Kəsrəvi. İranın konstitusiya tarixi, səh.155.

[394] Yenə orada, səh.155

[395] Yenə orada, səh.158.

Hərəkat bütün şəhəri bürüdü, hər yerdə etiraz mitinqləri keçirildi, mütləqiyyətə qarşı müxalifət səsləri ucaldı. Hərəkatın xərcini ödəmək üçün "Konstitusiya tərəfdarlarının məxaric kassası" adlanan mərkəz yaradıldı.[396] Vəliəhd Məhəmmədəli yoxsul kütləleri aldatmaq məqsədilə şəhərdə çörəyin qiymətini ucuzlaşdırmaq istədi. Şəhər əhalisi ondan çörəyin ucuzlaşdırılmasını yox, konstitusiya elan olunmasını tələb etdi. Bəstçilərə qoşulan ruhanilər konstitusiyanın elan olunmasını teleqraf vasitəsilə saraydan xahiş etdilər. Hərəkat başçıları Təbriz hadisəsini Tehran inqilabçılarına və müvəqqəti məclisə xəbər verdilər.

1906-cı il sentyabrın 29-da saray tərəfindən Təbrizə göndərilmiş cavabda konstitusiya elan edilməsi və məclisin təşkili ilə əlaqədar təsdiq edilmiş seçki nizamnaməsinin tezliklə göndəriləcəyi, Azərbaycan nümayəndələrinin məclisə seçilməsinə icazə verilməsi qeyd olunurdu.[397] Bundan sonra Məhəmmədəli Mirzə konstitusiya verilməsini yazılı surətdə təsdiq edərək tezliklə seçkilərə başlanmasına, nümayəndələrin Tehrana göndərilməsinə şərait yaradacağına söz verdi.[398]

Təbrizdəki ümumi tətil, kütləvi bəst, geniş yığıncaqlar və nümayişlər gizli siyasi cəmiyyətlər tərəfindən təşkil və idarə olunmuşdu. Hərəkata qoşulan kütlələri başa salmaq, mübarizənin, demokratiyanın, azadlığın əhəmiyyətini izah etmək sahəsində siyasi cəmiyyətlərin natiq və vaiz üzvləri, o cümlədən Mirzə Cavid Nasehzadə, Şeyx Səlim, Mirzə Ələkbər Mücahid, Mirzə Hüseyn Vaiz və başqaları çox iş gördülər. İzdihamlı mitinq və nümayişlər Təbrizdə böyük dəyişiklik yaratdı. Əhali içərisində ümumi birliyin, hətta silahlanmanın əsası bu günlərdə qoyuldu. Həmin günlərdə Təbrizdə vahid sosial-demokrat təşkilatının yaradılması zəruriliyi daha da aşkara çıxmış oldu.

***

---

396 Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.157.
397 Yenə orada, səh.163
398 Yenə orada, səh.164.

1905-1911-ci illər İran inqilabı başlarkən Təbrizdə və bütün Azərbaycanda kütlələri mütləqiyyətə qarşı qaldırmaq, hərəkata düzgün istiqamət vermək və onun gedişinə rəhbərlik işini həyata keçirmək üçün güclü bir siyasi təşkilatın yaradılması, vacib idi. Bununla əlaqədar o vaxta qədər Təbrizdə mövcud olub, gizli fəaliyyət göstərən siyasi qrup və cəmiyyətlərin vahid bir təşkilatda birləşməsi zəruriliyi də qarşıda duran əsas vəzifələrdən birinə çevrildi.

Təbrizin gizli siyasi qrup və cəmiyyətləri tərəfindən hələ 1904-cü ildə "İctimaiyyune-amiyyun" adı altında vahid təşkilatda birləşmək üçün göstərilən səy lazımi nəticə verməsə də, vahid siyasi təşkilat yaratmaq sahəsində bundan sonra da fəaliyyət davam etdirilmişdi. Bu məqsədlə yaradılmış həmin heyət RSDFP-nin Qafqaz təşkilatları və Bakıda yaşayan İran təbəələri ilə əlaqədə idi. 1905-ci ildə Qafqazda yaşayan və başlıca olaraq azərbaycanlılardan ibarət İran təbəələri tərəfindən İranın "İctimaiyyune-amiyyun" ("Sosial-demokrat") partiyasının yaradılması İranın bir çox yerlərində sosial-demokrat təşkilatlarının yaradılması prosesini sürətləndirdi.

XX əsrin əvvəllərində Rusiyada inqilabçı proletariatın mühüm mərkəzlərindən biri olan Bakı şəhəri Qafqazda yaşayan iranlıların, xüsusilə iranlı fəhlələrin inqilabi mübarizəyə qoşulmasında mühüm rol oynayırdı.

Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının Bakı təşkilatı Qafqazda müsəlman fəhlələri inqilabi hərəkata daha geniş cəlb etmək, onları inqilabi təşkilat ətrafında birləşdirmək üçün 1904-cü ilin payızında "Hümmət" qrupunun yaradılmasını məqsədəuyğun hesab etdi. Bu qrup RSDFP-nin Bakı təşkilatının ayrılmaz hissəsi idi.[399] "Hümmət" qrupu yarandığı ilk vaxtda Qafqazda işləyən bütün müsəlman fəhlələrin təşkilatı olub, üzvlərindən bir qismi o zaman Bakı proletariatı ilə, bolşeviklərlə bir yerdə sənaye mərkəzlərində işləyən və fəhlələrin əsas hissəsini təşkil edən İrandan gəlmiş azərbaycanlı fəhlələrdən ibarət idi. 1905-ci ildə

---

[399] Bax: Azərbaycan Kommunist Partiyasının tarixi, I hissə, Bakı, 1958, səh.72.

“Hümmət”in yardımı ilə Bakıda çalışan iranlıların tam gizli şəraitdə öz təşkilatı – “İctimaiyyune-amiyyun” (“Mücahid”) partiyası yaradıldı.[400]

“Mücahid” partiyası Bakıda davam edən mübarizədə RSDFP-nin Bakı təşkilatı və “Hümmət” qrupu ilə birlikdə yaxından iştirak etmişdir.

Bu təşkilatın əsası N.Nərimanovun başçılığı ilə demək olar ki, hamısı Cənubi Azərbaycandan olan inqilabçılar - Suçi Mirzə, Cəfər Zəncani, Məşədi Məhəmməd Əlioğlu, Məhəmməd Tağı, Şirinzadə Salmasi, Hacı xan, Nurulla xan Yegani, Məşədi Məhəmmədəli xan, Mirzə Əbülhəsən Tehrani, Əkbər Üskui, Hüseyn Sarabi, Məşədi Bağır xan Urmiyyəyi, Məşədi İsmayıl Miyabi tərəfindən qoyulmuşdur.[401] Adları qeyd olunanlardan əlavə, yenə Cənubi Azərbaycandan olan Əsədulla Axundov, Əsədulla Qafarzadə, Əsgərzadə Təbrizi, Əzimzadə Zəncani, Rza xan Qaradağlı, Axundzadə Ərdəbili, Həsən Məlakeş, Qafar xan Miyanalı, Əhməd Əmirov, Bəhram Ağayev və Əbülqasım Əsədidən ibarət ikinci bir qrup da “İctimaiyyune-amiyyun” təşkilatının müəssisləri sırasına daxil idi.[402] Birinci qrup Bakı və obun ətrafında müxtəlif neşələrdə çalışan iranlılar,[403] ikinci qrup isə ancaq fəhlə rayonlarında - Sabunçu, Suraxanı, Balaxanı, Qaraşəhər, Bayıl və s. neft mədənlərində, sənaye mərkəzlərində işləyən iranlı fəhlələr içərisində təşkilatın əsasını qoymuş və özəklərini yaratmışdır.

---

[400] Bax: Ş.Ə.Tağıyeva. Nəriman Nərimanovun 1905-1911-ci illər İran inqilabı ilə əlaqədar fəaliyyəti haqqında, “Azərbaycan SSR EA Xəbərləri” (tarix, fəlsəfə və hüquq seriyası), 1973, No 3, səh. 39-41; “Yeni fikir” qəzeti, No 42 (743), Tiflis, 21 mart 1925-ci il.

[401] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.194.

[402] Sov.İKP MK nəzdində MLİ Azərbaycan filialının partiya arxivi, f. 276, siy.2, iş 8, vər.1.

[403] Müxtəlif səbəblər üzündən, irticanın təqiblərindən can qurtarmaq, ticarət işləri və ya təhsillə əlaqədar və nəhayət, ailəsi üçün çörək pulu qazanmaq məqsədilə xarici ölkələrə (başlıca olaraq Rusiyaya, qismən Türkiyəyə və s.) getmiş İran təbəələrinin əksəriyyətini, Qafqazda isə, demək olar ki, hamısını azərbaycanlılar təşkil edirdi. Burada və irəlidə iranlı dedikdə əsasən İran təbəəsi olan azərbaycanlılar nəzərdə tutulur.

Bakıda “İctimaiyyune-amiyyun” (“Mücahid”) təşkilatı və onun mərkəzi yarandıqdan sonra Rusiyada iranlı fəhlələrin ən çox toplaşdığı şəhərlərdə tədricən partiyanın komitələri təşkil edilməyə başlandı. Tezliklə Qafqazın bir çox şəhərlərində, o cümlədən Tiflis, Naxçıvan, İrəvan, Qars və Petrovskda (daha sonra Aşqabadda) partiyanın təşkilatları yarandı.[404] Tiflisdə iranlıların “İctimaiyyune-amiyyun” təşkilatının ilk yaradıcıları sırasına Cənubi Azərbaycandan olan Məhəmmədnağı Sadıqov, Yusif Rza oğlu, Məhəmmədəli Ələkbər oğlu, Ələsgər Məhəmmədəliyev, Mirzə Əbdülhüseyn Behzad, Məşədi Mahmud, Qulam Axundov, Mirzə Şapur Qənizadə və b. daxil idilər.[405]

Partiya yarandıqdan sonra onun proqramının tərtib olunması üçün hazırlıq görüldü. Bunun üçün RSDFP-nin proqramının (1906-cı ilin əvvəllərində Nəriman Nərimanov tərcümə etmişdir) Azərbaycan dilində çap olunmuş mətni əsas götürüldü.[406]

1906-cı ilin əvvəllərində partiya öz nümayəndələrini İrana göndərməyə başladı. Bakı təşkilatı tərəfindən ilk dəfə Məşədi Məhəmmədəli xan, Məşədi İsmayıl, Hacı xan, Məşədi Bağır xan Urmiyeyi və b. Təbrizə göndərildilər.[407] Onlar özləri ilə RSDFP-nin proqramının azərbaycanca nüsxələrini apardılar (həmin proqram İranda fars dilinə tərcümə edildi. Bunun əsasında İranın öz siyasi, sosial-iqtisadi şəraitinə uyğun proqram tərtib edildi və partiyanın 1907-ci ilin sentyabrında Məşhəddəki konfransında təsdiq olundu).

Təbrizdə “İctimaiyyune-amiyyun”, yəni sosial-demokrat təşkilatı yaratmaq məqsədilə 1906-cı ilin avqust ayına qədər siyasi cəmiyyətlərin təşkilatçıları və görkəmli üzvləri arasında bir sıra

---

[404] Ş.Ə.Tağıyeva. Göstərilən məqalə, səh.42.

[405] Sov.İKP MK nəzdində MLİ Gürcüstan filialının partiya arxivi, f. 12798, siy. 3, iş 174, vər.1-2.

[406] “İctimaiyyune-amiyyun”un (“Mücahid”) proqramının hazırlanmasında və partiyanın məqsədlərinin təbliğində N.Nərimanovun iştirakı və rolu haqqında bax: Firudin Köçərli. Nəriman Nərimanov, Bakı, 1965, səh.136-137; М.Казиев. Нариман Нариманов, Баку, 1970, səh.50-51.

[407] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.194.

müzakirələr və iclaslar keçirilmiş, nəhayət, vahid təşkilatda birləşib Təbriz sosial-demokrat təşkilatını yaratması 1906-cı ilin son üç ayı ərzində onlara müyəssər olmuşdur.[408] Təbrizin ardınca Xoy və Urmiyada sosial-demokrat təşkilatları yaradıldı. "İctimaiyyune-amiyyun" ("Mücahid") partiyasının istər Təbriz təşkilatı və onun rəhbərliyinin, istərsə də Xoy və Urmiya təşkilatlarının yaradılmasında partiyanın Qafqazdan İrana gələn üzvləri yaxından iştirak etdilər.[409] Qafqazdan Təbriz, Xoy və başqa şəhərlərə gələn iranlı inqilabçılar Qafqazda yaşadıqlarına, Qafqaz paltarı geydiklərinə və özlərini təşkilatla bağlı olaraq, "Mücahid"[410] adlandırdıqlarına gorə İranda "Qafqaz mücahidləri" adı ilə məşhur olmuşlar.

Təbriz sosial-demokrat təşkilatı öz rəhbərlik mərkəzini "Mərkəze-qeybi" ("Gizli mərkəz") adlandırmışdı. Əli Müsyö, Hacı Əli Davafruş, Hacı Rəsul Sədəqyani, Seyid Həsən Şərifzadə, Cəfərağa Gənceyi, Mirzə Ələsgər, Məhəmmədəli Tərbiyyət, Mir Bağır, Ağa Nağı, Şücai, Məhəmməd Sadıq Xamneyi və Seyid Rza "Gizli mərkəz"in üzvləri idilər.[411] Təbriz sosial-demokrat təşkilatı üzvlərindən K.Tahirzadə təşkilatın Əli Müsyö tərəfindən yaradıldığını və onun ömrünün axırınadək təşkilata başçılıq etdiyini yazır.[412]

Təbriz sosial-demokrat təşkilatı özəklərinin hər birində 11 nəfər üzv toplanır və hər özək təşkilatın məsul üzvlərindən birinin vasitəsilə idarə olunurdu.[413] Sosial-demokrat təşkilatının əsasını qoyan gizli siyasi cəmiyyət və qrupların təşkilatçıları və bütün

---

[408] Bax: T.A.İbrahimov (Şahin). İranda siyasi cəmiyyətlər və təşkilatların yaranması və onların fəaliyyəti, Bakı, 1967, səh.167. Təbrizdə sosial-demokrat təşkilatının yaradılması tarixini bəzi müəlliflər 1906-cı ilin yayından əvvələ, bəziləri 1906-cı ilin sonu və hətta 1907-ci ilin əvvəlinə aid edirlər.

[409] Ş.Ə.Tağıyeva, Göstərilən məqalə, səh.42.

[410] Ərəbcə "cəhd" kökündən olan "Mücahid" sözü əqidə və azadlıq uğrunda mübariz, çalışqan, fədakar deməkdir. Mücahid sözü geniş mənada inqilabın bütün iştirakçılarına aid edilirdi.

[411] Ə. Kəsrəvi. İranın konstitusiya tarixi, səh.175.

[412] K.Tahirzadə. Azərbaycan üsyanı, səh.451.

[413] Əli Azəri. Kolnel Məhəmmədtəqi xan Pesyan dər qiyam-e Xorasan (*Polkovnik Məhəmmədtağı xan Pesyan Xorasan üsyanında*), Tehran, 1329/1950, səh.80 (Sonrakı səhifələrdə: Ə.Azəri. Xorasan üsyanı, səh... veriləcəkdir).

üzvləri 1905-1911-ci illər inqilabı dövründə “Mərkəze-qeybi”nin ətrafında sıx birləşərək misilsiz fədakarlıq, geniş fəaliyyət göstərdi. 1907-ci ilin ikinci yarısından nəşr olunan “Mücahid” qəzeti təşkilatın gərgin fəaliyyəti dövründə “Mərkəze-qeybi” ilə aşağı təşkilatlar və sıravi üzvlər arasında mühüm əlaqə vasitəsi olmuşdur. “Mücahid” qəzeti bir çox müəlliflər tərəfindən sosialist qəzeti adlandırılmışdır.[414]

Təbriz sosial-demokrat təşkilatı əsas etibarilə şəhər zəhmətkeşlərini, sənətkarları, xırda alverçiləri, inqilaba rəğbət bəsləyən bütün demokratik qüvvələri birləşdirmək və silahlandırmaqda mühüm işlər görmüşdür.

Təbriz sosial-demokrat təşkilatı bütün qüvvəsini və fəaliyyətini ölkədə mütləqiyyəti ləğv etmək, ölkənin istiqlalını qoruya bilən, onun ictimai-iqtisadi inkişafını təmin etməyi bacaran, demokratik azadlıqları həyata keçirməyə qadir olan üsuli-idarə yaratmaq məqsədinin həyata keçirilməsi uğrunda mübarizəyə sərf etmişdir.

Təbrizin gizli siyasi qruplarının “İctimaiyyun-amiyyun” adı altında birləşməsi, ümumiyyətlə İranda sosial-demokrat təşkilatlarının yaranması XX əsrin əvvəllərində Rusiyada inqilabi hərəkatın genişlənməsi, Cənubi Azərbaycan təşkilatçılarından bir çoxunun ilk növbədə Qafqaz sosial-demokratları ilə yaxın əlaqədə olmaları və nəhayət, Zaqafqaziyanın bir sıra şəhərlərində, Rusiyanın digər yerlərində iranlıların “İctimaiyyune-amiyyun” (“Mücahid”) təşkilatlarının yaranması nəticəsində mümkün olmuşdur. Bu, Rusiyada xüsusilə, Zaqafqaziyada xalq hərəkatının İran xalqlarına böyük ruhlandırıcı təsirinin nəticəsi idi. Doğrudur, çar hökuməti öz xalqlarının azadlıq hərəkatını boğduğu kimi, İran xalqlarının hərəkatını da təzyiq altına almışdı. Lakin bununla yanaşı, Rusiyanın mütərəqqi və inqilabi ideyaları da İrana daxil olurdu. XX əsrin əvvəllərində Rusiya zəhmətkeşlərinin güclənməkdə

[414] E.Browne. The Press and Poetry of Modern Persia, Cambrige, 1914, p.131 (Sonrakı səhifələrdə: E.Braun. İran mətbuatı, səh... veriləcəkdir).

olan inqilabi hərəkatı, arasıkəsilməyən tətilləri və kəndli üsyanları, yuxarıda qeyd olunduğu kimi, İranda xalq hərəkatına möhkəm təkan verdi. Feodalların qarətindən, mütləqiyyətin zülmündən can qurtarmaq, iş axtarmaq üçün Rusiyaya, xüsusilə kütləvi halda Zaqafqaziyaya axıb gələn və burada sənayedə işləyən İran Azərbaycanı zəhmətkeşləri inqilabçı rus proletariatı və onun inqilabçı partiyasından mübarizə yollarını öyrənirdi. RSDFP-nin rəhbərliyi ilə 1901-1904-cü illərdə Bakı, Tiflis, Batumi və s. şəhərlərdə baş vermiş fəhlə tətillərində, nümayişlərində, 1905-1907-ci illər rus inqilabında minlərlə iranlı fəhlə iştirak etmişdi. Onlardan çoxu İrana qayıtdıqdan sonra xalq arasında inqilabi əhvali-ruhiyyə yayırdı.

Rusiyadakı inqilabi hərəkat Cənubi Azərbaycana daha artıq təsir göstərmişdi. Bu da Cənubi Azərbaycanın Zaqafqaziya, xüsusilə Şimali Azərbaycanla ənənə üzrə davam edən iqtisadi, siyasi və mədəni əlaqələrinin qüvvətli olmasından, Cənubi Azərbaycanın təkcə zəhmətkeş kütlələrinin deyil, onun ticarət burjuaziyası, xırda alverçiləri, ziyalı nümayəndələrindən çoxunun Rusiya və Zaqafqaziya ilə daimi əlaqədə olmasından irəli gəlirdi. Cənubi Azərbaycanda inqilabi hərəkatı təşkil edən, ona istiqamət verən sosial-demokrat təşkilatları, onların başçılarının bir qismi, qeyd olunduğu kimi, Zaqafqaziya inqilabçıları ilə, onların siyasi təşkilatları ilə sıx əlaqədə idilər. Xüsusilə Zaqafqaziyada yaşayan iranlıların sosial-demokrat təşkilatlarının yaranması bu əlaqəni daha da möhkəmləndirdi. Bu inqilabçı təşkilatlar şəraiti düzgün dərk etməkdə, siyasi hadisələri aydınlaşdırmaqda, hərəkatın güclənməsi üçün bu amillərdən vaxtında istifadə etməkdə bacarıqla hərəkət edirdilər.

***

1906-cı il sentyabrın 20-də Təbriz üsyançıları öz tələblərinə saraydan müsbət cavab aldıqdan sonra ingilis konsulxanasından və Samsam xan məscidindən çıxaraq, bazar və dükanları açdılar,

şənlik mərasimi keçirdilər. Onlar bu şad xəbəri Azərbaycanın digər şəhərlərinə də çatdırdılar. Əldə edilmiş bu mühüm müvəffəqiyyətə baxmayaraq şüurlu surətdə hərəkatda iştirak edən kütlələr hərəkat başçılarından ayrılmadılar, onlar mübarizənin davamı üçün zəruri olan siyasi bir mərkəzin yaradılmasını, kütləəri bu mərkəz ətrafında birləşdirməyi ən vacib məsələ kimi həyata keçirməyə başladılar. Hərəkat başçıları içərisindən seçilmiş 20 nəfər İranda mübariz kütlələrin tələb etdiyi ilk rəsmi siyasi əncümənin əsasını qoydu. Əncümənə Hacı Mehdi Kuzəkunani, Mir Haşım, Şeyx Səlim, Mirzə Hüseyn Vaiz, Şeyx Əliəsgər, Seyid Həsən Şərifzadə və b. seçildilər. Mütləqiyyətə qarşı hərəkata qoşulmuş qüvvələr parçalanmasın deyə əncümənə müctəhidlərdən Hacı Mirzə Həsən, iri mülkədarlardan Hacı Nizamüddövlə, Bəsirüssəltənə, Müinürrüaya vm varlı tacirlərdən Məliküttüccar Mötəmədüttüccar və başqaları daxil edilmişdilər.[415]

Azərbaycanda yaranmış bu əncümən öz fəaliyyəti dövründə müxtəlif adlarla - "Əncüməne-milliye-Təbriz", "Əncüməne-milliye-Azərbaycan", "Məclise-milliye-Azərbaycan" və nəhayət, "Əncüməne-əyalətiye-Azərbaycan" adlandırılmışdır. Göstərdiyi fəaliyyətin mahiyyəti etibarilə bəzən siyasi mübarizənin rəhbərlik mərkəzi, bəzən isə inqilabi hökumət vəzifəsi daşıyan bu əncümən təkcə məclisin ikinci çağırış dövründə (1909-1911) konstitusiyaya uyğun olaraq əyalət əncüməni kimi fəaliyyət göstərmişdir.

Azərbaycan əyalət əncüməni yarandığı ilk günlərdə Təbriz əhalisi inqilabi hərəkata zərər vuran şəxslərin, o cümlədən dəvəçili Mirhaşımın və mülkədar ruhanilərdən Mirzə Kərim İmamcümənin şəhərdən çıxarılmasını tələb etdi. Mirhaşım müqavimət göstərmədən Təbrizi tərk edərək Tehrana getdi. İmamcümə də Təbrizin 25 kilometrliyində yerləşən malikanəsinə getməyə məcbur oldu.[416]

Azərbaycan əyalət əncüməni təşkil edildikdən sonra Təbriz əhalisi ölkənin bütün ictimai fəlakətlərinə son qoyulacağını bu

---

415 K.Tahirzadə. Azərbaycan üsyanı, səh.145.
416 Kəsrəvi. İranın konstitusiya tarixi səh.171.

əncüməndən gözləyir və tələb edirdi. Əvvəllərdə olduğu kimi, başlanmış inqilab dövründə də İranın mühüm şəhərlərində, o cümlədən Təbrizdə eyni peşə sahibləri, sənətkarların (məsələn, dərzilərin, bəzzazların, başmaqçıların, dülgərlərin, çayçıların və s.) silki mənafelərini müdafiə etmək üçün sex ittifaqları mövcud idi. Özlərini "Əsnaf ittifaqları" adlandıran bu təşkilatlar inqilab dövründə fəhlə həmkarlar ittifaqlarının ilk rüşeymi kimi fəaliyyət göstərirdi. Təbriz və Marağa əncümənləri hər iki şəhərdə fəhlə həmkarlar ittifaqlarının yaranmasına hər cəhətdən kömək etmişlər.[417] Təbriz bazarının onlarla belə sənətkar, peşəkar ittifaqlarının nümayəndələri, eyni zamansa şəhərin müxtəlif məhəllələri tərəfindən göndərilmiş nümayəndələr əncümənin bütün iclaslarında və danışıqlarında iştirak edir, əhalinin ehtiyaclarından, onların tələblərindən bəhs açırdılar. Əncümən özünün iclaslarını, danışıqlarını qaydaya salmaq və əməli tədbirlər qəbulunu asanlaşdırmaq məqsədilə hər bir məhəllənin və sənətkar ittifaqının nümayəndələri üçün əncümən binasında müəyyən bir otaq ayıraraq, məhəllələrin və sənətkar ittifaqları iclaslarının ayrıca aparılması tədbirini həyata keçirdi.[418] Onlar müəyyən məsələ ətrafında apardıqları müzakirənin nəticəsini yazılı surətdə əncümənə təqdim etməli, əncümənin rəyini və qərarını gözləməli idilər. Lakin inqilabi hərəkatın genişlənməsi, ictimai işlərin artması ilə əlaqədar əncümən qərara gəldi ki, şəhərin məhəllələrində əyalət əncüməninə tabe olan məhəlli əncümənlər yaradılsın, əhalinin tələbləri, ehtiyacları həmin məhəlli əncümənlərdə kütlələrin iştirakilə müzakirə və həll edilsin. Məhəlli əncümənlər əyalət əncüməninin möhkəmlənməsində və hərəkatın genişlənməsində mühüm rol oynadılar.

Azərbaycan əyalət əncüməni yarandığı ilk günlərdən onun müzakirələri, fəaliyyəti, qərarları və göstərişləri qəzet vasitəsilə nəşr edilirdi, 1906-cı il oktyabrın 19-dan etibarən Təbrizdə "Ruznameye-məclise-milliye-Təbriz", sonra isə "Ruznameye-milli",

---

[417] İranda, o cümlədən Cənubi Azərbaycanda fəhlə həmkarlar ittifaqlarının yaranması haqqında bax: Ə.İ.Şəmidə. İranda fəhlə və həmkarlar hərəkatı (1941-1946), Bakı, 1961, səh.28-29.

[418] K.Tahirzadə. Azərbaycan üsyanı, səh.145.

"Cərideye-milli" və nəhayət 1907-ci il fevral-mart ayından "Ruznameye-əncümən" adlanan qəzet Azərbaycan əyalət əncümənin orqanı kimi nəşr edilmişdir.[419] Qəzetin birinci səhifəsində İran hökumətinin gerbi olan günəş  və aslan həkk edilmişdi. İran tarixçisi M.S.Haşiminin fikrincə, Təbriz əncüməni Azərbaycanda hakimiyyəti ələ aldığına görə dövlət gerbini qəzetin başlanğıcında təsvir etmişdir.[420] "Ruznameye-əncümən" ("Əncümən qəzeti") 1911-ci ilədək Azərbaycan əyalət əncüməninin orqanı kimi əvvəllər Seyid Ələkbər Vəkilinin, sonralar görkəmli jurnalist M.Qənizadənin redaktorluğu ilə nəşr edilmişdir.

Azərbaycan əyalət əncüməni yarandıqdan sonra Təbriz nümayəndələrinin məclisə göndərilməsi üçün 1906-cı il oktyabrın 20-də seçki əncüməni təşkil edildi. Nümayəndələrin seçilməsi noyabrın 5-də başa çatdırıldı.

Təbrizdə seçkilər başa çatdıqdan sonra vəliəhd Məhəmmədəli Mirzə təkcə seçki əncüməninin deyil, Azərbaycan əyalət əncüməninin də dağılmasını tələb etdi. Əncümənə toplanmış ruhanilərdən və varlı tacirlərdən bir çoxu tərəddüd və qorxaqlıq göstərərək əncümədən uzaqlaşdı. Lakin mübariz kütlələr vəliəhdin tələbini rədd etdilər. Onlar noyabrın 6-da gecə müctəhid Mirzə Həsənin evi qarşısında toplanaraq mitinq keçirdilər, nəyin bahasına olursa-olsun azadlıqdan, əncümədən əl götürməyəcəklərini bildirdilər; Vəliəhd kütlələrin təzyiqi və birliyi qarşısında güzəştə getməyə, əncümənin fəaliyyətini təmin etmək haqqında yazılı surətdə razılıq verməyə məcbur oldu.

Bu hadisə Təbrizdə inqilabçılarla mütləqiyyət nümayəndəsi Məhəmmədəli Mirzə arasında baş vermiş birinci toqquşma idi və bu toqquşmada inqilabçılar qələbə çaldılar.

Azərbaycan əyalət əncüməni təkcə vəliəhdə qarşı mübarizədə deyil, xalq kütlələrinin xeyrinə başladığı islahatın bir çox sahəsində, o cümlədən çoxişlənən ərzaq malları qiymətinin qayda-

[419] E.Braun. İran mətbuatı, səh.46, 97.
[420] M.S.Haşimi. İranın mətbuat tarixi, I cild, səh.286.

ya salınması, möhtəkirliyin məsdudlaşdırılması, məhkəmə işlərinə nəzarət, maarif və məktəblərin inkişafı və s. bu kimi sahələrdə müəyyən müvəffəqiyyətlər əldə edərək, kütlələrin dərin hörmət və inamını qazanmaqla güclü hakimiyyət orqanı kimi öz fəaliyyətini davam etdirirdi. Birinci məclis fəaliyyət göstərdiyi zaman (1906-1908) Azərbaycan bir növ ikihakimiyyətlilik dövrü keçirmiş və bu hakimiyyətdə üstünlük getdikcə əncümənin xeyrinə qüvvətlənmiş, əyalət əncüməni ən səlahiyyətli mərkəzə çevrilmişdi.

Azərbaycan əyalət əncüməninin siyasi hakimiyyət orqanı kimi fəaliyyət göstərməsində, onun müvəffəqiyyətlərində Təbriz sosial-demokrat təşkilatının mühum rolu olmuşdur.

Öz sosial tərkibinə görə müxtəlif olmasına və onun fəaliyyətində sinfi ziddiyyətlər ara-sıra özünü göstərməsinə baxmayaraq[421] məhz Təbriz sosial-demokrat təşkilatının rəhbərliyi və qəbul etdiyi tədbirlər nəticəsində əncümən öz inqilabiliyini möhkəm saxlaya bilmişdi.

Təbriz sosial-demokrat təşkilatı, onun rəhbərlik mərkəzi olan "Mərkəze-qeybi" yaxşı bilirdi ki, mütləqiyyət aradan getməmişdir, təkcə konstitusiya və məclis əldə etməklə inqilab başa çata bilməz. İnqilabın nailiyyətlərinin qorunub saxlanması, onun tam qələbəsi üçün qüvvə toplamaq, mübariz kütlələri təşkil etmək, onları qarşıdakı kəskin vuruşmalara hazırlamaq lazım idi. Elə buna görə də "Mərkəze-qeybi" təşkil olunduğu ilk günlərdə Təbriz məhəllələri arasında birlik yaratmaq məqsədilə on gün müddətində mərasimlər keçirdi. Mərasimlər zamanı Təbriz məhəllələrinin on minlərlə əhalisinin öz başçıları və ağsaqqallarının iştirakilə gündə bir məhəllədə görüşləri təşkil edildi.[422] Təbrizdə ilk dəfə olaraq izdihamlı küçə nümayişləri və mitinqləri kimi meydana çıxmış bu təntənəli görüşlər kütlələrin oyanmasında, gələcək mübarizələrə hazırlıq işlərində mühüm rol oynadı. İlk günlərdən kütləvi hərbi

---

[421] Bax: Н.А.Гасанов. Революционное движение в Тебризе в 1905-1911 гг., Автореферат док. дисс. Баку, 1975, səh.74-76.

[422] Bax: "Fəryad" qəzeti, Urmiya, 8 və 18 iyun 1907-ci il, No 17 və 18.

təlim almaq, silah işlətməyi öyrənmək silah almağa başlamaq, gizli inqilabçı mücahid dəstələri yaratmaq və s. bu kimi mühüm işlər Təbrizi inqilabi hərəkatın əsas mərkəzinə çevirmiş oldu.

Azərbaycan əyalət əncüməninin nüfuzu tədricən Təbrizdən kənara çıxaraq əyalətin başqa şəhərlərinə də yayılırdı.

Azərbaycan əyalət əncüməninin rəhbərliyi ilə Azərbaycanın başqa şəhərlərində vilayət əncümənləri yaradılmağa başlandı. 1906-cı ilin noyabr-dekabr aylarında Urmiyada, Salmasda, Marağada, Ərdəbildə, daha sonra Zəncan, Xalxal, Xoy, Maku, Binab, Astara və digər vilayətlərdə əncümənlər təşkil edildi. Bu əncümənlərin təşkil olunmasında və mürtəce qüvvələrlə vuruşlarda bir sıra görkəmli ziyalılara - Salmasda şair Səid Salmasi, Marağada Mirağa Sərraf və şair Mirzə Həsən Şükuhi[423] bilavasitə iştirak etmişlər. Bu əncümənlərin bir çoxunun təşkili əsnasında mürtəce qüvvələrə qarşı mübarizədə Azərbaycan əyalət əncüməninin göndərdiyi nümayəndə heyətləri iştirak etməli olmuşlar. Yaranan vilayət əncümənləri, məsələn, Salmasda olduğu kimi, zəhmətkeş kütlələri azadlıq düşmənlərinə qarşı birləşdirməkdə, şəhərin və ətraf rayonların təhlükəsizliyini qorumaqda mühüm təşkilati fəaliyyətlə yanaşı, yaratdıqları mücahid dəstələrinə arxalanaraq əksinqilabi qüvvələrin basqınlarını dəf edib və şəhərdən qovub çıxara bilmişdilər.[424] Lakin bir sıra vilayət əncümənləri təşkil olunduqları ilk vaxtlarda böyük çətinliklərə rast gəlir, xüsusən Makuda, Xoyda, Salmasda irticanın şiddətli müqaviməti ilə üzləşirdi.[425]

1907-ci il fevralın 8-də, Azərbaycan nümayəndələri Tehrana gəldi. Onlar paytaxt əhalisi tərəfindən təntənə ilə qarşılandılar. İran tarixçisi H.Həllacın yazdığı kimi, "Azərbaycan nümayəndələrinin Tehrana gəlməsi 1799-cu ildə Marsel nümayəndələrinin (yakobinlərin) Parisə daxil olmasını xatırladırdı... çünki Fransa inqilabında yakobinlər... inqilabın genişlənməsində böyük fəaliy-

---

[423] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.238.
[424] "Fəryad" qəzeti, 8 və 18 iyun 1907-ci il.
[425] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.238, 248; "Həblülmətin" qəzeti, Tehran, 1 dekabr 1907-ci il, No 175.

yət göstərdikləri kimi, azərbaycanlılar da inqilabın genişlənməsində, dinc mübarizənin vuruşmalara çevrilməsində böyük fəaliyyət göstərirdilər".[426]

Azərbaycan nümayəndələri Tehrana gəldikdən sonra onlar Azərbaycan əyalət əncüməninin saraya verdiyi tələblərin məclisdə müzakirəsi zamanı möhkəm dəlillərlə məclisin razılığını əldə etdilər. Məclis özü də Məhəmmədəlinin şah olduğu gündən (19 yanvar 1907-ci il) məclisə qarşı bəslədiyi etinasız münasibətdən, nazirlərin məclis qarşısında məsuliyyət daşımalarına maneçilik törətməsindən narazı idi. Məclis Azərbaycan əyalət əncüməninin 7 maddədən ibarət tələblərini yazılı şəkildə saraya göndərdi və bunların həyata keçirilməsində israr etdi. Lakin şah ölkədə konstitusiya üsuli-idarəsinin bərqərar edilməsi, əyalət və vilayət əncümənlərinin yaradılması və s. haqqında olan bu tələbləri qəbul etmirdi.[427]

Şahın bu hərəkətinə etiraz əlaməti olaraq Təbrizdə bazar və dükanlar bağlandı, küçə nümayişləri, mitinqlər təşkil edildi. On minlərlə adam teleqrafxanaya toplanaraq məclis və saraya müraciətlərində tələblərinin qəbul olunmasını təkid etdilər.[428] Azərbaycan nümayəndələri saraya qarşı etiraz məqsədilə məclis binasında bəstə əyləşməyi qərara aldılar. Nəhayət, əyalət əncüməninin verdiyi əsas tələblər qəbul edildi.

Məclisin, Azərbaycan əyalət əncüməninin əldə etdiyi qələbə demokratik qüvvələri ruhlandırdı. Lakin şah mütləq monarxiyanı bərpa etmək fikrindən çəkinmədi. O, İranın keçmiş baş naziri Əminüssultan Atabəyi ölkəyə çağırmaq, onun vasitəsilə inqilabi hərəkatı boğmaq planını hazırlayırdı.

Atabəy aprel ayının 26-da Tehrana gəldi və mayın 2-də şah tərəfindən baş nazir vəzifəsinə təyin edildi.

---

426 H.Həllac. Tarix-e nehzət-e İran (*İran hərəkatının tarixi*), Tehran, 1312/1933, səh.38

427 Mehdiqulu Hidayət (Moxbirossəltəne). Xaterat və xətərat (*Xatirələr və təhlükələr*), Tehran, 1329/1950, səh.1930 (Sonrakı səhifələrdə: Müxbirüssəltənə, Xatirat, səh... yazılacaqdır.)

428 Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.216.

Məclisi və demokratik qüvvələri aldatmaq məqsədilə ikiüzlü siyasət aparan Atabəy hakimiyyətə keçdikdən sonra ölkənin hər tərəfində feodalların qaragüruhçu dəstələri tərəfindən əhaliyə, demokratik qüvvələrə qarşı basqınlar təşkil edildi.

Əksinqilabın hazırladığı basqınların qarşısını almağa çalışan demokratik qüvvələr məclisin xüsusi komissiyasının hazırladığı "Mütəmmeme-qanune-əsasi"nin ("Konstitusiyanın tamamlayıcı hissəsi")[429] məclisdən keçirilməsini ciddi surətdə tələb etdilər. Konstitusiyanın isə xalq üçün əhəmiyyətli olan maddələri. məhz bu tamamlayıcı əlavə hissədə idi. Sosial-demokrat təşkilatının rəhbərliyi ilə Təbrizdə başlanan ümumi tətil və nümayişlərdə, may və iyun aylarında Azərbaycan əncüməninin məclisə göndərdiyi teleqramlarda konstitusiyanın tamamlayıcı hissəsinin təsdiq edilməsinin gecikdirilməsinə qarşı etirazlar olundu. Tehran əncümənləri, İsfahan, Rəşt, Qəzvin, Kirmanşah və s. vilayət əncümənləri Təbrizin tələbini müdafiə etdilər. Konstitusiyanın təsdiq edilməsi uğrunda mübarizə daha da şiddətləndi.

Bunun əksinə çalışan saray və Atabəy konstitusiyasının tamamlayıcı hissəsinin təsdiq edilməsinə qarşı mürtəce ruhanilərin müxalifətini təşkil etdilər. Böyük muctəhidlərdən Şeyx Fəzlüllah Nuri başda olmaqla mürtəce ruhanilər iri ruhani nümayəndələrindən ibarət bir komissiya yaradılması və həmnn komissiyaya məclisin qəbul etdiyi bütün qanun və qərarları təsdiq etmək hüququ verilməsi haqqında xüsusi maddə əlavə olunmasını, başqa sözlə desək, iri ruhanilərə ali qanunvericilik hüququ verilməsini tələb etdilər.

Ruhanilərin həmin tələbi və bunun ardınca şahın konstitusiyanın tamamlayıcı hissəsini imzalamaqdan imtina etməsi bütün ölkədə xalq hərəkatının yeni etiraz dalğalarına səbəb oldu. Təbrizdən məclisə göndərilmiş teleqramlardan birində belə deyilirdi: "Məgər xalq kütlələri hökumətdən şəriət qanunları tələb edirlər

---

429 107 maddədən ibarət olan "Mütəmmeme-qanune-əsasi" əhalinin hüququ, dövlət quruluşu, məclis və senat nümayəndələrinin hüququ, şah hakimiyyətinin məhdudlaşdırılması və s. məsələləri əhatə edirdi.

ki, ruhanilərin nəzarətinə ehtiyac olsun? Bizim şəriət qanunlarımız var, onu min üç yüz il bundan əvvəl peyğəmbər bizə vermişdir. Biz bütün başqa demokratik ölkələrdə hökm sürən konstitusiyalı monarxiya qanunları tələb edirik".[430]

Təbrizdə hərəkatın başlanğıcında əhaliyə qoşulub, əyalət əncüməni sədrliyinə keçmiş mülkədar və möhtəkir ruhanilərdən Hacı Mirzə Həsən Azərbaycan əyalət əncüməni kimi mühüm azadlıq mərkəzini şəriət hakimiyyəti orqanına çevirməyə cəhd edir, mülkədarların mənafeyini müdafiə edir və bu məqsədlə onların zülmündən, qarətindən əncümənə şikayət edən Qaraçəmən kəndlilərinə qarşı basqın hazırlayırdı. Müctəhidin fitnəkarlığı nəticəsində Qaraçəmən kəndi hökumət məmurlarının əlilə qarət edildi, yandırıldı, onlarla zəhmətkeş kəndli həlak oldu, qadınlar, qocalar başqa kəndlərə qaçmağa məcbur oldular.

Əksinqilab qüvvələri sarayın və Atabəyin başçılığı ilə inqilabı yatırmaq, məclisi və əncümənləri dağıtmaq məqsədilə müxtəlif vasitələrdən istifadə etməyə çalışırdılar. İnqilabın mahiyyət və məqsədini, onun qələbəsi yollarını düzgün dərk edən sosial-demokrat təşkilatları əldə edilmiş konstitusiyanın təsdiq olunması və həyata keçirilməsi imkanını kütlələrin gücündə, onların silahlanmasında görürdülər.

Təbriz sosial-demokrat təşkilatı və Azərbaycan əyalət əncüməni 1907-ci ilin əvvəllərindən başlayaraq əhalini silah almağa, silah işlətməyi öyrənməyə, hərbi təlim keçməyə çağırır və təşviq edirdi. Kəsrəvinin "Azadlıq baharı" adlandırdığı 1907-cİ ilin aprel, may, iyun aylarında Təbrizin mütərəqqi sinif və təbəqələrə mənsub əhalisindən imkanı olan bütün şəxslər tüfəng, patron alaraq silahlı mübarizlərə qoşulmuşdular. Minlərlə silahlı adam hər həftə cümə günləri, sonralar isə hər gün axşam vaxtı şəhərin iri meydanlarında, şəhərdən kənar geniş çöllərdə toplanaraq silah işlətməyi öyrənir, hərbi təlim keçirdilər. Təbrizin hər bir məhəlləsi, hər bir rayonu silahlı inqilabçılar düşərgəsinə çevrilmişdi.[431]

---

[430] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.309.
[431] Yenə orada, səh.234.

Təbrizin sosial-demokrat təşkilatı nümayəndələri Azərbaycan vilayətlərində yerli əncümənlərlə, o cümlədən Urmiya, Salmas və Xoy əncümənlərilə birlikdə silahlı dəstələrin təşkilində fəal iştirak edirdilər. Artıq 1907-ci ilin iyun ayında Urmiya şəhərində yüzlərlə silahlı mücahid şəhərin təhlükəsizliyini qorumaq üçün Urmiya vilayət əncüməni göstərişlərini həyata keçirməyə hazır idi.[432] Salmasda əksinqilabi qarətçilərin şəhərdən və onun ətrafından qovulub pərakəndə edilməsi yalnız Salmas vilayət əncüməninin sədri Hacı Pişnamazın təşkil etdiyi silahlı dəstələrin fədakarlığı ilə mümkün olmuşdu.[433] Xoyda sosial-demokratların təşkil etdikləri silahlı dəstələr şəhəri və onun ətrafını qorumaqda uzun müddət Maku feodalı İqbalüssəltənənin qaragüruhçu dəstələri ilə vuruşmuş və fədakarlıq göstərmişdilər.

Sosial-demokrat təşkilatlarının və demokratik əncümənlərin fəaliyyətilə silahlı dəstələrin təşkil edilməsi təkcə Azərbaycanda deyil, başqa mühüm şəhərlərdə, o cümlədən Tehranda da həyata keçirilmişdi. Tehran sosial-demokrat təşkilatı ilə həmkarlıq edən əncümənlər 1907-ci ilin ortalarında minlərlə silahlı mücahidi öz sıralarına toplamışdılar. Tehran əncümənlərindən bir neçəsi, xüsusilə "Azərbaycan", "Qeyrət", "Müzəffəri" əncümənləri Tehranda yaşayan azərbaycanlılar tərəfindən təşkil edilmiş və onların üzvlərindən çoxu silahlanmışdı. Tehran sosial-demokrat təşkilatı "Azərbaycan" əncüməni daxilində təşkil edilmiş və fəaliyyət göstərmişdir. Tehranda "Azərbaycan" əncüməninin üç minə yaxın üzvü olmuşdu.[434]

Azərbaycanlıların təşkilatçılıq fəaliyyətindən, onların silahlanmasından təşvişə düşən şah bu fəaliyyətin mərkəzi olan Təbrizə qarşı fitnəkarlıq törətməyə başladı.

1907-ci il mayın əvvəllərində Azərbaycan əyalət əncüməninin görkəmli üzvlərini, nüfuzlu natiqləri, sosial-demokrat təşkilatı başçılarını (24 nəfəri) məhv etmək məqsədilə şahın Təbrizə

---

[432] "Fəryad" qəzeti, 7 iyun 1907-ci il No 14.

[433] Yenə orada, No 18.

[434] Abbas Eskəndəri. Ketab-e arezu və ya tarix-e məşrute-ye İran (*Arzu kitabı və ya İranın məşrutə tarixi*), cild 2, Tehran, 1320/1941, səh.21

göndərdiyi qəsdçilər mayın 21-də mücahidlər tərəfindən tutuldular və Məhəmmədəli şahın bu fitnəkarlığı boşa çıxdı.

Mayın ikinci yarısında Qaradağdan Təbriz üçün ərzaq malları göndərən əncümən nümayəndələri Böyük xan Çələbiyanlı tərəfindən kəndlərdən qovulub çıxarıldılar.[435] Nümayəndələri müdafiə edən kəndlərə basqın edildi. Üzümdil mahalının kəndlərindən bir neçəsi qarət edildi, yandırıldı və 250 nəfərdən çox kəndli həlak oldu. Mayın 22-də əyalət əncüməni nümayəndələri Təbrizə qayıtdılar. Mayın 25-də Böyük xanın atlıları Qaradağın mərkəzi Əhər şəhərinə hücum etdilər, sonra Təbrizə tərəf yürüşə başladılar. Onlar Təbrizi tutmaq, əyalət əncümənini və digər demokratik təşkilatları dağıtmaq niyyətində idilər.[436] Lakin Təbriz sosial-demokrat təşkilatının təşəbbüsü ilə Azərbaycan əyalət əncüməni Təbrizin müdafiəsini inqilabın silahlı qüvvələrinə tapşırdı, şəhər hər tərəfdən möhkəmləndirildi, inqilabçılar əllərində silah qırmızı bayraqlarla nümayişə çıxdılar, əhali ayağa qalxdı. Təbriz mitinqlərində sosial-demokrat təşkilatı üzvlərindən bəziləri Məhəmmədəli şahın hakimiyyətdən kənar edilməsi tələbini irəli sürdülər.[437] Azərbaycanın məclisdəki nümayəndələri Təbrizin inqilabçılar tərəfindən mütdafiəsi haqqında Azərbaycan əyalət əncümənininin qərarı ilə razılaşdılar.

Qaradağda baş vermiş qırğın xəbəri İran şəhərlərinə yayıldı. May ayının 26-da Tehranda minlərlə adam Qaradağ cinayətlərinə qarşı etiraz məqsədilə məclis binasının ətrafına toplaşdı. Həmin gün məclis Qaradağ hadisəsini müzakirə etdi. Məclis nümayəndələri Əraq, Şiraz, Qum, Talış feodallarının zülmündən, qətl və qarətlərindən danışdılar, baş nazir Atabəy hökumətindən narazı olduqlarını bildirdilər. Məclis saray qarşısında Azərbaycan əyalət

---

[435] Böyük xan şah tərəfnndən Qaradağ köçərilərinə elbəyi təyin edilmiş Rəhim xanın oğlu idi.
[436] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.318, 337.
[437] Yenə orada, səh.330.

əncüməninin irəli sürdüyü: "Böyük xanı, Rəhim xanı hökumət işlərindən qovmaq, Rəhim xanı həbsə almaq və Təbrizin təhlükəsizliyini təmin etmək" tələblərinin icrasını qoydu.[438]

May ayının 27-də demokratik əncümənlərin və sosial-demokrat təşkilatının başçılığı ilə Tehranda ümumi tətil elan edildi. Bazar əhli, dövlət qulluqçuları, məktəb tələbələri və müəllimləri, sənətkarlar, bütün zəhmətkeş kütlələr məclisin bağına, ətraf küçələrə və meydanlara toplaşdılar, bir neçə yerdə mitinq keçirildi. Məclis qarşısında toplanmış mitinqdə Məhəmmədəli şahın Fransa kralı XVI Lüdovik kimi məhkəməyə verilməsi və cəzalandırılması tələb olundu.[439]

Demokratik əncümənlərin, ümumiyyətlə, mübariz kütlələrin etirazı və təzyiqi nəticəsində əksinqilab güzəştə getməyə, Azərbaycan əyalət əncüməni tələblərini qəbul etməyə məcbur oldu. Rəhim xan ədliyyə naziri tərəfindən Tehranda həbsə alındı. Böyük xan hökumət işlərindən qovuldu.[440]

İnqilabi hərəkatı boğmaq, mütləqiyyəti bərpa etmək üçün şah və Atabəy daha təhlükəli fitnələrə əl atdılar. 1907-ci ilin iyun ayından başlayaraq Urmiya və Salmas vilayətləri ətrafındakı kürd feodalları kəndləri çapıb-talayır, əhalini qarət edirdilər. Azərbaycan əyalət əncüməni tərəfindən əhalinin təhlükəsizliyini qorumağa göndərilmiş Urmiya ordusu və Urmiya mücahid dəstələri Məcdüssəltənənin başçılığı ilə qarətçilərin qarşısını ala bildilər.[441] Lakin avqustun 3-də Osmanlı dövlətinin əsgərləri gözlənilmədən sərhəddi keçərək, Urmiyadakı qoşun hissələrini top atəşinə tutdular. Kürd feodallarının qarətçi dəstələri osmanlılarla birlikdə Urmiya və Salmas vilayətlərinin bir çox kəndlərini talayıb yandırdılar, yüzlərlə adamı məhv etdilər. Əhali şəhərlərə qaçmağa məcbur oldu.

---

[438] Birinci məclisin protokolları, səh.173.
[439] Ə.Kəsrəvi. İranın koistitusiya tarixi, səh.343.
[440] Birinci məclisin protokolları, səh.174.
[441] Bax: "Fəryad" qəzeti, 7 iyun, 2 sentyabr 1907-ci il, No 14, 22.

Urmiya, Salmas vilayət əncümənləri, Azərbaycan əyalət əncüməni məclisdən Osmanlı basqınlarının qarşısını almaq üçün hərbi və diplomatik tədbirlər görməyi tələb etdilər: Avqustun 9-da Tehranda 31 əncümənin nümayəndəsi məclisə toplanaraq tezliklə Urmiyada təhlükəsizlik və asayiş yaratmağı hökumətdən tələb etdi.[442] Saray və Atabəy məclisin və əncümənlərin tələbi qarşısında heç bir əməli tədbir həyata keçirmədilər. Azərbaycan şəhərlərində, Tehranda və digər vilayətlərdə mütləqiyyətə, Atabəyə qarşı nifrət daha da şiddətləndi. Osmanlı təcavüzkarlığı daxili və xarici mətbuatda geniş şərh edilir, Türkiyənin "İttihadi-tərəqqi" partiyasının Parisdə nəşr etdiyi bəyannaməsində Sultan Əbdülhəmidin İran sərhədlərinə basqını pislənirdi. İran məclisinə və Azərbayçan əyalət əkcüməninə göndərilən həmin bəyannamədə İran inqilabçılarının mübarizəsi alqışlanırdı.[443]

İran inqilabının Türkiyəyə təsirindən qorxuya düşən Sultan Əbdülhəmidin İran inqilabını boğmaqda Məhəmmədəli şaha yardım məqsədilə Azərbaycan sərhədlərinə basqın etməsi və bu faciənin Sultan Əbdülhəmidlə Məhəmmədəli şah arasında olan razılaşmadan törəməsi İran mətbuatı və siyasi əncümənlər tərəfindən ifşa edilmiş və ölkədə yayılmışdı.[444]

Azərbaycanda genişlənməkdə olan hərəkata qarşı şah və Atabəyin istifadə etdiyi vasitələrdən biri də Maku feodalı İqbalüssəltənənin qaragüruhçu dəstələri idi. 1907-ci il aprelin əvvəllərində demokratik qüvvələr Azərbaycan əyalət əncüməni nümayəndəsi Mirzə Cavad Natiqin yardımı ilə Makuda və onun rayonlarında əncümənlər təşkil etdikdə İqbalüssəltənə Makudan qovulmuş,

---

[442] "Həblülmətin" qəzeti, No 88, 12 avqust 1907-ci il.
[443] Bax: M.Məlikzadə. Tarixe-inqilab, III cild, 1330, səh.172-174.
[444] Bakıda çıxan burjua qəzeti "Tazə həyat" belə Türkiyə qoşunlarının Cənubi Azərbaycan torpaqlarına basqınının təşkil edilməsində İranın İstanbuldakı səfiri Ərfəüddövlənin fəaliyyətini pisləmişdi. (Bax: "Tazə həyat" qəzeti, No 118, 12 sentyabr 1907-ci il).

Qafqaza getmişdi.[445] Makuda və onun rayonlarında yaranmış əncümənlər başqa demokrat əncümənlər kimi əhalinin ilkin ehtiyaclarını təmin etməyə çalışırdılar.

İqbalüssəltənənin Qafqazda yaşadığı az müddətdə saray və Atabəy tərəfindən onun yenidən Makuya qaytarılmasına şərait hazırlanırdı. May ayının axırlarında İqbalüssəltənə Cəlali kürdlərindən topladığı silahlı dəstələrilə Makuya və onun kəndlərinə basqın etdi. Onlarla kənd qarət edildi, 150 nəfərdən artıq adam həlak oldu. Maku xanlığında təşkil edilmiş əncümənlər dağıdıldı, əncümən üzvləri isə öldüruldü. Azərbaycan əyalət əncüməni bu xəbəri məclisə çatdırdı və hökumətdən İqbalüssəltənənin cinayətlərinin qarşısını almağı tələb etdi.

Şah və Atabəy tələbə etinasız yanaşdılar. Azərbaycan əyalət əncüməninin məclisdə olan Azərbaycan nümayəndələrinə teleqramda deyilirdi: "Bütün bu cinayətlərin mənşəyi hökumət özüdür. Tehranda heç bir iş görmək mümkün deyildirsə, siz Azərbaycana qayıdın, əl-ələ verib dərdlərimizin əlacına çalışaq".[446]

İqbalüssəltənənin qaragüruhçu dəstələri Maku və Xoy vilayətlərinin mühüm hissəsini tutaraq, Xoy şəhərinin 25 kilometrliyinə qədər çatmışdı. Xoydakı sosial-demokrat qrupu Mirzə Cəfər Zəncaninin başçılığı ilə inqilabi qüvvələri sürətlə birləşdirərək şəhəri müdafiə etdi. Vuruşmada yüzlərlə döyüşçü həlak oldu. İqbalüssəltənənin qarətçiləri Xoya girə bilməsələr də, kəndləri çapıb-talayır və inqilab tərəfdarlarına divan tuturdular.

Maku və Xoydakı hadisələr bütün İranı həyəcana gətirdi. İsfahanda vilayət əncüməninin göstərişilə 3 gün milli matəm elan olundu, bütün bazar və dükanlar bağlandı 40 min nəfərin iştirakı ilə etiraz mitinqi keçirildi.[447]

---

[445] "Fəryad" qəzeti, No 6, 7 aprel, 1907-ci il.

[446] Ə. Kəsrəvi. İranın konstitusiya tarixi, səh.366.

[447] Daneşvər Ələvi.Tarix-e məşrute-ye İran və conbeş-e vətənpərəstan-e Esfehan və Bəxtiyari (*İran məşrutə tarixi və İsfahan və Bəxtiyari vətənpərvərlərinin hərəkatı*), Tehran, 1335/1956, səh.408

Avqust ayının 5-də Tehranda məclis binası qarşısında izdihamlı mitinq təşkil edildi, Maku, Urmiya və ölkənin digər yerlərində törədilmiş qanlı hadisələr əleyhinə nitqlər söylənildi. "Azərbaycan" əncüməni adından çıxış edən Yəhya Mirzə öz nitqində belə dedi: "Məclis Atabəyin əleyhinə heç bir iş görməyəcəkdir, çünki nümayəndələrdən bəziləri Atabəy tərəfindən satın alınmışdır".[448] Doğrudan da, Əminüssultan Atabəy məclis nümayəndələrindən çoxunu öz tərəfinə çəkmiş və bəzilərini bitərəfləşdirmişdi. O, bəzi siyasi cəmiyyətlərlə də əlaqəyə girmiş, onlara nüfuz etmişdi.

Sosial-demokrat təşkilatları Atabəyin əksinqilabi və ikiüzlü siyasətinə qarşı kəskin mübarizə apararaq onun tezliklə istefaya çıxmasını tələb etdilər. Tehran sosial-demokrat təşkilatı tərəfindən avqustun 25-də nümayəndə sifətilə şəxsən Atabəylə danışığa göndərilmiş Sadıq Tahbaz təşkilatın tələbini Atabəyə və nazirlərə çatdıraraq bildirmişdi ki, Atabəy və onun hökuməti fitnəkar, ikiüzlü siyasətə son qoymasalar, sosial-demokrat təşkilatı ciddi ölçü götürməyə məcbur olacaqdır.[449] Xoy sosial-demokrat qrupundan avqustun axırlarında Tehrana vurulmuş teleqram da təqribən eyni məzmunda idi. Xoy sosial-demokrat qrupu Maku feodalı İqbalüssəltənəyə qarşı mübariz qüvvələri səfərbər etdikdə İqbalüssəltənə Atabəydən aldığı teleqramı Xoya göndərmiş və basqınları Atabəyin göstərişi ilə təşkil etdiyini bildirmnşdi.[450] Həmin teleqram Xoy, Təbriz, Tehran əncümənlərində və məclisin iclaslarında oxunmuş və bununla sübut olunmuşdu ki, vilayətlərdə, xüsusilə Makuda davam edən qarətlər və qırğınlar Atabəyin göstərişilə törədilmişdi.

Atabəy və onun tərəfdarları İran sosial-demokrat təşkilatlarının, demokatik əncümənlərin, xalq kütlələrinin tələblərinə əhəmiyyət vermədilər, mütləq monarxiyanı bərpa etmək üçün var qüvvələrilə çalışdılar. Lakin avqust ayının 31-də Atabəy məclisdən çıxarkən Tehran sosial-demokrat təşkilatının üzvü təbrizli

---

[448] Ə. Kəsrəvi. İranın konstitusiya tarixi, səh.438.
[449] Ə.Azəri. Xorasan üsyanı, səh.35.
[450] Bax: "Əncümən" qəzeti, Təbriz, 16 rəcəb 1325/25 avqust 1907-ci il, No124.

Abbas ağa tərəfindən öldürüldü. Sui-qəsdi həyata keçirdikdən sonra Abbas ağa intihar etdi. Qəsdin hazırlanmasında sosial-demokrat təşkilatının görkəmli başçılarından biri məşhur inqilabçı Heydər Əmioğlunun bilavasitə iştirakı olmuşdur.[451]

Bu terrorçuluq aktı, əlbəttə, əsl inqilabi mübarizə üsulu olmasa da, inqilabın Atabəy kimi qatı və barışmaz düşməninin məhv edilməsi geniş xalq kütlələri tərəfindən böyük rəğbətlə qarşılandı. Sentyabrın 6-da demokratik əncümənlərin başçılığı ilə 20 minə qədər adam Abbas ağanın xatirəsini yad etmək üçün onun məzarı üstünə yığışdı. Görkəmli inqilabçılardan Məlekülmütəkəllimin, Bəhaülvaizin həyəcanlı nitqlər söylədilər, Abbas ağanı ölkənin xilaskarı adlandırdılar.[452]

Atabəyin öldürülməsi xəbəri Təbrizdə sevinclə qarşılandı, Abbas ağa üçün məclislərdə matəm mərasimi keçirildi.[453]

Bu hadisə zamanı polis tərəfindən həbsə alınmış şəxslər "Azərbaycan" əncüməninin işə qarışması nəticəsində buraxıldılar, o cümlədən Sadıq Tahbaz ölkəni tərk etmək şərtilə azad olundu.[454]

Atabəyin öldürülməsi əksinqilab başçılarının təşvişinə, onların müvəqqəti susmasına səbəb oldu. Lakin demokratik qüvvələrə rəhbərlik edən əncümənlər, xüsusilə məclis yaranmış əlverişli şəraitdən istifadə edə bilmədi. Nümayəndələrin əksəriyyəti, o cümlədən ruhanilər özlərinin tərəddüdçü və liberal siyasətlərindən əl çəkmədilər. Məclisin razılığı ilə baş nazir vəzifəsinə keçirilmiş Naserülmülk və onun nazirləri heç bir faydalı tədbir həyata keçirmədilər. Əksinqilab yenə də var qüvvəsilə məclisi, əncümənləri, ümumiyyətlə, bütün demokratik nailiyyətləri məhv etmək üçün yeni hücumlar hazırlayırdı.

---

[451] Heydər Əmioğlunun bu dövrdəki inqilabi fəaliyyəti ilə əlaqədar bax: А.И.Шамиде: Гейдар Ами оглы, Баку, 1973, səh.21-35; Rəhim Rzazadei Məlek. Çekide-ye enqelab-e Heydər xan Əmioğlu (*Heydər xan Əmioğlu inqilabının xülasəsi*), Tehran, 1351/1972

[452] Dövlətabadi. Tarixe-moaser, II cild, səh.145; M.Məlikzadə. Tarixe-inqilab, III cild, səh.49.

[453] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.454.

[454] "Həblülmətin" qəzeti, No135, 8 oktyabr 1907-ci il.

Çar hökumətilə ingilis imperialistləri İranı öz aralarında “nüfuz dairəsinə” bölmək haqqında 1907-ci il avqustun 31-də imzaladıqları sazişi sentyabrın 24-də İran hökumətinə bildirdikdə ölkədə imperialistlərə qarşı nifrət və həyəcan daha da gücləndi. Çünki saziş İranı ərazi cəhətdən bölüşdürmək üçün bağlanmış və hər iki təcavüzkar dövlət nəticə etibarilə İran inqilabını boğmaq, onun qonşu xalqlara göstərdiyi təsirin qarşısını almaq məqsədi güdürdü. “Məclis sazişin bağlanmasına etiraz etdi. Demokratik əncümənlər sazişi imperialist dövlətlərin təcavüzkarlıq sənədi adlandıraraq bütün qüvvələri imperialist siyasətinə qarşı mübarizəyə çağırdılar. İran xarici işlər nazirliyinin sazişi bağlayan dövlətlərin məktubuna verdiyi cavabında İranın həmin sazişlə hesablaşmağa məcbur olmadığı bildirildi. İran dövlətinin rəsmi cavabı belə olsa da, şah və irticaçılar həmin sazişə və onu bağlayan dövlətlərə İranda inqilabi qüvvələrə qarşı mübarizədə dayaq kimi baxırdılar. Bu sazişi qəbul etmək cəhdi İran əksinqilabı ilə xarici imperialistlərin sövdələşməsi nəticəsi idi. Məhz buna görə şah tərəfindən inqilaba qarşı yeni həmlələrin hazırlanması daha da sürətləndirildi.

Dekabrın 16-da sarayın nəqliyyat vasitələrində çalışan yüzlərlə mehtər, qatırçı, faytonçu, fərraş və b. ibarət qaragüruhçu dəstələr və mürtəce ruhanilər Topxana meydanına yığışdılar.

Sarayın silahlı basqın hazırlanması xəbəri ölkənin mühüm rayonlarında inqilabçı kütlələrin həyəcanına səbəb oldu. Azərbaycan əyalət əncüməni Məhəmmədəli şahı devirməyə çağıraraq məclisə, ölkənin əyalət və vilayətlərinə bu barədə xəbər göndərdi. Rəşt, Qəzvin, İsfahan, Şiraz, Kerman və Məşhəd əncümənləri Azərbaycan əyalət əncüməni ilə həmrəy olduqlarını bildirdilər. Azərbaycan əyalət əncüməni eyni zamanda Tehranda olan azərbaycanlı əsgərlərə, zabitlərə müraciətlə göndərdiyi teleqramda onlardan məclisin müdafiəsini tələb etdi.[455]

---

[455] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.518, 520.

Bu iki mühüm təşəbbüs sarayı və şahı təşvişə saldı. Lakin saray və mürtəce qüvvələr tərəfindən inqilaba qarşı törənmiş fitnəkarlıqların və basqınların arası kəsilmədi. 1908-ci ilin birinci yarısında bir çox əyalət və vilayətlərdə əksinqilabçı ünsürlər yenidən baş qaldırdılar. Azərbaycan əyalətində feodallar və mürtəce ruhanilər demokratik qüvvələrə qarşı xüsusilə kəskin mübarizəyə başladılar. Bu da məclisin birinci çağırış dövründə demokratik qüvvələrin, onların təşkilatlarının yerlərdə əhalinin ehtiyacı ilə əlaqədar müəyyən islahatlar, dövlət idarələrində bəzi dəyişikliklər aparmağa səy göstərməsi və bu təşəbbüslərin Cənubi Azərbaycanda daha cəsarətlə həyata keçirilməsi ilə əlaqədar idi. Azərbaycan əyalət əncüməni bütün məhkəmə işlərini mütərəqqi ruhanilərin, əhali tərəfindən seçilmiş yerli əncümənlərin iştirakilə təşkil edilmiş məhkəmələrin ixtiyarına vermiş və bu məhkəmələrin qərarlarının icrasını hökumət məmurlarının öhdəsinə qoymuşdu.[456] Əhalinin çox işlətdiyi ərzaq mallarının qiymətini sabitləşdirmək və möhtəkirliyin qarşısını almaq Azərbaycan əyalət əncüməninin həyata keçirdiyi faydalı tədbirlərdən biri idi.

Bundan əlavə 1907-ci ilin əvvəllərindən mütləqiyyəti bərpa etmək üçün sarayın fitnəkar niyyətləri aşkara çıxdıqda əyalət əncüməni mütləqiyyətin keçmiş məmurlarını Azərbaycan idarələrindən uzaqlaşdırmağa başladı. Xüsusilə Qaraçəmən hadisəsindən sonra əyalət əncüməni əməli surətdə Azərbaycanda hakimiyyəti və bütun silah ehtiyatlarını öz ixtiyarına keçirdi. Təbriz sosial-demokrat təşkilatının silahlı mücahid dəstələri təşkil etməsinə yardım etdi. Azərbaycan, əyalət əncüməni Cənubi Azərbaycanda demokratik üsuli-idarə, "Əncümən hakimiyyəti" yaratdı, mərkəzdən göndərilmiş valilərin hökumət işlərinə müdaxilə etməsinə yol vermədi. 1907-ci ilin yanvar ayında Cənubi Azərbaycan valiliyinə təyin edilmiş Nizamülmülk həmin ilin mayında əyalətdən getdi. Avqust ayında mütləqiyyətin köhnə məmurlarından Fərman-

---

[456] Ketab-e abi. Moraselat və moxaberat dər bab-e ouza-e İran (*İrandakı vəziyyətə dair yazışmalar və teleqraflar*), No1 1906-1913-cü illər (tərcümə), Tehran, 1913, səh.287-291(Sonrakı səhifələrdə: Ketabe abi, səh... yazılacaqdır.)

fərma Cənubi Azərbaycan valisi təyin edilsə də, saray və əksinqilab gözlədiyi nəticəni əldə edə bilmədi. 1908-ci ilin may ayının ortalarında Müxbirüssəltənə Cənubi Azərbaycana vali göndərildi. O, yalnız əyalət əncüməninin qoyduğu qayda-qanun əsasında hökumətdə iştirak edə bilərdi.

Azərbaycan əyalət əncüməni təkcə Təbrizdə deyil, bütün Cənubi Azərbaycanda vilayət əncümənlərinin fəaliyyətinə istiqamət verməklə hakimiyyəti öz əlində toplamışdı. 1907-ci il avqustun 24-də çar hökumətinin siyasi nümayəndəsinin məlumatı da bunu təsdiq edir: “Azərbaycanda çoxdan bəridir ki, bütün hakimiyyət yerli əncümənin ixtiyarındadır. Bütun İranda böyük hörmətə və nüfuza malik olan bu əncümənin Tehrandakı şöbəsinin məsləhətləri məclis nümayəndələri tərəfindən məmnuniyyətlə qəbul olunur”.[457]

Şah və onun ətrafında toplanmış mürtəce qüvvələr tərəfindən 1908-ci ilin aprel-may aylarından hazırlanmaqda olan çevriliş həmin il iyunun 23-də həyata keçirildi. Bir gün əvvəl şah İran kazak briqadasının komandiri polkovnik Lyaxovu polis və digər inzibati orqanlar da daxil olmaqla Tehrandakı bütün silahlı qüvvələrin başçısı təyin etdi.[458] Şahdan məclis binasında, Sepəhsalar məscidində və başqa yerlərdə cəmlənmiş inqilabçıları tərk-silah etmək əmrini alan Lyaxov iyunun 23-də səhər tezdən inqilabçılara qarşı hərbi dəstələr göndərdi. Polkovnik Lyaxovun başçılığı ilə əksinqilab qüvvələrinin hücumlarına qarşı məclisin müdafiəçiləri bir saat, “Azərbaycan”, “Müzəffəri” əncümənləri və digər yerlərdə toplanan döyüşçülər isə yeddi saat müqavimət göstərə bildilər. Məclisin, “Azərbaycan” və “Müzəffəri” əncümənlərinin binaları və bir neçə başqa evlər top atəşləri altında dağıdıldı, qarət edildi.[459] Tehran sosial-demokrat təşkilatının görkəmli başçılarından Mirzə İbrahim Təbrizi, Məlekülmütəkəllimin, Mirzə Cahangir

---

[457] Сборник дипломатических документов, касающихся событий в Персии (СДД), вып. I, 1911, səh.264.

[458] Н.П.Мамонтов. Очерки современной Персии, СПб., 1909, səh.123.

[459] Dövlətabadi. Tarixe-moaser, II cild, səh.632.

xan, Qazi Ərdaqi həlak oldular, Seyid Camaləddin Vaiz Həmədana qaçsa da, orada tutuldu və Brucerddə öldürüldü. Tehranın hər tərəfində əncümənlər, qəzet redaksiyaları, hətta ən kiçik yığıncaq mərkəzləri belə dağıdıldı. 300 nəfərdən çox konstitusiyaçı həlak oldu.[460] Məclis nümayəndələrindən və konstitusiya tərəfdarlarından çoxu həbs və sürgün edildilər. Bəzi inqilabçılar xarici dövlətlərin səfirliklərində gizləndilər, bir çoxu gizli surətdə ölkənin müxtəlif vilayətlərinə, hətta xarici ölkələrə qaçmağa məcbur oldu.

Əksinqilab bütün İranda hücuma keçdi. Vilayətlərdə, mühüm şəhərlərdə konstitusiya tərəfdarlarına, demokratik əncümənlərə və təşkilatlara basqınlar oldu. Bir çox vilayətlərdə irtica demokratik qüvvələrə üstün gəldi.

Ərdəbil və Meşkin şəhərlərində əncümən başçılarına, görkəmli inqilabçılara divan tutuldu. Lakin Xoy, Salmas və Urmiya şəhərlərində vilayət əncümənləri, demokratik təşkilatlar öz fəaliyyətlərini dayandırmadılar, xüsusilə Təbrizdə inqilabi hərəkat daha ciddi şəkil aldı, burada Azərbaycan əyalət əncüməni, Təbriz sosial-demokrat təşkilatı və məhəlli əncümənlər yeni inqilabi mübarizəyə, qəti döyüşlərə hazırlaşmağa başladılar.

## 4. CƏNUBİ AZƏRBAYCAN - İRAN İNQİLABININ MƏRKƏZİ

Əksinqilab 1908-ci il 23 iyun çevrilişindən əvvəl Cənubi Azərbaycan vilayətlərində, xüsusilə onun mərkəzi Təbrizdə də hazırlıq aparmışdı. Bu hazırlıq Təbrizin Dəvəçi məhəlləsində əvvəlcə inqilab tərəfdarı kimi hərəkata qoşulmuş, lakin inqilabın inkişafında əksinqilabçı kimi ifşa edilmiş, Təbrizdən qovulmuş Mir Haşım və digər irticaçıların fəaliyyəti ilə başlanmışdı. Onlar başçılıq etdikləri "İslamiyyə" əncümənini də əksinqilab ocağına çevirmişdilər. Məhəmmədəli şahın pulu ilə gücləndirilmiş "İslamiyyə" əncüməni 1908-ci ilin fevral ayından Azərbaycan dilində

[460] Н.П.Мамонтов. Очерки современной Персии. səh.135.

“Molla əmi” adlı qəzet nəşr etdirməyə başlamışdı.[461] “İslamiyyə” əncüməni “Molla əmi” qəzetində Azərbaycana əyalət əncüməni və Təbriz sosial-demokrat təşkilatı başçılarına, xüsusilə Əli Müsyöyə qarşı ittiham və iftiralarla çıxış edir, buraxdığı vərəqələrdə inqilabçıları “babi”, dinsiz adlandırır, dindar kütlələri hərəkatdan uzaqlaşdırmağa çalışırdı.[462] “İslamiyyə” əncüməni və şəxsən Mir Haşım başlıca olaraq Dəvəçi məhəlləsinin sinfi simasını itirmiş ünsürlərindən, habelə öz tərəfdarı olan seyidlərdən ibarət muzdla tutulmuş tüfəngçiləri inqilabçılara qarşı qaldırdı.

1908-ci il yanvarın 30-da “İslamiyyə” və Mir Haşımın tərəfdarı olan seyidlərlə vuruşma baş verdi. Vuruşmada Azərbaycan əyalət əncüməninin üzvü Hacı Mehdi Kuzəkunaninin evi yandırıldı, hər iki tərəfdən 20 nəfər öldürüldü.[463]

Fevralın 9-da yenidən baş vermiş toqquşmada yenə də bir neçə nəfər həlak oldu. Mir Haşım Sorxab və Bağmeşə[464] məhəllələrinin silahlı qüvvələrini də əksinqilab sıralarına cəlb edə bildi.

Məhəmmədəli şahın Təbrizdə apardığı hazırlıq işlərindən biri də şahsevən Rəhim xan Çələbiyanlını və müctəhid Mirzə Həsəni gizli tapşırıqla Cənubi Azərbaycana, Təbrizə göndərməsi idi. Mirzə Həsən gəldikdən sonra 1907-ci ildə onunla birlikdə Təbrizdən qovulmuş mürtəce ruhanilərdə geri qayıtdılar.[465]

1908-ci il iyunun 13-də Azərbaycan əyalət əncüməni yardım məqsədilə Tehrana göndərilmək üçün min nəfərlik silahlı qüvvə hazırladı. İyunun 16-da Məhəmmədquluxan, Səttarxan[466] və Bağırxanın başçılığı ilə 300 fədai Basmınc qəsəbəsinə göndərildi,

---

[461] E.Braun. İran mətbuatı, səh.33.

[462] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.538.

[463] Yenə orada, səh.533.

[464] Sorxab və Bağmeşə Təbrizin şimalında yerləşən məhəllələr idi.

[465] Məhəmmədbağır Veycuyeyi. Bəlva-ye Təbriz (*Təbriz üsyanı*), 1324 qəməri/1906 miladi ili, səh.23 (Sonrakı səhifələrdə: M.B.Veycuyeyi. Təbriz üsyanı, səh... yazılacaq).

[466] Cənubi Azərbaycanda inqilabi döyüşlərin əfsanəvi qəhrəmanına çevrilmiş Səttarxan keçən əsrin 60-cı illərinin sonlarında Qaradağda xırda tacir ailəsində anadan olmuşdur. Atası hacı Həsən və böyük qardaşı İsmayıl azadlıq sevən şəxslər olmuş, buna görə də hökumət məmurlarının daimi təqib və zülmünə

700 fədai isə onlarla birləşdikdən sonra Tehrana doğru yola düşməli idilər.[467]

İyunun 19-da müctəhid Mirzə Həsən Mir Haşımla birlikdə Təbrizin mürtəce ruhanilərini öz evində toplayaraq məclisin və konstitusiyanın Məhəmmədəli şah tərəfindən tezliklə məhv ediləcəyini bildirdi. Ruhanilər müctəhidin təklifi ilə inqilaba qarşı hazır olduqlarını teleqraf vasitəsilə saraya xəbər verdilər.

"İslamiyyə" əncümənin sarayla əlaqəsindən xəbərdar olan Azərbaycan əyalət əncüməni və sosial-demokrat təşkilatı müdafiə üçün hazırlığa başladı; Tehrana göndərilmək üçün Basmıncda toplanmış fədailəri Təbrizə qaytardı. Şəhərin mərkəzində nümayiş və mitinqlər təşkil edilərək əksinqilabın, xüsusilə mülkədarlar və möhtəkir ruhanilərin "İslamiyyə"də toplanıb qırğın törətməyə çalışması haqqında əhaliyə xəbər verildi.[468] Təbriz əhalisi ayağa qalxdı.

---

məruz qalmışlar. Gənc yaşlarında ikən hökumət məmurlarının Səttarxanın ailəsinə vurduğu zərbələr (İsmayıl Şimali Azərbaycan üsyançılarından məşhur qaçaq Fərhadı gizlətməsinə görə həbs edilərək Təbrizdə vəliəhd Müzəffərəddin Mirzənin əmri ilə öldürülmüşdü) onda zülmə, mütləqiyyətə qarşı nifrət hissi yaratmışdı. Vətənində hökm sürən ədalətsizliyin şahidi olan Səttar dəfələrlə dövlət məmurları ilə üzləşmiş və 1882/1883-çü ildə həbsxanaya düşmüşdü. Bütün bunların nəticəsində Səttarın üsyançı təbiəqi mövcud qüruluşla barışmaz oldu. O özü kimi silahdaşları ilə birlikdə silahlı qaçaq dəstəsi yaradaraq, ayrı-ayrı yerlərdə dövlət məmurlarının ədalətsiz, zalım hərəkətlərinə qarşı zəhmətkeş kütlələrin müdafiəçisi kimi çıxış etmiş, dəfələrlə həbsə alınmışdı. (B a x: Görkəmli inqilabçı Səttarxan, Bakı, 1972, səh.21-23). Bunlar Səttarı xalqın sevimlisi etmişdi; xalq onu hörmət əlaməti olaraq Səttarxan çağırırdı. Səttar bir müddət dövlətin silahlı dəstələrinə qəbul olunmuş, vəzifə almış, lakin bu, onun üsyankar təbiəti ilə uyğun gəlmədiyindən dövlət qulluğundan imtina etmiş, Təbrizdə xırda alverlə məşğul olmuşdur. Təbrizdə mütləqiyyətə qarşı üsyan başladıqda inqilab döyüşçüləri sırasında Səttarxan da var idi. 1908-ci ilin əvvəllərində Təbriz sosial-demokrat təşkilatının təşəbbüsü ilə şəhərin hər məhəlləsində fədai mərkəzləri yaradıldıqda Səttarxan yaşadığı Əmirəqız məhəlləsinin mücahidlərinə başçı təyin olundu.

[467] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh. 624-625.

[468] Yenə orada, səh.629.

İyunun 23-də Tehranda məclisə və əncümənlərə qarşı əks-inqilab hücumları ilə eyni zamanda Təbrizdə də mürtəce qüvvələr Dəvəçi məhəlləsindən əyalət əncüməninə, mücahid mərkəzlərinə qarşı yürüşə başladılar. Nobar, Xiyaban məhəllələrinin mücahidləri Bağırxanın başçılığı ilə Meydan çayı kənarında[469] əksinqilab qüvvələrinin qarşısını aldılar. Şəhərin qərb hissəsi Əmirəqız məhəlləsində isə Səttarxanın başçılığı altında olan fədailər Mərənd və Qaradağ atlılarının hücumunu dayandırdılar. Əksinqilab bütün şəhəri tuta bilmədi. Tehranda məclisin və əncümənlərin top atəşi altında dağıdılması xəbərinin teleqraf vasitəsilə Təbrizə çatması konstitusiyaçıların ruh düşkünlüyünə səbəb oldu. Əyalət əncüməni nümayəndələrindən İclalülmülk və Bəsirüssəltənə çar konsulxanasında, Mirzə Hüseyn Vaiz Fransa konsulxanasında bəstə əyləşdilər, başqaları isə müxtəlif yerlərdə gizləndilər. Beləliklə, əyalət əncüməni dağıldı.[470] Lakin Təbriz sosial-demokrat təşkilatı nəinki ruhdan düşmədi, hətta özünün Əli Müsyö, Hacı Əli Davafuruş kimi möhkəm iradəli başçılarının rəhbərliyilə mücahidlərin, bütün azadlıq sevənlərin inqilabi mübarizəsinə istiqamət verərək əksinqilabçılara müqavimət göstərdi, onların Dəvəçi, Sorxab və Bağmeşə məhəllələrinə arasıkəsilməyən Həmlələrinin qarşısını aldı. Şiddətli vuruşmalar iyunun axırınadək davam etdi. İyulun 1-də şahın əmri ilə 1000 nəfər silahlı Qaradağ atlısı Böyük xan Çələbyanlunun başçılığı altında Təbrizə hücuma keçdi.[471] Böyuk xan qaragüruhçuları Xiyaban məhəlləsinə qarşı hücumda 80 nəfər itirdilər. İyulun 2-də onlar "İslamiyyə" əncüməninə tabe olan Bağmeşə məhəlləsini belə qarət etdilər.[472]

---

[469] Haqqında bəhs etdiyimiz dövrdə Təbrizdə 12 rəsmi məhəllə var idi: Əmirəqız, Dəvəçi, Sorxab, Şeşgilan, Bağmeşə şəhərin şərqindən qərbinə doğru axan Meydan çayının (Mehranrudun) sağında, digər məhəllələr çayın sol qolunda yerləşirdi. Vuruşmalar dövründə Əmirəqız istisna olmaqla çayın sağ tərəfi əksinqilabın, sol tərəfindəki məhəllələr isə inqilabçıların əlində olmuşdur.

[470] Bax: Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.678.

[471] M.B.Veycuyeyi. Təbriz üsyanı, səh.25.

[472] Müxbirüssəltənə öz xatirələrində bu atlıların sayını şişirdərək 5000 nəfər göstərmişdir. Bax: Muxbirüssəltənə. Xatirat, səh.230; M.B.Veycuyeyi. Təbriz üsyanı, səh.25.

1908-ci il iyunun 23-dən iyulun 10-dək əksinqilab bütün şəhəri tutmaq məqsədilə Əmirəqız, Nobar və Xiyaban məhəllələrinə qarşı daimi hücumlar təşkil etdi. Lakin Təbrizin qorxmaz mücahidləri tərəfindən bu hücumların qarşısı alınır və əksinqilabın irəliləməsinə imkan verilmirdi. Bu 17 gün ərzində əksinqilabçılar döyüş xəttində yerləşən Məcidülmülk mağazalarını, əyalət əncüməni üzvlərindən İclalülmülk, Müinürrüəya və Əminüttüccarın, daha sonra sosial-demokrat təşkilatının başçılarından Gənceyinin evlərini və bir çox dükan və mağazaları qarət etdilər, yüzlərlə ailənin var-yoxunu taladılar. Onlar hətta əyalət əncüməni binasını da qarət etdilər. Lakin Səttarxanın mücahidləri binanı qaraküruhçulardan təmizləyib yenidən onun üzərində inqilab bayrağını dalğalandırdılar.[473]

Şahın əmrilə Tehrandan Məlayir alayı, Qaradağdan Rəhim xanın başçılığı ilə 1500 atlıdan ibarət dəstə iyulun 9-da Təbrizin əksinqilab qüvvələrinə köməyə gəldi və Təbrizin cənub-şərqində yerləşən Sahibe-divan bağını tutdu.

Şəhərin varlılarından çoxu, xüsusilə çar konsulu Paxitonovla əlaqədə olan tacirlər işə qarışaraq, bəzi hərəkat başçıları ilə danışığa başladılar. Onlar təkcə Təbrizin bir neçə məhəlləsinin şaha müqavimət göstərməsilə konstitusiyasının bərpa edilməsinin mümkün olmayacağı fikrini yaymaqla mücahidləri ruhdan salmağa çalışırdılar. İyulun 13-də Molla Həmzənin başçılıq etdiyi mücahidlər Xiyaban və Maralan səngərlərində döyüşü dayandırıb, əksinqilab qüvvələrinə yol verdilər.[474] Həmin gün Rəhim xan öz atlıları və Məlayir alayı ilə birlikdə şəhərə girərək Xiyaban məhəlləsindən keçib, Bağe-şimala daxil oldu. Bu hadisə ilə əlaqədar Təbrizin digər mühüm məhəllələrində də irticaçılara qarşı hərbi müqavimət dayandırıldı, təkcə Əmirəqız məhəlləsində Səttarxanın başçılığı ilə kiçik bir dəstə əksinqilabın hücumlarına müqavimət göstərməkdə idi. "İslamiyyə" əncüməni müxtəlif məhəllələr-

[473] Ə.Kəsrəvi. İranın konstitusiya tarnxi, səh.679, 681, 687.
[474] Yenə orada, səh.685, 686.

də mürtəce müctəhidlərin, mollaların evi üzərinə ağ bayraq vuraraq, əhalini bu evlərdə sığınmağa çağırırdı. "İslamiyyə" əncüməni bəzi iri tacirlərə, mülkədarlara da təslim əlaməti olan ağ bayraq göndərirdi. Əmirəqız məhəlləsi və Azərbaycanın silah ehtiyatının yerləşdiyi Ərk qalası istisna olmaqla bütün məhəllələrdə binaların, qapıların, darvazaların, hətta məscidlərin, dükan və mağazaların üzərinə ağ bayraqlar vuruldu.

Rəhim xan Bağe-şimalda möhkəmləndikdən sonra bütün inqilabçıların tərksilah olunmasını tələb etdi. Onun qaragüruhçu dəstələri şəhərin küçələrinə, meydanlarına tökülərək mücahidləri tərksilah bəhanəsilə əhalini qarət etməyə başladılar, bəzi küçələrdə toqquşmalar baş verdi. Görkəmli mücahidlərdən bir neçəsi həlak oldu. Sosial-demokrat təşkilatının başçısı Əli Musyönün evi qarət edildi, oğlu və qardaşı həbs olundular.

İyulun 15-də əksinqilab qüvvələri inqilabın son səngəri olan Əmirəqız məhəlləsinə hər tərəfdən yürüşə başladılar. Səttarxanın müqavimətinin son dəqiqələri sayılan bu döyüşdə əksinqilabın heç bir nəticə əldə edə bilməməsi əhalini heyrətləndirdi, susmuş, silahını yerə qoymuş mücahidlərdə inqilabı müdafiə hissini qüvvətləndirdi.

Səttarxanın kiçik, lakin sarsılmaz dəstəsi əksinqilabın hücumuna qarşı mətanətlə müqavimət göstərir, düşmənin hücumlarını dəf edirdi. Belə bir şəraitdə Təbriz sosial-demokrat təşkilatı bir tərəfdən Əli Müsyö, Hacəli Davafuruş, Hacı Məmmədbala, Hacı Əlinağı Gənceyi və b. vasitəsilə Əmirəqızda Səttarxan dəstəsinin döyüş ləvazimatı ilə təchiz olunmasını təşkil edir,[475] digər tərəfdən, Samsamxan məscidində özünün Mir Kərim, Şeyx Ələsgər kimi qorxmaz, bacarıqlı natiqlərinin köməyi ilə əhalini şəhər qarşısında duran fəlakətlərdən xəbərdar edir, müqavimət göstərməyə çağırırdı.[476]

---

[475] K.Tahirzadə. Azərbaycan üsyanı, səh.217; Ə.Kəsrəvi, İranın konstitusiya tarixi, səh.693.

[476] Yenə orada, səh.225; Yenə orada, səh .692.

İyulun 19-da Samsamxan məscidində mitinqə toplaşmış minlərlə adam Şeyx Ələsgər və Mir Kərimin atəşin nitqlərindən sonra kütləvi surətdə Xiyabana doğru yola düşərək, Bağırxanın mücahid dəstəsilə birlikdə Bağe-şimala, Rəhim xan qaragüruh-çularının yerləşdiyi yerə hücum edib, oranı əksinqilab qüvvələ-rindən təmizlədilər. Qaradağ atlıları qarət etdikləri malları və si-lahları atıb qaçmağa məcbur oldular.[477] Şəhərin inqilabçıların əlində olan hissəsində bütün uca binalar üzərində qırmızı bay-raqlar dalğalandı.

Rəhim xan və onun qaragüruhçu dəstələri Bağe-şimaldan qa-çaraq Dəvəçidə toplanmış əksinqilab qüvvələrinə qoşuldular. İyu-lun 21-dən etibarən əksinqilab arasıkəsilmədən şəhərin digər his-sələrinə, xüsusilə Əmirəqız məhəlləsinə, Səttarxanın dəstəsinin mərkəzi "Həqiqət əncüməni"nə qarşı hücumu davam etdirdi.

İranın hər tərəfindən dövlət qoşunlarının, feodal tayfa başçı-larının silahlı qüvvələrinin Təbriz üsyançılarına qarşı səfərbər edilməsi Cənubi Azərbaycan, xüsusilə Təbriz əhalisini qarşıda daha şiddətli vuruşmaların, ağır günlərin gözlədiyini göstərirdi. Təbriz sosial-demokrat təşkilatı inqilab tərəfdarlarını daha böyük fədakarlıq tələb edən hadisələrlə qarşılaşmağa hazırlayırdı.

Təbriz sosial-demokrat təşkilatı Səttarxanın imzası ilə bütun məhəllələrin ağsaqqallarına məktub vasitəsilə müraciət edərək, inqilabı və Təbrizi müdafiə üçün öz mücahidlərini toplayıb mü-dafiəçilər sırasına göndərməyə çağırdı.[478]

İyulun 18-də sosial-demokrat təşkilatının başçıları Səttarxa-nın iştirakı ilə Hacı Mehdi Kuzəkunaninin evində toplaşaraq şə-hərin vəziyyətini müzakirə etdilər. Bu iclasdan sonra Səttarxan öz kiçik dəstəsilə hücuma keçərək şəhərin mərkəz hissəsində bütün damlardan, darvazalardan və məscidlərdən ağ bayraqları vurub salaraq, onların yerinə inqilabi hərəkatın davam etdiyini bildirən qırmızı bayraqlar sancdılar.

---

[477] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.693.
[478] K.Tahirzadə. Azərbaycan üsyanı, səh.224.

Bu hadisələr İran inqilabında böyük tarixi bir dönüşün əsasını qoydu. Əvvəlcə Əmirəqız sonra isə bütün Təbriz və Azərbaycan inqilabın mərkəzinə çevrilərək İran inqilabını, onun nailiyyətlərini məhv etməyə çalışan irtica üzərində qələbənin əsasını qoydu.

Səttarxanın və onun silahdaşlarının igidlik və qəhrəmanlığı əhalinin və sükut etmiş mücahidlərin həyəcanına səbəb oldu. Onlar dəstə-dəstə Səttarxana qoşulmağa başladılar.

Təbriz sosial-demokrat təşkilatı, hər şeydən əvvəl, əksinqilabın ilk silahlı basqınları nəticəsində dağılmış Azərbaycan əyalət əncümənini hərəkatın ən görkəmli nümayəndələrindən 12 nəfərin iştirakilə yenidən bərpa etməyə nail oldu. Şeyx Ələsgər, Şeyx İsmayıl Həştərudi, Hacı İbrahim Tahbaz, Hacı Mehdi Kuzəkunani, Mirzə Hüseyn Vaiz, Müşiresadat, Hacı Məhəmmədəli, Mirzə İsmayıl Nobəri, Şeyx Məhəmməd Xiyabani, Məhəmmədəli Mətbəəçi və Mirzə Əlinağı Gənceyi əncümənin üzvlüyünə, Mirzə Məhəmmədtağı isə əncümənin sədrliyinə keçirildilər.[479] Əncümən yarandıqdan sonra Azərbaycanın görkəmli publisistlərindən Mirzə Ağanın redaktorluğu ilə "Naleye-millət" adlı qəzet buraxılmağa başlandı, az müddət sonra keçmişdə əyalət əncüməninin orqanı olan "Əncümən" qəzeti yenidən nəşr edildi.[480]

Təbriz sosial-demokrat təşkilatı hələ 1907-ci ilin əvvəllərində yaratdığı silahlı dəstələrin hərbi təlim alması üçün mühüm işlər gördü. Lakin inqilabın hərbi qüvvəsi bir çox cəhətdən mühüm nöqsanlara malik idi və döyüşlər başlıca olaraq ayrı-ayrı fərdlərin igidlik və qoçaqlığına əsaslanırdı. Təbriz sosial-demokrat təşkilatı "hərbi şura" yaradaraq (Şura "Mücahid təşkilatı" da adlanırdı), silahlı qüvvələrin hərbi cəhətdən təşkilini və nizam-intizam işlərini bu şuranın öhdəsinə qoydu. Hərbi şuraya və ya Mucahid təşkilatına Səttarxan, Əli Müsyö, Bağırxan, Hacı Əli Davafuruş və Mir Haşım xan daxil idilər. Hərbi şura yaradıldıqdan sonra Təbriz sosial-demokrat təşkilatı Təbrizin Ərk qalasında olan silah ehtiyatı anbarlarından bütün mücahidləri və hərəkatda iştirak etməyə

---

[479] M.S.Haşimi. İranın mətbuat tarixi, IV cild, 1332/1953, səh.245.
[480] Yenə orada, I c ild, səh.287.

hazır olan kütlələri silahlandırdı. Döyüşçülərin patron və digər hərbi sursatı bu ehtiyat mənbəyindən təmin edildi. (Lakin bu silahlar köhnə sistemli olduğundan əksinqilab qüvvələri silah cəhətdən üstün idilər). Bununla da Təbriz üsyanında iştirak edən silahlı qüvvənin tərkibində çox mühum dəyişiklik əmələ gəldi. Əgər bu vaxtadək döyüşlərdə öz şəxsi vəsaiti ilə silah əldə etməyə imkanı olan inqilabçılar iştirak edirdisə, indi artıq minlərlə fəhlə, şagird, sənətkar, xırda alverçi və yoxsul silahlanaraq, vuruşmaların ön sıralarında gedir, üsyanın əsas qüvvəsini təşkil edirdilər. Hərbi şura döyüşçüləri - fədailəri və mücahidləri 20-25 nəfərlik dəstələrə böldü. Hər dəstə içərisindən özü üçün başçı seçirdi.[481] Hərbi şura hər bir döyüşçüyə gündə 4 qran[482] verilməsini qərara almışdı. Döyüşçüləri çörəklə təmin etmək məqsədilə Xiyaban və Əmirəqız məhəllələrində xüsusi çörək dükanları açdılar, bu dükanlar ancaq döyüşçülərə xidmət etməli idi.[483]

Üsyanın idarəsi və davam etdirilməsi üçün pula, taxıla və silaha böyük ehtiyac var idi. Təbriz sosial-demokrat təşkilatının təşəbbüsü və Azərbaycan əyalət əncüməninin göstərişilə Təbrizdə "İanə komisyonu" ("Yardım komissiyası") təşkil edildi. Komissiyanın tərkibinə 12 mütərəqqi tacir və hər məhəllədən bir nəfər nümayəndə daxil idi.[484] Komissiya şəhərin varlılarından yardım toplayırdı. Təbrizin varlı tacirlərindən burjuaziyanın mütərəqqi cinahına mənsub olanları hətta yardım komissiyasına pulun toplanmasında da iştirak edir və faydalı məsləhətlər verirdilər. Çar hökumətinin Təbrizdəki siyasi nümayəndəsi Paxitonovun 1908-ci il 30 iyul tarixli məlumatında belə yazılmışdır: "...Şəhərin əksinqilab qüvvələri əlində olan hissəsində bütün dükanlar, mağazalar qarət edilmişdir. Səttarxan hakimiyyəti hissəsində heç bir şeyə toxunulmamışdır. Son günlərdə Təbrizdə "Mərkəze-qeybe" adlı gizli şura yaranmışdır. Bu şura Səttarxanın, Bağırxanın imzası ilə varlılara qəbz göndərir, hər kəsdən müəyyən məbləğ pul

[481] M.B.Veycuyeyi. Təbriz üsyanı, səh. 49.
[482] 1 qran - o dövrün 20 qəpiyi məbləğində idi.
[483] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.670.
[484] M.B.Veycuyeyi. Təbriz üsyanı, səh.50.

tələb edir. Şura 65 min tümən toplamağı qərara almış, hələlik 28 min tümən toplanmışdır. Pullar konstitusiyanı müdafiə üçün toplanır”.[485]

Əksinqilab qüvvələri vuruşmalarda toplardan atəş açmaqla barrikadaları, şəhərin binalarını dağıdırdılar. Hərbi şura Ərk qalasından bir neçə top çıxardıqdan sonra inqilabçılar da top işlətməyə başladılar, az müddətdə sadə döyüşçülər içərisindən görkəmli topçular meydana çıxdı. Mehdi xan və İldırım adlı topçular Səttarxanın ən sevimli topçuları idilər.[486] Bu mahir döyüşçülərə topçuluğu məşhur rus inqilabi zirehli “Potyomkin” gəmisinin Təbrizə gəlmiş matrosu öyrətmişdi:

Tehranda çevriliş etmiş, bir çox başqa iri mərkəzlərdə hücuma keçmiş irtica qüvvələrini və Məhəmmədəli şahı Təbrizin müqaviməti çox narahat edirdi. Buna görə nəyin bahasına olursa-olsun Təbrizi tutmaq və beləliklə bütün ölkədə inqilabı boğmaq üçün şah hökuməti iyul-avqust aylarında buraya çoxlu silahlı qüvvə, həm ordu hissələri, həm də müxtəlif yerlərdən toplanmış feodal silahlı dəstələri yığıb qəti hücuma hazırlaşırdı. Təbriz vuruşmalarının bilavasitə muşahidəçisi, onu yaxından izləyən M.B.Veycuyeyi 1908-ci il avqustun axırlarında Təbrizi əhatə etmiş əksinqilabi qüvvələrin sayının 40 min nəfərə çatdığını göstərmişdir.[487] Onlar eyni zamanda inqilabçılar arasında təfriqə salmaq, onları parçalamaq üçün də müxtəlif tədbirlərə əl atırdılar. Bu məqsədlə Məhəmmədəli şah Təbrizə vali təyin etdiyi Eynüddövləyə inqilabçılarla danışıqlar aparmağı, vaxt qazanmağı tapşırmışdı. Bu hiylə baş tutmadıqda isə sentyabrın 21-də Eynüddövlə Təbrizə 48 saatlıq ultimatüm verib, inqilabçıların tərksilah olmasını tələb etdi. Təbriz əksinqidabın ultimatumunu rədd etdi. Sentyabrın 25-də Təbriz bir neçə saat top atəşinə tutulduqdan sonra hər tərəfdən onun üzərinə yeni hücum başlandı, döyüş arasıkəsilmədən 2 gün davam etdi. İrtica qüvvələrinin inqilabçılardan

---

[485] СДД, вып.1, səh.242.
[486] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.711.
[487] M.B.Veycuyeyi. Təbriz üsyanı, səh.145.

sayca qat-qat üstün olmasına baxmayaraq, onlar heç bir müvəffəqiyyət qazana bilmədilər. Şah qoşunları içərisində ruh düşgünlüyü artdı. Ordu başçılarından bəziləri, məsələn, Sepəhdar, onun oğlu Əmir Əsəd və b. Təbrizi alınmaz, döyüşü isə nəticəsiz hesab edərək Tehrana qayıtdılar.[488]

1908-ci ilin sentyabr vuruşmaları inqilab qüvvələrinin üstünlüyünü sübut etdi. Üsyançılar müdafiədən əks hücumlara keçdilər. Oktyabrın 12-də "İslamiyyə" əncüməni başçıları, onların ardınca qaragüruhçu dəstələr qismən Eynüddövlənin ordusu yerləşən Sahibe-divan bağına, qismən də şəhəri buraxıb Basmınca qaçmağa məcbur oldular.[489] Dəvəçi, Sorxab, Bağmeşə, Şeşkilan məhəllələrinin tüfəngçiləri inqilab qüvvələrinə qoşuldular. Bütün şəhər inqilabçılar əlinə keçdikdən sonra Sahibe-divan bağı da əksinqilab qüvvələrindən təmizləndi. Eynüddövlə Təbrizin 25 kilometrliyində yerləşən Qızılca meydan kəndinə çəkilməyə məcbur oldu. İslamiyyə əncüməni bşçılarından Mir Haşım, Mir Manaf və b. Tehrana qaçdılar.[490]

Təbriz üsyançılarının bu parlaq qələbəsinin xəbəri sürətlə İrana, Qafqaza və Avropa ölkələrinə yayıldı. Azadlıq sevən xalqların sevincinə və İran inqilabçılarında ruh yüksəkliyinə səbəb oldu. Paris, İstanbul, Nəcəf, Tiflis, Bakı və digər mühüm şəhərlərdən Azərbaycan əyalət əncüməninə, Səttarxanın ünvanına təbrik teleqramları göndərildi.[491]

Rusiya və Qərbi Avropa mətbuatının "Azərbaycanın Puqaçovu" və "İranın Hannibalı" adlandırdığı" Səttarxanın fövqəladə igidliyi V.İ.Leninin də diqqətini cəlb etmiş və o, "Dünya siyasətində alışqan maddə" adlı məqaləsində Təbriz inqilabçılarının yenilməzliyini yüksək qiymətləndirmiş və yazmışdır: "İran inqilabçılarının vəziyyəti ağırdır, bu ölkəni bir tərəfdən Hindistanın ağa-

---

[488] Əli Divsalar (Salar-e Fateh). Yaddaştha-ye tarixi race be fətf-e Tehran (*Tehranın fəthinə aid tarixi qeydlər*), 1337/1958, səh.44-47
[489] M.B.Veycuyeyi. Təbriz üsyanı, səh.248.
[490] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.793.
[491] Ketabe-abi, I cild, səh.586.

ları (*ingilislər nəzərdə tutulur – red.*), digər tərəfdən də əksinqilabçı rus hökuməti öz aralarında bölüşdürmək üçün, demək olar, artıq hazırlıq görmüşlər. Lakin Təbrizdə gedən qızğın mübarizə, demək olar, artıq tamamilə darmadağın edilmiş kimi görünən inqilabçıların dəfələrlə hərbi müvəffəqiyyət qazanması göstərir ki, hətta rus Lyaxovları və ingilis diplomatlarının kömək göstərdiyi şah başıpozuqları aşağıdan ən güclü müqavimətə rast gəlirlər. Köhnənin bərpa edilməsi təşəbbüslərini hərbi qüvvə ilə dəf edə bilən, belə təşəbbüs qəhrəmanlarını yadellilərdən kömək istəməyə məcbur edən inqilabi hərəkat məhv edilə bilməz və belə bir şəraitdə İran irticasının ən böyük təntənəsi yalnız yeni xalq həyəcanlarının başlanğıcı olardı”.[492]

Oktyabrın 12-dək davam edən Təbriz vuruşmalarında Səttarxan və Bağırxanın göstərdikləri döyüş bacarığı, fədakarlıq, qorxmazlıq onları inqilab qüvvələrinin sərkərdəsi səviyyəsinə yüksəltdi. Əvvəlcə fədailər, mücahidlər, sadə kütlələr Səttarxanı “Sərdare-milli”, Bağırxanı “Salare-milli” adlandırdılar, sonra isə Azərbaycan əyalət əncüməni bu adları rəsmiləşdirmək üçün qərar qəbul etdi.[493]

Təbriz üsyanında şiddətli vuruşmaların dörd aya yaxın davam edən birinci mərhələsində parlaq qələbənin əldə edilməsi əhalinin azadlıq uğrunda fədakarlıq və dözdüyü məhrumiyyətlərlə birlikdə Təbriz sosial-demokrat təşkilatının, Azərbaycan əyalət əncüməninin və onların iradəli, cəsur başçılarının - Əli Müsyö, Hacı Əli Davafuruş, Şeyx Ələcgər, Mir Kərim, Hacı Mehdi və digər siyasi, ictimai xadimlərin inqilabi təşkilatçılığı, azadlığa və demokratik üsuli-idarəyə möhkəm inamı, sədaqəti ilə əlaqədardır.

İnqilabi qələbənin əldə edilməsilə əlaqədar 1908-ci il oktyabrın ikinci yarısından etibarən İranda konstitusiya hərəkatı tarixində, xüsusilə Azərbaycan xalqının mübarizəsində yeni dövr açılmış oldu. Təbrizdə normal və adi həyatı bərpa etmək sahəsində

---

[492] Bax: V.İ.Lenin. Əsərlərinin tam külliyyatı, 17-ci cild, səh.191.
[493] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.771.

Təbriz sosial-demokrat təşkilatı və Azərbaycan əyalət əncüməninin təşəbbüsü ilə geniş fəaliyyətə başlanıldı. İlk növbədə şəhərin iqtisadi mərkəzi olan bazar yenidən açıldı. Əncümənin göstərişilə yaxın rayonlardan taxılın və digər ərzaq mallarının Təbrizə gətirilməsi təmin olundu.[494] Hökumət idarələri vətənpərvər qulluqçuların əlilə yenidən təşkil edildi. Şəhər bələdiyyə əncüməni şiddətli vuruşmalar dövründə qərbdən şərqə doğru şəhərin ortasında yaranmış səngərləri və barrikadaları ləğv etdi, hər tərəfi təmizlədi. Döyüş meydanına çevrilmiş məhəllə, küçə və evlərdəki xarabalıqlar, uçub dağılmış və yandırılmış binalar, dükanlar və s. sürətlə təmir edilməyə, şəhər abadlaşmağa başlandı.[495] Şəhərdə təhlükəsizliyi və asayişi möhkəmləndirmək, əksinqilabçı ünsürlər tərəfindən törədilən hər cür yalançı həyəcanların qarşısını almaq üçün şəhər polis idarəsi 400 nəfər polis qulluqçusu, 500 nəfər atlı, 1000 nəfər piyada polisdən ibarət olmaqla yenidən təşkil edildi.[496] Təbrizdə maliyyə, maarif idarələri işə başladı. Məktəblər (o cümlədən yeniləri), kitabxanalar açıldı. "Naleye-millət" və "Əncümən" qəzetlərindən başqa, Tehran sosial-demokrat təşkilatının üzvlərindən olan Seyid Məhəmməd Rza Müsavatın[497] redaktorluğu ilə "Müsavat" qəzeti nəşr edilməyə başladı.[498] Poçt, teleqraf, sonra isə gömrük idarəsi bilavasitə əyalət əncüməninin nəzarəti altında işləyirdi.

Təbrizdə inqilabın bütün silahlı qüvvələrinə hərbi şura tərəfindən rəhbərlik olunması ilə yanaşı, "həqiqət" əncüməni Əmirəqızın və onun ətraf məhəllələrinin fədailərini Səttarxanın başçılığı altında, "Qüdrət" əncüməni isə Xiyaban və onun ətraf məhəllələrinin fədailərini Bağırxanın başçılığı altında birləşdirmişdi. Şəhə-

---

[494] M.B.Veycuyeyi. Təbriz üsyanı, səh.258.
[495] Ə.Kəsrəvi. İran konstitusiya tarixi, səh.795.
[496] Bax . СДД, вып. I, səh.290.
[497] Seyid Məhəmməd Rza Müsavat iyun ayında Tehrandan Rəştə, oradan Bakı və Tiflisə, sonra isə Təbrizə gedərək sosial-demokrat təşkilatları ilə əməkdaşlıq etmişdir.
[498] E.Braun. İran mətbuatı, səh.138.

rin mərkəz məhəllələrinin fədailəri də Təbriz sosial-demokrat təşkilatının rəhbəri Əli Müsyönün başçılıq etdiyi "Mücahid" əncüməni vasitəsilə idarə olunurdu.[499] Əlavə etmək lazımdır ki, 1907-ci ilin əvvəllərindən başlayaraq Təbriz üsyanının axırınadək Cənubi Azərbaycan əyalət əncüməni Təbrizdə мə Cənubi Azərbaycanda ali hakimiyyət orqanı olduğu kimi, 1908-ci il iyun ayından etibarən Təbrizdə yaranmış hərbi şura da üsyanın silahlı qüvvələrinin baş idarə orqanı idi. Bu orqanların hər ikisi, yəni həm əncümən, həm də hərbi şura bilavasitə Təbriz sosial-demokrat təşkilatının verdiyi istiqamətdə fəaliyyət göstərmişdir.

Təbriz üsyanına ideya və təşkilati cəhətdən rəhbərlik edən sosial-demokrat təşkilatı əksinqilabın Təbrizə qarşı daha güclü hücumlar hazırlamasından xəbərdar olduğundan şəhəri və inqilabı qorumaq məqsədilə hazırlıq işi aparırdı. Şəhəri ərzaq malları ilə təmin etmək və ehtiyat hazırlamaq üçün əyalət əncüməni xüsusi fədai dəstələri vasitəsilə vilayətlərdən çoxlu miqdarda taxıl və s. ərzaq malları topladı.[500]

İnqilabçıların qələbəsilə əlaqədar Təbrizdən uzaqlaşan qarətçi dəstələr Cənubi Azərbaycan rayonlarına çəkilərək, kəndləri çapıb-talayır, Təbriz uzərinə yeni hücumlara hazırlaşırdılar.

Əyalət əncüməni Cənubi Azərbaycanın şəhər və kənd əhalisini əksinqilabın qarətindən, zülmündən xilas etmək, inqilabi hərəkatı bütün Azərbaycanda yaymaq və gücləndirmək məqsədilə Mərənd, Xoy, Salmas, Marağa və digər şəhərlər üzərinə silahlı fədai dəstələri göndərdi. 1908-ci il noyabrın 14-də Hacı Pişnamazın başçılığı ilə fədai dəstələri Maku qaragüruhçularını Salmasdan qovub çıxardılar. Noyabrın 19-da Marağa şəhəri inqilabçıların əlinə keçdi. Hər iki şəhərdə vilayət əncümənləri bərpa edildi. Noyabrın 22-də Təbriz fədailəri Ələmdar və Zunuz mücahidlərinin iştirakı ilə Mərənd vilayətini qaragüruhçu dəstələrdən təmizlədi.[501] Culfanın inqilabçılar əlinə keçməsilə Culfa-Təbriz ticarət

---

499 Bax: М.С.Иванов. Иранская революция 1905-1911 годов. səh.326
500 Bax: СДД, вып. I,, səh.305.
501 Ə. Kəsrəvi. İranın konstitusiya tarixi, səh.805.

yolu azad edildi. Bununla da, Cənubi Azərbaycan inqilabçılarına yardıma gedən mücahidlər və göndərilən silahlar üçün yol açılmış oldu.

1908-ci il dekabrın əvvəllərində Təbriz, Ələmdar və Yekan fədailəri Nurulla xan Yekani[502] və Qoçəli xanın başçılığı ilə Xoy şəhərini və onun ətrafını Maku qaragüruhçularından azad etdilər. Təbriz sosial-demokrat təşkilatı tərəfindən göndərilmiş Heydər Əmioğlu[503] Xoy sosial-demokrat qrupunun yardımı və əhali tərəfindən seçilmiş nümayəndələr vasitəsilə Xoyda əncümən hakimiyyətini bərpa etdi.[504] Heydər Əmioğlu şəhər yoxsullarından, sənətkarlardan, kənd zəhmətkeşlərindən silahlı mücahid dəstələri təşkil etməyə, Xoy və ətraf rayonların müdafiəsini möhkəmləndirməyə başladı.

Dekabr ayında Urmiyada da vilayət əncüməni yenidən fəaliyyətə başladı. Salmas vilayət əncüməninin sədri Hacı Pişnamazın yardımı ilə Təsuc, Şərəfxana rayonları, Təbriz fədailərinin əlilə Ərvənəq-Ənzab, sonra isə Binab qəsəbəsi və Urmiya gölü ətrafı rayonları əksinqilabçılardan təmizləndi.

İnqilabçıların əlinə keçən bütün şəhər, qəsəbə, hətta kəndlərdə əncüməilər təşkil edildi və xalq hakimiyyəti yaradıldı, əhali hər yerdə fədai dəstələri yaradaraq Təbrizdən kəlmiş fədailərə qo-

---

[502] Nurulla xan Yekani 1907-ci ilin əvvəllərində iranlıların Bakı sosial-demokrat təşkilatı tərəfindən Təbrizə göndərilmiş inqilabçıların sırasında idi. 1908-ci ilin axırlarında Təbriz sosial-demokrat təşkilatı tərəfindən Xoy və Culfanı azad etmək üçün göndərilmişdi. Yekani həyatını azadlıq uğrunda mübarizəyə həsr etmiş, 1946-cı ilin dekabr ayında Azərbaycanda milli-azadlıq hərəkatı yatırıldıqda əksinqilab qüvvələri tərəfindən öldürülmüşdür.

[503] 1908-ci il fevral ayında şaha qəsd edildikdən sonra Qafqaza getmiş Heydər Əmioğlu sentyabr ayında Təbrizə qayıdaraq üsyanda iştirak etmişdir. Təbriz sosial-demokrat təşkilatı Əmioğlunu Xoya göndərərək vilayətin idarə edilməsini ona tapşırmışdı. Əmioğlu 1909-cu il iyun ayınadək Xoyda hərəkata başçılıq etmiş və sonra Qafqaz yolu ilə Tehrana getmişdi.

[504] Ə.Kəsrəvi. İranın konstİtusiya tarixi, səh. 811; M.C.Иванов; Иранская революция 1905-1911 годов, səh. 332.

şulurdu. Noyabr və dekabr aylarında Təbrizdən Cənubi Azərbaycanın müxtəlif vilayətlərinə 4-5 min nəfərə yaxın silahlı fədai dəstələri göndərilmişdi.[505]

Beləliklə, Təbriz sosial-demokrat təşkilatının, Azərbaycan əyalət əncüməninin fəaliyyəti nəticəsində 1908-ci ilin noyabr, dekabr ayları və 1909-cu ilin yanvar ayında Cənubi Azərbaycanın bütün qərb vilayətləri (Maku istisna olmaqla) inqilabçıların əlinə keçdi, bu vilayətlərdə əncümən hakimiyyəti bərqərar edildi. Azərbaycan əyalət əncüməni öz nümayəndələrindən bu vilayətlərə hakim təyin etdi. Bunun ardınca Azərbaycanın şərq vilayətlərində də əksinqilaba qarşı etirazlar gücləndi.

Təbriz üsyançılarının sentyabr-oktyabr qələbələri təkcə Azərbaycan vilayətlərinə deyil, Tehran və İranın mühüm vilayətlərindən Gilan, İsfahan, Xorasan, hətta cənubda Buşehr və s. vilayətlərə belə təsir göstərdi və konstitusiya tərəfdarlarını hər yerdə yenidən hərəkətə gətirdi. Buna baxmayaraq, Məhəmmədəli şah İranın bütün əyalət və vilayətlərindən silahlı qüvvələr toplayır, bunları üsyanın mərkəzi olai Təbriz üzərinə göndərməkdə davam edirdi. 1908-ci il dekabrın axırlarında əksinqilabın Təbriz ətrafında topladığı Müxbiran, Həmədan, Fərahan alayları, Bəxtiyari, Qəzvin, Marağa, Qaradağ qoşun hissələri, topxana, kazak və s. dəstələri[506] sıralarında 40 min nəfərdən artıq bir qüvvə var idi. Təbriz üsyançıları isə İranın daxilindən heç bir kömək ala bilmədilər. Lakin qonşu xalqlar, xüsusilə Zaqafqaziya inqilabçıları və xaricdə yaşayan iranlılar tirəfindən istər Təbriz, istərsə də İranın bir sıra başqa şəhərlərindəki inqilabçılara mühüm yardım göstərildi.

---

[505] СДД, вып. II, səh.6, 44.

[506] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.815.

## 5. XARİCDƏ YAŞAYAN İRANLILARIN VƏ QONŞU XALQLARIN CƏNUBİ AZƏRBAYCAN İNQİLABÇILARINA YARDIMI

1908-ci il iyun çevrilişindən sonra Təbrizdə başlanmış üsyan İran daxilində olduğu kimi, xarici ölkələrdə də inqilabın İranda yenidən canlanmasına və konstitusiyanın bərpa edilməsiiə ümidi artırdı. Təbriz üsyanına və onun təsirilə 1909-cu ilin əvvəllərindən İranın bir çox başqa vilayətlərində yenidən canlanan inqilabi hərəkata xarici ölkələrdə yaşayan mütərəqqi iranlılarla yanaşı, qonşu ölkələrin, xüsusilə Qafqaz xalqlarının inqilabi əhvali-ruhiyyəli nümayəndələri kömək edirdilər. Müxtəlif şəkillərdə göstərilən bu yardımın böyük hissəsinin kütləvi və mütəşəkkil surətdə davam etməsində xaricdə yaşayan iranlıların siyasi cəmiyyət və təşkilatlarının, xüsusilə "İctimaiyyune-amiyyun" ("Mücahid") partiyasının, RSDFP-nin Qafqaz təşkilatlarının, o cümlədən sosial-demokrat "Hümmət" qrupunun mühüm rolu olmuşdur.

İyun əksinqilabi çevrilişi ilə əlaqədar xaricə sürgün edilmiş və ya qaçmağa məcbur olmuş İran inqilabçılarının mühüm hissəsi Qafqaza, Türkiyəyə, Avropa şəhərlərinə dağılmış olsalar da, əksinqilaba qarşı mübarizəni müxtəlif vasitələrlə uzaqdan davam etdirmişdir. Qafqaz və Türkiyə şəhərlərinə səpələnmiş həmin inqilabçılar çoxdan bəri bu ölkələrdə yaşayan iranlıların yaratdığı bəzi siyasi təşkilatlara qoşularaq, mübarizə dairəsinn genişləndirməyə çalışmışlar.

Xaricdə yaşayan İran təbəələrinin ən mühüm siyasi təşkilatları Zaqafqaziyada, Orta Asiyada, xüsusilə Bakı, Tiflis, Aşqabad, habelə digər şəhərlərdə yaranmış, fəaliyyət göstərmişdi. İran inqilabı dövründə və ondan çox-çox əvvəl Zaqafqaziya Şimali Qafqaz, Orta Asiya və Volqaboyu rayonlarının sənaye mərkəzlərində, liman şəhərlərində, müxtəlif nəqliyyat işlərində və kənd təsərrüfatı sahəsində çalışan və yuxarıda qeyd olunduğu kimi, əsasən azərbaycanlılardan ibarət yüz minlərlə iranlı fəhlənin əksəriyyəti İran inqilabı başlarkən öz vətəninin azadlığı uğrunda inqilabi hə-

rəkata yardım göstərmək məqsədilə fəaliyyətə başladı. Həmin vilayətlərdə sakin olan cənubi azərbaycanlı tacir, xırda alverçi, sənətkar və peşəkarlar da bu işdə yaxından iştirak etdilər.

Bu sahədə işin təşkil olunması və düzgün istiqamətləndirilməsində "İctimaiyyune-amiyyun" ("Mücahid") partiyası, onun ayrı-ayrı təşkilatlarının fəaliyyəti diqqətəlayiq idi. 1906-cı ildən öz nümayəndələrini İrana göndərməyə başlayan partiya artıq 1907-ci ilin əvvəllərindən etibarən İranda əksinqilabın təzyiqinə qarşı xalq hərəkatının güclənməsilə əlaqədar Qafqazda yaşayan iranlıların, o cümlədən partiyanın bir çox üzvlərinin inqilabda iştirak etmək məqsədilə dəstə-dəstə vətənə qayıtmasını təşkil etməyə başladı.

Partiyanın Bakı və Tiflis komitələri həmin dəstələrin və əldə edilmiş silahların Təbrizə və digər şəhərlərə göndərilməsində son dərəcə gərgin fəaliyyət göstərdilər. Hər iki təşkilatın bir neçə üzvü bu məqsədlə dəfələrlə sərhəddi keçib qayıtmışdılar. Bunlardan biri də Bakı təşkilatının üzvü Məşədi İsmayıl Miyabi idi. O, 1908-ci ilin noyabr ayında çoxlu silahla sərhəddən gizli yollarla Təbrizə getdikdə öz dəstəsi ilə birlikdə əksinqilab tərəfindən tutulmuş və Mərənd zindanına salınaraq Şücanizam tərəfindən öldürülmüşdü,

Qafqaz mücahidlərinin dəstə-dəstə Cənubi Azərbaycan şəhərlərinə gəlməsi, möhkəm iradə və fədakarlıqla hərəkatda iştirak etməsi əhali içərisində onların dərin hörmət və nüfuz qazanmasına səbəb olmuşdu. Təbriz üsyanı dövründə Qafqaz mücahidləri içərisindən görkəmli natiqlər, qorxmaz döyüşçülər, bacarıqlı təşkilatçılar meydana çıxmışdı ki, onların da hərəkatın qüvvətlənməsində, üsyanın qələbəsində mühüm rolu olmuşdur.

1908-ci ildə Tehranda əksinqilabi çevrilişdən dərhal sonra Təbrizdə başlanan, arasıkəsilməyən qələbələrlə davam edən silahlı üsyan dövründə Qafqazdakı iranlıların inqilaba yardımı geniş miqyas aldı. Yoxsul fəhlədən, zəhmətkeş peşəçi sənətkardan, xırda alverçidən başlamış varlı tacirə qədər, hətta Qafqaz şəhərlərində bəzi konsullar və konsulxana işçilərindən çoxu "Azadlığa yardım", "Təbrizə kömək" şüarı ilə çıxış edirdilər. 1907-ci il av-

qust ayında Əminüssultan Atabəyin öldürülməsilə əlaqədar İrandan sürgün edilmiş Tehran sosial-demokrat təşkilatının başçılarından Sadıq Tahbaz Bakıda doktor Rəhimzadə adı ilə qardaşının ticarət kontorunda uzun müddət Təbrizə və digər inqilab mərkəzlərinə silah və s. hərbi vəsait göndərmək işini təşkil etmişdir. Rəhimzadə xarici ölkələrdə yaşayan iranlılarla, Bakıda "İctimaiyyune-amiyyun" ("Mücahid") təşkilatı ilə sıx əlaqədə olmuş, 1908-ci il iyun çevrilişindən başlayaraq 1909-cu il iyul ayında mütləqiyyətin devrilməsi, konstitusiyanın yenidən bərpa olunması gününə qədər müxtəlif üsul və yollarla Təbrizə, Astaraya, Ənzəliyə yalnız iranlılardan topladığı 600 min tümənlik (bir milyon iki yüz manat) silah göndərmişdir.[507] Çar hökumətinin xarici işlər naziri İzvolski Qafqaz canişini Vorontsov-Daşkova 1909-cu il 21 mart tarixli gizli məktubunda bu barədə yazırdı: "Bakıda ticarətlə məşğul olan doktor Rəhimzadəni və onun kontorunu ciddi surətdə təftiş etməniz zəruridir. Rəhimzadə İran inqilabçılarına silah, pul və döyüşçü göndərir. Təftişinizin nəticəsini mənə xəbər verməniz xahiş edirəm".[508]

İnqilab dövründə Qafqaz şəhərlərindən bəzilərində konsul müavini, daha sonra konsul vəzifələrində çalışmış Mirzə Kərimxan İranın inqilabi mərkəzlərinə, xüsusilə Təbriz üsyanına Qafqazdan göstərilən yardımın fəal təşkilatçılarından biri idi. 1909-cu il avqust ayının 19-da Qafqaz canişininin xarici işlər naziri İzvolskiyə göndərdiyi teleqramda deyilirdi: "İranın Bakı konsulu Mirzə Kərim xan inqilabçılara yardım göstərir... Yelizavetpolda konsul müavini vəzifəsi daşıdığı zaman silah almaq, bunları İrana göndərmək işini təşkil edirdi. Kərimxan aldığı və topladığı silahı konsulluğun binasında zirzəmiyə yığır və İrana göndərirdi. Bakıya konsul təyin olunduqdan sonra daha geniş fəaliyyət göstərir... Silah sandıqları üzərində və ya silah doldurduğu tabutlar üzərində belə yazır: "Bakıda vəfat etmiş müsəlmanın Kərbəlada müqəddəs

---

[507] Əli Azəri. Xorasan üsyanı, səh.71-72.

[508] Sov. İKP MK nəzdində MLİ Gürcüstan Filialının partiya arxivi. f.12798, siy.3, iş 175, vər.2-3.

yerlərdə basdırılmaq üçün cəsədi". Mirzə Kərim xan Qafqazın müxtəlif şəhərlərində olan konsul məmurlarını da bu işə cəlb etməyə çalışır. Lənkəranda İran müvəkkili İsmayıl xan da Kərim xanla birlikdə fəaliyyət göstərir".[509]

Qafqazda yaşayan iranlıların öz vətənlərində davam edən inqilaba yardımları haqqında məlumat çoxdur. Lakin bu dövrdə təkcə Qafqazda yaşayan iranlılar deyil, eyni zamanda Qafqaz xalqlarının - Azərbaycan, gürcü, dağlı və erməni xalqlarının mütərəqqi nümayəndələri, o cümlədən Qafqaz inqilabçıları, xüsusilə bolşeviklər Təbriz üsyanına istər silah, pul və s. vəsait, istərsə də döyüşçü göndərmək cəhətdən ardıcıl və əvəzsiz kömək göstərmişlər. Qafqazda yaşayan iranlıların və qafqazlıların göstərdikləri yardım bir-birilə sıx əlaqədə həyata keçirilmişdir.

1908-ci il iyun ayının sonlarından etibarən Təbrizdə şiddətli vuruşmalar başladıqdan sonra Təbriz "İctimaiyyune-amiyyun" təşkilatı RSDFP-nin Qafqaz Ölkə Komitəsinə muraciət edərək ondan yardım istədi. Beynəlmiləlçilik ideyasını rəhbər tutan RSDFP-nin Qafqaz təşkilatları bu muraciətdən sonra İran inqilabına maddi və mənəvi yardımı daha da gücləndirdilər. Bu məqsədlə Bakıda və Tiflisdə xüsusi yardım komitələri yaradıldı. İran inqilabına, xüsusilə Azərbaycan üsyanına yardım məqsədilə RSDFP-nin Bakı təşkilatı nəzdində yaradılmış yardım komitəsinə görkəmli bolşeviklərdən Əzizbəyov, Caparidze, Mehmandarov daxil idilər. Bu "üçlük" Təbriz və digər şəhərlərə silah və s. vəsait, döyüşçü göndərməkdə iki yoldan istifadə edirdi. Birinci Bakı-Şuşa-Culfa yolu idi. Culfaya gətirilmiş silah və s. Culfa komitəsinin nümayəndəsi Şeyxov vasitəsilə Arazdan keçirilir və Təbrizə göndərilirdi. İkinci və ya ehtiyat yolu Ağdam - Qaryagin - Cəbrayıl - Xudafərin idi.[510]

1908-ci ilin axırlarında İran inqilabına yardım məqsədilə Bakıda yaranmış digər bir üçlük isə gəmilər vasitəsilə Lənkərana və

---

509 Gürcustan MDTA, f.15, siy.1, iş 179, vər.2-3.

510 Sov.İKP MK nəzdində MLİ Gürcüstan filialının partiya arxivi, f.12798, siy.3, iş 175, vər.18.

Ənzəliyə döyüş vəsaiti göndərirdi. Öz fəaliyyətində müstəqil olan hər iki üçlük Bakı bolşevik təşkilatı qarşısında məsuliyyət daşıyır, ayda bir dəfə öz fəaliyyəti haqqında komitəyə hesabat verir və lazımi göstəriş alırdı. Birinci üçlük "hümmət"in Tiflis qrupunun sədri Əli Bayramov vasitəsilə RSDF(b)P-nin Tiflis komitəsi ilə əlaqədə idi.[511]

Tiflisdəki yardım komitəsinə "İctimaiyyune-amiyyun" ("Mücahid") MK-sı tərəfindən İran inqilabına yardım və partiyanın Tiflis təşkilatının fəaliyyətinə nəzarət məqsədilə 1909-cu il fevralın ilk günlərində Bakıdan Tiflisə göndərilən Nəriman Nərimanov başçılıq edirdi.[512] Yardım işində "İctimaiyyune-amiyyun"un ("Mücahid") Tiflis Komitəsinin dörd nəfər ən fəal üzvü - Məhəmmədnağı Sadıqov, Yusif Rza oğlu, Məşədi Mahmud və Qulam Axundov xüsusilə fərqlənirdilər.[513] Yardım komitəsi tərəfindən həyata keçiriləcək vəzifələr komitə üzvlərindən ibarət qrupların öhdəsində idi.

Təbriz vuruşmalarında şəxsən iştirak etmiş gürcü V.Tria 1910-cu ildə Parisdə RSDFP-nin mərkəzi orqanı olan "Sosial-Demokrat" qəzetində nəşr etdirdiyi "Qafqaz sosial-demokratları İran inqilabında" adlı əsərində Qafqaz bolşeviklərinin İran inqilabına göstərdikləri yardım haqqında yazır: "İran MK-sı[514] və Təbrizin inqilabçı nümayəndələri Qafqaz S.D.[515] ölkə komitəsinə müraciət edərək kömək istədilər. S.D. fəhlələr ölkə komitəsinin qətnaməsini gözləmədən inqilabçılara yardım üçün İrana getməyə razı olduqlarını bildirdilər. Ölkə komitəsi partiyalı fəhlələrin arzusuna uyğun olaraq... belə qərar qəbul etdi: yerli təşkilatlara əsgəri xidmətdə olmuş ehtiyat qüvvələrdən ən yaxşı texniklərdən, sadiq və

---

[511] Sov.İKP MK nəzdində MLİ Gürcüstan filialının partiya arxivi, f.12798, siy.3, iş 175, vər.20.

[512] N. Nərimanovun və Tiflis komitəsinin bu sahədə işi haqqında bax: Ş.Ə.Tağıyeva. Göstərilən məqalə, səh.46 48.

[513] Yenə orada, səh.47.

[514] İranlıların Bakıda yaratdıqları "İctimaiyyune-amiyyun" ("Mücahid") təşkilatının MK-sı nəzərdə tutulur.

[515] RSDF (b) İ-nin Qafqaz Ölkə Komitəsi nəzərdə tutulur.

sınaqdan çıxmış işçilərdən qoşun toplamaq təklif edilsin. Onlar təşkilatın əlində olan silah, bomba və partlayıcı maddələrin bir hissəsilə ayrı-ayrı qruplarla İrana göndərilsinlər”.[516]

Ölkə komitəsinin qərarından sonra Qafqaz inqilabçıları dəstə-dəstə Təbrizə getməyə başladılar. Bu işdə Bakı və Tiflis bolşevikləri, “İctimaiyyune-amiyyun” təşkilatları, yaranmış üçlüklər mütəşəkkil fəaliyyət göstərdilər. Ə.Kəsrəvinin qeydlərinə görə, ilk dəfə mükəmməl silahlanmış 100 nəfərə qədər döyüşçü gizli yollarla Arazdan keçərək iyul ayının axırlarında Tiflisdən Təbrizə gəldi. Bacarıqlı və hərbi təcrübəyə malik qafqazlıların Təbrizə gəlməsi döyüşçülər və əhali arasında böyük ruh yüksəkliyi yaratdı.[517]

M.B.Veycuyeyi də bu barədə yazır: “Sentyabrın 30-da bir dəstə qarabağlı mücahid digər bir dəstə gürcü mücahidlə birlikdə Maku ordusunun mühasirəsini yararaq Təbrizə gəldilər. Qarabağlı mücahidlər külli miqdarda beşaçılan patronu gətirmişdilər”.[518]

Təbrizdə Rusiya konsulu Paxitonovun noyabr ayı ərzində Tehrana çar səfirliyinə göndərdiyi məlumatından da aydın olur ki, Qafqazdan arasıkəsilmədən gürcü, erməni, azərbaycanlı və qismən ruslardan ibarət dəstələr Təbrizə gəlir və özlərilə xeyli silah gətirirdilər.[519] Onun 8 noyabr tarixli teleqramında deyilirdi: “Zaqafqaziyanın müxtəlif təşkilatları və partiyaları tərəfindən göndərilmiş gürcü, erməni, tatar (*yəni azərbaycanlı – red.*) və qismən ruslar 30-40 nəfərlik silahlı dəstələrlə Təbrizə gəlirlər. Bu vaxta qədər 150 nəfər gəlmişdir”.[520] Paxitonovun 13 noyabr tarixli teleqramında isə qeyd edilmişdi: “Bu gün 150 nəfər tatar (yəni azərbaycanlı - red.) və gürcü qatar vasitəsilə sərhədə gəlmiş və oradan İran Culfasına keçmişdir”.[521]

---

[516] В.Триа. Кавказские социал-демократы в персидской революции. Париж, 1910, səh.9-10.
[517] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.727.
[518] M.B.Veycuyeyi. Təbriz üsyanı, səh.232.
[519] СДД, вып.1, səh.305, 307, 312.
[520] Yenə orada, səh.307.
[521] Yenə orada, səh.312.

Təbriz sosial-demokrat təşkilatı və Azərbaycan əyaləti əncüməninin göstərişilə 1908-ci ilin noyabrında Mərənd, Xoy, Salmas vilayətlərini əksinqilabçılardan azad etmək üçün mücahid qüvvələri göndərildikdə, Ələmdar qəsəbəsinə 700 nəfər silahlı mücahid toplanmışdı, onların 200 nəfəri Rusiya təbəəsi - gürcü, azərbaycanlı, erməni idi.[522] Qafqazdan gedən mücahidlər silahdan əlavə, Təbrizə bomba hazırlanması üzrə mütəxəssislər də aparmışdılar. Qafqaz inqilabçılarının yardımı ilə Təbrizdə və digər yaşayış məntəqələrində (məsələn, Ələmdar qəsəbəsində)[523] bomba hazırlanır və ondan əksinqilaba qarşı geniş istifadə edilirdi.[524]

Əldə olan zəngin materiallar göstərir ki, silahların qaçaq yolla İrana gətirilməsi, inqilabçıların bu sahədə fəaliyyəti çar hökumətinin yuxarı orqanlarını son dərəcə təşvişə salmışdı. İrana silah göndərilməsinin qarşısını almaq üçün bir sıra tədbirlər görülmüşdü. Məsələn, Bakı qubernatorunun sentyabrın 27-də Bakı polis rəisinə verdiyi 494 №li əmrində qeyd edilirdi: “Son vaxtlar Rusiyadan Azərbaycana (Cənubi Azərbaycana - red.) qaçaq silah gətirilməsi xeyli artmışdır. Tulanın hökumət zavodundan külli miqdarda tüfəng, patron gətirilərək Nijqorod yarmarkasında gizli satılır, qaçaq ticarət malı kimi Volqa çayı ilə Həştərxana, oradan da dəniz vasitəsilə Bakıya gətirilir. Silah Bakıdan iki yolla - furqonla Şuşaya, oradan Culfaya və Təbrizə aparılır, yenə Bakıdan dəniz yolu ilə Lənkərana göndərilirdi. Həştərxandan gəmi vasitəsilə Bakıya gətirilən mallar üzərində ciddi nəzarət qoyulması sizdən xahiş olunur”.[525] Bakı qubernatorunun əmrindən görünür ki, Bakı bolşevikləri tərəfindən yaranmış üçlüyün Təbrizə silah göndərməkdə istifadə etdiyi yollar çar məmurlarına məlum idi.

---

[522] СДД, вып.II, səh. 6.

[523] Ələmdar qəsəbəsi İran Culfasının 10 kilometrliyində yerləşir.

[524] Bax: СДД, вып.II, səh.7; Esmail Rain. Əncomənha-ye serri dər enqelab-e məşrutiyyət-e İran (*İran məşrutə inqilabında gizli əncümənlər*), Tehran, 1345/1966, səh.155, 157

[525] Azərbaycan SSR Mərkəzi dövlət Tarix Arxivi, f.498, siy.1, iş 21, vər.3 (sonrakı səhifələrdə: Azərb. SSR MDTA yazılacaqdır).

Rusiya-İran sərhədlərindən gizli vasitələrlə inqilabçıların silah keçirmələrinə qarşı çar hökumətinin hərtərəfli maneələrinə - həbslərə, müsadirələrə, sürgünlərə baxmayaraq, Təbriz üsyanında, Azərbaycanın şəhərlərində inqilabçı qüvvələrin əsas hissəsi İran və Rusiya inqilabçılarının ardıcıl fəaliyyəti nəticəsində Rusiya, Qafqaz və Avropa ölkələrindən gətirilən silahla təmin edilmişdi. Cənubi Azərbaycana silahın ən mühüm hissəsi Rusiya Culfasında gizli fəaliyyət göstərən sosial-demokrat komitəsi vasitəsilə keçirilmişdir. Culfa komitəsi RSDFP ilə Təbriz sosial-demokrat təşkilatı arasında "Əlaqə komitəsi" kimi fəaliyyət göstərmişdir. Komitədə Şeyxov qardaşlarının rolu və fəaliyyəti xüsusilə mühüm olmuşdur.[526] Culfa komitəsi çar hökumətinin polis və gömrük idarələri qulluqçularından da bəzisini öz işinə cəlb edə bilmişdi. Məsələn, Culfa polis idarəsi zabitlərindən Saçinov döyüşçülərin və silahın sərhəddən Cənubi Azərbaycana keçirilməsində uzun müddət Culfa komitəsinə yardım göstərmişdir.[527] Culfa kömrük idarəsinin vəzifəli qulluqçularından Şahtaxtinski və Nəcəfov Culfa komitəsinin üzvü idilər.

Təbriz, Xoy, Salmas, Zunuz və digər şəhərlərdə gedən vuruşmalarda Qafqaz inqilabçılarının göstərdiyi fədakarlıq xüsusilə diqqətəlayiqdir. Onlar öz bacarığı, qorxmazlığı və igidliyi ilə inqilabçıların, ümumiyyətlə, əhalinin dərin hörmətini qazanmışdılar. Təkcə Təbriz vuruşmalarında Qafqaz sosial-demokratlarından 22 nəfər həlak olmuş, bir çoxları yaralanmışdı.[528] 1608-ci il sentyabrın 10-da Əmirəqız səngərlərində əksinqilabın şiddətli hücumlarına qarşı döyüşlərdə iştirak edən gürcülərdən üçü ağır yaralandı. Sentyabrın 19-da onlardan birinin - görkəmli mübariz Çitonun xəstəxanada ölməsi bütün inqilabçıları dərindən kədərləndirdi. Şəhərin şərq və şimal-şərq hissələrində şiddətli vuruşmaların davam etməsinə baxmayaraq, sentyabrın 20-də Təbriz sosial-

---

[526] Sov. İKP MK nəzdində MLİ Gürcüstan filialının partiya arxivi, f.12. 798, siy.3, iş.174, səh.6.

[527] Gürcüstan MDTA, f.940, siy.I, iş 248, vər.71, 78.

[528] В.Триа. Кавказские социал-демократы в персидской революции, səh.12.

demokrat (İctimaiyyune-amiyyun) təşkilatı və əyalət əncüməni tərəfindən dəfn mərasimi təşkil edildi. Dəfn mərasimi nümayişə çevrildi. "Naleye-millət" qəzetinin yazdığına görə bu vaxtadək təkcə Təbrizdə deyil, bütün İranda görkəmli ictimai və siyasi şəxsiyyətlərdən, inqilab şəhidlərindən heç birisinin dəfn mərasimi belə bir təntənə ilə keçirilməmişdi.[529]

Həmin illərdə Qafqazda, xüsusilə Bakıda nəşr edilən "İrşad", "Həyat", "Tazə həyat" və digər qəzetlər, "Molla Nəsrəddin" jurnalı İran inqilabına böyük mənəvi yardım göstərirdi. Bakıda və Qafqazın digər şəhərlərində inqilabçı proletar təşkilatlarının gizli və açıq nəşr etdirdikləri "Hümmət", "Yoldaş", "Təkamül", "Bakinski raboçi", "Qoç dəvət" və s. proletar mətbuat orqanlarının yardımı və həmrəyliyi mühüm olmuşdur.

Bakı və ümumiyyətlə Şimali Azərbaycan varlılarının müəyyən cinahı da İranda demokratik üsuli-idarənin yaranması ilə maraqlanır və İran inqilabına yardım göstərməkdən çəkinmirdilər. Təbriz üsyanına yardım göstərmək üçün Bakıda müxtəlif qruplar təşkil edilmişdi. Bakı kapitalistlərindən Hacı Zeynalabdin Tağıyev, Ağa Qəni, Musa Nağıyev və b. üsyana yardımları haqqında faktlara təsadüf olunur.[530]

Qafqazın mütərəqqi qüvvələrinin Cənubi Azərbaycan inqilabçılarına hərtərəfli yardımı çar hökumətinin yuxarı orqanlarını təşvişə salmışdı. Bunu Qafqaz canişini Vorontsov-Daşkovun 1909-cu il martın 16-da baş nazir Stolıpinə Bakının azərbaycanlı ziyalılarının Təbriz üsyanına yardımı haqqında göndərdiyi 328 №-li məlumatı da göstərir.[531]

---

[529] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.767.

[530] Azərbaycanın iri burjuaziyasının bəzi nümayəndələrindən Z.A.Tağıyevin, habelə Teymurxanşuradan N. Mütəllibovun İran inqilabına yardım olaraq böyük miqdarda pul vəsaiti və silah göndərməsini həm çar Rusiyasının İrandakı rəsmi nümayəndələri, həm də Bakı şəhərinin mühafizə bölməsinin baş məmuru 1908-ci ildəki rəsmi məlumatlarında qeyd edirdilər (Bax: Gürcüstai MDTA, f.3, iş 78, vər.61, 147).

[531] Sov. İKP MK nəzdində MLİ Gürcüstan filialının partiya arxivi, f.12793, siy.3. iş 175, vər.31.

İran inqilabı, xüsusilə Təbriz üsyanı Orta Asiyanın Aşqabad, Buxara, Mərv, Səmərqənd, Cərcou və başqa şəhərlərində sakin olan və müxtəlif peşə sahələrində çalışan iranlıları da həyəcana gətirmiş, onları vətəndə demokratik üsuli-idarənin yaranmasında iştirak etməyə ruhlandırmışdı.[532]

İnqilabda iştirak etmək, ona mütəşəkkil yardım göstərmək məqsədilə Orta Asiya şəhərlərindən bəzilərində iranlılar tərəfindən əncümənlər yaradıldı. Burada ilk əncümən 1907-ci il iyun ayında təşkil edilmiş Aşqabad əncüməni idi. Aşqabad ancüməni ilə yanaşı burada iranlı uşaqların təhsili üçün "Müzəffəriyyə" adlı məktəb də təsis edildi. Bu məktəbdən əncümənin fəaliyyətini çar polis nəzarətindən qorumaq məqsədilə də istifadə olunurdu.

1908-ci ilin əvvəllərindən Aşqabad əncümənininin rəhbərliyi ilə Krasnovodsk, Mərv, Daşkənd, Cərcou, Buxara, Səmərqənd və s. şəhərlərdə iranlılar tərəfindən əncümənlər təşkil edildi.[533] Bu əncümənlər iranlılar içərisində ciddi iş aparır, bu fəaliyyəti bilavasitə Təbriz, Məşhəd və Astarabad əncümənlərilə əlaqədə həyata keçirirdilər.[534]

1908-ci ilin iyun ayından Təbrizdə başlanmış silahlı üsyan zamanı Orta Asiyada yaşayan yüzlərlə iranlı əncümənlər vasitəsilə Təbrizə Səttarxanın ünvanına göndərdikləri məktublarda Təbriz üsyançıları sıralarında fədakarlıq göstərməyə hazır olduqlarını bildirirdilər. Aşqabad və digər şəhərlərin əncümənləri İranda konstitusiya bərpa edilənədək on minlərlə manat miqdarında topladıqları pula gizli vasitələrlə tüfəng, patron, bomba, tapança, barıt və s. hərbi ləvazimat alır, gizli yollarla Krasnovodskdan Bakıya, oradan da Təbrizə və ya Rəştə göndərirdilər.[535]

---

[532] Xəzər dənizinin şərq sahili vilayətlərində 20 minə yaxın iranlı yaşayırdı. 34 min əhalisi olan Aşqabad şəhərində 11 mindən artıq iranlı var idi (A.M.Матвеев. Иранские революционные организации в Средней Азии в начале XX века., - «Народы Азии и Африки», № 2, 1961, səh.104.

[533] А.М.Матвеев. Иранские революционные органищзации в Средней Азии в начале XX века. «Народы Азии и Африки», № 2, 1961, səh.105.

[534] Yenə orada, səh.105.

[535] А.М.Матвеев. Иранские революционные органищзации в Средней Азии в начале XX века. - «Народы Азии и Африки», № 2, 1961, səh.104.

İran inqilabının qələbəsi Türkiyə şəhərlərində yaşayan və əsasən ticarətlə məşğul olan iranlılara da (bunların əksəriyyəti azərbaycanlı idi) təsir göstərmiş, İranın yeni inkişaf yoluna düşəcəyi inamını gücləndirmişdi. Əbdülhəmid polisinin və İranın Türkiyədəki səfiri Ərfəüddövlənin maneələrinə baxmayaraq onlar 1908-ci il iyun çevrilişindən sonra Təbrizdə başlanan üsyan xəbərini alan kimi Təbrizə və İranın başqa vilayətlərinə yardım göstərməyə başladılar. Yardımı müntəzəm toplamaq və vaxtında çatdırmaq məqsədilə həmin ilin iyul ayında İstanbulda "Əncüməne-səadəte-İraniyan" (İranlıların səadət əncüməni) təşkil edildi. Bu əncümәndə xırda alverlə məşğul olan və digər müxtəlif peşələrdə çalışan iranlılardan 20, İran ticarət burjuaziyasından 10 nümayəndə iştirak edirdi.[536] Səadət əncüməni Azərbaycan əyalət əncüməninin bir növ nümayəndəliyi kimi İstanbulda fəaliyyətə başlayaraq, xarici ölkələrdə yaşayan iranlılarla Təbriz arasında vasitəçi rolunu ifa etməyi öz öhdəsinə götürmüşdü.[537] Səadət əncüməni öz fəaliyyətində Nəcəfdə yaşayan iranlı ruhanilərin məşvərəti ilə hesablaşmış və əncümənin sədrliyinə Nəcəf müctəhidləri tərəfindən göndərilmiş şeyx Əsədulla Mamağanini təyin etmişdi.[538]

Səadət əncüməni 1908-ci il sentyabrın 2-dən İstanbulda nəşr etdirməyə başladığı "Şəms" adlı həftəlik qəzet vasitəsilə bütün Azərbaycan hadisələrini, xüsusilə Təbriz üsyanının gedişi və onun qələbələri haqqında məlumatı xaricdə yaşayan iranlılara çatdırırdı.[539]

Təbriz üsyanının ardıcıl qələbələri Səadət əncüməninin nüfuzunu, onun fəaliyyət dairəsini daha da genişləndirmişdi. 1908-ci ilin axırlarında Səadət əncüməni Türkiyədə yaşayan iranlıların təxminən hamısını birləşdirmiş, inqilab haqqında xaricdə dürüst

---

[536] Dövlətabadi. Tarixe-moaser, III cild, 1330/1951, səh.33.
[537] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.724.
[538] Əsədulla Mamağani Təbrizin 50 kilometrliyində yerləşən Mamağan qəsəbəsindən idi.
[539] M.S.Haşimi. İranın mətbuat tarixi, III cild, 1329/1950, səh.82.

məlumat yaymaqda və inqilaba yardım toplamaqda fəaliyyət göstərmişdir[540] (təkcə 1908-ci ilin oktyabr ayında əncümən Azərbaycana 10 min manat göndərmişdi).[541]

## 6. ƏKSİNQİLABIN TƏBRİZ ÜZƏRİNƏ YENİ HÜCUMLARI. XARİCİ MÜDAXİLƏ

1909-cu il yanvarın axırlarından etibarən Təbriz şəhəri əksinqilab qüvvələri tərəfindən yenidən mühasirəyə alındı. Şəhər üzərinə şiddətli hücumlar başlanmaqla əhali üçün zəruri olan hər cür yaşayış vəsaiti və ərzaq mallarının şəhərə daxil edilməsinin qarşısı alındı. Fevral, mart aylarında Təbrizə qarşı hər tərəfdən arasıkəsilməyən hücumların əksinqilab üçün ağır tələfatdan başqa heç bir nəticəsi olmadı. Təbriz hərbi cəhətdən yenə də inqilabın alınmaz qalası kimi dururdu. Lakin martın əvvəllərindən etibarən Təbrizdə qıtlıq və aclıq özünü göstərməyə başladı.

Təbrizdə şiddətli döyüşlər davam etdiyi vaxtda martın 5-də Mərənd şəhəri, 15-də Culfa əksinqilab qüvvələri tərəfindən tutuldu, Culfa-Təbriz yolu bağlandı.[542] Xoy, Salmas inqilabçılarının Təbrizlə əlaqəsi kəsildi. Şahın əmrilə Maku feodalı İqbalüssəltənənin və kürdlərin Xoy, Salmas üzərinə hücumları başlandı. Şiddətli vuruşmalar uzun müddət davam etdi. Xoy inqilabçıları üçün ağır və gərgin vəziyyət yarandı.[543] Urmiya mücahidlərindən bir dəstə Mirzə Mahmud Salmasinin başçılığı ilə Xoy inqilabçılarına yardıma getdi. Martın 21-də Maku kürdlərilə Xoy mücahidləri arasında davam edən şiddətli vuruşmalarda Təbriz sosial-demok-

---

[540] Əncümənin hörməti o dərəcəyə çatmışdı kn, İran səfiri Ərfəüddövlə belə 3 min manat verməyə, özünü inqilaba yardım göstərən iranlılar siyahısına yazdırmağa məcbur olmuşdu (Dövlətabadi. Tarixe-moaser, III cild, səh.33).

[541] "Баку" qəzeti, No198, oktyabr 1908-ci il.

[542] М.С.Иванов. Иранская революция 1905-1911 годов, səh.350.

[543] Ə .Kəsrəvi. İranın konstitusiya tarixi, səh.873.

rat təşkilatının görkəmli üzvü Azərbaycanın məşhur inqilabçı şairi Səid Salmasi həlak oldu.[544] İtkilərə baxmayaraq Heydər Əmioğlu, Əmir Heşmət və Xoy sosial-demokratları qrupunun fədakar və bacarıqlı üzvlərinin səyi nəticəsində əksinqilab qüvvələri Xoya yaxınlaşa bilmirdilər.

Salmas mücahidləri isə Hacı Pişnamazın başçılığı ilə müqavimət göstərirdilər. Maku qaragüruhçuları dəfələrlə Salmas üzərinə hücuma keçdilər, lakin Salmas inqilabçıları nəinki təkcə şəhəri müdafiə edib saxlaya bildilər, hətta Urmiya gölü sahilləri ilə irəliləyərək, Təbrizin 30 kilometrliyində yerləşən Sofiyan qəsəbəsini də azad etdilər. Martın 31-də onlar Ərvənəq-Ənzab rayonlarını düşməndən təmizləmək üçün müvəffəqiyyətli hücuma başladılar.[545]

Əksinqilabın arasıkəsilmədən Təbriz üzərinə təşkil etdiyi bütün hücumlar inqilabçıların qələbəsilə başa çatdı, ancaq mühasirə ilə əlaqədar şəhərdə baş vermiş aclıq təbrizlilərin vəziyyətini getdikcə gərginləşdirdi.

Hadisələrdən imperialist və işğalçılıq siyasətləri üçün istifadə etməyə cəhd göstərən İngiltərə və çarizm Təbrizdəki aclığı, xarici təbəələrin mənafeyini qorumağı bəhanə edərək, sarayla inqilabçılar arasında "sülh" yaratmaq adı altında Azərbaycan əyalət əncüməni ilə danışığa başladılar. Əncümən barışıq üçün konstitusiyanın bərpa edilməsi, hərəkatda iştirak edənlərin silahlarının alınmaması, hərəkata qoşulanların təqib edilməməsi, dövlət qoşunlarının Təbriz ətrafından uzaqlaşdırılması və Azərbaycan valisinin xalqın razılığı ilə təyin edilməsindən ibarət beş şərt irəli sürdü.[546] Müzakirədə bilavasitə iştirak edən İngiltərənin Təbrizdəki konsulu Vratislav aprelin 15-də Tehrana, İngiltərənin səfiri Barklaya göndərdiyi məlumatda bu şərtləri qeyd etdikdən sonra əlavə etmişdir ki, hazırda əhali ərzaq cəhətdən çətinlik çəkir. Verilmiş şərtlərdə müəyyən dəyişiklik aparılsa da (əksinqilab xeyrinə),

---

544 Ə .Kəsrəvi. İranın konstitusiya tarixi, səh.876.

545 Yenə orada, səh.877.

546 Yenə orada, səh.888.

qəbul edəcəklər.[547] Vratislav həmin raportda Barklaya xatırladırdı ki, "Eynüddövləyə tapşırılsın ki, Təbrizin təslimi işində bizim (ingilislərin - red.) göstərişimizlə hərəkət etsin".[548] Kiçik nümunə kimi gətirilmiş bu qeydlər İngiltərə və onlarla əlbir hərəkət edən çarizmin İranın daxili işlərinə nə dərəcədə müdaxilə etməsini göstərir.

Əksinqilab Azərbaycan əyalət əncüməninin şərtlərilə razılaşdı. Belə "sülh danışıqları" çarizm və İngiltərə nümayəndələri vasitəsilə bir neçə dəfə davam etdi. Bütün bunlar vaxt qazanmaq, Təbrizi aclıq yolu ilə təslim olmağa məcbur etmək üçün fitnəkarlıqdan başqa bir şey deyildi. Üsyan başçıları mühasirəni dağıqmaqla şəhəri xilas etmək qərarına gəldilər. Aprelin 20-də şəhərin cənub-qərbində yerləşən Şamqazan səngərinə şiddətli hücum başlandı. Təbriz mücahidləri əksinqilab qüvvələrini möhkəm sıxışdırdılar. Elə bu vaxt çar hökuməti hələ aprelin əvvəllərində İranın cənubundakı limanlara hərbi hissələr çıxarmış və o rayonlarda inqilabi hərəkatın boğulmasında iştirak etmiş[549] İngiltərə ilə danışıq əsasında Təbrizə ərzaq malları gətirmək, xarici təbəələri qorumaq bəhanəsilə aprelin 25-də Culfa sərhədindən Cənubi Azərbaycan torpaqlarına qoşun daxil etdi.[550] Azərbaycan əyalət əncüməni çar qoşunlarının Təbrizə yürüşünün dayandırılacağı və sərhəddən qaytarılacağı təqdirdə inqilabçıların Təbrizi, habelə bütün Cənubi Azərbaycanı şah qoşunlarına təslim etməyə hazır olduqlarını teleqraf vasitəsilə şaha bildirdi.[551] Bununla əlaqədar əncümənlə saray arasında bir neçə teleqram vasitəsilə "səmimi" danışıq oldu. Lakin həmin teleqramların məzmunu göstərdi ki, şah və saray xarici müdaxilənin qarşısını almağa qadir deyildir və bunu istəmir də. Çünki şah öz hakimiyyətini, mütləq monarxiyanı xarici qüvvələrə arxalanmaqla qoruyub saxlamaq niyyətində idi. Beləliklə,

---

[547] Ketabe-abi, II cild, səh.338, 339.
[548] Yenə orada, səh.340.
[549] Bax: M.C.Иванов. Иранская революция 1900-1911 годов, səh.362-363.
[550] СДД, вып.II, səh.140, 153, 155.
[551] Ə.Kəsrəvi. İranın konstitusiya tarixi, səh.903.

teleqram mübadiləsindən heç bir nəticə əldə edilmədi və çar qoşunu ölkənin daxilinə irəliləyərək aprelin 29-da Təbrizə çatdı.[552]

Çar qoşunlarının Təbrizə çatması ilə əlaqədar əhalini həyəcan bürüdü. Lakin Təbriz sosial-demokrat təşkilatının və əyalət əncüməninin qərarına əsasən Səttarxan və hərbi şura çar qoşunları ilə hər cür toqquşmanı mücahidlərə qadağan etdi.

Çar qoşunları Təbrizə çatdıqdan sonra şah qoşunları Təbrizin ətrafından uzaqlaşdılar. Beləliklə, döyüşlər dayandırıldı. Şah qoşunları tərəfindən hərbi düşərgə kimi istifadə olunan Təbrizin ətraf binaları, bağları çar əsgərlərinin kazarmasına çevrildi. May ayının ilk günlərindən etibarən çar əsgərləri Təbrizdə silahlı mücahidləri tərksilah etməyə başladılar. Mücahidlər silahları verməkdən imtina etdilər, toqquşmaların başlanması şəhərdə vəziyyəti xeyli gərginləşdirdi. Çar komandanlığı və konsulluğu Azərbaycan əyalət əncüməninə, əncümən tərəfindən vali müavini təyin edilmiş İclalülmülkə müraciətlə, ilk növbədə inqilabın hərbi qüvvələrinin tərksilah olunmasını Rusiya təbəəsi olan Qafqaz inqilabçılarının Cənubi Azərbaycandan çıxıb getməsini tələb etdilər.[553] Mücahidləri, inqilab qüvvələrini tərksilahetmə tələbini həyata keçirmək əyalət əncüməninə mümkün olmadı, lakin çar əsgərləri ilə toqquşmanın qarşısını almaq qaydalarına riayət edildi. Qafqazın inqilabçılarının da əksəriyyəti Təbrizi tərk etməyə, vətənə - Qafqaza qayıtmağa məcbur oldu.

Üsyanın son gününədək Cənubi Azərbaycan inqilabçıları ilə çiyin-çiyinə vuruşmuş qafqazlı inqilabçılara Təbriz və digər şəhərlərdə son dərəcə böyük rəğbət bəslənilir, onların qardaşlıq yardımı yüksək qiymətləndirilirdi.

İnqilab sərkərdələri Səttarxan Sərdare-milli, Bağırxan Salaremilli, “Mərkəze-qeybi” rəhbərlərindən Əli Müsyö, Hacıəli. Davafuruş başda olmaqla Təbrizin digər görkəmli ictimai və siyasi xadimlərinin, mücahid başçılarının iştirakı ilə Qafqaz inqilabçılarını yola salmaq məqsədilə təntənəli vida məclisi təşkil edildi. Lakin

---

[552] М.С.Иванов. Иранская революция 1905-1911 годов, səh.369.
[553] Bax: СДД, вып.II, 1911, səh.170, 171.

çar generallarının təzyiqi nəticəsində Təbriz əhalisi, üsyan başçıları öz silahdaşlarını açıq şəkildə yola sala bilmədilər. Qafqaz inqilabçılarının mühüm bir hissəsi may ayının ortalarında gecə vaxtı Təbrizdən çıxaraq gizli yollarla inqilabçıların əlində olan Xoy şəhərinə getdilər və orada böyük hörmətlə qarşılandılar. Bir neçə gün Xoyda qaldıqdan sonra inqilabçılar yenə gizli surətdə sərhəddən keçərək Qafqaza qayıtdılar. Öz vətəninə qayıda bilməyən, Təbrizdə qalıb orada fəaliyyətini davam etdirən inqilabçıların bəziləri çar qoşunları ilə toqquşmalarda həlak oldular, bir çoxları isə çar zindanlarına və sürgünlərə göndərildilər.

Cənubi Azərbaycan üsyanına yardım göstərən Qafqaz inqilabçıları, xüsusilə bolşeviklər öz vətənlərində belə təqibdən yaxa qurtara bilmədilər. Tiflis "Yardım komitəsi", "Culfa əlaqə komitəsi" və digər təşkilatların üzvlərindən çoxu, o cümlədən M.Sadıqov, Y.Rzayev, M.Ələkbərov, Ə.Məmmədəliyev, Ə.Tahirzadə, Məşədi Mahmud, həmçinin Nəriman Nərimanov, Qulam Qəni oğlu, Mirzə Şapur Qəni oğlu çar polisi tərəfindən həbs edildilər.[554] Culfa komitəsi üzvlərindən isə Şeyxov, Hacıyev, Nəcəfov və B.Şaxtaxtinski tutularaq Naxçıvan zindanına salındılar.[555]

## 7. KONSTİTUSİYANIN BƏRPASI VƏ ƏNCÜMƏNLƏRİN CƏNUBİ AZƏRBAYCAN VİLAYƏTLƏRİNDƏ MÖHKƏMLƏNMƏSİ

1909-cu il aprel ayının axırlarında çar hökuməti Təbrizə və Azərbaycanın digər vilayətlərinə qoşun yeritdikdən sonra şah qoşunlarına qarşı döyüşlər dayandırılsa da, İranın digər vilayətlərində, xüsusilə Gilan və İsfahanda inqilabi qüvvələrin ayağa qalxmasına, onların Tehran üzərinə yürüşə başlayıb əksinqilab qüvvələrindən azad edilməsinə şərait yaratmış oldu. Yürüşdə iştirak

---

[554] Bax: Ş.Ə.Tağıyeva. Göstərilən məqalə, səh.48.
[555] Yenə orada, səh.48

etmiş qüvvələrin başçılarının iştirakı ilə Tehranda keçmiş parlament nümayəndələrindən, nazirlərdən, varlı tacirlərdən, iri ruhanilərdən ibarət yaradılmış "Ali məclis" (və ya "fövqəladə şura") Məhəmmədəli şahın devrildiyini, onun 14 yaşlı oğlu Sultan Əhmədin şah elan olunduğunu bildirdi. Lakin yaradılmış yeni hökumətin tərkibinə xalq içərisindən çıxmış və hərəkatı qələbəyə çatdırmış inqilab rəhbərləri deyil, köhnə feodal zadəgan ünsürləri daxil edildiyinə görə əksinqilaba qarşı gözlənilən ciddi tədbirlər həyata keçirilmədi, inqilab inkişaf etdirilib dərinləşdirilmədi.

Ölkənin əyalət və vilayətlərinə təyin ednlmiş valilər də liberal siyasət yeridir, demokratik qüvvələrin, hərəkat başçılarının yerli hakimiyyət orqanlarında iştirak etməsinin qarşısını almağa çalışırdılar. Lakin "Ali məclis" tərəfindən Cənubi Azərbaycana vali təyin edilmiş və 1909-cu ilin sentyabrında Avropadan Təbrizə gəlmiş Müxbirüssəltənə əyalət əncüməninin icazəsi və məsləhəti olmadan heç bir işə müdaxilə edə bilmirdi. Azərbaycan vilayətlərindən çoxunda hakimiyyət əyalət əncüməninin göstərişi ilə idarə olunurdu. Buna görə Müxbirüssəltənə öz mövqeyini möhkəmləndirmək məqsədilə hərəkat başçıları və əncümən üzvləri arasına daim nifaq salmağa çalışırdı.

Cənubi Azərbaycanda Xoy, Salmas, Urmiya vilayət əncümənləri əvvəllər olduğu kimi, öz fəaliyyətini davam etdirirdi. Ərdəbil və Meşkində isə əncümənlər dağıdılmış və inqilabçılara divan tutulmuşdu. Rəşt sosial-demokrat təşkilatı, onun rəhbərlik mərkəzi olan "Səttar komitəsi"nin göstərişi və yardımı ilə 1909-cu ilin iyul ayında Rəştdəki azərbaycanlı fədailər tərəfindən Astara və Ərdəbil əksinqilabi qüvvələrdən təmizləndi. Ərdəbil hakimi Sərdar Rəşid və digər irticaçılar Ərdəbildəki çar konsulxanasına sığındılar. Ərdəbili azad edən fədailərin başçısı Mirzə Məhəmməd Hüseynzadənin köməkliyi ilə Ərdəbildə "Səttar komitəsi"nin şöbəsi təşkil olundu. Bu komitəyə "İctimaiyyun-amiyyun" ("Mücahid") partiyasının Bakı təşkilatı üzvlərindən Cəmşid

Axundov və Bəhram Ağayev də daxil idilər.[556] Həmin komitənin rəhbərliyilə avqustun 5-18-də Ərdəbildə seçkilər keçirildi və vilayət əncüməni bərpa edildi. Ərdəbil əncüməni nəzdində 4 nəfərlik ədliyyə əncüməni, şəhərin təhlükəsizliyini qorumaq üçün yerli fədailərdən 150 nəfərlik şəhər polisi təşkil edildi.[557] Hakimiyyət tamamilə vilayət əncüməninin əlinə keçdi. Lakin vilayət zəhmətkeşlərini qarət edən şahsevənlərlə Rəhim xanın Ərdəbilə birgə hücumu, Müxbirüssəltənənin hərəkat başçılarına qarşı fitnəkarlıqları burada əncümən hakimiyyətinin ləğv edilməsi ilə nəticələndi. Noyabrın ilk günlərində Ərdəbil 10 min nəfərdən artıq şahsevən qüvvəsi tərəfindən mühasirəyə alındı və şəhər işğal olundu. Çar konsulunun himayəsindən olan tacirlərin əmlakı və anbarları, bəzi varlıların evləri, bütün Ərdəbil bazarı və bir çox evlər qarət edildi.[558] Bununla da çar qoşunlarının Ərdəbilə gəlməsi üçün şərait yarandı.[559]

Yerli irticaçılar Cənubi Azərbaycan vilayətləri Maku və Marağada vilayət əncümənlərinin bərpa edilməsinə imkan vermədi.

Rəşt sosial-demokrat təşkilatının mərkəzi "Səttar komitəsi" tərəfindən Gilan mücahidlərinin paytaxt üzərinə inqilabi yürüşu təşkil edildikdə iranlıların Bakı sosial-demokrat təşkilatı üzvlərindən Əzimzadə və Ələkbər xanın başçılığı ilə kiçik bir dəstə mücahid də Zəncanı azad etmək üçün göndərildi. Sosial-demokrat fədailərinin bu kiçik qrupu mütləqiyyət nümayəndəsi Cahangir Mirzəni Zəncandan qovaraq orada vilayət əncümənini bərpa etdi.

---

[556] Sov.İKP MK nəzdində MLİ Azərbaycan filialının partiya arxivi, f.276, siy.2, iş 8, vər.3.

[557] СДД, вып., III., səh. 102.

[558] Əhməd Kəsrəvi. Tarix-e hicdəh sale-ye Azərbaycan (*Azərbaycanın 18 illik tarixi*), Tehran, 1333/1954, səh.98 (Sonrakı səhifələrdə: Ə.Kəsrəvi. Azərbaycan tarixi, səh... yazılacaqdır).

[559] Bax: СДД, вып.III, səh.197, 203.

Beləliklə, 1909-cu ilin aprel və may aylarından etibarən Azərbaycanın bəzi şəhərlərində çar qoşunlarının yerləşdirilməsinə baxmayaraq, Təbriz üsyanının ümumi qələbəsi nəticəsində Urmiya, Xoy, Salmas, Mərənd, Sulduz, Miyana, Xalxal, Sarab, Astara, Zəncan və digər yerlərdə konstutusiyalı üsuli-idarəyə uyğun olaraq əncümən hakimiyyəti bərqərar edildi və möhkəmləndi. Yerli əks-inqilab ünsürləri gizli fitnəkarlıqları ilə vilayət əncümənlərinin fəaliyyətinə maneçilik törətməyə cəhd göstərsələr də, xalq kütləsi öz mübarizəsi ilə bu maneələri dəf edir və əncümən hakimiyyətini yaşadırdı.

## 8. İNQİLAB QÜVVƏLƏRİNİN TƏRK-SİLAH EDİLMƏSİ

Konstitusiyanın bərpası uğrunda hərəkatda iştirak edən müxtəlif sinif və təbəqələrin mübariz qüvvələri mütləqiyyətə qarşı növbəti qələbədən sonra bir-birindən ayrıldılar. Onlar öz ictimai və sinfi mənafelərinə uyğun olaraq müxtəlif yollar seçdilər. Konstitusiyanın bərpası ilə hərəkatı bitmiş hesab edən liberal qüvvələr Tehranda “Etidaliyyun” adlı siyasi partiya yaratdılar və onun ətrafında toplandılar. İnqilabın müvəffəqiyyətlərini möhkəm qorumaq, demokratik azadlıqları həyata keçirmək məqsədi daşıyan qüvvələr, o cümlədən inqilabçı ziyalılar 1909-cu il noyabr ayının 15-də “İran demokrat partiyası”nı yaradaraq, mübariz kütlələri bu partiya ətrafında toplamaq üçün fəaliyyətə başladılar. Demokrat partiyası sıralarında 1907-1908-ci illərdəki hərəkatda fəal iştirak edən Tehran sosial-demokrat təşkilatının əksinqilab hücumundan salamat qalmış üzvləri toplanmışdı. Bu partiyanın yaranmasında Cənubi Azərbaycanın görkəmli inqilabçıları Heydər xan Əmioğlu, S.M.Əbuziya, Bağır ağa Qafqazi, S.H.Ərdəbili, Şeyx İsmayıl Həştrudi, S.M.İskəndəri, M.İ.Novbəri mühüm rol oynamışlar. Partiyanın siyasi orqanı “İrane-nou” qəzeti idi.

İran demokrat partiyası öz proqramına və məqsədlərinə görə burjua partiyası idi. Partiyanın başçıları və təşkilatları ölkədə zəhmətkeş siniflərin mənafeyini, prinsiplərini müdafiə etmək iddiasında olsalar da, bu partiya zəhmətkeşlərin siyasi partiyası səviyyəsinə yüksələ bilmədi.

Tehranda yaranmış siyasi partiya və təşkilatların heç birisi Cənubi Azərbaycanda, onun mərkəzi Təbrizdə öz şöbəsini yarada bilmədi. Azərbaycan valisi Müxbirüssəltənə "Etidaliyyun" partiyası şöbəsini yaratmağa çalışsa da, Azərbaycanda hökm sürən inqilabi əhvali-ruhiyyə buna imkan vermədi. İran demokrat partiyasının şöbəsi isə Azərbaycanda yalnız 1910-cu ilin sentyabr ayında partiyanın sədri S.H.Tağızadənin, habelə bir qrup inqilabçı ziyalının, o cümlədən M.İ.Novbəri, M.A.Naleye-Millət, Əmir Heşmət və b. iştirakı ilə yaradıldı. 1910-cu ilin axırlarından Təbrizdə Mirzə Hacağa Rzazadənin dərc etdirdiyi "Şəfəq" qəzeti bu partiyanın Azərbaycan əyalət komitəsinin orqanı idi.

Təbriz sosial-demokrat təşkilatı isə konstitusiya-bərpa edildikdən sonra da siyasi və təşkilati fəaliyyətini davam etdirdi. Azərbaycanda sosial-demokrat təşkilatı bütün başqa siyasi partiya və cəmiyyətlərdən nüfuzlu idi. Hərəkatın bütün silahlı qüvvələrinə-mücahid və fədai dəstələrinə, Azərbaycanda ali hakimiyyət orqanı kimi fəaliyyət göstərən, üsyan dövründə İran Məclisinin canişini sayılan[560] Azərbaycan əyalət əncüməni və bütün inqilabi-ictimai təşkilatlara Təbriz sosial-demokrat təşkilatı rəhbərlik edirdi.

Çar qoşunları Cənubi Azərbaycana daxil olduğu zaman burada xalq nümayəndələrindən ibarət 25 min nəfərdən artıq silahlı mücahid və fədai var idi. İnqilabın ən böyük nailiyyətlərindən olan bu qüvvə daxili və xarici mürtəce dairələrin əksinqilabçı siyasətinin həyata keçirilməsində böyük maneə idi. Buna görə də mürtəce qüvvələr onların tərksilah edilməsi üçün hər cür fitnəkarlığa əl atırdılar.

---

[560] Üsyan dövründə fövqəladə hallarda Azərbaycan əyalət əncüməninin irtica qüvvələrin ləğv etdiyi İran məclisinin səlahiyyətlərini öz üzərinə götürməsi haqqında bax: Н.А.Гасанов. Göstərilən avtoreferat, səh.94

Tehranda Sepəhdarın başçılığı ilə təşkil edilmiş hökumətin də əsas məqsədi heç də inqilabın müvəffəqiyyətlərini qorumaq, onlardan ölkənin azadlığı və inkişafı üçün istifadə etmək deyil, bəlkə əksinə, inqilabın dayağı olan mücahid və fədai dəstələrini tərksilah etmək və dağıtmaq idi. 1909-cu il noyabrın 15-də açılan və Azərbaycan nümayəndələrinin də iştirak etdiyi ikinci məclis Sepəhdarı baş nazir təsdiq etdi. Onun hökuməti inqilab başçılarından deyil, yenə də əsasən feodal-zadəgan nümayəndələrindən təşkil olundu. Hökumətin proqramına xarici ölkələrdən (İngiltərə və çar hökumətlərindən) borc almaq, yenə hərbi qüvvə təşkil etmək, xaricdən hərbi müşavirlər gətirmək, xüsusilə inqilabın silahlı qüvvələri olan fədailəri, mücahidləri tərksilah etmək kimi məsələlər daxil idi. Məclis nümayəndələrinin əksəriyyəti Sepəhdar hökumətinin təklifilə razılaşdı. Lakin hökumət tərksilah haqqında məclisin qəbul etdiyi qərarı böyük çətinliklə həyata keçirə bildi.

Hökumət Səttarxan və Bağırxanın Təbrizdən uzaqlaşdırılmasına Azərbaycan fədailərinin tərksilah edilməsinin əsası və başlanğıcı kimi baxan İngiltərə və çar Rusiyasının təzyiqinə, hədələrinə cavab olaraq başda Səttarxan və Bağırxanın durduğu mücahidlərin Təbrizdən çıxarılmasına çalışırdı.

1910-cu il martın 11-də daxili işlər naziri Sərdar Əsəd teleqram vasitəsilə Səttarxanı Tehrana dəvət etdi.[561] Bunun ardınca Səttarxan və Bağırxana daha bir neçə rəsmi dəvət, hədələyici teleqram, əmr və göstərişlər göndərildi.[562] Sənədlər göstərir ki, daxili və xarici əksinqilabi dairələr arasında həmin məsələdə tam razılaşma əldə edilmişdi. Bütün bu təkidli dəvətlərə, arasıkəsilməyən teleqramlara baxmayaraq, martın 17-də Səttarxan Tehrana getməkdən imtina etdi. Lakin o, imperialist dövlətlərin yeni fitnəkarlıq törətməyə hazırlaşdıqları haqqında məlumat aldıqda Təbrizdə, Azərbaycanda yenidən qan tökülməsinin qarşısını almaq

[561] Esmael Əmirxizi. Qiyam-e Azərbaycan və Səttarxan (*Azərbaycan üsyanı və Səttarxan*), Təbriz, 1339/1960, səh.450 (Sonrakı səhifələrdə: Əmirxizi. Səttarxan... yazılacaqdır).

[562] B a x: Yenə orada, səh.451, 452, 457; Ketabe-abi, I cild, səh.124.

məqsədilə ertəsi gün Təbrizdən çıxmağa razılıq verdi. Təbriz sosial-demokrat təşkilatı da bu barədə qəti qərara gələ bilmədi.

1910-cu il martın 19-da Təbrizdə bütün bazarlar, dövlət idarələri, məktəblər və müəssisələr bağlandı, minlərlə fədai və mücahid, on minlərlə adam Səttarxan və Bağırxanı təntənə ilə yola saldılar. Təbriz sosial-demokrat təşkilatının üzvlərindən İ.Əmirxizi, Mirağa Hüseyni, M.İ.Yegani Səttarxanın müşavirləri və katibi sifətilə, 100 nəfər görkəmli fədai Səttarxan və Bağırxanla birlikdə Tehrana tərəf yola düşdülər. Səttarxanın getməsilə Təbriz sosial-demokrat təşkilatı, ümumiyyətlə, xalq kütləsi özünün ən güclü silahlı dayağından məhrum oldu.

Tehranda bir-birinə qarşı mübarizə aparan siyasi partiyalar, o cümlədən İran demokrat partiyası, xüsusilə onun başçıları Səttarxanın Tehrana getməsinə razı deyildilər. Hökumət və Məclisin tapşırığı ilə Səttarxanı qarşılamaq üçün paytaxtdan Zəncana gedən azərbaycanlı deputatlardan M.İ.Növbəri və Ş.M.Xiyabani İran demokrat partiyasının Mərkəzi Komitəsi tərəfindən Səttarxanı Tehrana deyil, Nəcəf şəhərinə getməyə razı salmalı idilər.[563] Lakin demokratların bu təklifi Səttarxan və onun silahdaşları tərəfindən qəbul olunmadı.

Səttarxan və Bağırxan aprelin 15-də Tehrana çatdıqda məclis nümayəndələrindən, dövlət üzvlərindən, Tehran əhalisinin bütün sinif və təbəqələrinin, azlıqda olan millətlərin nümayəndələrindən ibarət böyük bir izdiham tərəfindən son dərəcə böyük hörmətlə qarşılandılar. O dövrün mətbuatının yazdığına görə, həmin vaxta qədər heç bir siyasi, ictimai xadim, heç bir ruhani və xarici qonaq, hətta şah belə təntənə ilə qarşılanmamışdı.[564]

Xarici qoşunların ölkədən çıxarılması və digər tələblər irəli sürən xalq etirazları qarşısında 1910-cu il iyulun 7-də Sepəhdar

---

[563] Əmirxizi, Səttarxan, səh.464.

[564] Bax: "İrane-nou" qəzeti, Tehran, No 179, 180, aprel 1910.

hökuməti istefa verdi. İyulun 25-də yeni təşkil olunmuş Mustofi-ülməmalik hökuməti də birinci növbədə fədailəri, mücahidləri sürətlə tərksilah etməyə çalışırdı.[565]

Tərksilah haqqında fədai başçıları ilə əldə edilmiş razılığa baxmayaraq, Səttarxan və onun ətrafındakı mücahidlərə, onlara Tehranda qoşulmuş fədailərə qarşı xaincəsinə basqın təşkil edildi. Avqustun 7-də 300 nəfərə yaxın silahlı fədainin toplaşdığı Atabəy parkı fədailərdən heç birinin gözləmədiyi halda 6 min nəfərlik müxtəlif silahlı dəstələr tərəfindən mühasirəyə alınaraq, hər tərəfdən top atəşinə tutuldu. Fədailər özlərini müdafiə etməyə məcbur oldular. Gecə saat 11-dək davam edən bu vuruşmada mücahidlərdən 18 nəfər həlak oldu, 40 nəfər, o cümlədən Səttarxan yaralandı, 300-ə yaxın fədai həbsə alındı.[566] Bununla da inqilabın son səngəri əksinqilab və muhafizəkar qüvvələr tərəfindən dağıdıldı və zəhmətkeş kütlələrin silahlı gücünü təmsil edən, inqilabi hərəkatda xalq kütlələrinin, sınanmış inqilabçıların simvolu sayılan sədaqətli mücahid dəstəsi sıradan çıxmış oldu.

Səttarxan və Bağırxan Təbrizə qayıtmaq istəsələr də, Tehran hökuməti icazə vermədi. Bu isə əslində sürgündə qalmaq demək idi.

Səttarxan və Bağırxana qarşı xəyanət ümumi narazılığa, xüsusilə Azərbaycan xalqının dərin hiddətinə səbəb oldu. Lakin ölkədəki mövcud şərait, çar qoşunlarının Cənubi Azərbaycan şəhərlərində yerləşməsi Tehran hökumətinin düşmən münasibətlərinə qarşı fəal çıxışlara imkan vermədi.

1910-cu ilin noyabr ayında Cənubi Azərbaycan xalq hərəkatının görkəmli başçılarından Əli Müsyö vəfat etdi. 1906-cı ildən 1910-cu ilədək Azərbaycanda davam edən bütün siyasi və ictimai mübarizələrə, inqilabi hərəkata, Azərbaycan xalqının silahlı üsyanına rəhbərlik etmiş Təbriz sosial-demokrat təşkilatı və onun Mərkəzi Komitəsinin (Mərkəze-Qeybinin) başında durmuş Əli Müsyönün ölümü inqilab üçün böyük itki idi.

---

[565] Birinci məclisin protokolları, səh.369, 373.

[566] Bax: Əmirxizi. Səttarxan, səh.530-567.

Bu hadisələrdən sonra Müxbirüssəltənənin xalqa zidd siyasəti daha da gücləndi. Cənubi Azərbaycanın liberal və mühafizəkar ünsürləri onun ətrafına toplanaraq əyalət əncüməninin və digər demokratik təşkilatların fəaliyyətinə qarşı daha cürətlə maneə törətməyə başladılar.

1911-ci ilin əvvəllərində Sepəhdarın yenidən hökumət başına gəlməsinə və inqilab dövründə əldə olunmuş bütün demokratik nailiyyətləri ləğv etməsinə arxalanaraq Azərbaycan valisi Müxbirüssəltənə də mərkəzi hökumətdən geniş səlahiyyət tələb etdi. Müxbirüssəltənə Azərbaycanda olan çar zabitlərinin və diplomatlarının inqilaba, inqilabçılara qarşı düşmən münasibətindən də istifadə edərək demokratik əhvali-ruhiyyədə olan qulluqçuları dövlət idarələrindən uzaqlaşdırdı, inqilabi hərəkata qarşı döyüşlərdə iştirak etmiş irticaçıları onların yerinə keçirdi. O, bir sıra siyasi və ictimai xadimləri təqib edərək, onlardan bir qismini (məsələn, Təbriz polis idarəsinin rəisi Əmir Heşmət Neysarini, Azərbaycanın inqilabçı publisisti, Təbriz social-demokrat təşkilatının fəal üzvü Mirzə Ağa Naleye-Milləti) həbs etdirdi. Bu təqiblər Təbrizdə əhalinin həyəcanına səbəb oldu. Əhali əncümənə toplanaraq mitinq keçirdi və Müxbirüssəltənənin Təbrizdən çıxarılmasını tələb etdi. Mitinq nümayəndələri əncümənlə birlikdə məclisə yenidən şikayət teleqramı göndərərək, Müxbirüssəltənənin tezliklə valilikdən götürülməsi tələbini irəli sürdülər.[567] Məclis Təbriz əhalisinin tələbini yerinə yetirməyə məcbur oldu. Müxbirüxsəltənə valilikdən götürüldü. Cənubi Azərbaycanın rəsmi dövlət silahlı qüvvələrinin başçısı Amanulla Mirzə müvəqqəti olaraq vali vəzifəsinə təyin edildi. Müvəqqəti vali əyalət əncüməninin rəhbərliyi, Azərbaycan inqilabçılarından H.Mirzəağa Billurinin yardımı və həmkarlığı ilə Azərbaycan valiliyini bir müddət idarə edə bildi.

Aylarla iclası keçirilməyən, təşkilati cəhətdən xeyli zəifləyən əncümənə yeni seçkilər başlandı. Əncümənin 6 yeni üzvündən ikisi (İ.Əmirxizi, M.Hüseyni) Təbriz sosial-demokrat təşkilatından üçü isə (M.İ.İovbəri, S.Mühəqqiqin, doktor Zeynalabdin xan)

---

[567] Bax: "İrane-nou" qəzeti, No114, 12 mart 1911-ci il.

demokrat partiyasından seçildilər. 6 köhnə nümayəndədən üçü (H.Fişəngçi, Şeyx Səlim, M.Billuri) sosial-demokrat təşkilatına mənsub idilər. Deməli, əncümən uzvlərinin əksəriyyətini inqilabçı kütlələrin nümayəndələri təşkil edirdi. İnqilab başçılarının birliyi ilə əncümən hakimiyyəti yenidən möhkəmləndi, demokratik qüvvələr, xüsusilə Təbriz sosial-demokrat təşkilatı, demokrat partiyasının Azərbaycan təşkilatı bütün vilayətlərdə vəziyyəti qaydaya salmaqda əyalət əncüməninə, müvəqqəti vali Amanulla Mirzəyə yardım göstərdilər. Az müddət ərzində Mərənd, Xoy, Salmas, Urmiya və s. vilayətlərdə əncümən hakimiyyəti yenidən bərqərar edildi və möhkəmləndirildi.

## 9. XARİCİ VƏ DAXİLİ ƏKSİNQİLABIN YENİ HÜCUMLARI VƏ İNQİLABIN YATIRILMASI

İngiltərə və çarizmin keçmiş şah Məhəmmədəlinin 1911-ci ilin iyulunda İrana qayıtmasına şərait yaratması ilə ölkədə siyasi vəziyyət yenidən gərginləşdi.

1911-ci il iyulun 17-də Məhəmmədəli Xəzər dənizinin cənub-şərq sahilində yerləşən Gümüştəpə qəsəbəsinə daxil oldu, ətrafına topladığı qaragüruhçu qüvvələrlə iyulun 22-də Astarabad və onun ətraf rayonlarını tutaraq, ölkənin daxilinə yürüş təşkil etdi. Eyni zamanda keçmiş şahın tərəfdarı olan qatı irticaçı feodallar İranın müxtəlif yerlərində baş qaldırdılar.

Əksinqilab hücumları ölkənin hər tərəfində, xüsusilə Tehranda əhalinin həyəcanına səbəb oldu. Sepəhdarın hökuməti yenidən istefaya çıxmağa məcbur oldu. Məclis və Naibüssəltənə[568] tərəfindən yeni nazirlər kabinəsi təşkil etmək iyulun 25-də Samsamüssəltənəyə tapşırıldı. Samsamüssəltənənin kabinəsi əksinqilabi yürüşlərə qarşı hazırlığa başladı.

---

[568] 1909-cu ilin iyulunda Məhəmmədəli şah devrildikdən və xaricə qaçdıqdan sonra şah elan olunmuş kiçik yaşlı Əhməd şahın əvəzində dövləti Naibüssəltənə idarə edirdi.

Məhəmmədəli Gümüştəpə qəsəbəsinə kəldikdə onun yaxın adamlarından Mücəlləlüssultan Bakı – Astara - Ərdəbil yolu ilə şahsevən tayfaları içərisinə göndərildi. O mütləqiyyəti bərpa etmək üçün şahsevənləri yeni hücumlara hazırlamağa başladı.[569] Mücəlləlüssultan Yurtçi şahsevənlərin qüvvəsi ilə avqustun 2-də Ərdəbili tutaraq özünü Ərdəbil hakimi elan etdi. Ərdəbil əhalisi Mücəlləlüssultanın başçılıq etdiyi şahsevənlərin hücumuna qarşı müqavimət göstərməsə də, konstitusiya tərəfdarları, xüsusilə Ərdəbil vilayət əncüməni üzvləri təqib olundular. Avqustun 21-də Ərdəbil sosial-demokrat təşkilatının başçılarından birinin - Ərdəbil vilayət əncüməninin fəaliyyətinə istiqamət verən Axundov-Ərdəbilinin evi mühasirəyə alındı. Axundov bir neçə saat mərdliklə vuruşduqdan sonra həlak oldu.[570]

Hələ Müxbirüssəltənə vali olduğu zaman, 1911-ci ilin may ayından başlayaraq, Azərbaycan əyalət əncüməni şahsevən və Qaradağ feodallarının əksinqilabi yürüşlərinin qarşısını almaq məqsədilə Sarab rayonuna 4 min nəfərlik silahlı qüvvə toplamışdıq. Vali Müxbirüssəltənə tərəfindəa marağalı Səmədxan Şücaüddövlə onlara başçı təyin edilmişdi. Müxbirüssəltənə valilikdən götürüldükdən sonra əncümən bu qüvvənin tərkibində dəyişiklik aparmamışdı. Mücəlləlüssultan şahsevən qüvvələrilə Ərdəbil üzərinə hücuma keçdikdə Azərbaycan əncüməni həmin qüvvənin Ərdəbili müdafiə etməsinə göstəriş verdi. Lakin Şücaüddövlə əncümənin əmrini həyata keçirmədi, hətta Məhəmmədəli tərəfindən özünün Azərbaycan valiliyinə təyin olunduğunu elan etdi.[571] Şücaüddövlə Cənubi Azərbaycanın əksinqilab qüvvələrini öz ətrafına toplamaq, Təbriz üzərinə hücuma keçmək məqsədilə və Qaradağ feodalları, habelə digər əksinqilabi qüvvələrlə əlaqə yaradaraq Təbriz yaxınlığında yerləşən Basmınc qəsəbəsində hərbi düşərgə saldı.[572]

---

[569] Bax: М.С.Иванов, Иранская революция 1905-1911 годов, səh.476.
[570] Ə.Kəsrəvi. Azərbaycan tarixi, səh.198, 201.
[571] СДД, вып.VII, səh.100.
[572] Bax: "İrane-nou" qəzeti, No 103, 29 iyul 1911-ci il.

Əksinqilabın hücumlarından qorunmaq üçün Təbrizdə Amanulla Mirzənin başçılıq etdiyi müəyyən miqdarda silahlı qüvvə mövcud idi. Lakin Təbriz üçün Şücaüddövlə tərəfindən təhlükə yarandıqda əyalət əncüməninin göstərişilə Təbriz mücahidlərindən 3 min nəfər silahlanaraq şəhəri müdafiəyə qalxdı. 1911-ci il avqustun 24-dən əksinqilab qüvvələri Təbriz üzərinə hücuma başladılar.

Təbrizdə şiddətli vuruşmalar oktyabrın əvvəllərinədək davam etdi. Əksinqilab qüvvələrinin şəhərin müxtəlif istiqamətlərindən hücumlarına baxmayaraq, onlar Təbriz fədailəri qarşısında məğlubiyyətə uğradılar. Şücaüddövlənin arxalandığı qüvvələrin mühüm hissəsi darmadağın edildi, özü isə çar konsulluğunun Təbriz yaxınlığındakı Nemətabad kəndində yerləşən evində gizləndi.[573] Beləliklə, Azərbaycana qarşı təşkil edilmiş yeni əksinqilabi hücum müvəffəqiyyətsizliyə uğradı, Cənubi Azərbaycan mücahidləri yenə qalib gəldilər. Azərbaycanın bütün inqilabçı qüvvələri əyalət əncüməni mövqeyini müdafiə edərək, əksinqilaba qarşı mübarizədə iştirak etməyə hazır olduqlarını bildirdilər. Azərbaycanın bir sıra başqa şəhərlərində də yenidən könüllü fədai dəstələrinin təşkilinə başlanıldı.

İranın digər vilayətlərində də keçmiş şahın əksinqilabi yürüşünə qarşı əhalinin geniş kütlələrinin şiddətli vuruşması müvəffəqiyyətlə nəticələndi. 1911-ci il sentyabrın axırlarında məclis əksinqilab yürüşü başçılarından Şüaüssəltənə, Salarüddövlə və daha bir neçə nəfərin əmlakının müsadirə olunması haqqında qərar qəbul etdi. Bu qərar İranın maliyyə işlərinə rəhbərlik üçün həmin ildə dəvət olunmuş amerikalı müşavir M.Şusterin göndərdiyi hökumət məmurları tərəfindən həyata keçirilməli idi. Lakin bununla əlaqədar olaraq çar konsulu Paxitonov İran hökumətinə bildirdi ki, Şüaüssəltənənin əmlakı rus girov-borc bankında girov qoyulduğu üçün İran Maliyyə Nazirliyi bu əmlakın işlərinə müdaxilə etməməlidir. Noyabrın 6-da İran hökuməti tərəfindən konsulun tələbi rədd edildi. Noyabrın 11-də çar hökuməti yazılı nota ilə

[573] Ə.Kəsrəvi. Azərbaycan tarixi, səh.206, 220.

konsulun tələbini təkrar etdi, əks təqdirdə iki hökumət arasında siyasi əlaqələrin kəsiləcəyi və çar hökuməti tərəfindən ölçü götürüləcəyi ilə İran hökumətini hədələdi.[574] Noyabrın 21-də çarizmin İrana göndərdiyi hərbi dəstənin ilk hissəsi Ənzəliyə çıxarıldı.[575]

Noyabrın 29-da çar səfiri Paklevski İran dövlətinə ultimatum notası verdi. Notada: 1) Amerika maliyyə müşavirlərinin İrandan qovulması; 2) bundan sonra xarici ölkələrdən yeni müşavir və mütəxəssis qulluğa götürdükdə İngiltərə və çar hökumətlərilə qabaqcadan razılıq əldə edilməsi; 3) İrana gətirilmiş çar qoşunları xərcinin ödənilməsi tələbləri qoyulmuşdu. Ultimatumda deyilirdi ki, tələblər 48 saat ərzində qəbul olunmazsa, Rəştə gətirilmiş çar qoşunları Qəzvinə doğru hərəkət edəcəklər.[576] İran hökuməti İngiltərənin rəsmi nümayəidəsinə müraciət edərək ultimatumun geri götürükməsi üçün İranla çar hökuməti arasında vasitəçi olmasını xahiş etdi. Lakin hələ oktyabrın 27-də və noyabrın 11-də İranın cənubuna öz hərbi qüvvələrindən dörd eskadron çıxarmış ingilislər də çar hökumətinin tələblərinin dərhal ödənilməsi zəruriliyində təkid etdilər.[577]

İmperializm təcavüzkarlığına qarşı güclənməkdə olan xalq hərəkatının təzyiqi nəticəsində məclisin dekabrın 1-də keçirilən açıq iclasında ultimatum müzakirəyə qoyuldu. Nazirlər ultimatum haqqında məlumat verdikdən sonra iclasa sükut çökdü. Məclisin gənc nümayəndələrindən biri - Şeyx Məhəmməd Xiyabani tribunadan "Biz öz əlimizlə istiqlaliyyətimizi özgələrə təqdim etməyə haqlı deyilik", - sözləri ilə sükutu pozdu. Məclis böyük əksəriyyətlə ultimatumu rədd etdi. Bundan sonra çar qoşunları Rəştdən Qəzvinə doğru hərəkətə başladılar.[578] Samsamüssəltənə istefaya çıxdı, lakin Naibüssəltənə yeni hökumət təşkil etməyi yenə də ona tapşırdı. Tehranda və digər böyük şəhərlərdə ultimatuma qarşı etiraz nümayişləri başlandı. Tehranda məclis qarşısında,

---

574 СДД, вып.VII, səh.222.

575 Yenə orada, səh.251.

576 Bax: Yenə orada, səh.266-267.

577 Dövlətabadi. Tarixe-moaser, III cild, səh.196.

578 М.С.Иванов. Иранская революция 1905-1911 годов, səh.494.

məscidlərdə, meydanlarda izdihamlı mitinqlər keçirildi, bütün bazar tətil etdi. Tehranı müdafiə məqsədilə fədai dəstələri silahlanaraq şəhərin ətrafında hazırlıq işləri görürdülər.[579]

Azərbaycan şəhərlərində də ultimatuma qarşı etiraz mitinqləri keçirildi.

Ultimatuma qarşı xalqın ciddi etirazına baxmayaraq, dekabrın 24-də Naibüssəltənə məclisi buraxmaq və nümayəndələri oradan qovmaq haqqında əmr verdi. Dekabrın 25-də hökumətin silahlı dəstələri məclis binasını mühasirəyə alaraq bütün nümayəndələri oradan qovub çıxardılar,[580] Samsamüssəltənə çar hökumətinin ultimatumunu qəbul etdi. Ölkənin hər yerində xarici qoşunlar ultimatuma və müdaxiləyə qarşı çıxmış inqilabçılara divan tutdular.

1911-ci il dekabr ayının 20-də Təbrizdə çar qoşunları ilə başlanmış döyüşlər dekabrın 28-dək davam etdi. Mücahidlər şəhərin mühüm nöqtələrindən olan Ərki qalasını, meydanları əldə saxlayaraq, müdafiə mövqeyi tutdular. Dekabrın 26-da Təbrizə çoxlu miqdarda çar qoşunu gətirildi.[581] Əyalət əncüməni və hərəkat başçıları qüvvələrin qeyri-bərabər olduğunu nəzərə alaraq döyüşü dayandırdılar. Şəhər, çar qoşunları tərəfindən tutuldu. Dekabrın 28-də silahlı mücahid və fədai başçılarından təxminən 300 nəfəri şəhərdən çıxmağa, Şəbüstər, Xoy, Salmas yolu ilə Türkiyəyə getməyə məcbur oldular. Onlar içərisində Təbriz sosial-demokrat təşkilatının Mirzağa Billuri, M.Naleye-Millət, M.İ.Yekani, Nurulla xan Yekani, İ. Əmirxizi kimi görkəmli başçıları, bir nəfər rus inqilabçısı, İDP-nin Azərbaycan təşkilatı başçılarından M.İ.Novbəri, Əmir Heşmət, Əlizadə Xiyabani, Hacı Baba xan və b. var idi.[582]

1912-ci ilin ilk aylarışda İngiltərə və çarizmin silahlı qüvvələrinin müdaxiləsi nəticəsində İranın inqilab mərkəzləri dağıdıldı,

---

579 Bax: М.С.Иванов. Иранская революция 1905-1911 годов, səh.493.
580 СДД, вып.VII, səh.373-378.
581 М.С.Иванов. Иранская революция 1905-1911 годов, səh.497.
582 Bax: Ə.Kəsrəvi. Azərbaycan tarixi, səh.438, 439, 445.

inqilab başçılarına divan tutuldu, inqilabın nailiyyətləri ləğv edildi. Azərbaycanda əyalət əncüməni və sosial-demokrat təşkilatı başçılarından böyük bir dəstə çar məmurları tərəfindən həbs edildi, bir çoxları isə şəhərdə və onun ətrafında gizlənməyə məcbur oldular. Çar zabitləri tərəfindən Təbrizdə hərbi məhkəmə təşkil edildi. Onlarla görkəmli hərəkat başçısı ölümə məhkum edilərək edam olundu.[583] 1906-cı ildən inqilabi hərəkata başçılıq edən Təbriz sosial-demokrat təşkilatının görkəmli rəhbərlərindən Hacı Əli Davafuruş, Mir Kərim, Şeyx Səlim, Mirzə Əli Vaiz, Hacı Əhməd Nəqqaş, M.M. Əmioğlu, əyalət əncüməninin tanınmış üzvlərindən Sadiqülmülk, Ziyaülüləma, iri ruhanilərdən Siqqətülislam, həmçinin Səttarxann qardaşı və qardaşı oğlanları, sosial-demokrat təşkilatının rəhbəri Əli Müsyönün kiçik oğlanları, onlarla görkəmli ictimai xadim, Qafqaz mücahidlərindən bir çoxu, o cümlədən Hacı xan, Məşədi Əhməd, M.Şükür, erməni Petros xan, bir neçə inqilabçı gürcü və başqaları həmin məhkəmələr tərəfindən ölümə məhkum edilərək edam olundular.[584] Çar hərbçilərinin inqilabçılara divan tutması ilə əlaqədar Təbrizdə qaragüruhçu dəstələr də dirçəldilər. Əksinqilab başçılarından Səməd xan Şücaüddövlə Təbrizə gətirilərək Azərbaycana vali təyin edildi. Əyalət əncüməni tərəfindən Azərbaycanda valilik vəzifəsini icra edən Amanulla Mirzə ingilis konsulxanasına sığınmağa və bir neçə gün orada qaldıqdan sonra intihar etməyə məcbur oldu. Hacı Mirzə Həsən Müctəhid və digər mürtəce ruhanilərin göstərişi ilə qaragüruhçu dəstələr məşrutə inqilabının, Cənubi Azərbaycan üsyanının rəhbərlik mərkəzi sayılan əyalət əncümənini qarət etdilər və dağıtdılar. Çar məmurları əhalidə müqavimət əzmini qırmaq məqsədilə Azərbaycan əyalət əncüməni binasını, Səttarxan, Bağırxan, Əli Müsyö, H.Davafuruş, H. Fişəngçi, H.Məhəmmədbala, H. Əbülqasım, H.Nəsrulla və başqalarının evlərini də partladıb xarabaya çevirdilər.[585]

---

[583] М.С.Иванов. Иранская революция 1905-1911 годов, səh.497.

[584] Bax: Ə.Kəsrəvi. Azərbaycan tarixi, səh.311, 320, 335, 342, 351, 356, 369, 400.

[585] Bax: Ə.Kəsrəvi. Azərbaycan tarixi, səh.327, 328, 391, 399.

Daxili əksinqilab və təcavüzkar qüvvələr Azərbaycanın digər şəhərlərində də inqilab başçılarına divan tutdular. Ərdəbil, Xoy, Salmas və Urmiya şəhərlərində inqilab mərkəzləri və vilayət əncümənləri dağıdıldı. Ərdəbil mücahidlərinin başçılarından biri olan Axundzadənin vəhşicəsinə öldürdülər. Urmiyada Əşrəfzadə, Əbutalıb Əlizadə, Hacı Seyid Hüseyn, Hacı Abbasqulu və başqalarını bir müddət həbsdə saxlayıb, ağır işgəncə verdikdən sonra Urmiyadan sürgün etdilər. "Fərvərdin" qəzetinin redaktoru Ağazadə, mücahid başçılarından Məşədi Bağırxan və başqaları Türkiyə konsulluğuna sığındılar. Urmiya mücahidlərinin görkəmli başçısı Məşədi İsmayıl xanı Səməd xan Şücaüddövlənin göstərişi ilə edam etdilər.[586]

Bir sözlə, Təbrizdə və bütün Cənubi Azərbaycanda terror və irtica hökm sürməyə başladı. İnqilabın bir çox nailiyyətləri məhv edildi, Azərbaycan əhalisi uzun müddət Şücaüddövlənin zülmünə məruz qaldı.

* * *

1905-1911-ci illər İran inqilabı ölkənin ictimai-iqtisadi inkişaf zəminində yetişən, vaxtilə Avropa ölkələrində baş vermiş burjua inqilablarından özünəməxsus cəhətlərlə fərqlənən, Şərqin bir çox asılı və yarımmüstəmləkə ölkələrinə xas olan burjua inqilabı idi. Bu inqilabda Cənubi Azərbaycan mühüm rol oynadı.

Ölkənin siyasi hakimiyyətinin dəyişdirilməsində, bir sıra zəruri islahatların aparılmasında müvəffəqiyyət qazanmış bu inqilabı boğmaq və mütləq monarxiya üsulunu bərpa etmək üçün əksinqilab qüvvələri tərəfindən xarici imperialist dövlətlərin yardımı ilə inqilaba qarşı dəfələrlə yürüş təşkil olunmasına, 1908-ci il iyun əksinqilab çevrilişi ilə ölkənin hər tərəfində inqilab ocaqlarının dağıdılmasına, demokratik qüvvələrin pərakəndə edilməsinə və hər yerdə mütləqiyyət qalıqlarının yenidən hakimiyyəti ələ ke-

[586] Bax: Ə.Kəsrəvi. Azərbaycan tarixi, səh.434, 435.

çirməsinə baxmayaraq, Cənubi Azərbaycan, xüsusilə onun mərkəzi Təbriz inqilabçılarının üsyanı xalqın mübarizəsinə yeni təkan verdi. Məhz Azərbaycan xalqının rəşadətli mübarizəsi əksinqilabına geri çəkilməsi, inqilabın yeni müvəffəqiyyətləri üçün şərait yaratdı. Bu, 1909-cu ilin ikinci rübündən etibarən Gilanın, İsfahanın mübariz qüvvələri tərəfindən Tehran üzərinə başlanmış hücumun qələbə ilə nəticələnməsinə, ölkə paytaxtının əksinqilabi qüvvələrdən azad edilməsinə, konstitusiyalı üsuli-idarənin yenidən bərpa olunmasına, müstəbid Məhəmmədəli şahın hakimiyyətdən devrilməsinə imkan verdi.

Azərbaycandakı hərəkatının İran inqilabındakı mühüm mövqeyinin daha bir cəhəti ondan ibarət idi ki, bu üsyan ilk dəfə olaraq bütün İranda və ümumiyyətlə, Şərq ölkələrində xalq hakimiyyətinin ilkin rüşeymi olan inqilabi əncümənləri yaratmış oldu. Bu, Cənubi Azərbaycandakı hərəkatın, xüsusilə Təbriz üsyanının İranın başqa yerlərindəki çıxışlardan fərqli olaraq daha dərin inqilabi xarakter daşımasının, burada inqilabi hərəkatın hərəkətverici qüvvələrində demokratik kütlələrin rolunun daha güclü olmasının nəticəsi idi. İnqilabın dərinliyi və geniş kütləri əhatə etməsi cəhətdən Azərbaycandakı hərəkat, xüsusilə Təbriz üsyanı burjua-demokratik inqilabı səviyyəsinə yüksələ bildi.

Cənubi Azərbaycandakı hərəkatına daha bir xüsusiyyəti burada çıxışlara vahid siyasi rəhbərliyin – "İctimaiyyune-amiyyun" (sosial-demokrat) təşkilatının  mövcud olmasında idi.

Nəhayət, Cənubi Azərbaycandakı hərəkat dünya ictimaiyyətinin diqqət və rəğbətini qazanmış Səttarxan və Bağırxan kimi inqilab sərkərdələrini yetirdi.

Xarici qüvvələrin müdaxiləsinin yardımı ilə Cənubi Azərbaycanda xalq hərəkatının dayandırılmasına və onun nailiyyətlərinin aradan qaldırılmasına baxmayaraq, bu inqilab Azərbaycan xalqı üçün təcrübələr məktəbi olmaqla, bu xalqın siyasi, ictimai və milli şüurunun yüksək inkişafı üçün şərait yaratdı. İnqilab və silahlı üsyan sübut etdi ki, köhnə quruluşa, ədalətsizliyə, hər cür zülmə və istismara qarşı mübarizədə, azadlıq və demokratiya uğrunda gedən döyüşlərdə Azərbaycan xalqa yekdil hərəkət etməyə qadirdir.

İnqilab və Təbriz üsyanın Cənubi Azərbaycan əhalisinə, onun bütün sinif və təbəqələrinə aydvqa şəkildə göstərdi ki, onlar haqq işi uğrunda mübarizə aparır, azadlıqsevən xalqlar onlara rəğbət bəsləyir, imkan daxilində yardım göstərir, hətta öz fədakar oğullarının döyüş səngərlərinə göndərirlər. Şimali Azərbaycan əhalisinin, gürcü, erməni və qismən rus inqilabçı nümayəndələrinin, xüsusilə RSDF(b)P-nin rəhbərliyi ilə Qafqaz inqilabçılarının Azərbaycan xalq hərəkatında, Təbriz üsyanında yaxından iştirak etməsi, marksizm-leninizm təlimində mühüm yer tutan xalqlar dostluğunun parlaq nümunəsi idi.

İnqilabi hərəkat və Təbriz üsyanın mübariz kütlələrə, demokratik qüvvələrə öyrətdi ki ancaq siyasi təşkilatların, xüsusilə inqilabi ideyaları rəhbər tutan təşkilatların ətrafında toplanaraq, düşmənə qarşı mütəşəkkil və inamla mübarizə apardıqda müvəffəqiyyət və qələbə əldə etmək mümkündür. Lakin qeyd etmək lazımdır ki, Cənubi Azərbaycanda xalq hərəkatına və silahlı üsyana Təbriz "İctimaiyyune-amiyyun" sosial-demokrat təşkilatı kimi inqilabi təşkilat rəhbərlik etsə də, ölkədə ictimai-iqtisadi inkişafın səviyyəsi, fəhlə sinfinin hələ yenicə yaranmağa başlaması ilə əlaqədar olaraq o, marksizm-leninizm ideyalarını rəhbər tutan proletar təşkilatı səviyyəsinə yüksələ bilməmişdi. Bununla belə, Təbriz sosial-demokrat təşkilatının fəaliyyəti, Qafqaz inqilabçılarının Cənubi Azərbaycan hərəkatında iştirakı, həmçinin mütərəqqi mətbuatın və siyasi vərəqələrin geniş yayılması, xalq kütlələrinin marksizm-leninizm ideyaları ilə ilkin tanışlığına və yayılmağa başlamasına şərait yaratdı. Marksizmin "Bütün dünya proletarları birləşin!" şüarı bütün İranda ilk dəfə 1906-cı ildə məhz Təbriz sosial-demokrat təşkilatının bəyannaməsində dərc edildi.

Təbriz "İctimaiyyune-amiyyun" təşkilatı və xalq əncümənləri inqilabi hərəkata başçılıq etməklə yanaşı inqilabdan sonrakı illərdə də silahlı xalq üsyanlarına rəhbərliyin əsasını qoydular. Bu təşkilatlar öz sıralarında sonralar İranda, o cümlədən Cənubi Azərbaycanda yaranan və marksizm-leninizm ideyalarını rəhbər tutan proletar partiyalarının ilk rüşeymlərini yetişdirmiş oldu.

# IV FƏSİL

# CƏNUBİ AZƏRBAYCAN 1912-1917-Cİ İLLƏRDƏ

## 1. BİRİNCİ DÜNYA MÜHARİBƏSİ ƏRƏFƏSİNDƏ SOSİAL-İQTİSADİ VƏ SİYASİ VƏZİYYƏT

İran inqilabı dövründə və sonrakı illərdə də Cənubi Azərbaycan əsasən feodal istehsal münasibətlərinin hökm sürdüyü aqrar bir ölkə kimi qalmaqda davam edirdi.

Cənubi Azərbaycan İranın tərkibində yenə də başında vəliəhd duran ayrıca bir canişinlikdən ibarət idi. Ölkə zəngin təbii sərvətlərə malik olsa da, onlardan yenə də, demək olar, istifadə edilmirdi.

Bəhs olunan dövrdə də Cənubi Azərbaycanda əsasən kənd təsərrüfatının bir sıra əmtəə xarakterli müxtəlif sahələri, yəni bağçılıq (xüsusilə üzümçülük)[587] ipəkçilik, pambıqçılıq və s. sahələrinin inkişafı davam etdirilirdi.

İnqilab nəticəsində İran, o cümlədən Azərbaycan kəndində feodal istehsal münasibətlərində əsaslı dəyişiklik yaranmamışdı. Xüsusi mülkiyyətdə olan torpaqların ("mülk" formasının) bir qədər çoxalmasına, konstitusiyanın mülkiyyət və şəxsiyyətin toxunulmazlığını qanuniləşdirməsi nəticəsində torpaq sahibləri içərisində tacir və sərrafların xüsusi çəkisinin artmasına baxmayaraq, torpağın ən çox və ən məhsuldar hissəsi yenə də iri feodalların əlində cəmlənmişdi.[588]

Kənd əhalisinin əsas hissəsini təşkil edən torpaqsız kəndli, öz ailəsini bir təhər dolandırmaq üçün xüsusi torpaq sahiblərindən

---

[587] Yalnız Təbriz şəhərinin ətrafında 60 üzüm növü yetişir, Urmiya və Marağa rayonlarında isə hər il bir milyon yarım puddan çox səbzə yığılırdı. – В.Берар. Персия и пепрсидская смута, 1912, səh.128; В.Бобынин. Персы, ее экономическое положение и внешняя торговля (1901-1923 гг), Тифлис, 1923, səh.91.

[588] Bax: Ş.Ə.Tağıyeva. XIX əsrin sonu və XX əsrin əvvəllərində İranda torpaq mülkiyyəti formaları və torpaqdan istifadə qaydaları, Bakı, 1964, səh.58.

xırda əkin sahələrini əvvəlki eyni ağır şərtlərlə icarəyə götürərək becərməli idi.

Feodal istehsal münasibətlərinin toxunulmaz qaldığı bir şəraitdə məhsuldar qüvvələrin əsas hissəsini təşkil edən kəndlilərin vəziyyətində istər iqtisadi, istərsə də hüquqi cəhətdən elə bir dəyişiklik baş vermədi. İnqilab dövründə feodal vergi sisteminə məxsus bir sıra nisbətən az əhəmiyyətli cəhətlər ləğv olunsa da (bunlar kəndlilərin vəziyyətini, əlbəttə, nisbətən yüngülləşdirirdi), vergi qoyuluşunda heç bir dəyişiklik edilməmişdi. 1908-ci ildə birinci məclisin qəbul etdiyi qaydaya görə dövlət vergisi əvvəllərdə olduğu kimi, kəndlilərin ümumi məhsulundan bilavasitə xırman başında alınmalı idi.[589] Onlar yenə də dövlət vergilərinin və mülkədar mükəlləfiyyətlərinin bütün ağırlığını öz çiyinlərində daşımalı idilər. Vilayət və mahal hakimlərinin tez-tez dəyişdirilməsi, daha doğrusu, vəzifələrin satılması[590] da nəticə etibarilə kəndlilərin vəziyyətini ağırlaşdırırdı.

Konstitusiya qəbul olunmaqla bütün İranda məhkəmə işləri rəsmən ədliyyə orqanlarına verilsə və ümumiyyətlə, şəxsiyyət azadlığı elan olunsa da, kəndlilər əslində bu hüquqlardan, demək olar ki, istifadə edə bilmirdilər. Kəndlilərin mülkədarın özbaşınalığı haqqında şikayətləri nəticəsiz qalırdı.

Ağır güzəran keçirən Cənubi Azərbaycan kəndlisi öz ailəsini bir təhər dolandırmaq və iş əldə etmək üçün yenə də başqa ölkələrə getməyə məcbur idi. Cənubi Azərbaycandan çar Rusiyasına işləməyə gedənlərin sayı müharibə ərəfəsində daha da artmışdı.[591] Təkcə Bakı neft mədənlərində çalışan Cənubi Azərbaycan kəsbkarlarının sayı yüz min nəfərə yaxınlaşırdı.[592]

---

[589] Bax: Ş.Ə.Tağıyeva. XIX əsrin sonu və XX əsrin əvvəllərində İranda kəndlilərin vəziyyəti, Bakı, 1969, səh.68-69.

[590] Bax: “İqbal” qəzeti, No 10, 18 mart 1912-ci il; “Baku” qəzeti, No 17, 22 yanvar 1914-cü il.

[591] Ş.Ə.Tağıyeva. XIX əsrin sonu və XX əsrin əvvəllərində İran kəndlilərinin vəziyyəti, səh.136-158.

[592] Mir Cəfər Pişəvəri (Cavadzadə Xalxali). Seçilmiş əsərləri (*əski əlifbada*), 1965, səh.375

İnqilab şəhərlərin sosial-iqtisadi həyatında daha çox dəyişiklik əmələ gətirdi.

İri kapital sahibləri və xüsusilə tacirlər tərəfindən şəhərlərdə milli müəssisə, milli əmtəə istehsalının yaradılması və İranın daxili ticarətinin canlanmasının doğru bəzi təşəbbüslər göstərildi.

Digər tərəfdən, bütün ölkədə olduğu kimi, burada da xarici kapitalın fəaliyyəti sürətlə artırdı. Bu dövrdə xüsusilə alman kapitalı möhkəmlənməyə səy göstərirdi.

1910-cu ildə almanların köməyi ilə Təbrizdə Hacı Rəhim ağa Qəzvini tərəfindən iplik fabriki təsis edildi (fabrikdə 40-50 nəfər fəhlə çalışırdı).[593] Qəzvini bu fabrikə 2,5 milyon qran maya qoymuşdu. Fabrik alman mühəndisləri tərəfindən idarə olunurdu. Təqribən həmin dövrdə Təbrizin yaxınlığında almanlar iri mexaniki emalatxana tikmişdilər ki, bunun dəmirçixanası, çilingərlik, xarratlıq və s. var idi. Bununla yanaşı, onlar Təbrizdə xalça istehsalı ilə əlaqədar bütün əməliyyatların öhdəsindən gələn fabrik də təsis etmişdilər, fəhlələrin ümumi sayı 100 nəfərə çatırdı.[594]

Birinci dünya müharibəsi ərəfəsində (1913-1914-cü illərdə) almanlar Urmiyada kərpic zavodu və buxarla işləyən dəyirman da (30 fəhlə) tikmişdilər.[595] Almanların bu fəallığı XX əsrin ilk illərində onların İranın bütün qərb, xüsusilə şimal-qərb rayonlarında apardıqları siyasətin tərkib hissəsi idi. Onlar çar Rusiyası və İngiltərədən fərqli olaraq öz müəssisələrinə yerli kapitalı cəlb etməyə çalışırdılar. Onlar bu məqsədlə özlərinin xalça fabriklərinin səhmlərini Təbrizdə və Azərbaycanın başqa şəhərlərində satmışdılar. Almanlarla yaxınlıq edən İmamqulu Mirzə Urmiya gölündə istifadə edilmək üçün gəmi tikintisi haqqında almanlarla razılığa gəlmişdi. Bütün bu sənaye müəssisələrinin işə düşməsində alman kəşfiyyatçısı Şyunemanın böyük rolu olmuşdur. Əvvəlcə heç bir rəsmi vəzifə tutmayan Şyuneman tezliklə Təbrizdə Almaniyanın konsulu təyin edilmişdi.[596]

---

[593] SSRİ MDTA, f. 560, siy.28, iş 359, vər.208.

[594] Yenə orada, vər.208-209, 243; Gürcüstan MDTA, f.13, siy.12, iş 640, vər.2.

[595] Camalzadə, səh.95; Gürcüstan MDTA, f.521, siy.5, iş 487. vər.17.

[596] Gürcüstan MDTA, f.13, siy.12, iş 640, vər.2.

Cənubi Azərbaycanı özünün əsas nüfuz dairəsi hesab edən çar Rusiyası da XX əsrin əvvəllərində orada bir sıra sənaye müəssisəsi tikmişdi (Təbrizdə kiçik elektrik stansiyası, tütün fabriki, telefon stansiyası, 150 fəhləsi olan üç gön zavodu[597] Urmiyada taxtadoğrayan zavod, spirt zavodu[598] və s.). Əyalətdə bir sıra rus ticarət şirkətləri fəaliyyət göstərirdi ("Rus ixracat cəmiyyəti", "Ekonom" aksioner cəmiyyəti", "Gigiyena" cəmiyyəti, "İran nəqliyyat bürosu" cəmiyyəti, "Xaritonenkonun ticarət şirkəti"[599] və s.).

Çar Rusiyasının Cənubi Azərbaycanda iqtisadi və siyasi nüfuzunu möhkəmlətmək sahəsində həyata keçirdiyi ən mühüm tədbirlərdən biri Culfa-Təbriz dəmir yolunun çəkilməsi olmuşdur. Həmin yol 1914-cü ilin ortalarında çəkilməyə başlanmış və artıq 1916-cı ilin fevral ayında Təbrizə ilk qatar gəlmişdir. Təbrizdə iri dəmiryol deposu, təmir emalatxanası və digər köməkçi müəssisələr də yaradılmışdı.[600]

Getdikcə Rusiya Cənubi Azərbaycanın xarici ticarətində daha qabarıq mövqe tuturdu. Məsələn, 1909-cu il martın 22-dən 1910-cu il martın 22-dək olan bir il ərzində İranın Azərbaycan əyalətinə daxil olmuş əmtəənin 90%-i Rusiyadan gətirilmiş,[601] buradan ixrac edilmiş malın 93%-i Rusiyaya aparılmışdı.[602]

---

597 Camalzadə səh.95, М.С.Иванов. Новые материалы о социал-демократической группе в Табризе в 1908, «Проблемы востоковедения», 1959, № 5, səh.179-183.

598 RXSA, "İran stolu" fondu, iş 1899, vər. 8, 47, 101; SSRİ MDTA f.600, siy.10, iş 643, vər.9-10.

599 С.Мюллер.Торговля и промышленность Азербайджана. "Известия Министерства иностранных дел", СПб, 1912 кн.IV, səh.110; З.З.Абдуллаев. Промышленность и зарождение рабочего класса Ирана, səh.116-117.

600 SSRİ MDTA, f.600, siy.8, iş 7, vər.107-108; Gürcüstan MDTA, f.13, siy.12, iş 640, vər.1.

601 Rusiyadan gələn mallar içərisində bağlama şəklində poçt ilə Avropadan göndərilən mallar da var idi. Lakin bunlar malların ümumi miqdarının cəmi bir neçə faizini təşkil edirdi.

602 С.Мюллер. Торговля и промышленность Азербайджана. "Известия Министерства иностранных дел", кн.IV, 1912, səh.92.

1911-ci ildə Cənubi Azərbaycandan Rusiyaya aparılan malların dəyəri 35,4, Rusiyadan buraya gətirilən malların dəyəri isə 44,5 milyon manata çatırdı.[603] Sonrakı illərdə də bu əlaqələr artmaqda davam edirdi.

Birinci dünya müharibəsi ərəfəsində Cənubi Azərbaycanın xarici ticarət əlaqələrinin genişlənməsi əyalətin iqtisadiyyatının birtərəfli də olsa inkişafı üçün mövcud obyektiv şəraiti bir qədər də artırdı, əyalətdə, xüsusilə şəhərlərdə daha artıq canlanmaya səbəb oldu. Bu vəziyyəti nəzərə alaraq sonralar Seyid Cəfər Pişəvəri yazırdı: "... Birinci dünya müharibəsindən qabaq Azərbaycan, xüsusən Təbriz İranın, bəlkə yaxın Şərqin ən böyük ticarət mərkəzlərindən hesab olunurdu.

Geniş ticarətin tərəqqisi mövcibincə (səbəbindən - red.) Təbriz, Ərdəbil, Əhər, məxsusən Rezaiyyə (Urmiya - red.) gündən-günə tərəqqi edir, böyüyür, abadlaşır, müasir hala düşürdü".[604]

Cənubi Azərbaycanın daxili siyasi vəziyyəti birinci dünya müharibəsi ərəfəsində öz gərginliyi ilə fərqlənirdi. Bu gərginlik həmin dövrdə İranda xarici dövlətlərin, xüsusilə çar Rusiyası və İngiltərənin müstəmləkə siyasətinin artmasından, ölkənin tam asılı vəziyyətə düşməsindən irəli gəlirdi.

Ölkədə xarici imperialist dövlətlərə və satqın şah üsuli-idarəsinə qarşı xalqın mübarizəsinin yatırılmasında İngiltərə və çar Rusiyası yenə birgə hərəkət edirdilər. Çar Rusiyasının xarici işlər naziri Sazonov 1914-cü il mayın 14-də Dövlət Dumasında belə demişdi: "... Rusiya ilə İngiltərənin davam edən səmimi birgə hərəkəti nəticəsində son vaxtlar İranda sakitlik yaranmışdır".[605]

İmperialist dövlətlərin İrandakı müstəmləkəçilik siyasətində Cənubi Azərbaycan mühüm yer tuturdu. İngiltərə ilə çar Rusiyası

---

[603] "Заря Востока" qəzeti, 1 oktyabr 1922-ci il.

[604] Mir Cəfər Pişəvəri (Cavadzadə Xalxali). Seçilmiş əsərləri (*əski əlifbada*), səh.262

[605] Известия Министерства иностранных дел, книга IV, 1914, Петроград, səh.22.

arasında bağlanmış 1907-ci il sazişinə görə Cənubi Azərbaycan çar Rusiyasının nüfuz zonasına düşdüyündən təbii olaraq burada çarizmin təsiri qüvvətli idi. İnqilabi mübarizəni əyalətdə xüsusi qəddarlıqla yatırmış çarizm buranı inqilabdan sonra da tam itaətdə saxlamağa çalışırdı. Bunun üçün o öz yerli "həmkarlar"ından səmərəli istifadə edirdi.

İnqilabın sonunda çar Rusiyasının, İngiltərənin razılığı və yardımı ilə hakimiyyət başına gətirilmiş Hacı Səməd Şücaüddövlə müharibə ərəfəsində Azərbaycanda vali vəzifəsində qalmaqda idi.[606] Çar Rusiyasının və əyalətin irticaçı qüvvələrinin yardımına arxalanan Şücaüddövlə 1905-1911-ci illər İran inqilabında iştirak etmiş vətənpərvərlərə amansız divan tuturdu.

Şücauddövlə əyalətdəki bütün daxili məsələləri çar hökumətinin Təbrizdəki baş konsulu Orlovun razılığı ilə həll edirdi. Buna görə də Orlov Rusiyanın xarici işlər naziri Sazonova göndərdiyi teleqramda Şücaüddövlə haqqında belə yazırdı: "Üç aylıq əməli təcrübəm göstərir ki, Şücaüddövlə kimi itaətkar bir vali tapmaq çətindir. Yaxşısı budur ki, qoy o öz vəzifəsində qalsın".[607]

Belə gərgin vəziyyətdə imperialist ölkələrinə arxalanan, xalqı soymaq hesabına və başqa yollarla özünə sərvət toplayan Şücaüddövlə əyalətdə vətənpərvərlərə qarşı şiddətli cəza tədbirləri həyata keçirməklə kəskin terror şəraiti yaratmışdı. Lakin buna baxmayaraq, xalqın daxili irticaya, xarici müdaxiləyə qarşı müxtəlif yollar və vasitələrlə apardığı gizli mübarizəsi davam edirdi.

Müharibə ərəfəsində əyalətdə müxtəlif siyasi qrup və təşkilatlar bu məqsədlə gizli fəaliyyət göstərirdilər. Belə siyasi qruplardan biri "İranın ziyalı gəncləri" idi.[608] Bu qrup Təbrizdəki

---

[606] Bax: Ə.Kəsrəvi. Azərbaycan tarixi, üçuncü nəşri, səh.337.

[607] Международные отношения в эпоху империализма. Документы из архивов царского и временнного правительства, 1878-1917 (sonrakı səhifələrdə: M.O. yazılacaqdır), seriya. III, t. III, M,, 1933, No18, səh.18.

[608] RXSA "İran stolu, B" fondu, siy.489, iş 37, vər.13.

gömrükxanada fəaliyyət göstərirdi. Burada o, gömrükxananın himayəsi altında gizlənərək, əyalətdəki mövcud üsuli-idarəyə və çarizmin müstəmləkə siyasətinə qarşı mübarizə aparırdı. Lakin qrup öz fəaliyyətində ardıcıl və mütəşəkkil olmadığından xalq kütlələrinin mübarizəsində əhəmiyyətli rol oynaya bilmədi.

Bu dövrdə fəaliyyət göstərən digər siyasi qrup İran Demokrat partiyasının Azərbaycan əyalət komitəsi idi. İnqilab yatırıldıqda partiyanın üzvlərinə divan tutulsa da, İDP-nin Təbriz təşkilatı öz fəaliyyətini davam etdirmişdi və artıq müharibə ərəfəsində Cənubi Azərbaycanda demokratların fəaliyyəti xeyli güclənmişdi. Çar ordusunun kəşfiyyat idarəsinin zabiti Zinkeviç 1914-cü il iyunun 17-də mərkəzi qərargaha göndərdiyi gizli teleqramda bu barədə xəbər verirdi.[609]

Bu zaman demokratlar əyalətin Təbriz, Ərdəbil, Urmiya və başqa şəhərlərində çox gizli şəraitdə fəaliyyət göstərir, xalqın daxili irticaya və xarici imperialist qüvvələrinə qarşı mübarizəsində iştirak edirdilər. Çarizmin müstəmləkə siyasəti və Şücaüddövlənin xalqa zidd hərəkətlərinə qarşı mübarizədə demokratların gizli surətdə buraxdıqları "İnsaf" qəzetindən, habelə intibahnamə və pamfletlərdən geniş istifadə olunurdu.

İran inqilabı dövründə İstanbulda fəaliyyət göstərmiş "Səadət əncüməni" təşkilatı müharibə ərəfəsində də Azərbaycan əhalisinə göndərdiyi intibahnamələrdə xalqı konstitusiyanı müdafiə etməyə, məclisin açılmasına və çar qoşunlarının Cənubi Azərbaycandan çıxarılmasına nail olmağa çağırırdı.[610]

Müharibənin əvvəlində əyalətdə siyasi vəziyyətin gərginləşməsindən qorxuya düşən çar hökuməti Şücaüddövləni hakimiyyətdən kənar edərək onu digər nökəri Sərdar Rəşidlə əvəz etdi.

---

[609] MDHTA, f.2306, siy.1, iş 212, vər.59-61.

[610] "Кавказская копейка" qəzeti, №131, 13 may 1912-ci il; MDHTA, f. 2306, siy. 1, iş 230, vər. 8-10.

## 2. CƏNUBİ AZƏRBAYCAN BİRİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ (1917-Cİ İLİN OKTYABR AYINADƏK)

Birinci dünya müharibəsini doğuran səbəblərdən biri də imperialist ziddiyyətlərin toqquşduğu düyün nöqtələrindən biri olan İran uğrunda mübarizə idi. Biri digərinə zidd planla hərəkət etsələr də, Antanta ittifqına daxil olan İngiltərə ilə Rusiyanın, habelə üçlər ittifaqının üzvləri Almaniya ilə Türkiyənin İran barəsində də öz planları var idi. Hər iki blok İranı öz ittifaqına cəlb etməyə səy göstərirdi.[611] Lakin dünya müharibəsi başlanan zaman İran rəsmi surətdə öz bitərəfliyini elan etdi.[612] Buna baxmayaraq, xarici dövlətlər İranın bitərəfliyini kobudcasına pozaraq onun ərazisində hərbi əməliyyata başladılar. Bu əməliyyatlar nəticəsində dəfələrlə işğala məruz qalmış və ən çox zərər çəkmiş əyalətlərdən biri də Azərbaycan idi.

1914-cü il dekabr ayının axırında Türkiyə ordusu Cənubi Azərbaycan ərazisinə soxuldu. Türk hərbi hissələri ilə buradakı rus qoşun dəstələri arasında toqquşma baş verdi. Bununla da İranın şimal-qərb rayonunda birinci dünya müharibəsinin Qafqaz cəbhəsinin davamı olan yeni cəbhəsi açıldı. Üstünlük əldə edən türk qoşunları irəliləməyə başladılar. Çar Rusiyası Şücaüddövləni yenidən əyalətə çağıraraq türklərə qarşı qoşun hazırlanmasını əmr etdi.[613] Şücaüddövlə osmanlılarla döyüşmək üçün "İzaqi", "Sili","Əmriyyə" və digər polklar təşkil etmişdi.[614] Lakin onun qoşunu Osmanlı ordusunun hücumunun qarşısını ala bilmədi. Türklərlə döyüşdə Şücaüddövlənin qoşunu darmadağın edildi, özü isə

---

[611] Bax: MO, seriya III, t.VI, c.I, M., 1934, No 190, səh.182

[612] Movərrexəddoule Sepehr. İran dər cəng bozorg (*İran böyük müharibədə*), Tehran, 1336/1957, səh.89

[613] Movərrexəddoule Sepehr. İran dər cəng bozorg (*İran böyük müharibədə*),, səh.135.

[614] MO, seriya III, t.VI, c.II, No 606, səh.170.

əsir düşməkdən güclə xilas oldu. Dekabrın 25-də türk ordusu Təbrizə girdi. Əyalətin valisi Sərdar Rəşid onları təntənəli surətdə qarşıladı.[615]

Bir qədər keçdikdən sonra türk işğalçılarının əsl siması aşkara çıxdı. Onlar osmanlılara itaət etmək istəməyən dinc əhaliyə şiddətli divan tutmağa başladılar.[616] Salmasın bəzi kəndlərini tamamilə dağıtdılar. Təbriz şəhərində bir neçə adam dar ağacından asıldı və iki nəfər rus təbəəsi diri-diri yandırıldı.[617] Türk ordusunun başçıları əyalətdə onların əmrini yerinə yetirməyən hökumət məmurlarını da məsələn, Soucbulaq vilayətinin qubernatoru Sərdar Mükri Hüseyn xanı, Saqqız mahalının hakimi Seyfəddin xanı və başqalarını edam etdilər.[618] Türklər əyalətdə mətbuat, poçt, teleqraf üzərində ciddi nəzarət qoymuşdular və bu işi Sərtibzadəyə tapşırmışdılar.

Türk komandanlığı müharibənin ehtiyaclarını təmin etmək bəhanəsilə əyalətin ayrı-ayrı şəhərləri üzərinə külli miqdarda hərbi təzminat qoymuşdu. Təbriz şəhəri 300 min tümən, Marağa şəhəri isə 20 min tümən məbləğində hərbi təzminat verməli idi. Bundan əlavə, əhalinin ayrı-ayrı təbəqələri işğalçılara müxtəlif növ gəlir vergisi ödəməli idilər. Məsələn, Təbrizdə tacirlərin üzərinə əvvəlcə 6 min, sonra isə 100 min tümən məbləğində gəlir vergisi qoyulmuşdu və bu məqsədlə bir maliyyə komissiyası təşkil edilmişdi.[619] Rus təbəəsi olan Təbriz tacirlərindən daha çox vergi alınırdı.

---

[615] MDHTA, f.1300, siy.I, iş, vər.252-253.

[616] Bax: «Баку» qəzeti, No 54, 8 mart 1915-ci il. К.П.Матвеев (Бар - Маттай), И.И.Мар-Юханна. Ассирийский вопрос во время и после первой мировой войны, М., 1968, səh.50.

[617] «Тифлисский листок» qəzeti, No 37, 15 fevral, 1915-ci il.

[618] MO, seriya III, t.VII, c.I, M., 1934, No 60, səh.81; «Тифлисский листок» qəzeti, No18, 23 yanvar 1915-ci il.

[619] RXSA, “İran stolu B” fondu, siy.489, iş 43, vər.5-7.

Bundan əlavə, Təbriz əhalisi özünün yaşayış mənzillərinin toxunulmazlığını təmin etmək üçün şəhərin hərbi komendantına 25 min tümən məbləğində vergi verməli idi.[620]

Türk ordusunun hərbi komandanlığı əhalidən vergiləri zorla toplamalı olurdu və bunun üçün müxtəlif cəza tədbirləri tətbiq edirdi. Məsələn, Təbrizdə osmanlı əsgərləri neft bidonları ilə həyətləri gəzərək vergi verməyən şəxslərin evlərini yandırırdılar. Vergini ödəyən şəxslərə isə xüsusi mühafizə vərəqələri verirdilər.[621]

Lakin işğalçıların xalqa etdiyi zülm bununla qurtarmırdı. Əhali əyalətdə yerləşən türk ordusunu ərzaqla və qış paltarı ilə təmin etməli idi. Təkcə bir Təbrizdə, şəhərdəki qarnizonun hər gün ərzaqla təmin edilməsi əhaliyə 1000-1500 manata başa gəlirdi.[622] Əhali ərzaq və başqa zəruri malları hərbi düşərgələrə özləri daşımalı idilər. Türk hərbi komandanlığı Təbrizin yaxınlığındakı Acıçayda gömrükxana idarəsi təşkil etmişdi. Türklər buradan keçən şəxslərdən müstəqil surətdə gömrük haqqı alırdılar.[623]

Türk əsgərlərinin soyğunçuluğu nəticəsində əyalətin Təbriz, Urmiya, Marağa və başqa şəhərlərində bir sıra idarələr və ticarət müəssisələri qarət edildi və yandırıldı. Urmiya gölündəki Sulduz paraxod dayanacağının əmlakı talan edildi və sonra yandırıldı. Təbrizdə tikilməkdə olan dəmiryol idarəsinin, rus girov-borc bankının şəhərdəki şöbəsinin, rus konsulluğunun yeni tikilmiş binaları, konsulun Nemətabaddakı yay sarayı, "Ekonom" aksioner cəmiyyəti idarəsi və universal mağazası, tacir Nəzərbəyovun evi, onun pambıqtəmizləmə zavodu qarət olundu və yandırıldı.[624]

---

620 "Баку" qəzeti, No 36, 15 fevral 1915-ci il.

621 RXSA, "İran stolu B" fondu, siy.489, iş 43, vər.10.

622 "Кавказский телеграф" qəzeti, No11, 2 mart 1915-ci il.

623 "Баку" qəzeti, No 5, 6 yanvar 1915-ci il.

624 RXSA, "İran stolu B" fondu, siy.489, iş 43, vər.10; "Тифлисский листок" qəzeti, No 36, 14 fevral 1915-ci il; "Кавказское слово" qəzeti, No 35, 33 fevral 1915-ci il.

Bundan əlavə, əsgərlər şəhərdəki ingilis bankını dağıtdılar və onun kassasındakı 750 min qranı oğurladılar.[625]

Bütün bunlar nəticəsində türk hərbi komandanlığı və umumiyyətlə türk-alman ittifaqı İranda, o cümlədən Cənubi Azərbaycanda əhalinin nifrətini qazandı. Qafqazın mütərəqqi mətbuatı bu barədə belə yazırdı: "Türk-alman ittifaqı belə tədbirləri ilə İranın rəğbətini qazana və ondan yardım, ala bilməyəcək. Bu vəhşiliklər iranlılarda indiyə qədər özlərinin dostları və müdafiəçiləri hesab etdikləri almanlara və türklərə qarşı qəzəb və nifrət hissi oyadacaqdır".[626]

Əyalətin Təbriz, Marağa, Xoy, Salmas və başqa şəhərlərində türklərə qarşı döyüşmək üçün könüllülər toplanırdı.

Təbriz şəhərində də əhalinin işғalçılara qarşı silahlı çıxışları baş vermişdi. Lakin burada əyalətin valisi Sərdar Rəşid ABŞ konsulu Qordon Paddokun məsləhəti ilə hərəkət edərək şəhərdə xalq hərəkatının genişlənməsinə imkan verməmiş, türklərə qarşı mübarizə aparmaq istəyən vətənpərvərləri tərksilah etmiş, həbsxanaya salmışdı.[627]

Türk hərbi komandanlığı Cənubi Azərbaycanda öz mövqeyini möhkəmləndirmək və Zaqafqaziyanı işğal etmək üçün onun ərazisindən istifadə etməyə çalışırdı. Lakin 1915-ci il yanvar ayının ikinci yarısında türklərin Sarıqamışda məğlub olması almantürk ordusunun planını pozdu.

1915-ci il yanvarın 15-də Sofiyan yaxınlığındakı döyüşdə türk ordusu rus qoşunları tərəfindən məğlub edildi[628] və osmanlılar əyalətdən çıxmağa məcbur oldular. Janvarın 17- də Təbriz şəhəri yenidən çar qoşunları tərəfindən işğal edildi. Yalnız Oktyabr inqilabı qələbə çaldıqdan sonra İranın şimalından, o cümlədən Cənubi Azərbaycan ərazisindən rus qoşunları tamamilə çıxarıldılar.

Müharibə Cənubi Azərbaycana böyük ziyan vurdu və onun təsərrüfatını bərbad hala saldı.

---

625 "Кавказское слово" qəzeti, No 4, 6 yanvar 1915-ci il.
626 "Баку" qəzeti, No 103, 13 may 1915-ci il.
627 "Кавказское слово" qəzeti, No 44, 24 fevral 1915-ci il.
628 Кавказский календарь на 1917 г., Тифлис, 1916, səh.392.

Müharibə və onun doğurduğu iqtisadi çətinliklər nəticəsində əyalətin əhalisinin təxminən 15 faizi həlak oldu.[629] Cənubi Azərbaycanın Urmiya və Soucbulaq vilayətlərində, Bane və Saqqız mahallarında bir sıra kəndlər dağıdıldı və yandırıldı.[630]

Müharibə başlandıqdan sonra çar Rusiyası hərbi əməliyyatların keçirildiyi bəhanəsi ilə bitərəf İranla ticarət əlaqələrini kəsdi, hətta taxıl, un və kartof kimi zəruri malların ölkəyə ixracını qadağan etdi.

Digər tərəfdən isə İranda, o cümlədən Cənubi Azərbaycanda Rusiyaya ixrac edilməli kənd təsərrüfatı malları yığılıb qaldığı üçün ölkə daxilində onların qiyməti gündən-günə aşağı düşürdü. Müharibə nəticəsində pambığın qiyməti təxminən üç dəfə, baramanın qiyməti iki dəfə, quru meyvənin qiyməti isə 45 faiz azalmışdı.[631] Nəticədə ölkənin kənd təsərrüfatı tənəzzülə uğramışdı.

Müharibə dövründə kənd təsərrüfatının tənəzzülü isə əkin sahələrinin azalmasına və torpağın qiymətinin aşağı düşməsinə səbəb olmuşdu.

Kənd təsərrüfatının tənəzzülü ən əvvəl kəndlilərin vəziyyətinə pis təsir etmişdi. Onların maddi vəziyyəti daha da ağırlaşmış, torpaq sahibləri tərəfindən istismarı güclənmişdi. 1915-ci ilin mart ayında Cənubi Azərbaycandan göndərilmiş və "Kaspi" qəzetində dərc edilmiş bir müxbir məktubunda göstərilirdi ki, son 100 il ərzində Azərbaycan və onun əhalisi indiki kimi ağır vəziyyətdə olmamışdır.

Azərbaycan sənətkarlarının və fəhlələrinin də vəziyyəti bundan yaxşı deyildi. Müharibə əyalətin onsuz da ağır vəziyyətdə olan kustar sənayesinə ciddi zərbə vurdu. Bir sıra emalatxanalar və manufakturalar bağlandı. Hərbi əməliyyat başlandıqdan iki ay sonra Təbrizdə fəaliyyət göstərən Almaniya xalça fabriki bağlandı və həmin müəssisədə işləyən fəhlələr işsiz qaldı.

---

[629] Гюрза. Экономическое положение персидского Азербайджана, журнал «Ближний Восток», № 1, 1930, səh.63

[630] "Açıq söz" qəzeti, No 523, 19 iyul 1817-ci il.

[631] З.Д.Завриев. Ревандузская дорога, журнал «Народное хозяйство Закавказья», № 9, 1930, стр. 59.

Xarici ölkələrlə ticarət münasibətlərinin pozulması və daxili bazarda əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsi tacirlərin müəyyən hissəsini də çıxılmaz vəziyyətə salmışdı.

Bu dövrdə İranın keçirdiyi iqtisadi böhranın labüd nəticəsi olaraq ölkədə, o cümlədən Azərbaycanda bahalıq hökm sürürdü. Bir sıra zəruri malların qiyməti həddən artıq yuxarı qalxmışdı. Təbrizdə 1914-cü ilin dekabr ayından 1915-ci ilin may ayınadək olan qısa bir müddətdə bəzi zəruri malların qiyməti 30-40 faiz artmışdı.[632] Çayın və qəndin qiyməti isə iki dəfə bahalanmışdı. Keyfiyyəti son dərəcə aşağı olan çörəyin girvəngəsi 7-8 qəpik idi.[633]

Ölkədə tif, taun və başqa yoluxucu xəstəliklər o qədər geniş yayılmışdı ki, hökumət müsəlmanlara müqəddəs yerlərə ziyarətə getməyi qadağan etməli olmuşdu.[634]

İranın bu ağır vəziyyətinə baxmayaraq, imperialist dövlətlərin diplomatik nümayəndələri və onların İrandakı idarələri ölkənin daxili işlərinə qarışır və qanunsuz hərəkətləri ilə hərc-mərcliyi daha da artırırdılar. Məsələn, Tehrandakı ingilis səfiri ölkədə möhtəkirlik edən təbəqələri öz himayəsi altına almış və hökumətin onlara qarşı tədbir görməsinə icazə verməmişdi.[635]

Təbrizdəki rus baş konsulu Belyayev ordunun istehkam işlərində işlətmək üçün yerli əhalini zorla səfərbərliyə alırdı. O, ayrı-ayrı şəxslərə öz adından xüsusi vəkalətnamə verərək bu səfərbərliyi həyata keçirməyi tapşırırdı.[636]

Qeyd etmək lazımdır ki, İran hökuməti müharibə nəticəsində ölkədə yaranmış ağır iqtisadi vəziyyəti aradan qaldırmağa qadir

---

[632] "Yeni İqbal" qəzeti (*əski əlifbada*), No 6, 4 may 1915-ci il.
[633] "Баку" qəzeti, No 82, 15 aprel 1915-ci il.
[634] "Баку" qəzeti, No 124; 6 iyun 1915-ci il.
[635] Yenə orada, No 116; 16 iyun 1916-cı il.
[636] "Açıq söz" qəzeti, No 339, 28 noyabr 1916-cı il.

deyildi. Bu sahədə onun gördüyü iqtisadi tədbirlər də bir nəticə vermirdi.[637] Onun gəlirləri azalmış, dövlət xəzinəsi boşalmışdı.[638]

Bu dövrdə İranın siyasi həyatında da vəziyyət çox gərgin idi. Müharibə başlandıqdan sonra fəaliyyətə başlamış üçüncü məclisin deputatlarının əksəriyyəti və xüsusilə İran demokrat partiyasının rəhbərliyi alman-türk blokuna tərəfdar çıxdılar. Bununla da İDP bir imperialist bloka qarşı digər bir imperialist blokla həmkarlığa rəğbət bəsləməklə ciddi səhvə yol verdi və hər iki bloka qarşı mübarizə aparan xalq kütlələrindən özünü ayrı saldı.

İDP ardıcıl surətdə antiimperialist mövqedə dura bilmədi və İranda xalqların mübarizəsini təşkil edə bilmədi. Məhz buna görə də İDP rəhbərliyinin və başqa alman-türk tərəfdarlarının Qumda və Kirmanşahda yaratdıqları "milli hökumət" xalq kütlələrinin etimadını qazana bilmədi. İDP-nin Təbriz təşkilatı isə müharibə edən imperialist ittifaqlarının nəinki heç birinə qoşulmadı, hətta onların hər ikisinin əleyhinə xalq kütlələrinin mübarizəsinə rəhbərlik etdi.

Müharibə dövründə baş verən ümumi iqtisadi böhran və əhalinin vəziyyətinin ağırlaşması, xarici işğalçıların ağalığı və hökumətin ölkəni fəlakətdən xilas etməyə qadir ola bilməməsi İranda, o cümlədən Azərbaycanda da xalq kütlələrinin böyük narazılığına və tez-tez baş verən həyəcanlarına səbəb olmuşdu.

Əyalətin Ərdəbil, Astara, Salmas, Marağa və başqa yerlərində də xalq kütlələrinin hökumətə və onun yerlərdəki nümayəndələrinə qarşı çıxışları baş verirdi. Ərdəbildə xalq həyəcana gələrək qəddar və rüşvətxor hakimi şəhərdən çıxarmışdı.[639] Həmin vilayətdə kəndlilər zülmkar torpaq sahibi Mesbahülmülkü də öz malikanəsindən qovmuşdular.[640] Eyni halda Sarabda zəhmətkeş təbəqələrin hökumətə və varlılara qarşı yönəlmiş çıxışı olmuşdu.

---

637 "Bəsirət" qəzeti, No  95, 14 may 1916-cı il.

638 "Kaspi" qəzeti, No 20, 25 yanvar 1916-cı il; "Баку" qəzeti, No 87, 20 aprel 1916-cı il.

639 "Açıq söz" qəzeti, No 482, 28 may 1917-ci il.

640 Ш.А.Тагиева. Национально-освободительное движение в Иранском Азербайджане в 1917-1920 гг., səh.19.

Bu çıxışda 300 nəfərədək yoxsul iştirak etmişdi. Yoxsullar şəhəri ələ keçirmiş və onu iki gün əllərində saxlamışdılar.[641]

Lakin əsas çıxışlar xarici işğalçılara qarşı yönəlmişdi. Osmanlı işğalı zamanı əhali yuxarıda gördüyümüz kimi, türk əsgərlərinin özbaşınalığına qarşı mübarizə aparmışdı. Türk qoşunu Cənubi Azərbaycandan çıxarıldıqdan və çar qoşunları əyaləti işğal etdikdən sonra isə xalq çarizmin müstəmləkəçi siyasətinə qarşı öz narazılığını bildirirdi. Məsələn, Rusiyanın Təbrizdəki baş konsulu Belyayevin və onun yerli köməkçilərinin zülmündən bezmiş Sarab camaatı məscidə toplaşaraq onlara qarşı etirazını bildirmiş və Təbrizə bu barədə teleqram göndərmişdi.[642]

Əyalətin şəhərlərində keçirilən yığıncaqlarda çarizmin müstəmləkə siyasəti və mövcud şah üsuli-idarəsinin fəaliyyəti pislənirdi. Ərdəbil şəhərində belə gizli yığıncaqlar Mirzə Zeynalabdin Əzimi adlı bir nəfərin mənzilində keçirilirdi. Bu yığıncaqda Mirzə Haşım xan, Mirzə Kərim Sadıq, Hacı Kazım, Mirzə Əli xan və başqaları iştirak edirdilər.[643] Təbrizdə yerləşən rus hərbi dəstəsinin baş komandanının Qafqaz ordusunun mərkəzi qərargahına göndərdiyi gizli teleqramda Təbriz şəhərində də belə yığıncaqların keçirildiyi xəbər verilirdi.[644] Belə gizli siyasi yığıncaqlardan biri sonralar məşhur burjua tarixçisi kimi tanınmış Əhməd Kəsrəvi tərəfindən təşkil edilirdi.[645] Başqa bir qrupun keçirdiyi yığıncaqlar demokratların fəaliyyəti ilə bağlı idi. Bu dövrdə Təbriz komitəsinə Mirzə Əli Çayçı, Mirzə Əli xan Postxana və Hacı Məhəmmədəli Badamçı başçılıq edirdi.[646] İnqilab yatırıldıqdan sonra Rusiyada olmuş Şeyx Məhəmməd Xiyabani də Təbrizə qayıdan kimi həmin komitədə fəaliyyətə başladı. Xiyabani əvvəlki kimi ticarətlə məşğul olmaqla yanaşı, ədəbi-fəlsəfi dərnək də aparır,

[641] "Açıq söz" qəzeti, No 508, 28 iyun 1917-ci il.
[642] Yenə orada, No 339, 28 noyabr 1916-cı il.
[643] MDHTA, f.2300, siy.1, iş 724, vər.1-27.
[644] Yenə orada, vər.1-27
[645] Bax: Ə.Kəsrəvi. Azərbaycan tarixi, üçüncü nəşri, səh.677.
[646] Yenə orada, səh.677

dərnəkdən siyasi fəaliyyət üçün istifadə edirdi.[647] Tezliklə o, komitənin başçısı oldu.[648]

Bu dövrdə əyalətin ayrı-ayrı şəhərlərində demokratların mütəşəkkil qrupları fəaliyyət göstərirdi. Məsələn, Astara şəhərlərində belə bir qrup mövcud idi.[649] Bu qrupa yerli teleqrafçı Fəramərz xan və həkim Seyid Məhəmməd başçılıq edirdi. Qrupun üzvləri əhali arasında xarici qoşunlar əleyhinə təbliğat aparır və çar qoşunlarının Cənubi Azərbaycandan çıxarılması tələbini irəli sürürdülər.

Demokratlar Təbrizdə əhali arasında intibahnamələr (*xəbərdarlıq vərəqələri*) yayırdılar. Bu intibahnamələrdə göstərilirdi ki,

---

[647] Şərh-e hal və eqdamat-e Şeyx Məhəmməd Xiyabani (*Şeyx Məhəmməd Xiyabaninin tərcümeyi -halı və fəaliyyəti*), Berlin, 1304/1925, səh.25-27. Şeyx Məhəmməd Xiyabani hiçri 1297 (1879/80)-ci ildə Təbriz yaxınlığındakı Xamnə qəsəbəsində tacir ailəsində anadan olmuşdur. Onun atası Hacı Əbdülhəmid otuz ilə yaxın Rusiyanın Petrovsk (indiki Mahaçqala) şəhərində yaşayaraq ticarətlə məşğul olmuşdur. Məhəmməd Xiyabani ilk təhsilini Xamnədə aldıqdan sonra Petrovska gələrək ticarət işlərində atasına kömək etmişdir. Rusiyadakı həyat Məhəmməd Xiyabaninin dünyagörüşünün formalaşmasına böyük təsir göstərmişdir. O, Təbrizə qayıtdıqdan sonra təhsilini davam etdirmişdir. Sonra Xiyabani Təbrizdəki “Talıbiyyə” mədrəsəsində astronomiyadan dərs deməklə məşğul olmuş və eyni zamanda şəhərin Xiyaban məhəlləsindəki məsciddə pişnamazlıq etmişdir. Məhəmməd Xiyabani 1905-1911-ci illər İran inqilabının fəal iştirakçılarından biri olmuşdur. Təbriz vuruşmaları zamanı o, Xiyaban məhəlləsində qəhrəmancasına çarpışdığı üçün “Xiyabani” adını qazanmışdır. Azərbaycan əyalətindən ikinci məclisə seçilmiş nümayəndələr içərisində Məhəmməd Xiyabani də var idi. Xiyabani məclisdə sol nümayəndələrə yaxınlaşırdı və az sonra o, 1909-cu ildə təşkil edilmiş İran Demokrat Partiyasına (İDP) daxil oldu. Xiyabani məclisin tribunasından istifadə edərək şah hökumətinin irticaçı siyasətini kəskin tənqid edirdi. İkinci məclis buraxıldıqdan sonra irtica demokratik qüvvələrə qarşı hücuma keçdi. Demokrat partiyasının başçılarından bir çoxu həbs və sürgün edildi. Xiyabani çətinliklə həbs olunmaq təhlükəsindən qurtararaq Petrovska köçdü. Onun ikinci dəfə Rusiyada olması 1912-1914-cü illərdə burada proletariatın inqilabı hərəkatının yüksəlişi dövrünə təsadüf edirdi.

[648] Ə.Kəsrəvi. Azərbaycan tarixi, üçüncü nəşri, səh.675-676; Şərh-e hal və eqdamat-e Şeyx Məhəmməd Xiyabani, səh.22-27

[649] “RXSA, “İran stolu B” fondu, siy.489, iş 133, vər.192.

yerli ruhanilər və dövlət məmurları vətənə xəyanət etsələr, xalq tərəfindən ciddi surətdə cəzalandırılacaqlar.[650]

Demokratların və digər vətənpərvər ünsürlərin təşəbbüsü ilə 1915-ci il aprelin 4-də Təbrizdə böyük bir xalq nümayişinin keçirilməsi nəzərdə tutulmuşdu.[651] Buna səbəb zahirən əhalinin bələdiyyə vergilərini verməkdən imtina etməsi olmuşdu. Əslində isə nümayiş İran hökumətinin xəyanətkar siyasətinə, xüsusilə çarizmin Cənubi Azərbaycandakı ağalığına qarşı çevrilmişdi. Əhali çar qoşunlarının İrandan çıxarılmasını tələb edərək etiraz əlaməti olaraq bir gün müddətinə bazar və dükanları bağlamağı qərara almışdı. Lakin rus konsulunun təzyiqi ilə vəliəhd xalqın bu nümayişinin sona çatdırılmasına imkan vermədi. Onun əmrilə nümayişdə nitq söyləyən təbliğatçılar həbs edildilər. Təbrizin divarlarına vəliəhdin aşağıdakı məzmunda bir əmri yapışdırıldı: "Əgər Təbriz tacirlərindən biri dükanını bağlayarsa və ya ticarət işlərini siyasətlə qarışdırarsa, yaxud siyasi məsələlər barəsində söhbət edərsə, həmin şəxs dərhal ciddi surətdə cəzalandırılacaqdır.[652]

Rus baş konsulu və vəliəhd baş verə biləcək yeni çıxışların qarşısını almaq üçün daha bir sıra tədbirlər görmüşdülər. Şəhərin küçələrində jandarm dəstələri qoyulmuşdu.

Xarici imperialist dövlətlərinin mənafeyinə xidmət edən mürtəce şah hökumətinə, çarizmin buyuruğu ilə iş görən vəliəhdə və onun soyğunçuluğuna qarşı əhali arasında böyük narazılıq davam edirdi. Vəliəhd əyalətin dövlət gəlirindən rəsmən müəyyən hissə (əyalətin bütün gəlirinin 1/8 hissəsini)[653] almaqla, vilayət başçılarından, iri torpaq sahiblərindən və tacirlərdən müxtəlif məsələlərin həlli zamanı xeyli rüşvət yığmaqla kifayətlənmir, əyalətin ayrı-ayrı yerlərinə kəndli həyəcanlarını yatırmaq bəhanəsi ilə cəza dəstələri göndərirdi. Bu cəza dəstələrinə çox vaxt o özü rəhbərlik edirdi. Əslində həmin cəza dəstələrinin göndərilməsi kəndləri qarət etmək üçün bir vasitə idi. Məsələn, 1915-ci ildə vəliəhd Sərdar

---

[650] "Yeni İqbal" qəzeti, 4 may 1915-ci il.
[651] "Кавказское слово" qəzeti, No 95, 28 aprel 1915-ci il.
[652] "İqbal" qəzeti, No 914, 16 aprel 1915-ci il.
[653] "Kaspi" qəzeti, No 155, 14 iyun 1917-ci il.

Rəşidlə bərabər Qaradağa belə bir cəza dəstəsi getmişdi. Nəticədə xeyli kənd qarət edilmiş, müqavimət göstərən kəndlilər isə güllələnmişdi.[654]

Belə vəhşiliklərə görə vəliəhdin adına hədələyici məktublar gəlirdi.[655]

Xalqın mütərəqqi nümayəndələri əhalini təkcə vəliəhdə qarşı deyil, ümumiyyətlə şahlığa, hakim Qacar sülaləsinə qarşı mübarizəyə qaldırmağa çalışırdılar. Bu zaman "Baku" qəzetinin müxbiri Təbrizdən xəbər verirdi ki, şəhərin küçələrində xalqçı Qacar sülaləsinə qarşı etiraz nümayişinə çağıran intibahnamələr yayılmışdır.[656] Başqa bir sənəddə göstərilirdi ki, Təbriz əhalisi şahın anadan olması gününün bayram edilməsi münasibətilə şəhərin Məşq meydanında Tehrandan gələn qoşunların rəsmi-keçidində iştirak etmədi və onu baykot etdi.[657] Bundan bir qədər keçdikdən sonra isə sarablı İsmayıl xan adlı bir nəfər Təbrizdə vəliəhdin həyatına müvəffəqiyyətsiz də olsa sui-qəsd etmişdi.[658]

Bu çıxışlar hələlik pərakəndə və qeyri-mütəşəkkil xarakter daşıyırdı Rusiyada fevral burjua demokratik inqilabının qələbə çalması və bu vaxtadək İranda da milli-azadlıq qüvvələri qarşısında əsas maneələrdən biri olan çarizmin ləğv edilməsi, xüsusən ölkənin şimal əyalətlərində, o cümlədən Cənubi Azərbaycanda milli-azadlıq və demokratik hərəkatın canlanması üçün şərait yaratdı.

Rusiyada çarizmin devrilməsi xəbəri İranda bütün sinif və təbəqələrə müxtəlif şəkildə təsir etdi. Ölkədəki hakim sinif nümayəndələri çarizmin devrilməsi xəbərini böyük bir sarsıntı ilə qarşılayaraq dəhşət və qorxu içərisində həmin hadisələrin İranda da inikasını gözləyirdilər. Ticarət burjuaziyası Müvəqqəti hökumə-

---

[654] Ш.А.Тагиева. Национально-освободительное движение в Иранском Азербайджане в 1917-1920 гг., səh.18.

[655] "Açıq söz" qəzeti, No 110, 12 fevral 1916-cı il.

[656] "Баку" qəzeti, No 184, 19 avqust 1915-ci il.

[657] "Bəsirət" qəzeti, No 46, 23 may 1915-ci il.

[658] "Кавказский телеграф" qəzeti, No 22, aprel 1916-cı il.

tin Rusiya ilə İranın ticarət əlaqələri barəsində nə kimi mövqe tutacağını, eyni zamanda ölkənin öz daxilində hadisələrin necə cərəyan edəcəyini gözləyirdi. Geniş xalq kütlələri və ümumiyyətlə demokratik qüvvələr isə hakim siniflərin əksinə olaraq Rusiyada inqilabın qələbəsi xəbərini böyük ruh yüksəkliyi və sevinclə qarşıladılar.

Şimali İranın bir sıra şəhərlərində Fevral burjua-demokratik inqilabını salamlayan mitinq və nümayişlər keçirildi. Fevral inqilabının qələbəsindən sonra İranın zəhmətkeş kütlələrinin Rusiyaya və İranda olan rus əsgərlərinə münasibəti tamamilə dəyişdi. Əhali artıq rus əsgərlərinə çarizmin İranda müstəmləkəçilik siyasətinin icraçısı kimi deyil, öz dostu kimi baxırdı ki, bu da rus ordusu hissələrində Fevral inqilabından sonra yaranmış əsgər deputatları Sovetlərinin rolu ilə əlaqədar idi.

1917-ci ilin mart ayından fəaliyyətə başlayan bu Sovetlər Təbriz, Xoy, Maku, Kirmanşah, Həmədan, Qəzvin, Rəşt, daha sonra Ənzəli və başqa şəhərlərdə yarandı. Bəzi yerlərdə Sovetlərə yerli əhalinin nümayəndələri də daxil olurdu və belə Sovetlər "Əsgər və vətəndaş deputatları Sovetləri" adlanırdı. Əksəriyyətinə bolşeviklər rəhbərlik edən bu Sovetlər təkcə rus əsgərləri içərisində deyil, eyni zamanda yerli əhali arasında da müəyyən təbliğat işi aparır, yerli demokratik qüvvələrlə əlbir olmaqla mühüm fəaliyyət göstərirdi. Bu hadisələrin bilavasitə şahidi olmuş Əhməd Kəsrəvi keçmiş çar ordusunu təşkil edən rus əsgərlərinin indi yerli əhali ilə ünsiyyətdə "qardaş" və "yoldaş" sözlərini işlətməsini dərk edə bilməsə və yazılarında bununla əlaqədər öz təəccübünü bildirsə də, Cənubi Azərbaycanın hər yerində yaydıqları elanlarda yerli əhalini öz qardaşları adlandırmasını təsdiq edir.[659]

Rusiyada inqilabın qələbəsindən ruhlanan İran zəhmətkeşləri imperialistlərə və xarici işğalçıların ağalığına tabe olan mürtəce İran hökumətinə qarşı mübarizəyə qalxdı. İrticanın təzyiqi nəticəsində xarici ölkələrə qaçmış vətənpərvərlər qayıdaraq bu mübari-

[659] Bax: Ə.Kəsrəvi. Azərbaycan tarixi, üçüncü nəşri, səh.674, 678.

zəyə qoşuldular. İranın şimal vilayətlərində milli-azadlıq mübarizəsinin bir neçə mərkəzinin ilk cizgiləri görünməyə başladı. Bu mərkəzlərdən biri də Cənubi Azərbaycan idi.

Cənubi Azərbaycanda başqa siyasi təşkilatlar mövcud olsa da, əhalinin çıxışlarına əsas siyasi orqan - İDP-nin əyalət komitəsi istiqamət verirdi. Fevral inqilabı baş verərkən Azərbaycan əyalət komitəsi İDP-nin nəzərəçarpan dərəcədə fəaliyyət göstərən, demək olar ki, yeganə təşkilatı idi.

Rusiyada Fevral inqilabının qələbəsi xəbərindən sonra demokrat partiyasının Azərbaycan əyalət komitəsi açıq işə keçdi. Aprelin 7-də konstitusiya elan olunmasının 10 illiyi ilə əlaqədar Təbrizin Topxana meydanında keçirilmiş təntənəli mitinqdə əyalət komitəsi ilk dəfə olaraq açıq surətdə kütlələr qarşısında təmsil olundu (komitənin adından Mirzə Əli Çayçı çıxış etdi).[660]

Azərbaycan əyalət komitəsi kütlələrlə geniş əlaqə yaratmaq məqsədilə təşkilatın mətbuat orqanını - "Təcəddüd" qəzetini nəşr etməyə başladı. Qəzetin ilk nömrəsi 1917-ci il aprelin 9-da çıxdı.[661]

Azərbaycan əyalət komitəsi öz sosial tərkibi etibarilə partiyanın digər təşkilatlarından fərqlənirdi. Komitəni əsasən orta və xırda burjuaziyanın, orta mülkədarların, ziyalıların və aşağı ruhanilərin nümayəndələri təşkil edirdi. Buraya fəhlə və kəndlilərin də nümayəndələri daxil idi. Demokratlar əhalini xarici işğalçıların ölkədən qovulması və Cənubi Azərbaycana muxtariyyət verilməsi uğrunda mübarizəyə çağırırdılar. Təbriz əsgər və vətəndaş deputatları Soveti icraiyyə komitəsinin sədri Qəmbərovun həmin ilin may ayında Tiflisə verdiyi məlumatda göstərilirdi ki, "demokratların bu çağırışına səs verənlər az deyildi".[662] Əyalətdə partiyanın tərəfdarlarının sayı getdikcə artırdı. Əyalət Komitəsinin Təbrizdən başqa Ərdəbil, Qəzvin, Zəncan, Urmiya və digər şəhərlərdə də şöbələri var idi.

---

660 Ə.Kəsrəvi. Azərbaycan tarixi, üçüncü nəşri, səh.678.

661 Q. Məmmədli. Xiyabani, Bakı, 1949, səh.42.

662 Gürcüstan Mərkəzi Dövlət Oktyabr inqilabı arxivi (MDOİA), f.41 iş 162, vərəq 10-11.

Azərbaycan əyalət komitəsi Təbriz əsgər və vətəndaş deputatları Sovetinin icraiyyə komitəsi ilə birlikdə yerli əhali və İranda olan rus əsgərləri arasında dostluq münasibətərini möhkəmləndirmək məqsədilə bir sıra tədbirlər həyata keçirir, onların birgə çıxış və nümayişlərini, dostluq görüşlərini təşkil edirdi. Rus əsgərləri və Azərbaycan demokratları arasında dostluq və möhkəm əlaqə olmasını Şərəfxanadakı Bir may nümayişi və iyun ayında Təbriz və Cənubi Azərbaycanın başqa şəhərlərində təşkil edilmiş nümayişlər açıq surətdə göstərirdi.

1917-ci il mayın 1-də Şərəfxanada inqilab meydanında əsgərlərlə şəhər əhalisinin birgə mitinqi keçirildi. Yığıncaqda inqilabçılar çıxış etdi. Mitinqdən sonra RSDFP-nin şüarları altında nümayiş oldu.[663]

1917-ci il iyunun 2-də Təbrizdə 1905-1911-ci illər İran inqilabı zamanı həlak olmuş qəhrəmanların xatirəsini yad etmək üçün böyük və izdihamlı bir nümayiş keçirildi, Gündüz saat 12-də xalq kütləsi böyük izdihamla vaxtilə inqilab iştirakçılarının, mücahidlərin edam edildiyi məhəlləyə doğru hərəkət etdilər. Dəstənin önündə əlində qırmızı bayraq tutmuş demokratlar gedirdi. Bayraqların üzərində "Yaşasın azad Rusiya!", "Yaşasın azad İran!", "Yaşasın rus və İran xalqlarının qardaşlığı və birliyi!", "Yaşasın bütün xalqların qardaşlığı!" şüarları yazılmışdı. Tezliklə buraya, başda əsgər və vətəndaş deputatları Soveti nümayəndələri olmaqla rus əsgərləri də gəldi.

Təbriz soveti İcraiyyə komitəsinin sədri bolşevik Qəmbərov öz alovlu nitqində dedi ki, artıq Rusiya və İran xalqlarının bir-birinə qardaşlıq əlini uzadaraq, onları uzun əsrlərdən bəri sıxan ağır zəncirləri qırmaq vaxtı çatmışdır. Onlar möhkəm surətdə birləşərək bütün dünya zəhmətkeşlərinin son arzusu olan qardaşlıq, dostluq və azadlıq yolu ilə getməlidirlər. Qəmbərov öz nitqini

[663] «Известия Советов рабочих и солдатских депутатов гор. Тифлиса» qəzeti, 26 aprel (9 may) 1917-ci il.

İran xalqları ilə Rusiya xalqları arasındakı dostluğu möhkəmləndirmək çağırışı ilə bitirdi.[664]

Şeyx Məhəmməd Xiyabani mitinqdə təsirli və həyəcanlı nitq söyləyərək dedi: “Bu gün elə gündür ki, məslək hər bir şeyə, hətta qohumluq və milliyyətə də üstün gəlmişdir”.[665]

Axşamdan xeyli keçənədək davam etmiş nümayiş zamanı “Marselyoza” sədaları altında əhali kütləsi və əsgərlər tərəfindən həlak olmuş inqilabçıların qəbri üzərinə əklillər qoyuldu.

Həmin gün əyalət komitəsi fars dilində buraxdığı “hörmətli həmməsləklər və əziz həmvətənlərimiz!” adlı intibahnamədə iranlıları rus xalqı ilə birləşməyə və onunla birlikdə öz azadlığı uğrunda mübarizəyə çağırırdı.[666] İntibahnamə “Bütün xalqların zəhmətkeşləri birləşin!” şüarı ilə bitirdi.

İkinci intibahnamə isə Təbriz Sovetinin icraiyyə komitəsi tərəfindən rus və fars dillərində nəşr edilmişdi. İntibahnamədə deyilirdi: “Çoxdan gözlədiyimiz vaxt gəlib çatmışdır. İran və rus xalqları... qardaşlıq əlini bir-birinə uzadaraq möhkəm dostluq və qardaşlıq telləri ilə birləşməyə və azadlığın şahrah yolunda bütün dünya zəhmətkeşlərinin can atdığı son məqsədə doğru getməyə imkan tapmışlar”.[667] İntibahnamə bu şüarlarla bitirdi: “Yaşasın Rus və İran xalqlarının birliyi və qardaşlığı!”, “Yaşasın sosializm!” və s.[668]

2 (15) iyun nümayişini öz səhifələrində geniş işıqlandıraraq “Təcəddüd” qəzeti (fars dilində nəşr olunurdu) yazırdı: “İranlılar yeni Rusiyanın azadxahlarının dostluq hissləri izhar etmələrindən olduqca məmnun və məsuddurlar”.[669]

---

664 “Kaspi” qəzeti, 25 iyun (8 iyul) 1917-ci il.

665 Əli Azəri. Qiyam-e Şeyx Məhəmməd Xiyabani dər Təbriz (*Təbrizdə Şeyx Məhəmməd Xiyabani üsyanı*), Tehran, 1329/1950, səh.123 (Sonrakı səhifələrdə: Əli Azəri, səh...yazılacaqdır).

666 Əli Azəri, səh.124-125.

667 Əli Azəri, səh.126.

668 Yenə orada, səh.128.

669 “Təcəddüd” qəzeti, 8 (21) iyun 1917-ci il (Əli Azəri, səh.129 əsasında gətirilir).

Belə bir nümayiş iyunun 7-də Xoy şəhərində keçirildi.

Cənubi Azərbaycanda mübariz əhvali-ruhiyyə getdikcə artırdı. Təbriz, Urmiya və Ərdəbildə dövlət məmurlarının özbaşınalığına qarşı həyəcan və çıxışlar baş verirdi. Təbrizdə vəziyyət xüsusilə kəskin şəkil almışdı.

Təbrizdə 1917-ci il iyunun 17-də başlamış çıxışlar vali Sərdar Rəşidə (Nağı xan Rəşidülmülkə) qarşı çevrilmişdi. Bir qrup adam teleqrafxanada bəstə oturaraq Sərdar Rəşidin şəhərdən qovulmasını təkidlə tələb edirdi. Çıxışlara başçılıq edən əyalət komitəsi öz nümayəndələrini vəliəhdin yanına göndərərək valinin qovulması tələbini irəli sürdü.

Xalq kütlələrinin təzyiqi altında vəliəhd Sərdar Rəşidin istefaya çıxması haqqında fərmana qol çəkməyə məcbur oldu.

Urmiyada da xalq kütləsi mahalın baş hakimi Etimadüddövlənin özbaşınalığı əleyhinə çıxdı. Etimadüddövlə həbs edilərək ölüm cəzasına məhkum olundu.[670]

Əyalət komitəsinin üzvləri sərbəst təşkilat yaratmağa cəhd göstərirdilər. Bunun üçün partiyanın əyalət konfransı çağırılmalı idi. Konfransa hazırlıq işində komitənin orqanı “Təcəddüd” qəzeti mühüm rol oynayırdı. Qəzetdə dərc olunan məqalələrdə qarşıda duran mübarizənin məqsədləri işıqlandırılırdı. “Təcəddüd”də çap olunan materiallar içərisində Xiyabaninin məqalələri mühüm yer tuturdu. Onun yüksək vətənpərvərlik ruhunda yazılmış “Azərbaycan” adlı məqaləsində qarşıda duran vəzifələr izah edilirdi. Xiyabani vətənə və onun oğullarına müraciət edərək yazırdı:

“Ümumi qırğınlar, qarətlər, ədalətsizliklər, zülmkarlıqlar Azərbaycanın istiqlaliyyət və azadlıq tələb edən hərəkatını məhv edə bilmədi...

Ey Azərbaycan, ey Azərbaycan demokratiyası. Başını qaldır...

Sən təcəddüd və təkamülün geniş meydanının tənha yolçususan, təcrübə keçmisən, imtahandan çıxmısan və indi sənin qarşında yeni bir dövr açılır...

---

[670] Gürcüstan SSR MDOİA, f. 41, siy. iş 17, vər. 40.

İstibdad əleyhinə üsyan, əcnəbi istilasına qarşı müqavimət, pozucu daxili ünsürlərlə mübarizə, şücaət və qeyrət, canfəşanlıq və mətanət tələb edir...

Ey ölməz Azərbaycan... başını uca tut, yaşa həmişə yaşa...".[671]

1917-ci il avqust ayının 24-də Təbrizdə əyalət komitəsinin konfransı açıldı. Konfransda Təbrizdən və Azərbaycanın müxtəlif vilayətlərindən 480 nümayəndə iştirak edirdi. Konfrans Azərbaycan demokrat partiyasını müstəqil elan etdi, Xiyabani başda olmaqla onun Mərkəzi Komitəsini seçdi və partiyanın qarşıdakı vəzifələrini müəyyənləşdirən geniş qətnamələr qəbul etdi.

"Azərbaycanın hazırkı vəziyyəti və partiyanın bununla əlaqədar xətti-hərəkəti" adlı birinci qətnamədə qeyd olunurdu ki, "son illərin hadisələri və Rusiyada quruluşun dəyişməsi partiyanın güclənməsinə şərait yaratmışdır. Konfrans irtica qüvvələrin partiyaya təsir göstərməsinə qarşı çıxır. Demokrat partiyası təkamül yolu ilə getməyi lazım bilir".[672] Konfrans Rusiyada Fevral inqilabının qələbəsini alqışlayaraq rus xalqı ilə əlaqələri möhkəmləndirmək və bolşeviklər partiyası ilə dost münasibətləri yaratmağı qərara aldı. Konfransın "Partiyanın Rusiyadakı inqilaba "münasibəti haqqında" qətnaməsində deyilirdi: "Biz məramnaməsində öz ölkəsinin və başqa ölkələrin xalqlarının azadlığını qeyd edən partiya ilə dost olmalıyıq".[673]

Konfrans partiyanı "Bundan sonra Rusiyanın azadlıqsevər partiyaları, onların icraiyyə komitələri ilə dostluq əlaqələrini davam etdirməyə və onların yardımından istifadə etməyə vəkil etdi".[674] Konfrans imperialist dövlətlərin İranın, o cümlədən Azərbaycanın daxili işlərinə qarışmasına qarşı mübarizə aparmaq təklifini yekdilliklə bəyəndi və bu məqsədlə Təbriz komitəsini vəkil etdi ki, məclisin dördüncü çağırışına seçkiləri sürətləndirməyi İran hökumətindən tələb etsin.

---

[671] Şərh-e hal və eqdamate Şeyx Məhəmməd Xiyabani, səh.46-49
[672] Əli Azəri, səh.195.
[673] "Azərbaycan" qəzeti (*əski əlifbada*), 11 aprel 1951-ci il.
[674] Əli Azəri, səh.196.

Konfrans hesab edirdi ki, məclisə seçkilər zamanı partiya öz namizədlərini başqa siyasi qruplarla birləşmədən irəli sürəcəkdir.

Əncümənlərə olan böyük ehtiyacı nəzərə alaraq konfrans yaxın zamanlarda əyalət və məhəlli əncümənlərə seçkilərə başlamaq zərurətini Mərkəzi Komitənin nəzərinə çatdırdı.[675]

Bu ali məclis Cənubi Azərbaycan demokrat partiyasının İrandakı başqa siyasi təşkilatlara münasibətini müəyyən etdi. Bu məsələ üzrə qətnamədə qeyd olunurdu ki, "əyalət konfransı əyalət komitəsinə mürəttəb olan və siyasi partiya adını daşıya biləcək qruplarla dostlaşmağa və ölkənin ümumi məsələlərində onlarla birlikdə "hərəkət etməyə icazə verir". Konfrans komitəyə eyni zamanda lazım olduqda İran Demokrat partiyasının müxtəlif yerli təşkilatları ilə bilavasitə əlaqəyə girməyə də icazə verirdi.[676]

Partiya daxilində istər onun sıravi üzvləri, istərsə də Mərkəzi Komitənin üzvləri üçün ciddi nizam-intizamın mühüm və həlledici rolu xüsusi qeyd olunur, partiyaya təbliğat işində qeyri-məhdud hüquqlar verilirdi.

Konfransdan sonra partiyanın Mərkəzi Komitəsi "Demokrat partiyasının əziz həmfikirləri!" başlığı ilə buraxdığı müraciətdə təşkilatın bütün üzvlərini ciddi və qəti mübarizəyə çağırırdı.[677]

Göstərilən materiallar əsasında demək olar ki, partiyanın məramnaməsinin[678] əsas ana xətti belə idi: ölkənin siyasi həyatında təkamül yolu ilə konstitusiyanın prinsiplərini həyata keçirmək uğrunda mübarizə aparmaq; bütün İranda məclis nümayəndələrini əhalinin demokratik təbəqələrindən seçməyə çalışmaq; əyalət və vilayət əncümənlərinin seçilişinə başlamaq və İran çərçivəsində Cənubi Azərbaycana muxtariyyət qazanmaq; ölkənin iqtisadi və mədəni həyatında demokratik dəyişikliklər həyata keçirmək.

---

[675] Əli Azəri, səh.195.

[676] Əli Azəri, səh .196.

[677] Yenə orada, səh.196-198.

[678] Partiyanın məramnaməsi əlimizdə yoxdur. Sonralar 1920-ci il üsyanı qələbə çaldıqda hakimiyyət forması məsələsi məramnamədə olduğundan daha demokratik və daha radikal şəkildə qoyulurdu; İranda respublika yaradılması və Azərbaycanda muxtariyyət qazanılması uğrunda mübarizə.

Konfransdan sonra Azərbaycanın bir çox şəhər və kəndlərində (Ərdəbil, Sarab, Zəncan və s.) partiyanın yerli şöbə və komitələri yarandı.

Konfransın qərarlarını həyata keçirmək məqsədilə partiya üzvlərindən xüsusi bir komissiya yaradıldı. Hər cümə axşamı isə "Təcəddüd" qəzeti redaksiyası binasında partiya üzvlərinin yığıncağı keçirilirdi.

Yuxarıda göstərilən qətnamədə qeyd edildiyi kimi, bu dövrdə Demokrat partiyasının başlıca mübarizə üsulu təkamül yolu ilə olan mübarizə idi. Bu mübarizə danışıqlar, xahişlər, müəyyən tələblər yolu ilə mərkəzi hökumətə təsir göstərmək, bu və ya digər valini vəzifəsindən kənar etmək, əncümən açılmasına icazə almaq və s. məqsədi daşıyırdı. Bu dövrdə Azərbaycan Demokrat partiyası cəsarətlə hərəkət etmir, kütləvi siyasi çıxışlar keçirməyə səy göstərmirdi. O zaman Xiyabani də daxil olmaqla demokratlar belə hesab edirdilər ki, qarşıya qoyulan məqsədə dinc yolla nail olmaq mümkündür. Buna görə də bu dövrdə xalq kütlələrinin hərəkatı hələ geniş vüsət almamışdı. Sonrakı hadisələr demokratların bu cəhətdən yanlış mövqe tutduğunu göstərdi və onları taktikanı dəyişməyə vadar etdi.

Bu dövrdə Azərbaycanda əsas siyasi partiya olan Demokrat partiyasından əlavə müxtəlif tipli bir sıra partiyalar da fəaliyyət göstərirdi. Bunlardan İranda ilk fəhlə partiyası olan "Ədalət"in Azərbaycandakı şöbələri Demokrat partiyası ilə əlaqə saxladığı halda qalan kiçik partiyalar ("Nüsrət" "Əhrar" və s.) vahid blokda birləşərək[679] özlərini Demokrat partiyasına qarşı qoyurdular.

Demokrat partiyası isə yuxarıda qeyd olunan konfransın qətnamələrindən birində deyildiyi kimi, "ölkənin ütmumi məsələlərində" başqa siyasi təşkilatlarla birgə hərəkət etmək siyasətini yürüdürdü və həmin blokla əlbir işləməyə hazır idi. 1917-ci il avqustun 15-də Təbriz Soveti İcraiyyə Komitəsinin məsləhəti və

---

[679] А.М.Габибов. Внутриполитическое положение Иранского Азербайджана в период первой мировой войны (1914-1918), автореферат, Баку, 1970, səh.21.

yardımı ilə partiyalararası büro yaradıldı. Büronun yaradılmasından məqsəd Demokrat partiyası və vahid blok arasında mövcud olan çəkişmələrə son qoymaq idi. Lakin büro rəhbərlik məsələlərində müəyyən bir razılığa gələ bilmədiyindən lazımi fəaliyyət göstərə bilmədi.[680]

Beləliklə, fevral inqilabının qələbəsi təsirilə yaranan inqilabi canlanma hələ geniş xarakter almasa da, artıq əyalətdə inqilabi əhvali-ruhiyyənin yetişməyə doğru getdiyini, daha ciddi çıxışlar üçün siyasi zəmin yarandığını göstərir. Bu inqilabi canlanma, sonrakı, daha mühüm hadisələr üçün bir hazırlıq oldu və Böyük Oktyabr sosialist inqilabının cahanşümul təsiri ilə bütün dünyada başlamış milli-azadlıq hərəkatının birinci mərhələsi dövründə bu zəmin əsasında Cənubi Azərbaycanda da 1920-ci ildə silahlı üsyanla nəticələnən hərəkat genişləndi.

---

680 Bax: Yenə orada, səh.18-19.

# V FƏSİL

# XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ CƏNUBİ AZƏRBAYCANDA MƏDƏNİYYƏTİN İNKİŞAFI

Uzun əsrlərdən bəri zəngin mədəni ənənələrə malik olan, qədim zamanlardan ədəbiyyat və fəlsəfə, memarlıq və rəssamlıq, astronomiya və təbabət, habelə incəsənət və elmin başqa sahələrində parlaq nailiyyətlər əldə edən, dünya mədəniyyəti xəzinəsini zənginləşdirən Azərbaycan xalqı bu mədəniyyəti istər ölkənin şimalında və ya cənubunda, istərsə də şərq və ya qərbində birlikdə yaratmışdır.

Azərbaycan xalqının mədəni birliyi hələ erkən orta əsrlərdə yaranmağa başlamış, təqribən VII-X əsrlər arasında onun vahid ümumxalq dili formalaşmışdır. Artıq birinci və ikinci minilliklərin qovşağında Azərbaycan əhalisinin yalnız iqtisadi həyatı, məişəti deyil, mənəvi, mədəni həyatına da xas olan bir çox ümumi cəhətlər meydana gəlmişdir ki, bununla da azərbaycanlılar başqa türkdilli xalqlardan fərqlənmişlər. Əlbəttə, orta əsrlər cəmiyyətinin sosial-iqtisadi və mənəvi-məfkurəvi təkamülünü şərtləndirən ümumi qanunauyğunluqlara müvafiq olaraq, Azərbaycan xalqının o zamankı mədəni birliyi, xalqın bütün qruplarını, istər sosial, istərsə də coğrafi, etnik cəhətdən eyni dərəcədə möhkəm tellərlə bağlayan mütləq birlik olmamışdır. Sosial cəhətdən bu mədəniyyət şifahi xalq yaradıcılığı nəzərə alınmazsa, elitar - başlıca olaraq feodal sinfini, feodal şəhərini əhatə edən mədəniyyət idi. Coğrafi cəhətdən isə dağlıq və aran, köçəri və oturaq, mühüm ticarət yollarından, şəhərlərdən uzaq və yaxın yerləşən rayonların əhalisinin mədəni səviyyəsi arasında müəyyən fərqlər olmuşdur. Bu kimi və bir sıra digər amillərdən asılı olaraq, mədəniyyət mərkəzləri vaxtaşırı bir yerdən başqa yerə keçsə də (Gəncə, Təbriz, Bərdə, Marağa, Şamaxı) mədəniyyətin ümumi xarakterində əhəmiyyətli dəyişikliklər baş vermir və o, yalnız bəzi yerli xüsusiyyətləri ilə fərqlənirdi.

Bu mənada bəzi ilk ciddi dəyişikliklərin nişanəsi yalnız orta əsrlərlə yeni dövr arasındakı hüdudlarda müəyyən siyasi səbəblərlə əlaqədar olaraq özünü göstərməyə başlayır. Burada birinci növbədə mədəniyyətin ən mühüm amillərindən biri olan dil məsələsini göstərmək lazımdır. Vaxtilə müəyyən obyektiv - tarixi səbəblər nəticəsində Orta Şərqin bir sıra ölkələrində (İranda, Əfqanıstanda, Moğollar imperiyasının xeyli hissəsində), o cümlədən Azərbaycanda yazılı ədəbiyyatda kök salmış fars dili ənənəsi XVI əsrdə, Azərbaycan Səfəvilər (Qızılbaş) dövlətinin erkən dövründə sarsılmış oldu; Azərbaycan dili tədricən dövlət kargüzarlığında işlənməyə, Səfəvilər dövlətində yaşayan müxtəlif xalqlar arasında ünsiyyət vasitəsi kimi daha çox yayılmağa başladı, ədəbi dilin yetkinləşməsi sürətləndi (Füzulinin yaradıcılığı). Lakin dövlətdə rəhbər rolun fars feodal bürokratiyası əlinə keçməsi və paytaxtın İsfahana köçürülməsi ilə əlaqədar olaraq (XVI əsrin sonu - XVII əsrin əvvəlləri) yenidən fars dili ənənəsi möhkəmlənməyə başladı. Təbiidir ki, bu reqressiv meyl, Azərbaycanın siyasi mərkəzlə daha sıx bağlı olan cənub vilayətlərində güclü, şimal vilayətlərində zəif idi. Səfəvilər dövləti parçalanmağa (XVIII əsrin əvvəlləri) və onun tərkibindən ən əvvəl ucqar, o cümlədən Zaqafqaziya xanlıqları ayrılmağa başladıqda isə mədəni inkişaf vasitəsi olmaq etibarilə Azərbaycan dilinin Şimali Azərbaycanda xüsusən ədəbiyyatda (Vaqif, Vidadi) dirçəlişi sürətlənir. Lakin bütövlükdə mədəni təkamülün sürəti, onun formaları və məzmunu bütün Azərbaycan üçün eyni olmuşdur, çünki mədəni inkişafın həlledici, sosial-iqtisadi amilləri də eyni idi.

Azərbaycanın parçalanması ilə başlanan XIX əsr Azərbaycan xalqının tarixi müqəddəratında, o cümlədən onun bu vaxtadək eyni istiqamətdə inkişaf edən mədəniyyətinin sonrakı təkamülündə kəskin dönüşün başlanğıcı oldu. Şimali və Cənubi Azərbaycanda müxtəlif sosial-iqtisadi, siyasi şəraitin yaranması labüdən onların mədəni inkişaf yollarına da getdikcə daha artıq təsir göstərirdi. İlk dövrdə bu təsir ümumiyyətlə götürüldükdə hələ kəskin fərqlərə səbəb olmadı. Azərbaycanın hər iki hissəsində mədəni inkişafın

ümumi istiqaməti, bunlardakı mədəni proseslərin məzmun və formaları hələ oxşar olub, öz mündərəcəsinə, ideya məzmununa görə yeni, burjua-maarifçi (M.F.Axundovun yaradıcılığında demokratik-maarifçi) xüsusiyyətləri daşıyırdı. Lakin XIX əsrin sonlarından onların mədəni inkişafında getdikcə daha kəskin, bir qədər sonralar isə həlledici fərqlər nəzərə çarpmağa başladı.

Rusiya imperiyası tərkibinə daxil olmuş Şimali Azərbaycanda sür'ətli kapitalist inkişafı və bunun nəticəsində onun mədəni təkamülü üçün həlledici dəyişikliklər (yeni siniflərin - burjuaziya və proletariatın meydana gəlməsi və sürətlə təşəkkülü, yeni ziyalılar təbəqəsinin meydana gəlməsi) dövrü başlandı. XIX əsr qabaqcıl rus mədəniyyətinin səmərəli təsiri altında Şimali Azərbaycanın mədəni təkamülü qısa müddət ərzində burjua, burjua-demokratik hüdudlarından çıxıb demokratik inkişaf yoluna qədəm qoydu. Azərbaycanın ən qabaqcıl demokratik qüvvələrinin, birinci növbədə proletariatının Rusiya imperiyası proletariatı ilə mənafe birliyi (bu, xüsusən 1905-1907-ci illər inqilabı ərəfəsində və gedişində öz parlaq ifadəsini tapdı), onlar arasında sıx ideya və yaradıcılıq əlaqələri, Rusiya mədəniyyət xadimlərinin Azərbaycanda mədəni inkişafa - yardımı (məsələn, burada maarifin, milli Azərbaycan dilinin inkişafında bir çox hallarda bilavasitə iştirakı) çarizmin müstəmləkəçilik, assimilyatorçu siyasətinə baxmayaraq, Azərbaycan xalqının öz milli mədəniyyətinin əsaslarını qurmasında həlledici rol oynadı. Bütün Rusiya kimi, Şimali Azərbaycanın da XIX və XX əsrin əvvəllərində ümumi tarixi inkişafı onu elə bir hüduda gətirib çıxarmışdı ki, burada mülkədar-burjua quruluşu və onun mədəniyyətini qanunauyğun olaraq proletar diktaturası, formaca milli, məzmunca sosialist mədəniyyəti əvəz etməli idi,

Feodal münasibətlərinin, feodal dövlət və siyasi təşkilatının, ideologiya və ənənələrinin hökm sürdüyü Qacarlar dövləti tərkibində qalan Cənubi Azərbaycanın ümumi inkişafı tamamilə başqa yolla getdi. Cənubi Azərbaycanda sosial-iqtisadi, siyasi proseslər kapitalist münasibətlərinin meydana gəlməsi, burjuaziya və pro-

letariatın yaranması, milli təşəkkül prosesləri, sinfi mübarizə formaları da Şimali Azərbaycana nisbətən xeyli ləng gedir, uzun zaman natamam qalır, eybəcər xarakter daşıyırdı. Məsələn, yeni burjua ziyalılarının (təkcə azərbaycanlı deyil, habelə fars ziyalılarının da) böyük bir qismi ölkədən kənarda - Rusiyada, Türkiyədə, Misirdə, Hindistanda formalaşır, fəhlə kadrları isə başlıca olaraq Cənubi azərbaycanlı kəsbkarların simasında Rusiyada yetişirdi. Nəticədə, bütün İran kimi Cənubi Azərbaycan da XX əsrin əvvəllərində kapitalizmə keçid mərhələsində qalmış, burada iqtisadi və sosial varlığın, siyasi və mənəvi həyatın əsas vəzifələri hələ də feodalizmdən çıxmaq, kapitalist münasibətlərini, burjua qayda-qanunlarını yaratmaqdan ibarət idi.

XIX və XX əsrin əvvəllərində Cənubi Azərbaycanın mədəni inkişafı, hər şeydən əvvəl, daxili sosial-iqtisadi və siyasi amillərlə müəyyən olunurdu. Lakin bütün İran (Şərq) kimi, Cənubi Azərbaycanın da bu dövrdəki mədəni təkamülü, burada yeni mədəniyyət, ideologiyanın yaranması üçün, xüsusən XIX əsrin sonlarından xarici amilin, Qərb, o cümlədən Rusiya mədəniyyəti təsirinin də həlledici əhəmiyyəti olmuşdur. Həm də tarixən yaranmış şəraitlə əlaqədar olaraq (Rusiya, onun Zaqafqaziya vilayətləri ilə qonşuluq) bu təsir Qacarlar dövlətinin başqa əyalətlərinə nisbətən məhz Cənubi Azərbaycanda daha dərin olmuşdur. Bunun əsas gücü Cənubi Azərbaycanın mədəni inkişafında Şimali Azərbaycanın oynadığı müstəsna roldan irəli gəlirdi.

Azərbaycanın hər iki hissəsinin əhalisinin tarixi, dil və mənəvi birliyini dövlət sərhədləri poza bilmədi. Şimali Azərbaycanın mədəni həyatında baş verən hər hansı yeniliklər bu və ya digər dərəcədə Arazdan cənubda da öz inikasını tapırdı. Şimali Azərbaycan Rusiyadan və Qərbi Avropadan Cənubi Azərbaycana (və ümumiyyətlə İrana) yeni ictimai-siyasi görüşlərin, elmi-mədəni təsəvvürlərin keçdiyi ən mühüm kanallardan biri idi. Lakin Şimali Azərbaycan bu mənada sadəcə olaraq keçirici rolu ilə məhdudlaşmırdı. Məhz burada bütun bu yeni baxışlar və ideyalar bir çox cəhətdən müsəlman ölkələri üçün ilk dəfə olaraq Şərqin tarixi-

mədəni şəraitinin xüsusiyyətləri ilə bağlı surətdə işlənir və sonralar digər müsəlman ölkələrinə, o cümlədən Cənubi Azərbaycana da yayılırdı. Belə ki, XIX əsrdə daha mütərəqqi burjua mədəniyyətinin, xüsusilə maarifçilik meyllərinin yaranmasına Şimali Azərbaycanın A.Bakıxanov, M.Ş.Vazeh, S.Ə.Şirvani və başqaları kimi mədəniyyət xadimlərinin yaradıcılığı və maarifçilik fəaliyyətinin böyük təsiri olmuşdur. Bu mənada böyük mütəfəkkir və yazıçı M.F.Axundovun rolu xüsusilə qeyd edilməlidir. Onun fəlsəfi baxışları, bədii və publisistik yaradıcılığı, yorulmaz ictimai və mədəni fəaliyyəti Cənubi Azərbaycanın və bütövlükdə İranın mütərəqqi inkişaf yolunu işıqlandırmış, ona yeni məzmun gətirmiş, yeni istiqamət vermişdir. Cənubi Azərbaycanın Mirzə Yusif xan Müstəşarüddövlə, Ə.Talıbov, Z.Marağayi, Qaracadaği və bir sıra başqa görkəmli yazıçı və mədəniyyət xadimlərinin dünyagörüşü və yaradıcılığına M.F.Axundovun təsiri çox güclü olmuş, onların bir çoxları özlərini onun şagirdi hesab etmişlər.

Cənubi Azərbaycanın mənəvi mədəni həyatı üçün Şimali Azərbaycanın ahəmiyyəti XX əsrdə, Asiyanın oyanması dövründə daha da artdı. Rusiyada 1905-1907-ci illər inqilabı, xüsusən onun ən böyük mərkəzlərindən biri olan Bakıda inqilabi hərəkat İranda, birinci növbədə Cənubi Azərbaycanda milli-azadlıq hərəkatının geniş vüsət alması üçün, 1905-1911-ci illər inqilabı üçün qüdrətli təkan oldu. Azərbaycanın hər iki hissəsində - Rusiyada azərbaycanlıların çarizmə, İranda isə şah daspotizminə və imperializmə qarşı əlbir mübarizəsi, bu mübarizə gedişində zəmanənin ən qabaqcıl ictimai qüvvələrini təmsil edən, ən qabaqcıl elmi dünyagörüşü və düzgün siyasi xətti-hərəkətə malik olan Rusiya sosial-demokratiyası tərəfindən tərbiyələnməsi - bütün bunlar Cənubi Azərbaycanda mədəniyyətin inkişafında da dərin iz buraxmaya bilməzdi. Şimali Azərbaycanın ən qabaqcıl mədəniyyət xadimləri, şair, yazıçı, publisistləri öz qələmi və bilavasitə iştirakı ilə Cənubi Azərbaycanda mədəni inkişaf prosesini sürətləndirir, bu prosesdə mütərəqqi, demokratik cərəyanların üstünlük qazanmasına kömək edirdilər.

Cənubi Azərbaycanda yeni mədəniyyətin yaranmasının ilkin mərhələsi (30-60-cı illər - bu dövr Qacarlar dövlətinin Qərb aləmi ilə yenicə müntəzəm siyasi və iqtisadi əlaqələrə girdiyi vaxta təsadüf edir) cəmiyyətin son dərəcə məhdud hissəsini, əsasən mərkəzi dövlət aparatı ilə bağlı olan yuxarı təbəqəsini əhatə edirdi. İngiltərə, Fransa və Rusiyanın hərbi-siyasi təcavüzünə qarşı mübarizədə ağır məğlubiyyətlər təcrübəsindən (yalnız İranın deyil, bir sıra başqa müsəlman dövlətləri - Osmanlı imperiyasının, Misirin, Hindistanda Maysur dövlətinin məğlubiyyətləri) dərs almış bu təbəqənin uzaqgörən nümayəndələri Qərbin tərəqqisi, Şərqin, o cümlədən İranın isə tənəzzülü və zəifliyi səbəblərini müəyyən etmək və aradan qaldırmağa səy göstərərək, ən əvvəl Qərbin bəzi hərbi, texniki, inzibati nailiyyətlərini öyrənib tətbiq etməyə can atırdılar. Azərbaycanın yuxarı təbəqələrinin belə nümayəndələri Rusiyaya və Avronanın digər ölkələrinə diplomat, rəsmi nümayəndəliklərin üzvləri sifətilə (Mirzə Yusif xan Müstəşarüddövlə, Abdulla Sarabi, Məhəmmədhəsən xan Etimadüssəltənə) və ya təhsil almaq üçün gedərkən bu ölkələrin yalnız dövlət quruluşu, iqtisadiyyatı və elmi-texniki nailiyyətlərilə deyil, mədəni həyatı ədəbiyyat və incəsənəti ilə də tanış olurdular. Lakin öz sosial-mənşəyinə, mövcud quruluş, dövlət hakimiyyəti ilə möhkəm bağlı olduqlarına görə onların əksəriyyəti yeni mədəniyyətin yalnız zahiri cəhətlərini, burjua ideologiyasının ən mötədil ünsürlərini mənimsəyir və qayıtdıqdan sonra onların fəaliyyəti feodal dövlət idarə sistemində yalnız bəzi səthi dəyişikliklər etmək (məsələn, məhdud dairədə yeni təhsil sistemi təşkil etmək) təşəbbüslərindən kənara çıxmırdı. Təbiidir ki, onların fəaliyyətinin bilavasitə nəticələri də çox cüzi olub, geniş xalq kütlələri bir yana qalsın, hətta hakim təbəqələrin, varlı siniflərin də çox hissəsinin mədəni səviyyəsinə, dünyagörüşünə təsir göstərmirdi.

Cənubi Azərbaycanın mədəni inkişafının ikinci mərhələsi (70-90-cı illərin əvvəlləri) artıq əsaslı surətdə dəyişmiş obyektiv şəraitdə keçir və buna görə nəticələri də əvvəlkindən ciddi surətdə fərqlənirdi.

XIX əsrin sonları XX əsrin ilk illəri üçün bütün İranda olduğu kimi, Cənubi Azərbaycanda da təsərrüfat həyatı xarici aləmlə, birinci növbədə Rusiya ilə sıx bağlanmış oldu. İndi artıq yalnız cəmiyyətin yuxarı dairələrinin ayrı-ayrı nümayəndələri deyil, bir çox tacir və alverçilər də az-çox uzun müddətə Rusiya imperiyası şəhərlərinə (Bakıya, Tiflisə, Həştərxana, Aşqabada, Nijni-Novqoroda) gedir, qismən isə burada həmişəlik qalırdı. Təbriz, Ərdəbil və bəzi başqa şəhərlərin varlı sakinləri getdikcə daha tez- tez öz oğullarını Rusiya və Qərbi Avropanın orta və ali məktəblərində oxumağa yollayırdılar. XIX əsrdə ümumi vəziyyətin ağırlaşması, xüsusən hakim dairələrin yerlərdə özbaşınalıq və zülmünün artması, fanatik ruhanilər tərəfindən açıq fikirli adamların təqiblərinin qüvvətlənməsi bir çox ziyalıları mühacirətə getməyə məcbur edirdi (onların əksəriyyəti Türkiyəyə, Misir və Rusiyaya qaçırdı). Bu dövrdə hətta Həcc səfərləri belə varlı ailələrdən olan azərbaycanlıların Qərb aləmi ilə tanışlığına kömək edirdi, çünki Cənubi Azərbaycandan, İranın şimal əyalətlərindən olan zəvvarlar İrandan Ərəbistana karvanla əziyyətli yola nisbətən Qafqaz və Qara dəniz yolunu daha üstün tuturdular. Lakin azərbaycanlıların xarici aləmlə geniş kütləvi tanışlığı XIX əsrin son onilliklərindən başlanır. Məhz bu zaman var-yoxdan çıxan on minlərlə kəndli, sənətkar iş dalınca xarici ölkələrə, xüsusən Rusiyaya kəsbkarlığa getməyə başlayır. İllərlə burada qalmalı olan azərbaycanlılar Bakıda, Tiflisdə, Aşqabadda, İstanbulda öz xeyriyyə cəmiyyətləri vasitəsilə məktəblər təşkil edirdilər. Vətənə qayıtdıqdan sonra onlar özlərilə İrandakından tamamilə fərqli olan həyat tərzi haqqında, o cumlədən mədəniyyət haqqında yeni təsəvvürlər gətirirdilər. Eyni zamanda bu dövrdə əks bir axın, yəni Rusiyadan Cənubi Azərbaycana gələnlərin də sayı xeyli artır. Bunda da, əvvəlkindən fərqli olaraq eyni cəhət özünü göstərir, yəni indi buraya da Rusiyanın yalnız rəsmi nümayəndələri deyil, əsasən digər təbəqələrdən olan adamlar - tacir və kapitalistlər, sənaye-ticarət şirkətlərinin qulluqçuları, müxtəlif ixtisaslı ustalar, jurnalist və alimlər də gəlir.

Bütün bunlar Cənubi Azərbaycanda yeni mədəniyyətin meydana gəlməsi və təşəkkulü prosesinə həlledici təsir göstərirdi. Əvvəlkindən fərqli olaraq indi mədəni prosesin hərəkətverici qüvvəsini yaranmaqda olan burjuaziyanın, orta təbəqələrin nümayəndələri təşkil edir. Mədəni həyat öz keçmiş silki məhdudluğunu itirməyə başlayır və hələ kütləvi xarakter almasa da, hər halda keçmişdə olduğundan xeyli geniş dairələri əhatə edir. Bununla əlaqədar olaraq yeni mədəniyyətə yiyələnmə prosesi passiv təqlidçilik deyil, fəal yaradıcı xarakter almağa başlayır, yeni mədəni hadisələri öz ölkəsinin şəraitinə uyğun olaraq dərk və şərh etmək təmayülünə çevrilir. Yenə də əvvəlkindən fərqli olaraq, indi Qəbrin yalnız elmi-tətbiqi, texniki biliklərinə, təbiət elmlərinə deyil, məfkurəvi həyatına, siyasi, siyasi-iqtisadi, sosioloji biliklərinə, habelə ədəbiyyat və incəsənətinə də maraq oyanır.

Bu mərhələdə Cənubi Azərbaycanın mədəni inkişafı müəyyən dərəcədə maarifçilik xarakteri daşıyırdı. Lakin bütün İranda (Şərq ölkələrinin əksəriyyətində) olduğu kimi, Cənubi Azərbaycanda da maarifçilik öz genişliyi, dərinliyi və nəticələri etibarilə müstəqil bir tarixi dövr təşkil etməmişdir. Buna səbəb onun yalnız vaxt etibarilə qısalığı deyil, müvafiq sosial-iqtisadi proseslərin, yeni siniflərin meydana gəlməsi, milli təşəkkül proseslərinin hələ çox zəif olması idi. Cənubi Azərbaycandakı maarifçilik hərəkatı bu mənada təkcə klassik Qərb maarifçiliyindən deyil, hətta Şimali Azərbaycandakından da xeyli məhdud olmuşdur.

Hər şeydən əvvəl, burada maarifçilik hərəkatı vaxtilə Qərbdəki maarifçiliyin başlıca mahiyyətini təşkil edən əsaslı sosial problemləri, demək olar ki, irəli sürmürdü. Burada maarifçilərin ümumi ictimai-siyasi şüarları - istibdada son qoyulması, qanuna əsaslanan ədalətli cəmiyyət yaradılması - konkretləşdirilərkən maarifçi mütləqiyyət, XIX əsrin ən son illərində isə konstitusiyalı monarxiya tələblərindən kənara çıxmırdı. Lakin bu halda da hakimiyyətin əsası kimi hökmdarın iradəsi, onun könüllü olaraq öz hüquqlarını məhdudlaşdırması nəzərdə tutulurdu, insanların bərabərliyi isə çox ümumi şəkildə, onların allah qarşısında bərabərliyi

kimi, yəni əsrlərdən bəri dini ehkamlarda olduğu şəkildə şərh edilirdi. Qərb maarifçiliyinin əsasını təşkil edən insanın təbii hüquqları, milli suverenlik təlimləri isə bu zaman irəli sürülməyib yalnız sonrakı mərhələdə, 1905-1911-ci illər inqilabı dövründə, yəni artıq inqilabi-demokratik qüvvələr tərəfindən işdə həyata keçirilməyə başlayan vaxt (Təbriz üsyanı gedişində) ilk dəfə burjua ideoloqlarının da şüarlarında əks olunmağa başladı.

Cənubi Azərbaycanda (və ümumiyyətlə İranda) maarifçilik hərəkatının başqa bir zəif cəhəti bunda idi ki, onun gedişində ictimai fikir, mədəniyyət, dindən təcrid olunmadı. Burada mədəni inkişaf, mənəvi həyatda dini dünyagörüşün, ictimai-siyasi həyatda isə ruhanilərin tam ağalığı şəraitində keçirdi. Buna görə Cənubi Azərbaycan maarifçiliyi gedişində varlığın, ictimai-siyasi və mədəni həyatın dini mövqedən əsaslandırılmasına qarşı, insan şüurunu, onun mənəvi aləmini dini buxovlardan, cəmiyyətin həyatını isə ruhanilərin ağalığından azad etmək uğrunda az-çox ciddi, ardıcıl təşəbbüs olmamışdır. Əksəriyyəti dindar olan maarifpərvərlərin özləri islamın etik və əxlaqi normalarının ateist Qərb, yəni burjua normalarından üstün olduğunu yazır, bir sıra əsərlərini dini ehkamların təbliğinə həsr edirdilər. Ümumiyyətlə isə dinə, dini dünyagörüşünə münasibətdə Cənubi Azərbaycan maarifçiləri öz şimaldakı məsləkdaşları səviyyəsinə, xüsusən M.F.Axundovun materializmi, ateizmi səviyyəsinə yüksələ bilmədilər. Bu da başlıca olaraq ondan irəli gəlir ki, Cənubi Azərbaycanın bu dövrdəki bütün mədəni həyatı dinlə, ruhanilərin mövqeyi ilə daha sıx bağlı idi. Lakin ruhanilərin özləri də sosial mənşəyinə, ictimai və mədəni həyatdakı mövqeyinə və roluna görə (məsələn, mətbuata, yeni maarifə və s. münasibətdə) yekcins deyildi. Yaxın və Orta Şərqin bir sıra ölkələrində olduğu kimi, Cənubi Azərbaycanda da milli mədəniyyətin təşəkkülü və ümumiyyətlə milli şüurun oyanması prosesinin dini pərdə altında keçməsi, panislamizm forması almasının səbəblərindən biri də məhz bunda idi.

Şimali Azərbaycandan fərqli olaraq Cənubi Azərbaycanda milli mədəniyyətin təşəkkülü prosesində digər zəif cəhət onun yenə də fars dili ənənəsi çərçivəsində qalması idi. Yaranmaqda olan

yeni ziyalıların əksəriyyəti ikidilli olub, eyni dərəcədə həm doğma Azərbaycan dilini, həm də fars dilini bilirdilər. Lakin mədəniyyətin şeirdən və xalq yaradıcılığından başqa demək olar, bütün sahələrində (publisistikada, bədii nəsrdə, elmi-maarifçilik ədəbiyyatında, mətbuatda) fars dili hakim idi. Hətta həyatının çoxu İrandan kənarda, Zaqafqaziyada, Türkiyədə, Misirdə keçən yazıçıların (Marağayinin, Talıbovun) yaradıcılığı da farsdilli idi. Lakin XIX əsrin axırlarında başqa bir amil də həlledici əhəmiyyət kəsb edir ki, bu da İranda siyasi şüurun oyanması, ölkənin ictimai-siyasi həyatında ümumi antifeodal və antiimperialist meyllərin yaranması idi. Ön plana çıxan bu amil dolayısı olaraq milli şüurun, buradan isə milli dilə ehtiyacın yaranmasını nisbətən ləngidirdi.

İranın feodal sinfi öz milli tərkibinə görə heç bir vaxt yekcins olmamış, lakin həmişə müxtəlif milliyyətlərdən, o cümlədən farslardan olan geniş xalq kütlələrini eynilə istismar edən vahid qüvvə kimi çıxış etmişdir. Feodal sinfi içərisində milli zəmin üzərində az-çox dərin ziddiyyətlər və buna cavab olaraq bəzi müsəlman ölkələrində (məsələn, Osmanlı imperiyasında) təsadüf edilən "feodal millətçiliyi" olmamışdır.[681] Digər tərəfdən, İranda milli zülm, irqi bərabərsizlik az-çox geniş, dövlət tərəfindən ardıcıl surətdə həyata keçirilən bir siyasət kimi o zaman hələ çox zəif təzahür edir və əsasən dini bərabərsizlik və təqiblər (şiyələrlə sünnilər, müsəlmanlarla xristianlar, yəhudilər, zərdüştlər və xüsusən babilər, bəhailər arasında) şəklini alırdı. Bütün bunlarla əlaqədar olaraq yaranmaqda olan yeni azərbaycanlı ziyalılarının da ölkənin bütün əhalisini nəzərdə tutan ictimai-siyasi, mədəni fəaliyyətində

---

[681] Yuxarıda qeyd olunduğu kimi, Qacarlar dövrünün ənənəsnnə görə vəliəhdliyi zamanı Azərbaycan əyalətini idarə etmiş hər bir vəliəhd taxta çıxarkən Təbrizdə öz ətrafında olmuş yaxın adamlarını özü ilə Tehrana gətirirdi. Buna görə hər bir yeni şahın hakimiyyəti hakim feodal dairələrinin iki dəstəsi - Tehrandakı dəstə ilə yeni, Təbrizdən gəlmiş dəstə arasında mübarizənin kəskinləşməsi ilə başlanırdı. Lakin bu mübarizə az-çox milli xarakter daşımırdı, Hər iki dəstənin tərkibində müxtəlif milliyyətlərdən (farslardan, azərbaycanlılardan, kürdlərdən) feodallar var idi.

İranda yaşayan xalqlar üçün əsrlərdən bəri ənənəvi ədəbi dil olmuş fars dilinə müraciət etməsi təbii idi. Cənubi Azərbaycanın mədəni inkişafının həm güclü, həm də zəif cəhəti də məhz bunda idi. Onun gücü bunda idi ki, Ümumiran miqyasında yeni burjua, sonralar isə habelə demokratik mədəniyyətin, ədəbiyyatın, ictimai fikrin mühüm tərkib hissəsini təşkil edir, ümumi mədəni inkişafı sürətləndirirdi. Lakin o biri tərəfdən, mədəni inkişafın fars dili ənənəsi çərçivəsində qalması buna səbəb olurdu ki, Cənubi Azərbaycanın geniş xalq kütlələri yeni mədəniyyətdən xeyli dərəcədə məhrum edilmiş olurdular. Bu da, öz növbəsində, yeni burjua mədəniyyətinin onsuz da zəif olan xəlqiliyini zəiflədir, onu əhalinin məhdud bir hissəsinin malı edir, xalq yaradıcılığından uzaqlaşdırırdı. Ümumiyyətlə, burjua mədəniyyətinə xas olan məhdudluğu, burjua cəmiyyətinə xas olan "iki mədəniyyət" cəhətini nəzərə aldıqda isə demək lazımdır ki, Cənubi Azərbaycanda farsdillilik ənənəsinin güclu olması burada demokratik mədəni inkişaf yolunda əlavə bir maneəyə çevrilirdi. Fars ənənəsinin qalması azərbaycanlı ziyalıların mövqeyini zəiflədərək, milli Azərbaycan mədəniyyətinin təşəkkülü perspektivlərini məhdudlaşdırır, eyni zamanda assimilyatorçu fars-şovinist təmayülləri üçün yol açmış olurdu. Doğrudur, XIX əsrin sonları - XX əsrin əvvəllərində belə təmayüllər hələ az nəzərə çarpırdı, rüşeym halında idi. Bu dövrdə İranın hətta hakim dairələri belə Azərbaycan dilini rəsmi fars dili ilə bərabər ölkənin ümumi dili olmasını etiraf edirdilər.[682] Fars olmayan xalqların, o cümlədən azərbaycanlıların mədəni irsi, dili və hətta onların etnik mənşəyini inkar edən assimilyatorçu şovinist meyllər sonralar, başqa tarixi şəraitdə dövlət siyasətinə çevrildi. Buna görə Cənubi Azərbaycanda fars dili ənənəsinin saxlanmasına "müqəssir" müəyyən dərəcədə elə buradakı

---

[682] Misal üçün, Qacarların rəsmi tarixçisi və görkəmli dövlət xadimi Məhəmmədhəsən xan Etimadüssəltənə Nəsrəddin şahın hakimiyyətinə həsr etdiyi xüsusi əsərində yazırdı: "Əlahəzrətləri çox vaxt fars və türk (Azərbaycan) dillərində danışır və söhbət edir ki, bunlar da İran dövlətinin ümumi dilləridir" (Bax: Məhəmmədhəsən xan Etimadüssəltənə. Əl-maser və əl-asar (*Təsirlər və nəticələri*), Tehran, 1306/1927, səh.6

ziyalılar idi. Nəzərə almaq lazımdır ki, çarizmin milli zülm siyasətinə baxmayaraq məhz bu dövrdə Şimali Azərbaycanda doğma dildə bədii ədəbiyyat, publisistika, dramaturgiya, mətbuat və məktəb işi özünə yol açır, milli ədəbi dil təşəkkül tapırdı. Əlbəttə Azərbaycanın hər iki hissəsində dil probleminin və ümumiyyətlə milli mədəniyyətin inkişafındakı bu fərq də obyektiv şəraitdən doğurdu. Şimali Azərbaycanda milli mədəniyyətin təşəkkülü üçün mühüm amillərdən biri də Rusiyanın mütərəqqi qüvvələrinin ona göstərdiyi maraq və yardım idi. Bir qədər sonralar isə XX əsrdə, burada milli mədəiiyyətin inkişafı Rusiyanın ən qabaqcıl inqilabi qüvvəsi olan sosial-demokratiyanın, RSDFP-nin beynəlmiləlçilik prinsiplərinə əsaslanan milli siyasəti sayəsində müvəffəqiyyətlə davam edə bilmişdir. İranda isə təkcə türk və ya başqa dilli xalqlar deyil, digər irandilli xalqların mədəni inkişafı da belə bir yardımdan məhrum idi.

Əlbəttə, fars dili ənənəsi mədəni həyatın bütün sahələrində üstün deyildi. Hər şeydən əvvəl xalq yaradıcılığı öz müstəqil yolu ilə, doğma dildə inkişaf etməkdə idi. XIX-XX əsrin əvvəllərində Cənubi Azərbaycan şeirinin də inkişafı davam edirdi. Məhz bu zaman Azərbaycan dili şeir yaradıcılığında hakim olur (M.Şəqaqi, Ə.Qaracadaği, Ə.Nəbati, M.Xalxali, M.Şükuhi, R.Sərraf, xüsusilə M.Möcüz və başqalarının yaradıcılığında) və nəsrə nisbətən daha çox milli xarakter daşıyırdı.

Cənubi Azərbaycanın mədəni inkişafının üçüncü mərhələsi 1905-1911-ci illər inqilabının həlledici təsiri altında keçmişdir. Bu zaman mədəni həyat öz məzmun və formalarına görə əvvəlkindən qat-qat zənginləşir, əhalinin daha geniş təbəqələrini əhatə edir, "siyasiləşir". Əgər əvvəlki mərhələlər üçün ümumi mədəni maarifçilik, təbii-elmi, texniki, ümumi siyasi (geopolitik) biliklərin təbliği əlamətdar idisə, indi ön sıraya konkret siyasi, sosioloji biliklər irəli çıxır. İctimai-siyasi reallığı özündə əks etdirən mədəni həyatda da təbəqələşmə prosesi dərinləşir ki, bu da mədəni inkişafda burjua-demokratik və ilkin inqilabi-demokratik meyllərin təşəkkülünə təkan verir. Bütün bunlar publisistika, bədii nəsr və şeirdə (habelə bəzi incəsənət sahələrində, misal üçün, siyasi

karikaturanın meydana gəlməsi) öz əksini taparaq yeni janrlar (felyeton, oçerk, siyasi satira) yaranmasını labüd edir.

Buna müvafiq olaraq mədəni hərəkatın təşkilati formaları və vasitələri də xeyli genişlənir. Əgər bu vaxtadək mədəni həyat əsasən az miqdar məktəb, kitab nəşri ilə məhdudlaşırdısa, indi kütləvi təbliğat vasitələri meydana çıxır ki, bunlar içərisində də ən güclüsü mətbuat idi. Eyni zamanda ilk elmi-mədəni cəmiyyətlər, teatr kollektivləri yaratmaq üçün təşəbbüs göstərilirdi.

Bu dövrdə ziyalılar mühüm qabaqcıl sosial təbəqəyə çevrilməyə, onun tərkibində keyfiyyət dəyişiklikləri özünü göstərməyə başlayır. İndi ziyalıların sıraları, mədəni fəaliyyətə vaxtının, qüvvəsinin yalnız bir hissəsini həsr edən, öz şəxsi vəsaitini bu məqsədlərə sərf edən müəllimlərdən, ruhani nümayəndələrindən, məmur və xırda sahibkarlardan başqa peşəkar siyasətçilər, jurnalist və naşirlər, həkimlər hesabına da artır. İctimai-siyasi həyatda ziyalılar daha geniş fəaliyyət göstərirlər.

Ölkənin ictimai-siyasi həyatındakı dəyişikliklər, 1905-1911-ci illər inqilabının nəticəsində mədəni həyatda baş verən bütün yeniliklər, xüsusən bu sahədə demokratikləşmə prosesinin genişlənməsi xeyli dərəcədə 1905-1907-ci illər rus inqilabının xüsusilə Şimali Azərbaycanda inqilabi hərəkatın təsirini əks etdirirdi. Belə ki, Cənubi Azərbaycanda ədəbiyyat və publisistikanın mütərəqqi inkişafı üçün Şimali Azərbaycan mədəniyyətinin M.Ə.Sabir, C.Məmmədquluzadə, N. Nərimanov kimi görkəmli nümayəndələrinin yaradıcılıq və ictimai-siyasi fəaliyyətinin birinci dərəcəli əhəmiyyəti olmuşdur (xüsusən ona görə ki, bu müəlliflərin əsərlərinin bir çoxu məhz İrandakı hadisələrə həsr olunurdu).

Həm də Şimali Azərbaycanın mədəniyyət xadimlərinin əsərləri, onların nəşr etdirdiyi qəzet və məcmuələr, kitablar Cənubi Azərbaycan əhalisinin doğma dilində olub, təsir dairəsi də qat-qat geniş idi. Bütün bunlar Cənubi Azərbaycanda yeni ədəbi janrların yaranmasına, yazıçı, şair və publisistlərin bədii yaradıcılığı və ideyaca təkamülünə güclü təsir göstərirdi. Bu mənada “Molla Nəsrəddin” jurnalının əhəmiyyəti xüsusilə böyük olmuş, Cənubi

Azərbaycanda geniş əks-səda tapmışdır. Lakin Cənubi Azərbaycanda mütərəqqi mədəni inkişaf üçün ən qudrətli amil Rusiya sosial-demokratiyasının, bolşevik partiyasının varlığı, onun çarizm əleyhinə mübarizəsi, ideoloji və siyasi-nəzəri təlimi, milli və mədəni siyasəti, (bu sahədə "hümmət" təşkilatının fəaliyyəti), nəhayət, Cənubi Azərbaycanda (İranda) bütün mütərəqqi proseslərə bilavasitə yardımı olmuşdur. Cənubi Azərbaycanın mədəniyyət xadimləri Rusiyanın inqilabi qüvvələrinin proqram sənədləri ilə tanış olaraq, bir sıra hallarda onlarla birlikdə çarizmə qarşı, Cənubi Azərbaycanda şah hakimiyyəti və imperializmə qarşı əlbir mübarizə apararaq, demokratik ideoloji mubarizə, demokratik mədəni inkişaf təcrübəsi əldə edirdilər.

İnqilabın Rusiyada, sonra isə İranda da məğlubiyyəti Cənubi Azərbaycanda coşğun mədəni inkişaf prosesini dayandırsa da, onun ümumi istiqamətini geriyə döndərə bilmədi.

Əlbəttə, bütün bu mütərəqqi mədəni proseslər, mədəni inkişafın əvvəlki mərhələlərindən qalmış naqis cəhətlərini qısa müddət ərzində aradan qaldıra bilməzdi. Bunlardan biri bu mərhələdə də mədəni həyat sahəsində fars dili ənənəsinin qalması idi. Doğrudur, inqilab illərində ana dilində məktəb təhsilini təşkil etmək, qəzet və jurnal buraxmaq təşəbbüsləri artdı. Azərbaycan dilində "kiçik mətbuat" (vərəqələr, intibahnamələr, karikaturalara izahlar) vasitəsilə təbliğat geniş vüsət aldı. Lakin inqilabın məğlubiyyəti bu mütərəqqi prosesi də dayandırdı.

Beləliklə, XIX-XX əsrin əvvəllərində Cənubi Azərbaycanın sosial-iqtisadi və siyasi inkişafına uyğun olaraq mədəni təkamülü burada burjua mədəniyyətinin yaranması, XX əsrin əvvəllərində isə inqilabi demokratik istiqamətdə inkişafa başlaması ilə nəticələndi. Bu, Cənubi Azərbaycanın mədəni inkişafında mühüm keyfiyyət yeniliyi idi. Lakin Cənubi Azərbaycanın mədəni inkişafı öz miqyasına və məzmununa görə Şimali Azərbaycandakından xeyli geri qalırdı. Şimali Azərbaycanda mədəni inkişaf rus xalqının qabaqcıl mədəniyyətinin yardımına arxalanaraq, Rusiyada yaşayan başqa xalqların mədəniyyəti ilə qarşılıqlı surətdə zənginləşərək

burjua mədəniyyəti çərçivəsindən çıxıb demokratik, proletar, sosialist mədəniyyəti istiqamətində irəliləyirdi. Buna baxmayaraq, öz tarixi köklərinə, dilinə, bir çox vasitə və formalarına görə istər Şimali, istərsə də Cənubi Azərbaycanda bu mədəniyyət bütün Azərbaycan xalqının ümumi mədəniyyəti idi və bundan hər iki hissədəki əhali bəhrələnirdi.

## 1. MAARİF

Bütün İranda olduğu kimi, Cənubi Azərbaycanda da ümumi ictimai-siyasi quruluşun, mədəniyyətin vəziyyətini özündə əks etdirən maarif, məktəb təhsili sistemini feodal münasibətlərinin hakim olduğu şəraitdə iki dövrə ayırmaq olar: XIX əsrin 80-90-cı illərinədək və sonrakı dövr.

Birinci dövrdə bu sahə müsəlman Şərqinin digər ölkələrindəki kimi, yüz illərdən bəri mövcud olduğu vəziyyətdə qalmaqda idi, yəni feodalizm üçün xas olan maarif sistemi (cəmiyyətin əsasən feodal-zadəkan təbəqələrinə xidmət edən, dövlət tərəfindən deyil, ayrı-ayrı şəxslər və ya dini mərkəzlər tərəfindən təşkil olunan maarif) və tədris üsulları (başlıca olaraq dini biliklərin sxolastik-əzbərçi tədrisi) hökm sürürdü. Lakin əgər vaxtilə orta əsrlərdə belə maarif sistemi dünyanın hər yerində olduğu kimi, cəmiyyətin tələbatını həm keyfiyyətcə, həm də kəmiyyətcə az-çox ödəyirsə, XIX əsrdə o, artıq ölkənin, xalqın həyatına və xüsusən gələcək inkişafına əsla xidmət edə bilmir və əksinə, mane olurdu. İlkin təhsil verən ocaq məktəbxana (və ya sadəcə olaraq məktəb) adlanan, ibtidai təhsil səviyyəsində bilik verən məktəblər idi. Bir qayda olaraq bu məktəblər şəhərlərdə və bəzən iri kəndlərdə açılır, şəhərin böyüklüyündən asılı olaraq onların sayı bir neçədən bir neçə yüzədək çatırdı. XIX əsrin axırlarında Təbriz məktəbxanalarının sayı yüzdən artıq deyildi.[683]

[683] Hoseyn Omid. Tarix-e fərhəng-e Azərbaycan (*Azərbaycan mədəniyyət tarixi*), cild 1,Təbriz, 1332/1953, səh.13 (Sonrakı səhifələrdə: Hüseyn Ümid, I c. səh... yazılacaqdır).

Hər bir məhəllədə ayrı-ayrı şəxslər, mollalar tərəfindən öz evlərində və ya məhəllə məscidində açılan belə məktəblər adətən kiçik, 30-40 şagirdi olan müəssisələr idi (Təbrizin 100 məktəbxanasında cəmi 6 min şagird oxuyurdu). Yalnız müstəsna hallarda şagirdlərin sayı 100-ə çatırdı. Başqa xüsusi məktəblər də var idi. Bunlar varlı və əyanların, yüksək rütbəli dövlət məmurlarının, bir sözlə, yuxarı təbəqənin uşaqları üçün onların öz evlərində təşkil olunurdu. Burada da yalnız bir və ya bir neçə qohum (qonşu) zadəgan ailəsinin uşaqları təhsil alırdı.

Oxumaq haqqı üçün müəyyən hədd yox idi. Bunu hər bir müəllim valideynlə razılıq əsasında (onun maddi vəziyyətinə görə) ildə bir neçə dəfə pulla, natura ilə, habelə hədiyyələr şəklində alırdı.

Məktəblər həm onların təşkili, tədris vəsaiti ilə təchizi, müəllimlərin əksəriyyətinin peşəkarlıq səviyyəsi və işə münasibəti, həm də tədris və tərbiyə metodikası baxımından hətta ilkin savad vermək üçün də yararlı deyildi (xüsusi məktəblər bu mənada bir qədər yaxşı vəziyyətdə idi). Bunların çoxu azsavadlı xırda ruhanilər tərəfindən özünü dolandırmaq, gündəlik qazanc əldə etmək məqsədilə təşkil olunurdu.

Uşaq 6-7 yaşında ikən məktəbə daxil olur və 16 yaşına qədər orada təhsil alırdı. Məktəbxanaların ümumi istiqaməti ruhaniyyət tələblərinə tabe edilirdi: oxumaq və yazmaq Quran və ayin ədəbiyyatı əsasında "Çərəkə", "Tənbihül-qafi- lin" kimi qədim dərsliklərdən öyrədilir, habelə bəzi nümunələr (ibrətamiz şeirlər və misallar, rəvayətlər) əsasında klassik ədəbiyyatla tanışlıq verilirdi. Oxumaq heca qaydası, əzbərçilik üsulu ilə öyrədilir, yazıda isə əsas diqqət xəttin gözəlliyinə yetirilirdi.

Beləliklə, başlıca olaraq ruhanilərin nəzarəti altında olan, dövlət tərəfindən heç bir yardım almayan məktəbxanalar əslində daha yüksək səviyyəli təhsil üçün savad və dünyəvi bilik əsaslarına yiyələnməyə deyil, dini məfkurə və feodal ideologiyası, əxlaqı itaətkarlıq, padşahpərəstlik və i. a.) tərbiyə edilməsinə yönəldilirdi.

Yaxın və Orta Şərqin başqa ölkələrində olduğu kimi, Cənubi Azərbaycanda da əsrlərdən bəri mövcud olan orta və ya ali təhsil

ocaqları mədrəsələr idi (onların əksəriyyəti orta təhsil səviyyəsinə daha yaxın və yalnız ən məşhurları ali təhsil müəssisələri idi; ümumiyyətlə isə ali dini təhsil mərkəzi "müqəddəs yerlər" -Kərbəla və Nəcəf hesab olunurdu). Bunlar da, adətən, ruhanilər və ümumiyyətlə dini idarələr, başlıca olaraq məscidlər tərəfindən, habelə feodal sinfinin və ona yaxın duran iri tacirlərin bəzi nümayəndələri tərəfindən "vəqf" verilməsi, yəni hər hansı əmlakın bağışlanması və ya xeyriyyə işləri üçün ianə toplaması hesabına təsis olunurdu.

XIX əsrdə Cənubi Azərbaycanda mədrəsələr yalnız Təbrizdə və bir neçə başqa şəhərdə (Xoy, Urmiya, Ərdəbil və Marağa) var idi ki, bunların da çoxunu kiçik (15-30 nəfərlik, nadir hallarda 200-300 tələbəsi olan) mədrəsələr təşkil edirdi.

Mədrəsə tələbələri, bir qayda olaraq, təhsil aldıqları müddət ərzində (10-12 ilədək) elə buradaca yaşayırdılar. Buna görə mədrəsə binasına dərs oxumaq üçün bir neçə iri otaqdan başqa tələbə və müəllimlərin (müdərrislərin) yaşadığı kiçik otaqlar (hücrələr) də daxil olurdu. Tələbələrin dolanacağı mədrəsəyə vəqf edilmiş torpaq və ya digər əmlakdan (dükanlar, karvansaralar və i. a.) alınan gəlir hesabına təmin edilirdi. Bundan əlavə, tələbələr müxtəlif dini bayramlar və mərasimlərdə də iştirak edir, bunun müqabilində şəhər əhalisindən hədiyyələr alırdılar.

Keçmişdə öz dövrünün ümumi mədəni səviyyəsinə uyğun təhsil verən mədrəsələr də XIX əsrdə həm quruluşu və metodikası cəhətdən, həm də məzmunca müasir təbiət, humanitar və texniki elmlərdən uzaq, real həyatla az bağlı sxolastik bilik verən təhsil ocaqları idi.

Mədrəsə tələbələri təhsil səviyyəsinə görə 3 qrupa - ibtidai, orta və ali təhsil qrupuna bölünürdülər. Yuxarı qrupun tələbələri aşağı qrup tələbələrinə dərs deyirdilər. Tələbələrin bilik səviyyəsi kitabların keyfiyyəti ilə deyil, kəmiyyəti ilə ölçulürdü. Buna görə də tələbənin yuxarı qrupa keçməsi üçün imtahan verməк lazım gəlmirdi; tələbə bir kitabı qurtarıb digərinə başlarkən "yuxarı mərtəbəyə" keçmiş hesab olunurdu.

Mədrəsələrdə başlıca olaraq fiqh (dini qanun-qaydalar), sxolastik məntiq və fəlsəfə (hikmət), eyni zamanda ərəb dili, klassik şeir, ənənəvi psixologiya, Əbu Əli ibn Sinanın tibb elmi, Şeyx Bəhayinin riyaziyyat elmi, Xacə Nəsirəddin Tusinin astronomiyası tədris edilirdi. Bu mədrəsələrdən başqa alim-müdərrislərə məxsus elmi hövzə və ya məhzərlər (dərnəklər) də var idi ki, burada elmi bəhslər aparılır, çətin mövzular müdərris tərəfindən aydınlaşdırılırdı. İranda olduğu kimi, Cənubi Azərbaycanda da bir sıra elmli şəxslər məhz bu dərnəklərin yetişdirməsi idi.

Doğrudur, XIX əsrin axırlarında İranda, o cümlədən Azərbaycanda da mətbuatın, kitab nəşrinin artması və xüsusilə yeni "üsuli-cədid" məktəblərinin açılması nəticəsində yeni elmi biliklərin yayılması mədrəsələrdə də tədris olunan fənlərə müəyyən təsir göstərirdi. Burada çalışan müdərris və axundların bəziləri öz dərslərinə yeni elmi məlumat daxil etməyə, bu və ya digər yolla müasir problemlərə toxunmağa məcbur olurdular. Lakin bütün bunlar təsadüfi və sistemsiz xarakter daşıdığı üçün mədrəsələrin ümumi səviyyəsində əhəmiyyətli bir dönüş yarada bilmədi.

XIX əsrdə Azərbaycanda yaşayıb azlıq təşkil edən millətlərin, ermənilərin, aysorların da dini xristian məktəbləri (Təbriz, Urmiya, Çulfa və bəzi başqa şəhərlərdə) olmuşdur. Bunlar da əsasən ibtidai təhsil məktəbləri idi, yəni başlıca olaraq savad öyrədir, dini qaydaları və kilsə tarixini tədris edirdilər. Lakin XIX əsrin ikinci yarısında bu məktəblərdən bəzilərində rus və fransız dilləri, coğrafiya və ümumi tarix də öyrədilir, həm də başqa ölkə və şəhərlərdə (Rusiya, Livan, İstanbul) nəşr olunmuş, müasir elm və biliklərdən müəyyən dərəcədə məlumat verən dərsliklərdən, kitablardan istifadə edilirdi. Məhz buna görə onlar müsəlman məktəbxana və mədrəsələrinə nisbətən daha yüksək bilik verirdi.

Belə məktəblərin bir hissəsi keçən əsrin 30-cu illərindən başlayaraq ABŞ, Fransa, İngiltərə və başqa ölkələrdən göndərilən katolik və protestant missionerlər tərəfindən təsis edilir, əlbəttə, birinci növbədə öz dövlətlərinin İranda nüfuzunu qüvvətləndirmək məqsədini güdürdü. Təbiidir ki, bu məktəblərdə qeyri-müsəlman əhalinin (ermənilərin, aysorların), habelə burada yaşayan xarici

təbəələrin uşaqları oxuyurdu, çünki müsəlman uşaqlarının oraya getməsinə müsəlman ruhaniləri yol vermirdilər. Yalnız XIX əsrin lap axırlarından həmin məktəblərdən bəzilərində, xristian dini dərslərindən azad edilmək şərtilə, tək-tək müsəlman uşaqların da oxuması mümkün oldu. Müvafiq dövlətlər öz mövqelərini möhkəmlətmək üçün Azərbaycanda təşkil etdikləri məktəblərə xeyli vəsait sərf edir, onları dərs ləvazimatı ilə təchiz edir, bəziləri isə şagirdləri yemək və yataqxana ilə təmin edirdilər. Burada dərslərin keyfiyyəti həm məzmun, həm də metodika nöqteyi-nəzərindən daha yaxşı idi və müəyyən dərəcədə Avropadakı təhsil səviyyəsinə yaxınlaşırdı. Misal üçün, XIX əsrin axırlarında məktəblərdə ədəbiyyat, dil, hesab, tarix, coğrafiyadan başqa musiqi və idman dərsləri də proqrama daxil edilmişdi. Buna görə də həmin məktəblərin Azərbaycan maarifinin inkişafına müəyyən müsbət təsiri olmuşdur.

Beləliklə, XIX əsrin axırlarınadək bütün Qacarlar dövlətində olduğu kimi, Cənubi Azərbaycanda da mövcud olan ənənəvi dini maarif sistemi cəmiyyətin müasir ictimai, siyasi, mədəni inkişafı tələbatına xidmət etməyə əsla qadir deyildi. Hətta tam “təhsil” almış gənclər, inzibati və hərbi məmurlar, yüksək mənsəbli dövlət xadimlərinin böyük əksəriyyəti bu baxımdan əslində savadsız idi. Onların çoxunun təkcə başqa ölkələrin, xalqların sosial-iqtisadi və siyasi həyatı, mədəniyyəti, elmi haqqında deyil, öz ölkələri barəsin də də köhnəlmiş, çox vaxt gülünc, əfsanəvi təsəvvürlərə malik olmasını Azərbaycan xalqının görkəmli mütəfəkkir və yazıçıları (M.F.Axundov, M.Ə.Talıbov, H.Z.Marağayi və b.) hələ XIX əsrdə ifşa etmiş, bununla da yeni maarif və biliklərin yayılması üçün zəmin yaratmışlar.

Cənubi Azərbaycanda yeni maarifin ilkin rüşeymi 1869-cu ildə Təbrizdə “Mədreseye-Nasiri” adlı məktəbin açılması ilə qoyulmuş oldu. Dövlət tərəfindən Təbrizdə təsis edilmiş ilk yeni məktəb isə 1877-ci ildə açılmış “Təbriz dövlət mədrəsəsi” idi.

Təbriz dövlət mədrəsəsi quruluşuna və səviyyəsinə görə Tehran darülfününunu xatırladırdı. Buraya da əsasən xüsusi ev məktəblərində ibtidai təhsil almış 15-16 yaşlı zadəgan uşaqlar qəbil

edilirdi. Mədrəsənin tədris proqramına tibb, həndəsə və hərbi dərslərlə yanaşı, fars və fransız dilləri də daxil idi. Mədrəsə əsas etibarilə əczaçı, həkim və zabit hazırlayırdı. Bu məktəb fasilələrlə 1897-ciilədək fəaliyyət göstərmişdir (son illərdə "Müzəffəriyyə mədrəsəsi" adlanırdı).

Dövlət tərəfindən yeni tipli bir neçə məktəbin təsis edilməsinə ölkə miqyasında maarif sahəsində ciddi bir dönüş yarada, nə də xüsusən artmaqda olan burjua təbəqələrinin ehtiyacını ödəyə bilməzdi. Buna görə XIX əsrin 80-90-cı illərində İranın başqa əyalətlərindən daha əvvəl Cənubi Azərbaycanda bu işin təşəbbüsünü, yəni "üsuli-cədid" ("yeni qaydalı") məktəblərin təsis edilməsi işini burjuaziya nümayəndələri, burjua ziyalıları öz əllərinə almağa başladılar, dövlət isə 900-cü illərədək nəinki bu işə heç bir yardım göstərmir, hətta əksinə, bir sıra tədbirlərilə bu təşəbbüsə mane olurdu. Cənubi Azərbaycanda və ümumiyyətlə İranda müasir burjua maarif sisteminin yaranması prosesi də məhz bu zamandan başlanır.

Təbrizdə "Dəbestan"[684] (təqribən ibtidai məktəbə bərabər idi) adlı ilk xüsusi "üsuli-cədid" məktəbini 1888-ci ildə "İran maarifinin atası" Mirzə Həsən Rüşdiyyə təşkil etdi. Hər bir sahədə, xüsusən təhsil sahəsində bütün yeniliklərə qarşı azğıncasına çıxış edən irticaçı-qaragüruhçu qüvvələrdən ehtiyat edən Rüşdiyyə "Dəbestan"ı zahirən məktəbxana kimi saxlamış lakin tədris işini yeni, elmi sistem üzrə qurmuşdu. O öz məktəbində əlifbanı yeni üsulla - səs üsulu ilə tədris etmiş, şagirdlərə intizamlı olmağı, təmiz geyinməyi öyrətmiş, köhnə məktəblərdə əsas "tərbiyə" vasitələrindən biri olan çubuq və fələqqə ilə cəzalandırmağa son qoy-

[684] 1851-ci ilin dekabrında açılmış və həm xarici, həm də iranlı müəllimlərin dərs dediyi Tehran darülfünunu o zamankı Qərb ali təhsil muəssisələri universitetləri səviyyəsində deyildi. Burada əsasən ordu üçün zabitlər, tərcüməçilər, tibb işçiləri hazırlanırdı. Darülfünun öz proqramına, tədrisin məzmunu və metodikasına görə orta təhsil məktəbinə daha yaxın idi.

muş, sabit dərs saatları müəyyənləşdirmiş, tənəffüsləri zəng vasitəsilə elan etdirmişdi ki, bu da nəinki Azərbaycan, hətta İran maarif tarixində ilk təşəbbüs idi.[685]

Rüşdiyyə fars dilindəki asan kitablardan dərs keçir, lakin dünyəvi elmləri hələlik proqrama daxil etmirdi. Buna baxmayaraq irticaçılar əlifbanın başqa tərzdə tədrisini bəhanə edərək Rüşdiyyənin "Dəbestan" məktəbini talan etdilər. Bu hadisədən sonra Mirzə Həsən Rüşdiyyə tezliklə "Mədrəseye-Rüşdiyyə" adlı yeni bir məktəb açdı, lakin az sonra bu məktəb də irticaçılar tərəfindən dağıdıldı. Mirzə Həsən Rüşdiyyə isə Təbrizdə qala bilməyib Xorasana, sonra da Misir və Qafqaza getməli oldu. Yalnız 1893-cü ildə o, yenidən Təbrizə qayıdıb "Mədrəseye-milliye-Rüşdiyyə" (Rüşdiyyə milli mədrəsəsi) adı ilə yeni bir məktəb təşkil etdi.

Mirzə Həsən Rüşdiyyənin Azərbaycan maarifinə böyük xidməti, birinci növbədə, bütün tədris işini müasir pedaqoji metodikaya əsasən qurmasında idi. Onun təsis etdiyi məktəblərdə qaydalar Qərb ölkələrindəki tədris prinsiplərinə yaxın idi. O, ilk savadı ənənəvi əzbərçilik yolu ilə deyil, əlifbanı tez və asan öyrənməyə imkan verən sövti üsulla tədris edirdi. Rüşdiyyə ilk dəfə olaraq Azərbaycanda maarifi ana dilində tədris etmək təşəbbüsü ilə çıxış etmiş və beləliklə, Azərbaycan milli mədəniyyətini qoruyub canlandırmaq yolunda qiymətli addım atmışdır. Öz əqidə və fəaliyyətinə görə demokrat olan Rüşdiyyə təsis etdiyi məktəblərə sinfi mənşəyindən və əmlak vəziyyətindən asılı olmayaraq bütün azərbaycanlı uşaqlarını cəlb etməyə çalışır, öz məhdud vəsaiti hesabına kasıb uşaqlarının oxumasını təmin edirdi. Nəhayət, Mirzə Həsən Rüşdiyyə müasir bilikləri və ən əvvəl ana dilini təbliğ edən

---

[685] Mirzə Həsən Təbrizi (Rüşdiyyə) 1851-ci ildə Təbriz şəhərində anadan olmuş, ilk təhsilini həmin şəhərdə almışdır. O, təhsilini davam etdirmək üçün İstanbula, Beyruta, Qafqazın muxtəlif şəhərlərinə getmiş, M.F.Axundovun və K.D.Uşinskinin yeni təhsil üsulu və digər pedaqoji nəzəriyyələrlə yaxından tanış olmuşdur. M.H. Rüşdiyyə öz pedaqoji təcrübəsini 1882-ci ildə İrəvanda təsis etdiyi yeni tipli məktəbdə sınaqdan çıxarmış, sonra Təbrizə gəlmişdir.

bir sıra dərsliklər (bunlardan ən qiymətlisi “Ana dili”, “Vətən dili” dərslikləridir) yaratmış, bacarıqlı pedaqoji kadrları öz ətrafında birləşdirməyə müvəffəq olmuşdur.

Azərbaycanda yeni maarif təşəbbüskarlarından biri də Rüşdiyyə məktəbinin təcrübəli müəllimlərindən Mirzə Hüseyn Kamal idi. O, 1897-ci ildə Təbrizdə “Mədrəseye-Kamal” adı ilə yeni qaydalı məktəb təsis etdi. Mirzə Hüseyn Kamalın məktəbi də uzun müddət davam edə bilmədi və 1903-cü ildə üsuli-cədid məktəblərinə qarşı irticaçıların hücumu zamanı qarət edildi, özü isə mühacirət edib Bakıda “İttihadi-iraniyan mədrəsəsi”nin müdiri oldu.

XIX əsrin axırlarında Təbrizdə açılan “Üsuli cədid” tipli məktəblər içərisində daha ikisini qeyd etmək lazımdır. Bunlardan biri, 1899-cu ildə bir neçə görkəmli xadim (Seyid Hüseyn xan Ədalət, Mirzə Məhəmmədəli xan Tərbiyyət, Seyid Məhəmməd Şəbüstəri və Seyid Həsən Tağızadə) tərəfindən təsis olunan “Tərbiyyət” mədrəsəsi idi. Tezliklə bu məktəb də bağlanmalı oldu. İkincisi, yenə də həmin ilin sentyabr ayında Loğmanülmülk tərəfindən təsis olunan “Loğmaniyyə mədrəsəsi” idi. Əvvəlkilərdən fərqli olaraq “Loğmaniyyə mədrəsəsi” tam orta məktəb kimi təşkil edilmişdi və burada demək olar, orta məktəb kursuna daxil olan bütün fənnlər tədris edilirdi. Burada dini dərslərlə yanaşı, fars ədəbiyyatı, tarix, coğrafiya, riyaziyyat, fizika, kimya, təbiətşünaslıq, əczaçılıq, rəssamlıq, habelə fransız, ingilis, rus və ərəb dilləri tədris olunurdu. Lakin 1903-cü ildə bu məktəb də irticaçılar tərəfindən talan edilib bağlandı və yalnız 1905-ci ildə bərpa edildi.

90-cı illərdə Təbrizdə yeni tipli məktəblər yaratmaq sahəsində daha bir neçə təşəbbüs edilmişdi. Lakin bunların da çoxu mövcud istibdad quruluşu və irticaçı ruhanilərin təqibləri şəraitində çox davam edə bilməmiş ya da həmin səbəblər üzündən tezliklə öz şəklini dəyişib, köhnə məktəbxanalara çevrilmişdi.

Yeni məktəblər açmaq işində bütün qüvvələri birləşdirmək, bu işi daha əsaslı surətdə təşkil etmək üçün Azərbaycan maarifpərvərləri də, Tehranda olduğu kimi, xüsusi “Maarif əncüməni”

yaratdılar (1900). Lakin hər cur təşəbbüsə, o cümlədən elmi və ya maarif cəmiyyətlərin yaranmasına şübhə ilə baxan Qacarlar hakimiyyəti şəraitində bu əncümən də məhdud şəkildə gizli fəaliyyət göstərirdi.

Bütün İranda olduğu kimi, Azərbaycanda da yeni məktəblərin təsis edilməsi və ümumiyyətlə yeni maarifin, yeni mədəniyyətin inkişaf etdirilməsi çox böyük çətinlik və maneələrlə üzləşirdi. Tamamilə çürümüş Qacarlar dövləti, onun liberal ruhlu tək-tək xadimləri istisna olunarsa, maarif işinə heç bir maddi və inzibati yardım göstərmirdi. Hər hansı bir yeniliyə qarşı çıxan irticaçılar, hələ də geniş xalq kütlələri üzərində öz nüfuzunu saxlamış təəssübkeş ruhanilər, yeni maarif işinə güclü müqavimət göstərir, bunun islama zidd olduğunu iddia edirdilər. Sayca az və iqtisadi cəhətdən zəif olan burjua təbəqələrinin əksəriyyəti isə passiv idi. Yuxarıda göstərilən bir neçə məktəbin açılması və qısa müddətli fəaliyyəti ayrı-ayrı vətənpərvər ziyalı və tacirlərin səy və xərcləri, məhdud xeyriyyə vəsaiti sayəsində mümkün olmuşdu. XIX əsrin axırlarında maarif sahəsində yenilik təşəbbüslərinin zəifliyi də bunlardan irəli gəlirdi. Buna görədir ki, həmin tədbirlər məhdud dairədən çıxmadı, ancaq Təbrizdə olub, əsasən ibtidai məktəb səviyyəsindən yuxarı qalxmadı, qız təhsilinə isə əslində heç başlanılmadı. Başqa sözlə bu dövr maarifin ümumi vəziyyətində az-çox mühüm dönüş yarada bilmədi. Bunun üçün şərait bir qədər sonra, ümumi ictimai-siyasi yüksəliş, 1905-1911-ci illər inqilabı gedişində meydana gəldi.

Cənubi Azərbaycan və ümumiyyətlə İranın bütün mədəni təkamülündə olduğu kimi, burada maarifin də inkişafına 1905-1911-ci illər inqilabı böyük təsir göstərdi. Bu təsir, hər şeydən əvvəl, onda idi ki, inqilabın gedişi və nəticəsində yeni, əsasən burjua (və müəyyən mənada burjua-demokratik) ictimai-siyasi ideyalarının yayılması, qismən isə həyata da keçirilməsi şəraitində indi elmi təhsilin, müasir maarif sisteminin yaradılması uğrunda təbliğat aparmaq, bunun zəruriliyini sübut etmək arxa plana keçmişdi, artıq bu tələbləri əməli surətdə həyata keçirmək uğrunda mü-

barizə mərhələsi başlanmışdı. Əgər hələ yaxınlaradək dini-mövhumatçı dünyagörüşünün təsiri, ruhanilərin hərtərəfli nüfuzu altında olan cəmiyyətin (şəhər əhalisinin) böyük əksəriyyəti içərisində müasir təhsil məfhumunun özü belə laqeydliklə və ya hətta açıq düşmənçiliklə qarşılanırdısa, indi buna ümumi münasibət, ifrat mürtəce ünsürlər istisna olmaqla (məsələn, Şeyx Fəzlulla və onun tərəfdarları) əsaslı surətdə dəyişmişdi. İnqilab illərində meydana çıxan çoxlu qəzet və ya müxtəlif dövlət idarələri və siyasi təşkilatlar bir yana qalsın, hətta məscid minbərlərindən də müasir bilik və təhsil əleyhinə çağırışlar daha səslənmirdi (qadın təhsili məsələsi buraya daxil deyildir).

Başqa bir yeni cəhət bunda idi ki, inqilab dövründə və ondan sonra bütün ölkədə olduğu kimi, Cənubi Azərbaycanda da maarif sahəsi getdikcə daha artıq dərəcədə dövlətin və onun yerli orqanlarının rəhbərliyi altına keçirdi. Doğrudur, bu dövrdə də məktəblərin əksəriyyəti xüsusi təşəbbüs sayəsində, xeyriyyə vəsaiti hesabına təsis olunur və fəaliyyət göstərirdi. Lakin həmin məktəblər bu və ya digər dərəcədə dövlətin maarif orqanlarının nəzarəti altında idi. Əlbəttə, bunu da nəzərə almaq lazımdır ki, yeni parlamentar quruluş və onun müxtəlif orqanları, o cümlədən maarif təşkilatları bütün bu dövr ərzində hələ möhkəm kök salmamış, vahid bir sistem şəklini almamışdı, xeyli dərəcədə formal idi. Buna görə maarif sahəsinin inkişafı da əsasən yarımmuxtar yerli hakimiyyətlərin fəaliyyətindən, onun xarakterindən asılı idi. Məsələn, inqilab dövründə Cənubi Azərbaycanda, xüsusən Təbrizin özündə maarifin inkişafına inqilabi Təbriz əyalət əncüməni və ikər şəhər əncümənləri istiqamət verirdi. İnqilab yatırıldıqdan sonra mərkəzi hakimiyyət bütün maarif sahəsi üzərində tamamilə öz nəzarətini qurmağa çalışsa da, tezliklə başlanan birinci dünya müharibəsi gedişində İran ərazisinin hərbi əməliyyat meydanına çevrilməsi, əslində bütün ölkənin bir-birilə zəif bağlı olan rayonlara parçalanması bu prosesi dayandırdı.

Nəhayət, bu dövrdə və əsasən inqilab dövründə Azərbaycanda maarifin inkişafının daha bir xüsusiyyəti onda olmuşdur ki, bu

sahə xüsusən Təbrizdə, ən fəal siyasi mübarizə meydanına çevrilmişdi. Təbriz üsyanı kedişində həm inqilabi, həm də əksinqilabi qüvvələrin sıralarında məktəb, mədrəsə şagirdlərinin və tələbələrinin (tüllabların), müəllim və müdərrislərinin rolu az olmamışdır – onlar nümayiş və mitinqlərdə iştirak edir, əldə silah vuruşurdular. Bir qayda olaraq yeni tipli məktəblərin şagird və müəllimləri mütərəqqi, konstitusiyaçı cəbhəyə, köhnə dini məktəb və mədrəsələrin tələbə və müdərrisləri isə irtica cəbhəsinə qoşulurdu. Məhz buna görədir ki, inqilab illərində irticaçılar hücuma keçdiyi vaxt ilk zərbələrdən birini yeni tipli məktəblərə endirir, onları talan edir, müəllimlərini öldürürdülər.

Cənubi Azərbaycanda ictimai-siyasi inkişafın, inqilabi hərəkatın mərkəzi Təbriz maarifin dirçəlişində də təşəbbüskar rol oynayırdı. İnqilab başlandıqdan az sonra burada meydana gələn yerli inqilabi hakimiyyət – əyalət əncüməninin fəaliyyəti ilə əlaqədar olaraq Təbrizdə əvvəl "məhəllə maarif əncümənləri" yaradıldı. Bunlar ayrı-ayrı ziyalılar və ya qruplar tərəfindən xüsusi "xalq məktəblərinin"[686] təsis olunması və gündəlik fəaliyyətinə kömək edir, onlara maddi və mənəvi yardım göstərirdi. Bu əncümənlərin köməyilə bir neçə il ərzində Təbrizdə onlarla belə məktəb açıldı. Doğrudur, bunların xeyli hissəsi kiçik vəsaiti, imkanları məhdud olan məktəblər idi, bir çoxları tezliklə bağlanırdı. Buna görə Təbrizdə və bütün əyalətdə məktəb işinə rəhbərlik üçün "Azərbaycan maarif əncüməni" təşkil olundu ki, bu da 1913-cü ilədək Azərbaycanda mövcud olmayan dövlət maarif idarəsi vəzifəsini ifa edirdi.

"Azərbaycan maarif əncüməni" Təbrizdə və bütün əyalətdə yeni məktəblərin açılmasına çalışmaqla bərabər, məktəb təhsilinin keyfiyyətinin yaxşılaşdırılmasına, yeni tədris üsullarından istifadə edilməklə, müasir tələblərə uyğun səviyyəyə qaldırılmasına xüsusilə böyük diqqət yetirirdi. Bu məqsədlə ən əvvəl xırda və az səmərəli məktəblərin birləşdirilməsinə təşəbbüs edildi. Misal üçün Təbrizdə "Firdovsi", "Müsavat" və "Məcd" məktəbləri iri

[686] Bunlar Cənubi Azərbaycanda "milli məktəblər" adlanırdı.

"Müttəhid" məktəbində birləşdirildi, "Növbər", "Rüşd və Qüds", "Qüdsiyyə", "Rüşdiyyə" məktəbləri əsasında "İttihade-növbər" adlı bir məktəb yaradıldı. Əncümən dərs keyfiyyətini qaldırmaq üçün yeni dərsliklər hazırlamağa, tədris proqramını təkmilləşdirməyə də diqqət yetirirdi. Onun təşəbbüsü ilə 1905-ci ildə İranın Maarif Nazirliyi tərəfindən ibtidai məktəblər üçün tərtib olunmuş ağır, qeyri-münasib tədris proqramı rədd edildi.

"Azərbaycan maarif əncüməninin" ən böyük xidmətlərindən biri də Azərbaycanda ana dilində təhsilə keçmək, yəni bütöv bir xalqa öz mədəniyyətini doğma dildə inkişaf etdirmək üçün ən mühüm şərti həyata keçirmək təşəbbüsü olmuşdur. Əgər 1905-ci ilədək bu işi yalnız Mirzə Həsən Rüşdiyyə və başqaları aparmağa çalışmışdısa, indi bunun geniş, milli miqyasda həyata keçirilməsi üçün ilk təşəbbüs göstərilirdi. Bunda, ən əvvəl, Şimali Azərbaycanın təcrübəsinin fövqəladə təsiri olmuşdur: çar Rusiyasında milli mədəniyyətlərin inkişafına mane olan sədlərə, çarizmin müstəmləkəçilik siyasətinə baxmayaraq, Şimali Azərbaycanda demokratik milli ədəbiyyat, doğma dildə təhsil, mətbuat yaranmış və inkişaf edirdi. 1905-1911-ci illər inqilabı dövründə Şimali Azərbaycanın Cənubi Azərbaycanla əlaqələrinin daha da artması labüdən burada da milli hissləri qüvvətləndirir, o cümlədən ana dilində təhsilin lazım və mümkün olduğunu əyani surətdə göstərirdi. Artıq inqilabın ilk günlərindən ana dilinin tədrisi mühüm bir məsələ kimi qarşıya qoyuldu, getdikcə bu məsələ daha geniş şəkildə, bütün fənnlərin ana dilində aparılması tələbinə çevrildi.

Bu işdə də Cənubi Azərbaycanın inqilabçıları mühüm rol oynadılar. İnqilabın ən qızğın vaxtında, Təbriz üsyanı günlərində Azərbaycanın xalq qəhrəmanı Səttarxan doğma ana dilinin tədrisinə xüsusi diqqət yetirərək, bu dili yüksək səviyyədə təlim edən müəllimlər arasında yarış təşkil etdirmiş və həmin dili yaxşı mənimsəyə bilən şagirdləri mükafatlandırmaq məqsədilə xüsusi qızıl medal təsis etmək haqqında göstəriş vermişdi.[687]

---

[687] Bax: "Azərbaycan" jurnalı (*əski əlifbada*), Bakı, iyun 1946, No 7.

İnqilab illərinin ümumi çətinliklərinə, müvafiq təcrübənin, Azərbaycan dilində dərsliklərin olmamasına baxmayaraq, dərslərin ana dilində aparılması təşəbbüsləri xüsusi "xalq məktəblərində" getdikcə daha geniş yayılırdı. Fars dilindəki dərsliklərdən istifadə edən müəllimlər fənnləri şagirdlərin başa düşdükləri ana dilində izah edirdilər. Lakin inqilabın məğlubiyyətindən sonra irtica qaydalarının bərpası bu mütərəqqi prosesi də dayandırdı.[688]

Azərbaycanda maarifin inkişafında həmin mərhələnin xüsusiyyətlərindən biri də yeni tipli "xalq məktəblərinin" Təbriz dairəsindən kənara çıxması və digər şəhərlərə, bəzi qəsəbələrə də yayılmasıdır. Belə ki, 1907-ci ildə Urmiya, Xoy, Marağa, 1908-ci ildə Ərdəbil, Mərənd, 1909-cu ildə Xalxal, Astara və s. şəhərlərdə bir sıra xalq məktəbləri təsis edilmişdi. Ümumiyyətlə inqilab illərində Azərbaycanda 50-dən artıq yeni məktəb təsis edildi.[689]

Maarif sahəsində bütün bu dəyişikliklər, demək olar ki, tamamilə xüsusi şəxslərin vəsaiti, xeyriyyə məqsədilə toplanan pul və yerli əncümənlərin yardımı sayəsində həyata keçirilirdi. Mərkəzi hakimiyyətin maarif sahəsinə ayırdığı vəsait isə hətta ən məhdud xərclərə də çatmırdı. 1907-ci ildən, yəni milli məclis tərəfindən dövlət büdcəsi tərtib olunduğu zamandan başlayaraq bütün İranın maarifinə ildə cəmi 100 min tümən ayrılırdı ki, bu da, əlbəttə, ən cüzi tələbatı belə ödəmirdi. Bu azacıq vəsait də əsasən, maarif nazirliyinin özü və onun yerlərdə yaranan aparatına xərclənirdi. Buna görə də, hər yerdə olduğu kimi, Azərbaycanda da dövlət məktəbləri yox dərəcəsində idi. 1910-cu ildə İran hökuməti tərəfindən maarif nazirliyinin vəzifələrinə dair verilən yeni qanuna görə. Azərbaycan, Xorasan, Kirman və Fars əyalətlərinin hər birinin mərkəzində bir, Tehranda isə 5 dövlət məktəbi təsis edildi. Əyalət

---

[688] Cənubi Azərbaycan xalqının öz milli maarifini inkişaf etdirmək yolunda ikinci təşəbbüsü 1945-1946-cı illərdəki demokratik hərəkat dövründə edildi. Milli hökumət məktəbləri ana dilində tədrisə keçməyə, müvafiq kadrlar və dərsliklər hazırlamağa başladı. Təbrizdə Universitet təsis etdi. Lakin bütün İranda milli-azadlıq hərəkatı boğulduqdan sonra hakim siniflər yenidən bu nailiyyətləri məhv etdilər.

[689] Bax: «Azərbaycan» qəzeti, 26 avqust, 1963-çü il.

məktəblərinin hər birinə ildə 2400 tümən, Tehran məktəblərinin hər biri üçün 3000 tümən vəsait ayrılırdı.[690] Eyni zamanda həmin qanuna görə bu 4 əyalət mərkəzində maarif idarələri təsis edilməli idi. Azərbaycanda maarif idarəsini təşkil etmək üçün 1913-cü ildə buraya Abbas Əlaülmülk göndərildi. O, Təbrizdəki "Fyuzat" məktəbini dövlət məktəbi elan edərək ona 2400 tümən büdcə müəyyən etdi. Lakin maarif idarəsinin, hətta özünün təşkili üçün vəsait belə yox idi. Buna görə Abbas Əlaülmülk maarif işlərini maddi cəhətdən təmin etmək, dövlət məktəblərinin sayını artırıb, xalq məktəblərinə maddi yardım göstərmək məqsədilə ticarət mallarından müəyyən miqdar vergi alınmasını və həmin gəlir vasitəsilə "Hikmət", "Təməddün" "Rüşdiyyə" və "Nobər" məktəblərinə maddi yardım göstərilməsinə çalışırdı.[691]

Beləliklə, dövlətin, onun maarif orqanlarının bu sahədəki rolu əsasən metodiki göstərişlər vermək, dərs proqramları hazırlamaq, bəzi dərsliklərin çapını təşkil etmək, yoxlama və imtahanlar keçirməklə məhdudlaşırdı. Birinci dünya müharibəsi başlandıqdan sonra isə onların bu fəaliyyəti də əslində dayandırılmış oldu.

Müharibə illərində Azərbaycanda maarif işi yalnız ayrı-ayrı şəhərlərdə (başlıca olaraq Təbrizdə) yerli orqanların və əhalinin özünün vəziyyətdən asılı olaraq (yəni bir sıra rayonların, o cümlədən Təbrizin rus-türk orduları arasında müharibə meydanına çevrilməsi, dəfələrlə əldən-ələ keçməsi şəraitində) məktəblərin heç olmazsa bir hissəsini qorumağa, onların fəaliyyətini davam etdirməyə yönəldilmişdi. 1916-cı ildə maarif idarəsinin təşəbbüsü və bir neçə qabaqcıl məktəb müdirinin iştirakı ilə "Azərbaycan maarif əncüməni"ni əvəz edən yeni "Maarif şurası" yaradıldı. Bu şura mədəni-maarif sahələrinə aid məsələləri müzakirə edir, istər xalq, istərsə də dövlət məktəblərinə metodik göstərişlər verirdi.

Qeyd etmək lazımdır ki, bütün deyilənlər yalnız oğlanların təhsilinə aid idi. Qızların təhsili məsələsində ruhanilər və təəssüb-

---

690 Bax: Hüseyn Ümid, 1c., səh.145.
691 Bax: Yenə orada, səh.152.

keş mürtəce ünsürlər xüsusilə barışmaz mövqedə durur və hər vasitə ilə qızların yeni tipli məktəblərdə oxuması işinə müqavimət göstərirdilər. İnqilab başlandıqdan sonra Azərbaycanda və ümumiyyətlə İranda maarifpərvərlər, demokratik xadimlər bu məsələdə ehtiyatla hərəkət etməli idilər. Misal üçün, "Əlhədid" qəzetində müasir təhsilin qızlar üçün də zəruri olması haqqında bir neçə məqalə ilə çıxış edən görkəmli maarifpərvər Mirzə Hüseynxan Ədalət ruhanilərin və təəssübkeşlərin təqibinə məruz qaldı, yalnız Təbrizi tərk etməklə ölüm təhlükəsindən xilas oldu. Lakin qız məktəblərinin təsisi uğrundakı mübarizə davam edirdi. İran inqilabı gedişində, xüsusilə Təbriz üsyanında qadınların da getdikcə fəal iştirakı, inqilab şəraitində labüdən ictimai və siyasi həyata qoşulması onların təhsil məsələsində də müəyyən canlanma doğurmaya bilməzdi. Bu işdə, savadlı (xaricilərin məktəblərində və ya xarici ölkələrdə) gözüaçıq qadınların böyük rolu olmuşdur. Məhz, belə iki qadın – Ələviyyə Piran və Fatimə Fərhəng 1912-1913-cü tədris ilində Təbrizdə "İffət" və "Fərhəng" adlı iki qız məktəbi təsis etdi. 1916-cı ildə isə "Duşizəqan" adlı daha bir qız məktəbi yaradıldı. Qızlara müasir təhsil vermək sahəsində atılan bu ilk addımlar, əlbəttə, çox məhdud xarakterdə idi. Əgər oğlan məktəbləri əsasən varlı təbəqələrdən olan uşaqların oxumasına imkan verməklə müəyyən dərəcədə aşağı təbəqələrin də uşaqlarını əhatə edirdisə və az-çox kütləvi xarakter daşıyırdısa, qız məktəblərində yalnız yuxarı və orta təbəqələrin uşaqları oxuyurdu.

Bəhs etdiyimiz dövrdə Cənubi Azərbaycanda ABŞ, Fransa, İngiltərə missionerləri tərəfindən hələ XIX əsrdə təsis olunmuş bir neçə məktəb də (Təbrizdə, Urmiyada, Xoyda) fəaliyyətdə idi. İnqilab illərində isə – Almaniya və Rusiya da burada məktəb açmışdılar;

Lakin bu məktəblərdə başlıca olaraq qeyri-müsəlman milli azlıqların (ermənilərin, aysorların) uşaqları oxuyurdu, yalnız Təbrizdə Rusiyanın təsis etdiyi və qafqazlı Yusif bəy Qazızadənin başçılıq etdiyi məktəbdə azərbaycanlı uşaqları təhsil alırdı.

Beləliklə, 1905-1911-ci illər inqilabı Cənubi Azərbaycanın, ümumiyyətlə bütün İranın mədəni həyatının müxtəlif sahələrində

olduğu kimi, maarif sahəsində də yeni keyfiyyət dəyişikliklərinin başlanması üçün mühüm təkan oldu. Bu mənada ən əhəmiyyətli dəyişiklik – köhnə, orta əsrlərdən qalma dini sxolastik təhsil formaları və prinsiplərinin öz mövqeyini itirməsi, yeni müasir maarifin bünövrəsinin qoyulması idi. Həmin dövrdə Cənubi Azərbaycanda 120-dək yeni tipli məktəb, o cümlədən bir neçə qız məktəbi təsis olunmuşdur.

Lakin Cənubi Azərbaycanda (İranda) bütün bunlar hələ heç də tam mənada milli maarif sisteminin yaranması demək deyildi. Hər şeydən əvvəl bu proses cəmiyyətin cüzi hissəsinin, əsasən şəhərlilərin yuxarı və orta təbəqələrini əhatə etmiş, əhalinin böyük əksəriyyətini təşkil edən kəndlilər isə, demək olar, tamamilə ondan kənarda qalmış, başdan-başa savadsızlığa məhkum edilmişdilər. Sonra, feodal istismarına, imperialist qarətkarlığına məruz qalan İran xalqlarının, o cümlədən Azərbaycan xalqının öz mədəniyyətini, maarifini inkişaf etdirməyə maddi imkanları yox idi. Konstitusiya elan edildikdən sonra parlamentar dövlət bu sahəyə müəyyən diqqət yetirməyə başlasa da, maliyyə böhranından çıxa bilməyən, həm də xeyli hissəsi mühafizəkar bürokratiyadan ibarət olan mərkəzi hakimiyyət maarifin inkişafına real bir kömək edə bilmirdi. İstismarçı siniflərin ən varlı hissəsini təşkil edən feodal-mülkədarların, ruhanilərin, dövlət məmurlarının xalq maarifinə laqeyd olduğu bir şəraitdə yalnız ayrı-ayrı xeyirxah tacirlərin, ziyalıların, xeyriyyə cəmiyyətlərinin vəsaiti hesabına az-çox əsaslı maarif sistemi yaratmaq mümkün olmazdı. Maddi cəhətdən ağır vəziyyətdə olan zəhmətkeş kütlələr isə bu sahəyə nə müstəqim, nə də qeyri-müstəqim xərc çəkmək iqtidarında deyildi. Məhz buna görədir ki, milli maarif nöqteyi-nəzərindən əsla kifayət olmayan həmin 120 məktəbin də əksəriyyəti çox tez bağlanırdı. Bunların çoxu kiçik, başlıca olaraq ibtidai təhsil verən, dərs vəsaiti, avadanlığı aşağı səviyyədə olan məktəblər idi, müəllimlər isə ziyalıların ən kasıb, aşağı təbəqəsini təşkil edirdi.

Bütün, bu mənfi cəhətlər İran inqilabı boğulduqdan, hakimiyyət başına mürtəce ünsürlər gəldikdən və xüsusilə dünya müharibəsi başlandıqdan sonra özünü daha qabarıq şəkildə göstərdi və

inqilab sayəsində başlanmış milli maarifin yaranması prosesinin o zamankı şəraitdə normal inkişafını qeyri-mümkün etdi.

## 2. ÇAP İŞİ VƏ MƏTBUAT

Feodal mədəniyyətinə nisbətən daha qabaqcıl, yəni eyni zamanda, daha kütləvi xüsusiyyət daşıyan burjua mədəniyyətinin inkişafı uçün vacib olan ən mühüm amillərdən biri – çap işi Azərbaycanda XIX əsrin birinci rübündə yaranmışdır. Mətbəə çapının nə dərəcədə faydalı və lazımlı olduğunu bu zaman üçün Azərbaycanda həm Avropa dövlətlərinin (Fransa, Rusiya, İngiltərənin) mədəniyyəti ilə ilk tanışlıqdan, həm də, şübhəsiz, bəzi müsəlman ölkələrində (Türkiyədə, Misirdə, Livanda) bu iş tətbiqindən bilirdilər.

Təbrizdə 1817-ci ildə litoqrafiya (daş çapı) mətbəəsinin təsis edilməsilə təkcə Cənubi Azərbaycanda deyil, bütün İranda çap işinin əsası qoyuldu. Bu ilk mətbəə Abbas Mirzənin təşəbbüsü ilə məşhur mədəniyyət xadimi və çap sənətinin mahir ustası Ağa Zeynalabdin Təbrizinin[692] səyi ilə yaradılmışdı. Mətbəədə ilk çap kitabı olan "Fəthnamə" adlı tarix əsərinin dərc olunması ilə İranda müasir kitab nəşrinə başlandı.

Az sonra, 1822-1823-cü illərdə yenə də Təbrizdə daha iki litoqrafiya mətbəəsi işə salındı. Mətbəənin əsası ilk dəfə Azərbaycanda qoyulduğuna və çap sənəti məhz burada inkişafa başlayıb ölkənin digər yerlərinə yayıldığına görə bütün İranda uzun müddət mətbəə "basmaxana", çap işilə məşğul olan sənətkarlar isə "basmaçı" adlandırılırdı.[693]

Bütün bu mətbəələr üçün lazım olan avadanlıq Rusiyadan gətirilmişdi və rus mütəxəssisləri Azərbaycan çapçılarının ilk müəllimləri idilər. Abbas Mirzənin sərəncamı ilə Mirzə Cəfər Təbrizi

---

692 "Kave" jurnalı, No 5, 9 May 1921-ci il.

693 Eduard Braun. Tarix-e mətbuat və ədəbiyyat-e İran dər doure-ye məşrutiyyət (*Məşrutə dövründə İranın mətbuat və ədəbiyyat tarixi*), cild 2, Tehran, 1337/1958, səh.127

və Mirzə Əsədulla adlı iki nəfər azərbaycanlı 1822-ci ildə Peterburqa göndərilmiş, orada çapçılıq sənətinə yiyələnmiş və lazımi avadanlıq alaraq qayıdıb həmin iki litoqrafiya mətbəəsini açmışdılar. Sonrakı illərdə də İranda çap işinin genişlənməsi Rusiya ilə əməkdaşlıq sayəsində müvəffəqiyyətli olmuşdur. Beləliklə, XIX əsrin 30-40-cı illərində Təbriz, habelə Urmiya, Ərdəbil, Xoy və bəzi digər şəhərlərdə də bir neçə mətbəə açılmışdı.

Qısa bir müddət ərzində Azərbaycan mətbəəçiləri nəşriyyat və çap işində bütün İran miqyasında elə böyük şöhrət qazanmışdılar ki, ölkənin başqa şəhərlərində mətbəə açmaq, kitab nəşrini təşkil etmək üçün onları dəvət edirdilər. Məsələn, Ağa Zeynalabdin Təbrizi Tehranda Fətəli şahın göstərişi ilə bir sıra əsərləri nəşrə hazırlayıb çap etmiş,[694] İsfahanda ilk mətbəəni qurub işə salmışdı. Öz dövrünün elm və biliklərinə, xarici dillərə yaxşı bələd olan Xoylu Mirzə Cabbar Təzkirəçi (Nazimülmüham)" Tehranda mətbəə açmış, Tehran qəzetləri üçün Avropada elm, mədəniyyət və sənaye yeniliklərinə aid materiallar tərcümə etmiş, bütün İranda ilk publisist və nəşriyyatçılardan biri olmuşdur.[695]

XIX əsrin ikinci yarısında da Azərbaycanda bir neçə yeni mətbəə təşkil olundu. Lakin çapxanaların sayının nisbətən çox olmasına baxmayaraq, bunlar yenə də əsasən xırda, əl əməyi ilə işləyən, qabaqcıl Avropa ölkələrindəki mətbəələrdən texnika cəhətdən müqayisə edilməyəcək dərəcədə zəif olan və əsasən hüruf mətbəələri deyil, litoqrafiya çapxanaları idi – bunlarda çap olunacaq mətn əvvəlcə xəttat tərəfindən yazılmalı və sonra çapa keçirilməli idi. Çapxanaların çoxusunun avadanlığı köhnəlmiş, yeni texnika isə, demək olar, gətirilmirdi. Buna görə çap edilən kitabların və sonralar, qəzetlərin əksəriyyətinin keyfiyyəti xüsusən tiraj bir qədər artdıqda (adətən, tirajlar 500-600-dən yuxarı deyildi), çox pis olur, mətn çətin oxunur, şəkillər aydın görünmürdü.

Bütün İranda olduğu kimi, Cənubi Azərbaycanda da kitab nəşrinin istiqaməti, yəni nə kimi kitabların, sonralar isə həmçinin qəzetlərin çap olunması daha çox hakim siniflərin tələblərinə tabe

---

[694] "Kave" jurnalı, No 5, 1921, səh.12.
[695] Yenə orada, No 6, 1921, səh.14.

etdirilmişdi. Doğrudur, İranda bütün XIX əsr boyunca nəşriyyat işlərinə ölkə miqyasında nəzarət və rəhbərlik edən orqan, senzura olmamışdır.[696] Lakin həm dövlət mətbəələrinin, həm də xüsusi çapxanaların buraxdığı kitabların mündəricəsi yerli hakimiyyət orqanlarının, ruhanilərin ciddi nəzarəti altında idi və hakim ideologiyaya, siyasi quruluş və dini ehkamlara zidd olan ədəbiyyatın buraxılması əslində mümkün deyildi, hər hansı belə bir təşəbbüs isə naşir üçün "kafirlik" və "babilik" kimi ağır ittiham və cəza ilə nəticələnə bilərdi.

Azərbaycanda çap işinin ilk dövründə burada əsasən klassik Şərq poeziyası və filologiyası nümunələri (Sədinin "Gülüstan"ı, Firdovsinin "Şahnamə"si, Mirzə. Əbdülkərim Təbrizinin "Burhane-came" adlı fars dili lüğəti, bir sıra təzkirələr), tarix əsərləri (Əbdürrəzzaq Dunbulinin Qacarlar tarixinə həsr olunmuş "Tarixe-moasere-soltani" adlı kitabı), başlıcası isə müasir elmi biliklərdən uzaq kitablar dini-sxolastik ədəbiyyat, mədh ədəbiyyatı nəşr olurdu.

Bununla yanaşı, həmin dövrdə nəşriyyat sahəsində bəzi müsbət cəhətlər də olmuşdur. Əvvəla, 1850-1852-ci illərdə Füzulinin, XIX əsr Azərbaycan şairi Nəbatinin, 1855-ci ildə isə XVI əsrin məşhur din xadimi Əhməd Fazil Ərdəbilinin Azərbaycan dilində yazmış olduğu "Əqaide-İslam" adlı dini tarix əsərinin (bu kitab, dini məzmununa baxmayaraq, orta əsrlər Azərbaycan yazılı nəsr dilinin ən nadir və qiymətli abidələrindən biridir) buraxılması ilə ilk dəfə Azərbaycan dilində kitab nəşrinə başlanır. İkinci müsbət

---

[696] Nəsrəddin şahın səthi inzibati islahatları gedişində 1873-1882-ci illərdə Məhəmməd Həsən xan Etimadüssəltənənin rəhbərliyi altında "Tərcümə və nəşretmə idarəsi" (sonralar "vəzarət" - nazirlik) və onun nəzdində hətta xüsusi senzura şöbəsi yaradılırsa da bunlar ölkə miqyasında nəşriyyat işlərinə rəhbərlik və nəzarət edən həqiqi bir orqan olmayıb, əsasən şahın şəxsi göstərişləri ilə müəyyən kitabları tərcümə və nəşr edir, mərkəzi dövlət qəzetlərini ("Ettelaat", "İran") buraxır, rəsmi sənəd və fərmanlar çap edirdi). İranda XIX əsrdə mətbəələr və onların buraxdıqları kiqablar haqqında ətraflı məlumat üçün bax: О.П.Щеглова. Иранская литографированная книга, М.,1979.

cəhət məşhur dövlət xadimi Mirzə Tağı xan Əmir Kəbirin islahatları ilə əlaqədardır. O, hələ Təbrizdəki hərbi-siyasi fəaliyyətinin (1829-1848) son illərində dəqiq elmlərə dair bəzi yeni kitabların tərcümə və nəşrinə təşəbbüs göstərmiş,[697] baş nazirliyi zamanı isə "yeni elmlərə aid müxtəlif kitabların çap olunub yayılmasına çox böyük rəğbət və tükənməz səylə çalışmışdır... bir çox kitablar onun fərmanı ilə yazılmış, tərcümə olunmuş və çap edilmişdir".[698] Bunlar içərisində, 1851-1852-ci illərdə fransız dilindəki bir neçə kitabın mündəricəsi əsasında tərtib edilmiş 288 səhifəlik coğrafiya kitabını, bir neçə xəritə, Volterin "Böyük Pyotr", "On ikinci Karl" və ingilis yazıçısı Kempbelin "Böyük İskəndər" adlı tarixi-bioqrafik əsərlərini göstərmək olar.

1851-ci ildən, yəni Əmir Kəbir iş başından kənar edildikdən və öldürüldükdən, onun başladığı islahatların əksəriyyəti isə dayandırıldıqdan sonra bütün İranda feodal irticası qüvvətləndiyi bir şəraitdə kitab çapı sahəsində də mənfi təmayüllər artır: dini-sxolastik, mədh ədəbiyyatı, məddahçı tarix əsərləri nəşr olunan kitabların əksəriyyətini təşkil edir. Şərq ölkələrində, xüsusilə qonşu İran və Turkiyədə ictimai-siyasi və mədəni proseslərlə yaxından maraqlanan M.F.Axundov məhz bu dövrdə İranda, o cümlədən Cənubi Azərbaycanda kitab nəşretmə işini kəskin tənqid etmiş, öz qiymətli məsləhətlərilə çap sənəti və nəşriyyatın inkişaf yollarını göstərmişdir. M.F.Axundov özünün məşhur Kəmalüddövlə məktublarında mətbəələrin ölkənin elmi və mədəni tərəqqisi üçün mühüm vasitə olduğunu qeyd edərək, onları genişləndirib təkmilləşdirməyi məsləhət görürdü. M.F.Axundov İranda kitab nəşrini məzmunca yaxşılaşdırmaq və mütərəqqi istiqamətdə inkişaf etdirmək yollarını da göstərir, dini-sxolastik, uydurma və əfsanəvi "məlumatlarla" dolu olan kitablar deyil, elmi, texniki ədəbiyyatın nəşr olunmasını məsləhət görürdü.

Cənubi Azərbaycanda kitab nəşrinin yeni mərhələsi 70-ci illərin axırları 80-ci illərdən başlanır ki, bu da çap olan kitabların

---

[697] Feridun Adəmiyyət. Əmir Kəbir və İran, Tehran, 1333/1954, səh.179
[698] Yenə orada, səh. 179-180.

məzmunca yaxşılaşması, müasir dövrün tələbatına yaxınlaşması ilə səciyyəvi idi. Belə bir dönüşü doğuran bilavasitə amillər – yaranmaqda olan burjua ziyalılarının maarifçi fəaliyyətinin (həm məktəb təhsili, həm də elmi-populyar bilikləri yaymaq sahəsində) qüvvətlənməsi, habelə Qərblə, ilk növbədə Rusiya ilə mədəni əlaqələrin genişlənməsindən ibarət idi. Belə bir cəhəti də qeyd etmək lazımdır ki, Qacar hakimləri hərbi-inzibati, diplomatik kadrlar hazırlamaq və bəzi başqa məqsədlər ilə əlaqədar olaraq bu zaman elmi biliklərin yayılmasına müəyyən dərəcədə yol vermək məcburiyyəti qarşısında qaldıqlarından belə kitabların nəşrinə açıq maneəçilik törətmirdilər.

80-90-cı illərdə ən əvvəl müxtəlif coğrafiya kitablarının nəşri artır. Avropa dillərindən tərcümə və ya bir neçə müvafiq kitab əsasında azərbaycanlı müəlliflər tərəfindən tərtib olunan bu kitablar köhnə coğrafiya əsərlərindən onunla fərqlənirdi ki, müxtəlif ölkələr, onların əhalisi, iqlimi və coğrafi şəraiti haqqında yarımuydurma deyil, elmi xarakterli statistik məlumat verir, iqtisadi coğrafiya və hətta primitiv şəkildə olsa da, siyasi-iqtisad problemlərinə toxunmağa başlayırdı. 90-cı illərdə Təbrizdə çap olunan belə kitablar içərisində Mirzə Rəfiəddin xanın "Coğrafiya elminin əsasları", "Əyləncəli coğrafiya", Mirzə Seyidəli xan Vüqarülmülk Təbrizinin bir sıra əsərləri və xüsusən, bu dövrun məşhur maarif xadimi, bir çox kitabların muəllifi Tərbiyyətin bütün İranda geniş şöhrət tapmış "İnsanlar və ölkələr" adlı əsərlərini göstərmək lazımdır.

80-90-cı illərdə Azərbaycanda milli şüurun oyanmağa başlaması öz vətəninin keçmiş tarixi və mədəniyyətinə, siyasi biliklərə marağın artmasında təzahür edərək kitab nəşrində də əksini tapır. Bu dövrdə Təbriz şəhərinin və Azərbaycanın tarixinə dair kitablar, habelə bəzi Azərbaycan şairlərinin (Raci, Xazin, Sərraf və b.) əsərləri doğma dildə çap olunur. Diqqətəlayiq faktlardan biri də Seyid Əzim Şirvaninin "Divan" və "Məsnəvi"sinin Təbrizdə nəşr olunması idi.

XIX əsrin 40-cı illərinin əvvəllərindən başlayaraq Urmiyada Amerika, İngiltərə, Fransa və çar Rusiyası missionerləri tərəfindən də mətbəələr açılmışdı.[699] Bunlarda ingilis, fransız, rus, fars və aysor dillərində əsasən xristian dinini təbliğ edən ilahiyyat kitabları çap olunurdu.

Azərbaycan mətbəələrinin fəaliyyəti və kitab nəşri öz məqsədinə və ideya-siyasi məzmununa görə obyektiv olaraq ümumiran miqyasında mədəni inkişafa kömək edirdi. Lakin eyni zamanda Cənubi Azərbaycanda kitab nəşrinin inkişafındakı ən zəif cəhət bunun, az istisna olmaqla, əsasən fars dilində aparılması idi.

Bir sıra başqa ölkələrdə olduğu kimi, İranda, o cümlədən Cənubi Azərbaycanda da mətbuat tarixi dövlət tərəfindən təsis edilən rəsmi qəzetlərin çıxması ilə başlanmışdır. 1851-ci ildə Əmir Kəbirin təşəbbüsü ilə İranda əslində ilk qəzet olan (Mirzə Salehin hicri 1253-cü ildə (1837/38) az müddətə nəşr etdiyi qəzet nəzərə alınmazsa) "Ruznameye-vəqayeye-ittifaqiyye" Tehranda nəşr olunmağa başladı. 1858-ci ildə Təbrizdə dərc olunmağa başlayan "Azərbaycan" qəzeti isə Azərbaycanda dövri mətbuatın ilk nümunəsi oldu. Rəsmi dövlət orqanı olan bu qəzetin nəşri "Əxbare-darüssəltəneye-Azərbaycan", "Ruznameye-məmləkəte-məhruseye-Azərbaycan" və "Ruznameye-melliye-məmləkəte-Azərbaycan" adları altında bir neçə il davam etmişdir. Lakin mətbuat məsələlərinə çox ehtiyatla, yalnız üz nüfuzunu möhkəmlətmək mövqeyindən yanaşan Qacarlar hakimiyyəti, onun yerlərdəki nümayəndələri qəzet nəşrinə diqqət yetirmir, kifayət vəsait ayırmırdı.[700] Buna görə sonrakı illər ərzində Təbrizdə rəsmi qəzet uzun fasilələrlə çıxmış, bunlar içərisində ən əhəmiyyətlisi 1893-1896-cı illərdə çap edilən "Nasiri" qəzeti olmuşdur.

Bütün bu qəzetlərin səhifələri birinci növbədə saray məlumatları ilə, şahın səyahət və ov səfərləri haqqında, vəliəhdin və

---

[699] Dini ədəbiyyat nəşr edən (erməni dilində) ilk mətbəə hələ XVII əsrdə Culfada (İsfahan yaxınlığındakı) təşkil olunmuşdur.

[700] Rəsmi qəzetlərin xərcini ödəmək üçün dövlət çox vaxt məmurları məcburi surətdə abunə etmək, bunlardan qəzet haqqı almaq və bu kimi vasitələrə əl atırdı.

başqa yüksək rütbəli məmurların “dövlət tədbirləri” haqqındakı xəbərlərlə doldurulurdu. Bütün bunlar hakimləri sonsuz tərif edən ibarəpərdazlıq şəklində tərtib olunur və oxucuya çox az məlumat verirdi. Yerlərdən nadir hallarda verilən xəbərlər də əsasən eyni dərəcədə mənasız olurdu. Bu qəzetlərin xarici ölkələrdən məlumatları da çox vaxt eynilə mənasız, həmin ölkələrin əsl həyatını, başqa dövlətlərin siyasətini (o cümlədən İrandakı siyasətini) izah etməyən müxtəlif, möcüzəli xəbərlərdən ibarət olurdu. 1874-cü ildə İranı gəzmiş rus səyyahı P.Oqorodnikovun Astrabadda bu tipli qəzetlərdən gətirdiyi belə bir məlumat səciyyəvidir: “Rusiya. Sevastopol haqqında. İngilis jurnalistləri Sevastopolun silahlanmasından təşvişə düşmüşlər. Bununla əlaqədar olaraq “Tayms” qəzetinin redaktoru fəryad qoparıb, o isə fövqəladə ağıllı adamdır”.[701]

Bütün bunlarla yanaşı həmin ilk qəzetlərin çıxmasının da o zamankı şəraitdə müəyyən obyektiv müsbət cəhəti olmuşdur. Bu qəzetlər orta əsrlər feodal zehniyyətinin və dini fanatizmin hökm sürdüyü şəraitdə, cəhalətpərəst ruhanilərin qəzet oxumağı “haram və günah” əməl saydıqları bir zamanda çıxırdı. Belə bir şəraitdə mətbuatın yayılması, məzmunundan asılı olmayaraq İranın ictimai-mədəni həyatında yeniliyə doğru bir addım olub gələcək mütərəqqi mətbuatın yaranmasına müəyyən zəmin hazırlayırdı.

Cənubi Azərbaycanda əsl, yəni məhdud şəkildə olsa da, ictimai fikri əks etdirməyə çalışan mətbuat yalnız 80-ci illərdən, xüsusi qəzetlərin çıxması ilə başlandı. Şah hökuməti uzun müddət xüsusi qəzetlərin çıxması və öz rəsmi orqanlarından başqa digər (ilk növbədə xarici) qəzetlərin ölkədə yayılmasına, xüsusilə mürtəce ruhanilərin vasitəsilə mane olurdu. 1863-cü ildə şahın xüsusi fərmanı ilə belə qəzetlər “xalqı düzgün yoldan azdıran vərəqələr” elan olunmuş, onların yayılması isə qəti qadağan edilmişdi. Lakin vaxt keçdikcə şah hökuməti bu məsələdə də öz mövqeyini dəyişməli oldu; gizli qəzet nəşrinin yayılmasının qarşısını almaq və eyni zamanda hökumət və ruhanilərin nəzarəti altında olan “azad”

[701] П.Огородников Очерки Персии, СПб, 1878, səh.29.

qəzetlərdən üz nüfuzunu möhkəmlətmək üçün istifadə etmək məqsədilə onların məhdud nəşrinə yol verdi. Beləliklə, Cənubi Azərbaycanda ilk xüsusi qəzetlər - 1880-ci ildə "Təbriz" qəzeti və 1884-cü ildə "Mədəniyyət" qəzeti nəşr olundu.

Mövcud siyasi quruluş şəraitində bu ilk xüsusi qəzetlər də, əlbəttə, ölkədəki ictimai ədalətsizliyi, hakim təbəqələrin özbaşınalıq və qəddarlığını, xalq kütlələrinin acınacaqlı vəziyyətini olduğu kimi işıqlandıra bilməzdilər. Buna görə onların da ölkənin daxili həyatı haqqındakı məlumat və xəbərləri yuxarıda qeyd olunandan çox da fərqlənmirdi. Digər tərəfdən, bütün bu bəlaları aradan qaldırmaq üçün başlıca yolu müasir bilik və mədəniyyətə yiyələnməkdə görən maarifçilik ideyalarının hakim olduğu bir zamanda qəzetlər də özündə belə bir təmayülü əks etdirirdi. Odur ki, "Təbriz" və "Mədəniyyət" qəzetləri də əsas diqqəti yeni maarif və mədəniyyət ideyalarını yaymağa, əhalini dünyəvi mətbuat oxumağa təşviq etməyə yönəldir, ölkənin mədəni və iqtisadi həyatında bəzi mötədil dəyişikliklər yaratmağa, sənaye və əkinçiliyi inkişaf etdirməyə çağırırdı. Şübhəsiz ki, bu qəzetlərin müsbət cəhətləri xeyli dərəcədə M.F.Axundovun mətbuat haqqındakı çıxışlarının təsiri altında olmuşdur. O, hələ 1867-ci ildə yazdığı "Kritika - yüksək İranın "Millət" qəzeti münşisinə" başlıqlı məqaləsində saray qəzetlərinin mürtəce mahiyyətini ifşa edir, "İran" qəzetinin feodal hakimlərin mədh və tərifinə həsr olunan, xalqın ehtiyac və mənafeyinə əsla aid olmayan yazılarını tənqid edirdi. M.F.Axundov mövcud şəraitdə fəaliyyət göstərə bilən leqal mütərəqqi mətbuatın vəzifələrindən danışaraq, iranlı həmfikirlərinə məsləhət görürdü ki, ölkənin tərəqqisinə, xalqın mənafeyinə xidmət edən, əkinçiliyin və iqtisadiyyatın inkişafına, maarifin genişlənməsinə rəğbət oyadan məqalələr dərc etsinlər, habelə "müasirlərin bəzi əsərləri və fikirləri haqqında, dövlət başçılarının, vilayət hakimlərinin və ordu başçılarının tədbirləri xüsusunda "kritika" yazsınlar, Avropa qəzetləri səpkisində daxili və xarici siyasi hadisələr haqqında xəbər və icmallar dərc etsinlər".[702]

---

[702] M .F. Axundov. Əsərləri, 2-ci cild, Bakı, 1961, səh.230.

İran və Azərbaycan mütərəqqi mətbuatının tarixi XIX əsrin son rübündən etibarən xaricdə dərc olunub İranda yayılan antiimperialist və maarifçi-demokrat məsləkli mühacir qəzetlərin, habelə xarici müstəmləkəçilər və şah mütləqiyyəti əleyhinə ölkə daxilində dərc olunub yayılan gizli intibahnamələrin və demokratik məzmunlu leqal qəzetlərin nəşri ilə başlayır.

Söz və mətbuat azadlığının olmadığı bir şəraitdə ölkə daxilində leqal qəzet nəşr etmək imkanından məhrum olan mütərəqqi naşir və ictimai xadimlər öz qəzetlərini xaricdə çap edərək müxtəlif yollarla İranda yayırdılar.[703]

Belə qəzetlərdən ən başlıcası, bütün İran miqyasında böyük siyasi, mədəni rol oynamış və ümumiyyətlə o zamankı Yaxın və Orta Şərq ölkələrində geniş şöhrət tapmış "Əxtər" qəzeti olmuşdur. "Əxtər"

1875-ci ildən İstanbulda nəşrə başlamış və arada fasilələrlə 1895-ci ilə qədər davam etmişdir. Onun naşir və redaktorları Azərbaycanın görkəmli alim və istedadlı publisistləri, dövrünün qabaqcıl ziyalıları olan Məhəmməd Tahir Təbrizi və Mirzə Mehdi Əxtər idi.

"Əxtər"in nəşr olunmasında mütləqiyyətə və imperializmə zidd məfkurəli bir sıra qabaqcıl ziyalılar, o cümlədən azərbaycanlı Məhəmməd Tofiq Xəbirülmülk, Şeyx Əhməd Ruhi, Əbdürrəhim Talıbov, farslardan Ağaxan Kirmani, Mirzə Həbib İsfahani və başqaları yaxından iştirak etmişlər.

Bu qəzetlərin mündəricəsinin əsas xəttini imperialist zülmü və soyğunçuluğunun, mürtəce feodal mütləqiyyət rejiminin özbaşınalıq və satqınlığının ifşası, mütləqiyyət quruluşunun konstitusiyalı quruluşla əvəz olunması, ölkənin sosial-iqtisadi tərəqqisini təmin edən burjua xarakterli islahatların keçirilməsi, xüsusilə yeni maarifin yaradılıb inkişaf etdirilməsi tələbləri təşkil edirdi.

Dərc olunan müxtəlif daxili və xarici məlumat və xəbərlərin dolğunluğu, müxtəlif iqtisadi, siyasi, mədəni, tarixi məsələlərin

---

[703] Bu haqda bax: H.Hatəmi. Mühaчir İran qəzetlərinin müstəmləkəçilik və imperializm əleyhinə mübarizəsi. Bakı, 1964.

qoyuluşu və şərh olunması cəhətdən "Əxtər" o zamankı Qərb qəzetləri nümunəsinə yaxınlaşırdı. Onun ümumi istiqaməti mötədil burjua-liberal məsləkli idi.

Lakin "Əxtər" qəzeti də bir sıra mühüm məsələlərdə səbatsız, qeyri-ardıcıl çıxış edirdi. O, bir tərəfdən İranın ümumi iqtisadi-siyasi geriliyi, hakim təbəqələrin satqınlığı və xəyanətini göstərir (bununla əlaqədar olaraq qəzet şah hökumətinin xahişinə görə II Əbdülhəmid tərəfindən bir neçə dəfə bağlanmışdı), diğər tərəfdən isə Nəsrəddin şahı, bir çox Qacar hakimlərini mədh edir və ya rəsmi İran qəzetlərində qəbul olunmuş mənasız və yalançı xəbərləri dərc etməkdən çəkinmirdi (bunun üçün isə Nəsrəddin şah pulla və ya başqa şəkildə ona öz razılığını bildirirdi); bir tərəfdən İngiltərə müstəmləkəçilərinin hiylələrini (məsələn, "Talbot" konsessiyasını), çar Rusiyasının siyasətini ifşa edir, digər tərəfdən isə Almaniyanı "bütün böyük dövlətlər içərisində, xüsusən Şərq məsələsində ən ədalətli və rəhmli" dövlət adlandırırdı.

Azərbaycan mühacir mətbuatı sırasında satirik "Şahsevən" qəzeti də mühüm yer tutur. Görkəmli Azərbaycan maarifpərvərləri Ə.Talıbov və həmfikirləri tərəfindən 1888-ci ildə gizli surətdə İstanbulda təsis edilən və əsasən S.M.Şəbüstərinin qələmilə yazılan[704] bu qəzetin İranda istibdad quruluşunu ifşa etməkdə və ictimai fikri konstitusiyaçılıq istiqamətində hazırlamaqda müəyyən xidməti olmuşdur. Tirajı üç yüz nüsxədən ibarət olan "Şahsevən" gizli surətdə İrana göndərilib yayılırdı. "Şahsevən" Azərbaycan və İranın burjua-demokratik istiqamətli satirik mətbuatının rüşeymi və sələfi, İranda çıxan ilkin satirik qəzet idi. Öz kəskin yazıları ilə qəzet şah hökumətini çox təşvişə salmışdı. Buna görə də İran və Türkiyə polisinin ciddi təqibləri üzündən "Şahsevən"in nəşri uzun müddət davam edə bilmədi.

90-cı illərdə, xüsusən Nəsrəddin şah öldürüldükdən sonra Müzəffərəddin şahın hakimiyyətinin ilk "liberal" illərində İranda

---

[704] Eduard Braun. Tarix-e mətbuat və ədəbiyyat-e İran dər doure-ye məşrutiyyət (*Məşrutə dövründə İranın mətbuat və ədəbiyyat tarixi*), cild 2, səh.456

xüsusi mətbuatın çıxması üçün bir qədər imkan yarandı. Bu zaman Tehranda "Maarif", "Tərbiyyət" kimi burjua- liberal ruhlu qəzetlər çıxmağa başladı. Lakin Azərbaycanda həmin dövrdə də mətbuat üçün şərait ağır idi. Bu, xeyli dərəcədə vəliəhd Məhəmmədəli Mirzənin bu zaman Təbrizdə şahın canişini olmasının nəticəsi idi. Qatı irticaçı, heç bir yeniliyə yol verməyən və xasiyyətcə qəddar olan Məhəmmədəli (1896-cı ildə o, xaincəsinə İrana gətirilmiş Mirzə Ağaxan Kirmanini və Şeyx Əhməd Ruhini şəxsən özü işgəncə ilə istintaq etmiş və başlarını kəsdirmişdi) ən mürtəce ruhanilər vasitəsilə qəzetləri, yeni məktəbləri bağlatdırırdı. Buna görə bu dövrdə də Təbrizdə çıxan qəzetlər uzun müddət davam edə bilməmişdir.

Bunlar içərisində ən əvvəl istedadlı publisist Seyid Hüseynxan Ədalətin redaktorluğu ilə 1897-ci ildən dərc olunan "Əlhədid", 1898-ci ildə Ədibülməmalikin redaktorluğu ilə çıxan "Ədəb" və Əliqulu Səfərovun qələmilə hazırlanan "Ehtiyac", 1899-cu ilin axırlarından Mirzə Hüseyn Təbibzadənin nəşr etdiyi "Kamal", 1901-ci ildən görkəmli maarif xadimi Abdulla Çahanşahinin buraxdığı "Mərifət" qəzetlərini qeyd etmək lazımdır.

"Ehtiyac" öz demokratik məzmunu ilə adları çəkilən qəzetlərdən fərqlənirdi. "Ehtiyac" şəraitin imkan verdiyi hüdudda mövcud vəziyyəti tənqid edir, xalqı azadlığa, tərəqqiyə çağırır, qəflət yuxusundan və cəhalətdən oyadırdı.[705] Qəzet imperialist zülmünə qarşı da çıxış edir, hakim dairələri və komprador burjuaziyanı, "xarici əmtəələr qarşısında pərəstiş edənləri"[706] kəskin tənqid atəşinə tutur, vətəndə milli sənaye ocaqları yaratmağa, əcnəbilərin iqtisadi-siyasi asılılığından xilas olmağa çağırırdı. Mütləqiyyətə və imperializmə qarşı çıxışlarına görə "Ehtiyac" 7-ci

---

[705] Hoseyn Omid. Tarix-e fərhəng-e Azərbaycan (*Azərbaycan mədəniyyət tarixi*), cild 2, Təbriz, 1333/1954, səh.19 (Sonrakı səhifələrdə: Hüseyn Ümid. II c., səh... yazılacaqdır)

[706] "Ehtiyac" qəzeti, 6 iyun, 1898-ci il. No 1.

nömrəsindən sonra bağlanmış, qəzetin redaktoru Səfərov döydürülüb həbsə alınmışdı.[707] O, sonra “İqbal” qəzetini çap etdirir, lakin tezliklə bu qəzet də bağlanır.

Cənubi Azərbaycan İranda dövri mətbuatın əsasını qoymaq sahəsində də təşəbbüskar olmuşdur. 1903-cü ilin yanvarından istedadlı publisistlər M.Tərbiyyət, S.H.Ədalət və S.Tağızadə tərəfindən Təbrizdə buraxılmağa başlayan “Gəncineye-fünun” (*Elmlər xəzinəsi*) İranda ilk jurnal oldu. Öz xarakterinə görə elmi-kütləvi jurnal olan “Gəncineye-fünun” oxucularda bəşəriyyətin ümumi təkamül prosesi, ibtidai cəmiyyətdən sinfi cəmiyyətə keçməsi, ayrı-ayrı xalqların obyektiv şəraitdən asılı olaraq müxtəlif inkişaf yolları ilə getməsi, bu proseslərin qanunauyğunluqları haqqında elmi təsəvvür yaratmağa (misal üçün, bir sıra nömrələrdə davam edən və Qərb tarix ədəbiyyatından iqtibas olunan “Qədim mədəniyyətlər” başlıqlı məqalələr silsiləsində), onları müasir aləmlə, başqa ölkələrin və xalqların həyat və şəraiti ilə tanış etməyə (məsələn, “Statistik coğrafiya” adlı məqalələr silsiləsində) çalışırdı.

İran inqilabına qədərki dövrdə çıxan qəzet və jurnalların böyük əksəriyyəti öz ideya-nəzəri səviyyəsi, təbliğ etdiyi fikirlər cəhətincə əsasən mötədil burjua ideologiyası çərçivəsindən kənara çıxa bilmədi. Bunlar qəti inqilabi şüarlar və taktikadan uzaq olmaqla bərabər, ümidlərini hələ də xeyli dərəcədə hakim siniflərə, “liberal” Müzəffərəddin şaha bağlayır, onlardan islahatlar gözləyirdilər. Əlbəttə, nəzərə almaq lazımdır ki, leqal mətbuat çox çətin və mürəkkəb, ölkədə əsla mətbuat və söz azadlığı olmadığı bir şəraitdə inkişaf edirdi. Mütərəqqi fikirləri təqib edən feodal hakimiyyəti, hər cür yenilik və tərəqqinin düşməni olan cəhalətpərəst ruhanilərin fitnələri və ümumi savadsızlıq mətbuatın yayılmasına ciddi əngəl törədirdi. Bütün bunlara baxmayaraq, leqal mətbuat, xüsusən 900-cü illərin əvvəllərindən mövcud ictimai-siyasi vəziyyəti imkan daxilində, dolayı şəkildə tənqid edir, ölkəni sosial-iqtisadi tərəqqi yolu ilə aparmaq üçün milli sənaye yaratmağa,

[707] Hüseyn Ümid, II c., səh.36.

elm və mədəniyyəti inkişaf etdirməyə, imperialist dövlətlərin ağalığından xilas olmağa çağırırdı.

Bu dövrdə qəzet və jurnalların sayca artmasına və keyfiyyətcə inkişafına ümumi vəziyyətin ağırlığından başqa bir sıra digər amillər də mane olurdu. Bir qayda olaraq bütün qəzetlərin öz redaksiya heyəti, jurnalist-müxbirləri, mətbəələri yox idi. Qəzeti çox vaxt şəxsən naşir özü və bir-iki köməkçisi çıxarırdılar. Qəzetin həm ölkə daxilindən, həm də xaricdən məlumat almaq imkanları son dərəcə az idi. Naşir yalnız şəxsən tanıdığı və ona kömək etməyə hazır olan bir neçə adamdan (adətən bu və ya digər məntəqənin poçt məmurundan, başqa qəzetlərin naşirlərindən) məlumat ala bilirdi. Bu isə ölkənin daxili həyatının qəzetdə əks olunmasını çətinləşdirirdi. Xarici xəbərlər isə bu qəzetlərdən bəzilərində Şimali Azərbaycan müxbirlərinin məlumatı nəzərə alınmazsa, bir qayda olaraq İrana gəlib çıxan əcnəbi (Avropa, türk, ərəb) qəzetlərindən iqtibas edilirdi, yəni həm vaxt etibarilə çox gecikir, həm də təsadüfi, sistemsiz xarakter daşıyırdı. Bundan əlavə, qəzetlər bir qayda olaraq maddi imkanları məhdud olan ziyalı naşirlərin şəxsi vəsaiti ilə çıxarılırdı. Tirajların azlığı (300-500 nüsxəyədək) nəticəsində qəzetlər öz xərcini ödəmirdi. Qərbdə mətbuatın əsas gəlir mənbəyini müxtəlif sənaye-ticarət şirkətlərinin elanlarından alınan vəsait təşkil etdiyi halda, Azərbaycanda və bütün İranda çıxan qəzetlər bundan da məhrum idi, çünki burada kapitalist tipli sənaye və ticarət yox dərəcəsində idi, ənənəvi istehsal və alver isə qəzet elanlarına ehtiyac hiss etmirdi. Bütün bunların nəticəsində qəzetlərin ömrü qısa, yayılma imkanları isə məhdud olurdu. Həcmcə kiçik olan bu qəzetlər (məsələn, "Kamal" kitab formatlı qəzet idi) çox vaxt gündəlik deyil, həftəlik, iki həftəlik və bəzən aylıq orqanlar idi.[708]

---

[708] Mətbuatın yayılması ilə əlaqədar olaraq İranda o zaman yaranıb qismən indiyədək davam edən bir ənənəni də nəzərə almaq lazımdır. Qəzetlərin bahalığı və oxucuların kasıblığı üzündən eyni qəzet əldən-ələ gəzirdi, elə olurdu ki, bir nüsxəni 10-15 nəfər mütaliə edirdi. Başqa sözlə, 300-500 tirajlı qəzetin real oxucuları bir neçə minə çatırdı.

Beləliklə, XIX əsrin ikinci yarısında Cənubi Azərbaycanda yaranan, habelə azərbaycanlılar tərəfindən xaricdə çıxarılan mətbuat, bunun fəaliyyəti üçün ağır şəraitə baxmayaraq, təkcə Azərbaycanda deyil, bütün İran miqyasında yeni mütərəqqi mədəniyyətin inkişaf etdirilməsində, milli şüurun oyadılmasında, o zaman mütərəqqi xarakter daşıyan burjua-liberal ideyaların təbliğində mühüm rol oynamışdır. Lakin burada mətbuatın inkişafında mühüm bir qüsur onun başdan-başa farsdilli olması idi, bütün bu qəzetlər fars dilində çıxmışdı. Bu isə, ən əvvəl, Azərbaycan mətbuatının təbliğ etdiyi yeni siyasi, mədəni ideyaların Azərbaycan xalq kütlələri içərisində yayılmasını, yəni onların Azərbaycan üçün nüfuz dairəsini məhdudlaşdırırdı. Bundan başqa, hər bir ölkədə mətbuatın inkişafı milli mədəniyyətin ən mühüm tərkib hissəsi olan milli dil və ədəbiyyatın inkişafına müəyyən mərhələdə həlledici təsir göstərdiyi halda, fars dilində olan Azərbaycan mətbuatı XIX əsrdə bu rolu oynaya bilməmişdi.

1905-1911-ci illər inqilabı ölkənin, o cümlədən Cənubi Azərbaycanın ictimai-siyasi həyatının bütün sahələrində olduğu kimi, mətbuatın inkişafında da kəskin dönüş, mühüm keyfiyyət dəyişiklikləri əmələ gətirdi. Bu, hər şeydən əvvəl, geniş xalq kütlələrinin, xüsusilə şəhər zəhmətkeş təbəqələrinin inqilabi mübarizəyə qoşulması, həmin mübarizə gedişində onların dünyagörüşü, ideya səviyyəsinin artması ilə əlaqədar idi. Lakin bu mübarizənin özü olduğu kimi, onun bir sıra təzahürləri, o cümlədən Cənubi Azərbaycanda mətbuatın geniş vüsətlə inkişafı da xeyli dərəcədə Rusiyadakı 1905-1907-ci illər inqilabının güclü təsiri, ən əvvəl Zaqafqaziya inqilabçılarının bilavasitə yardımının nəticəsində mümkün oldu. Belə bir amilin xüsusilə böyük əhəmiyyəti var idi ki, Zaqafqaziyada Azərbaycan dilində çıxan mətbuat Cənubi Azərbaycanda da heç bir tərcüməyə, izaha ehtiyac olmadan, yəni eyni xalqın doğma dilində oxunur, yayıla bilirdi. Zaqafqaziya mətbuatı isə öz səhifələrində qonşu müsəlman ölkələrinin, xüsusilə İranın ictimai-siyasi həyatındakı hadisələrə geniş yer verirdi. Beləliklə, Cənubi Azərbaycan oxucuları, İranın başqa rayonların-

dan fərqli olaraq, buradakı hadisələr haqqında, Rusiya sosial-demokratiyasının təlim və baxışları, İran inqilabının müdafiəsinə yönəldilən fəaliyyəti, Zaqafqaziyanın inqilabi-demokratik mətbuatının İran və Cənubi Azərbaycanda irtica və imperializmi ifşa edən materialları ilə bilavasitə tanış olurdular. Bu isə, öz növbəsində, Cənubi Azərbaycanda mütərəqqi, inqilabi mətbuatın, onun məzmunca və formaca düzgün inkişafı yollarının seçilməsinə, bu mətbuatla, onun xadimləri ilə Rusiya və beynəlxalq inqilabi mətbuat arasında əlaqə, əməkdaşlıq yaradır, İran və Cənubi Azərbaycandakı inqilabi mübarizənin ümumdünya azadlıq mübarizəsinə qoşulmasına kömək edirdi.

1905-1911-ci illər inqilabı Cənubi Azərbaycan (bütövlükdə İran) mətbuatının da coşğun inkişafına, bu vaxtadək görünməmiş vüsətlə yayılmasına güclü təkan verdi. Öz növbəsində mətbuatın da inkişafı inqilabi hərəkatın dərinləşməsi, onda iştirak edən qüvvələrin ideya-siyasi şüur səviyyəsinin artması, inqilabın məqsəd və vəzifələrinin xalq kütlələrinə izah edilməsi və onların səfərbər olunması üçün mühüm vasitələrdən biri idi.

İnqilab illərində, xüsusilə milli məclisin mətbuat azadlığı haqqında qərarından (1907-ci ilin fevralı) və müəyyən məhdud cəhətlərinə baxmayaraq, 1908-ci ilin əvvəllərindəki mətbuat qanunundan sonra bütün İranda leqal mütərəqqi mətbuat sayca fövqəladə dərəcədə artdı. İnqilabın altı ili (1906-1911-ci illər) ərzində Azərbaycanın Təbriz, Urmiya, Xoy, Ərdəbil və digər şəhərlərində 50-dən artıq qəzet çıxırdı ki,[709] bunların da böyük əksəriyyəti azadlıq cəbhəsinə mənsub idi və ya ona rəğbət bəsləyirdi. Bunlar içərisində "Mücahid", "Əncümən", "Azərbaycan", "Ədalət", "İttihad", "Cərideye-İslami", "Ana dili", "İblağ", "Söhbət", "Həşəratül- ərz", "Naleye-Millət", "Şuraye-İran", "Tənqid", "Kəsalət", "Buqələmun", "Ümid", "Fəryad", "Mükafat", "Fərvərdin", "Bərge-səbz", "İstiqlal", "Təbriz", "Şəfəq" və başqaları xüsusilə əhəmiyyətli olmuşdur.

[709] Hüseyn Ümid, II c., səh. 14.

Mətbuatın inkişafı ilə bərabər siyasi publisistika da yetkinləşirdi. Bu dövrün ən qabaqcıl mətbuatı əvvəlki dövrün maarifçi burjua-liberal məsləkli leqal mətbuatından həm öz inqilabiliyi, həm də yüksək bədii keyfiyyəti, publisistika sənətkarlığı ilə ciddi surətdə fərqlənirdi. Məhz bu dövrdə Azərbaycanda Əliqulu Səfərov, S.M.Əbuziya (Şəbüstəri), S.H.Ədalət, Mirzağa Naleye-Millət, Ziyaülüləma, M.Tərbiyyət, M. Qənizadə, S.Salmasi, S.H.Şərifzadə, M.Həkkakbaşı, H.Ə.Davafuruş, M.Əşrəfzadə, Mirzə Qafarxan Zunuzi (Siyahpuş), Nurullaxan Yekani, Mirzə Hüseyn Kamal, Əhməd Süheyli, S.Vəkili, İsmayıl Yekani, Mirzağa Mərəndi (Mükafat) kimi görkəmli inqilabçı publisist və naşirlər yetişmişdir. Onların əksəriyyəti, sosial-demokrat təşkilatlarının rəhbərliyinin və Azərbaycan əyalət əncüməninin üzvü olaraq inqilabi mübarizədə silahlı döyüşlərdə də fəal iştirak etmişlər. İnqilabi-siyasi işi mətbuat fəaliyyəti ilə sıx birləşdirən bu fədakar jurnalistlərin publisistika yaradıcılığı öz ideya-siyasi məzmununa görə burjua maarifçiliyindən burjua-inqilabi demokratizminə doğru ciddi addım idi.

Əlbəttə, inqilab dövrünün mətbuatı tamamilə eyni siyasi, ictimai məsləkli qəzetlərdən ibarət deyildi. İnqilabın ilk dövründə Azərbaycanda (İranda) bütün siyasi qüvvələr əsasən iki cəbhəyə - konstitusiya tərəfdarları və mütləqiyyət tərəfdarlarına bölünürdüsə, hərəkat dərinləşdikcə sosial və siyasi qüvvələrin təbəqələşməsi prosesi də artırdı. Bu özünü labüddən mətbuatda da göstərirdi.

Azərbaycanda mütərəqqi inqilabi mətbuatın ən qabaqcıl nümunəsi öz inqilabi-demokratik məzmunu və marksist istiqaməti ilə fərqlənən sosial-demokrat mətbuatı idi.

Ölkənin öz ictimai-siyasi zəmini üzərində meydana gəlib inkişaf edən bu mətbuatın ideya istiqaməti, publisistika, satirik tənqidi fikir və satirik qrafika sənətkarlığının müəyyənləşməsinə Rusiya mütərəqqi ictimai fikir və mətbuatının, xüsusilə Bakıda Azərbaycan dilində çıxan marksist və demokratik istiqamətli qəzetlərin, o cümlədən "Təkamül", "İrşad" və satirik "Molla Nəsrəddin" jurnalının mühüm təsiri olmuşdur. İranda şah istibdadını,

imperialistlərin müstəmləkəçilik siyasətini və hərbi-siyasi müdaxiləsini kəskin tənqid atəşinə tutan və İran inqilabını qətiyyətlə müdafiə edən Zaqafqaziya mətbuatı, xüsusilə "Molla Nəsrəddin" jurnalı Cənubi Azərbaycanda geniş yayılır, böyük həvəslə oxunur və son dərəcə inqilabiləşdirici təsir göstərirdi.

İranda, o cümlədən Azərbaycanda elmi sosializm ideyalarının yayılması üçün qüvvətli keçirici rolunu məhz Rusiya bolşevik mətbuatı oyanmışdır. Cənubi Azərbaycanın sosial-demokrat publisistləri marksizm-leninizm nəzəriyyəsini əsas etibarilə Rusiyada, xüsusilə Zaqafqaziyada Azərbaycan və rus dillərində nəşr olunan mətbuat vasitəsilə öyrənir və bu nəzəriyyəni Cənubi Azərbaycan mətbuatı səhifələrində izah etməyə çalışırdılar.

Cənubi Azərbaycan demokratik mətbuatı birinci rus inqilabı dövründə Zaqafqaziya fəhlə və kəndlilərinin çarizmə və kapitalizmə qarşı qəhrəmanlıq mübarizəsini rəğbət və sevinclə tərənnüm edir, Cənubi Azərbaycan zəhmətkeşlərini onların inqilabi təcrübələrindən nümunə götürməyə çağırırdıq "Fəryad" qəzeti Azərbaycan gənclərini "qulaqlarının dibindəki Qafqazlı qardaşlarından" inqilabi mübarizə dərsi almağa, "onların yolu ilə getməyə"[710] çağırırdı.

Rusiya proletariatı ilə inqilabi dostluq və həmrəylik ideyalarının təbliği Cənubi Azərbaycan mətbuatının fəaliyyətində parlaq yer tuturdu. Təbrizdə sosial-demokrat mətbuatı İran inqilabçılarının ən yaxın və sədaqətli müttəfiqinin Zaqafqaziya bolşevikləri və zəhmətkeşləri olduğunu daim kütlələrə izah edirdi. İran inqilabına qarşı istər daxili irtica, istərsə də imperialist qüvvələri tərəfindən hücum və hərbi müdaxilə təhlükəsi yarandığı ağır günlərdə sosial-demokrat mətbuatı həmişə intibahnamələr dərc etmək və s. yollarla kömək üçün Zaqafqaziya zəhmətkeşlərinə müraciət edirdi.

Bu mətbuat içərisində birinci növbədə "Mücahid" qəzetini qeyd etmək lazımdır. "Mücahid" sosial-demokrat təşkilatının

---

[710] "Fəryad" qəzeti, 5 may 1907-ci il.

proqram və siyasətini geniş təbliğ edir, Azərbaycan xalqının milli-azadlıq, demokratiya və tərəqqi uğrunda mübarizəsinə istiqamət verməkdə əsas rol oynayırdı. Qəzet ali ruhanilərin konstitusiya hərəkatını boğmaq məqsədi daşıyan əksinqilabi fitnələrinə qarşı açıq və kəskin çıxışları üstündə əncümən üzvlərinin liberal mülkədar və ruhani əksəriyyətinin təzyiqi nəticəsində 22-ci nömrəsindən sonra bağlandı.[711]

İnqilab dövrünün başqa bir nüfuzlu qəzeti Azərbaycan əyalət əncüməninin orqanı "Əncümən" qəzeti idi. O, ən əvvəl əncümənin konstitusiya və milli məclisi müdafiə edən müzakirə və qərarlarını, həmçinin konstitusiyanın həyata keçirilməsini tələb edən xalqın kütləvi mitinq və tətillərinin qətnamə və tələblərini müntəzəm surətdə çap və şərh edir, İran məclisinin inqilabi cinahının fəaliyyəti və xalqa müraciətlərini geniş əks etdirir, habelə İranın müxtəlif şəhərlərindən əhalinin istibdadçıların konstitusiya qaydalarına qəsd və cinayətlərini ifşa edən etiraz məktublarını və Azərbaycan xalqı ilə inqilabi həmrəyliklərinə dair məktublarını dərc edirdi. Qəzet 1907-ci ilin dekabrında Məhəmmədəli şahın məclisə qarşı hazırladığı əksinqilabi çevrilişin ifşa olunmasında, buna qarşı Təbriz əhalisinin səfərbər edilməsində böyük rol oynadı. Bu məqsədlə qəzet əksinqilabi çevriliş hazırlayan irtica rəhbərlərini adbaad göstərir, onlara qarşı mübarizə aparmaq üçün xalq kütlələrini silahlı dəstələr yaratmağa, mitinq və nümayişlərlə öz etirazlarını bildirməyə, inqilabi sayıqlıq göstərməyə çağırırdı. "Əncümən" qəzetinin İranda, Cənubi Azərbaycanda, irticaya qarşı çıxışları imperializm əleyhinə mübarizə ilə üzvi vəhdət təşkil edirdi. Qəzet çarizmin və İngiltərənin İrana qarşı hərbi-siyasi müdaxilə planlarını aşkara çıxarmaqla və xüsusilə 1907-ci il rus-ingilis sazişinin müstəmləkəçilik və işğalçılıq məqsədlərini ifşa etməklə, İrana zorla qəbul etdirilən xarici borcların soyğunçu və əsarətgətirici mahiyyətini açıb göstərməklə anti- imperialist hərəkatın qüvvətlənməsinə büyük xidmət göstərirdi. Bu cəhətdən qə-

[711] "Əncümən" qəzeti, 25 dekabr 1907-ci il, No 23.

zetin siyasi şərhləri çox təsirli idi. Belə məqalələrdən birində qəzet müstəmləkə işğalı tarixini və qəsbkarlıq üsullarını qısa və aydın şərh etdikdən sonra özünün məntiqi, ardıcıl siyasi təhlilinə yekun vurur və 1907-ci il sazişinin aşkar soyğunçuluq, zorakılıq və işğalçılıq mahiyyəti daşıdığını ifşa edir, xalqı sayıq olmağa, imperialistlərin hiyləgərliyinə aldanmamağa, ölkənin həyati mənafeyini, azadlıq və istiqlaliyyətini məhv edən bu müqaviləyə qarşı qətiyyətlə mübarizəyə qalxmağa çağırırdı: “İngiltərə və Rusiya dövlətlərinin... bu müahidəni bağlamaqdan... əsl məqsədləri işğalçılıq, müstəmləkəçilik, özlərinin siyasi, eyni zamanda iqtisadi-ticarət mənafelərini təmin etməkdədir”.[712]

İnqilabi demokratik mətbuatın daha bir nümunəsi olan “Naleye-millət” qəzeti 1908-1909-cu illər Təbriz üsyanı dövründə bolşeviklər partiyasının İran inqilabçılarına qardaşlıq köməyini, xüsusilə Zaqafqaziya bolşeviklərinin Təbriz səngərlərində mücahidlərlə çiyin-çiyinə qəhrəmanlıqla vuruşduqlarını böyük minnətdarlıq hissi ilə qələmə alır və bunu Rusiya zəhmətkeşlərinin inqilabi həmrəyliyi kimi yüksək qiymətləndirirdi.[713]

1909-cu ilin aprelində imperializmin Azərbaycana hərbi müdaxiləsi, Təbrizin çar qoşunları tərəfindən tutulması nəticəsində sosial-demokrat təşkilatı və demokratik mətbuat şiddətli təqiblərə məruz qaldı və onun nəşri tamamilə dayandırıldı. Bununla da antiimperialist və antifeodal məsləkli inqilabi-demokratik mətbuatın geniş leqal fəaliyyət dövrü əsasən sona çatmış oldu. Lakin Təbriz sosial-demokrat təşkilatı məhdud imkan çərçivəsində mətbuat nəşrini bərpa etməyi qərara aldıq. 1909-cu ilin mayından Mirzağa Naleye-Millətin redaktorluğu ilə “İstiqlal” qəzeti Təbriz sosial-demokrat təşkilatının və bütün inqilabi qüvvələrin orqanı kimi nəşr olunmağa başladı.

---

712 “Əncümən” qəzeti, 11 dekabr 1907-ci il, No 19.

713 Əhməd Kəsrəvi. Tarix-e məşrute-ye İran (*İranın məşrutə tarixi*), cild 3, Tehran, 1322/1943, səh.208

"İstiqlal" qəzeti inqilab düşmənlərinə başçılıq edən vali Müxbirüssəltənəyə qarşı daha cəsarətlə çıxış edirdi. Qəzet qubernatorun inqilabçıları əzmək üçün mürtəce feodal Rəhim xan və digər istibdadçılarla əlaqəyə girdiyini və onların inqilabçılara qarşı törətdikləri cinayətləri ifşa edirdi. Qəzet göstərirdi ki, Müxbirüssəltənə xalqın müqavimətini qırmaq üçün çar və İngiltərə diplomatlarının buyuruqlarını icra edir, Səttarxan və Bağırxana onları Təbrizdən çıxarmaq məqsədilə təzyiq göstərir, böhtanlar atır, mücahidləri tərk-silah etməyə çalışır, vətənpərvərlərin sıralarına təfriqə salır, hətta mücahid başçılarına qarşı qanlı qəsdlər düzəldir.[714] Məhz buna görə Müxbirüssəltənə hərəkatın digər başçıları ilə birlikdə "İstiqlal"ın redaktoru Naleye-Milləti, yuxarıda qeyd olunduğu kimi, həbsə aldı, qəzeti isə bağlatdırdı.[715]

İran demokratik mətbuatı tarixində ilk dəfə olaraq yeni satirik mətbuatın da əsası inqilab dövründə Təbrizdə qoyulmuşdur. Burada birinci növbədə görkəmli inqilabçı demokrat, istedadlı satirik publisist Əliqulu Səfərovun redaktorluğu, istedadlı publisist-qrafik təbrizli Əbdülhüseyn xan Tahirzadənin (Behzadın) iştirakı ilə 1907-ci ilin fevralından nəşrə başlayan "Azərbaycan" jurnalını və "Həşəratül-ərz" qəzetini qeyd etmək lazımdır. Bunlar, xüsusən "Azərbaycan" jurnalı İran mətbuat aləminə tamamilə yeni janrlar – karikatura və siyasi felyeton kimi qüdrətli ideya təsiri vasitələri gətirməklə novator rolunu oynamışdır. Onun sənətkarlıq üslubu və ideya təsiri altında inqilab illərində Təbrizdə "Buqələmun", "Kəsalət", "Tənqid", Tehranda "Carçiye-millət", "Bəhlul", "Kəşkül", Rəştdə "Nəsime-şimal", İstanbulda "Şeyda" və s. demokratik və antiimperialist istiqamətli satirik qəzet və jurnallar dərc olunmuşdur.

"Azərbaycan" jurnalı yalnız öz materiallarının veriliş forması, onların bədii və təsviri tərtibatı cəhətincə deyil, ölkədə gedən

---

[714] Əhməd Kəsrəvi. Tarix-e hicdəh sale-ye Azərbaycan (*Azərbaycanın on səkkiz illik tarixi*), Tehran, 1333/1954, səh.110, 111, 113, 115, 155, 156 (Sonrakı səhifələrdə: Ə.Kəsrəvi. Azərbaycan tarixi, ikinci nəşri, səh... yazılacaqdır).

[715] Məhəmməd Sədr Haşemi. Tarix-e cərayed və məcəllat-e İran (*İran mətbuat tarixi*), cild 1, İsfahan, 1327/1948, səh.156

siyasi mübarizəni qiymətləndirməkdə, daxili və xarici irtica ünsürlərini ifşa etməkdə, xalq kütlələrini müdafiə etməkdə də "Molla Nəsrəddin"in yolu ilə gedirdi. İran şəraitində bu kimi nəşriyyələrdən, xüsusilə bunlarda geniş yer tutan karikatura janrından istifadə etməyin üstünlüyü bunda idi ki, onların ideya məzmununu savadsız kütlələr belə asanlıqla qavraya bilir, qısa satirik, lakin dolğun məzmunlu ifadələrlə şərh edilən bu dərin mənalı rəsm əsərləri böyük həcmli siyasi məqalə qədər təsir göstərirdi.

1908-1909-cu illər Təbriz üsyanı dövründə sosial-demokrat təşkilatının ideoloji-siyasi fəaliyyəti, xüsusilə mətbuat nəşri daha da qüvvətlənir. Bu təşkilatın inqilabi intibahnamələri azadlıq ideyalarını yaymaqda və kütlələri mübarizəyə səfərbər etməkdə mühüm rol oynayır.

Təbriz sosial-demokrat təşkilatı öz intibahnamələrini Rusiya şəhərlərində, o cümlədən Orta Asiyada yaşayan iranlı zəhmətkeşlər arasında da yayır, onların vətəndə baş verən hadisələrin cərəyanında saxlayır və inqilabi hərəkata cəlb edirdi. Bolşeviklərin Bakı "Hümmət" təşkilatı və Zaqafqaziyadakı İran sosial-demokrat təşkilatları da İran xalqlarının azadlıq mübarizəsinə kömək məqsədilə Təbriz və digər şəhərlərə mətbəə ləvazimatı və inqilabi ədəbiyyat göndərirdilər.

Təbriz sosial-demokrat təşkilatının intibahnamələri Cənubi Azərbaycan mətbuatı tarixində marksist fəhlə mətbuatının əsl, həm də qüvvətli sələfi olmuşdur. Həmin İntibahnamələrdə tarixi şərait nəzərə alınmaqla marksizmin bəzi müddəalarına dair müəyyən fikirlər söylənilmiş və bununla da elmi sosializm ideyalarının yayılması üçün qiymətli təşəbbüs göstərilmişdir. İstismarçılara qarşı mübarizədə fəhlə sinfinin beynəlmiləl birliyinin zərurətini ifadə edən "Bütün ölkələrin proletarları, birləşin!" şüarı İran mətbuatı tarixində ilk dəfə olaraq Təbriz sosial-demokrat təşkilatının həmin vərəqələrdə "Füqərayi-kasibə, birləşin!"[716] çağırışı

716 Pavloviç S. İranski. İran istiqlaliyyət mübarizəsi uğrunda (*əski əlifbada*), Bakı, 1926, səh.31

şəklində öz əksini tapmışdır. Eləcə də fəhlələrin və kommunistlərin sinfi qardaşlığının mahiyyətini ifadə edən "Yoldaşlar"[717] devizi ilə və ya inqilab simvolu olan "qızıl inqilab bayrağını yüksəklərə qaldıralım!" xitabı ilə həmin intibahnamələrdə Azərbaycan zəhmətkeşlərinə müraciət olunmuşdur. Bu fikirlərin yayılmasının zəhmətkeşlərin proletar beynəlmiləlçiliyi ruhunda tərbiyələndirilməsi, marksizm ideyalarının onların şüuruna çatdırılması üçün müəyyən təsiri olmuşdur.

Bu sosialist rüşeymlərinə baxmayaraq, həmin Dövrdə Cənubi Azərbaycan sosial-demokrat mətbuatı hələ kamil marksist-leninçi fəhlə mətbuatı səviyyəsinə yüksələ bilməmiş, üz ideya-nəzəri məzmununa görə əsas etibarilə inqilabi demokratizm mövqeyində durmuşdu.

İnqilab illərində İranın digər şəhərlərində də azərbaycanlı inqilabçı publisistlər tərəfindən bir sıra qəzetlər nəşr olunmuşdur. O cümlədən Tehranda Əbuziyanın redaktorluğu ilə "İrane-nou", S.H.İbrahimzadənin redaktorluğu ilə "Carçiye-millət", Rüşdiyyənin qələmi ilə "Tehran", Həsənxan Təbrizinin mühərrirliyi ilə "Əsr", Mahmud Əfşarın redaktorluğu ilə "Çənteye-paborəhne", Xorasanda Məhəmmədsadıq Təbrizi və S.H.Ərdəbilinin redaktorluğu ilə "Xorşid" və "Xorasan" qəzetləri çıxmış, Tehran sosial-demokrat təşkilatının orqanı "Sure-İsrafil" qəzetinin redaktorlarından biri Mirzə Qasımxan Təbrizi (Sure İsrafil) olmuşdur. Cənubi Azərbaycanın tərəqqipərvər ziyalıları, o cümlədən S.Salmasi, Mirzə Qafar xan Zunuzi, Heydər Əmioğlu və başqaları Zaqafqaziya mətbuatında da, xüsusilə "İrşad" qəzetinin İrana aid səhifələrində, Tiflisdə çıxan sosial-demokrat qəzetlərində İranda ictimai-siyasi vəziyyətə və inqilabi mübarizəyə həsr edilən demokratik məzmunlu məqalələrlə çıxış edirdilər.

1910-1911-ci illərdə Azərbaycanda vətənpərvərlik və azadlıq ideyalarını təbliğ edən və xalqı imperialist hərbi müdaxiləsinə

---

[717] Bax: «İrşad» qəzeti, 27 dekabr 1907-ci il (Təbriz sosial-demokrat təşkilatının intibahnaməsi).

qarşı mübarizəni davam etdirməyə çağıran digər burjua-demokratik mətbuat, o cümlədən Təbrizdə "Şəfəq", "Təbriz", Xoyda "Mükafat" və "İslah", Urmiyada "Fərvərdin" qəzetləri də dərc olunurdu. Bu dövrdə imperialist zorakılığı və soyğunçuluğunun ifşası, hərbi müdaxiləyə qarşı xalq hərəkatının təşkilinə kömək mətbuatın əsas mübarizə hədəfini təşkil edirdi. Bu zaman mütərəqqi qəzetlər Səttarxanla Bağırxanın adından xalqa müraciətlə yazılan bəyanatları dərc etməklə mühüm inqilabi iş görürdü.[718] Onlar bu müraciətlərində xarici müdaxiləyə qarşı kəskin etirazlarını bildirir, çar konsulluğunun inqilabçılara qarşı uydurduğu "quldurluq", "iğtişaşçılıq" böhtanlarını rədd edir, xalqı sayıq olmağa, konstitusiyanın müdafiəsi uğrunda mübarizəni davam etdirməyə çağırırdılar.

"Şəfəq" qəzeti öz kəsərli antiimperialist yazıları ilə xüsusilə fərqlənirdi. 1910-cu ildə Təbrizdə yaranan və gizli inqilabi iş aparan demokrat təşkilatının[719] bu illərdəki qeyri-leqal mətbuat fəaliyyəti nəşr etdiyi "Şəfəq" qəzeti vasitəsilə xarici müdaxiləçilərin və daxili irticanın ən şiddətli terroru şəraitində xalqın inqilabi mübarizə əhvali-ruhiyyəsini yüksək saxlayır, kütlələrin müqavimət əzmini canlandırır, milli istiqlaliyyət və demokratiya uğrunda mübarizənin inkişafına mühüm təsir göstərirdi.

"Şəfəq" qəzetinin şücaət və cəsarətli, kəskin mübarizə xətti, xüsusilə atəşin vətənpərvərlik ruhundakı məqalələri çarizmin hiddət və qəzəbinə səbəb olurdu.[720]

Burjua-demokratik mətbuatın ifşaçılıq fəaliyyətində intibahnamələrlə yanaşı kitabçalar nəşrindən geniş istifadə olunurdu. 1909-cu ilin may-iyun aylarında müdaxiləçilərin inqilabçılara və dinc əhaliyə qarşı azğınlıq və soyğunçuluq əməllərini ifşa edən çoxlu kitabça buraxıldı, onların mətni "Mükafat" qəzetində, habelə mühacir mətbuatında dərc olunub yayıldı.[721]

---

[718] Ə. Kəsrəvi. Azərbaycan tarixi, ikinci nəşri, səh.50.
[719] Yenə orada, səh.617.
[720] Eduard Braun. Tarix-e mətbuat və ədəbiyyat-e İran dər doure-ye məşrutiyyət (*Məşrutə dövründə İranın mətbuat və ədəbiyyat tarixi*), cild 2, səh.474
[721]Ə. Kəsrəvi. Azərbaycan tarixi, ikinci nəşri, səh.40.

“Təbriz” qəzeti 1910-cu ilin yanvarında cinayətkar və muzdlu qatillərin əli ilə görkəmli inqilabçı, vətənpərvər Əmir Heşməti öldürmək məqsədilə Müxbirüssəltənənin qəsd təşkil etməsini bütün təfərrüatı ilə ifşa etdi.[722]

1910-cu ilin iyulunda imperialistlərin himayə etdiyi Məhəmmədəli Mirzənin yenidən hakimiyyətə qayıtmaq məqsədilə əksinqilabi çevriliş yaratmaq cəhdi və Azərbaycan feodallarını silahlı çıxışa təhrik etməsi mütərəqqi mətbuatın kəskin tənqid hədəfinə çevrildi. “Şəfəq”, “Təbriz” qəzetləri “Qardaşlar, birləşin! Azadlıq düşmənlərini qovun!” çağırışları ilə xalqı mübarizəyə çağırır, daxili və xarici düşmənlərin fitnələrini ifşa edirdi.[723]

Bu zaman İstanbulda əsasən azərbaycanlı inqilabçı ziyalılar tərəfindən Azərbaycan və fars dillərində nəşr olunan demokratik istiqamətli satirik “Şeyda” qəzeti də əcnəbilərin İran işlərinə hərbi-siyasi müdaxiləsinə kəskin etirazını bildirir və imperialistlərin soyğunçu müstəmləkə siyasətinə şərait yaradan və onlarla əməkdaşlıq edən irticaçı hakim dairələri kəskin tənqid atəşinə tuturdu.

İnqilab məğlub olduqdan sonra ölkənin hər yerində olduğu kimi Cənubi Azərbaycanda da bütün demokratik təşkilatlar qadağan edildikdə demokratik qəzetlər bağlandı, onların leqal fəaliyyəti yenidən dayandırıldı. Bunun əksinə, mürtəce, əksinqilabi qüvvələr öz hakimiyyətini möhkəmlətmək üçün mətbuatdan daha geniş istifadə edirdi. Halbuki inqilabın yüksəlişi dövründə bu tipli qəzetlər (məsələn, ifrat irtica mövqeyində duran “Molla əmi” qəzeti) xalq içərisində heç bir nüfuz qazana bilmirdi - demokratik mətbuat onların inqilabçılara qarşı iftira və uydurmalara dərhal cavab verir, ifşa edirdi. İndi isə meydanı boş görən həmin qəzetlər xalq kütlələrini aldatmaqda irtica əlində bir silaha çevrildi. Bu dövrdə qatı monarxist məsləkli və imperializmə xidmət göstərən “Fikir”, “Tofiq”, “Cərideye-islami” kimi əksinqilabi qəzetlər nəşr edilirdi ki, bunlar maliyyə cəhətdən çar konsulu və vali Şücaüddövlə tərəfindən təmin olunurdu.[724]

---

[722] Ə. Kəsrəvi, Azərbaycan tarixi, ikinci nəşri, səh.156.
[723] Yenə orada, səh.176-177.
[724] Yenə orada, səh.551.

Mürtəce mətbuat əksinqilabi ideyalar yayır, imperialistlərin hərbi müdaxiləsinə bəraət qazandırır, imperializmlə əməkdaşlığı təbliğ edir, Rusiya zəhmətkeşlərinin mübarizəsini qəddarlıqla yatırdığı kimi, İran inqilabını da vəhşicəsinə boğan qanlı Nikolayı Azərbaycan xalqının xeyirxahı və hamisi adlandırır, İngiltərə və çarizmin Azərbaycana vali təyin etdiyi monarxist feodal Haçı Səməd xan Şücaüddövləni mədh edir, onun inqilabçılara qarşı vəhşiliklərini və soyğunçuluğunu pərdələyir, cinayətkar əməllərini "dinin və ölkənin iğtişaşçılardan xilası" naminə görülən xeyirxah iş kimi qiymətləndirirdi. Kəsrəvinin yazdığı kimi, "bu qəzetlər qaniçən Səməd xanın məddahı və xaricilərin İran üzərində ağalığının müdafiəçisi idilər".[725]

Cənubi Azərbaycanda (ümumiyyətlə İranda) inqilab illərində mətbuatın daha bir forması - "kiçik mətbuat", yəni vərəqlər nəşri geniş yayıldı. Bu mətbuat forması ilk dəfə hələ XIX əsrin axırlarında, xüsusilə "Tənbəki üsyanı" və sonrakı xalq çıxışları gedişində meydana çıxmışdı. Söz və mətbuat azadlığının olmadığı şəraitdə nisbətən asan, ən sadə çap vasitələrilə buraxıla bilən və yayılan bu vərəqələr (bunlar gizli çap edilib gecələr divarlara yapışdırıldığı və ya ictimai yerlərə səpələndiyi üçün "şəbnamə", yəni "gecə vərəqələri" adını almışdı) hakimiyyət əleyhinə ilk kütləvi mətbu təbliğat vasitəsi oldu. Lakin o zaman bu forma üz məzmunu, ideya-siyasi səviyyəsi və güddüyü məqsəd cəhətdən məhdud xarakter daşıyırdı. Bir qayda olaraq belə vərəqələr yerli hadisələrə həsr olunur, adətən, ayrı-ayrı hökumət məmurları, hakimlər və xaricilərin özbaşınalığını satirik formada, həcv şəklində ifşa edirdi.

İnqilabın başlanması "kiçik mətbuatın" da daha geniş yayılması, yeni məzmun kəsb etməsi üçün təkan oldu. Yeni şəraitdə çoxlu qəzet çap olunmasına baxmayaraq, əksəriyyəti bir neçə günlük və hətta həftəlik fasilələrlə kiçik həcmdə çıxan bu qəzetlər bir sıra hallarda hadisələrlə ayaqlaşa bilmirdi. Buna görə vərəqə və intibahnamələr öz operativliyi, dərhal bu və ya digər hadisəyə

---

725 Ə. Kəsrəvi, Azərbaycan tarixi, ikinci nəşri, səh. 553.

səs vermək qabiliyyəti ilə, hər hansı bir təxirəsalınmaz tədbir (nümayiş, mitinq, bəst) keçirmək üçün səfərbəredici vasitə kimi inqilabçıları cəlb edirdi. İnqilab dövründə vərəqə və intibahnamələrdən eyni zamanda daha geniş iş üçün – xalq kütlələri içərisində təbliğat aparmaq, onların siyasi səviyyəsini yüksəltmək vasitəsi kimi istifadə olundu. Bir sıra məsələlərin mətbuat səhifələrində qoyulması və şərh edilməsi çətin, hətta qeyri-mümkün olduğu, bu və ya digər mütərəqqi təşkilat və ya qəzet əleyhinə təəssübkeş əhali qruplarını qızışdırmaq üçun mətbuatın mürtəce ünsürlərin əlində silah ola biləcəyi bir şəraitdə məhz vərəqələr əvəzedilməz vasitəyə çevrildi. Azərbaycan inqilabçıları da irticaçıların fitnələrini açmaq, daxili və beynəlxalq vəziyyətin xüsusiyyətlərini göstərmək, inqilabi partiya və təşkilatların proqram və məqsədlərini, inqilabi əncümənlərin fəaliyyətini düzgün işıqlandırmaq, xalq kütlələrini səfərbər etmək üçün "kiçik mətbuat" formasından məharətlə istifadə edirdilər. Vərəqə və intibahnamələr sadə dildə, konkret müraciətlər, xəbərdarlıq və şüarlar, tələblər şəklində tərtib və çap olunur, buna görə geniş kütlələr tərəfindən asanlıqla başa düşülürdü.

İran inqilabı boğulduqdan sonra daxili və xarici irticaçıların yaratdığı terrorçuluq rejimi şəraitində, habelə birinci dünya müharibəsi illərində mütərəqqi qüvvələr açıq olaraq qəzet buraxmaq imkanından məhrum edildikdə "kiçik mətbuat" bir neçə il ərzində demokratik qüvvələrin əhali ilə əlaqə saxlamaqda və möhkəmləndirməkdə, demək olar yeganə təsirli silahı idi.

İnqilabdan sonra hökm sürən şiddətli terrora baxmayaraq, mütərəqqi qüvvələr öz inqilabi mətbuat fəaliyyətini tədricən bərpa etməyə, gizli inqilabi intibahnamə və qəzetlər dərc edib, yaymağa başladılar.

Bunlar içərisində "İnsaf" qəzetinin xüsusilə böyük rolu olmuşdur. Qəzet demokrat təşkilatına mənsub olan Xiyabani, İskəndani və İbrahim Şəbüstərinin başçılığı ilə 1913-cü ilin payızından gizli surətdə nəşr olunmağa başladı.[726]

---

[726] Ə.Kəsrəvi. Azərbaycan tarixi, ikinci nəşri, səh.676, 677 və Xiyabaninin məsləkdaşı Z.Qiyaminin xatirələri.

“İnsaf” qəzeti elə bir şəraitdə nəşrə başlamışdı ki, İranda azadlıq və irtica qüvvələri arasında məclis və konstitusiyanın bərpası və xarici hərbi müdaxiləyə münasibət məsələləri ətrafında kəskin siyasi mübarizə gedirdi.

Təbrizdə mürtəce ruhanilər Şücaüddövlənin göstərişi ilə konstitusiya prinsiplərinə qarşı fitnəkar çıxışlar təşkil edir, “Fikir” və “Tofiq” qəzetlərində konstitusiyalı dövlət quruluşunu “iğtişaş mənbəyi”, məclisi “dinsizlik ocağı” adlandırır və güya Azərbaycan xalqının bütün bunlara nifrət etdiyi barədə uydurmalar dərc edirdilər.[727] “İnsaf” qəzeti xalqın konstitusiyanın bərpasına dair tələblərini müdafiə edir və onun düşmənlərini ifşa edərək yazırdı ki, bunlar bir dəstə köhnə istibdadçı və din alverçisidir, Azərbaycan xalqını təmsil edə bilməzlər: “Millətimiz şəhidlərin qanın bahasına aldığı məşrutədən əl çəkməyəcəkdir. Yaşasın və paydar olsun qanuni-əsasi və məclisi-milli! Ey vətənin şərəfli övladları, düşmən müqabilində əyilməyən başınızı uca tutun, vətənin istiqlalı, məşrutə və azadlığın ehyası sizin mətanət və hümmətinizə bağlıdır”.[728]

“İnsaf” qəzetində çarizmin agentləri və İran inqilabının cəlladları olan Şücaüddövlə, Rəşidülmülk (Sərdar Rəşid), Rəşidüssultan və İqbalüssəltənənin xəyanətləri və rüşvətxorluğu ifşa olunur, inqilabçılara vəhşicəsinə divan tutan Şücaüddövlənin qanlı cinayətlərinə kəskin etiraz edilir və göstərilirdi ki, inqilabçıların axıdılan qanı hədər getməyəcək və yeni inqilab alovlarının daha şiddətlə şölələnməsinə səbəb olacaqdır.

İrticaçı qəzetlər xarici hərbi müdaxiləyə münasibət məsələsində İran istiqlaliyyətinin düşməni və imperializmin müstəmləkəçilik siyasətinin müdafiəçisi rolunda çıxış edirdilər. Bu cəhətdən “Tofiq” qəzeti daha qatı irticaçı mövqe tuturdu. Qəzet Romanovlar sülaləsinin 300 illiyi münasibətilə yazdığı “Böyük bayram” başlıqlı məqaləsində II Nikolayı təbrik edir, onu iranlıların

---

727 Ə. Kəsrəvi. Azərbaycan tarixi, ikinci nəşri, səh.557, 577.

728 «İnsaf» qəzetinin mündəricəsinə aid fikirlər Z.Qiyaminin xatirələrindən götürülmüşdür.

xeyirxahı adlandırır, çar cəlladlarının İran inqilabını vəhşicəsinə boğmaq əməllərini asayiş və rifah tədbirləri kimi qələmə verərək yazırdı: "Möhtərəm rus dövlətinnn və onun məmurlarının xeyirxah və mərhəmətli tədbirləri sayəsində Azərbaycan əhalisi üçün yaranan rifah və asayişə görə... "Tofiq" qəzeti də bütün əhali tərəfindən öz hədsiz təşəkkür və təbriklərini bildirir... və umidvardı ki, əhalinin bu şadlıq və məhəbbət hissləri əlahəzrət imperatorun şahanə məhəbbətinin artmasına səbəb olacaqdır".[729]

"İnsaf" qəzeti "Tofiq"in bu yaltaqlıq və mədhləri ilə çarizmin daha artıq maliyyə mərhəmətini, məhəbbətini qazanmaq xəyalında olmasını ifşa edərək çarizmin İrandakı terror siyasətini açıq göstərirdi.

Birinci dünya müharibəsinin başlanması və bunun gedişində İran ərazisinin, xüsusilə Cənubi Azərbaycan ərazisinin türk-alman və çar qoşunları arasında hərbi əməliyyat meydana çevrilməsi, bir çox şəhər və kəndlərin, o cümlədən Təbrizin dəfələrlə əldən-ələ keçərək dağılması, minlərlə adamın həlak olması şəraitində mətbuatın nəşri də, demək olar, tamamilə dayandırılmışdı. Yalnız müharibənin sonunda, xüsusən Rusiyada 1917-ci il Fevral burjua-demokratik inqilabının təsiri ilə Cənubi Azərbaycanda da antiimperialist demokratik hərəkat canlanıb qüvvətlənməyə başladıqdan sonra Təbrizdə inqilabi demokratik və antiimperialist məzmunlu leqal mətbuatın nəşri bərpa olundu. 1917-ci ilin aprelindən Cənubi Azərbaycanda demokrat təşkilatının orqanı kimi dərc olunan "Təcəddüd" qəzeti öz siyasi sayıqlığının hadisələrə obyektiv münasibətilə fərqlənirdi. 1920-ci il sentyabrın 8-dək çıxmış qəzetin siyasi rəhbəri (1920-ci il Təbriz üsyanı dövründə eyni zamanda redaktoru), onda dərc olunan mühüm məqalələrin çoxunun müəllifi Şeyx Məhəmməd Xiyabani idi. "Təcəddüd" qəzeti çarizmin devrilməsini rəğbətlə qarşılamaqla Rusiya proletariatının inqilabi mübarizəsini böyük sevinclə alqışlayırdı. "Təcəddüd" qəzetində Xiyabaninin məsləkdaşları, xüsusilə istedadlı in-

[729] «Tofiq» qəzeti, 7 mart 1913-cü il.

qilabçı demokrat-publisist Mirzə Tağı xan Rəfət (müəyyən nömrələrin redaktoru kimi) yaxından iştirak edirdilər. Bundan əlavə Rusiyada inqilabi hərəkata həsr edilən məqalələrin çoxu onun qələminin məhsulu idi.[730]

"Təcəddüd" Azərbaycan və bütün İranda konstitusiya qaydalarının yeni tarixi şəraitə uyğun tərzdə bərpasını tələb edən, ölkədə bütün mütərəqqi və vətənpərvər qüvvələri təmsil edən milli-demokratik hökumət yaradılmasını, ingilis imperializminin müstəmləkə ağalığına son qoyulmasını, İranın milli-istiqlaliyyətinin təmin edilməsini zəruri bir vəzifə kimi irəli sürürdü. "Təcəddüd"ün səhifələrində demokratiya, milli-azadlıq və sosial-iqtisadi tərəqqi ideyaları, məslək birliyi və xalqlar dostluğu çağırışları daha radikal və yüksək məzmun daşıyırdı. Qəzetdə kommunizm ideyalarına, dahi Leninə, onun yaratdığı bolşeviklər partiyasına, Sovetlər respublikasına dərin rəğbət hissləri ifadə olunurdu. Bu zaman Azərbaycan şəhərlərində inqilabçı rus əsgər deputatları Sovetlərinin İran zəhmətkeşlərini qardaşlığa, yoldaşlığa və ümumi düşmənə qarşı birgə mübarizə aparmağa çağıran intibahnamələri,[731] habelə Təbrizdə rus dilindıə nəşr olunan "İzvestiya"[732] adlı əsgər qəzeti də mühüm inqilabiləşdirici təsir göstərirdi.

Beləliklə, Cənubi Azərbaycanda çap işi və mətbuatın meydana gəlməsi və yarım əsrdən artıq bir dövrdə inkişafı nəticəsində burada kitab və qəzet nəşri Azərbaycan xalqının ictimai-siyasi və mədəni həyatının mühüm amillərindən birinə çevrildi. Əlbəttə, istehsal vasitələri kimi mətbəələr, qəzetlər də varlı siniflərin, ən əvvəl burjuaziyanın mülkiyyətində olub, əsasən onların mənafeyinə xidmət edir, bir sıra hallarda isə mətbuat vasitələri ifrat mürtəce qüvvələr, şah hakimiyyəti, iri ruhanilər tərəfindən öz ağalıqlarını qorumaq, xalqı cəhalət və gerilikdə saxlamaq üçün istifadə olunurdu. Lakin bütövlükdə götürüldükdə o zamankı şəraitdə kitab və qəzet nəşrində əsas meyl mütərəqqi idi, çap işi və mətbuat

---

[730] «Azərbaycan» qəzeti, 11 dekabr 1945-ci il, No 6.
[731] Ə.Kəsrəvi. Azərbaycan tarixi, ikinci nəşri, səh.678.
[732] Yenə orada, səh.681.

müasir elmi və siyasi biliklərin, mədəniyyətin yayılmasına, ictimai şüurun oyanmasına kömək edirdi. İnqilab illərində isə zəhmətkeş kütlələrin mənafeyini ifadə və müdafiə edən ilk demokratik mətbuat da yarandı.

## 3. ƏDƏBİYYAT

XIX və XX əsrin əvvəllərində Cənubi Azərbaycanın ictimai-siyasi həyatında əsaslı dəyişikliklərin baş verməsi, onların xarakteri burada ədəbi inkişafın istiqamətində də öz əksini tapdı. Bu vaxtadək hökm sürən feodal ədəbiyyatın onun artıq çoxdan köhnəlib vaxtı keçmiş forma və janrları, real həyatdan uzaq olan, mücərrəd mövzuları yalnız bir ovuc yuxarı təbəqənin başa düşə biləcəyi qəliz dil və bədii ifadə vasitələri yeni şəraitdə mütərəqqi ictimai vəzifələrə daha xidmət edə bilmirdi. Onu əvəz edən yeni, müasir həyatın problemləri ilə səsləşməyə çalışan, bunları sadə, geniş dairələrin dərk edə biləcəyi forma və bədii vasitələrlə ifadə etməyə yönəldilmiş yeni ədəbiyyat meydana çıxırdı. Bir çox müsəlman ölkələri, o cümlədən bütün Azərbaycan üçün ümumi olan bu prosesin Cənubi Azərbaycanda təbii olaraq öz xüsusiyyətləri də var idi. Bu özünəməxsusluq onu hətta doğma Şimali Azərbaycanda olan ədəbi proseslərdən də fərqləndirirdi.

Bu fərq, hər şeydən əvvəl, ədəbiyyatın ideyalılığı, ideya məzmunu və ictimai mənsubiyyəti məqsədlərində nəzərə çarpırdı. Şimali Azərbaycanda ədəbiyyat, burada baş verən dərin sosial-iqtisadi dəyişiklikləri, kapitalizmin nisbətən sürətlə inkişafını özündə əks etdirərək çox tez, artıq 80-90-cı illər üçün erkən burjua, yəni məhdud maarifçilik ideologiyasının burjua-demokratik ideologiyaya doğru irəliləyir və XX əsrin əvvəllərindən burada artıq inqilabi-demokratik məslək yetişirdi. 1905-1907-ci illər inqilabı bu prosesi sürətləndirərək ədəbiyyatda daha yüksək, əsl demokratik, proletar cərəyanının yaranmasına təkan verdi. Bütün bunlarla əlaqədar olaraq Şimali Azərbaycandakı ədəbi həyat öz mürəkkəbli-

yi, müxtəlif cərəyanları arasında ideya-siyasi, məfkurəvi ziddiyyətlər və mübarizənin kəskinliyi ilə fərqlənirdi. Burada ən mürtəce, feodal-bəy ideologiyasına, mədəni və estetik normalara qarşı mübarizə bütövlükdə mütərəqqi ədəbiyyatın əsas vəzifələrindən biri olaraq qalırdı. Lakin indi ədəbiyyatın daha mütərəqqi inkişafı üçün burjua millətçilik və inqilabi-demokrat cərəyanlar arasında gedən mübarizə həlledici əhəmiyyət kəsb edir. Bu, konkret ifadəsini orda tapırdı ki, inqilabi-demokratik ədəbiyyat yalnız xalq kütlələrinin cəhalət və gerilik içərisində boğulmasını, çar məmurları, mülkədar və fanatik ruhanilərin zülm və özbaşınalığını təsvir etməklə kifayətlənməyərək (bunu müəyyən dərəcədə burjua-millətçi cərəyanının nümayəndələri də edirdilər), kapitalist istismarının vəhşi mahiyyətini, burjua qaydaları, əxlaq normaları və etikasının antihumanist xarakterini də göstərirdilər (xüsusən N.Nərimanovun, C.Məmmədquluzadənin, M.Ə.Sabirin yaradıcılığında). Marksist ədəbi tənqidinin ideya yardımına "Yoldaş", "Əxbar", "Təkamül", "Bakinski raboçi" qəzetləri səhifələrində), inqilabi rus ədəbiyyatının bədii yaradıcılıq təcrübəsinə arxalanan bu cərəyan Şimali Azərbaycan ədəbiyyatında əsl xəlqilik təsbit edir, onu proletar ədəbiyyatı mərhələsinə qaldırırdı.

Cənubi Azərbaycanda (bütün İranda) ədəbi inkişafın obyektiv şəraiti, yuxarıda deyildiyi kimi, bambaşqa idi. Buna görə burada yaranmaqda olan yeni ədəbiyyat, onun mütərəqqi cərəyanlarının ümumi ideya istiqaməti bəhs olunan dövr ərzində əslində ilkin, məhdud burjua-maarifçilik ideologiyası, liberalizmi çərçivələrindən kənara çıxa bilməmişdi. Bu ədəbiyyatın ideya məzmununu feodal münasibətlərinə qarşı, burjua qanun-qaydaları uğrunda mübarizə təşkil edirdi (məsələn, Z.Marağayinin, Ə.Talıbovun - xüsusən onun yaradıcılığının ilkin mərhələsində, Mirzağa Təbrizinin yaradıcılığında). Şeir və xüsusən nəsrdə ictimai və siyasi hərc-mərclik, dövlət aparatının çürüməsi, ölkənin mədəni geriliyi, dini fanatizm və s. tənqid və ifşa olunurdu. XIX əsrin sonu XX əsrin əvvəllərində mütərəqqi ədəbiyyatda pislənən, satira atəşinə tutulan əsas tiplər xalqı soyan, ona zülm edən hakimlər, mülki və

hərbi məmurlar, feodal-mülkədarlar, cəhalətpərəst ruhani və dərvişlər idi. Bütün bunlara qarşı burjua qanun-qaydalarını yaratmağa can atan, sənaye, ticarət, kənd təsərrüfatı sahəsində kapitalist fəaliyyəti ilə məşğul olmağa, dövlət idarəsində namusla qulluq etməyə çalışan gənc zadəgan, tacir, burjua ziyalı surətləri irəli sürülürdü. Cənubi Azərbaycan ədəbiyyatı kapitalist istismarı, burjua qaydalarını rədd etmək və ya heç olmazsa açıb göstərmək səviyyəsinə yüksələ bilmədi. Doğrudur, 1905-1911-ci illər inqilabının təsiri altında ədəbiyyatda həyatın belə inikasının ilk əlamətləri görünməyə başlamışdı. (Möcüz Şəbüstərinin, Cəmşid Ərdəşir Əfşarın yaradıcılığında), lakin bunlar əsasən publisistika sahəsində nəzərə çarpırdı.

Cənubi Azəbaycanda bu mütərəqqi ədəbiyyata qarşı divan ədəbiyyatı dururdu. Şimali Azərbaycandan fərqli olaraq bütün İranda olduğu kimi, burada da şah və vəliəhdin (Təbrizdə), iri feodalların saray dairələri ilə bağlı olan divan ədəbiyyatı, bir qədər dəyişmiş şəkildə olsa da, qalmaqda davam edirdi. Bu, həm öz ideya-fəlsəfi məzmunu, həm də formasına görə mühafizəkar, mürtəce ədəbiyyat idi. Lakin real həyatda hər iki cərəyan arasında kəskin hüdudlar yox idi. Müxtəlif səbəblərlə əlaqədar olaraq bir sıra hallarda, hətta eyni şair və ya yazıçının yaradıcılığında hər iki cərəyana meyl halları az deyildi.

Əgər yeni ədəbiyyatın meydana gəlməsi prosesinin mənbəyi real varlığın üzü, Cənubi Azərbaycanın ictimai-siyasi həyatındakı dəyişikliklər idisə, onun hansı konkret formalarda olması xeyli dərəcədə yeni ədəbi əlaqələr və ədəbi təsirlərlə bağlı idi.

XIX əsrin əvvəllərinədək, digər Şərq ölkələrində olduğu kimi, bütövlükdə Azərbaycanın da ədəbi əlaqələri və qarşılıqlı ədəbi təsirləri məhdud xarakter daşımışdır. XIX əsrədək Şərq ölkələrində artıq bir neçə əsrdən bəri Şərqin ədəbiyyatı ilə getdikcə daha geniş şəkildə tanış olan, bundan bəhrələnərək öz ədəbiyyatını zənginləşdirən, renessans və maarifçilik dövrünün coşqun inkişafını keçirib keyfiyyətcə yeni, burjua mərhələsinə daxil olmuş Qərb mədəni həyatı, o cümlədən ədəbiyyatı haqqında heç bir real təsəvvür yox idi.

Şimali Azərbaycanın Rusiyaya birləşməsi onun bu mənada “ədəbi təcridliyinə” də son qoydu. Rus ədəbiyyatı, onun vasitəsilə isə Rusiyanın digər xalqlarının, habelə Avropa ölkələrinin ədəbiyyatları ilə qarşılıqlı əlaqələrin yaranması Şimali Azərbaycanda mütərəqqi ədəbi proseslərin başlanması, milli ədəbiyyatın yaranıb inkişafının mühüm amillərindən biri oldu. Artıq XIX əsrin ortalarında Qərb, ən əvvəl rus ədəbiyyatı və ədəbi nəzəriyyəsinin (Belinski, Çernışevski, Dobrolyubov və b.) təcrübəsini mənimsəyərək bunu Azərbaycan və digər müsəlman ölkələrinin şəraitinə uyğun formada tətbiq etməyə çalışan M.F.Axundovun simasında qabaqcıl ədəbi fikir milli ədəbiyyatın inkişafının əsas məsələlərini (məzmun və forma, janrlar və üslublar, ənənə və yenilik, dil məsələləri) irəli sürdü və əsaslandırdı. Başqa yerlərdə olduğu kimi, burada da sonrakı ədəbi proses asan olmamış, bu inkişafda yüksəliş və tənəzzül halları bir- birini əvəz etmişsə də, XX əsrin əvvəllərinə doğru Şimali Azərbaycanda bütün müasir ədəbi janrlar, ən əvvəl nəsr, dramaturgiya təşəkkül tapmış, ədəbi tənqid və publisistika inkişaf etməyə başlamışdı. Ən görkəmli yazının və şairlərin, dramaturqların yaradıcılığı realizm çərçivəsində - tənqidi realizmdən sosialist realizminə doğru inkişaf edirdi.

Qacarlar dövləti tərkibində qalmış Cənubi Azərbaycanda isə qarşılıqlı ədəbi əlaqələr və təsir problemi xeyli mürəkkəb, çətin idi, çünki bu problem Qərb aləmi ilə bütün əlaqələrin (xüsusən ilkin mərhələlərdə) feodal İran dövlətinin daha doğrusu, onun rəhbər dairələrinin mənafeyi və siyasətinə nə dərəcədə uyğun olmasından asılı idi.

Yeni ədəbi əlaqələrin inkişafında ilk addım tərcümə işi oldu. Bir sıra başqa müsəlman ölkələrində olduğu kimi, azərbaycanlılar üçün də tərcümə problemi XIX əsrədək az-çox əhəmiyyətli deyildi - başqa mədəni sahələr kimi, ədəbiyyat da yuxarı təbəqələrin azacıq hissəsinə xidmət etdiyi və fars-ərəb dili ənənəsinin hələ qüvvətli olduğu bir dövrdə bu təbəqənin nümayəndələri qonşu müsəlman xalqların ədəbiyyatı ilə bilavasitə tanış ola bilirdilər. Lakin yeni şəraitdə həm dilcə, həm formaca, həm də məzmunca

tamamilə başqa ədəbiyyat və ədəbi ənənə ilə tanış olmaq vəzifəsi qarşıya çıxdıqda tərcümə işi birinci dərəcəli əhəmiyyət kəsb etdi.

İranda Avropa dillərindən tərcümələrə hələ XIX əsrin əvvəllərində başlanmışdı.[733] Lakin XIX əsrin sonlarınadək əsasən ixtisas ədəbiyyatı - hərbi və diplomatik işə aid kitablar, coğrafiya, kimya, fizika, tarixə dair dərsliklər tərcümə edilirdi və bu işlə xüsusi dövlət məmurları, 1871-ci ildən sonra isə Tehranda yaradılmış idarə - "Darültərcümə" məşğul olurdu. Şəxsən şah, vəliəhd, ali rütbəli məmurlar və az miqdar tələbələrin istifadəsi üçün nəzərdə tutulan bütün bu kitablar, təbiidir ki, fars dilinə tərcümə edilir, həm də bir qayda olaraq çap olunmadan bir neçə nüsxə əlyazması şəklində qalırdı. Bütün bu tərcümə işi bilavasitə bədii ədəbiyyatla əlaqədar olmasa da İranda, o cümlədən Cənubi Azərbaycanda yeni üslubun təşəkkülünə böyük təsir göstərdi. Sadə dillə yazılan, yeni məfhumlarla dolu olan tarixi, tarixi-bioqrafik kitabları, xatirə ədəbiyyatını tərcümə edərkən mütərcimlər yeni ifadə vasitələri axtarmağa sadə və lakonik dilə keçməyə başlayır və beləliklə yeni nəsr üslubunun yaranmasına kömək edirdilər.

Avropa bədii ədəbiyyat nüsxələrinin müntəzəm surətdə tərcümə edilməsi 80-ci illərdə genişləndi. Əvvəllər bu iş dövlət tərəfindən deyil, ayrı-ayrı adamların şəxsi təşəbbüsü ilə aparılırdı və ilk vaxtlar tərcümə üçün seçilən əsərlər bir qayda olaraq "əyləncə" ədəbiyyatı nümunələri idi (Lessaj, Düma, Jül Vern, Molyer). Bu mənada əhəmiyyətli dəyişiklik 1905-1911-ci illər inqilabı dövründə başlandı. Bütün ictimai-siyasi həyatın mürəkkəbləşdiyi, məfkurəvi mübarizənin kəskinləşdiyi, "insan hüquqları uğrunda" mübarizənin genişləndiyi bir dövrdə şəxsiyyət və cəmiyyət, insanın daxili mənəvi həyatı, ailə və məişət məsələlərini qaldıran "böyük" ədəbiyyata ehtiyac və maraq artırdı. Məhz bu zaman realist rus ədəbiyyatının Krılov, Qoqol, Puşkin, Qorki, Tolstoy, Çexov kimi ədiblərinin əsərlərinin tərcüməsinə başlanması tamamilə təbii

[733] İlk tərcümə nəşri 1721-1722-ci illərdə İsfahanın mühasirəsinə həsr olunmuş və katolik missioner polyak Kruşinski tərəfindən yazılmış xatirələr 1819-cu ildə Təbrizdə çapdan çıxmışdır.

idi. Lakin bu işdə o zaman hələ ilk addımlar atılırdı və tərcümələr bir qayda olaraq fars dilinə edildiyindən bu realist ədəbiyyatın Cənubi Azərbaycanda təsir dairəsi hələ güclü deyildi. Bu mənada Şimali Azərbaycanda daha böyük təsir qüvvəsinə malik idi.

Qərb aləminin mədəni, ədəbi həyatı ilə tanışlıq (istər bilavasitə, istərsə də başlıca olaraq Şimali Azərbaycan vasitəsilə) Cənubi Azərbaycanın (eləcə də sonuncunun təsiri ilə bütün İranın) mədəniyyət xadimlərini tezliklə bu qənaətə gətirdi ki, ənənəvi mövzuları əvvəlki bədii vasitələrlə ifadə edən ədəbiyyat daha həyat tələblərinə cavab verə bilmir. 70-80-ci illərdən başlayaraq Cənubi Azərbaycanın mütərəqqi publisistləri, ədibləri getdikcə daha tez-tez köhnə ədəbi ənənə və normalardan, baxışlardan əl çəkməyə, real varlığı əks etdirən, oxucuları yeni ruhda tərbiyə edən əsərlər yaratmağa çağırırdılar. Ədəbiyyatın gələcək inkişafını müəyyən etməli olan bu mühüm məsələ bəhs olunan dövrdə müzakirə edilir, mübahisələr, bəzən klassik irsi tamamilə inkar edən ifrat mülahizələr doğururdu. Artıq 1905-1911-ci illər inqilabının qızğın çağında "Suri-İsrafil" qəzeti (onun iki naşirindən biri olan Mirzə Qasım xan azərbaycanlı idi) yazırdı: "Hamıya məlum olsun ki, son dörd-beş əsr ərzində Avropa xalqları içərisindən Volterlər, Russolar, Puşkinlər, Şatobrianlar, Hüqolar və minlərlə başqa yazıçı və şair irəli çıxaraq ümumbəşəri ideyaları və əsl həqiqəti ifadə etməkdə şeirin və nəsrin təsvir bacarığını Rafaelin rəsmləri və Mikelancelonun heykəlləri səviyyəsinə yüksəltdiyi bir zamanda, bizim ədəbiyyatımız, xüsusən şeirimiz tənəzzülə uğramış, ədiblərimiz isə klassik şairləri təqlid etməkdən başqa bir şey etməmişlər".[734]

Beləliklə, ədəbiyyatın tamamilə yeniləşməsi lüzumu özü-özlüyündə mütərəqqi mədəniyyət xadimləri içərisində şübhə doğurmurdu. Lakin ədəbiyyatın konkret inkişaf yolları, ənənə və yenilik, dil, üslub məsələlərinin necə həll edilməsi konkret cavab tələb edirdi. Şimali Azərbaycan ədəbiyyatının inkişafı istiqaməti, onun nümayəndələrinin publisistik-tənqidi və bədii əsərləri bu mənada da Cənubi Azərbaycan ədəbiyyatına düzgün yol göstərirdi.

[734] «Suri-İsrafil» qəzeti, No 27, 27 rəbiyüləvvəl 1326 (29 aprel 1908-ci il).

İlk dəfə bu problemlər ən dolğun şəkildə M.F.Axundov tərəfindən qoyuldu. Onun yalnız klassik Şərq (Firdovsi, Nizami, Cami, Rumi, Hafiz, Füzuli, Vaqif) və Qərb (Şekspir, Puşkin və b.) söz ustaları deyil, İranın, o cümlədən Cənubi Azərbaycanın müasir yazıçı və şairlərinin yaradıcılığı haqqındakı fikirləri ədəbiyyatın düzgün inkişafı yollarını göstərirdi. M.F.Axundov ümumi mülahizələrlə kifayətlənməyərək, Mirzə Yusif xan Müstəşarüddövlənin və Mirzə Mülküm xanın publisistik və bədii əsərlərinə, Mirzəağanın dram əsərlərinə dair konkret məsləhətləri, İranın məddah və epiqonçu şairlərindən Qaani, Siruşun yaradıcılığı haqqında kəskin tənqidi ilə burada ədəbi proseslərə düzgun istiqamət verirdi. Onun estetik görüşləri və bədii üslubunun Ə.Talıbovun, Z.Marağayinin yaradıcılığına fövqəladə təsiri olmuşdur.

Şimali Azərbaycandakı ədəbi həyatın Cənubi Azərbaycanda yeni ədəbiyyatın inkişafı prosesinə təsiri sonrakı mərhələdə daha güclü olmuşdur. XIX əsrin sonu və XX əsrin ilk illərində, xüsusən 1905-1907-ci illər inqilabı dövründə və ondan sonra Şimali Azərbaycan mətbuatında ədəbiyyat problemləri, ədəbiyyatın cəmiyyətdəki rolu, onun milli xarakteri, dünya ədəbiyyatı ilə əlaqələri və bir çox başqa məsələlər geniş müzakirə olunurdu. Demokratik və xüsusilə marksist ədəbi tənqidin bu problemlərlə əlaqədar çıxışları, xüsusən bu məsələlərin Azərbaycan dilində mətbuatda işıqlandırılması Cənubi Azərbaycanda da öz əksini tapmış olurdu. Məsələn, burada felyeton, pamflet kimi yeni janr növlərinin (Əbülziya, Şəbüstəri), şeirdə ictimai-siyasi satiranın (Möcüz Şəbüstəri) yaranması bilavasitə Şimali Azərbaycan ədəbiyyatının, xüsusən "Molla Nəsrəddin" qrupunun təsiri nəticəsi idi.

**Şeir.** Cənubi Azərbaycan şeirinin inkişafı, nəsrdən fərqli olaraq, demək olar, bütün XIX əsr boyunca ənənəvi ədəbiyyat çərçivələrindən kənara çıxmamış, yəni öz mövzu və formaları, üslub və bədii ifadə vasitələri cəhətdən əvvəlki dövrlərə nisbətən çox az dəyişmişdir. Bu dövrdə də Cənubi Azərbaycan şeirində iki əsas meyl - klassik ədəbiyyat yolu ilə gedən və xalq yaradıcılığına yaxın olan və öz mənşəyini başlıca olaraq aşıq yaradıcılığından alan şeir (qoşma, gəraylı formasında) məzmun və forma, dil sadəliyi

cəhətdən həyatı daha dolğun, realistcəsinə ifadə edir və bir qayda olaraq Azərbaycan dilində yazılırdı. Belə şeirlərdə, insan duyğuları və düşüncələri, təbiət mənzərələri daha canlı, həyati, geniş kütlələrin başa düşəcəyi tərzdə və səviyyədə qələmə alınırdı. Klassik şeir üslubu (qəzəl, qəsidə, məsnəvi, rübai, tərcibənd, tərkibbənd və s. şəkillərdə) isə öz mürəkkəbliyi, əsrlərdən bəri təkrar olan mövzuları və bunları ifadə etmək vasitələrinə, dil qəlizliyinə görə (həm azərbaycanca, həm də farsca yazılan şeirlərdə) məhdud yuxarı təbəqələrin zövqünə cavab verirdi. Bu kimi şeirlərdə duyğu və hisslərin ifadəsi çox vaxt mücərrəd, sxolastik şəkil alır, dini-mistik məfhum və ideyalarla çulğalaşır, bir sözlə, onlar canlı insana, real həyata xeyli dərəcədə yabançı qalırdı. Əlbəttə, şairlərin əksəriyyətinin yaradıcılığında bu iki meyl arasında kəskin hüdud olmamış, onlar çox vaxt hər iki üslubda yazmışlar. Lakin müxtəlif səbəblərlə, misal üçün, sosial mənşəyi və təhsili, təcrübə və dünyagörüşü ilə əlaqədar olaraq bəzi şairlər daha artıq birinciyə, digərləri isə ikinciyə meyl göstərirdilər və məhz bu məsələdə XIX əsrdə xarici təsirin əhəmiyyəti xüsusilə böyük olmuşdur. Belə ki, Rusiyanın tərkibinə daxil olmuş Şimali Azərbaycandakı yazıçı və şairlərlə əlaqələri sıx olan, Rusiyadakı və Avropa ölkələrindəki həyat və mədəniyyətlə tanış olan şairlərin yaradıcılığında realistik ünsürlər, real həyatın hadisələri və tələblərini əks etdirmək təmayülü daha güclü olmuşdur.

Yaradıcılığı əsasən XIX əsrin birinci yarısına təsadüf edən şairlər içərisində ən əvvəl Mehdi bəy Şəqaqini, Məhəmmədxəlifə Acizi, Əndəlib Qaracadağini, Seyid Əbülqasim Nəbatini qeyd etmək lazımdır.

Mehdi bəy Şəqaqi Marağa yaxınlığındakı kəndlərdən birində anadan olmuşdur. Gənc yaşlarından aşıq səpkisində şeirlər yazmağa başlamış və lirik qoşmaları və gəraylıları ilə tezliklə geniş şöhrət qazanmışdır. Mehdi bəy el aşıqları içərisində o dərəcədə hörmət və şöhrət qazanmışdı ki, aşıqlar onun adına dastan qoşmuşlar. Mehdi bəy Şəqaqinin bacısı oğlu Sadıq bəy Şəqaqi də “Sabit” təxəllüsü ilə aşıq şeiri tərzində qoşmalar yazmışdır.

Aşıq səpkisində yazan daha bir şair Məhəmmədxəlifə Acizin həyatı və şəxsiyyəti haqqında demək olar ki, heç bir məlumat yoxdur. Onun şeirlərindən yalnız bu məlum olur ki, XIX əsrin birinci yarısında Sarab şəhəri yaxınlığındakı Qırxbulaq kəndində yaşamış, yazıb-yaratmışdır. Acizin divanı öz dövründə və ya vəfatından az sonra Təbrizdə h. q. 1273 (1855)-cü ildə nəşr olunduğuna görə onun ədəbi irsinin bir hissəsi əlimizə gəlib çatmışdır. Lakin divana bir ənənə olaraq qəzəl, qəsidə, rübai və qitələr daxil edildiyindən, Acizin xalq üslubunda yazdığı əsərlərdən az bir hissəsi həmin kitabda çap edilmişdir. Onun yalnız yeddi gəraylısı bizə məlumdur. Divanında Fətəli şaha, onun vəliəhdi Abbas Mirzəyə həsr etdiyi qəzəlləri, rus-İran müharibələri haqqında tarixi mənzumələri vardır. Divandakı qəzəllərin əksəriyyəti Füzuliyə nəzirədir.

Aşıq səpkisində yazan şairlərin ən görkəmli nümayəndəsi Əndəlib Qaracadaği olmuşdur. Onun da həyatı haqqında çox naqis məlumat hələlik başlıca olaraq əsərlərindən bəllidir. O, Qaradağ mahalının Əhər qəsəbəsində yoxsul bir ailədə anadan olmuş, uzun illər boyu yoxsul həyat keçirmiş, sonralar İrəvana gəlmiş, burada əvvəl Qacarlar dövlətinə tabe olan İrəvan xanlığında katiblik etmiş, İrəvan xanlığı Rusiya imperiyası tərkibinə keçdikdən sonra isə yenə də katib vəzifəsində çalışmışdır.[735]

Əndəlib Qaracadaği öz qəzəl və qəsidələrində Füzuli təsiri altında olduğu halda, aşıq şeiri tərzindəki yaradıcılığında Vaqif məktəbinin davamçılarından biri idi. Bədii irsi içərisində “Leyli və Məcnun” poeması, İrəvanın alınması haqqında mənzuməsi və şifahi xalq ədəbiyyatı tərzində yazdığı aşıqvarı şeirlərini qeyd etmək olar. Onun Füzulinin “Leyli və Məcnun” poemasının təsiri altında eyni vəzndə yazılmış “Qisseyi - Leyli və Məcnun” poeması avtobioqrafik mahiyyət daşıyır. Bu əsərdə müəllifin öz başına gəlmiş aşiqanə macəra təsvir olunur.

---

[735] B a x: Azərbaycan ədəbiyyatı tarixi, 2-ci cild, Bakı, 1960, səh.49.

Əndəlib Qaracadaği öz müxəmməslərində konkret yer, hadisə və əşyanın təsvirini verməkdə sözçülük, mücərrədçilik və sünilikdən müəyyən dərəcədə uzaqlaşa bilmişdir. Onun gəraylıları (“Gəlin”, “Ay mədəd, ay mədəd”, “Görünür”, “Sona”) isə özündən əvvəl yaranmış gəraylılardan daha sadə, səlis və təbii bir dildə yazılmış, bədii cəhətdən daha irəli getmişdir. Bu şeirlərdə fars və ərəb tərkiblərinə qəzəldən gələn təşbeh və istiarələrə çox az təsadüf olunur. Əndəlib Qaracadağinin yaradıcılığı ilə Cənubi Azərbaycan şeirində realizm ünsürləri müəyyən qədər güclənmiş və inkişaf etmişdir.

Bu dövrün satirik şeirinin görkəmli nümayəndələrindən Fazil xan Şeyda təxəllüslü şairi (adı Fətulladır) qeyd etmək lazımdır (1783 - 1852). O, Təbrizdə anadan olmuşdur. Mükəmməl mədrəsə təhsili almış, ərəb, fars dillərini və ədəbiyyatını gözəl bilən Fazil xan 1827-ci ildə Rusiya ilə İran dövlətləri arasında sülh danışıqlarında Abbas Mirzənin münşisi sifətilə iştirak etmiş və bu zaman Abbasqulu ağa Bakıxanovla tanış olmuş, 1829-cu ildə isə Qriboyedovun öldürülməsi ilə əlaqədar olaraq Qacarların Peterburqa göndərdiyi fövqəladə səfarətin tərkibində Rusiyaya gedərək[736] buradakı həyatla tanış olmuş və bu da onun sonrakı yaradıcılığına böyük təsir göstərmişdir. Vətənə qayıtdıqdan sonra Fazil xan Şeyda Qacarlar dövlətinin savadsız, bacarıqsız və satqın məmurlarını, acgöz və riyakar ruhanilərini kəskin satira atəşinə tutur və nəticədə özünə çoxlu düşmən qazanaraq 1844-cü ildə (bir rəvayətə görə 1838-ci ildə)[737] Tiflisə mühacirət etməli olur. Burada o, məşhur şərqşünas N.V.Xanıkovla tanış olmuş və onun köməyi ilə 1847-ci ildə Tiflisdə açılmış “Şiəliyi təlim edən məktəb”də ömrünün sonunadək müəllimlik etmişdir.

---

[736] A.S.Puşkin həmin ildə Ərzruma səyahət edərkən Qafqazda Kazbekdən bir qədər aralı Fazil xanla görüşmüş və öz təəssüratını «Ərzruma səyahət» əsərində yazmışdır. Bax: А.С.Пушкин. Полное собрание сочинений, т. III, М., 1957, səh.145.

[737] «Кавказ» qəzeti, 19 mart 1852, № 19.

Fazil xanın satiralarından bizə gəlib çatanı, A.Bakıxanovun "Təbriz əhlinə xitab" şeirinə nəzirəsidir. Bu şeirdə o, Təbrizin ikiüzlü, xalqı aldadan ruhanilərini və şeyxləri satira atəşinə tutur. Bu satirasında Fazil xan müasiri və dostu A.Bakıxanovdan daha da irəli gedir və şarlatan ruhaniləri, riyakar təriqət başçılarını ifşa edir.

Yenə də bu dövrün Cənubi Azərbaycan şeirinin inkişafı Seyid Əbülqasim Nəbatinin (1812-1874) adı ilə bilavasitə bağlıdır. O, Qaradağın Üştibin kəndində anadan olmuşdur. Mükəmməl mədrəsə təhsili alan Nəbati fars, ərəb dillərini dərindən öyrənməklə həmin dillərdə olan zəngin ədəbiyyat xəzinəsinə yol tapmışdır. Onun şeirlərində Azərbaycan klassikləri Xaqani, Nizami, Füzuli və Saiblə yanaşı, Mollayi-Rumi, Sədi, Hafiz və Nəvainin müsbət təsirini görmək çətin deyildir. "Nəbati", "Xançobanı" təxəllüsləri ilə şeir yazıb, "Məcnunşah" ləqəbi ilə şöhrət qazanmış Seyid Əbülqasimdən Azərbaycan və fars dillərində yazılmış təxminən 7500 misradan ibarət divan qalmışdır.

Nəbatinin yaradıcılığında klassik ənənə ilə şifahi xalq yaradıcılığı üslubu, bir növ, birləşir. Onun şeirindəki təravətin, oynaqlığın və rəvanlığın sirri də məhz bu iki məziyyətin birləşməsində axtarılmalıdır. Divanda olan azərbaycanca şeirlərin çoxu klassik, az bir hissəsi şifahi xalq yaradıcılığı üslubunda yazılmışdır. Vaqif ədəbi məktəbinin gözəl ənənələri ruhunda olan qoşma və gəraylılarda Nəbati real eşqi son dərəcə səmimi tərənnüm etmişdir:

Susuyubdur genə kimin qanına
Xumar-xumar baxar hara gözlərin?
Nola bir də dolanaydım başına,
Qurbanı olaydım qara gözlərin!

Muqəvvəs qaşların etkinən kaman,
Çəkginən müjgandan tiri-cansitan
Bu xəstə canımı qılginən nişan,
Qoy etsin köksümü para gözlərin.[738]

---

[738] N ə b a t i. Əsərləri, Azərbaycan SSR EA Nəşriyyatı, Bakı, 1968, səh.239.

Lakin Nəbati bu kimi lirik şeirlərində nə qədər təbii, nə qədər əzəmətlidirsə, dini-panteist şeirlərində o qədər süni və zəifdir. Bu fərq bir də ondan irəli gəlir ki, Nəbati qoşma, gəraylı və təcnislərdə şifahi xalq şeirinin, xüsusilə aşıq şeirinin epitet, təşbih, istiarə, mübaliğə, təzad, kinayə, işarə, eyham və s. bədii ifadə vasitələrindən geniş istifadə etdiyi halda, klassik üsluba keçdikdə ənənə güclənir və canlı həyatdan, şifahi xalq yaradıcılığından gələn qol zəifləyir.

XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərində ölkənin ictimai və ideya-siyasi, mədəni həyatında başlanmış dəyişikliklər şeirin də inkişafına, nəsrə nisbətən zəif olsa da, təsir göstərməyə bilməzdi. Bu ən əvvəl, şeirin məzmununda, mövzusunda və başlıcası, bunların işlənməsi üsullarında özünü göstərir. Şeirdə qabaqlar da zülm və zorakılıq, kasıblıq və əziyyət, ədalətsizlik və haqsızlıq motivləri olmuşdur. Lakin bunlar, ümumiyyətlə “zülm”, “ədalətsizlik”, az-çox konkret ictimai mahiyyəti sezilməyən, insan cəmiyyətinə xas olan kateqoriyalar kimi şərh edilirdi. Həm də çox vaxt qədim dastan surətləri, əsrlər boyunca xalq fantaziyasının bəzədiyi uzaq keçmişin tarixi faktları və simaları timsalında səsləndirilən bu motivlər obyektiv olaraq mürtəce meylə xidmət edirdi, çünki mütiliyi, möcüzələrə, ədalətli hökmdarın gəlməsinə ümid bəsləmək və səbr etməklə, axirətdə səadət mükafatına nail olmaq ideyalarını təbliğ edirdilər. İndi isə şeirdə ilk dəfə olaraq xalq həyatının real mənzərələrini, ölkənin həyatındakı real hadisələri (məsələn, 1871-1872-ci illər qıtlığı və aclığı, 1891-1892-ci illər “Tənbəki üsyanı”, əcnəbilərin ölkədə ağalığı) əks etdirmək, bəzi maarifçilik ideyalarını təbliğ etmək sahəsində addımlar atılır.

Yaradıcılığında bu yeni meyllərin müəyyən dərəcədə ifadə olunduğu görkəmli şairlərdən biri Məhəmmədbağır Xalxali (1829-1901) idi. Xalxali ərəb, fars və Azərbaycan dillərində çoxlu şeir yazmışdır, lakin ona geniş şöhrət gətirən 1894-cü ildə Təbrizdə ayrıca kitab şəklində çap olunmuş “Sələbiyyə” (“Tülkünamə”) mənzum hekayəsidir. Zahirən uşaqlar və sadə adamlar üçün yazılmış bu məsnəvidə təmsil şəklində tülkü vasitəsilə həyatın,

xüsusilə zəhmətkeş kəndlilərin ağır məişətinin real təsviri verilmişdir. Xalxali cəmiyyətdə olan zülm və bərabərsizliyə işarə edərək yazır:

Birisinə müyəssər nazu-nemət,
Birisi ac, çəkir yüz min məzəllət.
Birisi başa qoymuş taçi-şahi,
Birisi baş açıq, yoxdur külahi...
Biri nökər, birisi xan olubdur,
Biri tabin,[739] biri sultan olubdur...[740]

Burada din xadimləri, tamahkar və vicdansız ruhanilər ifşa edilir:

Adın molla qoyub süzdürmə qaşın,
Əməl istəllə çox oynatma başın.
Özün "latə kulu"[741] hökmün deyərsən
Yetimin malını yekca yeyərsən...
Deyil layiq sənə alim desinlər
Yeri vardır sənə zalim desinlər![742]

Xalxali xalq dilinin zənginliyindən, çoxlu atalar sözü və misaldan bacarıqla istifadə edərək əsərlərinin didaktik səviyyəsini yüksəldir. Xalxalinin yaradıcılığı ilə, xüsusilə onun "Sələbiyyə"si ilə Cənubi Azərbaycan poeziyasında realizm xətti daha da güclənir. Lakin Xalxali də sələfləri kimi, cəmiyyətdə hökm sürən ədalətsizliyin sinfi mahiyyətini başa düşməyərək bunu "allahın işi" hesab edir və məzlumları zülmə dözməyə çağırırdı.

XIX əsr Cənubi Azərbaycan ədəbiyyatının görkəmli şəxsiyyətlərindən biri də ictimai xarakterli satiraları ilə şöhrət tapmış

---

739 Tabin - sıravi (əsgər) (*farsca*).
740 Ağa Mirza [Məhəmməd] Bağır Xalxali. Sələbiyye, Təbriz, 1312 h.q./1894, səh.302
741 Latəkulu - yeməyin (*ərəbcə*).
742 Ağa Mirza [Məhəmməd] Bağır Xalxali. Sələbiyye, səh.17

Hacı Mehdi Şükuhidir (1829-1897). O, Təbrizdə sənətkar ailəsində anadan olmuş, bir neçə il atasının aynasazlıq sənətini davam etdirmişdir. 21-22 yaşında ikən Şükuhi Marağaya köçüb ömrünün axırınadək burada xırda alverlə məşğul olur.

1885-ci ildə Şükuhi Məkkə səfəri zamanı bir neçə gün İstanbulda qalaraq oradakı azərbaycanlı və iranlı siyasi mühacirlərlə yaxından tanış olmuşdur ki, bu da onun yaradıcılığına və dünyagörüşünə müəyyən təsir göstərmişdir.

Şükuhinin ədəbi irsinin əsas hissəsini lirik şeirlər təşkil edir. Qəzəl, qəsidə, müxəmməs, müstəzad, tərkibbənd və tərcibəndlərində Şükuhi Füzuli məktəbinin davamçısı kimi çıxış edir. Ancaq onun lirikasında qoşma, gəraylı və təcnis də müəyyən yer tutur. Şifahi xalq şeiri səpkisində yazılmış bu kimi əsərləri ilə o, Nəbatidən sonra Vaqif məktəbinin Cənubi Azərbaycanda ən görkəmli davamçışı sayılır. Onun əsərləri içərisində bəzən növhələrə də rast gəlsək də, bunlar azlıq təşkil edir və çox ehtimal ki, şairin yaradıcılğnın ilk dövrünün məhsuludur. Onun ədəbiyyatımızda simasını təyin edən əsərləri, lirik şeirləri və ictimai satiralarıdır. Bu satiraların çoxu konkret tarixi hadisələrə və müəyyən şəxslərə həsr edilsə də, onlar dar çərçivədə qalmayıb, əksər hallarda ümumiləşdirilmiş xarakter daşıyır, ictimai əhəmiyyət kəsb edir. Bu cəhətdən Şükuhinnn Əbdüşşəkur ağaya yazdığı həcvi xüsusilə diqqəti cəlb edir. Bu satira yalnız Əbdüşşəkur ağanın ifşası ilə məhdudlaşıb qalmır, onun kimi bütün fırıldaqçı ruhanilər və feodallar satira hədəfinə çevrilir.

Şükuhinin başqa bir əsəri “Münazireyi-əql və eşq” adlanan mənzum hekayəsidir. Füzulinin “Bəngü-badə” poemasının bilavasitə təsiri altında alleqorik şəkildə yazılmış bu əsərdə Şükuhi kainat, təbiət, cəmiyyət və həyat haqqında öz fikrini söyləyir, feodal quruluşuna, dini ehkama və mövhumata qarşı münasibətini bildirir. Bu əsərdə Eşq - həyat, yaradıcılıq, şən və azad yaşayış rəmzidir. Əql - hakimiyyət, güc və rəyasətin nümayəndəsidir. Əql ilə Eşq arasında müharibə baş verir. Hər iki tərəf ağır tələfat verməli olur. Əqlin oğlu Dil və Eşqin qızı Hüsn də müharibəyə qoşulurlar. Müharibə Eşqin və onun qızı Hüsnün qələbəsi ilə nəticələnir.

Şükuhi şeirdə dilin sadəliyi və rəvanlığına, vəznin oynaqlığına, sözün ahəngdarlığına xüsusi diqqət yetirən şairlərdəndir. Onun əruz və ya heca vəznində yazdıqı şeirləri vəzn etibarilə də rəngarəngliyi ilə fərqlənir. Şair bəzi şeirlərində gözəl rədiflərlə bir sırada daxili qafiyələr işlətməklə onların bədii səviyyəsini daha da qaldırmış, rəvan oxunması, tez əzbərlənməsi və xalq içində daha geniş yayılmasına nail olmuşdur. Təbiət mənzərələrinin təsvirində Şükuhinin xüsusi məharəti var idi. Lakin bütün bunlar şeirin müasirlik və əsl xəlqiliyə yaxınlaşmasında hələ ilk, çox zəif addımlar idi. Şeir, şairlərin əksəriyyətinin yaradıcılığı başlıca olaraq yenə də köhnə ideallar, təsəvvür və məfhumlar, forma və bədii ifadə vasitələri buxovlarında qalmaqda idi. Bu addımların genişlənərək dönməz mütərəqqi meylə çevrilməsi üçün ən qüdrətli təkan 1905-1911-ci illər inqilabı oldu. İnqilabın Azərbaycanda, xüsusilə Təbrizdə geniş vüsət alan hadisələri, hətta həyat və yaradıcılığının çox hissəsi əvvəlki dövrdə, başqa ədəbi ənənələr mühitində keçmiş şairləri də laqeyd qoymadı. Onlardan bəziləri inqilabı alqışlayaraq, öz dünyagörüşlərinə uyğun olaraq xalqı, qeyri-ardıcıl da olsa, zülm və ədalətsizliyə qarşı mübarizəyə, bu yolda irəli getmiş xalqlardan nümunə götürməyə çağırırdılar. Bu mənada Rza Sərrafın (18...-1907) 1906-cı ildə təbrizlilərin irticaçılar əleyhinə etiraz nümayişi və bəstə oturması ilə əlaqədar olaraq yazdığı "Vəqti-səhərdi" adlı şeiri səciyyəvidir:

Ey milləti-islam, oyan, vəqti-səhərdi,
gör bir nə xəbərdi.
Bəsdir bu qədər yatma, çürürsən, nə xəbərdi
gör bir nə xəbərdi.
Qafil düşübən dinini dünyaya satıbsan,
yüz ildi yatıbsan.
Yatmaq belə olmaz, bu ölümdən də betərdi,
dur, vəqti-səhərdi.
Min yerdən ediblər səni biçarə əhubba,[743]

[743] Əhubba - dostlar (*ərəbcə*).

tərpənmisən əsla.
Tapdır səni həmsayələrin, durma, deyir, yat!
keçmiş ola, heyhat!

Bu dövrdə hər kimsə yata, qani hədərdi,
dur, vəqti-səhərdi.
Gün oldu günorta hamı yatmışlar oyandı,
öz eybini qandı.
Sən yat, qoy olar dursun, olar çünki bəşərdi,
dur, vəqti-səhərdi.
Çək yorğanı başə bədənin şıp-şıpa tərdi,
dur, vəqti-səhərdi.
Çox tərləmisən, heç xəbərin yoxdu bişirsən,
tərpənmə, üşürsən.
Bidərdliliyi boşlama, axtarma həmiyyət,
lazım deyil qeyrət,
Qeyrət dediyin başa bəla, canə xətərdi,
dur, vəqti-səhərdi.

İnqilab illərində gözəl, mübariz şeirlər yazan qocaman şairlərdən biri də Mirzə Əbdülhüseyn Xazin olmuşdur. Savadsız olmağına baxmayaraq, Xazin istedadlı şair idi. O, sinədəftər şeir deyir, başqa birisi onun sözlərini yazıya alırdı.

Azərbaycan və bütün İran xalqlarının milli-azadlıq hərəkatına qoşulan, xalqın mübarizəsini alqışlayan şairlərdən biri də Mirzə Əli xan Ləlidir (1837-1907). Qocaman şair inqilab dövründə həyatının son illərini keçirirdi. Xəstəliyinə baxmayaraq, Təbrizə gəlmiş, Azərbaycan Əyalət Əncüməninin fəaliyyətini alqışlamışdır. Ləli ziddiyyətli bir şair olmuşdur. O, uzun illər İranın hakim dairələrini mədh edən çoxlu şeirlə yanaşı, öz kəskin satiralarında zülmə qarşı çıxmış, ədaləti müdafiə etmişdir. Xalqın dilənçi vəziyyətini və əzablarını təsvir edən əsərlər (məsələn, qıtlıq və aclıq ilə əlaqədar şeirlər) də yazmışdır. Onun yaradıcılığı gözəl həcvlərlə yanaşı, güclü incə və duzlu bir lirika ilə də zəngindir.

İnqilabın gənc nəslə, xüsusən bu dövrdə hələ dünyagörüşü yenicə yetkinləşməyə, yaradıcılığı yeni başlayıb əsasən sonrakı dövrdə çiçəklənən şairlərə daha güclü təsiri olmuşdur. Belə şairlər sırasında ilk növbədə Cənubi Azərbaycan şeirində romantizm məktəbinin banilərindən biri Səid Səlmasini (1888-1909) qeyd etmək lazımdır. Səid Səlmasinin şeirlərində dərin bir duyğu, zəngin bir xəyal vəhdətdədir. Zülm və istibdada qarşı nifrət və mübarizəyə çağırış şairin tərənnüm etdiyi ideyanın əsasını təşkil edir, bədii çağırış və xitabları onun şeirlərinin təsir qüvvəsini artırır. Vətənə məhəbbət və gələcəyə nikbin inam Səlmasi üçün mücərrəd bir şey deyildi, o, sədaqətini şəxsi həyatı, Azərbaycanda əksinqilabi qüvvələrə qarşı vuruşmalarda ölümü ilə də sübut etmişdir. Bununla yanaşı, Səid Səlmasi lirik və romantik şair idi, çirkinlikdən gözəlliyə, zülmətdən işığa can atırdı.

Cənubi Azərbaycan poeziyasının daha bir görkəmli nümayəndəsi Mirzə Əli Möcüz Şəbüstərinin (1873-1934) erkən yaradıcılığı da bu dövrə düşür. Onun şeirlərinin əksəriyyəti ən yeni dövrdə yazılmış və dərc edilmiş olsa da, artıq İran inqilabı illərində əsasən satirik əsərləri əlyazmaları şəklində və ağızdan-ağıza yayılaraq ona geniş şöhrət qazandırmışdı. Bu əsərlərdə ("Canlı cənazə", "Ziyafət və fəlakət", "Aşiqi-pərişan") o, zəhmətkeş kütlələrin dözülməz güzəranını təsvir edir, mülkədar-feodalların, xanların zülmünü ifşa edir, irticaçıların, təəssübkeş ruhanilərin cəhalət və nadanlıqlarını qamçılayır, imperialist dövlətlərin İrandakı fitnələrini açıb göstərirdi. Sabir və ümumiyyətlə, "Molla Nəsrəddin" üslubunun güclü təsiri altında olan bu əsərlər xalq kütlələrini oyatmaqda əhəmiyyətli rol oynadı.

Beləliklə, Cənubi Azərbaycan poeziyasının XIX-XX əsrin əvvəllərində inkişafının ümumi meyli real həyata yaxınlaşmaq, onun ən vacib, təxirəsalınmaz problemlərini əks etdirmək istiqamətində olmuşdur. Lakin o zaman bu meyl hələ yenicə müəyyənləşirdi və bariz şəkil almamışdı. Yeni məzmunun, məfhum və anlayışların, mütərəqqi ideyaların ən dolğun şəkildə ifadəsi yeni ədəbi formalar, bədii ifadə vasitələri tələb edirdi, bunlar isə hələ yetişməmişdi.

**Nəsr**. XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərində Cənubi Azərbaycanda ədəbi prosesin ən mühüm, mütərəqqi cəhəti, burada yeni nəsrin yaranmağa başlaması idi. Bu dövrün nəsri öz janr və üslub rəngarəngliyinə, bədii ifadə vasitələri və kompozisiya zənginliyinə görə böyük ədəbiyyat səviyyəsinə qalxa bilməsə də, bədii cəhətdən bir qədər zəif olsa da, məhz nəsr yeni ictimai ideyaların, yaradıcılıq prinsiplərinin və estetik ideallarıın ifadəçisi oldu. Müasir varlığı realistcəsinə əks etdirməyə çalışan nəsr, milli ədəbiyyatın yaranması prosesinin ilkin mərhələsinin (maarifçiliyin) məzmun və formalarına başqa janrlardan daha çox yaxınlaşdı.

Yeni nəsrin yalnız məzmunu, ideya istiqaməti deyil, xeyli dərəcədə formaları da (xüsusən ədəbiyyatda yeni keyfiyyət dəyişikliklərinin başlanmasına təkan vermiş 1905-1911-ci illər inqilabınadək) bilikləri təbliğ etmək, xalqı maarifləndirmək vəzifələri ilə müəyyən olunurdu. Buna görə nəsrin ən əvvəl elə növləri inkişaf edirdi ki, bunlar, bir tərəfdən, bu və ya digər fikri, faktlar məcmusunu oxucuya çatdırmağa maksimum imkan versin, digər tərəfdən, o zamankı oxucunun asanlıqla başa düşdüyü mövcud ənənəvi formalara yaxın olsun. Bir çox xalqların ədəbiyyatlarında qədimdən mövcud olan dialoq forması bu tələblərə daha çox müvafiq idi. Dialoq formasının üstünlüyü onda idi ki, cüzi bədii ifadə vasitələri, ən bəsit və bir qayda olaraq şərti kompozisiya ilə kifayətlənməklə, yəni nə yazıçının xüsusi ustalığına, nə də oxucunun yüksək səviyyəsinə ehtiyac olmadan öz əsas informativ-didaktiv, tərbiyəvi vəzifəsini asanlıqla yerinə yetirməyə imkan verirdi.[744] Cənubi Azərbaycanda (ümumiyyətlə, İranda) ənənəvi "səfərnamə" və "xabnamə" formalarından da istifadə edilməklə dialoq XIX əsrin axırları - XX əsrin əvvəllərində yaranmaqda olan yeni nəsrin əsas forması, maarifçi realizm isə əsas bədii metodu oldu (xüsusən onun ən görkəmli nümayəndələri Z.Marağayinin və Ə.Talıbovun

---

[744] L.Olşkinin dialoq formasına dair fikri bilavasitə Qərb renessans ədəbiyyatı haqqında olsa da, XIX əsrdə Cənubi Azərbaycana (İrana) da aid edilə bilər: «Dialoq nəsrin ən elastik forması olub, sərbəst quruluşu sayəsində istənilən qədər bilikləri ifadə etməyə qadirdir (sitat, L.M.Batkinin məqaləsindən verilir. Bax: «Из культуры средних веков и Возрождения», M., 1976, səh.182).

yaradıcılığında). Lakin qeyd etmək lazımdır ki, Cənubi Azərbaycan (ümumiyyətlə, Şərq) nəsrindəki dialoq bu dövrdə xeyli dərəcədə səthi, zahiri idi; dialoqun əsas xüsusiyyəti, yəni hər hansı bir həqiqətin mübahisə yolu ilə, fikir və nəzəriyyələrin qarşı-qarşıya qoyulması və mübarizəsi yolu ilə təsbit olunması burada çox zəif idi. Əslində bu əsərlərdəki dialoq bəsit sual-cavab idi.[745]

Yaranmaqda olan yeni nəsrin janr növlərinə gəldikdə isə ən əvvəl nəsrin kiçik formaları deyil, iri formaları, xüsusən satirik roman forması yetişir. Şimali Azərbaycan nəsrindən fərqli və ilk baxışda gözlənilməz olan bu hal, bir çox ölkələrdə geniş yayılmış maarifçilik ədəbiyyatlarına xas idi.

Belə ədəbiyyatın ilkin nümunələrindən biri Mirzə Yusif xan Müstəşarüddövlənin "Biliklər xəzinəsi" əsəri idi.[746] Həcmcə böyük olmayan və uşaqlar üçün dərslik kimi nəzərdə tutulmuş bu kitabçanın məzmununu populyar xarakterli bəzi təbii-elmi məlumatlar təşkil edir. Bilavasitə bədiilik burada hələ yox dərəcəsində olub, yalnız əsas mövzuya keçmək üçün qısa təsvir və izahatlardan ibarətdir. Kitabça belə başlanır: "Şərq şəhərlərindən birində Mirzə Bəhram adlı bir müəllim yaşayırdı. Onun yanında adlı-sanlı ailələrdən olan altı uşaq oxuyurdu". Bunun ardınca müəllif 5-7 yaşlarında olan bu uşaqlar (üç qız və üç oğlan) və onların müəllimi haqqında qısa məlumat verdikdən sonra əsas mətləbə, yəni elmi-populyar materialı şərh etməyə keçir. Bu hekayət müəllimin uşaqları imtahan etməsi kimi sual-cavab formasında aparılır və yalnız ara-sıra "sabahı günü", "istirahətdən sonra" ifadələri ilə və bir neçə kiçicik təsvirlə (birinin tənbeh, digərinin təşviq edilməsi haqqında) məhdudlaşır.

---

745 Maraqlıdır ki, fransızcadan sərbəst tərcümə edilmiş belə əsərlərdən birinin farsca adı «Nə üçun? Ona görə ki...» qoyulmuşdur. Ketab-e mostətab. Çera be in cəhət (*Dəyərli kitab. Nə üçun? Ona görə ki...*), Tehran, 1318 h.q./1900.

746 Gəncine-ye daneş. Təlif-e Motəmedüssoltan Mirza Yusif xan Mostəşarüddoule (*Mütəmədüssoltan Mirzə Yusif xan Müstəşarüddövlə. Bilik xəzinəsi*), Tehran, 1318 h.q./1900. Kitab 1900-cü ildə çap olunsa da mətndə göstərilən tarixlərdən göründüyü kimi 1873-cü ildə yazılmışdır. Əlbəttə, 1900-cü il üçun əsər məzmunca köhnəlmiş, əhəmiyyətini itirmişdi.

1880-1900-cü illərin əvvəllərində elmi-populyar biliklərin belə bədiiləşdirilmiş təbliği forması bütün İranda xeyli yayılır, buna hətta o dövrün qəzet səhifələrində də rast gəlmək olur. Bu kimi əsərlərdə bədii ifadə vasitələrinə müraciət edilməsi halları artır, onlar bədii nəsrin inkişafında mühüm bir amilə çevrilir. Bunlar içərisində ən məşhuru və öz növbəsində bir sıra digər təqlidlər doğuranı Ə.Talıbovun "Talıbi xəzinəsi ya Əhmədin kitabı" əsəridir. İlk dəfə 1893-cü ildə İstanbulda çap olunan və sonralar iki dəfə yenidən nəşr edilən (bu, o zaman üçün nadir bir hal idi) "Əhmədin kitabı" əslində dialoqun bəsit bir növü idisə də, (Talıbovun özü birinci nəşrin müqəddiməsində onu "sual-cavab kitabı" adlandırmışdı), burada artıq bədii ədəbiyyatın bir sıra ünsürlərini daha aydın görmək olur.

"Əhmədin kitabı" (əsər birinçi şəxs adından yazılmışdır) kompozisiya cəhətdən mürəkkəb deyildir. Bu, əsasən ata (müəllif) ilə onun kiçik yaşlı oğlunun arasında gedən 18 "söhbətdən" (bəhsdən) ibarətdir. Bu söhbətlər daxilən bir-birilə möhkəm bağlı deyil, onlardan hər hansının yerinin dəyişilməsi və ya ixtisar olunması ümumi kompozisiyaya xələl gətirməz. Təbii-elmi, bəzən isə ictimai-siyasi mövzuda (belə halda söhbət deyil, atanın düşüncələri şəklində) populyar mühazirə və ya bəzi fiziki, kimyəvi təcrübələrin təsvirindən ibarət olan bu "söhbətlər", xüsusən kitabın əvvəllərində, bədiiləşdirilmiş məişət səhnəcikləri (Əhmədin məktəbə getməsi, evdə oynaması, atasının yanına gəlməsi və i. a.) ilə başlanır və ya bitir. Lakin getdikcə belə səhnəciklər, bədii ifadə vasitələrinə müraciət olunması azalır və müəllif daha çox elmi-populyar və hətta əsərin sonunda sırf publisistik üsluba keçir. Belə ki, 18-ci "söhbətin" axırında bilavasitə müəllifin öz sözləri əlavə edilir: "Mənim bir tanışım, məşhur alim içəri girdi... O mənə bütun "Əhmədin kitabı" üzrə suallar verib dedi: - Əgər bu kitab da, sənin digər əsərlərin kimi çap olunmadan qalsa nə xeyri var?... Öz adımdan və digər vətənpərvərlərin adından xahiş edirəm ki, kitabı bitirən kimi nəşr edəsən".

Beləliklə, "Əhmədin kitabı" da şərti olaraq bədii ədəbiyyata aid edilə bilər; əsər oçerkə və ya dərsliyə daha yaxındır. Bununla

bərabər, Şimali Azərbaycanda da ziyalılar tərəfindən böyük rəğbətlə qarşılanmış, dilinin səlisliyi, sadəliyi, ən başlıcası, məzmununun yeniliyi və əhəmiyyətinə görə "Əhmədin kitabı" Cənubi Azərbaycanda və ümumiyyətlə İranda yeni nəsrin yaranmasında böyük bir addım oldu.[747]

Cənubi Azərbaycan nəsrində tam mənada bədii ədəbiyyata aid edilə biləcək ilk böyük əsər Zeynalabdin Marağayinin "İbrahim bəyin səyahətnaməsi" romanı (1896) oldu. Şərq ölkələrində, o cümlədən Azərbaycanda çoxdan bəri oxucuya tanış olan ənənəvi "səyahətnamə" və ya "səfərnamə" formasında yayılmış bu romanın məzmunca və ideyaca mündəricəsini İranda mövcud feodalizm quruluşu və hakim siniflərin xalqa zülmünün, onların mürtəce ideologiyası və əxlaq formalarının burjua maarifçiliyi mövqeyindən təsviri, ifşası və tənqidi təşkil edir. Əsərin kompozisiyası, bədii ifadə vasitələri, (romanın əsas mətləbi dialoq və monoloqlar formasında şərh olunur) dil və üslubu məhz bu əsas məqsədə xidmət edir. Roman kəskin kontrastlar və təzadların bir-birinə qarşı qoyulması, toqquşması üzərində qurulmuşdur. Öz kompozisiyasına görə əsər iki hissədən - əsas qəhrəman İbrahim bəyin atasının köhnə dostu, İstanbulda yaşayan iranlı bir mühacir adından danışılan proloq, epiloq və bilavasitə İbrahim bəyin özünün

[747] Ə.Talıbovun bu əsəri böyük müvəffəqiyyət qazandı. Yəqin ki, məhz bu müvəffəqiyyət bir neçə il sonra onu bir daha bu formaya müraciət edərək «Həyat məsələləri və ya Əhmədin kitabı» adlı yeni əsər yazmağa sövq etmişdir (Əbdürrəhim ibn Şeyx Əbu Talib ibn Əlimurad Nəccar Təbrizi. Məsayel-e əl-həyat ya ketab-e Əhməd, Tiflis, 1324 h.q./1906). Əvvəlkinin bir növ davamı olan bu əsərdə oxucu artıq böyüyüb həddi-büluğa çatmış Əhmədlə rastlaşır. O, kamil təhsil almış vətənpərvər bir gəncdir, vətəninin geriliyi və səfalətinə görə iztirab çəkir. Əhmədlə atası (birinçi kitabdan fərqli olaraq burada danışan əsasən Əhməddir), habelə tamamilə köhnəpərəst tipini təmsil edən Rzaqulu adlı şəxs arasında ictimai-siyasi mövzuda gedən söhbətlər bu kitabın mündəricəsini təşkil edir. Lakin birinci kitabdan fərqli olaraq burada da bədiilik son dərəcə zəifdir və yalnız «mən soruşdum», «o cavab verdi», «iki nəfər dostlardan içəri girdi» kimi ara cümlələrindən ibarətdir. Başqa sözlə, «həyat məsələləri» daha çox publisistik əsərdir.

yol xatirələrindən ibarətdir. Proloqda İbrahim bəy hekayətçi tərəfindən təqdim olunur və beləliklə, oxucuya İbrahim bəyə sanki kənardan baxmaq imkanı verilir. İbrahim bəy uzun illərdən bəri Misirə köçmüş varlı azərbaycanlı tacirin oğludur. Burada o, mükəmməl təhsil almış, Avropa ölkələrinin həyatı ilə tanış olmuş, namuslu və vicdanlı, vətənini sevən bir gəncdir. Qürbətdə vətəninə xüsusi bir ehtiras və məhəbbət hissi bəsləyən İbrahim bəy İranı azad, əhalinin rahat yaşadığı bir ölkə, şah və məmurlarının ədalətlə idarə etdiyi, başqa dövlətlər içərisində nüfuza malik bir dövlət kimi təsəvvür edir. Bütün bunları öz gözü ilə görmək üçün o, İrana səfər etmək qərarına gəlir və səfər ərzində bütün gördüklərini, başına gələn müsibətləri gündəlik şəklində qeyd edir. Romanın çox hissəsini təşkil edən bu gündəlikdə oxucunun İbrahim bəyin gözü ilə gördüyü İran tamamilə başqa ölkədir: burada ümumi səfalət hökm sürür, xalq, şah, vəzirlər və qaniçən məmurlar tərəfindən vəhşicəsinə qarət olunur, hər yerdə zorakılıq və ədalətsizlik, satqınlıq, cəhalət, fanatizm hökm sürür.

Beləliklə, Z.Marağayinin "İbrahim bəyin səyahətnaməsi" əsəri öz məzmununa görə kəskin tənqidi əsərdir. Bu tənqidi Z.Marağayi romanın bir çox yerlərində bədii ifadə vasitələrindən, xüsusilə satirik təsvir priyomlarından istifadə etməklə verə bilmişdir (ilk növbədə müxtəlif məişət səhnəciklərinin təsviri, İran hakim dairələrinin nümayəndələrini təmsil edən tiplərin qələmə alınması). Z.Marağayinin əsəri o zaman bütün İranda, eləcə də Şərqin bir çox ölkələrində, o cümlədən Şimali Azərbaycanda[748] geniş oxucu kütləsi tərəfindən maraqla, mürtəce qüvvələr tərəfindən isə kin və qəzəblə qarşılanmışdı. İrandakı hadisələr və personajlar ilk nəzərdə bəzən (xüsusilə müasir oxucu üçün) bir qədər mübaliğəli, karikatura kimi görünsə də, o zamankı Qacarlar dövlətinin, o cümlədən Cənubi Azərbaycanın ictimai, siyasi, mədəni

---

[748] M.F.Axundovun «Fəlsəfi məktubları»nın bilavasitə təsiri ilə yazılmış «İbrahim bəyin səyahətnaməsi»nin Şimali Azərbaycanda müvəffəqiyyət qazanması, geniş yayılması, romanın burada ədəbiyyatın Cəlil Məmmədquluzadə kimi nümayəndələrinin yaradıcılığına təsiri haqqında bax: Əziz Mirəhmədov. Azərbaycan Molla Nəsrəddini, Bakı, 1980, səh.81-95.

həyatının realistcəsinə təsviri idi. Lakin əsərdə İranın düşdüyü fəlakətli vəziyyətdən çıxış yolu göstərilmir. Bu isə hər şeydən əvvəl, Z.Marağayinin ictimai-siyasi görüşlərindəki burjua məhdudluğundan irəli gəlirdi. İbrahim bəy böyük məhəbbətlə sevdiyi vətənindəki dəhşətləri görsə də, aciz qalır, heç bir çıxış yolu görmür və əsərin sonunda nəhayət, xəstəliyə düçar olur.

Bir neçə il sonra, 1905-1911-ci illər inqilabı dövrundə Z.Marağayi romanın daha iki cilddə davamını yazdı. Lakin bunlar həm bədiiliyi, həm də xüsusən məzmun cəhətdən birinci cild səviyyəsinə qalxa bilmədi. Bununla belə, "İbrahim bəyin səyahətnaməsi" o zamankı şəraitdə Cənubi Azərbaycan nəsrinin, bütün İranda ədəbiyyatın inkişafında irəliyə doğru böyük addım olub, bu sahədə yeni müvəffəqiyyət əldə edilməsi üçün təkan rolunu oynadı.

Belə böyük ədəbi müvəffəqiyyətlərdən biri Ə.Talıbovun "Pak adamların məsləkləri" adlı əsəri oldu. Həcmcə iri, çoxlu personajı olan və birinci şəxs adından yazılan bu səyahətnamə-romanın kompozisiyası daha mürəkkəbdir. Müəllif burada hekayət içərisində hekayət, epistolyar janr formalarından istifadə etmiş, müxtəlif məişət səhnəciklərinin təsvirini vermişdir. Romanın qısa məzmunu belədir: yaxşı təhsil almış, nazirliklərdən birində qulluq edən gənc vətənpərvər Möhsün və onun dörd dostu tədqiqat üçün Əlvənd dağına ezamiyyətə göndərilirlər. Onlar yolda bir-biri ilə, habelə rastlaşdıqları müxtəlif adamlarla - kəndli və sənətkarlar, dərviş və mollalar, tacir və mülkədarlar, xan və əyanlarla elmi, əxlaqi, ictimai-siyasi mövzuda söhbətlər aparırlar. Səfərin özü, qəhrəmanların keçdiyi yerlərin canlı təsviri əsərdə, demək olar, yoxdur. Romanın çox hissəsini məhz söhbətlər təşkil edir. Lakin söhbətlər, bir qayda olaraq, qəhrəmanların xarakterini, daxili aləmini açıb göstərən, onların əhvali-ruhiyyəsindən doğan qızğın mübahisə və dialoqlardan daha çox bu və ya digər mövzuda uzun nəsihətamiz monoloqlar kimi səslənir. Romanda canlı, obrazlı danışıqla əsasən müəllifin ideya və arzularını ifadə etməli olan mühüm məsələlərin şərhində deyil, bəzən məişət səhnəciklərinin təsvirində rastlaşmaq olur. Möhsün və onun dostlarının bir kənddə gecələməsi, savadsız kətxudaya, onun mirzəsinə özləri haqqında

məlumat verməli olduqları səhnəciyin təsviri bu cəhətdən diqqətəlayiqdir. Mirzə, Möhsünün hansı yerdən olduğu ilə maraqlanaraq Semnan şəhərinin adını eşitdikdə soruşur: “Bu Semnan şəhəri haradadır? - Kətxuda dedi: - Mən öz alayımla birlikdə Xorasana yürüş edərkən Semnan və Damqandan keçmişdik. Belə şəhər var, yaz... - Sonra [mirzə yenə də] soruşdu: - Peşən nədir? Mən cavab verdim ki, mühəndisəm. O, üzünü kətxudaya çevirib sanki ondan bilmək istəyirdi ki, Xorasan yürüşü zamanı belə bir peşəyə rast gəlibmi? Lakin kətxuda susmuşdu və mirzə dedi: - Zarafat yeri deyil, deginən peşən nədir? Hər gün kəndimizdən əlliyədək zəvvar keçir - kimisi baqqal, kimisi xarrat, biri çəkməçi, o birisi dəmirçi, amma mühəndis peşəsini heç eşitməmişəm. Düzünü de, peşən nədir?.. Məni gülmək tutdu, lakin özümü saxladım, Hüseyn isə davam gətirməyib qəhqəhə çəkdi”.[749]

Bu kimi səhnəciklər romanda az deyildir. Onların bir çoxu bir-birilə, əsərin ana xəttilə zəif bağlansa, illüstrativ xarakterdə olsa da, birlikdə götürüldükdə o zamankı İranın ictimai həyat və məişətinin realistik mənzərəsini verir.

Əsərin əsas qəhrəmanı və ümumiyyətlə müsbət obrazları daha zəif verilmişdir - onlar sxematikdir, az fəaliyyətdə olur, həddən artıq nəsihətçilik edir, həyatla qaynayıb-qarışmır, onu dəyişməyə cəhd göstərmirlər. Onlar niyyət və arzularının paklığını nümayiş etdirməklə, zülm və istibdada, mövcud ictimai quruluşun ədalətsizliyinə qarşı nifrətlərini yalnız göstərməklə kifayətlənir, bütün bunların kənardan olan qüvvə, yəni şah və onun hakimləri tərəfindən islah ediləcəyi ümidi ilə yaşayırlar. Romanın finalı bu mənada səciyyəvi və simvolikdir: səfərin sonunda Möhsünə nazirdən əmr gəlir ki, təcili surətdə geri qayıtsın. Möhsün Tehrana qayıtdıqda eşidir ki, Müzəffərəddin şah konstitusiya (“yasa”) elan etmək məqsədilə “yüzlər şurasını” çağırmaq niyyətindədir. Nazir Möhsünə şurada konstitusiya əleyhinə çıxmağı təklif edir. Möhsün isə “dərhal”, bircə söhbətlə naziri bi fikrindən yayındırır; onu

[749] Əbdürrəhim Talıbov.Məsalek əl-mohsenin, Qahirə, 1303, səh.58 (Sonrakı səhifələrdə: Pak adamların məslələri, səh... yazılacaqdır).

da konstitusiyaçılar cəbhəsinə çəkir. Ertəsi gün “yüzlər şurası” toplanır və konstitusiyanı qəbul edir. Burada qopan gurultulu alqışlardan hekayəçi oyanır və görür ki, bütün bunlar, yəni romanda təsvir olunanlar yalnız yuxu imiş, əslində isə qaranlıq gecədir, “hər yer zülmətdir. Mən düşündüm ki, gecənin bu qaranlığında hara gedim, nə edim? Əgər küçəyə çıxsam, kələntər məni həbsə alacaq. Fikir məni götürdü və gördüm ki, yaxşısı budur, yenə də yatım. Başımı qoydum balış üstə və təzədən getdim yuxuya ta ki, oyanmaq vaxtı gəlsin”.

Müsbət obrazların hərəkət və düşüncələrində belə bir zəiflik, passivlik Ə.Talıbovun dünyagörüşündə və ictimai fəaliyyətindəki məhdudluqdan irəli gəlirdi. Ə.Talıbov bu zaman özü də Qacarlar dövlətində Müzəffərəddin şah, Əminüssultan, Eynüddövlə kimi dövlət xadimlərinin vasitəsilə islahatlar keçirmək və İranın vəziyyətində əsaslı dəyişikliklər etmək mümkün olacağına inanırdı.

Yeni nəsrin bu inkişaf mərhələsi hələ onun az-çox yetkinləşmiş forma almaması ilə səciyyəvi idi. Bədii nəsr və publisistika öz məqsəd və vəzifələri, təsvir vasitələri, üslub və dili cəhətdən bir-birindən ayrılmamış, müstəqilləşməmişdi.

Cənubi Azərbaycanda yeni nəsrin yaranması prosesində ikinci mərhələ 1905-1911-ci illər inqilabı ilə başlandı. Bu mərhələ nəsrin janr və mövzu hüdudlarının genişlənməsi, bədii ifadə vasitələrinin zənginləşməsi, ideyaca xəlqiliyə, demokratizmə tərəf irəliləməsi ilə səciyyəvi idi. Bu mənada ən mühüm yenilik “kiçik” nəsr formalarının - bədii publisistik felyeton, pamflet, satirik miniatürlərin meydana çıxmasından ibarət oldu. Nəsrin bu formalarının inkişafı inqilab nəticəsində mürəkkəbləşmiş ictimai-siyasi həyat hadisələrini mümkün qədər operativ əks etdirmə zərurətindən doğur və coşqun surətdə genişlənən mətbuatın verdiyi imkanlara arxalanırdı. Bunun digər mühüm amili isə Şimali Azərbaycan nəsrinin, hər şeydən əvvəl, “Molla Nəsrəddin”in novatorçu təcrübəsinin təsiri idi. Bu təsir bəzən açıq təqlid şəkli alsa da, Cənubi Azərbaycan (və ümumiyyətlə İran) şəraitində “Molla Nəsrəddin”çi nəsr ənənəsinin yayılması və genişlənməsi demək idi. Bu

səpkidə yazılan əsərlər içərisində birinci növbədə Əbülziya Şəbüstəri və Seyid Hüseyn Ədalətin "İrane nou", "Ana dili", "Ədalət" qəzetlərindəki felyetonlarını (məsələn, 1910-1911-ci illərdə "İrane-nou" qəzetində "Bir nəfər ingilisin məktubu" adlı felyetonlar silsiləsini), Cəmşid Ərdəşir Əfşarın pamflet və ədəbi-fəlsəfi esse xarakterli yazılarını qeyd etmək lazımdır. Sadə dildə, canlı dialoqlar, məktublaşma və hətta miniatür pyeslər şəklində yazılan bu əsərlər İranda hökm sürən istibdad və zülmü, feodal əxlaq normalarını, imperialistlərin müstəmləkəçilik siyasətini və müəyyən dərəcədə, ümumiyyətlə, istismarçı quruluşu, o cümlədən kapitalizmi də ifşa edirdi. Romantik ruhda yazılmış "Qanlı eşq" adlı əsərində Cəmşid Ərdəşir Əfşar vətənini simvolizə edən sevgilisinə öz məhəbbətini bildirdikdə qız ona deyir: əgər mənimlə xoşbəxt olmaq istəyirsənsə, ruhən yüksəlməli, bütün fikrini ədalət uğrunda mübarizəyə həsr etməlisən, kasıb və əlacsızların əl-qolunu bağlamış zülm zəncirini qılıncınla qırmalısan. Namuslu insan yalnız özü zülmkar olmamaqla, zülmə nifrət etməklə kifayətlənə bilməz. O gərək zülmün düşməni olsun, zülm qarşışında diz çükməsin və son damla qanınadək zülmlə vuruşsun".[750] Lakin bədii nəsrin müstəqil növü olmaq etibarilə hekayə, novella janrı bu zaman da yaranmadı.

Əvvəlki mərhələdə meydana gəlmiş roman janrının inkişafında da bu dövrdə bəzi yeni cəhətlər nəzərə çarpır. Keçmişdəkindən fərqli olaraq, indi yaradılan bir neçə roman mövzu dairəsinə görə xeyli məhdudlaşır, bir əsərdə ictimai-siyasi varlığın mühüm problemlərindən mümkün qədər çoxunu əhatə etmək təşəbbüslərini indi bir məsələni, hadisəni, əsasən, məhəbbət, ailə məsələlərini təsvir etmək meyli əvəz edir. Lakin indi insanın daxili həyatına, duyğu və hisslərinə maraq artır və bütün bunlar daha publisistik formada deyil, bədii ifadə vasitələrnndən istifadə etmək, hekayəti bədiiləşdirmək yolu ilə əldə olunur. Lakin realist üsluba hələ tam yiyələnməyən, Qərbin realist ədəbiyyatı ilə səthi tanış olan və eyni zamanda ucsuz-bucaqsız klassik Şərq poeziyasının məhəbbəti,

---

[750] Cəmşid Ərdəşir Əfşar. Eşq-e ərğəvani (*Bənövşəyi eşq*), Tiflis, 1332, s.20

insan duyğularını ənənəvi təsvir üsullarını mexaniki surətdə tətbiq edən bu yazıçıların əsərləri, demək olar, tamamilə sentimental romanlar idi. Bu kimi əsərlər sırasında Yəhya Mirzənin "Mehrəngizin toyu", Mirzə İsmayıl xan Asifin "Yetimlərin sərgüzəşti" romanlarını göstərmək olar. Hətta Z.Marağayinin "İbrahim bəyin səyahətnaməsi" romanının bu zaman yazılan ikinci cildi də, birincidən bu mənada fərqli, yəni satirik deyil, sentimental üslubda yazılmışdır.

Dil məsələsi yenə də yeni nəsrin inkişafı prosesinin ən böyük qüsuru olaraq qalırdı. Yaradılan əsərlər yenə də, demək olar ki, tamamilə fars dilində idi, fars dili ənənəsindən kənara çıxmırdı, buna görə də Azərbaycan ədəbi dilinin və deməli, bütövlükdə milli mədəniyyətin təşəkkülünə çox az yardım edirdi.

**Dramaturgiya və teatr.** Şərqin digər müsəlman ölkələrində olduğu kimi, Cənubi Azərbaycan ədəbiyyatı tarixində də dramaturgiya mövcud olmamışdır. Əlbəttə, burada da xalq teatrının bəzi ən sadə formaları (o cümlədən, ravi-nağılçı, "bir aktyorun teatrı" ənənələri), dini tamaşa növləri (təziyə, şəbih) əsrlər boyu xalq içərisində yaşamışdır. Aydındır ki, bunlar hər hansı bir ilkin mənbə - nağıl, əfsanəvi süjet, yaxud dini rəvayətlər əsasında yaradılırdı. Lakin buna baxmayaraq, bədii ədəbiyyatın bir növü olaraq dramaturgiya və incəsənətin bir forması kimi teatr Azərbaycanda meydana gələ bilməmişdi və ilk dəfə XIX əsrdə Qərb mədəniyyətinin birbaşa təsiri nəticəsində yaranmışdır. Azərbaycanın parçalanması onun hər iki hissəsinin bu sahədə də müxtəlif inkişaf yolları ilə getməsinə səbəb oldu.

Şimali Azərbaycanın mədəniyyət xadimlərinin müasir teatr sənəti və dramaturgiya ilə tanışlığı ağızdan-ağıza, təsadüfi müşahidələr şəklində deyil, Rusiya səhnə ustaları, yazıçıları, dramaturqları ilə şəxsi və getdikcə inkişaf edən əlaqələr şəklində olduğundan, onlarda az bir zamanda teatrın geniş maarifpərvərlik, əxlaqi-tərbiyəvi imkanlara malik olmasına böyük inam yaratmışdır. Hələ XIX əsrin 60-cı illərində Azərbaycan ədəbiyyatının klassiki M.F.Axundovun yaradıcılığı ilə Şimali Azərbaycanda milli dramaturgiyanın qüdrətli təməli qoyulmuşdu. XIX əsrin sonu və XX

əsrin əvvəllərində dramaturgiya qabaqcıl rus ədəbiyyatının dramaturgiyasının (ilk növbədə, N.V.Qoqolun, A.N.Ostrovskinin, A.P.Çexovun, M.Qorkinin) faydalı təsiri altında N.B.Vəzirovun, Ə.Haqverdiyevin, N.Nərimanovun, C.Məmmədquluzadənin və b. yazıçıların, dramaturqların, publisistlərin yaradıcılığında özünün parlaq ifadəsini taparaq, Azərbaycan ədəbiyyatının aparıcı janrlarından birinə çevrilmişdi. Artıq bu zaman müxtəlif maneələrə (ruhanilərin teatr sənətinə, onun xadimlərinə, artistlərə kəskin düşmənçilik münasibəti, Azərbaycan qadınlarının səhnəyə çıxmasının qeyri-mümkün olması və s.) baxmayaraq burada peşəkar Azərbaycan teatrı meydana çıxaraq mədəni dirçəlişin, dramaturgiya isə ədəbi inkişafın və milli ədəbi dilin formalaşmasının ən mühüm amillərindən birinə çevrilmişdi.

Lakin Cənubi Azərbaycanda şərait tamamilə başqa cür olmuşdur. Qacarlar dövlətinin Qərblə daimi əlaqələrinin yaranması və inkişafı təbii olaraq ölkədə teatr sənətinə də marağın artmasına səbəb olmuşdu. Lakin mədəni əlaqələrin ümumən məhdud, çox vaxt isə təsadüfi xarakter daşıması bu sahədə də özünü göstərirdi. Uzun müddət bu maraq əsasən teatra ancaq əyləncə və məşğuliyyət kimi baxan İran cəmiyyətinin yüksək təbəqəsi ilə məhdudlaşırdı.[751] Buna görə də 70-80-ci illərdə "maarifpərvər" Nəsrəddin şahın Avropaya səfərlərindən sonra "Darülfunun" müdavimlərinin qüvvəsi ilə saray əyanları üçün vaxtaşırı təşkil edilən ilk teatr tamaşaları İranda, o cümlədən Cənubi Azərbaycanda dramaturgiyanın və teatrın inkişafına demək olar ki, heç bir təsir göstərə bilməmişdi.

Əksinə, yeni yaranan İran ziyalıları, onun maarifçi dəstəsi üçün Şimali Azərbaycan dramaturgiyası, burada meydana gələn və inkişaf edən milli teatr əsl məktəbə çevrilmişdi. Bu mənada

---

[751] Maraqlıdır ki, hələ XIX əsrin 40-cı illərində Parisə göndərilən fövqəladə heyətin başçısı Məhəmmədhəsən xan Müqəddəmin (Acudan-başının) katibi Mirzə Əbdül Fəttah Gərmrudi tərəfindən Avropanın tamaşa müəssisələri, o cümlədən teatrları haqqında «Şəbnamə» adlı xüsusi bir kitab yazılmışdır. Bax: Mehdi Bamdad. Tarix-e recal-e İran (*İranın məşhur simalarının tarixi*), cild 2, Tehran, 1347/1968, səh.247.

Cənubi Azərbaycan üçün, eləcə də bütün İran üçün M.F.Axundovun tematik və ideya cəhətdən İran gerçəkliyini də əks etdirən yalnız dramaturji yaradıcılığının deyil, bu janrın İranda inkişafı üçün böyük ədibin şəxsi iştirakı, məsləhətləri və tənqidi qeydlərinin də fövqəladə əhəmiyyəti olmuşdur. Məqalələrində İranın, o cümlədən Cənubi Azərbaycanın mədəniyyət xadimləri ilə (Mirzə Yusifxan Müstəşərüddövlə, Mülküm xan, Fərhad Mirzə, Mirzə Məhəmməd Qaracadaği, Mirzə ağa Təbrizi) yazışmalarında M.F.Axundov müsəlman Şərqi ölkələrində, xüsusən İranda ictimai və mədəni inkişaf üçün dramaturgiyanın və teatr sənətinin rolunu, əhəmiyyət və zəruriliyini nəzəri cəhətdən əsaslandırırdı. Məhz M.F.Axundovun yaradıcılığının bilavasitə təsiri altında burada insanların əxlaqi-etik tərbiyəsində, mövcud feodal cəmiyyətinin nöqsanlarını gülüş-tənqid yolu ilə aradan qaldırmağın ən mühüm vasitələrindən biri kimi dramaturgiyaya və teatra olan baxış formalaşmışdı. Bu səbəbə görə də M.F.Axundovun pyesləri Tiflisdə çap olunduqdan az sonra 1870-1874-cü illərdə Mirzə Cəfər Qaracadaği tərəfindən fars dilinə tərcümə edilmiş və İranda nəşr olunmuşdu.

İranda ilk orijinal dram əsərləri yaratmaq təşəbbüsü də elə bu vaxta təsadüf olunur. Bu işin ilk təşəbbüskarı bir neçə pyes müəllifi olan Mirzağa Təbrizi idi. Bu əsərlərdə o, müasir İran feodal cəmiyyətinin eybəcərliklərini - dövlət quruluşunda hökm sürən satqınlığı, rüşvətxorluğu, ədalətsizliyi, zülm və zorakılığı, varlı təbəqələrin tamahkarlıq və nadanlığını ("Əşrəf xanın macəraları") ifşa etməyə çalışmış, sadə adamların həyat və məişətini ("Ağa Haşım Xalxalinin macəraları")[752] təsvir etmişdir.[753] Lakin həmin əsərlər istər məzmun və ideya, istərsə də bədii dəyəri etibarilə hələ çox zəif idi və mahiyyətcə hələ əsl səhnə əsəri deyildi. Onlar səhnə üzü də görmədilər. Bu ilk təcrübənin ardınca başqa əsərlər

[752] Mirzağa Təbrizi. Pənc nəmayeşname (*Beş tamaşa*), Tehran, 2535/1976

[753] Uzun müddət Mülküm xana aid edilən bu əsərlərin əsl müəllifi, eləcə də, bütünlükdə İran dramaturgiyasının yaranmasına M.F.Axundovun təsiri haqqında bax: H.Məmmədzadə. M.F.Axundov və Şərq, Bakı, 1971, səh.170-225.

yaradılmadı, çünki bu dövrdə ədəbiyyatın spesifik janrı olan dramaturgiya, teatr sənəti üçün İranda ümumi sosial-siyasi və mədəni şərait hələ yetişməmişdi.

İran mədəni həyatının bu sahəsində ilk əhəmiyyətli addımlar yalnız mədəniyyətin kütləvi formalarının yaranmasına ciddi təkan verən 1905-1911-ci illər inqilabı dövründə atıldı. Artıq 1906-1907-ci illərdə mətbuat səhifələrində, dramaturgiyanın inkişafı, milli teatrın yaradılması haqqında mülahizələr irəli sürulür, 1908-ci ildə isə Tehranda ayrıca "Teatr" adlı qəzet nəşr edilməyə başlayır.[754] İri şəhərlərdə, xüsusilə Tehranda mitinqlər, inqilabın müdafiəsinə həsr edilmiş yığıncaqlar çox vaxt vətənpərvərlik motivləri ilə dolu şeirlərin qiraəti, nəfəsli orkestrlərin və ayrı-ayrı ifaçıların (xüsusilə məktəblərdə) konserti ilə qurtarırdı ki, bunlar səhnə sənətinin inkişafı yolunda mühüm amillər idi.

Başqa sahələrdə olduğu kimi, bu işdə də Şimali Azərbaycanın mədəniyyət xadimlərinin təşəbbüsü, köməyi və şəxsi iştirakı mühüm rol oynayırdı. İranda ilk kütləvi teatr tamaşaları əslində Bakı artistləri tərəfindən təşkil edilmişdi; onların repertuarı, əsasən Ə.Haqverdiyevin, N.Vəzirovun, N.Nərimanovun,[755] həmçinin N.Qoqolun, N.Kamalın, Şillerin əsərlərindən ibarət idi.

1909-1916-cı illər ərzində görkəmli aktyorlar Sidqi Ruhulla, Abbas Mirzə Şərifzadənin rəhbərliyi ilə Bakı teatr truppaları dəfələrlə İrana gəlmiş, əhalinin müxtəlif təbəqələrinin mütərəqqi

---

[754] Təəssüf ki, bu qəzetin xarakteri, məzmunu və nəşr müddəti barədə demək olar ki, heç bir məlumat yoxdur. Məsələn, E.Braun təkcə bunu yazır ki, həmin qəzet Mirzə Rza xan Təbatəbai Naini tərəfindəi nəşr edilirdi, «onda şahzadələrin, qubernatorların qədimdən qalma avtokratik qaydalarını, idarəetmə üsullarını əks etdirən dramatik səhnələr çap edilirdi» və o, «fars dilində çıxan ən yaxşı bir qəzet kimi qiymətləndirilə bilər» Bax: E.Browne. The Press and Poetry of Persia, Cambridge. 1914, p. 66.

[755] Maraqlıdır ki, N.Nərimanovun «Nadir şah» tarixi dramı hələ 1906-cı ildə İranda fars dilində nəşr edilmişdi. Onu Tacmah Afaq-üd-dövlə adlı bir qadın tərçümə etmişdi. Bax: Name-ye Naderi. Tərcome-ye ketab-e teatr-e Nəriman Nərimanov əz zəban-e torki, motərcem Tacmah Afaq-ud-doule (*Nadirin məktubu. Nəriman Nərimanovun teatr kitabının türk-Azərbaycan dilindən tərcüməsi, tərcüməçi: Tacmah Afaq-üd-dövlə*), 1324

dairələri tərəfindən böyük hörmətlə qarşılanmış, Tehranda, Təbrizdə, Rəştdə, Qəzvində, İsfahanda və b. şəhərlərdə tamaşalar vermişlər. 1910-cu ilin may-iyun aylarında Tehran qəzeti "İrane-nou" məlumat verirdi ki, burada N.V.Qoqolun "Müfəttiş" komediyası Ə.Haqverdiyevin "Bəxtsiz cavan" faciəsi və "Kimdir müqəssir" adlı birpərdəli pyesinin tamaşaları böyük müvəffəqiyyətlə keçmişdir. Qəzet "Bəxtsiz cavan" əsərinin baş qəhrəmanı rolunda çıxış edən Sidqi Ruhullanın ecazkar oyununu xüsusilə yüksək qiymətləndirərək yazırdı ki, o öz monoloqunu "Kəndlilər də bizim kimi insandır" sözləri ilə bitirdikdə salondakılar beş dəqiqə əl çaldılar.[756]

Şimali Azərbaycan aktyorlarının buradakı fəaliyyəti təkcə teatr tamaşaları verməklə məhdudlaşmırdı; onlar yeni mədəni quruculuq prosesinə fəal müdaxilə edir, öz tamaşalarına yerli əhalinin istedadlı nümayəndələrini cəlb edir və beləliklə, İranda ilk peşəkar aktyor kadrlarının hazırlanmasına, teatr cəmiyyətlərinin, xüsusi teatr binalarının yaradılmasına kömək edirdilər.

Təbiidir ki, belə əməkdaşlıq xüsusilə Cənubi Azərbaycanda, ilk növbədə Təbrizdə daha geniş miqyas alır, çünki Təbrizin bir çox mütərəqqi ziyalı nümayəndələri Şimali Azərbaycanda baş verən ictimai hadisələrlə yaxından tanış idi, mədəni quruculuğun müxtəlif sahələrində apardıqları müştərək fəaliyyət telləri ilə, habelə bir çox bədii yaradıcılıq və təşkilat problemlərinin ümumiliyi cəhətdən (məsələn, müsəlman qadınlarının səhnə fəaliyyətindən məhrum olması, ruhanilərin və fanatik ünsürlərin böyük bir qisminin teatra kəskin düşmənçilik münasibəti bəsləməsi, hökumət tərəfindən heç bir maddi yardımın olmaması, senzura təzyiqindən doğan repertuar çətinlikləri və s. problemlər) Şimali Azərbaycan ziyalılırı ilə möhkəm bağlı idi. Buna görə də onlar Arazın o tayından olan sənət qardaşlarının köməyinə böyük hərarətlə cavab verirdilər. Böyük çətinlik və maneələrə (əvvəl inqilabın gedişi ilə, onun məğlubiyyətindən sonra isə irticanın hücumu və nəhayət, Birinci Dünya müharibəsi illərində Cənubi Azərbaycanın hərbi

---

[756] «İrane-nou» qəzeti, 2 iyun və18 iyun 1910-cu il sayları

əməliyyatlar meydanına çevrilməsi, Təbrizin dəfələrlə əldən-ələ keçməsi ilə bağlı olan) baxmayaraq, burada az bir müddət ərzində teatr sənətinin təsbit olmasında ilk mühüm nailiyyət əldə edildi. Mürtəce ünsürlər amansız müqavimət göstərsələr də, yerli əhali teatr sənətinə getdikcə daha çox alışır, onu müasir mədəniyyətin ayrılmaz təzahürü kimi tanımağa başlayırdı. Bu sahədə Sidqi Ruhullanın xüsusilə böyük xidmətləri olmuşdur. Hələ 1908-ci ildə ilk dəfə Təbrizə gələndə S.Ruhullanın fəaliyyəti Təbriz üsyanının rəhbəri Səttarxan tərəfindən böyük rəğbətlə qarşılanmışdı. 1909-cu ildə S.Ruhulla Təbriz gənclərindən ibarət bir dəstə yaradaraq bir neçə ay hazırlıq və məşqdən sonra Ə.Haqverdiyevin "Bəxtsiz cavan" və "Xəyalat", Molyerin "Zorən təbib" pyeslərini tamaşaya qoydu ki, burada özü baş rollarda çıxış edirdi. 1910-cu ildə özünün növbəti səfəri zamanı S.Ruhulla bu işi davam etdirdi, bir neçə başqa pyesi, o cümlədən, N.Nərimanovun "Nadir şah" əsərini də tamaşaya qoydu. Aktyorun fəal iştirakı ilə 1916-cı ildə Təbrizdə ilk teatr binası tikildi.

Bütün bunların nəticəsində çox keçməmiş burada bütün yaradıcılıq qabiliyyətini, məhdud vəsaitini səhnəyə sərf edən aktyor və rejissor, Cənubi Azərbaycanda 1909-cu ildə yaranmış ilk teatr cəmiyyəti "Azərbaycan artistləri dəstəsinin" rəhbəri Mehdi xan Şəfizadə, artist və dramaturq Rza Vaizzadə, Rza Quluzadə Şərqli və b. kimi ilk milli teatr xadimləri yetişdi ki, onların coşqun yaradıçılıq fəaliyyəti əsasən sonrakı illərdə daha da genişləndi.[757]

Beləliklə, 10-12 illik nisbətən qısa bir müddət ərzində Cənubi Azərbaycanda milli teatrın yaradılması prosesinin təməl daşları qoyuldu ki, bu da bütün İran miqyasında bu işin ilk örnək məktəbi oldu. Bu prosesin mühüm xüsusiyyəti ondan ibarət idi ki, mədəniyyətin başqa sahələrindən fərqli olaraq, burada lap əvvəllərdən milli mədəniyyətin ən başlıca ünsürlərindən biri olan dil məsələsi təsbit olundu. Teatr tamaşaları doğma ana dilində göstərildiyinə görə geniş tamaşaçı kütləsi onun demokratik istiqamətini daha

---

[757] Bax: Əvəz Sadıq. «Təbriz teatrı tarixindən», Seçilmiş əsərləri, Bakı, 1971, səh.277-291.

aydın qavraya bilirdi. Bu isə eyni zamanda Azərbaycan dilinin inkişafında, onun mədəniyyətin başqa sahələrində də geniş yayılmasında və ədəbi dilin formalaşmasında şübhəsiz, mühüm rol oynamalı idi.

Bu proses sonrakı tarixi mərhələdə - Oktyabr inqilabının təsiri altında İran xalqlarının milli-azadlıq hərəkatının yeni yüksəlişi dövründə xüsusilə sosial-siyasi proqramında milli mədəniyyətin inkişafına xüsusi diqqət yetirilən, Xiyabaninin rəhbərliyi altında Cənubi Azərbaycanda demokratik hərəkat zamanı daha da gücləndi. Lakin milli-azadlıq hərəkatı boğulandan, daxili siyasətinin əsas prinsiplərindən biri qəddar milli şovinizm, antidemokratizm olan Pəhləvi monarxiyası hakimiyyət başına gələndən sonra, bu proses zor gücünə yenidən dayandırıldı.

## 4. İCTİMAİ-SİYASİ FİKİR

Bütün İranda və ümumiyyətlə, Şərq ölkələrində olduğu kimi, Cənubi Azərbaycanda da XIX əsrin sonu - XX əsrin əvvəllərində ictimai-siyasi fikrin təkamülü öz əsas məzmununa görə Qərbdə Maarif epoxasının müvafiq proseslərini xatırladırdı, yəni feodal dünyagörüşündən burjua məfkurəsi istiqamətində inkişaf edərək ümumiyyətlə, mütərəqqi xarakter daşıyırdı. Lakin bu proses eyni zamanda bütün İranın, o cümlədən Cənubi Azərbaycanın həm əvvəlki tarixi inkişafındakı spesifik xüsusiyyətlər, həm də XIX əsrdə burada yaranmış obyektiv şəraitdən doğan çox mühüm cəhətlərilə fərqlənirdi. Bu isə ictimai-siyasi fikrin inkişafındakı təkcə həmin dövrün deyil, habelə sonrakı dövrlərin də bütun mahiyyətinə öz təsirini göstərmişdir.

XVII-XVIII əsrlərdə Qərbdə ictimai-siyasi fikir, iqtisadi həyatda sənaye inqilabı ilə nəticələnmiş dərin (kapitalist) dəyişikliklər, üçüncü silkin iqtisadi qüdrətinin artması şəraitində inkişaf etmişdi. Burjuaziya feodalizm əleyhinə mübarizə yoluna qədəm qoymuş və bütün millətə rəhbərlik edən yeganə alternativ qüvvə kimi çıxış edərək öz dünyagörüşünü, siyasi, iqtisadi ideyalarını,

əxlaq normalarını irəli sürürdü. Burada maarifçilik ideologiyası rasionalizm fəlsəfəsinə, insan qüvvələrinə inama, böyük elmi-texniki kəşflərə arxalanan Renessans mərhələsi gedişində hazırlanmışdı. Məhz bunun nəticəsindədir ki, bu ideologiya çox tez kütləvi (ümummilli) şəkil almış, ictimai-siyasi fikir və ümumiyyətlə mədəniyyət dindən ayrılmağa başlamış, o zaman üçün fövqəladə inqilabi xarakter daşıyan təbii hüquq, millətin suverenliyi kimi təlimlər irəli sürülmüşdü.

Başqa Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da ictimai-siyasi inkişaf bu kimi ilkin mərhələlərdən keçməlidi. Bir neçə əsr ərzində Azərbaycanın başçılıq etdiyi və ya tərkib hissə kimi daxil olduğu bütün dövlət birləşmələrində (Səfəvilər, Nadir şah və ən nəhayət Qacarlar dövlətlərində) cəmiyyət, onun quruluşu, iqtisadi, ictimai-siyasi həyat normaları əslində dəyişməz olaraq qalmış, bunlardan heç biri burjua qaydalarının, mədəniyyət və ideologiyasının hazırlanması üçün mühüm şərt olan absolyutizm mərhələsinə hətta yaxınlaşmamışdı. Məhz buna görə də burada mənəvi inkişafın bütün əsas sahələrində - fəlsəfi fikir, sosioloji təsəvvürlər, tarixi baxışlar, dövlət-hüquqi və siyasi nəzəriyyələr, əxlaqi görüşlər, elmi-texniki biliklər orta əsrlərə xas olan təfəkkürdən kənara çıxmamışdı.

Cəmiyyət, onun quruluşu, iqtisadi və siyasi həyatı, inkişaf yolları haqqında Azərbaycanda yeni, keçmişdəkindən tamamilə fərqli təsəvvürlərin yaranması üçün isə XIX əsrin əvvəllərindən Qərblə, onun mədəniyyəti, ideologiyası ilə tanışlığın başlanması bilavasitə təkan oldu. Eyni zamanda Azərbaycan iki hissəyə parçalandıqdan sonra onun şimal və cənub hissələrinin müxtəlif şəraitə düşməsi nəticəsində bunlarda ictimai-siyasi fikrin inkişafında da əvvəl çox nəzərə çarpmayan, lakin getdikcə sürətlə artan fərqlər özünü göstərməyə başladı.

Artıq XIX əsrin ilk onilliklərindən Qacarlar dövlətinin hakim dairələri, birinci növbədə mərkəzi dövlət aparatının başında duran qismi (bunun çox hissəsi azərbaycanlılardan ibarət idi) içərisində Qərbin təcavüzü müqabilində İranın zəifliyi və məğlubiyyətləri-

nin səbəblərini araşdırmaq səyləri başlanır. Bununla əlaqədar olaraq Abbas Mirzənin, Fətəli şahın, Məhəmməd şahın, sonralar isə Nəsrəddin şahın tapşırığı ilə Rusiyaya, Avropa ölkələrinə göndərilən diplomatların yazdığı müxtəlif risalələrdə, səfərnamələrdə əsas nəticə bundan ibarət idi ki, Qərbin üstünlüyünün səbəbi, burada heç bir özbaşınalığa, qanunsuzluğa və anarxiyaya yol verməyən, dövlət miqyasına qaldırılmış möhkəm qanun-qaydaların hökm sürməsindədir. Lakin Avropa həyatı ilə bir qayda olaraq çox səthi tanış olan, qədim "dövləti idarə etmək elmi" ("keşvərdari") təsəvvürlərindən kənara çıxa bilməyən bu xadimlər əsasən padşahın və ya vəzirin adil, bilikli, rəhmli olması və bununla da dövlətin, möhkəmliyinin, xalqın səadətinin təmin ola biləcəyi kimi ümumi mülahizələrlə kifayətlənirdi.[758] Bu kimi əsərlərin hətta ən yaxşıları, artıq 40-50-ci illərdə yazılanları üçün səciyyəvi cəhət Avropanın burjua dövlətlərinin ictimai və siyasi quruluşunun çox bəsit şəkildə anlaşılması və şərh edilməsi idi. Məsələn, Avropaya fövqəladə səfir kimi göndərilən (1857) Fərrux xan Əminüddövlənin katibi Hüseyn Sarabi Belçikanın dövlət quruluşunu belə təsvir edir: "Bu məmləkətin padşahı rəiyyətlərinə qayğıkeşliklə, mərhəmətlə, öz uşaqları kimi yanaşır. Orada bütün xalqı təmsil edən milli məclis toplaşdıqda padşah hamı ilə mərhəmətlə rəftar edərək deyir: "Ey mənim sevimli xalqım! Mən sizə sonsuz dərəcədə minnətdaram ki, mənə etimad edib hüquqlarınızı tapşırmısınız. Sizin razılığınız olmadan mən bir gün də taxtda qalmaram".[759] Bu kimi əsərlərdə, İrandakı ictimai və siyasi quruluşun bilavasitə tənqidi hələ yox idi, dövlət işlərinin pozulması, onun hərbi və diplomatik məğlubiyyətləri isə tamamilə subyektiv amillərlə izah olunurdu. Məsələn, adı çəkilən Sarabi 30-40-cı illərdə Qacarlar dövlətinin

---

[758] Misal üçün sədrəzəm Qaim-Məqamın tapşırığı ilə Əbdülkərim Əhərinin yazdığı «Ədəb-e Abbasi» («Abbasın qaydaları») və Qacarların rəsmi tarixçisi Vəqayenigarın «Töhfeye-Naseri» («Nasiri töhfəsi») əsərlərini göstərmək olar.

[759] Məxzənül vəqaye. Şərh-e məmuriyyət və mosaferətmFərrux xan Əminoddoule. Təlif: Hoseyn bin Abdulla Sərabi (*Hüseyn bin Abdulla Sərabi. Hadisələr toplusu. Fərrux xan Əminəddövlənin missiyası və səyahətinin təsviri*), Tehran, 1344/1965, səh.313-314 (Sonrakı səhifələrdə: H.Sarabi, səh... yazılacaqdır).

tənəzzülünün səbəbini müstəsna olaraq sədrəzəm hacı Mirzə Ağasinin pis keyfiyyətləri ilə izah edirdi: “Onun kamil biliyi və dövləti idarə etmək haqqında məlumatı yox idi. Buna görə də bir sıra işlər getdikcə pozulurdu”.[760]

Bütövlükdə isə Cənubi Azərbaycanda ictimai-siyasi fikrin inkişafındakı bu mərhələ çox az yenilik gətirdi. Əvvəlki kimi, yenə də feodal ideologiyası hakim idi. Bu ideologiyada feodalizm qaydalarının bəzi ən mürtəce cəhətlərinə qarşı yönəldilmiş (xüsusən dövləti idarə etmək məsələlərində) ayrı-ayrı cəhdlər olsa da, bunlar ümumilikdə feodal absolyutizmi ideyalarından kənara çıxmırdı. Bu kimi ideyalar ən dolğun inikasını Mirzə Tağı xan Əmir Kəbirin islahatlarında tapmış oldu. Lakin feodal sinfinin böyük əksəriyyəti hələ də öz hüquq və imtiyazlarından mərkəzi hakimiyyətin xeyrinə əl çəkmək niyyətində deyildi, nəticə etibarilə bu da Tağı xanın islahatlarının müvəffəqiyyətsizliyinə, özünün isə öldürülməsinə səbəb oldu.

Doğrudur, 40-cı illərin ikinci - 50-ci illərin birinci yarısında bütün ölkədə, xüsusən Cənubi Azərbaycanda güclü antifeodal ideya cərəyanı - babilik geniş yayılmışdı. Formaca, ehkamlarına görə tamamilə dini olan babilik ideologiyası feodalizm sisteminin getdikcə dərinləşən böhranının inikası, şəhər təbəqələri - sənətkarların, xırda alverçilərin, hətta qismən xırda ruhanilərin və kəndlilərin mövcud despotik hakimiyyət, sosial ədalətsizlik və dolayı yolla, xaricilər tərəfindən ölkənin əsarət altına alınması əleyhinə etiraz idi. Bəzi müddəalarına görə (ilk növbədə Əli Məhəmməd Babın moizələrində, onun “Bəyan”ında möhkəm dövlət qaydaları və qanuniliyin gözlənilməsi lüzumunda) həmin ideologiya burjua prinsiplərinə yaxınlaşır və bu mənada müəyyən dərəcədə mütərəqqi idi. Lakin dərin kök salmış, ictimai və fərdi həyatın bütün sahələrinə nüfuz etmiş islam təfəkkürü (xüsusilə onun şiəlik forması) və hələ çox zəif, rüşeym halında olan milli şüur şəraitində islamı inkar etməyə əsaslanan babilik prinsipinin özü irəlicədən müvəffəqiyyətsizliyə məhkum idi (müsəlman ölkələrində, o cümlədən İranda ta-

[760] H.Sarabi, səh.66.

rixən həmişə islamı inkar edən, sonu yeni dinlə əvəz etməyə yönəldilən bidətlər deyil, əksinə, ilkin "saf" islamı bərpa etməyə çağıran cərəyanlar güclü olmuşdur). Digər tərəfdən, XIX əsr şəraitində, yəni müsəlman ölkələri Qərbin təcavüzünə qarşı mübarizə aparmalı və bu məqsədlə Qərbin bir sıra nailiyyətlərini, qayda və prinsiplərini əxz etməli olduqları bir zamanda əks bir təmayül - islamın özü daxilində bu yeniliklər üçün əsas tapmaq meyli, islamı modernləşdirmək meyli üstün gələ bilərdi.

İctimai-siyasi fikrin təkamülündə nəzərə çarpan irəliləyiş 60-cı illərdən başlandı ki, bu da Qacarlar dövlətinin digər əyalətləri ilə müqayisədə Cənubi Azərbaycanda ən əvvəl sosial-iqtisadi inkişafın obyektiv amilləri ilə izah olunurdu. Məhz həmin amillər bu prosesin 60-90-cı illərdə, müəyyən mənada isə sonralar da ümumi maarifçilik xarakterini müəyyənləşdirmişdi. Lakin bütün İranda (habelə bir çox Şərq ölkələrində) olduğu kimi, Cənubi Azərbaycanda da maarifçilik hərəkatı öz genişliyi, dərinliyi və nəticəsinə görə yuxarıda qeyd edildiyi kimi müstəqil bir dövr təşkil etmədi. Bu yalnız yuxarıda deyilən ilkin tarixi şərtlərin olmaması, həmin prosesin nisbətən məhdud xronoloji çərçivələrilə deyil, həm də başlıca olaraq kapitalist inkişafı prosesinin özünün zəifliyinin, bunun nəticəsində də sinifyaranma proseslərinin (burjuaziyanın, proletariatın formalaşması) zəifliyinin, burjuaziyanın sayca azlığı və iqtisadi gücsüzlüyünün, mövcud feodal qaydaları ilə onun bağlılığının, milli təşəkkül proseslərinin (hələ digər millətlər bir tərəfə qalsın, hətta farslar, azərbaycanlılar içərisində də) rüşeym halında olması və milli şüurun oyanmamasının nəticəsi idi.

Bu mənada Cənubi Azərbaycanda və bütün İranda maarifçilik hərəkatı nəinki klassik Qərb maarifçiliyi ilə, həm də Şimali Azərbaycandakı müvafiq hərəkatla müqayisə oluna bilməz.

Hər şeydən əvvəl, İran, o cümlədən Cənubi Azərbaycan maarifçiliyi, Qərb maarifinin başlıca mahiyyətini təşkil edən problemləri, yəni cəmiyyətin iqtisadi, siyasi və mənəvi həyatının əsaslı surətdə dəyişdirilməsi tələblərini nəinki həll etmədi, irəli də sürmədi. Burada maarifçilərin əsas siyasi şüarları - istibdada son qoymaq, qanuna əsaslanan, ədalətli cəmiyyət yaratmaq şüarları

konkretləşdirilərkən bir qayda olaraq maarifçi absolyutizm ideyalarından kənara çıxmamış, yalnız XIX-XX əsrlərin qovşağında mötədil burjua konstitusionalizm ideyalarına yaxınlaşmışdı. Maarifçi əhvali-ruhiyyəli ictimai-siyasi xadimlərin, publisistlərin çoxu, hətta feodalların yuxarı təbəqəsinin realistcəsinə düşünən bəzi nümayəndələri, həm azərbaycanlılar, həm də farslar, M.F.Axundov ideyalarının, onun fəlsəfi, tarixi və siyasi baxışlarının, xüsusilə də məşhur "Kəmalüddövlə məktubları"nın böyük təsiri altında olmuşlar. M.F.Axundovun bu əsəri o zaman çap olunmasa da, onlardan bir çoxu əsərin əlyazması ilə tanış idi, M.F.Axundovun bu və ya digər müddəalarından, fikirlərindən öz əsərlərində bəzən hətta hərfən istifadə edirdi. Belə ki, məsələn, zülm istibdadla barışmamağın, əgər lazım gələrsə, müstəbiddən hakimiyyətdən əl çəkməyi tələb etməyin zəruriliyi haqqında Axundovun tezisini, demək olar, tamamilə eyni ifadələrlə İranda burjua ideologiyasının pionerlərindən biri Mülküm xan bir sıra məqalələrində, daha sonra isə Z.Marağayi "İbrahimbəyin səyahəti"ndə təkrar etmişlər. Lakin bir sıra həm obyektiv, həm də subyektiv səbəblər üzündən onlar M.F.Axundovun sosial-siyasi baxışlarının inqilabi ruhunu, materialist fəlsəfi əsaslarını dərk və qəbul etmək iqtidarında olmamışlar. Onlar M.F.Axundovun Şərq, o cümlədən İran istibdadının, İranın iqtisadi, mədəni geriliyinin amansız tənqidi ilə, müvafiq islahatların (məsələn, mədəni inkişafı sürətləndirən əsas şərtlərdən biri kimi ərəb əlifbasının islahatı ilə, tərbiyə, təhsil və s. problemlərlə əlaqədar olaraq) zəruriliyi ilə həmrəy olmaqla yanaşı, eyni zamanda Axundovun sosial-siyasi proqramını İrana tətbiq edərkən, bunu qəsdən və ya bilməyərək "yumşaldırdılar", çünki özlərinin maarifçilik fəaliyyətlərində geniş kütlələrə deyil, şaha, hakim təbəqəyə müraciət edirdilər.[761]

[761] Görünur, təsadüfi deyil ki, Mirzə Fətəli Axundov Mirzə Yusif xan Müstəşarüddövləyə yazdığı məktublarından birində «Məktublar»ın nəşrinə yalnız belə bir şərtlə razılıq verirdi ki, əsər olduğu kimi «heç bir dəyişiklik edilmədən» çap olunsun (bax: M.F.Axundov. Əsərləri, III cild, Bakı, 1955, səh.135-136).

Burjua maarifçilərinin əksəriyyəti bu əqidədə idi ki, hakim dairələri konstitusiya quruluşunun üstünlüklərinə inandırmaqla onlar könüllü surətdə öz hakimiyyətinin, imtiyazlarının məhdudlaşdırılmasına razı olacaqlar. Buna görə də burjua maarifçiləri inqilabi mübarizənin labüdlüyünü görmür və ya bunu inkar edirdilər. M.F.Axundovun xalqın hakimiyyətdən əl çəkməyi zalımlardan tələb etmək hüququ haqqında yuxarıda qeyd olunan tezisi nəticə etibarilə əslində milli suverenitet, xalqların istibdadı devirmək hüququ ideyalarını əks etdirirdi. İran, o cümlədən Cənubi Azərbaycan maarifçiləri isə inqilabi mübarizəni rədd edir, tamamilə maarifin gücünə arxalanırdılar. Məsələn, Mülküm xan hətta 90-cı illərdə, şah hakimiyyətinə qarşı açıq müxalifətə keçdiyi və özünün ən yüksək ideya-siyasi təkamülü dövründə mühacirətdə nəşr etdirdiyi "Qanun" qəzeti səhifələrində qeyd edirdi ki, "istibdada qarşı mübarizədə bizim bu bəladan, zorakılıq istisna olmaqla, mümkün olan hər hansı bir yolla azad olmağa haqqımız var".[762] İnqilaba qədər Z.Marağayi və Ə.Talıbov da (sonuncu xüsusilə "Pak adamların məsləkləri" əsərində) eyni mövqedə dururdular.

Beləliklə, bu dövrdə Cənubi Azərbaycan və bütövlükdə İran maarifçiliyinin əsas ictimai-siyasi məzmununu "qanun", "qanunilik" ideyası təşkil edirdi. Lakin bu hələ heç də tam mənada burjua-demokratik konstitusiyaçılığı, parlamentarizmi deyildi. Maarifçilərin əksəriyyəti, o cümlədən Mirzə Mülkümxan, Ə.Talıbov, Z.Marağayi hələ də bu məsələdə daha çox maarifçi absolyutizm mövqeyində qalmaqda idilər. Bununla əlaqədar olaraq və ümumiyyətlə dünyagörüşündəki demokratik meyllərinə görə yalnız Mirzə Yusif xan Müstəşarüddövləni qeyd etmək olar. Onun "Yek kəlme" ("Bir kəlmə", 1871) əsərində ifadə olunan baxışları öz demokratik ruhu ilə müasirlərindən xeyli fərqlənir. Belə ki, o, idealistcəsinə olsa da, dövlət quruluşunun bütün siniflərin mənafeyini təmsil etməli olduğu ideyasını irəli sürür. Məhz bu nöqteyi-nəzərdən Mirzə Yusif xan başqalarının əslində toxunmadığı məsələləri

---

[762] «Qanun» qəzeti, No 15 və 17. İstibdada qarşı mübarizədə ən qəti vasitə olmaq etibarilə Mülküm xan yalnız passiv müqaviməti, vergilərdən imtinanı qəbul edirdi.

- demokratik seçki sistemi, siyasi partiyaların, o cümlədən zəhmətkeşlərin öz siyasi partiyası olması zəruriliyini qeyd edirdi.[763]

Şərqin digər müsəlman ölkələrində olduğu kimi, Cənubi Azərbaycanda da ictimai-siyasi fikrin inkişafındakı digər cəhət onun Qərbi Avropadan fərqli olaraq dindən ayrılmamış halda qalmasında idi. Burada ictimai-siyasi fikrin, elmi təsəvvürlərin, tarixi baxışların, xüsusilə də əxlaqi-etik görüşlərin inkişafı islam, şəriət normaları və ənənələri çərçivəsində gedirdi. Bu isə özü-özlüyündə maarifçilik meyllərini, onların mübariz, inqilabi ruhunu zəiflədir, milli və sinfi şüurun oyanmasını çətinləşdirərək, bunları kütlələrin alışmış olduğu anlaşıqlı, lakin tarixən perspektivsiz dini vəhdət və sinfi sülh ideyaları ilə əvəz edir, kütlələrdə irrasional dini psixologiyanı saxlayırdı. XIX əsrin sonları - XX əsrin əvvəllərində ictimai-siyasi fikrin inkişafının belə dini xarakter daşıması, yuxarıda göstərilən obyektiv səbəblərlə yanaşı, bir də onunla izah edilir ki, müsəlman ölkələrinin əksəriyyəti Qərbin kapitalist (xristian) dövlətlərindən asılı hala düşmüş və ya onların müstəmləkələrinə çevrilmişdi. Buna görə müsəlmanlıq müəyyən mənada vətənpərvərliyin, millətçiliyin təcəssümü kimi çıxış edir, panislamizm ideyaları isə ümumi antiimperialist xarakter kəsb edir, ən müxtəlif sinif və təbəqələr içərisində yayılırdı.

Lakin panislamizm heç də ardıcıl, vahid ideoloji bir sistem deyildi. Onun əsas ictimai-siyasi müddəalarının konkret şərhindən asılı olaraq (Qərbə müqavimət göstərmək üçün bütün müsəlmanların birləşməsi, müsəlmanların mənafe birliyi, yəni sinfi sülh əsasında onların ictimai, siyasi və mədəni həyatının islah edilməsi) bu ideologiyada ən müxtəlif, bəzən hətta bir-birinə əks olan cərəyanlar - o zaman mütərəqqi burjua maarifçiliyindən, antifeodal və antiimperialist cərəyanlardan tutmuş mürtəce, feodal-absolyutist, teokratik cərəyanlaradək - mövcud idi. Belə ki, panislamizmin banilərindən biri, iki dəfə İrana səfər etmiş Seyid Cəmaləddin Əfqaninin təlimində bir tərəfdən müsəlman ölkələrnin ictimai-siyasi həyatının burjua ruhunda xeyli geniş islah edilməsi

---

[763] Mirza Yusif xan Mostəşaroddoule. Yek kələme (*Bir söz*), Tehran, 1325 h.q./1907, səh.37

nəzərdə tutulur, onun bütün planlarında rəhbər rol ruhanilərə, üləmalara verilir, islah olunmuş müsəlman cəmiyyəti dövləti teokratik quruluş kimi qəbul edilirdi. Digər tərəfdən, Əfqani cəmiyyətin inqilabi yolla yenidən qurulmasını, despotizmə qarşı inqilabi mübarizəni rədd edən müsəlman islahatçılarından, o cümlədən İran, Cənubi Azərbaycan burjua maarifçilərinin əksəriyyətindən fərqli olaraq imperialistlərə qarşı mübarizədə zorakılıq, yəni inqilabi mübarizə formalarını inkar etmirdi. İran ruhanilərinə yazdığı bir sıra məktublarında o, Nəsrəddin şaha qarşı üsyana və şahı yıxmağa çağırırdı.

İctimai-siyasi fikirdə klerikalizmin bir çox ünsürlərinin qalmasının mühüm amillərindən biri də ruhanilərin sayca çox və nüfuzca güclü olması idi. İranda, o cümlədən Cənubi Azərbaycanda bir çox hallarda hökumətin, şahın əleyhinə çıxışlara görə verilən cəza (xüsusilə bunlar ruhanilərin mənafeyinə uyğun olduqda, onlar tərəfindən "qanuniləşdirildikdə"), din və ruhanilərə qarşı hörmətsizlik kimi yozula biləcək hərəkət üstündəki cəza qədər şiddətli, amansız olmurdu. Lakin ruhanilərin özləri də həm sinfi mənşəyinə, tərkibinə, həm də ideya-siyasi məsləkinə görə yekcins deyildi. Sayca ən çox və güzəranı xeyli dərəcədə xalq kütlələrinin maddi vəziyyətindən asılı olan xırda ruhanilər - mollalar, tüllablar, seyidlər bir sıra hallarda xalq kütlələrini hakimiyyətin, feodal-mülkədarların tam özbaşınalığı və soyğunçuluğundan müdafiə edirdilər. Digər tərəfdən, avam, cəhalət və xurafat əsiri olan xırda ruhanilərin əksəriyyəti bir çox hallarda ölkənin ictimai-siyasi, mənəvi həyatına (xüsusən, təhsil, mədəniyyət, məişət sahələrində) hər hansı bir yenilik gətirmək təşəbbüslərinə qarşı çıxır, üləmaların göstərişi ilə mütərəqqi fikirli adamları təqib edir, ən mürtəce və ya köhnəlmiş adət və ənənələri saxlamağa səy göstərirdilər. Orta ruhanilər (axundlar) və xüsusən iri ruhanilər (müctəhidlər, hüccətül-islamlar, ayətullalar) mövcud quruluşla qırılmaz bağlı olub, mənsub olduqları feodal sinfinin ayrı-ayrı dəstələri ilə hakimiyyətdə rəhbərlik üstündə toqquşmalarına, bu zəmində bəzən hətta şah hakimiyyəti ilə münaqişələrinə baxmayaraq, möv-

cud quruluşun keşiyində dururdular. Bu mənada onlar xalqı cəhalətdə, hüquqsuzluq və itaətdə saxlamağa, hər vasitə ilə elmi biliklərin, xüsusilə “yabançı” ideyaların yayılmasının qarşısını almağa çalışır, mühafizəkar və mürtəce rol oynayırdılar (məhz onlar: Mirzə Yusif xan Müstəşarüddövləni, Z.Marağayini, Ə.Talıbovu kafir elan etmişdilər). Lakin, eyni zamanda, daha savadlı, məlumatlı olan məhz iri ruhanilər içərisindən ölkənin geriliyini, şah hökumətinin satqınlığı və bacarıqsızlığını, özbaşınalığını tənqid edən, xüsusilə xarici ölkələr qarşısında onun acizliyini, təslim olmasını ifşa edən, bunlara son qoymaq üçün müəyyən islahatlar lüzumunu iddia edən xadimlər meydana çıxırdı.

Beləliklə, bu mərhələdə ictimai-siyasi fikrin inkişafı bütövlükdə, onun bu və ya digər cərəyanlarından asılı olmayaraq, islam bayrağı altında gedirdi. Lakin ictimai-siyasi fikirdəki islamilik ayrı-ayrı sosial-siyasi qüvvələrin nümayəndələrində müxtəlif şəkildə təzahür edir və bəzən tamamilə əks nəticələrə gətirib çıxarırdı. Bununla əlaqədar olaraq burada iki əsas istiqamət müəyyənləşmişdi. Bunlardan biri, əsasən burjua maarifçi xadimlərinin (Mirzə Yusif xan Müstəşarüddövlə, Məhəmməd Tahir Təbrizi, Ə.Talıbov, Z.Marağayi, Zəyimüddövlə və b.) təmsil etdiyi cərəyan - modernist (“islam modernizmi”) cərəyanı idi. Bunun nümayəndələri insan cəmiyyətinin sosial-iqtisadi, mədəni təkamülü proseslərinin obyektivliyini, müstəqilliyini, müəyyən qanunauyğunluqlara müvafiq olaraq getdiyini qismən qəbul edərək, dini dünyagörüşünün təsirini əslində məhdudlaşdırırdılar, bu və ya digər ictimai hadisələrin şərhində rasionalist və ya hətta, kortəbii materialist (çox vaxt metafizik) zəminə keçirdilər. Burjua konstitusiyaçılığı ideyalarını, müasir elmi bilikləri və i.a. əsaslandırmaq üçün onların Qurana, onun bu və ya digər ayələrinə müraciət etməsi bunları kütlələrin nəzərində “qanuniləşdirmək”, mürtəce ruhanilər, fanatiklər tərəfindən küfrdə, bidətdə, babilik və bəhailikdə ittiham olunmaqdan qorunmaq üçün bir vasitə idi. Bütövlükdə bu cərəyan o zaman mütərəqqi idi, kütlələrin mədəni dirçəlişinə, onlarda vətənpərvərlik hisslərinin oyanmasına, dünyada baş verən mütərəqqi proseslərə qoşulmasına kömək edirdi.

İkinci cərəyan öz tərkibinə görə çox rəngarəng idi: Buraya burjua maarifçilərin ən mühafizəkar nümayəndələri (Hacı Mirzə Əbu Talıb Zəncani, Mirzə Seyidəli xan Təbrizi və b.) ilə bərabər feodal-bürokratik dairələrin, klerikalların da nümayəndələri (Qacarların rəsmi tarixçisi, mətbuat və çap işləri naziri Məhəmməd Həsən xan Etimadüssəltənə, siyasi xadim, XIX əsrin sonlarında az müddət sədrəzəm olmuş Əminüddövlə, Hacı Seyid Rəfiəddin Təbatəbai Təbrizi və b.) daxil idi. Bu cərəyanın da nümayəndələri bəzi obyektivlikləri, məsələn, müasir elmi-texniki bilikləri və nailiyyyətləri inkar etməyərək, bunları dini mövqedən yozurdular, məsələn, Quranın bəzi ayələrini bayağılaşdırılmış şəkildə, sonrakı dövrlərin kəşfləri ilə - buxar enerjisindən istifadə olunması, təyyarənin ixtirası və s. ilə əlaqələndirir, guya orada bu barədə irəlicədən xəbər verilməsi şərh edilirdi. Qurana və başlıca olaraq şiə-şəriət normalarına (yəni məhz ruhanilərin Məhəmməddən xeyli sonralar hazırladığı və feodalizm qaydalarını, itaətkarlıq ideyalarını əsaslandırmağa, möhkəmləndirməyə yönəldilmiş normalara) müraciət edərək onlar cəmiyyətin yuxarı təbəqələri xeyrinə son dərəcə məhdud islahatlar keçirilməsinə, maarifçi absolyutizm dövləti bərqərar edilməsinə çalışırdılar. Bu kimi ideyaların aydın ifadəsini, məsələn Rəfiəddin Təbrizinin "Dövlət və xalqın hüquqları" əsərində görmək olar. Bir tərəfdən bilik, təhsil, xalqın rifahı haqqında danışan müəllif nəticə etibarilə bütün təbəələrin şaha qeyd-şərtsiz, müti itaətkarlığının lazım olması fikrinə gəlir ("soltan-allahın yerdə kölgəsidir... əgər padşah adilsə, onun salamatlığı üçün dua etmək lazımdır, əgər zülmkarsa, dua etmək lazımdır ki, allah onu islah etsin"), insanların bərabər olması ideyasını rədd edir ("əgər insanlar bir-birilə bərabər olsaydılar, onlar hər an biri digərini məhv edərdilər"), iddia edir ki, "bəzilərinin yoxsul, digərlərinin isə varlı olması allah tərəfindən buyurulmuş və təbiidir".[764]

[764] Hacı Seyid Rəfiəddin Təbatəbai Təbrizi. Hoquq-e dəvəl və meləl (*Dövlətlərin və Millətlərin hüquqları*), Təbriz, 1312, səh 24, 85

Cənubi Azərbaycanda ictimai-siyasi fikrin inkişafında daha bir zəif cəhət, Şərq ölkələrindən bir çoxunda olduğu kimi, burada iqtisadi qanunlar, xüsusən siyasi iqtisad haqqında, demək olar, heç bir təsəvvürün olmaması idi ki, bunsuz da müasir cəmiyyət qarşısında duran əsas problemləri az-çox düzgün başa düşmək mümkün deyildi. İranın burjua maarifçi xadimləri içərisində bir nəfər də olsun iqtisadçı yox idi. XIX əsrin sonlarınadək İranda iqtisadiyyat problemlərinə həsr olunmuş bir dənə də olsun orijinal və ya tərcümə edilmiş kitab çap edilməmişdi (iki-üç çox səthi və ümumi kitabça nəzərə alınmazsa). Doğrudur 80-ci illərdən az miqdar qəzetlərdə, xüsusən mühacirətdə olan xadimlər tərəfindən nəşr olunan qəzetlərdə, ən əvvəl İstanbulda çıxan "Əxtər", İranın özündə isə "Ettela", "İran" qəzetlərində bəzi iqtisadi problemlərə diqqət yetirilməyə başlandı. Lakin bu kimi nəşrlər İranın geriliyi haqqında ümumi mülahizələrdən, buna son qoymaq üçün ticarəti inkişaf etdirmək, ticarət-sənaye şirkətləri yaratmaq lüzumuna dair məlum çağırışlardan başqa bir şey deyildi. Bunların, demək olar, heç biri İran iqtisadiyyatı haqqında aydın təsəvvür və ya biliyə, hər şeydəi əvvəl, ona görə əsaslanmırdı ki, ölkədə ümumiyyətlə müvafiq iqtisadi, statistik, maliyyə idarələri yox idi. İrana dair iqtisadi-coğrafi, iqtisadi-statistik məlumatlar xarici ölkələrin ticarət-sənaye, bank müəssisələri, mütəxəssisləri tərəfindən toplanır və öyrənilirdi. İranın iqtisadi coğrafiyasına həsr olunmuş ilk məktəb dərsliyi səviyyəsində olan kitablar İranda, o cümlədən Cənubi Azərbaycanda yalnız 80-ci illərdən meydana çıxmağa başlamışdı (məsələn, Əbdülqafarın kitabları). Siyasi iqtisad haqqındakı təsəvvürlər də eynilə yayğın idi. Sərvətin mənbəyi, bəzi xalqların varlı, digərlərinin yoxsul olmasının səbəbləri məsələsinə cavab tapmaq səylərində Cənubi Azərbaycan və ümumiyyətlə İran (habelə digər Şərq ölkələrinin çoxunda) ideoloqları ictimai-siyasi fikrin inkişafının bu mərhələsində ən primitiv görüşlərdən kənara çıxa bilməmişdilər. Onlar bu baxışları ilə iqtisadi həyat haqqında ənənəvi, orta əsrlərə xas olan təsəvvürlərə, ya da Avropanın XVIII əsrin sonu - XIX əsrin əvvəllərindəki siyasi-iqtisad təlimləri ilə

çox səthi tanışlığa istinad edirdilər. Məsələn, A.Smitin və D.Rikardonun əmək dəyəri haqqındakı təliminin yalnız bir ünsürü - ticarət, əmtəə mübadiləsi ünsürü götürülür və bunlar sərvəti yaradan mənbə kimi şərh olunurdu. Təbiidir ki, belə təsəvvürlərə əsaslanan sosioloji mülahizələr də çox bəsit, naqis, idi. Cəmiyyət və onun quruluşu, siniflər, sosial təbəqələr, onların münasibətləri, keçmişdə olduğu kimi, silki mənada, sanki təbiət (və ya ilahi qüvvə) tərəfindən əbədi müəyyən edilmiş və dəyişməz bir hal kimi təsvir olunurdu. İran cəmiyyətinin aşağıdakı silklərdən ibarət olması haqqındakı təsəvvür geniş yayılmışdı: şah sülaləsi və əyanlar, ruhanilər, mülkədarlar (“malekin”), orta təbəqə (“kəsəbe”), kəndlilər (rəiyyət). Belə bölgüdə yalnız əsas istehsal vasitəsi olan torpaq üzərində mülkiyyət nəzərə alınır, istehsal münasibətlərinə isə əhəmiyyət verilmirdi. Bu zaman burjuaziya və proletariat, bunların müstəqil siniflər olması haqqında təsəvvür yox idi. İctimai strukturun belə başa düşülməsi nəticəsində, təbiidir, sinfi istismar məfhumunun özü də ortaya çıxmamış, “zülm” dedikdə isə burada siyasi zülm, özbaşınalıq, hüquqsuzluq, yəni birinci növbədə qeyri-iqtisadi məcburiyyət formaları nəzərdə tutulurdu. Buna görə burjua maarifçilərinin sosial-siyasi proqramı da son dərəcə məhdud olub, nəticə etibarilə mövcud feodalizm quruluşunu, onun təcəssümü olan Qacarlar monarxiyasını məhv etməyə deyil, islahat yolu ilə məhdud konstitusiyalı dövlət və ya hətta maarifçi absolyutizm dövləti yaratmağa, feodal sinfini cəmiyyətin həyatından kənar etmək deyil, onu “tərbiyə etməyə”, onda vətənpərvərlik hissləri oyatmağa yönəldilmişdi.

İctimai-siyasi fikrin inkişafında Asiyanın oyanması ilə başlanmış yeni mərhələ əsas istiqamətinə görə ictimai şüurda konstitusiyaçılıq ideyalarının möhkəm kök salması ilə səciyyəvi idi. Lakin bu ümumi ideyanın real məzmunu heç də eyni deyildi və ayrı-ayrı sosial-siyasi qüvvələrin buna nə kimi konkret məna verməsindən, yəni nəticə etibarilə siniflərin təşəkkülü və sinfi təbəqələşmə proseslərindən, mövcud feodalizm sistemi böhranının konkret təzahüründən, habelə xarici amillərdən, Qərbin ideoloji sistemlərinin nüfuzundan və təsir dərəcəsindən asılı olaraq çox

fərqli, bəzən isə tamamilə zidd idi. Feodal və son dərəcə məhdud, ilkin burjua maarifçiliyi cərəyanlarının qarşı-qarşıya durduğu keçmişdəkindən fərqli olaraq, indi burjua-demokratik və inqilabi-demokratik cərəyanlar da təşəkkül tapır. Bu mərhələnin daha bir xüsusiyyəti - ictimai-siyasi fikrin əhatə dairəsinin xeyli genişlənməsi idi. Əgər bundan əvvəl ictimai-siyasi fikir başlıca olaraq müasir tarixi fikir, dövlət-hüquqi baxışlar sahəsində əksini tapırdısa, indi bunda müasir iqtisadi (siyasi iqtisad), sosioloji təlimlərin ünsürləri, ən müxtəlif, o cümlədən inqilabi ideyalar da özünü göstərməyə başlayır. Nəhayət, bu mərhələnin daha bir xüsusiyyəti - ictimai-siyasi fikrin təşəkkülü prosesinə əvvəlkinə nisbətən əhalinin daha geniş təbəqələrinin, o cümlədən qismən şəhər zəhmətkeşlərinin də qoşulmasında idi ki, bu da həmin mərhələdə artıq ictimai şüurun yarandıqı qənaətinə gəlməyə əsas verir. Bu proses 1905-1911-ci illər inqilabı dövründə özünü xüsusilə qabarıq şəkildə göstərdi. İranda, xüsusilə də 1905-1907-ci illər rus inqilabının daha çox təsiri altında olan Cənubi Azərbaycanda inqilab, liberalizm ideoloqlarının güman və təbliğ etdiklərindən xeyli dərin getdi, demokratik xarakter kəsb etdi. Burada kütlələrin inqilabi fəaliyyəti ictimai-siyasi fikrin təkamülünü ötüb keçərək öz növbəsində onun ümumi inkişaf istiqamətinə, onda yeni keyfiyyət dəyişiklikləri əmələ gəlməsinə təkan verdi. Bu mənada əsas yenilik, hələ yaxınlaradək təbii və ictimai hadisələrə, demək olar, büsbütün idealist baxışlardan, qismən materialist (kortəbii materialist) baxışlara doğru, təkamülçü-reformist prinsiplərdən inqilabi prinsiplərə doğru ilk addım atılması oldu. Beləki, İrandakı ictimai, siyasi quruluşun istibdad, yəni insan təbiətinə zidd və deməli, labüdən bu və ya digər yolla aradan qaldırılmalı bir quruluş olması ideyası geniş yayılır.[765]

---

[765] Bununla əlaqədar olaraq İranda o zaman həmin məsələlərə xüsusi həsr olunmuş və geniş yayılmış iki əsəri qeyd etmək lazımdır. Bunlardan biri məşhur ərəb maarifçisi, «islam modernizminin» görkəmli nümayəndəsi Əl-Kəvakibinin «İstibdadın təbiəti» əsərinin farscaya tərcüməsi (*Təbayülistibdad, Tehran, 1325*), digəri isə müəllifi (habelə nəşr yeri və ili göstərilmədən çap olunan «Şəri dəf etmək və zülmə qarşı üsyan etmək hüququ» (*Həqq-e dəf-e şər və qiyam*

İctimai-siyasi fikrin inkişafında belə dəyişikliklərin ilk əlamətləri, hələ 1890-1900-cü illərin hüdudunda özünü göstərməyə başladı və beynəlxalq həyatda rus-yapon müharibəsi və xüsusən 1905-1907-ci illər rus inqilabı kimi hadisələrin təsiri altında daha da bariz bir şəkil aldı.

Yaponiyada kapitalizmin sürətli inkişafı və çar Rusiyasına qarşı müharibədə qələbəsi bütün İranın (ümumiyyətlə, Şərq ölkələrinin) liberal dairələri içərisində ilk vaxtlar öz ölkələri üçün də mümkün və lazım olan ictimai inkişaf, müstəmləkə əsarətindən yaxa qurtarmaq yolu kimi qiymətləndirilmişdi. Müəyyən müddət ərzində "yapon mövzusu" mətbuatda və adi danışıqlarda ən çox və qızğın müzakirə edilən məsələlərdən birinə çevrildi. Bu zaman həmin uzaq ölkənin əsl tarixi ilə, oradakı real vəziyyətlə çox səthi tanış olan geniş dairələrdə Yaponiyanın inkişaf yolu ideallaşdırılır, onun təsərrüfat, mədəni və hərbi nailiyyətləri həddən artıq şişirdilirdi.[766] Lakin "yapon təsiri" uzun sürmədi və başqa kapitalist dövlətləri kimi Yaponiyanın da təcavüzkar mahiyyəti (xüsusilə Koreyanı zəbt və ilhaq etdikdən sonra) İranda, o cümlədən Cənubi Azərbaycanda cəmiyyətin gözüaçıq dairələri üçün aydın oldu.

Bütün İranda, xüsusən Cənubi Azərbaycanda ictimai-siyasi fikrin inkişafına həm vüsəti, həm də dərinliyinə görə güclü təsir

---

*bər zedd-e zolm*) əsərləridir. Əl-Kəvakibinin əsəri istibdad sistemini islam normaları baxımından rədd etsə də, inqilabi mübarizəyə də mənfi münasibət bəsləyir. İkincisi isə Fransa inqilabının əsas şüarlarından biri olan «insanın təbii hüquqları» prinsipinə arxalanaraq inqilabi mübarizənin qanunauyğun olması fikrinə yaxınlaşır. Burada Təbriz üsyanına yüksək qiymət verilir və qeyd olunur ki, təbrizlilərin müqaviməti olmasaydı, bütün ölkədə inqilab boğulardı, məhz buna görə də bütün ölkənin əhalisi onlardan nümunə götürməlidir (səh. 19-20, 23).

[766] Çənubi Azərbayçanın içtimai-siyasi fikrinin bir sıra görkəmli nümayəndələri də bir zaman belə «modaya» uymuşdlular. Məsələn (Ə.Talıbov özünün «Həyat məsələləri» kitabında Yaponiyanın dövlət quruluşunun və yapon imperatorunun hakimiyyətini ideallaşdırırdı.

göstərən amil 1905-1907-ci illər rus inqilabı oldu.[767] Bu təsir burada ilk növbədə ideoloji proseslərdə, xüsusən inqilabi-demokratik və sosial-demokrat ideyaların yayılmasında özünü göstərdi. Bunun başlıca amili Cənubi Azərbaycandan gəlmiş minlərlə kəsbkarın Zaqafqaziyada, ilk növbədə Bakıda inqilabi hərəkata qoşulması, inqilabi hadisələri bilavasitə müşahidə etməsi oldu. Onlar burada yalnız inqilabi mübarizə təcrübəsi qazanmaq deyil, eyni zamanda, RSDF(b)P və onun tərkibinə daxil olan "Hümmət" təşkilatının səyləri, onların yazılı və şifahi təbliğatı nəticəsində inqilabi nəzəriyyənin, sosialist dünyagörüşü və beynəlmiləlçi tərbiyənin ən ilkin tələb və şüarlarına da yiyələnirdilər. Onlar vətənə qayıdarkən, sayca az olsalar da, ideya-siyasi səviyyələrinə görə ən hazırlıqlı, ictimai şüurun yetkinləşməsinə kömək edən, milli, sinfi şüurun oyanmasına təkan verən, antifeodal, antiimperialist ideyaların yayılmasına xidmət edən fəal kütləni təşkil edirdilər. Rus inqilabının təsiri təkcə burada yaranmağa başlayan sosial-demokrat və digər inqilabi təşkilatların və partiyaların proqram xarakterli sənədlərində, konkret siyasi şüarlar və fəaliyyətində deyil, bütövlükdə yeni ictimai-siyasi fikrin, xüsusilə də tarixi fikrin, sosioloji və iqtisadi baxışların təşəkkülündə öz əksini tapırdı.

İctimai-siyasi fikrin inkişafında tarixi fikir mühüm yer tuturdu ki, bu da hələ keçmiş zamanlardan ənənəvi Şərq təfəkküründə tarix elminə dikər elmlər içərisində yüksək qiymət və diqqət yetirilməsi ilə əlaqədar idi. Bu həm də burjua ideoloqlarının nümayəndələrinin ilk növbədə məhz tarix elmində İranın (Şərqin) geriliyinin səbəblərinə dair suallarına cavab tapmağa çalışmaları[768]

---

[767] 1905-1907-ci illər rus inqilabının İrana təsiri məsələsi sovet müəllifləri tərəfindən geniş tədqiq edildiyi üçün biz burada həmin məsələdən qısa şəkildə bəhs edirik.

[768] Səciyyəvidir ki, 1905-1911-ci illər inqilabı dövründə mötədil burjua liberalizmi və milliyyətçiliyinin ən nüfuzlu rəhbərlərindən biri olmuş Seyid Həsən Tağızadə Təbrizi inqilab ərəfəsində nəşr etdiyi kitabçasını məhz belə adlandırmışdı: «Tarixi mülahizələr nöqteyi-nəzərindən İranın müasir vəziyyətinin təh-

ilə izah olunurdu. Belə bir əqidə dərin kök salmışdı ki, tarix xalqı oyatmaq, onda vətənpərvərlik, vətəndaşlıq hissləri tərbiyə etmək üçün ən qüdrətli vasitədir. İnqilab başlandıqdan sonra isə tarixin qanunauyğunluqları, təkamül məsələləri, inqilabi inkişaf, şəxsiyyət və kütlələrin rolu, habelə bəzi digər tarixi problemlər xüsusilə diqqəti cəlb etməyə başlayır.

Bu mənada tarix elminin inkişafında ilk burjua peşəkar tarixçiləri mühüm rol oynadılar. Onların məktəblilər üçün ümumi tarix və ya İran tarixinə dair yazdıqları dərsliklərdə (bunlar içərisində azərbaycanlı müəlliflərdən Mirzə Seyid Əli xanın, Cavanşir Qarabağinin, Mirzə Hüseyn xanın, habelə farslardan ata və oğul Zükaülmülk Foruqilərin dərsliklərini xüsusi qeyd etmək lazımdır. XX əsrin ilk 10-12 ili ərzində 15-dək belə kitab nəşr olunmuşdu) ilk dəfə olaraq Avropa burjua tarixşünaslığının İran üçün yeni olan bəzi prinsipləri tətbiq edilməyə başlandı: tarixin obyektləri genişləndirildi (tarixin coğrafi, maddi və mənəvi amillərindən heç olmazsa ad çəkilməyə başlandı), quldarlıq və xüsusən feodalizm bəşər tarixində müstəqil dövrlər kimi tanınmağa başladı və ötəri şəkildə olsa da, "tarixi qanunauyğunluqların" varlığı qəbul edildi. Lakin idealist dünyagörüşünə arxalanan bu cərəyanın ən böyük qüsuru onda idi ki, o müstəsna olaraq üstqurum hadisələrini şərh edir və sosial-iqtisadi amilləri, o cümlədən sinfi ziddiyyətləri və mübarizəni əsla nəzərə almırdı. Sözdə tarixi qanunauyğunluqları qəbul edən həmin müəlliflər əslində bunları "tarixin hikməti" kimi mistik bir şey olaraq başa düşür və belə nəticəyə gəlirdilər ki, hər bir xalq öz inkişafında labüdən gənclik, yetkinlik, qocalıq və ölüm (bəzən sonra yenidən dirilmə) kimi mərhələlərindən keçməlidir. Bu, Avropa idealist tarixşünaslığından əxz edilmiş dövrilik nəzəriyyəsinin bəsit forması idi. Təbiidir ki, İranın müasir tarixini təsvir edərkən onların çıxardığı nəticələr də çox vaxt səhv olurdu. Belə ki, ölkənin son 20-30 illik tarixinin, o cümlədən inqilab dövrünün də qiymətləndirilməsində, onlar üçün ümumi cəhət, İranda

---

lili» (Seyid Həsən Təqizade Təbrizi. Təhqiq-e əhval-e konuni-ye İran ya mohakemat-e tarixi (*İranın hazırkı vəziyyətinin tədqiqi və ya tarixi mühakimələr*), Qahere, 1323/1944)

şahların - Nəsrəddin şahdan başlayaraq 1908-ci il əksinqilabi çevrilişinin başçısı olan qatı irticaçı Məhəmmədəli şahadək - yaxşı olması, ölkəni tərəqqiyə aparmağa can atması və əksinə, onların nazirlərinin acgözlüyünün, tamahkarlığının şahlara mane olması, çəhalətdə qalan xalqın isə şahları başa düşməyib, onlara laqeydliyi haqqındakı tezis idi. Beləliklə, burjua tarixşünaslığının bu cərəyanı xalqı oyatmaq, maarifləndirmək haqqında öz şüarlarına zidd olaraq əslində ictimai şüurun inkişafına çox az xidmət edir və bir sıra hallarda açıqca mürtəce ideyaları (misal üçün, dövlət hakimiyyətinin paterialist konsepsiyalarını, monarxizm ideyalarını) möhkəmləndirirdi.

Bu dövrdə tarixi fikrin inkişafına ölçülməz dərəcədə artıq xidmət göstərən, şərti desək, "publisistik məktəb" oldu (bu ad altında biz qəzet və jurnal səhifələrində tarixin hər hansı bir nəzəri probleminin və ya müasir siyasi vəziyyətlə əlaqədar olaraq müəyyən tarixi hadisələrin şərhinə həsr olunmuş yazıları nəzərdə tuturuq). Əlbəttə, nə öz metodoloji prinsiplərinə, tarixin əsas problemlərinə münasibətinə görə, nə də xüsusən öz ideya-siyasi məsləkinə, yaxın keçmişə və ya mövcud vəziyyətə verdiyi qiymətə görə bu heç də vahid bir məktəb deyildi. Əksinə, məhz burada bu və ya digər mətbuat orqanının, müəllifin sinfi, siyasi mövqeyindən asılı olaraq tarixə münasibətdəki fərqlər daha kəskin ifadə olunurdu, çünki belə müəlliflər tarix məsələlərinə öz konkret şüarları, proqramlarını əsaslandırmaq üçün müraciət edirdilər. Bu məktəbin əsasını 1903-1904-cü illərdə Təbrizdə nəşr olunan "Gəncineye-fonun" ("Elmlər xəzinəsi") jurnalı qoydu.[769] Naşir və redaktorlarından biri H.Tağızadə olan bu jurnalda dərc olunan bir sıra materiallar (məsələn, Renan, Bokl kimi avropalı tarixçilərin əsərləri əsasında yazılmış "Qədim sivilizasiyalar" məqalələr silsiləsi) bəşəriyyətin meydana gəlməsinin ilk dəfə müntəzəm elmi şərhini verir, öz mündəricəsilə müvafiq dini baxışları rədd edirdi.

---

[769] Jurnal Türkiyədə 90-cı illərdə çıxan və orada ictimai-siyasi fikrin mədəniyyət və ədəbiyyatın inkişafında dərin iz buraxmış olan «Sərvəti-fünun» jurnalını xatırlatsa da, həm öz mündəricəsi, həm də ideyaca yetkinliyi cəhətdən onun səviyyəsinə çata bilmədi.

Lakin bunlar “akademik” xarakterli yazılar olub, ölkənin müasir problemləri ilə müqayisələr aparmağa, nəticələr çıxarmağa az imkan verirdi.[770]

“Publisistik məktəb” inqilab dövründə, ictimai həyatın tələbatından doğan ehtiyacla əlaqədar olaraq daha çox inkişaf etdi. Bu zaman tarixi fikrin inkişafında, dövrün ən nüfuzlu naşirləri əsasən azərbaycanlılardan ibarət olan Ümumiran qəzetlərinin “Sure-İsrafil”, “İstiqlale-İran”, xüsusən “İrane-nou”nun mühüm rolu oldu. Bu qəzetlərin tarixi görüşləri həm xüsusi, tarixin bu və ya digər məsələlərinə və ya metodoloji problemlərinə, həm də daha çox, inqilabın cari siyasi məsələlərinə həsr olunmuş məqalələrdə ifadə edilirdi.[771] “İrane-nou” qəzeti müəyyən dərəcədə tarixin, onun qanunauyğunluqlarının materialistcəsinə və dialektik baxımdan başa düşülməsinə yaxınlaşmış və tarixin dövrilik nəzəriyyəsini qəbul edərək[772] bir qədər dumanlı olsa da, sinfi mübarizəni tarixin hərəkətverici qüvvəsi kimi izah edir,[773] şəxsiyyətin

---

[770] Jurnalın bütün nömrələri əlimizdə olmadığından, onun tarixşünaslıq məsələlərinə münasibəti, məsləki haqqında qəti fikir söyləmək mümkün deyildir. Yalnız bunu qeyd etmək olar ki, adı çəkilən məqalələr silsiləsi və yuxarıda qeyd olunan dərsliklərdən bəzilərində qədim tarixə dair bölmələr İran tarixşünaslığında irqi konsepsiyanın başlanğıcını qoydu. Avropanın mürtəce tarixçilərinin əsərlərindən götürülmüş bu nəzəriyyə başlıca olaraq sonralar 20-30-cu illərdə geniş yayılaraq Rza şah monarxiyasının irqçi-şovinist millətçiliyi üçün «elmi» əsas oldu.

[771] Məsələn, «Təkamül», «Senat», «Qədimdə İranın Gürcüstana təsiri» (sonuncu məqalə rus alimi N.Y.Marrın əsərlərindən iqtibas olunmuşdu), «Xarici siyasət. Tarixi baxış» (bu isə məşhur rus tarixçiləri Veselovski və Solovyovun əsərlərindən istifadə etməklə yazılmışdı), «İranın maliyyəsi tarixindən» və s. məqalələri göstərmək olar.

[772] Bununla əlaqədar olaraq qəzet yazırdı: «Keçən əsrlərdən birində baş vermiş hər hansı hadisə, bir qədər dəyişmiş şəkildə olsa da, çox oxşarlıqla yenə təkrar olur, halbuki əsas problem eyni qalır və bunlar arasında fərq olmur» («İrane-nou», 29 yanvar 1910-cu il).

[773] «Təkamül» məqaləsində siniflərin meydana gəlməsi prosesini ümumiləşdirərək qəzet yazırdı: «Bəşəriyyət ən əvvəldən sarsıntılar keçirir və bu daimi vuruşmalar tərəqqinin birinci mühərrikidir» («İrane-nou», 28 aprel 1910-cu il).

tarixdə rolu, cəmiyyət həyatının sosial-iqtisadi əsasları məsələlərində elmi mövqeyə keçir,[774] cəsarətlə yeni məfhumlar və terminlərdən (diktatura, proletariat) istifadə edirdi. Bütün bunlarda "İrane-nou" qəzeti ölkədə bərqərar olan liberal burjua tarixi fikrindən çox-çox irəli gedib, müəyyən mənada marksist tarixi fikrinin sələfi rolunu ifa edirdi. Bu, ilk növbədə 1905-1907-ci illər rus inqilabı ideyalarının, bolşeviklərin mətbuat və proqram sənədlərinin məhz Cənubi Azərbaycan publisistlərinə, ictimai və siyasi xadimlərinə təsiri nəticəsi idi. Lakin eyni zamanda onlar bütün bu məsələlərdə ardıcıl deyildilər; tarixi prosesləri şərh etmələri ziddiyyətli idi.

Buna, baxmayaraq, hətta belə qeyri-yetkin baxışlar da o zaman irəliyə doğru müəyyən addım olub, demokratik meyllərin inkişafına, ictimai-siyasi şüurun oyanmasına kömək edirdi. Burjua mətbuatının, publisist və ideoloqlarının, siyasətçilərinin əksəriyyəti isə tarixi təfəkkür cəhətdən xeyli aşağı səviyyədə idi. Belə ki, onların əksəriyyəti içərisində Avropanın idealist məfkurəli tarixçilərinin (xüsusən Gibbin) belə bir konsepsiyası geniş yayılmışdı ki, bu və ya digər xalqın tərəqqisi və ya tənəzzülünün səbəbi onun mənəvi səviyyəsindən və tələbatından asılıdır. Təbiidir ki, tarixi prosesin belə başa düşülməsi həmin dairələr içərisində, xalqın mənəvi-əxlaqi səviyyəsinin hələ yetkin olmaması və yalnız uzun zaman onu maarifləndirdikdən sonra ölkədə siyasi islahatlara başlamağın mümkün olacağına dair mürtəce ideyaya gətirib çıxarırdı.

Müasir iqtisadi biliklərin və siyasi-iqtisad fikrinin təşəkkülündə də müəyyən irəliləyiş nəzərə çarpmağa başlamışdı. İqtisadi problemlərə diqqətin artması ölkənin bütün təsərrüfat həyatının Qərb kapitalizmindən asılı vəziyyətə düşməsi və bundan çıxış yolu tapmaq təşəbbüsləri ilə bağlı idi. Bununla əlaqədar olaraq əsas

---

[774] Səttarxan və Bağırxanın Tehrana gəlməsi haqqında «Azadlığın iki qəhrəmanı» adlı məqalədə qəzet yazırdı: «Biz iddia etmirik ki, azadlığı bizim üçün əziz olan yalnız bu iki şəxs vermişlər. Əsla. Biz tarixi hadisələri tamamilə şəxsiyyətlərə bağlayan, şəxsiyyətin əhəmiyyətini həddən ziyadə şişirdən fəlsəfə tərəfdarı deyilik» («İrane-nou», 14 aprel 1910-cu il).

ideya - dövlət tərəfindən ticarət, sənaye və kənd təsərrüfatı sahəsində iranlıların kapitalist fəaliyyətinə himayədarlıq edilməsi idi.[775] Lakin ölkə qarşısında duran əsas iqtisadi problemlərin düzgün başa düşülməsi xeyli dərəcədə hələ də qeyri-yetkin olan siyasi iqtisad fikrinin səviyyəsindən asılı idi. "Siyasi iqtisad" məfhumunun özü mətbuat səhifələrində və bəzi kitab nəşrlərində getdikcə daha tez-tez işlənməyə başlamışdısa da,[776] bu çox məhdud, yalnız milli sərvət haqqında elm kimi mənalandırılırdı: "Siyasi iqtisad və sərvət haqqında elm millətin necə varlı ola bilməsini öyrənir... yalnız o millət və ya dövlət varlı hesab oluna bilər ki, faydalı şeylər çox istehsal etsin"...[777] Lakin bu halda da idealist dünyagörüşü iqtisadi bərabərsizliyin, bəzi xalqların geri düşməsi, digərlərinin irəli getməsi səbəblərinin səhv şərh edilməsinə səbəb olur, "ehtiyac nəzəriyyəsinin" bu kimi əsaslandırılmasına gətirib çıxarırdı: "belə fərqin səbəbi çox vaxt xalqların mənəvi həyatındakı fərqlərdədir, bəzi xalqlar mənəvi həyatdan məhrumdur".[778] Doğrudur, istismarın tarixi bir hal olması haqqında təsəvvür yayılmağa başlamışdı. Lakin istehsal münasibətlərindən, istehsal vasitələri üzərində mülkiyyət formalarından təcrid şəkildə baxılan (istehsal vasitələri haqqındakı təsəvvürlər çox dumanlı olub, əksərən əmək alətləri ilə eyniləşdirilirdi) istismarın, xüsusən kapitalist istismarının əsl mahiyyəti yenə də açılmamış qalır və nəticə etibarilə qeyri-iqtisadi məcburiyyət kimi izah olunurdu. Bu mərhələdə iqtisadi fikrin inkişafındakı əsas xüsusiyyət klassik si-

---

[775] İnqilab illərində müvafiq təşəbbüslər maliyyə, vergilər, ticarət-sənaye şirkətlərinin təsis olunması haqqında məclis qanunvericiliyində, Cənubi Azərbaycanda isə əyalət əncüməninin bəzi iqtisadi tədbirlərində öz əksini tapdı.

[776] Siyasi iqtisada dair ilk kitab İranda inqilab ərəfəsində nəşr olunmuşdu. Bu, fransız müəllifi Pol Berajın oçerkinin tərcüməsi idi (Osul-e elm-e sərvət ya ekonomi-ye politik. Tərcome və neqareş: Mirza Məhəmmədəli xan Zəkaülmülk(*Sərvət elminin prinsipləri və ya siyasi iqtisad*), Tehran 1323/1944)

[777] Mirza Hüseyn xan. Tarix-e omumi (*Ümumi tarix*), Tehran, 1323/1944, səh.190-191 (Sonrakı səhifələrdə: Mirzə Hüseyn xan, səh... yazılaçaqdır).

[778] Şeyx İbrahim Zəncani. Rah-e zendeqani (*Həyat yolu*), Tehran, 1333/1954, səh.90 (Sonrakı səhifələrdə: Zəncani, səh... yazılaçaqdır).

yasi iqtisadın, utopist sosialistlərin, XIX əsr burjua iqtisadçılarının (o cümlədən xırda burjua prudonçu baxışların) eklektik şəkildə şərhi idi. Məsələn, Mirzə Hüseyn xan Kamal, "Sivilizasiya və ya fəlakət" adlı iki məqaləsində[779] "mülkiyyət oğurluqdur" deyən məşhur tezisi müdafiə edərək yazırdı: "Necə olur ki, bəziləri varlı, digərləri isə yoxsul olur?" Bu suala cavab verərək o hər bir şeyi bununla izah edirdi ki, "satıcı əmtəəni alıcıya çox yüksək qiymətlə satır". Beləliklə də o, mülki bərabərsizliyin mənbəyini istehsalda deyil, mübadilədə, ticarətdə görürdü. Feodal istismarına isə nisbətən daha düzgün mövqedən yanaşılırdı və bu məsələdə artıq belə bir fikir yetişirdi ki, onun əsasını torpaq üzərində feodal mülkiyyəti və buna istinad edən aqrar münasibətlər təşkil edir. İran kəndinin bu mühüm problemi ən ardıcıl şəkildə "Suri-İsrafil" qəzetində şərh olunmuşdu. Qəzet çox ehtiyatla olsa da, Qurana istinad etməklə torpaqların milliləşdirilməsi (və ya bələdiyyələşdirilməsi) və bu yolda feodal istismarının aradan qaldırılması fikrini irəli sürürdü. Lakin ölkədə əsas istehsal vasitəsi olan torpaqdan bundan sonra hansı əsasda istifadə ediləcəyi göstərilmədiyindən, feodal istismarının başlıca kökləri yenə də açılmamış qalırdı. Ümumiyyətlə isə bu mərhələdə yenicə öyrənilməyə başlanılan siyasi iqtisad fikri hələ çox zəif idi və o zamankı ictimai şüurda, mövcud siyasi partiyaların proqramlarında son dərəcə zəif əks olunmuşdu. Bu isə öz növbəsində bütövlükdə ictimai-siyasi fikrin inkişafını ləngitməyə bilməzdi.

Bu mərhələdə sosioloji təsəvvürlərin və baxışların təşəkkülü ictimai fikrin digər sahələrinə nisbətən daha intensiv şəkildə inkişaf edirdi. Bu, hər şeydən əvvəl, inqilab illərində ictimai-siyasi inkişaf sürətinin artması, xüsusən konstitusiya qəbul olunduqdan, məclis açıldıqdan sonra müxtəlif qüvvələrin qütbləşməsi və onlar arasında ziddiyyətlərin kəskinləşməsi ilə əlaqədar idi: əvvəllər inqilaba qoşulub ona rəhbərlik edən liberal mülkədarların və burjuaziyanın yuxarı dairələri, iri ruhanilər indi geri çəkilərək onun

[779] «Bax: «Kamal» qəzeti (Qahirə nəşri), 31 avqust və 29 oktyabr 1905-ci il.

dərinləşməsinə yol verməməyə səy göstərdikləri halda, demokratik qüvvələr, əksinə, inqilabı davam etdirib xalq kütlələrinin mənafeyi üçün genişləndirməyə (xüsusən Təbriz üsyanı gedişində) çalışırdılar. Bu isə öz növbəsində müasir cəmiyyətin xarakteri və gələcəyinin müəyyən olunmasını tələb edirdi. Müasir İran cəmiyyəti necədir, hansı sosial (sinfi problem) və etnik (milli problem) qruplardan ibarətdir, onların nisbəti, rolu və mövqeyi necədir - bütün bu məsələlər getdikcə kəskinləşən ideoloji mübarizənin ən mühüm siyasi məsələlərinə çevrilir, bütün ictimai-siyasi qüvvələr tərəfindən bu və ya digər şəkildə şərh olunurdu.[780] İran cəmiyyətinin silki deyil, sinfi quruluş cəhətdən izah edilməsi prinsipi, demək olar, hamı tərəfindən qəbul edilirdi. Lakin bu prinsipdən konkret siyasi proqramlar, şüarlar şəklində əməli nəticələr çıxarıldıqda və xüsusən bunları ictimai həyata tətbiq etmək səylərində ən müxtəlif meyllər - açıq mürtəce meyllərdən tutmuş mütərəqqi meyllərədək nəzərə çarpırdı ki, bu da müvafiq partiya və təşkilatların, ictimai və siyasi xadimlərin sinfi mənşəyi və mövqeyindən, bu və ya digər rayonda, mərhələdə inqilabi hərəkatın dərinliyindən asılı idi. Bu amillər isə Cənubi Azərbaycanda inqilabi hərəkat gedişində daha kəskinliklə özünü göstərmiş və buna görə ideoloji qütbləşmə prosesi (o cümlədən sosioloji məsələlərdə) burada daha bariz olmuşdur.

Bütun İranda olduğu kimi, Cənubi Azərbaycanda da həm sayca, həm də sosial-iqtisadi həyatdakı mövqe cəhətdən əsas siniflər hələ də feodallar (mülkədar-feodallar) və kəndlilər olub, başlıca ictimai ziddiyyətlər məhz bu iki sinif arasında gedirdi.

Feodal qaydaları eyni zamanda yaranmaqda olan burjuaziyanı da məngənədə saxlayırdı. Odur ki, bütün cəmiyyət qarşısında

---

[780] Sosioloji problemlər də bir qayda olaraq, xüsusi əsərlərdə deyil, ümumi siyasi xarakterli məqalələrdə, mətbuat səhifələrindəki mübahisələrdə, müxtəlif siyasi, ən əvvəl inqilabi təşkilat və partiyaların proqram sənədlərində, şüar və intibahnamələrində şərh olunurdu. Bu dövrdə sosioloji xarakterli yeganə nəşr İbrahim Zəncaninin «Həyat yolu» adlı kitabçası idi. Müəllif burada Qərbi Avropanın XVIII əsr maarifçilərinin «xoşbəxt» və «bədbəxt» xalqlar haqqındakı bəzi sosioloji mülahizələrinin şərhini verir.

duran əsas vəzifə də feodalizm qaydalarını ləğv etmək idi. Buna görə təbiidir ki, ictimai-siyasi fikir sahəsində də ən çox məhz feodalizm problemləri diqqəti özünə cəlb edirdi. Bu mərhələdəki sosioloji fikir İran feodalizminin, feodal sinfinin kifayət qədər dürüst izahını verə bilməsə də,[781] onun milli sərvətlərin əksəriyyətini öz əlində saxlayan, əhalinin əsas kütləsi kəndliləri istismar edən ən mürtəce qüvvə, despotizmin dayağı olduğu bütün ideya-siyasi cərəyanlar tərəfindən (aydındır ki, hakim feodalların ideologiyasından başqa) təsdiq olunurdu. Lakin bu faktın sadəcə olaraq etiraf edilməsi hələ heç də bundan düzgün nəticələr çıxarılması, bu və ya digər siyasi qüvvələr tərəfindən işdə düzgün həll edilməsi demək deyildi. Feodalizm məsələsinə burjua ideoloqlarının münasibəti çox ziddiyyətli idi. H.Tağızadə kimi mötədil liberallar despotizm əleyhinə, "adilanə", yəni burjua qaydaları qurulması lüzumu haqqında gurultulu çıxışlarına baxmayaraq,[782] aqrar məsələnin demokratik həllinə yönəldilmiş az-çox ardıcıl proqram irəli sürmür və feodalları bir sinif olmaq etibarilə ləğv etmək vəzifəsini qarşıya qoymurdular. Onlar ən uzağı kənddə mövcud olan vəziyyəti, yəni feodal münasibətlərini "tənzim" etmək ideyasını irəli sürürdülər. Burjuaziyanın radikal dairələri isə bu məsələdə daha qəti çıxış edirdilər. Belə ki, inqilab ərəfəsində dünyagörüşündə mötədil burjua maarifçilik liberalizmindən demokratizmə tərəf dönüş yaranmış olan Ə.Talıbovun aqrar proqramı əslində torpaqların milliləşdirilməsini, bütövlükdə aqrar probleminin Amerika yoluna bənzər yolla həllini nəzərdə tuturdu.[783]

---

[781] Feodalizm məfhumu bu zaman çox vaxt «zadəgan», «xanxani», «məlikültəvayifi» sözləri ilə ifadə olunur, lakin bunlardan heç biri feodalizmin sosial-iqtisadi məzmununu ifadə etmirdi. Yenicə işlənməyə başlanan «feodal» termini də çox vaxt feodalizmin yalnız bir cəhətini - suverenlik və süzerenlik münasibətlərini göstərən mənada başa düşülürdü.

[782] H.Tağızadənin məhz belə çıxışları ilə əlaqədar olaraq Məhəmmədəli şah demişdi ki, məclisdən onup səsini eşitməkdənsə, qulağının dibində top atəşinin gurultusunu eşitmək daha xoş olardı.

[783] Bu məsələni Ə.Talıbov «Pak adamların məsləkləri» əsərində, xəyali bir kəndin təsviri ilə əlaqədar olaraq şərh edir. Talıbovun fikrini ifadə edən baş qəhrəmanın irəli sürdüyu proqrama görə kəndlilərə 30 il müddətində ödənclə

Bu məsələnin daha demokratik yolla həllini Mirzə Qasım xan "Suri-İsrafil" qəzetində,[784] habelə Təbriz üsyanı dövründə bəzi digər xadimlər də irəli sürürdülər. Beləliklə, burjua ideoloqları bir tərəfdən feodalizmin əsaslarını inqilabi yolla olmasa da, ləğv etmək fikri ilə çıxış edir, lakin digər tərəfdən, konstitusiyaçılıq, sinfi sülh xülyalarına qapılaraq bu məsələdə, xüsusən əməli işə gəldikdə, daim tərəddüd göstərir, feodalların bir sinif kimi aradan qaldırılmasını istəmirdilər. Bu, xüsusən inqilabın ikinci mərhələsində, konstitusiya elan edildikdən sonra, "milli vəhdət" şüarı altında aparılan mübahisələrdə özünü büruzə verirdi. Onlar bu şüarı bütün sinif və təbəqələrin birləşə biləcəyi və bunun lazım olduğu mənasında şərh edirdilər. Belə bir ziddiyyətə, Ə.Talıbovun digər əsərində "Azadlıq haqqında izahat" adlı siyasi traktatında rast gəlmək mümkündür. Burada o, bir tərəfdən, azadlığı qorumağa çağırır, hər cür despotizmi rədd edir və digər tərəfdən, istisnasız olaraq hamının, "kişi və qadınların, yoxsul və varlıların, alim və savadsızların, əyan və aşağı təbəqələrin" birləşməsi lüzumunu göstərərək qeyd edir ki, başmaqçıdan tutmuş dövlətdə birinci şəxsə qədər hamının mənafeyi eynidir.[785]

Feodal sinfinə münasibət, sosial strukturda onun rolu məsələsi xüsusən Təbriz üsyanı, 1908-ci il əksinqilabi çevrilişi, 1909-cu ildə Tehranın inqilabçılar tərəfindən tutulması ilə əlaqədar olaraq, yəni feodalların mürtəce, xalqa zidd mövqeyi, nəyin bahasına olursa-olsun inqilabı boğmaq səyləri açıq şəkildə özünü göstərdi-

---

torpaq verilməlidir ki, «bundan sonra da İranda daha mülkədar olmayacaq və kəndli şahdan başqa heç kimdən qorxmayacaqdır. O zaman hamı bütün qüvvələrini əkinçiliyi inkişaf etdirməyə və sərvətlənməyə sərf edəcəkdir» (səh. 122-124).

[784] Bu məsələdən bəhs edərkən Mirzə Qasım xan 1905-1907-ci illər rus inqilabının təcrubəsinə, o cumlədən Dövlət Dumasında aqrar məsələlərin müzakirəsi materiallarına əsaslanırdı. Lakin Mirzə Qasım xan eyni zamanda Rusiya şəraiti ilə İran şəraitinin bambaşqa olduğunun nəzərə alınması lüzumunu da göstərirdi (bax: «Suri-İsrafil» qəzeti, 1908, № 28).

[785] Əbdürrəhim Talıbov. İzahat dər xosus-e azadi (*Azadlıq haqqında izahat*), Tehran, 01.12.1324 h.q./05.01.1908, səh.20

yi vaxt ideoloji mübarizənin birinci dərəcəli məsələsi kimi qarşıya çıxdı. Ayrı-ayrı sosial-siyasi qüvvələr bu məsələni müxtəlif şəkildə həll etməyə çalışırdılar. Təbriz səngərlərində, digər şəhərlərdə inqilabçılarla irtica arasındakı vuruşlarda müxtəlif siyasi partiya və qrupların Milli Məclisdə (ikinci çağırış) və ondan kənarda siyasi mübarizədə əməldə həll etməyə çalışırdılar. İdeoloji və nəzəri planda isə bu məsələ mətbuat səhifələrində qızğın müzakirə olunur, müxtəlif siyasi şüarlarda, partiya proqramlarında müəyyən dərəcədə öz əksini tapırdı. “Milli vəhdət” şüarı ilə əlaqədar olaraq “İrane-nou” qəzeti feodal sinfinin mürtəce mahiyyətini ardıcıl surətdə ifşa edirdi. İctimai qanunauyğunluqların materialistcəsinə başa düşülməsinə yaxınlaşan qəzet qeyd edirdi ki, bütün sosial qüvvələrin birləşməsi ideyası, yəni konstitusiyalı quruluşu müdafiə etmək naminə sinfi sülh ideyası hər şeydən əvvəl, ona görə qeyri-mümkündür ki, əyanlar, xanlar hər hansı bir subyektiv səbəblərdən deyil, sinfi mahiyyətcə mürtəcedirlər və məhz buna görə də labüdən “tarixin çarxını geri döndərməyə” çalışacaqlar. Deməli, onlar köhnə qaydaları bərpa etmək üçün var qüvvə ilə çalışacaq, bu məqsəd üçün imperializmlə (İngiltərə, Rusiya) sazişə girməkdən, yəni vətənə xəyanətdən də çəkinməyəcəklər. Qəzet fikrinə yekun vuraraq yazırdı: “Bütün bunlardan belə bir nəticə çıxır ki, bu kimi qüvvələrlə ittifaq və vəhdət əsla mümkün deyildir”[786].

Feodalizm məsələlərindən fərqli olaraq burjuaziya, kapitalizm məsələsi həmin dövr sosioloji təfəkküründə zəif əks olmuşdu. Bu hər şeydən əvvəl onun nəticəsi idi ki, burjuaziya bir sinif kimi hələ tam təşəkkül tapmamışdı və onun sinfi şüuru yenicə oyanmaqda idi. Yaranmaqda olan bu yeni sinif, əsasən ticarət, ticarət-sələmçi burjuaziya olub, mövcud feodalizm quruluşuna bir çox tellərlə bağlı idi (məsələn, burjuaziyanın çox hissəsi eyni zamanda torpaq sahibləri, yəni mülkədar idilər), onun sosial psixologiyasında xeyli dərəcədə feodal psixologiyasının ünsürləri qalmaqda idi. Buna görə də, məsələn, bu dövrün mətbuatında, burjua

---

[786] «İrane-nou» qəzeti.

müəlliflərinin əsərlərində, o cümlədən onların siyasi proqram xarakterli sənədlərində burjuaziyanın az-çox aydın tərifini (xüsusən Qərb aləmindən deyil, İranın özündən danışıldıqda) görmək olmur. Səciyyəvidir ki, İran mətbuatında bu zaman getdikcə daha tez-tez işlənməyə başlanan "sərmayedar" ("kapitalist"), "sərmayedari" ("kapitalizm") terminlərinin özü də əsasən burjua müəllifləri tərəfindən deyil, demokratik mətbuat səhifələrində, xüsusən sosial-demokrat ideologiyasının təsiri altında olan mətbuatda daha çox işlənir. Burjua müəlliflərinin özləri isə bir qayda olaraq köhnə, silki məfhum daşıyan və burjuaziyanı ənənəvi tacir silkindən ayırmayan "tüccar" ("tacirlər"), "kəsəbe" ("sənətkar və xırda tacir" - "xırda mülkiyyətçi") istilahlarına müraciət edirdilər. Əlbəttə, bu heç də o demək deyil ki, burjuaziya öz sinfi mənafeyini əsla dərk və müdafiə etmir, cəmiyyətdə dəyişikliklər yaratmaq üçün öz proqramını irəli sürmürdü. Əksinə, XIX əsrin sonlarından başlanan dövrdə, xüsusən inqilab illərində onun bütün fəaliyyəti bu məqsədləri ideya-siyasi sahədə ifadə etməyə yönəldilmişdi. Lakin İran, o cümlədən Cənubi Azərbaycan burjuaziyası özünü hələ müstəqil "üçüncü silk", bütün xalq adından çıxış edən feodal sinfinin qaydalarını rədd edərək eyni zamanda öz antaqonisti proletariata qarşı düşmən olan bir qüvvə kimi dərk etməmişdi. Onun bütün fəaliyyəti kimi, ideologiyasının da sosial-siyasi mahiyyətini sazişçilik təşkil edirdi ki, bu da 1905-1911-ci illər inqilabı dövründə özünü xüsusilə göstərdi. Obyektiv olaraq burjua ideologiyası bu zaman antifeodal və antiimperialist meylləri əks etdirirdi, lakin subyektiv olaraq ən əvvəldən və getdikcə daha çox həm feodalizmlə həm də imperializmlə sazişə girməyə (xüsusilə Birinci Dünya müharibəsi dövründə) meyl göstərirdi. Bu ziddiyyət ölkənin spesifik şəraiti, yəni burada sosial-siyasi qütbləşmə prosesinin hələ dərinləşməməsi ilə əlaqədar olub, burjua ideologiyasının təkcə ayrı-ayrı cərəyanları arasında deyil, eyni cərəyan, eyni partiya proqramı və ya eyni siyasi, ictimai xadimin görüşlərindəki ziddiyytlərdə də özünü göstərirdi.

İran cəmiyyətinin siyasi strukturunun, onun inkişaf perspektivlərinin sinfi ziddiyyətlərin daha düzgün izahını demokratik

ideologiya verə bildi ki, bu da məhz Cənubi Azərbaycanda güclü və yetkin idi. Bu yalnız obyektiv səbəblərin (daha yüksək sosial-iqtisadi inkişaf, sinfi təbəqələşmə səviyyəsi, proletar ünsürlərinin nisbətən çoxluğu və i.a.) nəticəsi deyil, həmçinin bu zaman həlledici əhəmiyyət kəsb etmiş belə bir amillə bağlı idi ki, rus inqilabi ideyalarının, Zaqafqaziyadakı inqilabi hadisələrin məhz buraya təsiri daha güclü olmuşdur. Kapitalizm və sosializm, burjuaziya və proletariat, sinfi mübarizə və siyasi partiyalar haqqında təsəvvürləri təkcə Cənubi Azərbaycanın deyil, bütün İranın demokratik ünsürləri ən çox Bakıdakı inqilabi-demokratik mətbuatdan, xüsusən "İrşad", "Həyat" kimi qəzetlərdən, habelə digər siyasi ədəbiyyatdan əxz edirdilər. Məsələn, "Suri-İsrafil" qəzetinin siniflər, partiyalar haqqında bəzi mülahizələrində, "İrşad" qəzetində Ağayevin "Silk, sinif, firqə" məqaləsinin (bu məqalə bir neçə nömrədə getmiş, 1907-ci ildə isə ayrıca kitabça şəklində də çap olunmuşdu) təsirinin izlərini görmək çətin deyildir.

1900-cü illərin sosioloji fikrində proletariat problemi burjuaziyaya nisbətən daha geniş şərh olunurdu. Ölkədə yaranmaqda olan proletariat XX əsrin əvvəllərində öz sinfi şüurunun yetişməsi dərəcəsinə görə burjuaziyadan nəinki irəlidə olmayıb, ondan da geri idi ki, bu da bir sıra amillərlə, proletariatın burada təşəkkülünün bəzi xüsusiyyətləri ilə bağlı idi. Başlanmış inqilab bu prosesi sürətləndirdi, lakin bu məhz Cənubi Azərbaycanda özunü qabarıq şəkildə göstərdi, çünki yuxarıda qeyd olunmuş cəhət - Azərbaycanın hər iki hissəsində xalqın dil vəhdəti, mədəni və mənəvi mənşə ümumiliyi kimi mühüm amillər məhz burada öz təsirini göstərə bilirdi. Buna görə Şimali Azərbaycanın inqilabi demokratik ideyaları, yəni mahiyyətcə zəhmətkeş siniflərin, o cümlədən proletariatın vəziyyətinə aid olan hər bir hadisəyə qızğın maraq, zəhmətkeşlərdə sinfi qürur, öz qüvvələrinə inam hisslərini oyatmaq səyləri kimi ideyalar Cənubi Azərbaycanda daha geniş əkssəda tapır. Lakin Cənubi Azərbaycan və bütünlüklə İranın ictimai-siyasi fikrində proletariatın müstəqil bir sinif kimi cəmiyyətdə rolu, proletariatın beynəlmiləl sinfi həmrəyliyi haqqında ide-

yaların bərqərar olması üçün Zaqafqaziya sosial-demokratiyasının həm Zaqafqaziyanın ozündə, həm də İranda, ilk növbədə Təbrizdə mətbu təbliğatı və əməli fəaliyyətinin xüsusilə böyük əhəmiyyəti oldu. İstismarçı siniflərin, burjuaziyanın antaqonisti olmaq etibarilə proletariat və onun dünyagörüşü, ideologiyası - elmi sosializm haqqında ilk təsəvvürlər məhz Zaqafqaziya sosial-demokratiyasının ən əvvəl Bakı bolşeviklərinin qəzet və digər nəşrlərinin səhifələrindən, "Hümmət" təşkilatının şüarlarından İrana keçirdi. Bu, "İrane-nou" qəzeti səhifələrində öz dolğun ifadəsini tapdı. "Qərb həyatından" və digər məqalələrində qəzet, bir qədər səthi olsa da, proletariat məfhumunu - istehsal vasitələrindən məhrum və öz iş qüvvəsini kapitalistlərə satmağa məcbur olan, buna görə də burjuaziyaya antaqonist bir sinif kimi izah etməyə başlamışdı. Bununla əlaqədar olaraq qəzet İranda ilk dəfə K.Marksın "Kapital" əsərinə istinad edirdi. Bu əsəri qəzet "sosial və siyasi dəyişikliklər arzusunda olan bütün adamların İncili" adlandırırdı.[787] Qəzet sosializmi proletariatın dünyagörüşü kimi izah edərək göstərirdi ki, bunu ilk dəfə elmi surətdə K.Marks və F.Engels irəli sürmüşlər. Bununla əlaqədar olaraq qəzet fəhlələrin siyasi təşkilatı olmaq etibarilə sosial-demokrat partiyalarından, onların sinifsiz cəmiyyət yaratmaq məqsədindən bəhs açaraq qeyd edirdi ki, İrandakı mövcud şəraitdə bu, hələlik mümkün deyildir və buna görə vəzifə ümumdemokratik qaydalar yaratmaq uğrunda mübarizə aparmaqdır. Lakin ideya-siyasi, sosioloji baxışların belə yetkinliyi Cənubi Azərbaycan ziyalılarının, ictimai-siyasi xadimlərinin nisbətən kiçik, əsasən zəhmətkeş təbəqələrdən çıxan, inqilabi əhvali-ruhiyyəli hissəsi üçün səciyyəvi olmuşdur. Əksəriyyəti isə burjua-demokratik baxışlar çərçivəsindən çıxa bilməmiş, bir qismi inqilabın məğlubiyyətindən sonra hətta bu möv-

[787] «İrane-nou» qəzetn 9 noyabr 1910-cu il. Diqqətəlayiqdir ki, «İranda ilk dəfə olaraq «proletariat» termininə müraçiət etmiş bu qəzet onun sinonimi kimi «fəhlə», «füqareyi-kasebe» terminlərini işlədirdi ki, bunlar da «fəhlə sinfi» mənasında Şimali Azərbaycan mətbuatından götürülmüşdü.

qedən də geri çəkilmişdi. Yalnız bəzi ictimai, siyasi xadimlər ardıcıl demokratik, inqilabi-demokratik (Şeyx Məhəmməd Xiyabani), inqilabi (Heydərxan Əmioğlu) ideyalar mövqeyinə keçdilər.

İctimai-siyasi fikrin bu inkişaf mərhələsində də dinə və ruhanilərə münasibət problemi ən mühüm məsələlərdən biri olaraq qalırdı. Keçmişdəkindən fərqli olaraq bu problem daha geniş əhəmiyyət kəsb edirdi; belə ki, kapitalist inkişafı prosesinin dərinləşməsi, baş vermiş inqilab əvvəllər arxaik-feodal dövlət quruluşu şəraitində bilavasitə qarşıya çıxmayan bir sıra məsələlərin həllini (məsələn, konstitusiyalı qanunvericilik, idarə orqanları və şəriət normaları və s.) indi təxirəsalınmaz vəzifə kimi irəli sürürdü.

İnqilabın başlanğıcında ruhanilərin, o cümlədən mənəvi, fikri həyatda mühüm rol oynayan iri ruhanilərin əksəriyyəti şah hakimiyyətini məhdudlaşdırmaq tələbinin təşəbbüsçülərindən biri kimi çıxış edib, müəyyən müddət hətta bütövlükdə konstitusiyaçılıq hərəkatının rəhbəri sifətilə çıxış etməyə səy göstərirdilər (Seyid Məhəmməd Təbatəbai, Seyid Abdulla Behbehani, Məlikülmütəkəllimin və b.). Onlardan bir çoxu öz əsərlərində konstitusiya quruluşunun islama nəinki zidd olmadığını, hətta məhz bundan irəli gəldiyi fikrini təbliğ edir, konstitusiya uğrunda mübarizədə bilavasitə iştirak edirlər. Əlbəttə, konstitusiya tərəfdarı olan belə ruhanilər də tərkib və mövqe cəhətdən yekcins deyildilər. Onlar içərisində daha gözüaçıq, ardıcıl burjua liberalizmi tərəfdarlarından tutmuş (Şeyxül Rəis Əbülhəsən Mirzə Qacar), teokratik istiqamətli konstitusiyaçı ideyası tərəfdarlarınadək (Seyid Əbdüləzim Ömmədülüləma Xalxali) müxtəlif xadimlər var idi. Lakin inqilab dərinləşdikcə, xüsusən Təbriz üsyanı dövründən başlayaraq ruhanilərin əksəriyyəti, burjua-mülkədar təbəqələrinin çoxu kimi, inqilabdan üz döndərməyə meyl göstərir, onlar içərisindən açıq irtica nümayəndələri (Şeyx Fəzlulla Nuri) ön sıraya çıxmağa başlayırlar. Bu isə öz növbəsində müxtəlif ictimai və siyasi qüvvələr içərisində din və ruhanilər probleminə münasibətdə də öz əksini tapır. Mötədil-burjua ideologiyası nümayəndələri islam qaydalarını konstitusiyalı quruluşun mühüm tərkib hissəsi kimi təsbit etməyə çalışırdılar. Demokratik ideya cərəyanlarında isə, əksinə,

getdikcə daha artıq dərəcədə belə bir fikir kök salırdı ki, din hər bir şəxsin vicdan işi olmalıdır və buna görə cəmiyyət dini işləri dövlət işlərindən təcrid etməli, ruhanilərin fəaliyyətini yalnız dini sahə ilə məhdudlaşdırmalıdır. Doğrudur, o zaman, geniş kütlələrin hələ də dini görüşlər və əqidələr çərçivəsindən çıxmadığı şəraitdə belə bir ideyanın açıq təbliği demək olar, mümkün deyildi. Buna görə bu kimi fikirlər, hətta ən demokratik mətbuatda, siyasi partiyaların proqram sənədlərində də dolayı yolla, ehtiyatla, çox vaxt elə islamın özünə, Qurana istinadla ifadə olunurdu. Bu mənada, "İrane-nou" qəzetində "İslam aləminin yeniləşməsi", məqaləsi səciyyəvidir. Burada deyilirdi ki, Quran dünyəvi işlərdə də məsləhət və məşvərətin əsasını qoymuş, hər bir kənd və qəsəbədə, vilayət və əyalətdə yerli əncümənlərin yaradılmasını nəzərdə tutmuş, icraedici hakimiyyət başçısının seçkili olmasını müəyyən etmişdir.[788] Digər tərəfdən, ümumiyyətlə dinə toxunmayan və yalnız bəzi köhnəlmiş islam adətlərindən əl çəkməyə çağıran hər hansı açıq çıxış, ruhanilər bir yana qalsın, hətta burjua konstitusiyaçılarının belə qəti etirazına və düşmənçiliyinə səbəb olurdu. Məsələn, məşhur maarifpərvər, "Ana dili" qəzetinin redaktoru Seyid Hüseyn Ədalət inqilab illərində Təbrizdə çıxardığı qəzetlərdə qadın azadlığını təbliğ edən bir neçə məqalə dərc etdirdikdə "konstitusiya hərəkatı qarşısındakı bütün xidmətlərinə baxmayaraq, konstitusiyaçıların özləri onu Təbrizdən sürgün etdilər".[789]

Din və ruhanilər problemi ilə əlaqədar olaraq bu zamankı ictimai fikir sahəsində ardıcıl demokratik mövqedən açıq çıxış edən nadir istisnalardan biri Cümşüd Ərdəşir Əfşar adlı publisist olmuşdur. Bir sıra əsərlərində, xüsusən "Lənət damğası" pamfletində Əfşar əslində dinin dövlətdən ayrılması proqramı ilə çıxış edir. Onun proqramı qısaca olaraq aşağıdakından ibarətdir: vəqfləri ruhanilərdən almaq və kəndlilərə paylamaq, müftəxorlar haqqında

---

[788] «İrane-nou» qəzeti, 20 sentyabr 1909-cu il.

[789] Sədr Haşemi. Tarix-e mətbuat-e İran (*İran mətbuat tarixi*), İsfahan, 1327/1948, cild 1, səh.282

qanun vermək və bu qanunda nəzərdə tutulan çərçivədə mollaların fəaliyyətinə icazə vermək, onlar üçün dövlət tərəfindən maaş qoymaq, ruhanilərin nə şəkildə olursa-olsun dövlət işlərinə, siyasətə, ticarət fəaliyyətinə, maarifə qarışmasını qadağan etmək, ruhani kadrları hazırlamaq üçün xüsusi məktəblər açmaq və bunlarda dini fənlərdən başqa elmi bilikləri də tədris etmək, məktəbləri bitirmiş ruhanilərə vəzifə verilməsini dövlət orqanlarına tapşırmaq.[790] Əfşarın bu əsəri quru bir proqram deyil, həm də atəşin, M.F.Axundov və "Molla Nəsrəddin" ruhunda yazılmış pamflet idi. O, burada ümumiyyətlə, bütün dinlərdən olan ruhaniləri öldürücü tənqid atəşinə tutur. Əfşar yazırdı: "Axundlar, papalar, iyezuitlər və hindu brəhmanları arasında nə fərq var? Əgər bəzi adət və ənənələr, xarici görünüş nəzərə alınmazsa, heç bir fərq yoxdur. Onların əsas məqsədlərində isə, yəni bəşəriyyəti öz hakimiyyəti altında, nadanlıqda saxlamaqda heç bir fərq yoxdur. Lakin həmin zahiri fərq də, əgər onlar üçün ümumi olan kütbeyinlik, uzun saqqallar və geyimlər, tamah və qarınquluuq nəzərə alınmazsa, demək olar yoxdur".[791] Bu fikirlərini Əfşar həm Şərq, həm də Qərb tarixindən gətirilən çoxlu misalla ruhanilərin əksər hallarda həmişə mütərəqqi ideyalara, elmə, mədəniyyətə qarşı çıxması, xalqın tərəqqipərvər nümayəndələrini təqib və məhv etməsi nümunələri ilə əsaslandırır.

Bütün İranda olduğu kimi, Cənubi Azərbaycanda da ictimai-siyasi fikrin inkişafında milli məsələ çox zəif inikas tapmışdı. Bu, birinci növbədə buradakı milli təşəkkül proseslərinin, milli şüurun oyanmasının spesifikliyi, özünəməxsusluğu, onu doğuran, xüsusən polietnik tərkibli əhalisi olan müsəlman Şərq ölkələrindəki tarixi-obyektiv şəraitin nəticəsi idi.

Yuxarıda qeyd olunduğu kimi, XIX əsrin sonları - XX əsrin əvvəllərində İranda yaşayan bir çox xalqlardan təkcə sayca deyil, həm də sosial-iqtisadi, mədəni inkişaf səviyyəsi etibarilə də daha çox inkişaf etmiş yalnız farslar və azərbaycanlılar milli təşəkkül

---

790 Cəmşid Ərdəşir Əfşar.Touq-e lənət (*Lənət damğası*), Tiflis, 1333, səh.29-30
791 Yenə orada, səh.29-30

yoluna qədəm qoymağa başlamışlar. Bu proses həm farslar, həm də azərbaycanlılar içərisində eyni dərəcədə hələ ilkin mərhələsini keçirərək hər ikisinin millət kimi təşəkkülünün başa çatmasından uzaq idi. Lakin bir sıra cəhətlərinə və nəticələrinə (xüsusən sonralar) görə bu proses farslar və azərbaycanlılar üçün heç də eyni olmayıb, məhz farsların milli şüurunun oyanmasına daha çox xidmət edirdi.

İranın kapitalist Qərb dövlətlərindən asılılığının getdikcə artması və yarımmüstəmləkəyə çevrilməsi şəraitində milli şüurun oyanmasının mühüm amili olaraq xalqda vətənpərvərlik hissini dirçəltmək, bütün ölkəni, İranın dövlət suverenliyini xarici düşməndən qorumaq vəzifəsi meydana çıxırdı. Bunun üçün isə bütün əhalini, cəmiyyətin bütün qüvvələrini birləşdirmək, onun siyasi, iqtisadi və mədəni həyatını yeni əsaslar üzərində dəyişdirmək tələb olunurdu, hələ bu vaxtlaradək belə bir vəzifəni, millət məfhumunu yalnız dini prinsiplə əsaslandıran ("ümməte islam", "millәte islam") panislamizm, "islam millətçiliyi" öz üzərinə götürürdüsə, sinfi təbəqələşmənin, siyasi qütbləşmənin nisbətən dərinləşdiyi yeni şəraitdə panislamizm ideyaları daha bu rolu ifa etmək qabiliyyətini itirirdi.[792] İndi artıq ön sıraya millət-xalq, ümumi vətən anlayışları irəli sürülməyə başlayır, millət məfhumunun elə bir izahı axtarılırdı ki, ölkənin bütün etnik qruplarında ümumilik, vəhdət, vətənpərvərlik hisslərini oyada bilsin. Bununla əlaqədar olaraq Cənubi Azərbaycan ideoloqları millət məfhumunun ən müxtəlif təkcə coğrafi amili nəzərdə tutan sadə təriflərindən tutmuş ("millət müəyyən ərazidə yaşayan adamlar məcmusundan ibarətdir"[793]), daha dolğun ("Millət vahid tarixə, dilə və mədəniyyətə malik olan insanlar məcmusundan ibarətdir") və universal ("Bir-birilə sıx bağlı olan və yalnız ümumi idarələri, qanunları və arzuları deyil, dil və din birliyinə, ümumi mənşəyə malik olan bir

---

[792] Əlamətdardır ki, əvvəllər müsəlmanların birliyini, onların vəhdəti lüzumunu dəfələrlə əsərlərində qeyd edən Ə.Talıbov artıq inqilab illərində xüsusi olaraq bildirməyi lazım görmüşdü ki, o, panislamist deyildir (bax: «Həyat məsələləri», səh. 90).

[793] Xalxali, səh.25.

çox kənd, şəhər və vilayətlərin sakinlərinə millət, onların yaşadığı əraziyə vətən, onların birgə həyatına isə ictimai həyat deyirlər”[794]) təriflərinədək irəli sürülürdü. Millət məfhumu və ümumiyyətlə milli məsələ, bir qayda olaraq dövlət, burjua milli dövləti mənasında şərh olunurdu, həm də bunlar tamamilə eyniləşdirilirdi.[795] Lakin yekçins milli tərkibli ölkə üçün müəyyən dərəcədə yol verilə bilən belə eyniləşdirmə polietnik tərkibli İran kimi bir ölkə üçün tamamilə yararsız idi. Nə fars, nə də azərbaycanlı burjua ideoloqları istər ictimai-siyasi, istərsə də mədəni məsələlərdə bilavasitə milli xüsusiyyətləri irəli sürməsələr də, “islam millətçiliyini” bu dövrdə əvəz etmiş “iranizm”, “iranist millətçiliyi”, ictimai və mədəni həyatın bütün əsas sahələrində fars dili ənənəsinin, dövlət idarə sahəsində isə fars ünsürünün hökmranlığı şəraitində labüdən məhz fars millətçiliyinə, bir qədər sonralar olduğu kimi, millətçi-şovinizmə gətirib çıxarmalı idi.

Demokratik dairələr içərisində isə “iranizm” tamamilə başqa şəkildə düşünülürdü. Onlar bu anlayışa müəyyən sosial məna verməklə, bunu irtica və imperializm əleyhinə İranın müxtəlif xalqlarının siyasi birləşməsi kimi başa düşür və beynəlmiləlçilik prinsipinə yaxınlaşırdılar. Məsələn, “İrane-nou” qəzeti “Biz vahid millətik” məqaləsində “iranizm”, “iranlı” məfhumunun sosial-siyasi məzmununu açaraq göstərirdi ki, despotik şah rejimi “bizi bir-birimizdən uzaqlaşdırırdı; bəzilərinin zərdüşt olmaları bəhanəsilə müsəlmanlar tərəfindən öldürülməsinə icazə verir, digərlərinə qarşı, yəhudi olduqları üçün, düşmənçilik qızışdırır, bir qismini erməni olduqları üçün yabançı elan edir, daha başqalarını

---

[794] İbrahim Zəncani, göstərilən əsəri, § 26.

[795] Millətin təşəkkülü prosesi çox vaxt aşağıdakı şəkildə şərh olunurdu: «Keçmişdə hər bir ölkə, bu və ya digər padşaha məxsus olan ərazi idi və millətdən söz də yox idi. Yalnız dövlətlər olurdu ki, bunların da ərazisində dil, adət və əxlaq ümumiliyi olmayan insanlar yaşayırdı... Ölkələr azadlıq yoluna qədəm qoyduqdan sonra belə bir fikir bərqərar oldu ki, hər ölkənin əhalisi birgə yaşamağa meyl göstərən insanlardan ibarət olmalıdır. Belə, yəni sakinlərin razılığı ilə təşkil edilmiş dövlətə millət, onların birgə yaşayışının əsasına qoyulan prinsipə isə millətçilik deyirlər» (Mirzə Hüseyn xan, səh.161).

türkçülükdə ittiham edərək, onlara qarşı farslarda, türklərin (*yəni azərbaycanlıların*) qəlbində isə farslara qarşı düşmənçilik oyadırdı". Qəzet sözünə davam edərək yazırdı ki, buna görə də despotizmə qarşı mübarizədə bütün xalq, milli və dini mənsubiyyətindən asılı olmayaraq, iştirak etməlidir. Qəzet milli məsələyə öz münasibətini belə yekunlaşdırırdı: "Biz müxtəlif dillərdə və şivələrdə danışan, allaha müxtəlif tərzdə inam bəsləyən vahid millət təşkil etməliyik. Nə müsəlman və zərdüşt, nə erməni və yəhudi, nə də fars və türk vardır, yalnız iranlı olmalıdır. Biz vahid millətik".[796] Qəzet bir sıra nömrələrində, o zaman günün ən mühüm məsələlərindən biri olmuş "milli vəhdət" məsələsinə toxunaraq yazırdı ki, "bu, yalnız həqiqətən milli qüvvələrin birləşməsi nəticəsində mümkündür, lakin feodallar bu qüvvələr sırasına daxil deyildir".[797]

Beləliklə, bu dövrdə İranın müxtəlif, birinci növbədə farsların və Cənubi azərbaycanlıların nümayəndələri tərəfindən təbliğ olunan millətçilik ideologiyası özünün elə bir ilkin mərhələsini keçirdi ki, bunda hələ az-çox açıq ifadə olunmuş konkret milli xarakter kəsb etməmiş "ümummilli vəhdət" ideyası qüvvətli idi. Bu ideologiyada o zaman nə assimilyatorçu şovinist-millətçilik (yəni hakim millətin ölkədə yaşayan digər milliyyətlərə qarşı çevrilmiş), nə də lokal millətçilik (yəni azlıqda olan milliyyətlərin hakim millətə qarşı) meylləri demək olar ki, hələ özünü göstərmirdi. Bu zaman burjua və xırda burjua millətçiliyi bir-birindən ayrılmamışdı, proletariat isə sayca az və zəif olduğu üçün onun ideologiyası, o cümlədən proletar beynəlmiləlçiliyi ideyaları yetkinləşməmiş, kortəbii millətçilik axınına qarşı duran qüvvə kimi yetişməmişdi.

İranda qeyri-fars xalqları milli şüurunun oyanmasına mane olan bütün bu obyektiv və subyektiv amillərə baxmayaraq, vətənpərvər azərbaycanlılar içərisində onların ümumi milli, mədəni, etnik vəhdəti haqqında fikir yetişir, özünə getdikcə daha geniş yol

---

[796] «İrane-nou» qəzeti, 16 fevral 1910-cu il.
[797] Yenə orada.

tapır, Cənubi azərbaycanlılar bir millət kimi təşəkkül etməyə başlayırdılar.

1828-ci ildən sonra, 80-90 il ərzində Cənubi Azərbaycanın ictimai, iqtisadi, mədəni həyatında olduğu kimi, sosial iqtisadi fikrinin inkişafında da mühüm irəliləyiş nəzərə çarpırdı. Bu irəliləyiş, qısaca deyilərsə, feodal ideologiyasından burjua ideologiyasına doğru dönüş, dövrün sonlarından isə demokratik ideologiyaya, milli və sinfi şüurun oyanmasına doğru zəif (xüsusən Şimali Azərbaycanla müqayisədə) bir addım oldu.

İctimai-siyasi fikrin inkişafının bu mərhələsində də mühüm cəhətlərdən biri – onun antiimperialist istiqamətdə olması idi. Əvvəlkindən fərqli olaraq bu, daha yüksək səviyyəyə qalxır, keçmişdə ona xas olan perspektivsiz panislamizm buxovlarından, yəni islam aləmini Qərb aləminə qarşı qoymaq meylindən azad olmağa başlayır, bunda kapitalizmin, ümumiyyətlə, geri qalmış ölkələri istismar etmək mənasında müstəmləkəçilik (“istismar”, “mostəməre”), imperializm anlayışları (sonuncu, doğrudur, kapitalizmin müəyyən mərhələsi kimi, sosial-iqtisadi baxımdan deyil, əsasən ərazi qəsbləri mənasında şərh edilirdi) bərqərar olur. Bununla əlaqədar olaraq imperializmə qarşı mübarizə məsələsi, xüsusən inqilab başlandıqdan sonra, ictimai-siyasi fikir sahəsində ən çox diqqəti cəlb edən, müzakirə olunan, mübahisələr doğuran məsələlərdən birinə çevrilir. Əlbəttə, bu məsələdə də müvafiq sinfi, siyasi qüvvələrin mövqeyi labüdən ən müxtəlif, bir-birinə zidd baxışlar doğururdu. İfrat sağ, irticaçı qüvvələr, ümumiyyətlə bu məsələdən yan keçir, İranın müstəmləkə asılılığına düşməsini inkar edirdilər, çünki onlar öz ağalığını saxlamaq üçün məhz imperialistlərə arxalanırdılar. Mənafeyi milli istiqlaliyyət təmin olunmasını tələb edən burjua-mülkədar təbəqələri, ziyalılar içərisində antiimperialist təmayüllər daha ardıcıl idi, onlar bir sıra hallarda müstəmləkəçilik əsarətinə qarşı kəskin çıxış edirdilər. Lakin onların əksəriyyəti imperializmin, onun müstəmləkəçilik siyasətinin əsl səbəbləri və qanunauyğunluqlarını düzgün başa düşmür, bunu müxtəlif subyektiv amillərlə izah edir və nəticə etibarilə öz antiimperialist mübarizəsində də ardıcıl çıxış edə bilmirdilər.

Onlar içərisində belə bir fikir geniş yayılmışdı ki, Qərb dövlətlərinin müstəmləkəçilik təcavüzünün əsas səbəbi, Şərq ölkələrinin iqtisadi-siyasi geriliyindədir, onlar bu gerilikdən çıxan kimi kapitalist dövlətləri belə siyasətdən əl çəkəcəklər. Əsərlərində bir tərəfdən İngiltərə və çar Rusiyasının İrandakı ağalığını dəfələrlə ifşa edən Ə.Talıbov eyni zamanda deyirdi ki, 1907-ci il İngiltərə-Rusiya sazişi İranın istiqlaliyyətinə xələl gətirməyəcək, çünki indi artıq burada konstitusiyalı quruluşdur və onlar buna hörmət bəsləyəcəklər.[798] O, habelə İngiltərə və çar Rusiyasının müstəmləkəçiliyini qeyd etməklə bərabər, Fransanın belə siyasət yürütmədiyini iddia edirdi.[799] Bu kimi baxışlar xüsusən Almaniya, ABŞ imperializmi haqqında daha çox yayılmışdı və bunun üçün əsas yalnız həmin dövlətlərin İrandakı mövqeyinin zəifliyi idi.

Bu məsələdə də ən ardıcıl və bütövlükdə düzgün mövqedə demokratik qüvvələrin nümayəndələri, partiyaları dururdu. Onlar bir qayda olaraq imperializmin mahiyyətini açıb göstərməyə çalışır və ona qarşı xalq mübarizəsini genişləndirməyə çağırırdılar. Bu mənada "İrane-nou" qəzetində dərc olunan məqalələr xüsusən diqqətəlayiqdir. Məqalələrinin birində qəzet, İngiltərə və çar Rusiyasının İrandakı müstəmləkəçilik siyasətini göstərərək belə nəticəyə gəlirdi: "Oyanın! Hazır olun! Düşmənlərinizi tanıyın... İndi ingilis pəncəsi rus əlcəyi geymişdir və şimalda sizin azadlığınızı boğur, cənubda isə sizi ingilis çəkməsi geymiş rus ayağı təhdid edir. Əgər siz öz vətəninizi sevirsinizsə, düşmənləri yaxşı tanımalı və onları dəf etmək üçün əlinizdən gələni etməlisiniz".[800]

Eyni zamanda demokratik, ideologiya nümayəndələri müstəmləkəçiliyi coğrafi və ya başqa prinsipə əsasən deyil, sinfi sosial prinsipə əsasən şərh etməyə çalışırdılar. "

İrane-nou" qəzeti başqa bir nömrəsində yazırdı: "Biz əminik ki, Rusiya hökumətinin indiki siyasəti ölkənin ictimai rəyini əks

---

[798] Əbdürrəhim Talıbov. İzahat dər xosus-e azadi (*Azadlıq haqqında izahat*), Tehran, 1324, səh.50-51

[799] Ə.Talıbov. Pak adamların məsləkləri, səh.192.

[800] «İrane-nou» qəzeti, 16 yanvar 1910-cu il

etdirməyib, rus cəmiyyətinin elə bir kiçicik hakim dairəsini, mənafeyini müdafiə edir ki, bunların hakimiyyəti altında Rusiyanın namuslu adamlarının böyük əksəriyyəti inildəyir... Biz əsla tərəddüd etmədən və açıq deyə bilərik ki, heç bir vaxt Rusiyaya və rus xalqına qarşı olmamışıq”.[801]

Lakin bu dairələr içərisində də Almaniya, ABŞ siyasəti haqqında düzgün olmayan mülahizələr az deyildi. İran inqilabı yatırıldıqdan və xüsusən Birinci Dünya müharibəsi başlandıqdan sonra imperialist dövlətlərə münasibət məsələsi ən mühüm, kəskin siyasi məsələ kimi ortaya çıxdı. Dövlətlər tərəfindən İranın bitərəfliyinin tapdalanması, onun ərazisinin, xüsusən Cənubi Azərbaycan ərazisinin hərbi əməliyyat meydanına çevrilməsi, bunun gedişində müharibə edən hər iki tərəfin öz xeyrinə geniş təbliğat aparması, burjua və qismən burjua-demokratik dairələr içərisində bu dövlətlərdən birinə arxalanmaq və onun köməyilə öz istiqlaliyyətini qorumaq xülyaları doğururdu. Lakin bu dövlətlərdən heç biri, o cümlədən Azərbaycan xalqına öz dil yaxınlığını bəhanə edən Osmanlı Türkiyəsi də İran xalqlarının və ən əvvəl burada Azərbaycan xalqının antiimperialist mübarizəsinə tərəfdar deyildi, bundan yalnız öz məqsədləri üçün istifadə etməyə çalışırdı. Müstəmləkəçilik, o cümlədən İranda imperializmin siyasəti haqqında elmi, sosial-iqtisadi cəhətdən əsaslandırılmış təsəvvürlərin işlənib hazırlanması yalnız sonrakı inkişaf mərhələsində Böyük Oktyabr Sosialist inqilabından sonrakı ən yeni dövrdə proletariatın siyasi və ideoloji mübarizə meydanına müstəqil qüvvə kimi qədəm qoyması ilə mümkün oldu.

Cənubi azərbaycanlıların bu kitabda əks olunan 1928-ci ildən sonrakı təqribən bir əsrlik tarixi[802] göstərir ki, İranın və ümumiyyətlə, bütün Şərqin başqa xalqları kimi, bu əhalinin də inkişafı üçün son dərəcə əlverişsiz tarixi şəraitə (hər şeydən əvvəl feodalizm və imperializm qüvvələrinin çulğalaşması) baxmayaraq, o,

---

[801] «İrane-nou» qəzeti, 14 fevral 1910-cu il.

[802] Cənubi azərbaycanlıların sonrakı - ən yeni dövr inkişaf tarixi oxuculara ayrıca kitabda təqdim ediləcəkdir.

Azərbaycan xalqına məxsus milli xüsusiyyətləri və keyfiyyətləri, ənənələri, dil birliyini və mədəni ümumiliyi qoruyub saxlaya bildi. Bəhs olunan dövrün sonuna yaxın mütərəqqi ümumiran mədəni, məfkurəvi və ictimai-siyasi hərəkatlarında farslarla bərabər mühüm rol oynamış Cənubi azərbaycanlıların milli təşəkkülü prosesi də məhz bu zəmin üzərində başlandı.

Böyük Oktyabr Sosialist inqilabı Şərq xalqlarının milli inkişafı və istiqlaliyyət əldə etməsi üçün real yollar açdı. Buna mane olmaq üçün imperializm və yerli feodal irticası Şərq ölkələrində elə qüvvələrə, meyllərə, ideyalara tərəfdar çıxırdı ki, onların sarsılmış ağalığını qorumağa xidmət etsin. Bu məqsədlə onlar həmin ölkələrdə müxtəlif millətçi-şovinist, irqçilik ideologiyalarını yaymağa çalışırdılar. İranda bu, 20-30-cu illərdə Rza şah hakimiyyəti, müharibədən sonrakı dövrdə, xüsusən "ağ inqilab" deyilən dövrdə isə Məhəmməd Rza şah Pəhləvi rejimi tərəfindən bütün qeyri-fars xalqlara və millətlərə qarşı yürüdülən qəddar assimilyatorçu siyasətdə öz ifadəsini tapdı. Bu rejimin tam iflasa uğramasının səbəblərindən biri də onun milli zülm siyasəti oldu, 1978-1979-cu illərdə imperializm və şah əleyhinə xalq inqilabı isə bütün milli-demokratik qüvvələrin iştirakı və xeyli dərəcədə azərbaycanlıların fədakar mübarizəsi nəticəsində alovlandı. İnqilab demokratik və çoxmillətli vahid dövlət quruculuğunda bütün xalq və millətlərin – farsların, azərbaycanlıların, kürdlərin, türkmənlərin, bəlucların və başqalarının müvəffəqiyyətli əməkdaşlığı üçün şərait yaratdı. Lakin yeni hakimiyyət başına gəlmiş klerikal-teokratik rəhbərliyin mühafizəkar cinahı tezliklə həm demokratik, həm də milli prinsiplərə getdikcə daha çox barışmazlıqla yanaşaraq azərbaycanlıların, kürdlərin və azlıqda qalan başqa millətlərin hər hansı bir milli-mədəni quruculuq, milli muxtariyyət təşəbbüslərini "islam inqilabına", "islam respublikasına" düşmən elan etdi. İranda milli problemlərin həlli lüzumunu rədd etmək üçün onlar belə bir tezisə "əsaslanırlar" ki, islamda milliyyətlərə görə bölgü yoxdur ("dər islam millət mətrəh nist") və bütün müsəlmanlar etnik ("qovmi") mənsubiyyətindən, irqindən asılı olmayaraq bə-

rabərdir, vahid bir milləti təşkil edirlər. "Millət", "milli" məfhumlardan imtina əvvəllər olduğu kimi, yenə də "milli" (dil, ədəbiyyat) sözünün "yerli" ("məhəlli") və s. məfhumlarla əvəz edilməsinə gətirib çıxarır. Bütün bunlar isə İran inqilabını zəiflədir, İranın dövlət birliyini pozur və əslində imperializmə xidmət edir.

Hazırda cənubi azərbaycanlıların milli inkişafı yolunda duran başlıca mənfi hallar bunlardır. Bu maneələr, əlbəttə, həmin inkişafı ləngidir, çətinləşdirir. Lakin Cənubi azərbaycanlıların XIX-XX əsrlər tarixi göstərdiyi kimi, onun milli inkişaf prosesi qarşısıalınmazdır və bundan sonra da davam edəcəkdir. Ölkənin sosial, siyasi və mədəni inkişafı yalnız İranın bütün milli qüvvələrinin əməkdaşlığı yolu ilə mümkündür və Cənubi azərbaycanlıların da bu işdə, şübhəsiz, yenə layiqli payı olacaqdır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


## I. Arxiv sənədləri və rəsmi qaynaqlar.

1. Azərb. SSR Mərkəzi Dövlət Oktyabr inqilabı arxivi (Azərb. SSR MDOİA)
2. Azərbaycan SSR Mərkəzi Dövlət Tarix Arxivi (Azərbaycan SSR MDTA)
3. Gürcüstan Mərkəzi Dövlət Arxivi (Gürcüstan MDTA)
4. Gürcüstan Mərkəzi Dövlət Oktyabr inqilabı arxivi (Gürcüstan MDOİA)
5. Məcmue-ye mosəvvəbat-e ədvar-e əvvəl və dovvom-e qanunqozari-ye Məcles-e Şura-ye Melli (*Milli Məclisin birinci və ikinci dövrlərinin qanunlar toplusu*), Tehran, 1318/1939
6. Mozakerat-e Məcles-e Şoura-ye Melli-ye doure-ye əvvəl (*Birinci dövrə Milli Şura Məclisinin protokolları*), Tehran, 1325/1946
7. Rusiya xarici siyasət arxivi (RXSA)
8. Sov. İKP XXVI qurultayının materialları, Bakı, 1981
9. Sov.İKP MK nəzdində MLİ Azərbaycan filialının partiya arxivi
10. Sov.İKP MK nəzdində MLİ Gürcüstan filialının partiya arxivi
11. SSRİ EA Şərqşünaslıq İnstitutunun nəzdində şərqşünaslar arxivi
12. SSRİ Xarici Siyasət Arxivi (SSRİ XSA)
13. SSRİ Mərkəzi Dövlət Tarix Arxivi (SSRİ MDTA)
14. Документы из архивов царского и временнного правительства, 1878-1917, seriya. III, t. III, Международные отношения в эпоху империализма, М,, 1933, No18
15. Известия Министерства иностранных дел, СПб, книга III, 1913, Петроград
16. Известия Министерства иностранных дел, СПб, книга IV, 1914, Петроград
17. Сборник дипломатических документов, касающихся событий в Персии (СДД), вып. I, 1911

**II. Monoqrafiya və məqalələr.**

***a) Azərbaycan dilində***

1. A.Bakıxanov. Gülüstani-İrəm, Bakı, 1951
2. Azərbaycan ədəbiyyatı tarixi, 2-ci cild, Bakı, 1960
3. Azərbaycan Kommunist Partiyasının tarixi, I hissə, Bakı, 1958
4. Azərbaycan tarixi, I cid, Bakı, 1961
5. Azərbaycan tarixi, II cild, Bakı, 1964
6. Azərbaycanın Rusiya ilə birləşdirilməsi və onun mütərəqqi, iqtisadi və mədəni nəticələri, Bakı. 1956
7. Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917), Bakı, 1985
8. Ə.İ.Şəmidə. İranda fəhlə və həmkarlar hərəkatı (1941-1946), Bakı, 1961
9. Əvəz Sadıq. "Təbriz teatrı tarixindən", Seçilmiş əsərləri, Bakı, 1971
10. Əziz Mirəhmədov. Azərbaycan Molla Nəsrəddini, Bakı, 1980
11. Firudin Köçərli. Nəriman Nərimanov, Bakı, 1965
12. Görkəmli inqilabçı Səttarxan, Bakı, 1972
13. H.Hatəmi. Mühaчir İran qəzetlərinin müstəmləkəçilik və imperializm əleyhinə mübarizəsi. Bakı, 1964.
14. H.Məmmədzadə. M.F.Axundov və Şərq, Bakı, 1971
15. Karl Marks. Kapital, III cild, Bakı, 1960
16. Q.Məmmədli. Xiyabani, Bakı, 1949
17. M.A.Dadaşzadə. 1905-1911-ci illər İran inqilabı ərəfəsində İran Azərbaycanında kəndlilərin istismar edilməsi haqqında "Azərbaycan SSR EA Xəbərləri" (ictimai elmlər seriyası), 1959, №5
18. M.Ə.Musayev. XIX əsrdə Bakı şəhərinin ticarəti (1800-1883), Bakı, 1966
19. M.F.Axundov. Əsərləri, 2-ci cild, Bakı, 1961
20. M.F.Axundov. Əsərləri, 3-cü cild, Bakı, 1955
21. M.İsmayılov. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı, Bakı, 1960

22. Mir Cəfər Pişəvəri (Cavadzadə Xalxali). Seçilmiş əsərləri (*əski əlifbada*), 1965

23. Nəbati. Əsərləri, Azərbaycan SSR EA Nəşriyyatı, Bakı, 1968

24. Ş.Ə.Tağıyeva. XIX əsrin sonu və XX əsrin əvvəllərində İranda kəndlilərin vəziyyəti, Bakı, 1969

25. Ş.Ə.Tağıyeva. XIX əsrin sonu və XX əsrin əvvəllərində İranda torpaq mülkiyyəti formaları və torpaqdan istifadə qaydaları, Bakı, 1964

26. Ş.Ə.Tağıyeva. Nəriman Nərimanovun 1905-1911-ci illər İran inqilabı ilə əlaqədar fəaliyyəti haqqında, "Azərbaycan SSR EA Xəbərləri" (tarix, fəlsəfə və hüquq seriyası), 1973, No 3

27. T.İbrahimov (Şahin). İranda siyasi cəmiyyət və təşkilatların yaranması və onların fəaliyyəti (1858-1906), Bakı, 1967

28. Vidadi Mustafayev. Cənubi Azərbaycan məsələsinin öyrənilməsi, Bakı, "Nurlar", 2002

***b) Azərbaycan dilində** (əski əlifbada)*

1. Pavloviç S. İranski. İran istiqlaliyyət mübarizəsi uğrunda, Bakı, 1926 (*əski əlifbada*)

2. Rene Qruste. Asiyanın oyanması. İngilis imperializmi və xalqların qiyamı (tərcümə), Bakı, 1928 (*əski əlifbada*)

***c) İngilis dilində***

1. A.K.S.Lambton. The Tobasso Regie: Prelude to revolution, - "Studia Islamica", No XXII, le 30 Septembre, 1965

2. Ann K.S.Lambton. Landlord and Peasant in Persia, London – New-York - Toronto, 1952

3. Bharier Julian. Economik Development in İran 1900 - 1970, London - New-York - Toronto, 1971

4. Correspondense Respecting the Persian Tobacco Consession. Presented to Both Houses of Parliament by Command of Her Majesty, London, of une, 1892

5. E.Browne. The Press and Poetry of Modern Persia, Cambrige, 1914

6. Edward Browne. The Persian Revolution of 1905-1909. Cambridge, 1910

7. G.N.Curzon. Rersia and the Persian question. London – New-York, I vo1, 1892

8. G.N.Curzon. Rersia and the Persian question. London – New-York, II vo1., 1892

9. J.B.Frasser. Narrative of a Journey into Khorasan in the years 1821 and 1822, London, 1825

10. Stuart Swiny. Survey in North-West Iran (*İranın şimal-qərbinə aid araşdırma*), 1971, - "East and West" New-Stries, 1975, vo1. 25. No 1-2, March –June

11. Tom Fo1ey. Azerbaijani's role in the Iranian revolution, - "Daily World", Friday, February 23, 1979

***d) Rus dilində***

1. О.П.Щеглова. Иранская литографированная книга, М.,1979.

2. А.А.Собоцинский. Персия. Статистико-экономический очерк, СПб., 1913

3. А.Врезский. Персия, Военно-статистический сборник, вып.III, СПб., 1868

4. А.Г.Подольский. Реформы Амир-Низама (1848-1851), канд. дисс., МГУ, 1949

5. А.Далили. Исторический очерк Урмийского ханства, автореферат канд. дисс. Баку, 1968

6. А.И.Шамиде. Гейдар Ами оглы, Баку, 1973

7. А.М.Габибов. Внутриполитическое положение Иранского Азербайджана в период первой мировой войны (1914-1918), автореферат, Баку, 1970

8. А.М.Матвеев. Иранские революционные организации в Средней Азии в начале XX века., - «Народы Азии и Африки», № 2, 1961

9. А.М.Матвеев. Социально-политическая борьба в Астрабаде. Ташкент, 1957

10. А.С.Пушкин. Полное собрание сочинений, т. III, М., 1957

11. А.С.Сумбатзаде. Прогрессивные экономические последствия присоединения Азербайджана к Росии в XIX в. (без нефтяной промышленности), Труды Ин-та истории и философии АН Азерб.ССР, т. V, 1954

12. А.С.Сумбатзаде. Рост торгового земледелия в Азербайджане XIX в. (К вопросу о развитии российского капитализма вширь); «Вопросы истории», 1958, №4, səh. 114-126

13. А.С.Сумбатзаде. Сельское хозяйство Азербайджана в XIX в., Баку, 1958

14. Артаманов. Персия как наш противник в Закавказье, Тифлис, 1889

15. Арутюнян. Энджумены в иранской революции 1905-1911 гг., Ереван, 1955

16. Атрпет. Бабизм и бехаизм, Тифлис; 1910

17. Атрпет. Имамат, Александрполь, 1909

18. В.Берар. Персия и пепрсидская смута, 1912

19. В.Бобынин. Персы, ее экономическое положение и внешняя торговля (1901-1923 гг), Тифлис, 1923

20. В.Бороздна. Краткое описание путешествии Российско-императорского посольства в Персию в 1817 году, СПб., 1821

21. В.Глуходед. Проблемы экономического развития Ирана, М., 1968

22. В.К.Чернозубов. Страна льва и солнца, Военный сборник. 1908. № 9. С. 193–216; № 10. С. 177–214; № 11. С. 193–212; № 12. С. 207–234; 1909. № 6. С. 169–180; Военный сборник. 1913. № 7. С. 169–178; № 8. С. 171–174; № 9. С. 165–182; № 10. С. 163–170; № 11. С. 129–142.

23. В.Минорский. Отчет о поездкев Макинское ханство. Материалы по изучению Востока, 1909, вып.I

24. В.Н.Левиатов. Очерки из истории Азербайджана в XVIII веке, Баку, 1948

25.В.Потто. Кавказская война в отдельных очерках, эпизодах, легендах и библиографиях, т.3, вып.4, СПб., 1887

26.В.Триа. Кавказские социал-демократы в персидской революции. Париж, 1910

27.Военно-статистический сборник, вып. III., СПб., 1868

28.Г.Друвиль. Путешествие в Персию в 1812 и 1813 годах, ч.1

29.Г.Н.Ильинский. Аграрные отношения в Иране в конце XIX - начале XX века. Ученые записки Института востоковедения АН СССР, т.VIII, 1953

30.Г.Прейфер. Путешествие по Индии и Персии в страну душителей и огнепоклонников с описанием всех замечательных памятников и древних развалин, М., 1879

31.Гагемейстер. О европейской торговле в Турции и Персии, «Журнал мануфактур и торговли», 1838, № 1

32.Гюрза. Экономическое положение персидского Азербайджана, журнал «Ближний Восток», № 1, 1930

33.З.Абдуллаев. Промышленность и зарождение рабочего класса Ирана, Баку, 1968

34.З.Д.Завриев. Ревандузская дорога, журнал «Народное хозяйство Закавказья», № 9, 1930

35.И.А.Огранович. Поездка в Персию в 1836 году, «Военный сборник», 1866, т.52, отд.2, № 11

36.И.А.Огранович. Провинции Ардебильская и Серабская, Тифлис, 1876

37.И.В.Стригунов. Из истории формировании Бакинского пролетариата (70-90-е годы XIX в.), Баку, 1960

38.И.Н.Березин. Путешествие по Востоку. Путеществие по северной Персии, ч. II, Казань, 1852

39.И.Н.Березин. Сцены в пустыне. В каравансарае, «Русский вестник», т. 25 кн. 2, 1860

40.И.Ф.Бларамберг. Воспоминания, М., 1978

41.И.Ф.Бларамберг. Статистическое обозрение Персии, СПб., 1852

42.Из культуры средних веков и Возрождения, М., 1976

43.К.Артаманов. Северный Азербайджан, ч.I, Тифлис, 1890

44.К.Артамонов. Северный Азербайджан, ч.II, Тифлис, 1890

45.К.Маркс и Ф.Энгельс. Соч., изд. II, т. 22 М., 1962

46.К.П.Матвеев (Бар - Маттай), И.И.Мар-Юханна. Ассирийский вопрос во время и после первой мировой войны, М., 1968

47.Кавказский календарь на 1917 г., Тифлис, 1916

48.Л.Богданов. Персия в географическом, религиозном, бытовом, торгово-проимышленном и администартивном отношении, СПб., 1909

49.Л.В.Строева. Борьба иранского народа против английской табачной монополии в Иране в 1891-1892 гг., - «Проблемы истории национального-освободительного движения в странах Азии». Издательство Ленинградского Университета, 1963

50.Л.М.Кулагнина. Экспансия английского империализма в Иране в конце XIX - начале XX в., М. 1981

51.Л.С.Фришман. О феодальных отношениях у иранских племен. Ученые записки Казахского Государственного Университета, т.20, 1956

52.Л.Ф.Тигранов. Из общественно-экономических отношений в Персии, Тифлис, 1905

53.М.А.Дадашзаде. Аграрные отношенин в Южном Азербайджане накануне Иранской революции 1905-1911 гг., Автореферат канд. диссертации, Баку, 1960

54.М.А.Исмаилов. Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX и начале XX вв., Баку, 1964

55.М.Казиев. Нариман Нариманов, Баку, 1970

56.М.С.Иванов. Бабидские восстания в Иране. М. - Л., 1939

57.М.С.Иванов. Иранская революция 1905-1911 годов. М., 1957

58.М.С.Иванов. Новые материалы о социал-демократической группе в Табризе в 1908, «Проблемы востоковедения», 1959, № 5

59.М.С.Иванов. Очерк истории Ирана, М.: Госполитиздат, 1952

60.М.Томара. Экономическое положение Персии, СПб, 1895, səh.165-167; «Бюллетень прессы Среднего Востока», Ташкент, 1931, № 10-11

61.Максимович-Васильковский. Отчет о поездке по губернаторствам Западной Персии, Тифлис, 1905, ч.II

62.Мирза Казем-Бек. Баб и бабиды. Религиозно-политические смуты в Персии в 1844-1852 годах, СПб, 1865

63.Н.А.Гасанов. Революционное движение в Тебризе в 1905-1911 гг., Автореферат док. дисс. Баку, 1975

64.Н.К.Белова. К вопросу о так называемой социально-демократической партии Ирана. «Вопросы истории и литературы стран зарубежного Востока», М., 1960

65.Н.К.Белова. Об отходничестве из северо-западного Ирана в конце XIX - начале XX вв., «Вопросы истории», 1956, № 10

66.Н.Курмаков. Торговые и промшленные интеерсы России на нашем Ближнем Востоке в связи с постройкой персидских дорог, СПб., 1901

67.Н.П.Мамонтов. Очерки современной Персии, СПб., 1909

68.Национальные проблемы современного Востока (Сборник статей), М., 1977

69.Национальные процессы в странах Ближнего и Среднего Востока. М., 1980

70.Неизвестный автор (Н.Т.). Письма русского из Персии, ч. II, СПб., 1844

71.Неизвестный автор (Н.Т.). Подробное описание Персии и государства Кабула, Сеистана, Синди, Бальха, Белуджистана, земли Хорасана, также Грузии и персидских провинций, присоединенных к России, ч. I, М., 1829

72.Новая история стран зарубежного Востока

73.О некоторых статьях торговли в Персии. «Журнал мануфактур и торговли», 1843, №8

74.Описание областей Азербайджанских в Персии и их политического состояния сделанное пребывающим при его Высочестве Царя Картелинском и Кахетинском Ираклии Темуразовиче Полковником Ковалером Бурнашевым в Тифлисе в 1786 г., Курск, 1793

75.П.А.Риттих. Железнодорожный путь через Персию. СПб, 1900

76.П.А.Риттих. Политико-статистический очерк Персии, СПб., 1896

77.П.И.Аверьянов. Ф.Шкинский. Отчет о поездке по Северному Азербайджану в конце 1899 г., Тифлис, 1900

78.П.Огородников. Очерки Персии, СПб, 1878

79.П.Ограмович. Поездка в Перси.1863 году, «Военный сборник», 1866, т.52, отд.2, №11

80.Путевые заметки о персидских городах Мараге, Миан-дуабе и Соуч-булаге. «Известия штаба Кавказского военного округа», №17-18, 1906

81.Р.А.Сеидов. Иранская буржуазия в конце XIX - начале XX в., М., 1974

82.С.М.Алиев. К вопросу о связях Бакинского и Тифлисского комитетов РСДРП с иранскими революционерами в 1903-1911 гг. – Славные страницы борьбы и побед, Баку, 1965

83.С.Мюллер. Торговля и промышленность Азербайджана. "Известия Министерства иностранных дел", СПб, 1912, кн.IV

84.Состояние торговли в Персии. журн. «Вестник промышленности», т VII, №3, 1860

85.Ф.Бакулин. Очерки торговли с Персиею. Азербайджан. Мазандеран. Астерабад, СПб., 1875

86.Ф.Корф. Воспоминания о Персии, 1834-1835, СПб., 1838

***e) Fars dilində***

1. Abbas Eskəndəri. Ketab-e arezu və ya tarix-e məşrute-ye İran (*Arzu kitabı və ya İranın məşrutə tarixi*), cild 2, Tehran, 1320/1941
2. Abbas İqbal. Tarix-e mofəssəl-e İran əz estila-ye moğol ta enqeraz-e Qacariye (*İranın Monqol istilasından Qacarların süqutuna qədər olan tarixi*), Tehran, 1320/1941
3. Ağa Mirza [Məhəmməd] Bağır Xalxali.Sələbiyye, Təbriz, 1312 h.q./1894
4. Ayətulla Şeyx Rza Zəncani. Təhrim-e tənbaku (*Tənbəki qadağası*), Tehran, 1322/1943
5. Cəmşid Ərdəşir Əfşar. Eşq-e ərğəvani (*Bənövşəyi eşq*), Tiflis, 1332
6. Cəmşid Ərdəşir Əfşar.Touq-e lənət (*Lənət damğası*), Tiflis, 1333
7. Daneşvər Ələvi.Tarix-e məşrute-ye İran və conbeş-e vətənpərəstan-e Esfehan və Bəxtiyari (*İran məşrutə tarixi və İsfahan və Bəxtiyari vətənpərvərlərinin hərəkatı*), Tehran, 1335/1956
8. Eduard Braun. Enqelab-e İran (*İran inqilabı*), Tehran, 1338/1959
9. Eduard Braun. Tarix-e mətbuat və ədəbiyyat-e İran dər doure-ye məşrutiyyət (*Məşrutə dövründə İranın mətbuat və ədəbiyyat tarixi*), cild 2, Tehran, 1337/1958
10. Esmael Əmirxizi. Qiyam-e Azərbaycan və Səttarxan (*Azərbaycan üsyanı və Səttarxan*), Təbriz, 1339/1960
11. Esmail Rain. Əncomənha-ye serri dər enqelab-e məşrutiyyət-e İran (*İran məşrutə inqilabında gizli əncümənlər*), Tehran, 1345/1966
12. Əbdürrəhim ibn Şeyx Əbu Talib ibn Əlimurad Nəccar Təbrizi. Məsayel-e əl-həyat ya ketab-e Əhməd, Tiflis, 1324 h.q./1906
13. Əbdürrəhim Talıbov. İzahat dər xosus-e azadi (*Azadlıq haqqında izahat*), Tehran, 01.12.1324 h.q./05.01.1908
14. Əbdürrəhim Talıbov.Məsalek əl-mohsenin, Qahirə, 1303

15.Əhməd Kəsrəvi. Tarix-e hicdəh sale-ye Azərbaycan (*Azərbaycanın on səkkiz illik tarixi*), Tehran, 1333/1954

16.Əhməd Kəsrəvi. Tarix-e məşrute-ye İran (*İranın konstitusiya tarixi*), cild 3, Tehran, çap-e çəharom/4-cü çapı, 1322/1943

17.Əli Azəri. Kolnel Məhəmmədtəqi xan Pesyan dər qiyam-e Xorasan (*Polkovnik Məhəmmədtağı xan Pesyan Xorasan üsyanında*), Tehran, 1329/1950

18.Əli Azəri. Qiyam-e Şeyx Məhəmməd Xiyabani dər Təbriz (*Təbrizdə Şeyx Məhəmməd Xiyabani üsyanı*), Tehran, 1329/1950

19.Əli Divsalar (Salar-e Fateh). Yaddaştha-ye tarixi race be fətf-e Tehran (*Tehranın fəthinə aid tarixi qeydlər*), 1337/1958

20.Əli Əsğər Şəmim. İran dər doure-ye səltənət-e Qacar, Tehran 1342/1963

21.Fəzlullah Mehtədi Sobhi. Peyam-e pedər (*Atanın ismarıcı*), Tehran, 1334/1955.

22.Firidun Adəmiyyət. Əmir Kəbir və İran ya vərəqi əz tarix-e siyasi-ye İran (*Əmir Kabir və İran və ya İran siyasi tarixindən bir vərəq*), qesmət-e əvvəl/ I hissə, Tehran, 1323/1944

23.Gəncine-ye daneş. Təlif-e Motəmedüssoltan Mirza Yusif xan Mostəşarüddoule (*Mütəmədüssoltan Mirzə Yusif xan Müstəşarüddövlə. Bilik xəzinəsi*), Tehran, 1318 h.q./1900

24.H.Həllac. Tarix-e nehzət-e İran (*İran hərəkatının tarixi*), Tehran, 1312/1933

25.Hacı Seyid Rəfiəddin Təbatəbai Təbrizi. Hoquq-e dəvəl və meləl (*Dövlətlərin və Millətlərin hüquqları*), Təbriz, 1312

26.Hanri Rene D. Aleman, Səfərname əz Xorasan ta Bəxtiyari moştəmel bər tərz-e zendegi, adam və rosum, ouza-e edari, ectemai, eqtesadi, fəlahəti və sənaye-e İran əz zəman-e qədim ta payan-e səltənət-e Qcariyye (*Xorasan əyalətindən Bəxtiyariyə qədər olan ərazidə qədim dövrlərdən Qacar sülaləsi hakimiyyətinin sonuna qədər İranın həyat tərzi, adətləri, inzibati, sosial, iqtisadi, kənd təsərrüfatı və sənaye vəziyyətinə haqqında Səfərnamə*), Tərcüməçi: Humayun, Tehran, "İbn Sina – Əmir Kəbir", 1335/1956

27.Həsən bin Əli əl-Məraği Etimadüssəltənə. Kadastre (*Kadastr*), 1307/1928

28.Hoseyn Omid. Tarix-e fərhəng-e Azərbaycan (*Azərbaycan mədəniyyət tarixi*), cild 1,Təbriz, 1332/1953

29.Hoseyn Omid. Tarix-e fərhəng-e Azərbaycan (*Azərbaycan mədəniyyət tarixi*), cild 2, Təbriz, 1333/1954

30.İbrahim Səfai. Əsnad-e siyasi-ye douran-e Qacariye (*Qacar dövrünün siyasi sənədləri*), Tehran, 1346/1967

31.İbrahim Teymuri. Əsr-e bixəbəri ya tarix-e emteyazat dər İran (*İranda cəhalət dövrü və ya imtiyazlar tarixi*), Tehran, "İqbal", 1332/1953

32.İbrahim Teymuri. Qərardad-e 1890 reji. Təhrim-e tənbaku (*1890-cı il imtiyazı. Tənbəki qadağası*), Tehran, 1328/1949

33.Ketab-e abi. Moraselat və moxaberat dər bab-e ouza-e İran (*İrandakı vəziyyətə dair yazışmalar və teleqraflar*), No1 1906-1913-cü illər (tərcümə), Tehran, 1913

34.Ketab-e mostətab. Çera be in cəhət (*Dəyərli kitab. Nə üçun? Ona görə ki...*), Tehran, 1318 h.q./1900.

35.Kərim Tahirzade Behzad. Qiyam-e Azərbaycan dər enqelab-e məşrutiyyət-e İran (*İran məşrutə inqilabında Azərbaycan üsyanı*), 1334/1955

36.Mahmud Mahmud. Tarix-e rəvabet-e İran və Engilis dər qərn-e nuzdəhom-e miladi (*XIX əsrdə İran-İngiltərə münasibətləri tarixi*), cild 7, 1331/1952, Tehran

37.Mehdi Bamdad. Tarix-e recal-e İran (*İranın məşhur simalarının tarixi*), cild 2, Tehran, 1347/1968

38.Mehdi Məlikzade. Tarix-e enqelab-e məşrutiyyət-e İran (*İran məşrutə inqilabı tarixi*), cild 3, Tehran, 1330/1951

39.Mehdi Məlikzade. Tarix-e enqelab-e məşrutiyyət-e İran (*İran məşrutə inqilabı tarixi*), cild 2, Tehran, 1329/1950

40.Mehdi Moctəhedi. Tarix-e zendeqani-ye Təqizade (*Tağızadənin həyat tarixi*), Tehran, 1322/1943

41.Mehdiqulu Hidayət (Moxbirossəltəne). Xaterat və xətərat (*Xatirələr və təhlükələr*), Tehran, 1329/1950

42. Məhəmməd Sədr Haşemi. Cərayed və məcəllat-e İran (*İranın mətbuat tarixi*), cild 1, Esfehan, 1327/1948
43. Məhəmməd Sədr Haşemi. Tarix-e cərayed və məcəllat-e İran (*İran mətbuat tarixi*), cild 3, İsfahan, 1329/1950
44. Məhəmməd Sədr Haşemi. Tarix-e cərayed və məcəllat-e İran (*İran mətbuat tarixi*), cild 4, İsfahan, 1332/1953
45. Məhəmməd Təqi Lisanülmülk Sepehr. Nasex əl-Təvatix-e tarix-e Qacariyye (*Qacar tarixi*), 9 cilddə, Tehran, 1337/1958
46. Məhəmmədbağır Veycuyeyi. Bəlva-ye Təbriz (*Təbriz üsyanı*), 1324 qəməri/1906 miladi ili
47. Məhəmmədəli Cəmalzade. Gənc-e şayqan ya ouza-ye eqtesadi-ye İran (*Böyük xəzinə və ya İranın iqtisadi vəziyyəti*), Berlin, 1335/1956
48. Məhəmmədhəsən xan Etimadüssəltənə. Əl-maser və əl-asar (*Təsirlər və nəticələri*), Tehran, 1306/1927
49. Məxzənül vəqaye. Şərh-e məmuriyyət və mosaferətm Fərrux xan Əminoddoule. Təlif: Hoseyn bin Abdulla Sərabi (*Hüseyn bin Abdulla Sərabi. Hadisələr toplusu. Fərrux xan Əminəddövlənin missiyası və səyahətinin təsviri*), Tehran, 1344/1965
50. Məsud Keyhan. Coğrafiya-ye mofəssəl-e İran (*İranın müfəssəl coğrafiyası*), cild 2, Tehran, 1311/1932
51. Mirza Həsən xan Şeyx Cabəri Ənsari. Tarix-e Esfehan və Rey *(İsfahan və Rey tarixi*), 1322/1943
52. Mirza Hüseyn xan. Tarix-e omumi (*Ümumi tarix*), Tehran, 1323/1944
53. Mirza Məhəmməd Təği Lisan əl-Mülk Sepehr. Nasix əl-təvarix döure-ye kamel-e tarix-e Qacariye (*Qacar tarixinin tam dövrünün salnamələri*), Tehran, 1337/1958, cild 2
54. Mirza Yəhya Doulətabadi. Həyat-e Yəhya və ya tarix-e moaser-e İran (*Yəhyanın həyatı və ya müasir İran tarixi*), cild 2, Tehran, 1328/1949
55. Mirza Yusif xan Mostəşaroddoule. Yek kələme (*Bir söz*), Tehran, 1325 h.q./1907

56. Mirzağa Təbrizi. Pənc nəmayeşname (*Beş tamaşa*), Tehran, 2535/1976

57. Movərrexəddoule Sepehr. İran dər cəng bozorg (*İran böyük müharibədə*), Tehran, 1336/1957

58. Mötəmedüssoltan Səniüddövlə Məhəmmədhəsən xan. Tarix-e montəzem-e Naseri (*Nizamlı Nasiri tarixi*),1298/1919

59. Nader Mirza. Tarix və coğrafiya-ye darossəltəne-ye Təbriz (*Təbriz şah sarayının tarixi və coğrafiyası*), Tehran, 1314/1935

60. Name-ye Naderi. Tərcome-ye ketab-e teatr-e Nəriman Nərimanov əz zəban-e torki, motərcem Tacmah Afaq-ud-doule (*Nadirin məktubu. Nəriman Nərimanovun teatr kitabının türk-Azərbaycan dilindən tərcüməsi, tərcüməçi: Tacmah Afaq-üd-dövlə*), 1324

61. Nazimülislam Kermani. Tarix-e bidari-ye iraniyan (*İranlıların oyanış tarixi*), çap-e dovvom/ikinci çap, 1332/1953

62. Nətayec-e sərşomari-ye omumi-ye nofus və məskən (*Əhalinin ümumi siyahıya alınmasının nəticələri*), 2535/1976

63. Osul-e elm-e sərvət ya ekonomi-ye politik. Tərcome və neqareş: Mirza Məhəmmədəli xan Zəkaülmülk(*Sərvət elminin prinsipləri və ya siyasi iqtisad*), Tehran 1323/1944

64. Rabert Qrant Vatson. Tarix-e Qacar (*Qacar tarixi*), Tərcome-ye Abbas Azəri, Tehran, 1340/1961

65. Rəhim Rzazadei Məlek. Çekide-ye enqelab-e Heydər xan Əmioğlu (*Heydər xan Əmioğlu inqilabının xülasəsi*), Tehran, 1351/1972

66. Seyid Həsən Təqizade Təbrizi. Təhqiq-e əhval-e konuni-ye İran ya mohakemat-e tarixi (*İranın hazırkı vəziyyətinin tədqiqi və ya tarixi mühakimələr*), Qahere, 1323/1944

67. Şeyx İbrahim Zəncani. Rah-e zendeqani (*Həyat yolu*), Tehran, 1333/1954

68. Şərh-e hal və eqdamat-e Şeyx Məhəmməd Xiyabani (*Şeyx Məhəmməd Xiyabaninin tərcümeyi -halı və fəaliyyəti*), Berlin, 1304/1925

69. Tarixçe-ye si sale-ye Bank-e Melli-ye İran (*İran Milli Bankının otuz illik tarixçəsi*), 1307-1337/1928-1958, Tehran, 1338/1959

70. Tərcome-ye tarix-e Təbəri be enşa-ye Əbu Məhəmməd Biləmin (*Əbu Məhəmməd Balaminin Təbəri tarixinin tərcüməsi*), Tehran, 1344/1965

**III. Dövri mətbuat.**

1. “Açıq söz” qəzeti
2. “Azərbaycan” jurnalı (*əski əlifbada*), Bakı
3. “Azərbaycan” jurnalı, Təbriz
4. “Azərbaycan” qəzeti
5. “Azərbaycan” qəzeti (*əski əlifbada*), 13 mart 1968-ci il
6. “Bəsirət” qəzeti
7. “Dədə Qorqud” jurnalı
8. “Ehtiyac” qəzeti, Təbriz
9. “Ettelaat” qəzeti
10. “Əncümən” qəzeti, Təbriz
11. “Fəryad” qəzeti, Urmiya
12. “Günaydın” qəzeti
13. “Həblülmətin” qəzeti
14. “İqbal” qəzeti
15. “İnqilab yolunda” jurnalı, No 11, 5 may 1981
16. “İrane-nou” qəzeti, Tehran
17. “İrşad” qəzeti
18. “Kamal” qəzeti (Qahirə nəşri)
19. “Kaspi” qəzeti
20. “Kave” jurnalı
21. “Keyhan” qəzeti, 28 mart 1979-cu il;
22. “Kommunist” qəzeti
23. “Kommunist” qəzeti (*əski əlifbada*)
24. “Qanun” qəzeti
25. “Suri-İsrafil” qəzeti
26. “Sürəyya” qəzeti
27. “Tazə həyat” qəzeti, Bakı

28. “Təcəddüd” qəzeti,
29. “Tofiq” qəzeti
30. “Yeni fikir” qəzeti
31. “Yeni İqbal” qəzeti (*əski əlifbada*)
32. “Yoldaş” jurnalı, 8 ordibehişt, 1358 (*28 aprel 1979*), No 8
33. “Журнал мануфактур и торговли», №8, 1848
34. «Баку» qəzeti
35. «Журнал мануфактур и торговли», №5, 1832
36. «Заря Востока» qəzeti
37. «Известия Советов рабочих и солдатских депутатов гор. Тифлиса» qəzeti
38. «Кавказ» qəzeti
39. «Кавказская копейка» qəzeti,
40. «Кавказский телеграф» qəzeti
41. «Кавказское слово» qəzeti
42. «Тифлисский листок» qəzeti

# M Ü N D Ə R İ C A T


Məsul redaktordan ........................................................................ 3
Cənubi Azərbaycana aid tədqiqatlar barədə bir neçə söz…
(*Ön söz əvəzi*) .............................................................................. 5
Müqəddimə ....................................................................................... 11

***I bölmə. Cənubi Azərbaycan XIX əsrdə***

**I fəsil. Cənubi Azərbaycan XIX əsrin ortalarında** ........................ 24
1. İqtisadi vəziyyət ........................................................................... 24
Kənd təsərrüfatı və sənətkarlıq ....................................................... 26
Daxili və xariçi ticarətin vəziyyəti.Şimali Azərbaycanla
ticarət əlaqələri .................................................................................
2. İctimai-siyasi quruluş ..................................................................... 39
İctimai quruluş, kənd və şəhərlərdə sinfi münasibətlər .................. 39
İnzibati-siyasi quruluş. Şah hakimiyyətinin və yerli
xanların ikiqat zülmü ........................................................................ 49
3. Azərbaycanda Babilər hərəkatı ...................................................... 56

**II fəsil. Cənubi Azərbaycan XIX əsrin son rübündə** ....................... 62
1. İqtisadiyyat ................................................................................... 62
İranın yarımmüstəmləkəyə çevrilməsi və Cənubi
Azərbaycanda xarici kapitalın nüfuzunun artması .......................... 62
Kənd təsərrüfatının vəziyyəti ........................................................... 64
Sənayenin vəziyyəti .......................................................................... 68
Ticarət ................................................................................................ 74
2. Aqrar münasibətlər və kəndlilərin vəziyyəti ................................. 83
Torpaq mülkiyyəti formaları. Kənddə feodal asılılığı
münasibətlərinin hakim olması ......................................................... 83
Dövlət vergi sistemi və kəndlilər ..................................................... 101
Ticarət sələm kapitalının güclənməsi və onun tüfeyli
xarakteri. Xarici kapitalın Cənubi Azərbaycan
kəndinə nüfuzu ................................................................................ 104
Kəndlilərin ağır vəziyyəti. Xaricə kütləvi kəsbkarlığın
başlanması ....................................................................................... 109
3. Şəhərlərdə sosial vəziyyət ............................................................. 119
4. Siyasi vəziyyət və sinfi münasibətlər ........................................... 124

Şah üsuli-idarəsi və yerli feodalların hökmranlığının davam etməsi ........ 124
Geniş xalq kütlələrinin narazılığı və istismarçılara qarşı sinfi mübarizənin formaları. İmperializmə qarşı ilk çıxış ........ 130

*II bölmə. Cənubi Azərbaycan XX əsrin əvvəllərində*

**III fəsil. 1905-1911-ci illər İran inqilabının Cənubi Azərbaycanda gedişi** ........ 144
1. İran inqilabının sosial-iqtisadi və siyasi zəmini. İnqilab ərəfəsində Cənubi Azərbaycanda siyasi vəziyyət ........ 144
2. 1905-1911-ci illər İran inqilabının başlanması ........ 158
3. Cənubi Azərbaycanda inqilabi çıxışların başlanması ........ 164
4. Cənubi Azərbaycan-İran inqilabının mərkəzi ........ 191
5. Xaricdə yaşayan iranlıların və qonşu xalqların Cənubi Azərbaycan inqilabçılarına yardımı ........ 207
6. Əksinqilabın Təbriz üzərinə yeni hücumları. Xarici müdaxilə ........ 218
7. Konstitusiyanın bərpası və əncümənlərin Cənubi Azərbaycan vilayətlərində möhkəmlənməsi ........ 222
8. İnqilab qüvvələrinin tərk-silah edilməsi ........ 225
9. Xarici və daxili əksinqilabın yeni hücumları və inqilabın yatırılması ........ 231

**IV fəsil. Cənubi Azərbaycan 1912-1917-ci illərdə** ........ 240
1. Birinci Dünya müharibəsi ərəfəsində sosial-iqtisadi və siyasi vəziyyət ........ 240
2. Cənubi Azərbaycan Birinci Dünya müharibəsi dövründə (1917-ci ilin Oktyabr ayınadək) ........ 247

**V fəsil. XIX-XX əsrin əvvəllərində Cənubi Azərbaycanda mədəniyyətin inkişafı** ........ 267
1. Maarif ........ 281
2. Çap işi və mətbuat ........ 297
3. Ədəbiyyat ........ 326
4. İctimai-siyasi fikir ........ 358

Istifadə olunmuş ədəbiyyat siyahısı ........ 398

Kompüter tərtibçisi: *Rəvanə İlmanqızı*
Bədii tərtibat: *Şəlalə Məmməd*

Formatı 60x84 1/16
Həcmi 26 ç.v.
Tirajı 500
Qiymәti müqavilə əsasında

---

Kitab MİHAN MMC tərəfindən hazır
diapozitivlərdən istifadə olunmaqla
çap edilmişdir.